DÜNYA ƏDƏBİYYATI

RUS ƏDƏBİYYATI ANTOLOGİYASI

4Ц6(2)
R 88

RUS ƏDƏBİYYATI ANTOLOGİYASI

246921.

İKİ CİLDDƏ
II CİLD

(*Nəsr*)

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI-2007

Tərtib edənlər:

Rüstəm Kamal
Telman Vəlixanlı
Umud Rəhimoğlu

891.708-dc22
AZE
Rus ədəbiyyatı antologiyası. İki cilddə. II cild (nəsr). Bakı, "Avrasiya press", 2007, 408 səh.

İki cildlik "Rus ədəbiyyatı antologiyası"nın bu cildinə klassik və müasir rus nəsrinin tanınmış nümayəndələrinin əsərləri daxil edilmişdir.

Antologiya tərtib edilərkən son illərin tərcümələrinə üstünlük verilmişdir.

ISBN 978-9952-442-01-4

© "AVRASİYA PRESS", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

NİKOLAY MİXAYLOVİÇ KARAMZİN

(1766-1826)

ZAVALLI LİZA

(povest)

Moskvada yaşayanlardan ola bilsin ki, heç kəs bu şəhərin ətrafını mənim qədər yaxşı tanımır, çünki heç kəs mənim qədər tez-tez bu şəhərin ətrafındakı düzənliklərdə və çəmənliklərdə olmur, heç kəs mənim qədər piyada, plansız, məqsədsiz göz işlədikcə bu çəmənlərin və yaşıllıqların, bu dərələrin və təpələrin arasında gəzib dolaşmır. Mən hər yay bu şəhərin ətrafında gəzib dolaşır və özüm üçün yeni-yeni yerlər tapır, yaxud da gəzmiş olduğum köhnə yerlərdə yeni gözəlliklər kəşf edirəm.

Lakin gəzmiş olduğum bu yerlərin hamısından daha çox mənim xoşuma gələn və ürəyimə yatan üzərində Simonov monastırının qorxunc qotik qüllələri yüksələn yerdir. Bu hündür yerdən sağ tərəfdə, demək olar ki, bütün Moskva görünür, bu şəhərdəki evlərin və kilsələrin dəhşətli yığını insanın gözləri qarşısında əzəmətli bir amfiteatr kimi canlanır. Bu mənzərə xüsusilə o zaman daha gözəl olur ki, axşamüstü günəş batarkən öz şüalarını kilsələrin saysız-hesabsız qızılı qüllələrinin və göyə yüksələn qızıl xaçların üzərinə salır və onları parıldadır! Aşağıda qalın və sıx yaşıl otlaqlar görünür; onların ardında isə boz qumların o biri tərəfində suları balıqçı qayıqlarının avarları, rus imperiyasının bərəkətli ölkələrindən acgöz Moskvanı çörəklə doyuzdurmaq üçün gələn yelkən gəmilərinin sükanları altında dalğalanan parlaq çay axır. Çayın o biri sahilində palıd meşəsi vardır, onun yanında isə saysız-hesabsız sürülər otlayır. Orada ağacların kölgəsində oturan gənc çobanlar sadə, kədərli mahnılar oxuyur və bununla da çox yekrəng keçən yay günlərini özləri üçün bir qədər gödəldirlər. Bir qədər uzaqda

isə sıx yaşıllıqlar arasında Danilov monastırının qızıl günbəzi görünür. Daha o tərəflərdə isə, demək olar ki, lap üfüqün qurtaracağı yerdə Vorobyov dağları göyərir. Sol tərəfdə geniş taxıl zəmilərilə örtülmüş çöllər, meşələr, üç-dörd kənd və onlardan bir qədər də uzaqda Kolomensk kəndi və onun yüksək sarayı nəzərə çarpır.

Mən bu yerə çox tez-tez gəlirəm və demək olar ki, bahar fəslini də həmişə orada qarşılayıram; mən eyni zamanda payızın cansıxıcı və kədərli günlərində öz qəlbimdəki dərdləri unutmaq üçün və təbiətlə birlikdə yaşamaq üçün bu yerlərə gəlirəm. Burada boş qalmış monastırın divarları arasında, yan-yörəsində hündür otlar göyərmiş qəbirlərin arasında və monastırdakı monax otağına gedən qaranlıq yollarda indi külək qorxunc bir halda uğuldayır. Mən orada, bu qorxunc daşların və uçmuş divarların yanında dayanaraq keçmiş zamanın, əbədi surətdə ölüb getmiş həyatın dərin ahlarına qulaq asır və bu ahları xatırladıqca varlığım sarsılır, qəlbim titrəyir. Mən bəzən burada monax otağına daxil olur və vaxtilə orada yaşamış olan adamların həyatını öz təsəvvürümdə canlandırıram – doğrudan da çox kədərli bir mənzərədir! Mən burada İsanın çarmıxa çəkilmiş təsviri qarşısında diz çökən və özlərinin bu qış əzabından tezliklə qurtarmaları üçün Allaha yalvarıb dua edən ağsaçlı qocaları görürəm. Bu adamlar ona görə öz həyatlarını bu qış fəslindən qurtarmağa çalışırlar ki, onlar üçün həyatda artıq heç bir kef və əyləncə qalmamışdır, xəstəlik və zəiflik hissindən başqa onların bədənində mövcud olan bütün hisslər ölüb getmişdir. Budur, o tərəfdə üzü sarsılmış, gözləri tutqunlaşmış cavan bir monax pəncərənin dəmir barmaqlığından bayıra, düzlərə baxır və orada göylərin dənizində azad surətdə süzüb keçən şən quşları görür və bütün bunları gördükcə ağlayır, acı göz yaşları tökür. Bu cavan oğlan orada əzab çəkir, saralır, solur, monastırdan gələn zəng səsləri isə bu zaman onun vaxtsız ölümünü mənə xəbər verir. Bəzən məbədin qapıları üzərində çəkilmiş şəkillərə baxıram, bu şəkillərdə həmin monastırda baş vermiş möcüzələr – saysız-hesabsız düşmənlər tərəfindən mühasirəyə alınmış monastırda yaşayan adamlar üçün göydən balıqların atılıb gəlməsi, Məryəm ananın surətinin düşmənləri qaçmağa məcbur etməsi təsvir olunmuşdur. Bütün bunlar bizim vətənimizin tarixini, qudurmuş tatarlar və litvalılar Rusiya paytaxtının ətrafını od və qılıncla xarabazarlığa döndərdikləri, bədbəxt Moskva,

kimsəsiz bir dul qadın kimi öz acı dəqiqələrində yalnız bircə Allahdan kömək istədiyi o keçmiş vaxtların kədərli tarixi mənim təsəvvürümdə canlanır.

Lakin məni Simonov monastırının divarları yanına cəlb edib gətirən Lizanın, zavallı Lizanın bədbəxt taleyi haqqındakı xatirələrdir. Ah! Qəlbimi sızladan və incə bir kədərlə məni göz yaşları tökməyə məcbur edən hər şeyi bütün varlığımla sevirəm!

Monastır divarının yetmiş sajınlığında qayınağacı pöhrəliyinin yanında, yaşıl çəmənliyin ortasında qapısız, pəncərəsiz və döşəməsiz boş bir daxma vardır; daxmanın damı çoxdan çürümüş və tökülmüşdür. Liza öz qoca anası ilə birlikdə həmin daxmada yaşayırdı.

Lizanın atası çox varlı bir adam idi, çünki o işləməyi sevirdi, yaxşı yer şumlayır və həmişə də öz həyatını ağıl və düşüncə ilə idarə edirdi. Lakin o öldükdən sonra onun arvadı və qızı yoxsullaşdılar, muzdla tutulmuş başqa bir adam isə yeri çox pis becərirdi və buna görə də taxıl az olurdu. Onlar öz torpaqlarını çox cüzi bir pula icarəyə verməyə məcbur olmuşdular. Bununla birlikdə bədbəxt dul qadın, demək olar ki, həmişə öz ərinin ölümünə göz yaşı tökürdü, çünki axı kəndli arvadları da sevməyi bacarırlar! Buna görə də qadın gündən-günə zəifləyir və işləyə də bilmirdi. Təkcə Liza – atası öləndən sonra on beş yaşında yetim qalmış Liza öz gəncliyini, öz nadir gözəlliyini əsirgəmir, gecə-gündüz işləyir, çalışır kətan toxuyur, corab hörür, yazda gül-çiçək toplayır və yayda isə çiyələk yığaraq aparıb Moskvada satırdı. Çox həssas və xeyirxah bir qadın olan qoca anası qızının bu qədər yorulmadan işləyib çalışdığını gördükcə, tez-tez onu qucaqlayıb bağrına basır, onu Allahın payı, özü üçün ən böyük bir nemət və bu qoca vaxtında özünün ən yaxın sirdaşı adlandırır və Allaha dua edirdi ki, bu qızı öz anası üçün görmüş olduğu işlər üçün mükafatlandırsın.

Liza isə anasına deyirdi:

– Allah bu əlləri mənə onun üçün vermişdir ki, işləyim, mən kiçik bir uşaq ikən sən mənə döşlərindən süd vermisən və dalımca gəzib mənə göz olmusan, indi isə mənim növbəmdir, mən sənin dalınca gəzib sənə göz olmalıyam. Ancaq sən ağlayıb göz yaşı tökməkdən əl çək. Bizim göz yaşlarımız atamı diriltməyəcəkdir.

Lakin Liza bu sözləri deyərkən özü də çox zaman göz yaşlarını saxlaya bilmirdi. Ah! O xatırlayırdı ki, axı onun atası vardı və indi

o daha yoxdur; lakin anasını sakitləşdirmək üçün öz qəlbinin kədərlərini və dərdini gizlətməyə çalışır, özünü anasına sakit və şən göstərmək istəyirdi. Qoca anası isə kədərlənərək deyirdi:

– Sevimli Liza, mənim göz yaşlarım yalnız və yalnız o biri dünyada quruyacaqdır. Deyirlər ki, o dünyada hamı şad olacaqdır, mən də, doğrusu, sənin atanı görəndə şad olacağam. Lakin mən indi ölmək istəmirəm, çünki axı mən ölsəm, mənsiz sənin başına nələr gələr? Mən səni kimin öhdəsinə qoyub ölə bilərəm? Yox, Allah elə etsin ki, mən səni əvvəlcə bir yana çıxardım! Bəlkə də tezliklə nəcib bir adam gəlib çıxdı. Əgər elə bir adam tapılsa, onda mən sizə öz əziz övladlarım kimi xeyir-dua verib, Allaha şükür edər və sonra sakitcə ölüb bu nəm torpağın altına gedərəm.

Lizanın atasının ölümündən iki il keçdi. Çöllər gül-çiçəklə bəzəndi və Liza da bu gül-çiçəkdən toplayıb Moskvaya gəldi. O, küçədə yaxşı geyinmiş, gözəl görkəmi olan cavan bir oğlanla qarşılaşdı. Liza əlindəki gülləri ona göstərdi, amma özü də qızardı.

– Sən onları satırsanmı, ay qız? – deyə cavan oğlan təbəssümlə soruşdu.

– Satıram, – deyə Liza cavab verdi.

– Neçə istəyirsən?

– Beş qəpik.

– Bu çox ucuzdur. Al sənə bir manat verim.

Liza buna təəccüb etdi, cəsarətə gəlib cavan oğlanın üzünə bir də baxdı, ancaq o daha bərk qızardı və gözlərini yerə zilləyərək dedi ki, o bu bir manatı almayacaqdır.

– Nə üçün?

– Artıq pul mənə lazım deyildir.

– Mənə elə gəlir ki, gözəl bir qızın əllərilə dərilmiş gözəl güllər və çiçəklər elə bir manata dəyər. İndi ki, sən onu istəmirsən, buyur bu da sənə beş qəpik. Lakin mən istərdim ki, həmişə səndən gül alam, mən istərdim ki, sən bu gülləri dərib ancaq mənim üçün gətirəsən.

Liza gülləri verdi, beş qəpiyi aldı, baş əydi və getmək istədi; lakin bu naməlum adam onun əlindən tutub saxladı:

– Sən hara gedirsən, ay qız?

– Evə.

– Sizin eviniz haradadır?

Liza harada yaşadığını ona dedi və çıxıb getdi. Cavan oğlan onu saxlamaq istəmirdi. Ola bilsin ki, bunun səbəbi o idi ki, yanlarından

gəlib keçənlər dayanıb onlara baxır və hiyləgərcəsinə gülümsünürdülər.

Liza evə gələndə başına gələn əhvalatı anasına danışdı.

– Sən yaxşı etmisən ki, bir manatı götürməmisən. O cavan oğlan bəlkə də bir pis adammış...

– Ah, yox, anacan! Mən elə düşünmürəm. Onun o qədər nəcib sifəti və elə bir səsi...

– Ancaq, Liza, ən yaxşısı budur ki, öz əlinin zəhmətilə dolanasan və başqasından müftə yerə heç nə almayasan. Sən hələ bilmirsən ki, dostum, xəbis adamlar bədbəxt bir qızı necə incidə bilərlər. Sən şəhərə gedəndə, mənim qəlbim həmişə döyünməyə başlayır; mən İsanın təsviri qarşısında həmişə şam yandırır və Allaha dua edirəm ki, səni bütün bəlalardan və bədbəxtliklərdən qorusun.

Lizanın gözləri yaşardı; o öz anasını qucaqlayıb öpdü.

Sabahısı gün Liza ən gözəl gülləri və çiçəkləri toplayaraq yenə də şəhərə getdi. Onun gözləri indi nəyisə ahəstəcə axtarırdı. Çoxları yaxınlaşıb ondan gül almaq istəyirdi, lakin Liza cavab verirdi ki, bu güllər satılmır, özü isə gah bu, gah da o tərəfə boylanıb baxırdı. Axşam düşdü, daha evə qayıtmaq lazım idi. Liza əlindəki gülləri Moskva çayına tulladı. O, qəlbində nə isə bir kədər hiss etdi və öz-özünə dedi:

– Qoy bu güllər heç kimə qismət olmasın!

O biri gün axşamtərəfi Liza pəncərənin yanında oturmuşdu, əlində nə isə toxuyurdu və yavaş bir səslə şikayətli bir mahnı oxuyurdu, o birdən sıçrayıb qalxdı və qışqırıb dedi: "Ah!.." Naməlum cavan oğlan pəncərənin altında dayanmışdı.

– Sənə nə oldu? – deyə qızın yanında oturmuş anası qorxaraq ondan soruşdu.

– Heç nə, anacan, – deyə Liza ürkək bir səslə cavab verdi, – mən yalnız onu gördüm.

– Kimi?

– Onu, məndən gül alan o ağanı.

Qoca arvad pəncərədən əyilib baxdı. Cavan oğlan elə bir nəzakət və xoşagələn tərzlə qoca arvada təzim etdi ki, arvad onun haqqında yaxşı şeydən başqa, heç bir özgə fikrə düşə bilmədi.

– Salaməleyküm, mərhəmətli qadın! – deyə cavan oğlan danışdı. – Mən çox yorulmuşam, səndə bir az təzə süd tapılarmı?

Hörmət göstərməyə adət etmiş Liza, anasının verəcəyi cavabı gözləmədən, bəlkə də ona görə ki, o, bu cavan oğlanı qabaqcadan tanıyırdı, anbara qaçdı və təmiz ağac tıxacla, ağzı təmiz taxta qalpaqla örtülmüş təmiz bir küpə gətirdi, stəkan götürdü, yudu, ağ məhrəba ilə silib təmizlədi, süddən töküb pəncərədən uzatdı, lakin özü yenə də gözlərini yerə zillədi. Naməlum adam südü alıb içdi və bu ona o qədər ləzzət verdi ki, heç Gebanın[1] əlindən dirilik suyu alıb içmiş olsaydı bu qədər ona dadlı görünməzdi. Yəqin hamı başa düşür ki, o, Lizaya təşəkkür etdi və onun bu təşəkkürləri sözlə deyil, daha çox baxışlarda ifadə olundu. Bununla belə, təmizürəkli xeyirxah qoca arvad həm öz dərdi, həm də öz təsəllisi haqqında, yəni ərinin ölümü və öz qızının çox hörmət etdiyi sifətləri, onun zəhmətkeşliyi və incəliyi, nəzakəti və sairə və sairə haqqında bu naməlum cavan oğlana danışıb məlumat verdi. Cavan oğlan diqqətlə qoca arvadın dediklərinə qulaq asır, lakin onun gözləri, demək lazımdırmı haraya baxırdı? Liza da, bu ürkək qız da hərdənbir cavan oğlana baxırdı, lakin onun göy gözləri hər dəfə cavan oğlanın baxışlarına sataşan kimi bir anda çaxıb keçən və buludların içərisində itən ildırımdan daha iti bir sürətlə çevrilib yerə dikilirdi.

Cavan oğlan qoca arvada dedi:

– Mən istərdim ki, sənin qızın öz zəhmətini məndən başqa heç kəsə satmasın. Belə olsa, onun tez-tez şəhərə getməyinə də ehtiyac qalmaz və sən də öz qızından ayrılmağa məcbur olmazsan. Mən özüm arabir sizin yanınıza gələ bilərəm.

Liza bu sözləri eşidəndə mümkün qədər gizlətməyə çalışdığı bir sevinc hissi onun gözlərində parladı; onun yanaqları aydın yay gününün axşam şəfəqləri kimi yanırdı; o öz sol əlinə baxır və sağ əliylə onu çimdikləyirdi. Qoca arvad oğlanın təklifini məmnuniyyətlə qəbul etdi, çünki o, bu təklifdə heç bir pis niyyət görmürdü və naməlum oğlanı inandırmağa çalışdı ki, Lizanın toxuduğu kətan və corablar çox yaxşı olur və başqalarının toxuduqlarından daha çox gedir. Qaranlıq düşürdü, buna görə də cavan oğlan artıq getmək istəyirdi.

– Yaxşı, mərhəmətli və mehriban ağa, bəs sizin adınız nədir? – deyə qoca arvad ondan soruşdu.

[1] **Geba** – qədim yunan əsatirində ziyafət zamanı Allahlara dirilik suyu (nektar) verən əbədi gənclik ilahəsi.

– Mənim adım Erastdır[1], – deyə o, cavab verdi.

– Erast, – deyə Liza sakitcə öz-özünə təkrar etdi, – Erast! – Liza azı bu adı beş dəfə təkrar etdi, elə bil ki, o, bunu əzbərləmək istəyirdi.

Erast onlarla vidalaşıb getdi. Liza baxışları ilə onu yola saldı, anası isə fikirli halda oturmuşdu və qızının əlindən yapışıb dedi:

– Ah, Liza! O nə qədər yaxşı və mərhəmətlidir. Kaş sənin nişanlın da belə olaydı!

Bu sözlər Lizanın qəlbini sarsıtdı:

– Anacan! Anacan! Bu necə ola bilər? O, ağadır, kəndlilərin arasında... – Liza öz sözlərini axıra qədər deyib qurtara bilmədi.

İndi oxucu artıq bilməlidir ki, həmin cavan oğlan, həmin Erast çox varlı bir dvoryan idi, gözəl zəkalı və mərhəmətli qəlbə malik olan, təbiəti etibarilə xeyirxah, lakin bir qədər zəif və yüngül adam idi. O çox dağınıq bir həyat sürürdü, yalnız öz kefi və nəşəsi haqqında düşünür və bunu yüksək cəmiyyət içindəki əyləncələrdə axtarırdı, lakin o, çox zaman bunu tapmır, bikef olur və öz taleyindən şikayətlənirdi. Lizanı gördüyü ilk gündən onun gözəlliyi bu cavan oğlanın qəlbində iz buraxmışdı. Cavan oğlan romanlar, idilliyalar oxuyurdu, canlı və qüvvətli xəyala malik idi və çox zaman fikrən o zamanları (olmuş və ya olmamış), dövrləri xatırlayırdı ki, bütün insanlar guya laqeyd bir həyat keçirir, düzlərdə, çəmənlərdə gəzir, təmiz bulaqların suyunda yuyunur, istəklilər kimi öpüşür, gülüşür, qızılgül və mərsin ağaclarının dibində istirahət edir və ömürlərinin bütün günlərini beləcə xoş və nəşəli keçirirmişlər. Ona elə gəlirdi ki, Lizanın şəxsində o öz qəlbinin çoxdan axtardığı adamı tapmışdır. O fikirləşirdi ki, "Təbiət məni öz ağuşuna, öz təmiz və nəşəli dəqiqələrinə çağırır", buna görə də o, heç olmasa müvəqqəti bir zaman üçün, həmişə məşğul olduğu yüksək cəmiyyətdən uzaqlaşmağı qərara aldı.

İndi biz yenə də Lizaya qayıdaq. Gecə düşdü, anası öz qızına xeyir-dua verib onun üçün yaxşı yuxu arzu etdi, lakin bu dəfə onun arzusu həyata keçmədi: Liza bütün gecəni çox pis yatdı. Onun qəlbinə daxil olmuş yeni qonaq – Erastın obrazı Lizanın təsəvvüründə o qədər canlı bir iz buraxmışdı ki, o, demək olar ki, hər dəqiqədən

[1] Bu ad yunanca "eros" (sevgi) sözündən düzəldilmişdir və "sevən" deməkdir.

bir səksənib qalxır və oturub ah çəkirdi. Hələ gün doğmamışdan əvvəl Liza qalxdı, Moskva çayının kənarına gəldi, otların üzərində oturdu və havada burulub yüksələn və yüksəldikcə təbiətin yaşıl paltarı üzərində parlaq şeh dənələri buraxıb gedən ağ dumana tamaşa etməyə başladı. Hər yer sükut içində idi. Lakin tezliklə doğan günəş təbiətdəki hər şeyi canlandırdı: dərələr, meşələr cana gəldi, quşlar pırıltı ilə uçub oxumağa başladılar, güllər və çiçəklər gündüzün hər şeyə can verən bu bol şüalarından içmək üçün öz başlarını qaldırıb günəşə tərəf çevirdilər. Lakin Liza hələ də kədərli bir halda oturduğu yerdə qalmışdı. Ah, Liza, Liza! Sənə nə olmuşdur? İndiyə qədər sən həmişə quşlarla birgə oyanıb qalxar, səhərçağı onlarla birlikdə oxuyub nəşələnərdin, sənin təmiz və nəşəli ruhun günəşin şüaları şeh dənələrində əks etdiyi kimi gözlərində parlardı. Lakin indi sən fikirlisən və təbiətin bu ümumi nəşəsi sənin qəlbinə yaddır. Elə bu zaman gənc çoban çayın kənarı ilə öz sürüsünü çəkib aparır və əlindəki tütəyini çalırdı. Liza öz nəzərlərini ona tərəf çevirdi və düşünməyə başladı:

"Əgər mənim fikirlərimi məşğul edən o insan da sadəcə bir kəndli və çoban doğulsaydı, əgər o da indi mənim yanımdan öz sürülərini otarmaq üçün sürüb aparsaydı, ah! Mən ona təbəssümlə baş əyər və nəvazişlə deyərdim: sənə salam olsun, lütfkar çoban! Sən öz sürünü hara belə sürürsən? Bu yerlərdə də sənin qoyunların üçün göy ot bitir, burada da sənin şlyapana çələng hazırlamaq üçün gözəl güllər və çiçəklər vardır. O, mehriban bir nəzərlə yəqin ki, mənə baxar və ola bilsin ki, mənim əlimdən yapışıb yuxarı qaldırardı... Eh, bunlar yalnız bir xəyaldır!"

Tütək çalan çoban qızın yanından ötüb keçdi və öz sürüsü ilə birlikdə yaxındakı təpənin dalında gözdən itdi.

Liza birdən çay tərəfdən avar səsləri eşitdi, çaya baxdı, bir qayıq gördü, qayığın içindəki adam Erast idi.

Lizanın bədənindəki bütün damarları bir an içində lərzəyə gəldi, lakin onun bu vəziyyəti, əlbəttə, qorxudan əmələ gələn bir hal deyildi. O ayağa durdu, getmək istədi, ancaq gedə bilmədi. Erast qayıqdan sahilə çıxdı, Lizaya yaxınlaşdı və beləliklə də qızın bayaqdan bəri xəyal etdiyi arzular bir qədər həqiqətə çevrildi. Çünki o, doğrudan da, qıza mehriban bir nəzərlə baxdı və doğrudan da, onun əlindən yapışdı... Lakin Liza bu zaman gözləri tutqunlaşmış, yanaqları qıpqırmızı qızarmış halda dayanıb qalmışdı, ürəyi aramsız halda döyünərək sinəsindən çıxmağa can atırdı. Liza əlini onun əlindən çəkə bilmədi, o öz gül rəngli dodaqları ilə ona yaxınlaşanda isə, Liza ondan üz döndərib çevrilməyi də bacarmadı... Ah! Erast onu öpdü, elə bir odlu öpüşlə öpdü ki, bütün dünya Lizanın gözündə sanki od tutub alovlanıb yanırdı. Erast dedi:

– Əzizim Liza! Əzizim Liza! Mən səni sevirəm!

Bu sözlər Lizanın qəlbinin və ruhunun dərinliklərində göylərdən enib gələn ilahi bir səs, insanı məftun edən bir musiqi kimi səsləndi. O, öz qulaqlarına belə inanmağa cəsarət etmədi... və... Lakin mən burada qələmi yerə atır və baş verən hadisəni yazmıram. Mən yalnız onu deyim ki, bu məftunluq dəqiqəsində Lizada olan əvvəlki ürkəklik və qorxaqlıq hissi tamamilə keçib getdi, Erast da başa düşdü ki, onu sevirlər, yeni bir ehtirasla, açıq və təmiz bir ürəklə sevirlər.

Onlar ikisi də çəməndə otun üzərində əyləşmişdilər, belə ki, onların arasında lap az bir yer qalmışdı, onlar gözlərini bir-birinə dikib bir-birinin üzünə baxır və bir-birinə deyirdilər: məni sev! Beləliklə, iki saatlıq bir vaxt onların nəzərində sanki bircə dəqiqənin içində gəlib keçdi. Nəhayət, birdən Liza xatırladı ki, anası ondan ötrü nigaran qala bilər. İndi onlar ayrılmalı idilər. Liza dedi:

– Ah, Erast! Sən həmişəmi məni sevəcəksən?

– Həmişə, əzizim Liza, həmişə! – deyə o cavab verdi.

– Sən bunun üçün mənim qarşımda and içə bilərsənmi?

– And içərəm, sevimli Liza, and içərəm!

– Yox, and içmək mənə lazım deyildir. Mən sənə inanıram, Erast, inanıram. Yoxsa, olmaya, sən doğrudanmı bu zavallı Lizanı aldadacaqsan? Axı heç bir zaman belə bir iş ola bilməz?

– Ola bilməz, ola bilməz, əzizim Liza!

– Mən nə qədər xoşbəxtəm! Məni sevdiyini biləndə, anam nə qədər də sevinəcəkdir!

– Ah, yox, Liza! Ona heç bir şey demək lazım deyildir.

– Nə üçün?

– Qoca adamlar şübhəli olurlar. O da birdən öz aləmində pis fikrə düşə bilər.

– Mən daha qala bilmərəm.

– Lakin səndən xahiş edirəm ki, bu barədə anana heç bir şey deməyəsən.

– Yaxşı, hərçənd ki, mən anamdan heç nəyi gizlətmək istəməzdim, lakin indi sənə qulaq asmaq lazımdır.

Onlar vidalaşıb ayrıldılar, axırıncı dəfə öpüşdülər və bir-birinə söz verdilər ki, hər gün axşam tərəfi ya bu çayın kənarında, ya qayınağacı pöhrəliyində, ya da ki, Lizanın yaşadığı daxmanın yaxınlığında bir yerdə görüşsünlər, lakin bir-birini aldatmasınlar, mütləq görüşsünlər. Liza çıxıb getdi, ancaq onun gözləri çayın kənarında durub onun dalınca baxan Erasta tərəf azı yüz dəfə çevrilib baxdı.

Liza öz daxmalarına gələrkən kefi tamamilə dəyişmişdi və daxmadan çıxıb gedən zamankına bənzəmirdi. Onun sifətində və bütün hərəkətlərində səmimi bir şadlıq və sevinc hiss olunurdu. "O, məni sevir!" – deyə Liza düşünür və bu fikirlə də məftun olub şadlanırdı.

– Ah, anacan! – deyə Liza yalnız indicə yuxudan oyanıb qalxan anasına müraciət edib dedi: – Ah, anacan, bu nə qədər gözəl bir səhərdir! Çöldə hər şey nə qədər də şəndir! Torağaylar heç bir zaman indi olduğu qədər yaxşı oxumamışdılar, günəş heç bir zaman belə parıldamamışdı, güllər və çiçəklərin ətri heç bir zaman bu qədər gözəl olmamışdır!

Qoca arvad əlindəki əsaya söykənə-söykənə bayıra çıxıb çəmənə getdi ki, Lizanın bu qədər gözəl sözlərlə danışıb təsvir etdiyi sabahı görsün və ondan ləzzət alsın. Bu sabah, doğrudan da, ona olduqca gözəl və xoş göründü. Onun sevimli qızı isə indi öz sevinci ilə bütün təbiətin özünü də anası üçün şənləndirirdi. Qoca arvad deyirdi:

– Ah, Liza, doğrudan da Allahın yaratmış olduğu bu təbiətdə hər şey nə qədər də gözəldir! Mən indi altmış ildir ki, bu dünyada ömür sürüb yaşayıram, lakin hələ indiyə qədər Allahın bütün bu işlərindən heç baş çıxarda bilməmişəm, mən başımı qaldırıb hündür çadıra bənzəyən bu göylərə baxmaqdan, hər il yeni-yeni otlar, güllər və çiçəklərlə bəzənən bu torpağa tamaşa etməkdən doymamışam. Yəqin ki, göylərin ulu padşahı insanı çox sevirmiş, ona görə də bu dünyada hər şeyi insan üçün bu qədər gözəl yaratmışdır. Ah, Liza! Əgər hərdənbir insanın bu dünyada dərd-qəmi olmasaydı, kim ölmək istəyərdi? Görünür, belə lazımmış. Görünür, əgər bizim gözlərimizdən yaş axmasaymış, ola bilsin ki, biz öz ruhumuzu unudarmışıq.

Liza isə bu zaman düşünürdü: "Ah! Mən öz sevimli əziz dostumu unutmaqdansa, öz ruhumu unutmağa hazıram!"

Bu hadisədən sonra, Erast və Liza hər ikisi öz sözlərinin üstündə dayanaraq hər axşam (Lizanın anası yatandan sonra) gah çayın sahilində, gah qayınağacı pöhrəliyində, lakin daha çox (daxmanın səksən sajınlığında olan) yüz illik palıd ağaclarının – hələ lap qədim vaxtlarda qazılmış gölün dərin və təmiz suları üzərinə kölgə salan palıd ağaclarının yanında görüşürdülər. Orada çox zaman göyün üzərindəki sakit ay budaqların yaşıl yarpaqları arasından öz şüalarını yayaraq mehin oxşadığı və əziz dostunun tumarladığı Lizanın sarışın saçlarını işıqlandırırdı. Çox zaman ayın bu şüaları məhəbbətin gücündən Lizanın gözlərində əmələ gəlmiş parlaq və həmişə Erastın ehtiraslı busələrilə qurudulan göz yaşlarını işıqlandırırdı, onlar qucaqlaşırdılar, lakin utancaq ay onlardan çəkinib buludların dalında gizlənmirdi; onların ağuşu təmiz və gözəl idi.

Liza Erasta deyirdi:

– Sən mənə "səni sevirəm, mənim əzizim!" deyəndə, sən məni öz sinənə basıb qucaqlayanda, sən o mərhəmətli gözlərinlə mənə baxanda, heç bilirsənmi, ah! Mənim üçün nə qədər xoşdur, o qədər xoşdur ki, mən bu dəqiqədə Erastdan başqa dünyada hər şeyi, hətta özümü də unuduram. Mənim dostum, bu çox qəribədir ki, mən səni tanımayanda necə olmuş ki, sakit və şən bir həyat keçirmişəm! İndi isə keçirmiş olduğum bu həyat mənim üçün anlaşılmazdır; indi mən fikir edirəm ki, sənsiz həyat mənim üçün həyat deyil, bəlkə dərd və kədərdir. Sənin gözlərin olmasaydı göylərdəki o parlaq ay mənim üçün qaranlıq görünərdi, sənin səsini eşitməsəydim, bülbülün nəğməsi mənim üçün kədərli bir mahnıya çevrilərdi, sənin nəfəsin olmasaydı çöllərdən əsib gələn bu meh mənim heç yerlidibli xoşuma gəlməzdi.

Erast öz çoban qızına – o, Lizaya belə ad vermişdi – məftun olmuşdu və qızın onu nə qədər böyük bir məhəbbətlə sevdiyini gördükdə Erast özü-özü üçün də sevimli olmağa başlamışdı. İndi təmiz qəlbli bir insanın ehtiraslı dostluğundan meydana çıxan bütün gözəl əyləncələrin qarşısında yüksək cəmiyyətdə görmüş olduğu ən parlaq eyş-işrətlərin hamısı indi onun üçün rəzil və mənasız görünürdü. Hisslərinin bundan əvvəl aludə olub öyrəşdiyi şəhvani duyğular haqqında indi o böyük bir nifrət hissilə düşünürdü. "Mən Liza ilə bir qardaş-bacı kimi yaşaya bilərəm, – deyə o düşünürdü – mən heç bir zaman onun sevgisindən sui-istifadə etməyəcək və

onunla birlikdə həmişə xoşbəxt olacağam!" Eh, ağılsız cavan oğlan! Sən öz qəlbini tanıyırsanmı? Öz hərəkətlərinə həmişə cavab verə bilərsənmi? İnsanın ağlı həmişə onun hisslərinə hakimdir, zəka həmişəmi sənin hisslərinin padşahı olacaq?

Liza tələb edirdi ki, Erast tez-tez onun anasının yanına gəlsin. O, Erasta deyirdi:

– Mən anamı sevirəm və həmişə ona səadət istəyirəm. Mənə elə gəlir ki, səni görmək hər bir insan üçün çox böyük bir xoşbəxtlikdir.

Qoca arvad doğrudan da həmişə onu görəndə sevinirdi. O, Erastla öz mərhum əri haqqında və öz cavanlıq illəri haqqında danışmağı sevirdi: o, öz əziz İvanı ilə birinci dəfə necə görüşdüyü, onu necə sevdiyi və onunla necə bir məhəbbətlə yaşadığı haqqında nağıl edib danışmağı sevirdi.

– Ah, amansız ölüm onun dizlərini taqətdən saldığı o son saata qədər biz heç bir zaman bir-birimizdən doymadıq. O, mənim qollarım üstündə can verdi!

Erast məmnuniyyətlə ona qulaq asırdı. O, qoca arvaddan Lizanın toxuduğu şeyləri satın alır və həmişə bu işlərə layiq olduğu qiymətdən azı on qat baha pul verməyə çalışırdı. Lakin qoca arvad heç vaxt artıq pul götürmürdü.

Beləliklə, bir neçə həftə gəlib keçdi. Bir dəfə axşamçağı Erast öz Lizasını xeyli gözlədi, nəhayət Liza gəlib çıxdı, lakin Liza o qədər qəmgin idi ki, Erast qorxuya düşdü. Ağlamaqdan Lizanın gözləri qıpqırmızı qızarmışdı.

– Liza, Liza! Axı sənə nə olubdur?

– Ah, Erast! Mən çox ağlamışam!

– Nə üçün? Nə olubdur?

– Mən doğrusu hər şeyi açıb sənə söyləməliyəm. Qonşu kənddə yaşayan dövlətli kəndlinin oğlu mənim üçün elçi göndərmişdir; anam da istəyir ki, mən ona ərə gedəm.

– Sən də buna razısanmı?

– Rəhmsiz! Hələ belə bir şeyi məndən soruşursan da? Bəli, mənim anama çox yazığım gəlir, o ağlayır və deyir ki, guya mən onun sakit yaşamasını istəmirəm. O deyir ki, əgər öz sağlığında məni ərə verməsə, guya ölərkən çox əziyyət çəkəcəkdir. Ah! Anam bilmir ki, mənim sənin kimi gözəl və əziz bir dostum vardır!

Erast Lizanı ağuşuna alıb öpdü və dedi ki, onun xoşbəxtliyi və səadəti dünyada onun üçün hər şeydən qiymətlidir, əgər anası ölərsə, onun ölümündən sonra o, Lizanı öz yanına aparacaq və orada, kənddə qocaman meşələrin içində, cənnət kimi bir yerdə yaşayacaq və heç bir zaman ondan ayrılmayacaqdır.

– Lakin burası var ki, sən heç bir zaman mənim ərim ola bilməzsən! – deyə Liza sakit bir ah çəkərək cavab verdi.

– Nə üçün?

– Çünki mən kəndli qızıyam.

– Sən mənim xətrimə dəyirsən, sənin dostun üçün həssas, təmiz bir insan qəlbi hər şeydən üstündür, Liza isə həmişə mənim könlümə ən yaxın bir adam olacaqdır.

Liza onun ağuşuna atıldı, elə həmin bu gözəl saat, görünür onun bəkarəti ən rəzil hisslərin arasında məhv olub getməli imiş! Erast öz qanında və damarlarında qeyri-adi bir qızğınlıq və həyəcan hiss etdi, Liza heç bir zaman onu bu qədər gözəl görməmişdi, Lizanın əlləri heç bir vaxt onu bu qədər nəvazişlə oxşamamışdı. Onun busələri də heç bir zaman bu qədər hərarətli deyildi. Liza heç bir şey bilmir, heç nədən şübhələnmir, heç nədən qorxmurdu, gecənin qaranlığı onlardakı arzunu daha da gücləndirirdi, göydə bir dənə də olsun ulduz görünmürdü, onların bu halını heç bir şüa işıqlandıra bilməzdi. Erast titrəyirdi, Liza da titrədiyini hiss edirdi, lakin o bunun səbəbini bilmirdi, özünün necə bir vəziyyətə düşdüyündən xəbəri yoxdu... Ah, Liza, Liza! Səni qoruyan mələkə indi haradadır? Hanı sənin bəkarətin!

Baş verən bu hal bir dəqiqənin içində gəlib keçdi. Liza öz hisslərini başa düşmürdü, təəccüb edir və soruşurdu. Erast dinməzcə dayanıb qalmışdı, o cavab vermək üçün söz axtarırdı, lakin lazım olan sözləri tapa bilmirdi. Nəhayət Liza dedi:

– Ah! Mən qorxuram, bizim aramızda baş vermiş bu əhvalatdan mən qorxuram! Mənə elə gəldi ki, ölürəm. Mənə elə gəldi ki, bütün ruhum... Yox, mən bunu deməyi bacarmıram!.. Erast, sən susursan? Sən ah çəkirsən? İlahi, nə olubdur!

Bu zaman birdən-birə ildırım çaxdı və göy guruldadı. Lizanın bütün bədəni titrəyib sarsıldı. O dedi:

– Erast, Erast! Mən qorxuram, məni dəhşət bürüyür. Qorxuram ki, bu ildırımlar məni cinayətkar kimi vurub öldürsün.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Dəhşətli bir fırtına başlamışdı, qara buludlardan yağış şıdırğı tökürdü, sanki Lizanın itirilmiş bəkarətinə təbiət özü də öz narazılığını bildirirdi. Erast çalışırdı ki, Lizanı sakitləşdirsin və onu gətirib öz daxmalarına yola salırdı. Lakin ondan ayrılanda Lizanın gözləri yaşla dolmuşdu.

– Ah, Erast, sən məni inandır ki, biz yenə də əvvəlki kimi xoşbəxt olacağıq!

– Olacağıq, Liza, olacağıq! – deyə Erast cavab verdi.

– Allah eləsin! Mən sənin sözlərinə inanmaya bilmərəm: axı mən səni sevirəm! Lakin qəlbimdə nə isə... Eh, kifayətdir! Bağışla! Sabah, sabah görüşərik!

Onların görüşləri yenə də davam edirdi, lakin bu görüşlərdə hər şey nə qədər də dəyişmişdi! İndi Erast daha Lizanı təkcə o təmiz mehriban nəzərlərilə, sevgi ilə dolu baxışları ilə, əlinin toxunması ilə, təkcə öpüşlə, yalnız bir-birini qucaqlamaqla kifayətlənə bilmirdi. O, indi nə isə daha çox, başqa və daha ayrı şeylərin arzusunda idi və nəhayət, o elə bir hala gəlib çıxdı ki, daha heç nə arzu etmədi – hər kəs öz qəlbini yaxşı tanıyırsa, hər kəs qəlbin ən incə xüsusiyyətləri haqqında fikirləşib düşünmüşsə, əlbəttə o, mənimlə razılaşar ki, bütün arzuların həyata keçirilməsi sevgi üçün ən böyük təhlükədir. Liza indi Erast üçün artıq, əvvəldə olduğu kimi, onun xəyalını dumanlandıran və onu məftun edən bir füsunkar mələkə deyildi. Əflatuni eşq indi öz yerini elə hisslərə vermişdi ki, Erast bu hisslərlə fəxr edə bilməzdi və belə duyğular onun üçün yeni də deyildi. Lizaya gəldikdə isə, demək lazımdır ki, o özünü tamamilə Erastın ixtiyarına verdikdən sonra, indi yalnız onun varlığı ilə yaşayır, onun nəfəsilə nəfəs alır, hər şeydə onun iradəsinə tabe olur, onun zövq almasını isə özü üçün bir xoşbəxtlik sayırdı. Lakin Liza ondakı dəyişikliyi də görür və tez-tez ona deyirdi:

– Əvvəllər sən şən idin, əvvəllər biz ikimiz daha sakit və daha xoşbəxt idik. Əvvəllər mən də sənin məhəbbətini itirə biləcəyimdən bir o qədər qorxmurdum!

Bəzən onlar vidalaşanda Erast ona deyirdi:

– Sabah, Liza, səninlə görüşə bilməyəcəyəm, çox vacib bir işim vardır.

Liza isə hər dəfə bu sözləri eşidəndə dərindən ah çəkirdi.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Nəhayət, bir dəfə o beş gün dalbadal Erastı görmədi və buna görə də çox böyük bir narahatçılıq keçirməyə başladı, altıncı gün o gəlib çıxdı və bikef bir halda Lizaya dedi:

– Sevimli Liza, mən bir neçə müddətə səndən ayrılmalıyam. Sən özün bilirsən ki, indi müharibədir, mən də orduda qulluq edirəm, bizim alay səfərə çıxır.

Liza bunu eşidəndə sapsarı saraldı və az qaldı ki, yerə yıxılıb özündən getsin.

Erast onu sakitləşdirirdi. O deyirdi ki, həmişə öz əziz Lizasını sevəcək və ümid edir ki, səfərdən qayıtdıqdan sonra o bir daha Lizadan ayrılmayacaqdır. Liza uzun müddət susub dayandı, sonra birdən-birə acı göz yaşları tökdü, onun əlindən yapışdı və məhəbbətinin bütün incəliyilə onun gözlərinə baxıb soruşdu:

– Sən heç cür qala bilməzsənmi?

– Bilərəm, – deyə o cavab verdi, – lakin qalsam, bu mənim üçün böyük bir şərəfsizlik olar, bu mənim namusum üçün ən böyük bir ləkə olar. Qalsam, hamı mənə nifrət edər, hamı mənim haqqımda danışar və məni qorxaq, vətənin ləyaqətli olmayan bir oğlu hesab edər.

246921

– Ah, indi ki, elədir, – deyə Liza cavab verdi, – onda get, get, Allahın əmri necədirsə elə et! Lakin mən qorxuram ki, səni öldürərlər!

– Vətən uğrunda ölmək qorxulu deyildir, sevimli Liza.

– Əgər sən bu dünyada olmasan, onu bil ki, mən də o saat ölərəm.

– Axı sən nə üçün belə düşünürsən? Mən ümid edirəm ki, sağ qalacağam, ümid edirəm ki, sənin yanına, öz sevimli dostumun yanına qayıdacağam.

– Allah eləsin! Allah eləsin! Mən hər gün və hər saat bunun üçün dua edəcəyəm. Ah, mən nə üçün oxumaq və yazmaq bilmirəm! Əgər bilsəydim, sən başına gələn əhvalatların hamısını mənə yazıb xəbər verər, mən də tökdüyüm göz yaşları haqqında sənə məktublar yazardım!

– Yox, sən özünü qoru, Liza, sən özünü öz dostun üçün qoruyub saxla. Mən istəmirəm ki, sən mənsiz burada qalıb ağlayasan, göz yaşı tökəsən.

– Rəhmsiz insan! Sən məni bu göz yaşı tökmək ləzzətindən də məhrum etməkmi istəyirsən! Yox! Səndən ayrılandan sonra mənim qəlbim nə vaxt döyünməkdən dayanarsa, mənim göz yaşlarım da yalnız o zaman quruyar.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

– Sən bizim gələcəkdə görüşəcəyimiz o xoş dəqiqələr haqqında düşün.

– Düşünəcəyəm, o dəqiqələr haqqında da düşünəcəyəm! Ah, kaş o dəqiqələr tez gələydi! Sevimli və əziz Erast! Səni özündən də artıq sevən bu zavallı Lizanı unutma, onu həmişə xatırla.

Onların bu görüşdə danışdıqlarının hamısını mən burada təsvir edə bilmərəm. Sabahısı gün onlar son dəfə görüşməli idilər.

Erast, mehriban və xeyirxah ağanın müharibəyə getməli olduğunu eşitdikdən sonra özünü göz yaşı tökməkdən saxlaya bilməyən Lizanın anası ilə də görüşüb ayrılmaq istəyirdi. Erast qoca arvadı ondan bir qədər pul qəbul etməyə vadar etdi və ona belə dedi:

– Mən istəmirəm ki, mən burada olmayanda Liza bizim danışığımıza görə mənim üçün görməli olduğu işləri aparıb başqasına satsın.

Qoca arvad ona xeyir-dua verib dedi:

– Allah eləsin ki, sən sağ-salamat qayıdıb gələsən və mən səni yenə də burada, öz evimizdə görəm! Bəlkə də o zamana qədər mənim Lizam özü üçün bir nişanlı da tapa bildi. Əgər sən onun toyuna gəlib çıxa bilsəydin, mən Allahdan nə qədər razı qalardım. Sən onu bil ki, ağa, Lizanın uşaqları olanda, sən onlara kirvəlik edəcəksən. Ah, kaş mən yaşayıb o günləri görə biləydim!

Liza anasının yanında dayanmışdı və onun üzünə baxmağa cəsarət etmirdi. Onun bu dəqiqədə nələr hiss etdiyini və nələr düşündüyünü oxucu asanlıqla təsəvvür edə bilərdi.

Lakin Erast onu sonuncu dəfə öz ağuşuna basıb qucaqlayarkən və sonuncu dəfə ona: – Məni bağışla, Liza! – deyərkən Liza nələr düşünmüşdü və nələr hiss etmişdi... Bu nə qədər də təsirli bir mənzərə idi! Səhərin şəfəqləri qırmızı bir dəniz kimi şərq tərəfdəki göyün üzünü tamamilə yayılıb tutmuşdu. Erast uca palıd ağacının budaqları altında öz ruhu, öz qəlbi ilə vidalaşan solğun, saralmış, dərdli dostunu ağuşuna basaraq dayanmışdı. Bütün təbiət bu zaman sükut içində idi.

Liza fəryad edirdi, Erast da ağlayırdı, nəhayət Erast ondan ayrıldı. Liza yerə yıxıldı, diz çöküb əllərini göyə qaldırdı və getdikcə uzaqlaşan Erastın dalınca baxmağa başladı, Erast isə getdikcə uzaqlaşdı, uzaqlaşdı və nəhayət gözdən itdi. Günəş yüksəldi, yalnız qalmış zavallı Liza isə oturduğu yerdə özündən gedib huşunu itirdi.

O özünə gələndə bütün aləm onun gözündə qaranlıq və kədərli göründü. Təbiətin bütün gözəllikləri elə bil onun qəlbinin sevimli

dostu ilə birlikdə yox olub getmişdi. "Ah! – deyə o öz-özünə fikirləşirdi, – mən nə üçün bu boş səhrada qaldım? Məni öz əziz Erastımın ardınca uçub getməkdən saxlayan nədir? Müharibə mənim üçün qorxulu deyildir, mənim üçün qorxulu olan o yerdir ki, orada mənim dostum yoxdur. Mən istəyirəm ki, onunla birlikdə yaşayam, onunla birlikdə öləm, ya da ki, öz ölümümlə onun qiymətli həyatını xilas edəm. Dayan, bir qədər dayan, sevimli dostum! Mən də ardınca uçub sənin yanına gəlirəm!" – Liza, doğrudan da, indi Erastın ardınca yüyürüb getmək istəyirdi, lakin bir fikir onu saxladı: "Axı mənim anam vardır!" Liza ah çəkdi və başını aşağı əyərək, sakit addımlarla öz daxmalarına tərəf çıxıb getdi. Bu saatdan etibarən onun günləri dərd və ələmlə keçdi, o həm də çalışırdı ki, özünün bu kədərli dəqiqələrini anasından gizlətsin. Çünki onun qəlbini də bu dərdlər ağrıdırdı. Lizanın dərdləri yalnız onda bir qədər yüngülləşirdi ki, o, meşənin sıx bir yerinə çəkilib orada tənha bir vəziyyətdə düşünür, göz yaşı tökür və öz ürək dostunu xatırlayırdı. Qumrunun çox zaman oxuduğu şikayətli mahnılar onun çəkdiyi ahlara qarışırdı. Lakin bəzən çox nadir hallarda olsa da, bir ümid qığılcımı, bir təsəlli işığı onun qəlbini bürümüş qaranlığı dağıdır, gözlərini işıqlandırırdı. O, öz-özünə fikirləşib deyirdi: "O mənim yanıma qayıdanda, mən nə qədər xoşbəxt olacağam!" Bu fikirdən onun gözləri işıqlanır, yanaqları yenə də əvvəlki kimi qızarıb alovlanır və Liza fırtınalı bir gecədən sonra açılmış aydın may səhəri kimi təbəssümlə gülümsəyirdi. Beləliklə iki aya qədər bir vaxt gəlib keçdi.

Bir gün Liza Moskvaya, anasının gözlərini müalicə etmək üçün işlətdiyi gül suyu almağa getməli idi. Geniş küçələrin birində Lizanın qabağına dəbdəbəli bir kareta çıxdı, Liza karetanın içinə baxdı, orada oturan adam Erast idi. "Ah!" – deyə Liza qışqırdı və Erastın yanına yüyürdü. Lakin kareta onun yanından keçib getdi və həyətlərdən birinə döndü. Erast karetadan çıxmışdı və böyük evin pilləkənindən qalxmaq istəyirdi ki, birdən-birə özünü Lizanın qolları arasında hiss etdi. Erast sapsarı saraldı, sonra Lizanın nidalarına bir kəlmə də olsun cavab verməyərək onun əlindən yapışdı və öz kabinetinə gətirdi, qapını bağlayıb ona dedi:

– Liza! Vəziyyət dəyişmişdir, mən indi evlənməyə razılıq vermişəm. Buna görə də sən məni sakit buraxmalı və özünün də sakit yaşamağın üçün məni unutmalısan. Mən səni sevirdim və indi də

sevirəm, yəni sənin yaxşılığını arzu edirəm. Budur, yüz manat, bu pulları götür (o, pulları Lizanın cibinə qoydu) və icazə ver səni axırıncı dəfə bir də öpüm, sən də çıx get evə.

Liza hələ özünə gəlməmiş Erast onu kabinetdən çıxartdı və nökərə dedi:

– Bu qızı həyətdən ötür.

Mənim qəlbim həmin bu dəqiqədə qana döndü. Mən Erastın insan olduğunu unuduram, mən ona nifrət etməyə hazıram, lakin dilim gəlmir, mən göylərə baxıram və göz yaşlarım yanaqlarımdan axıb yerə tökülür. Ah! Mən nə üçün oturub bir roman yox, həqiqətən həyatda baş vermiş belə kədərli bir hadisəni yazıram?

Elə çıxır ki, Erast Lizaya deyəndə ki, guya orduya gedir, onu aldatmışdı. Yox, o doğrudan da orduda olmuşdu, lakin orduda olarkən o düşmənlərlə vuruşmaq əvəzinə, öz dostları ilə oturub kart oynamış, demək olar ki, özünün bütün malikanəsini yerli-dibli uduzmuşdu. Müharibə tezliklə qurtardı, sülh bağlandı. Erast də Moskvaya qayıtdı, indi onun xeyli borcu var idi. Öz vəziyyətini yaxşılaşdırmaq üçün indi onun yalnız bircə çarəsi qalmışdı ki, gərək çoxdan bəri ona vurulmuş olan qoca, lakin varlı bir dul arvadla evlənsin. O, belə etməyi qərara aldı və həmişəlik yaşamaq üçün evləndiyi qadının evinə köçüb getdi, Lizanı xatırladıqda da yalnız səmimi surətdə ah çəkirdi, lakin bütün bunlar onu doğrulda bilərmi?

Liza küçəyə çıxdı, o, elə bir vəziyyətdə idi ki, onun bu halını heç bir qələmlə təsvir etmək mümkün deyildir. O, o məni qovdu? O başqasınımı sevir? Mən məhv oldum! – Lizanı məşğul edən fikirlər və hisslər bundan ibarət idi. O, yenə də özündən getdi və bu hal onun fikirlərinin arasını kəsdi. Küçə ilə gedən xeyirxah qadınlardan biri yerə yıxılıb qəşş etmiş Lizanın yanında dayandı və onu ayıltmağa çalışdı. Zavallı gözlərini açdı, bu xeyirxah qadının köməyilə ayağa qalxdı, ona təşəkkür etdi və sonra heç özü də haraya getdiyini bilmədən baş alıb yola düşdü, "Mənə yaşamaq olmaz – deyə Liza fikirləşdi, – olmaz!.. Ah, kaş bu göylər uçub mənim üstümə töküləydi! Kaş yer ayrılıb məni öz qoynuna alaydı! Yox! Göylər uçub tökülmür, heç yer də tərpənmir! Vay halıma!" Liza bu fikirlər içərisində şəhərdən çıxdı və bir də gördü ki, haradansa qocaman palıd ağaclarının kölgəsi altındakı dərin gölün sahilinə gəlib çıxmışdır, gölün kənarındakı bu ağaclar hələ bir neçə həftə bundan

qabaq onun məhəbbətdən doğan məftunluğunun şahidi olmuşdu. Bütün bunları xatırladıqca onun qəlbi parçalanırdı. Onun sinəsində baş verən ən qorxunc sıxıntılar sifətində də öz ifadəsini tapırdı. Lakin bir neçə dəqiqədən sonra Liza bir qədər sakitcə dayanıb fikrə getdi, sonra ətrafına baxdı. Birdən öz qonşularından birinin qızının (on beş yaşlı qızın) yol ilə hara isə getdiyini gördü, Liza onu səslədi, cibindən on dənə qızıl onluq çıxardıb qıza verdi və dedi:

– Sevimli Anyuta, sevimli dost! Bu pulları apar, ver mənim anama və ona de ki, bu pullar oğurluq deyildir, de ki, Liza onun yanında müqəssirdir. Son ona söylə ki, mən özümün ən rəhmsiz bir adama – E...yə bəslədiyim məhəbbətimi anamdan gizlədirdim. Ona de ki, onun adını bilmək nəyə lazımdır? Ona söylə ki, həmin adam mənə xəyanət etdi, xahiş et ki, o məni bağışlasın, Allah ona yar olar, mən indi sənin əlini necə öpəcəyəmsə, sən də anamın əlini eləcə öp və de ki, zavallı Liza onu öpməyi sənə tapşırmışdır, ona de ki, mən...

Buraya çatanda Liza özünü suya tulladı. Anyuta qışqırdı, ağladı, lakin onu xilas edə bilmədi, Anyuta kəndə qaçdı, oradan adamlar yığılıb gəldilər və Lizanı çıxartdılar, lakin o artıq ölmüşdü.

Ruhu da, cismi də gözəl olan bir insan öz həyatını beləcə qurtardı. Biz orada, yeni həyatda görüşərkən, mən səni tanıyacağam, zərif Liza!

Lizanı gölün yaxınlığında iri bir palıd ağacının altında dəfn etdilər və qəbrinin üstündə də taxtadan bir xaç qoydular. Burada mən çox zaman Lizanın yatdığı qəbrə söykənib fikrə gedirəm, gölün suları qarşımda dalğalanır, başımın üstündə isə palıdın yarpaqları səslənir.

Lizanın anası öz qızının dəhşətli ölüm xəbərini eşidən kimi onun da damarlarının qanı qurumuş, o da gözlərini əbədi olaraq yummuşdur. İndi daxma boş qalmışdır. İndi onun içərisində külək vıyıldayır və bu vıyıltını eşidən mövhumatçı kənd adamları deyirlər ki, orada dəfn edilmiş ölü ah çəkir, orada zavallı Liza ah çəkir!

Erast həyatının axırına qədər bədbəxt oldu. Lizanın taleyi haqqındakı xəbəri eşitdikdən sonra o heç cürə təsəlli tapa bilmir və özünü qatil hesab edirdi. Mən ölümündən iki il əvvəl onunla tanış oldum. O, özü başına gələn bütün bu əhvalatı mənə nəql etdi və məni Lizanın qəbri üstünə gətirdi. İndi isə, ola bilsin ki, o dünyada onlar barışmışlar!

NİKOLAY VASİLYEVİÇ QOQOL

(1809-1852)

ŞİNEL

(povest)

Bir departamentdə... ancaq yaxşısı budur ki, departamentin adını söyləməyək. Dünyada cürbəcür departamentlərdən, polklardan, dəftərxanalardan və sözün qısası, hər cür mənsəb sahiblərindən qorxulu bir şey yoxdur. İndi artıq tək-tək hər adam öz simasında bütün cəmiyyəti təhqir olunmuş sayır. Deyirlər ki, lap bu yaxınlarda adı yadımda olmayan bir şəhərin kapitan-ispravnikindən belə bir ərizə gəlmişdir ki, həmin ərizədə o dövlət qərarlarının tələf olduğunu və onun müqəddəs adının tamamilə saymazyana çəkildiyini açıq-aydın izah edir. O, öz ərizəsinə dəlil olaraq yekə bir cild romantik bir əsər də əlavə etmişdir ki, bu əsərdə hər on səhifədən bir kapitan-ispravnik, bəzi yerlərdə, hətta, tamamilə sərxoş halda zahir olur. Buna görə də yaxşısı budur ki, hər cür anlaşılmazlıqlara yol verməmək üçün əhvalat vaqe olan departamenti biz eləcə bir departament adlandıraq. Bəli, bir departamentdə bir məmur qulluq edirdi; demək olmaz ki, bu məmur çox gözəldi, boyu alçaq, üzü bir qədər çopur, bir qədər kürən təhər, hətta zahirdən bir qədər koruş, alın tərəfdən bir balaca daz, hər iki yanağı qırışıqlı və üzünün rəngi də babasil xəstələrinin üzünün rəngində idi. Nə çarə?! Təqsir Peterburqun iqlimindədir. Rütbəsinə gəlincə (zira bizdə hər şeydən əvvəl rütbəni bildirmək lazımdır), o daimi titulyarnı sovetnik deyilən bir rütbə sahibi idi. Məlum olduğu kimi, bu rütbəyə mənsub adamları acizlərin üstünə hücum etmək kimi tərifəlayiq bir vərdiş sahibi olan cürbəcür yazıçılar doyunca lağa qoymuş və istehza etmişlər. Məmurun familiyası Başmaçkin idi. Elə adın özündən məlumdur ki, bu ad bir zaman başmaqdan əmələ gəlmişdir; ancaq bu adın başmaqdan nə zaman, hansı vaxtda və nə cür əmələ gəldiyi barədə heç bir şey

məlum deyil. Başmaçkinlərin ataları da, babaları da, hətta qayınları da həmişə uzunboğaz çəkmə geyib yalnız ildə üç dəfə çəkmələrinin altını yamatdırardılar. Həmin məmurun adı Akaki Akakiyeviç idi. Bəlkə bu ad oxucuya bir qədər qəribə və uydurma kimi görünə bilər. Ancaq oxucunu əmin etmək olar ki, bu adı əsla uydurmamışlar; öz-özlüyündə elə bir şərait yaranmışdı ki, ona əsla başqa ad vermək mümkün deyildi və bu əhvalat belə baş vermişdi. Akaki Akakiyeviç, əgər yaddaşımız bizi aldatmırsa, 23 mart gecəsi anadan olmuşdu. Bir məmur arvadı və çox yaxşı bir arvad olan rəhmətlik anası qayda üzrə uşağı xaça çəkib ona ad qoymağa hazırlanmışdı. Onun anası hələ qapının ağzındakı çarpayının üstündə uzanmış və onun sağ əlində uşağın kirvəsi, çox yaxşı bir adam olan və senatda şöbə müdiri vəzifəsində işləyən İvan İvanoviç Yeroşkin və kirvə qadın, kvartal zabitinin arvadı, çox nadir gözəl sifətlərə malik bir arvad olan Arina Semyonovna Belobryuşkova durmuşdu. Uşağın anasına bu üç addan birini seçməyi təklif etdilər: Mokki, Sossi və ya uşağa cəfakeş Xozdazatın adını qoysunlar. Rəhmətlik arvad fikirləşdi ki, "yox, bunlar hamısı birtəhər adlardır". Onun könlünü almaq üçün təqvimin başqa bir yerini açdılar; yenə üç ad çıxdı: Triffli, Dula və Varaxasi. Qarı dillənib dedi ki, "bu lap bəladır ki, hamısı elə birtəhər adlardır ki, düzü, mən heç belə ad eşitməmişəm. Yenə Varadat və ya Varux olsaydı, bir şey idi, yoxsa Triffli, Varaxasi nədir". Təqvimin bir vərəqini də çevirdilər, bu adlar çıxdı: Pavsikaxi və Vaxtisi. Qarı dillənib dedi: "Yox, daha mən görürəm ki, bu uşağın bəxti belədir. İndi ki, belə oldu, heç olmasa qoy elə atasının adını qoyaq. Atası Akaki idi, qoy oğlu da Akaki olsun". Beləliklə də Akaki Akakiyeviç əmələ gəldi. Uşağı xaçlayıb ad qoydular, bu zaman uşaq ağlayıb üz-gözünü elə büzüşdürdü ki, elə bil titulyarnı sovetnik olacağını əvvəlcədən duymuşdu. Bəli, bütün bunlar bax, belə baş vermişdi. Biz bütün bunları ona görə qeyd edirik ki, oxucu bunun tamamilə zəruri bir halda əmələ gəldiyini və uşağa başqa ad vermək heç bir cür mümkün olmadığını görə bilsin. Onun departamentə nə vaxt və necə daxil olduğunu və onu bura kim təyin etdiyini heç bir kəs yadına gətirə bilmir. Burda xeyli direktorlar və cürbəcür naçalniklər dəyişmişsə də, onu həmişə həmin yerdə, həmin vəziyyətdə yazı məmuru vəzifəsində görmüşlər; belə ki, sonra hamı bu fikrə gəlmişdir ki, görünür bu adam anadan tamamilə hazır bir halda, əynində vismundir və təpəsi daz bir halda doğulmuşdur. Departa-

məntdə ona heç bir hörmət edilməzdi. O gəlib keçəndə qapıçılar nəinki yerlərindən durmazdılar, hətta ona sarı baxmazdılar da, elə bil ki, qəbul otağından eləcə bir milçək uçub getdi. Naçalniklər onunla birtəhər, soyuq-zalımanə rəftar edərdilər. Şöbə müdiri köməkçilərindən biri kağızı düz onun burnuna soxar, hətta heç deməzdi də ki, "üzünü köçürün" və ya "budur, maraqlı və yaxşıca bir işdir" yaxud yaxşı tərbiyəli idarələrdə olduğu kimi başqa xoş bir söz deməzdilər. O da kağızı alıb yalnız kağıza baxardı; ona kağızı kim verdiyinə və həmin adamın buna ixtiyarı olub-olmadığına əsla baxmazdı. O kağızı alıb həmin saat onu yazmağa hazırlaşardı. Gənc məmurlar onu lağa qoyub dəftərxanalarda mümkün olan dərəcədə hazırcavablıqla ona sataşar, elə oradaca, öz yanında onun barəsində və yetmiş yaşında bir qarı olan ev xanımı barəsində düzəltdikləri cürbəcür rəvayətləri danışar, deyərdilər ki, guya qarı onu döyür; toyları nə vaxt olacağını soruşur və onun başına kağız qırıntıları səpib, bunu qar adlandırardılar. Ancaq Akaki Akakiyeviç bütün bunlara bircə sözlə də cavab verməzdi, elə bil ki, onun qabağında heç bir kəs yoxdur; bu vəziyyət, hətta onun işləməsinə təsir də etməzdi: bütün bu hay-küy içərisində o, yazıda bircə səhv də buraxmazdı. Yalnız zarafat həddən dözülməz bir hal aldıqda onun böyründən itələyib işləməsinə mane olduqları zaman, o deyərdi: "Məndən əl çəkin, məni niyə incidirsiniz?" Onun sözlərində, səsində və bu sözləri ifadə etməsində nəsə qəribə bir şey var idi. Bu səsdə adamı rəhmətə gətirən elə bir şey var idi ki, işə yeni girmiş və başqaları kimi Akaki Akakiyeviçə istehza etməkdə olan bir gənc, birdən-birə oxla vurulmuş kimi donub qaldı və o vaxtdan bəri, sanki hər şey onun nəzərində dəyişib başqa cür göründü. Ədəb-ərkanlı və kübar aləminə məxsus adamlar bilib, tanış olduğu yoldaşlarından onu nə isə qeyri-təbii bir qüvvə uzaqlaşdırdı. Sonra uzun bir müddət, ən şən dəqiqələrdə belə onun gözünün qabağında alçaq boylu və təpəsi daz bir məmur görünüb təsirli sözlərlə: "Məndən əl çəkin, niyə incidirsiniz", – deyərdi və bu təsirli sözlərdə sanki başqa bir məna vardı: "Mən sənin qardaşınam". Həmin bu gənc insanda nə qədər çox insaniyyətsizlik olduğunu, kübarların zahirən zərif mədəniyyətləri altında nə qədər sərt bir kobudluq və aman Allah, hətta hamının nəcib və namuslu saydığı adamlarda da nə qədər sərt bir kobudluq olduğunu görüb öz ömründə sonralar da çox dəfə sarsılmışdı.

Yəqin ki, heç bir yerdə öz vəzifəsinə bu qədər can yandıran bir adam tapmaq olmazdı. Onun can-başla xidmət etdiyini söyləmək azdır: yox, o, eşqlə xidmət edirdi. Orada, bu üzünü köçürmək işində ona nə isə, özünəməxsus çoxnövlü və xoş bir aləm görünürdü. Onun üzündə ləzzət əlamətləri zahir olurdu; bəzi hərflər onun çox sevdiyi hərflər idi. Bu hərflərə rast gəldikdə, o tamamilə özündən çıxardı: həm yavaşcadan gülər, həm göz vurar, həm dodaqları ilə yazmağa kömək edərdi, belə ki, onun qələmi ilə yazdığı hər bir hərfi üzündən oxumaq olardı. Əgər ona öz cidd-cəhdinə görə mükafat verilmiş olsaydı, bəlkə də öz təəccübünə rəğmən, hətta statski sovetnik də ola bilərdi. Lakin onun istehza edən yoldaşlarının söylədikləri kimi, o bu xidmət sayəsində yalnız bir rəsmi məmurluq nişanı, bir də babasil qazanmışdı. Amma demək olmaz ki, ona heç bir diqqət yetirilmirdi. Akaki Akakiyeviçin uzun müddət xidmət etdiyinə görə mükafatlandırmaq arzusu ilə əmr etmişdi ki, ona adi üzünü köçürmədən daha əhəmiyyətli bir iş tapşırsınlar və ona tapşırılmışdı ki, hazır bir iş barəsində başqa bir idarəyə bir təliqə yazsın; iş yalnız bundan ibarət idi ki, yalnız başdakı ünvanı dəyişib və bəzi yerlərdə felləri birinci şəxsdən üçüncü şəxsə keçirməli idi. Bu iş onun üçün elə bir çətinlik törətdi ki, onu tamamilə tər basdı, o alnının tərini silə-silə nəhayət dedi ki, "yox, yaxşısı budur, mənə bir şey verin üzünü köçürüm". O vaxtdan bəri onu həmişəlik üzünü köçürmə işində qoydular. Onun üçün bu üzünü köçürmə işindən başqa guya heç bir şey yox idi. O öz paltarı barəsində də əsla fikirləşməzdi: onun vismundiri yaşıl deyil, nəsə unlu sarı rəngə çalırdı. Yaxalığı çox dar və alçaq idi. Belə ki, boğazı uzun olmadığı halda, yaxalığından kənara çıxıb rus xaricilərinin başlarında on-on daşıdıqları başları yırğalanan gipsdən qayrılmış pişik balalarının boyunları kimi Akaki Akakiyeviçin boynu da həddindən artıq uzun görünürdü. Onun vismundirinə həmişə bir şey, ya bir parça quru ot, ya da nəsə, bir sap qırığı yapışmış olardı; bundan başqa o, elə xüsusi bir məharətə malik idi ki, küçə ilə gedərkən həmişə pəncərənin altına içəridən cürbəcür zibil tullanılan vaxt yetişərdi; buna görə də həmişə onun şlyapasının üstündə qovun-qarpız qabığı və buna bənzər zirzibil olardı. O, ömründə bircə dəfə də olsun, küçədə baş verən hadisələrə diqqət yetirməzdi, halbuki məlum olduğu üzrə, onun tay-tuşları olan gənc məmurlar öz iti nəzərlərinin nüfuzunu o dərəcəyə çatdırırlar ki, küçənin o biri səkisində bir

adamın şalvarının çəkmə altına keçən üzəngi bağının qırıldığını görür və bu həmişə onların üzündə hiyləgər bir gülüş əmələ gətirir.

Əgər Akaki Akakiyeviç bir şeyə baxsaydı da, orada öz təmiz, səliqəli xəttilə yazılmış sətirləri görərdi. Ancaq gözlənilmədən haradansa bir at başı onun çiyninə söykənib burun deliklərindən onun yanaqlarına isti hava buraxdıqda, Akaki Akakiyeviç sətrin ortasında deyil, küçənin ortasında olduğunu görərdi. O, evə gələn kimi həmin saat stolun dalında oturub, şorbasını və bir parça soğanlı mal ətini milçəklərlə və həmin vaxt Allahın qismət etdiyi başqa şeylərlə birlikdə əsla dadını bilmədən, tələsik halda yeyərdi. O, qarnının get-gedə köpdüyünü gördükdə, stolun dalından durar, mürəkkəb dolu kiçik bankanı götürüb evə gətirdiyi kağızların üzünü köçürməyə başlardı. Əgər evə iş gətirməmiş olsaydı, o, qəsdən, yalnız öz zövqü üçün surət çıxarardı, xüsusilə yazılı kağız üslubuna görə deyil, yeni və ya böyük bir adamın adresinə yazılmış olduğuna görə gözəl olsaydı, surətini daha həvəslə çıxarardı.

Hətta Peterburqun boz səması tamamilə söndüyü və bütün məmur əhlinin hərə əlindən gəldiyi kimi aldıqları maaşa və öz həvəslərinə görə yemək yeyib, doymuş olduğu saatlarda da, departamentlərlə qələm cırıldayıb qaçışmaqdan, özünün və özgələrin zəruri işlərindən və yorulmaq bilməyən insanın könüllü olaraq hətta lazım olduğundan artıq dərəcədə öz öhdəsinə götürdüyü işlərdən sonra, hamı artıq istirahət etdiyi zamanda, – elə bir zamanda ki, məmurlar qalan vaxtlarını zövq içində keçirməyə tələsir: zirək olanlar teatra qaçır; kimi, küçəyə çıxıb vaxtını cürbəcür şlyapacılara tamaşa etməklə keçirir; kimi məclisə gedib vaxtını məhdud məmur cəmiyyətinin ulduzu olan qəşəng bir qıza komplimentlər söyləməyə sərf edir; kimi sadəcə, dördüncü və ya üçüncü mərtəbədə iki kiçik otaq, bir dəhliz və ya mətbəxdən ibarət mənzili olan və burada nahar və gəzintilərdən imtina etmək kimi bir çox fədakarlıqlar sayəsində alınmış lampa və ya bir başqa modalı şeylərə malik olan iş yoldaşının evinə gedir ki, bu daha tez-tez baş verir; müxtəsər, hətta elə bir zamanda ki, bütün məmurlar öz dostlarının xırdaca mənzillərinə yığışıb qızğın vist oynayır, bir qəpiklik suxarılarla stəkanlarla çay içir, uzun çubuqlardan tütün sümürür, kart paylarkən yüksək cəmiyyətdən keçib gəlmiş heç bir rusun heç bir zaman və heç bir surətdə imtina edə bilməyəcəyi bir dedi-qodu nağıl

edir, ya da, hətta danışmağa söz olmadıqda Falkonet heykəlinin atının quyruğunun kəsildiyi barədə bir komendanta xəbər verilməsi barədə ədəbi lətifəni danışırlar, – qərəz ki, hamının əylənməyə çalışdığı belə bir zamanda da Akaki Akakiyeviç heç bir şeylə əylənməzdi. Heç bir kəs deyə bilməzdi ki, onu bir vaxt bir müsamirədə görmüş olsun. O, doyunca yazdıqdan sonra yatmaq üçün yerinə girib uzanır və "sabah Allah üzünü köçürməyə bir şey göndərər" ümidilə əvvəlcədən gülümsünərdi. Dörd yüz manat məvaciblə öz taleyindən razı qalmağı bacaran bir adamın dinc həyatı beləcə keçib getməkdə idi və əgər yalnız titulyarnı sovetnik üçün deyil, hətta gizlin, həqiqi, saray və başqa müşavirlər üçün, hətta heç bir kəsə məşvərət etməyib və heç kəsdən məşvərət almayan adamlar üçün də həyat yoluna səpilmiş olan cürbəcür fəlakətlər olmasaydı, bəlkə o, lap qoca yaşlarına qədər bu cür yaşayacaqdı.

Peterburqda ildə dörd yüz manat və ya təxminən o qədər maaş alanların çox qüvvətli bir düşməni var. Bu düşmən bizim şimal şaxtasından başqa bir şey deyil; amma hərçənd, deyirlər ki, guya bu şaxta çox sağlamdır; səhər saat doqquzda, yəni küçələr departamentlərə gedən adamlarla dolu olan bir saatda bu şaxta əsla fərqinə varmadan, bütün burunlara elə şiddətli və sancan çırtmalar vurur ki, yazıq məmurlar əsla bilmirlər ki, burunlarını hara soxsunlar. Hətta yüksək vəzifə sahiblərinin də şaxtadan alınları ağrıdığı və gözləri yaşardığı bu zamanlarda yazıq titulyarnı sovetniklər bəzən çox naçar bir vəziyyətdə qalırlar. Onların canlarını qurtarmaq üçün gücləri yalnız buna çatır ki, cındır şinellərinə bürünüb mümkün qədər beş-altı küçə qaçsınlar, sonra şveysar otağında ayaqlarını möhkəmcə yerə döyüb, beləliklə, öz vəzifələrini yerinə yetirmək qabiliyyətlərinin donunu açsınlar. Akaki Akakiyeviç qanuni məsafəni mümkün qədər sürətlə qaçmağa çalışdığına baxmayaraq bir müddətdən bəri hiss etməyə başlamışdı ki, onu kürəyindən və çiynindən yaman soyuq kəsir. O axır düşündü ki, bəlkə şinelinin bir kəm-kəsiri var. Evdə şinelini yaxşıca nəzərdən keçirdikdə, o iki-üç yerdən, yəni kürəyindən və çiyinlərindən şinelin süzülüb ələyə bənzədiyini gördü; bu yerlərdən mahud o qədər sürtülmüşdü ki, o üzü görünürdü, astar da dağılmışdı. Bunu da bilmək lazımdır ki, Akaki Akakiyeviçin şineli də məmurlar üçün bir istehza vasitəsi idi; bundan,

həttа nəcib şinel adını da alıb kapot adlandırmışdılar. Doğrudan da, bu şinel qəribə bir şəkil almışdı: bunun yaxalığı ildən-ilə kiçilirdi, çünki başqa yerlərinin yamanmasına işlədilirdi. Yamanma işləri dərzinin çox da mahir olmadığını göstərirdi və şinel torbaya bənzər yaraşıqsız bir hal almışdı. Akaki Akakiyeviç işin nə yerdə olduğunu görüb bu qərara gəldi ki, şineli dərzi Petroviçin yanına aparmaq lazım gələcəkdir; bu dərzi haradasa dördüncü mərtəbədə yaşayırdı və ora həyətdən pilləkənlə çıxmaq lazım idi; dərzi taygöz və üzünün başdan-başa çopur olmasına baxmayaraq, əlbəttə, ayıq olduğu zamanlarda və başında başqa fikirlər olmadıqda, məmurların pal-paltarını və hər cür başqa pantalon və frakları xeyli müvəffəqiyyətlə yamaya bilərdi. Əlbəttə, bu dərzi barəsində çox danışmaq lazım deyildi, lakin hekayədəki şəxslərin hər birinin xarakterini aydın göstərmək artıq bir qayda olduğundan bizim də çarəmiz yoxdur. Gəlin Petroviçdən də bir qədər danışaq. Əvvəllər onun adı sadəcə Qriqori idi, özü də bir ağanın təhkimçi nökəri idi. O, sərbəstlik kağızı alıb əvvəllər böyük bayramlarda, sonra isə fərqinə varmadan təqvimdə xaç ilə göstərilmiş bütün kilsə bayramlarında möhkəmcə içməyə başladığı zamandan bəri Petroviç adlanmağa başlamışdı. Bu cəhətdən o, dədə-baba qaydalarına sadiq idi və arvadı ilə mübahisə etdikdə onu el arvadı və alman adlandırardı. İndi ki, biz çaşıb arvadından da danışdıq onun barəsində də bir-iki söz söyləmək lazımdır. Ancaq təəssüf olsun ki, arvad barəsində az şey məlumdur. O da yalnız bundan ibarətdir ki, Petroviçin bir arvadı var: başına hətta yaylıq deyil ləçək bağlayır. Ancaq gözəllik cəhətindən həmin arvad gərək ki, çox lovğalana bilməzdi; hər halda ona rast gəldikdə, yalnız qvardiya soldatları ləçəyinin altına göz yetirib bığlarını oynadar və nə isə xüsusi bir səs çıxarardılar.

Akaki Akakiyeviç, Petroviçin mənzilinə çıxanda, haqq vermək lazımdır, üstü çirkab sularla dolu və məlum olduğu kimi, Peterburq evlərinin hamısının həyət pillələrində daim mövcud olan və adamın gözünü acışdıran spirt qoxusu verən pillələrlə çıxarkən, Petroviçin nə qədər muzd istəyəcəyini düşünüb, öz fikrində iki manatdan artıq verməyəcəyini qərara aldı. Qapı açıq idi, çünki evin xanımı, nə isə bir balıq bişirməkdə olub, mətbəxdə o qədər tüstü əmələ gətirmişdi ki, hətta tarakanları da görmək mümkün deyildi. Akaki Akakiyeviç, hətta,

ev xanımının özünün də gözünə görünmədən, mətbəxdən keçib, nəhayət otağa girdi və burada Petroviçin enli və rənglənməmiş bir taxta stolun üstündə, türk paşası kimi bardaş qurub oturduğunu gördü. Ayaqları iş görməkdə olan dərzilərin adətinə görə yalın idi. Hər şeydən qabaq onun Akaki Akakiyeviçə məlum olan baş barmağı gözə çarpdı, bu barmağın dırnağı eybəcərləşərək bağa çanağı kimi qalın və möhkəm idi. Petroviçin boynundan bir yumaq ipək və başqa saplar asılmışdı, dizinin üstündə də nə isə, köhnə bir şey var idi; sapı keçirə bilmədiyindən qaranlığa və hətta sapın özünə də yaman acığı tutmuşdu. Buna görə də burnunun altında donquldanırdı: "Girmir, məlun, məni lap cana gətirdin, tülüngünün biri!" Akaki Akakiyeviç belə bir məqamda, Petroviçin acıqlı olduğu bir vaxtda gəldiyinə peşman oldu: o, Petroviçin bir qədər kefli olduğu və ya arvadının dediyi kimi: "Taygöz şeytan lap sərsəm olduğu" zamanlarda bir şey sifariş etməyi xoşlardı. Belə hallarda Petroviç adəti üzrə çox həvəslə güzəştə gedər və razılaşardı, hətta baş əyib təşəkkür də edərdi. Düzdür, sonra arvadı gəlib zarıyırdı ki, əri sərxoş olub, ona görə də o işi ucuz götürmüşdür, ancaq belə hallarda bir-iki şahı artırmaqla iş qurtarıb gedərdi. İndi isə Petroviç, deyəsən, ayıq idi. Buna görə də sərtlik eləyəcək, yola gəlməyəcək və kim bilir neçə qoparmaq fikrinə düşəcəkdi. Akaki Akakiyeviç bunu başa düşüb, necə deyərlər, əkilmək istəyirdi, ancaq daha iş-işdən keçmişdi. Petroviç tək gözünü çox diqqətlə ona zilləmişdi, buna görə də Akaki Akakiyeviç istər-istəməz dillənib dedi:

– Salam, Petroviç!

– Salamat olasınız, cənab, – deyə Petroviç Akaki Akakiyeviçin nə gətirdiyini görmək üçün üstdən aşağı onun əlinə baxdı.

– Petroviç, mən sənin yanına gəlmişəm ki, filan... – Bunu da demək lazımdır ki, Akaki Akakiyeviç danışığında cürbəcür adət və nidaları, hətta heç bir mənası olmayan ləfzləri çox işlədirdi. İş bərkə düşəndə, o, hətta, cümləni yarımçıq qoyub, qurtarmazdı. Belə ki, çox zaman nitqini: "Bu, düzü, filan-fəsman..." sözləri ilə başlar, daha artıq bir şey deməz, söyləyəcəyini də unudar və elə güman edərdi ki, hər şeyi deyib qurtarmışdır.

– Nə dediniz? – deyə Petroviç tək gözü ilə onun bütün vismundirini – yaxalığından tutmuş məcələrinə, kürəyinə, ətəyinə və ilməklərinə qədər nəzərdən keçirtdi; bütün bunlar ona çox yaxşı

tanış idi, çünki bunu o özü tikmişdi. Dərzilərin adəti belədir; elə ki, rast gəldi, əvvəlinci iş bu olacaq.

– Mən, budur, filan, Petroviç... şinel, mahudu... görürsən, qalan yerləri hamısı möhkəmdir, ancaq bir az tozlanıb, ona görə də gözə nimdaş kimi görünür, amma təzədir, tək bircə yeri bir az filan... kürəyində, bir də, budur bir çiynindən azca gedib, bir də ki, azacıq bu çiynini görürsən, vəssalam. Bir elə sən deyən iş yoxdur...

Petroviç kapotu götürüb, əvvəlcə stolun üstünə sərdi, bir xeyli nəzərdən keçirəndən sonra başını yırğaladı və əlini pəncərəyə uzadıb dəyirmi burunotu qabını götürdü; qabın üstündə general şəkli var idi, bu generalın kim olduğu məlum deyildi, çünki onun üzünün rəngini barmaq sürtüb aparmışdı, üstünə də dördkünc bir kağız parçası yapışdırılmışdı. Petroviç burunotu çəkəndən sonra kapotu əlinə alıb açdı, işığa sarı tutub bir də başını yırğaladı. Sonra onu tərsinə çevirdi, yenə başını yırğaladı və əl atıb general şəklinin üstünə kağız yapışdırılmış qapağı açdı, burnuna bir az burunotu qoyandan sonra qapağı örtdü, burunotu qabını yerinə qoydu və nəhayət dilləndi:

– Yox, düzəltmək olmaz, ələk kimidir!

Bu sözləri eşitdikdə, Akaki Akakiyeviçin ürəyi düşdü.

– Axı niyə olmaz ki, Petroviç? – deyə o, demək olar ki, yalvaran bir uşaq səsi ilə soruşdu. – Axı bircə elə çiyinləri bir az gedib, axı səndə yəqin ki, parça-tikə tapılar...

– Parça-tikə tapmaq olar, parça-tikə tapılar, – deyə Petroviç cavab verdi. – Ancaq tikmək olmaz, parça tamam çürüyüb, iynəni vurarsan mal süzülüb gedər.

– Qoy getsin, sən də həmin saat yamaqla.

– Axı yamağı qoymağa yer yoxdur, onu bənd eləməyə şey yoxdur, mal yaman köhnəlib. Mahudun eləcə adı qalıb, əl vursan tikə-tikə olar.

– Birtəhər bənd elə də. Axı bəs bu necə olsun, filan-fəsman!..

– Yox, – deyə Petroviç qəti cavab verdi. – Heç bir şey eləmək olmaz. İş yaman xarabdır. Yaxşısı budur ki, qışın soyuğu gələndə bundan özünüzə bir patava qayırın, çünki corab ayağı isti saxlamaz. Onu almanlar çıxarıblar ki, özlərinə bol pul qazansınlar (Petroviç yeri düşdükdə almanları sancmağı xoşlardı); görünür ki, siz özünüzə təzə bir şinel tikdirməli olacaqsınız.

"Təzə" sözünü eşitdikdə Akaki Akakiyeviçin gözlərinə qaranlıq çökdü, otaqda olan bütün şeylər gözünün önündə hərlənməyə başladı. O yalnız Petroviçin burunotu qabının üstündə olan və üzünün yerinə kağız yapışdırılmış generalı aydın görürdü. O hələ də yuxuda imiş kimi dilləndi:

– Necə yəni təzəsini? Axı bunun üçün heç mənim pulum da yoxdur.

– Bəli, təzəsini, – deyə Petroviç rəhmsiz bir soyuqqanlılıqla cavab verdi:

– Yaxşı, əgər təzəsini tikdirməli olsam, onda onun filan-fəsman...

– Yəni neçəyə oturar?

– Hə.

– Yüz əlli manatdan da bir az artıq xərc qoymalısınız, – deyə Petroviç dodaqlarını mənalı-mənalı büzdü. O, təsirli sözlər söyləməyi çox sevərdi. Birdən bir adamı çaşdırıb mat qoymağı, sonra isə belə sözlərdən çaşıb qalmış adamın üz-gözünü necə turşutduğuna qıyqacı baxmağı xoşlayardı.

– Bir şinelə yüz əlli manat! – deyə yazıq Akaki Akakiyeviç, bəlkə də bütün ömründə ilk dəfə olaraq səsini ucaltdı, çünki o həmişə səsinin yavaşlığı ilə seçilərdi.

– Bəli, bəli, – deyə Petroviç cavab verdi. – Bir də şinel var, şinel var. Əgər yaxasına dələ xəzi qoysan, ipək astarlı başlıq da tikdirsən, iki yüz manat da götürər.

– Petroviç, sən allah, – deyə Akaki Akakiyeviç Petroviçin dediyi sözləri eşitməməyə çalışaraq yalvarıcı səslə dilləndi. – Birtəhər düzəlt, bəlkə bir az də işimə yaraya.

– Yox, canım, heç bir şey çıxmaz: işim də hədər gedər, sənin pulların da, – deyə Petroviç cavab verdi. Akaki Akakiyeviç belə sözlərdən sonra, tamamilə ruhdan düşmüş halda otaqdan çıxdı. Petroviç isə, o getdikdən sonra da dodaqlarını mənalı-mənalı büzüb xeyli müddət işə başlamadı; o, özünü hörmətdən salmadığından və dərzilik sənətini alçaltmadığından razı qalmışdı.

Akaki Akakiyeviç küçəyə çıxdıqda, yuxulu kimi öz-özünə deyirdi ki:

– Bir işə bax ha, mən heç düzü güman eləməzdim ki, iş belə filan... – Sonra isə, bir müddət susub əlavə etdi. – Bəs belə! Axır ki, işdən düşdü, düzü mən heç güman eləməzdim ki, filan-fəsman.

Bu sözlərdən sonra o yenə xeyli müddət sükut etdi, ondan sonra yenə dedi:

– Bəli, belə işlər! Düzü heç gözləməzdim, filan... bunu heç gözləməzdim... Bir vəziyyətə bax ha... – O bu sözlərdən sonra evə getmək əvəzinə, özünün də xəbəri olmadan, tamamilə əks tərəfə getdi. Yolda bir bacatəmizləyən çirkli böyrü ilə ona toxunub çiynini qaraladı; tikilməkdə olan bir evin yuxarısından onun üstünə bir şapka dolusu əhəng töküldü. O bunların heç birindən xəbər tutmadı. Yalnız, xeyli sonra, alebardasını qabağına qoyub, buynuzun içindən qabarlı ovcuna burunotu tökən bir keşikçi ilə toqquşduqda, Akaki Akakiyeviç bir qədər özünə gəldi; bu da ona görə oldu ki, keşikçi dillənib ona dedi:

– Nə olub, adamın lap başına çıxırsan, qabağında səkini görmürsən?

Bu sözlər Akaki Akakiyeviçi ətrafına göz gəzdirməyə və qayıdıb evə getməyə məcbur etdi. O, yalnız bu zaman fikirlərini toplamağa başladı, öz vəziyyətini aydın və olduğu kimi gördü, özü ilə artıq qırıq-qırıq deyil, ən səmimi və ən yaxın bir iş barəsində söhbət edilə bilən nəcib bir dost ilə danışan kimi mühakiməli və açıq bir surətdə danışmağa başladı. Akaki Akakiyeviç öz-özünə dedi:

– Xeyr, görünür ki, arvad onu kötəkləyib; yaxşısı budur ki, bazar günü səhər onun yanına gedərəm: hələ şənbə günündən sonra gözü axacaq, özü də yuxulu olacaq, çünki içkinin xumarı gələcək, o yenə içmək istəyəcək, arvadı isə pul verməyəcək, bu zaman mən onun ovcuna ikicə şahı basaram, yumşalar, onda şinelin də işi düzələr...

Akaki Akakiyeviç öz-özü ilə bu cür danışıb, özünə ürək-dirək verirdi. O, birinci bazar gününün gəlib çatmasını gözlədi və uzaqdan Petroviçin arvadının evdən çıxaraq hara isə getdiyini görüb, özünü tez onun yanına saldı. Petroviç, doğrudan da, şənbə günündən sonra xumar-xumar baxırdı, başı döşəməyə doğru əyilmişdi, özü də lap yuxulu idi; ancaq bütün bunlarla bərabər işin nə yerdə olduğunu bilən kimi, elə bil şeytan dümsüklədi.

– Olmaz, – deyə o dilləndi. – Buyurun təzəsini tikdirin. – Akaki Akakiyeviç bu zaman onun ovcuna bir-iki şahılıq basdı. – Təşəkkür edirəm, cənab, sizin sağlığınıza bir balaca özümü bərkidərəm, – deyə Petroviç cavab verdi. – Amma şinel barəsində heç bir şey çıxmaz, təzə şineli sizin üçün lap qiyamət tikərəm, necə ki, lazımdır çalışaram.

Akaki Akakiyeviç yenə də yamamaq barəsində danışmaq istədisə də, ancaq Petroviç onu sözünü qurtarmağa qoymayıb dedi:

– Təzə şineli sizin üçün lap əla tikərəm, bu barədə arxayın olun, lap can yandıraram. İstəyirsiniz lap indiki moda ilə yaxasını taxma gümüşpəncə düymələr də qoyaram.

Akaki Akakiyeviç gördü ki, daha təzə şinelsiz heç cür iş düzəlməyəcək, buna görə də tamamilə ruhdan düşdü. Axı, doğrudan da, necə olsun, şineli nə ilə, hansı pul ilə tikdirsin? Əlbəttə, bayram üçün veriləcək gələcək mükafata bir qədər ümid bağlamaq olardı, ancaq bu pul qabaqcadan bölünüb paylaşdırılmışdı. Təzə pantalon almaq, çəkməçiyə nimdaş boğazlara təzə pəncə tikdiyi üçün köhnə borcu vermək, bir də alt paltarı tikən arvada üç köynək və yazılı əsərdə adını çəkmək ədəbsizlik sayılacaq iki alt paltarı tikdirmək lazım idi, müxtəsər, bütün pullar xərclənib gedəcəkdi. Hətta əgər müdirə mərhəmət güc gəlib onu qırx manat mükafat əvəzinə qırx beş, ya əlli manat təyin etdirmiş olsa, yenə də orada çox azacıq bir şey qalacaq ki, bu, şinel kapitalında, dənizdə bir qətrə kimi görünəcəkdir. Hərçənd, o bilirdi ki, Petroviç hərdən ağla sığmayan qiymətlər söyləməyə həvəslidir, belə ki, bəzən arvadı özü də özünü saxlaya bilməyib çığırardı: "Nə danışırsan, dəli olubsan nədi, axmağın biri! Gah görürsən ki, heçə-puça işləyir, indi isə şeytan onu azdırıb elə bir qiymət deyir ki, heç özü də o qiymətə dəyməz". Hərçənd, əlbəttə, o bilirdi ki, Petroviç səksən manata da şinel tikər, amma yenə də bu səksən manatı o haradan tapsın? Yarısını yenə birtəhər tapmaq olar: yarısını tapmaq mümkündür, hətta bəlkə bir az artıq da düzələr; bəs qalan yarısını haradan tapsın. Ancaq əvvəlcə oxucu gərək bilsin ki, bu pulun birinci yarısı haradandır. Akaki Akakiyeviçin belə bir adəti var idi ki, xərclədiyi hər manatdan bir quruşunu ağzı açarla bağlanan və üstündən pul salmaq üçün ensiz kəsiyi olan kiçik bir qutuya atardı. Hər yarım ildə o, yığılmış mis pulları yoxlar və onları xırda gümüş pul ilə əvəz edərdi. O, xeyli müddətdən bəri bu işə davam edib, bu surətlə bir neçə il ərzində qırx manatdan da bir qədər artıq pul yığmışdı. Beləliklə, şinelin pulunun yarısı nağd idi; bəs qalan yarısını haradan tapsın? O biri qırx manatı haradan tapsın? Akaki Akakiyeviç düşünüb-daşınıb bu qərara gəldi ki, gərək adi xərclərini heç olmasa bir ilin ərzində bir qədər azaltsın: axşamlar çay içməkdən əl çəksin, gecələr şam yandırmasın, əgər bir iş görmək lazım gəlsə, ev xanımının otağına gedib onun şamının işığında işləsin; küçə ilə gedərkən ayaqlarını

daşlara mümkün qədər yavaşca, ehtiyatla qoyub pəncələri üstündə yeriyən kimi yerisin ki, beləliklə, ayaqqabılarının altını vaxtından əvvəl dağıtmasın. Alt paltarını yumağa mümkün qədər gec-gec versin, alt paltarı dağılmamaq üçün, hər dəfə evə gəldikdə, onu əynindən çıxarıb bircə demikoton xalatında gəzsin.; bu xalat da çox qədim şey idi, hətta zamanın özü ona hörmət eləyib, ömrünü bir qədər uzatmışdır. Düzünü demək lazımdır ki, əvvəllər belə məhdudluqlara alışmaq onun üçün bir qədər çətin idi. Ancaq sonra birtəhər alışdı və işlər yoluna düşdü; hətta o, axşamlar özünü ac qalmağa tamamilə öyrətdi; ancaq bunun müqabilində, fikrində gələcək şinel ideyasını əbədi bir surətdə saxladığından, mənəvi cəhətdən qida alırdı. Bu vaxtdan etibarən onun mövcudiyyəti özü də deyəsən bir qədər tamamlanmışdı. Elə bil ki, o evlənmişdi, elə bil ki, onun yanında başqa bir adam var idi, elə bil ki, o tək deyildi, xoş bir həyat yoldaşı ömür yolunu onunla birlikdə getməyə razı olmuşdu və bu həyat yoldaşı həmin o qalın pambıq sırıqlı, möhkəm, astarı süzülməmiş şineldən başqa bir şey deyildi. Akaki Akakiyeviç öz qarşısında müəyyən bir məqsəd qoymuş bir adam kimi, nə isə xeyli canlanmış, hətta xasiyyətcə möhkəmlənmişdi. Şübhə, qətiyyətsizlik, bir sözlə, bütün mütərəddid və qeyri-müəyyən əlamətlər öz-özlüyündə onun üzündən və hərəkətlərindən yox olub getmişdi. Bəzən onun gözlərində bir od parlar, hətta, başında ən cürətli və cəsarətli fikirlər dolaşardı: doğrudan da şinelin yaxasına dələ xəzi qoymasınmı? Bu barədə düşüncələr az qalmışdı ki, onu huşsuz etsin. Bir dəfə o, bir kağızın üzünü köçürərkən az qalmışdı səhv etsin, belə ki, "uf!" – deyə çığırmış və xaç vurmuşdu. Hər ayın ərzində o heç olmazsa bir dəfə Petroviçə baş çəkib onunla şinel barəsində, mahudu haradan almağın yaxşı olacağı barəsində və mahudun nə rəngdə və neçəlik olması barəsində söhbət edərdi. Hərçənd bir qədər qayğılı da olsa, evə həmişə razı qayıdardı; düşünərdi ki, nəhayət bir gün gələcək, bütün bunlar alınacaq və şinel tikiləcəkdir. İş, hətta, onun gözlədiyindən də sürətlə getdi. Tamamilə gözlənmədən, direktor Akaki Akakiyeviçə qırx və ya qırx beş manat deyil, düz altmış manat təyin etdi: "Akaki Akakiyeviçə şinel tikdirmək lazım olduğunu duymuşdumu, yoxsa bu öz-özünə əmələ gəlmişdimi, ancaq beləliklə Akaki Akakiyeviçin iyirmi manat artıq pulu olmuşdu. Bu vəziyyət işin gedişini sürətləndirdi. Bir-iki üçcə

ay da azacıq aclığa dözmüş olsa, Akaki Akakiyeviçin, doğrudan da səksən manat pulu yığılmış olacaqdı. onun ümumiyyətlə, sakit olan ürəyi döyünməyə başlamışdı. Elə birinci gün o, Petroviçlə dükanlara getdi. Çox yaxşı mahud aldılar, – bəs necə, çünki, bu barədə hələ yarım il qabaqcadan fikirləşmişdilər və çox ay olardı ki, onlar qiymət bilmək üçün dükanlara getməyə idilər. Bunun müqabilində Petroviç özü demişdi ki, bundan yaxşı mahud heç ola da bilməz. Astarlıq üçün kolenkor aldılar, ancaq bu elə yaxşı və sıx toxunmuş kolenkor idi ki, Petroviçin dediyinə görə ipəkdən də yaxşı idi, hətta görkəm cəhətindən də ondan qəşəng və şux idi. Dələ xəzi almadılar, çünki doğrudan da baha idi, onun əvəzinə yaxşı bir pişik dərisi seçdilər, dükanda bundan yaxşısı yox idi, bu elə bir pişik dərisi idi ki, uzaqdan onu həmişə dələ xəzinə bənzətmək olardı. Petroviç şinelin üzərində cəmi ikicə həftə işlədi, çünki sırıq işi çox idi, əgər bu olmasaydı, onu daha tez qurtarardı. Petroviç on iki manat muzd aldı; bundan az almaq heç cür mümkün deyildi: hamısını ipəklə tikmiş, iki qat xırda tikişlə getmiş və bütün tikişləri Petroviç sonra öz dişləri ilə sıxa-sıxa cürbəcür fiqurlar işləmişdi. Bu əhvalatın, düzü, hansı gündə olduğunu söyləmək çətindir; ancaq, yəqin ki, bu gün Akaki Akakiyeviçin ömründə ən təntənəli bir gün idi, çünki bu gün Petroviç şineli gətirib gəlmişdi. O, şineli səhər tezdən, departamentə getmək vaxtından bir azca əvvəl gətirib gəlmişdi. Şinel heç bir zaman indiki kimi yerinə düşə bilməzdi; çünki artıq bərk şaxtalar başlamışdı və bu şaxtaların getdikcə daha da şiddətlənəcəyi gözlənilirdi. Petroviç yaxşı bir dərziyə yaraşan kimi, şineli gətirib gəlmişdi. Onun üzündə elə bir mənalı ifadə var idi ki, Akaki Akakiyeviç bunu heç bir zaman hələ görməmişdi. Sanki o, böyük bir iş görmüş olduğunu tam mənasilə duymuşdu və birdən-birə özündə elə sonsuz bir qabiliyyət olduğunu göstərmişdi ki, bu, təzə paltar tikən dərzilərlə yalnız astar çəkən və yamaq-yırtıq edən dərziləri bir-birindən ayırır. O, şinelini bükdüyü cib dəsmalını açdı. Bu dəsmal paltaryuyan arvaddan yenicə alınmışdı. Petroviç həmin dəsmalı sonra işlətmək üçün büküb cibinə qoydu. O şineli çıxardıb çox lovğa-lovğa gözdən keçirtdi və hər iki əli ilə tutub, çox çevik bir hərəkətlə Akaki Akakiyeviçin çiyninə saldı. Sonra bir az dartdı və arxadan əli ilə çəkib yerinə oturtdu; sonra onu Akaki Akakiyeviçin əyninə bir qədər yaxası açıq geydirdi. Akaki Akakiyeviç yaşlı bir

adam olduğu üçün, şinelin qollarını geymək istədi. Petroviç qollarını geyməyə də ona kömək etdi, məlum oldu ki, qollarını geyəndə də yaxşı durur. Müxtəsər, aşkar oldu ki, şinel tamamilə yaxşı tikilmişdir. Bu zaman Petroviç fürsəti əldən verməyib dedi ki, o yalnız lövhəsiz və kiçik bir küçədə yaşadığı üçün, belə ucuz qiymətə tikir; əgər Neva prospektində tikdirmiş olsaydı, ondan bircə əlmuzdu olaraq yetmiş beş manat alacaqdılar. Akaki Akakiyeviç bu barədə Petroviçlə bəhsə girişmək istəmirdi, bir də ki, Petroviçın adamı çaşdırmaq üçün sadaladığı bütün böyük məbləğlərdən qorxurdu. O, Petroviçlə haqq-hesabı üzüb ona təşəkkür etdi və həmin saat təzə şineli geyib departamentə getmək üçün küçəyə çıxdı. Petroviç də onun ardınca çıxıb küçədə duraraq xeyli müddət uzaqdan şinelə baxdı və sonra qəsdən bir kənara getdi ki, əyri döngədən keçib, yüyürə-yüyürə yenidən həmin küçəyə çıxsın və öz şinelinə bir də o biri tərəfdən, yəni qabaqdan baxsın. Bu zaman Akaki Akakiyeviç, bütün duyğuları bayramsayağı coşqun bir halda getməkdə idi. O, dəqiqənin hər bir anında hiss edirdi ki, əynində təzə şinel var. Hətta daxili şadlığından o bir neçə dəfə gülmüşdü də. Doğrudan da o, iki başlı qazanmışdı: biri bu idi ki, ona xüsusi göz yetirsin. Nə surətdə isə, departamentdə birdən-birə hamı xəbər tutdu ki, Akaki Akakiyeviçin şineli təzədir. Daha kapot yoxdur. Həmin dəqiqə hamı Akaki Akakiyeviçin şinelinə tamaşa etmək üçün şveysar otağına yüyürüşürdü. Ona mübarəkbadlıq etməyə başladılar. Belə ki, o əvvəlcədən yalnız gülümsündü, sonra isə, hətta, utandı. Hamı bir-bir onun yanına gəlib təzə şinelin şirnisini istədikdə və heç olmazsa hamıya bir axşam qonaqlığı vermək lazım gəldiyini söylədikdə, Akaki Akakiyeviç tamamilə özünü itirdi, bilmədi nə etsin, nə cavab versin və yaxasını necə qurtarsın. O, bir neçə dəqiqədən sonra qıpqırmızı olmuş halda xeyli sadədilliklə sözə başlayıb hamını inandırmağa çalışdı ki, bu heç də təzə şinel deyil, elə-belə, köhnə şineldir. Axırda məmurlardan biri, hətta şöbə müdirinin müavini, yəqin ki, özünün heç də lovğa olmadığını və özündən aşağı dərəcəli adamlarla dostluq etdiyini göstərmək üçün, dedi ki, "yaxşı, Akaki Akakiyeviçin əvəzinə mən sizə axşam qonaqlığı verirəm və xahiş edirəm bu gün bizə çaya gələsiniz, bir də ki, elə yerinə düşüb bu gün mənim ad günümdür". Məmurlar səmimiyyətlə həmin saat şöbə müdiri müavinini təbrik etdilər və onun təklifini həvəslə qəbul

etdilər. Akaki Akakiyeviç bir təhərlə boyun qaçırmaq istədisə də, ancaq hamı onu başa saldı ki, bu hörmətsizlik olar, belə etmək ayıbdır, o da artıq heç cür boyun qaçıra bilmədi. Amma sonra o, bu münasibətlə təzə şinelində axşam da küçəyə çıxıb gedəcəyini yadına salanda bu iş ona xoş gəldi. Bütün bu gün Akaki Akakiyeviç üçün, doğrudan da, ən böyük təntənəli bir bayram idi. O, tamamilə kefi kök halda qayıdıb evə gəldi, şinelini çıxarıb ehtiyatla divardan asdı, mahuda və astara bir də baxıb ləzzət aldı və sonra qəsdən müqayisə etmək üçün tamamilə üzülüb getmiş olan köhnə kapotunu çıxartdı. Həmin kapotu gözdən keçirib, hətta, özü də güldü. Şineli ilə bunun arasında nə qədər böyük bir fərq var idi! Hələ sonra da, yemək yeyərkən o, kapotun nə vəziyyətdə olduğunu ağlına gətirən kimi, hey gülürdü. O, şən bir halda yemək yeyib yeməkdən sonra daha heç bir kağız yazmadı, yatağında bir qədər xumarlanıb, havanın qaralmasını gözlədi. Sonra işi uzatmayıb geyindi, şineli çiyninə saldı və küçəyə çıxdı. Onu qonaq çağıran məmurun harada yaşadığını, çox təəssüf ki, deyə bilməyəcəyik: yaddaşımız yaman korlanmışdır, Peterburqda nə qədər küçə və ev varsa, hamısı başımızda bir-birinə elə qarışmışdır ki, oradan ağıllı-başlı bir şey tapıb çıxarmaq yaman çətindir. Hər nə olursa-olsun, bircə şey yəqindir ki, həmin məmur şəhərin yaxşı hissəsində yaşayırdı və deməli ki, Akaki Akakiyeviçin mənzilinə çox da yaxın deyildi. Akaki Akakiyeviç əvvəlcə işığı zəif olan bəzi tənha küçələrdən keçməli oldu, ancaq həmin məmurun mənzilinə yaxınlaşdıqca, küçələr daha canlı, gediş-gəlişli və daha işıqlı bir hal alırdı. O, adamlara daha tez-tez rast gəlirdi. Gözəl geyinmiş xanımlar da gözə dəyməyə başladı. Rast gələn kişilər yaxalarına qunduz xəzləri vurmuşdular; üzərinə zərli mıxlar çalınmış taxta barmaqlıqlı xizəkləri olan vankalara daha az-az təsadüf edilir, əksinə, moruq rəngli məxmər şapka qoymuş, laklı xizəkləri, ayı dərisindən örtükləri olan sürücülər tez-tez görünür, şahnişinləri bəzəkli karetalar təkərləri qarın üstündə cırıldaya-cırıldaya sürətlə küçədən keçib gedirdi. Akaki Akakiyeviç bütün bunlara yeni bir şey kimi baxırdı, neçə illər idi ki, o, axşamlar küçəyə çıxmazdı. O, maraqla bir mağazanın pəncərəsi önündə durub içəridəki şəklə tamaşa etməyə başladı; bu şəkildə çəkməsini çıxaran gözəl bir qadın başdan-başa çılpaq, qəşəng ayağını açıb göstərirdi; onun arxa tərəfində başqa bir otağın qapısından bakenbardlı və

dodağının altında qəşəng ispan- sayağı saqqalı olan bir kişi başını çıxarmışdı. Akaki Akakiyeviç başını yırğalayıb güldü və yoluna davam etdi. O, nə üçün gülmüşdü, əsla tanış olmayan, lakin hər kəsin, hər halda, haqqında müəyyən bir duyğusu olan bir şeyə rast gəldiyi üçünmü, yoxsa o da bir çox başqa məmurlar kimi düşünürdü ki, "Aman bu fransızların əlindən! Nə deyəsən bir şeyi ki, filan eləmək istəsələr, yəqin ki, eləyəcəklər filan-fəsman..." Bəlkə də o, hətta heç bunu da düşünmürdü, axı insanın qəlbinə girib onun bütün fikirlərini bilmək olmaz. Nəhayət o, şöbə müdiri müavininin yaşadığı evə gəlib çatdı. Şöbə müdiri müavini gen-bol yaşayırdı: Pilləkən başında bir fanar yanırdı, mənzil ikinci mərtəbədə idi. Akaki Akakiyeviç giriş otağına daxil olduqda, yerdə cərgə-cərgə qaloşlar gördü. Onların arasında, otağın ortasında qoyulmuş bir samovar həm səslənir, həm də yaman buğlanırdı. Divarlardan şinellər və plaşlar asılmışdı, bunların bəzilərinin yaxalarında qunduz xəzi və məxmər var idi. Divarın o tayından hay-küy və danışıq səsləri gəlirdi; birdən-birə qapı açılıb, bir lakey əlində boş stəkanlar, qaymaq qabı və bir səbət suxarı ilə dolu olan bir məcməyi ilə gəldikdə, bu səslər aşkar və aydın eşidildi. Görünür məmurlar artıq çoxdan yığışmışdılar, adama bir stəkan çay da içmişdilər. Akaki Akakiyeviç özü öz şinelini asıb otağa girdi və onun qarşısında bir anda həm şamlar, həm məmurlar, həm trubkalar, həm kart stolları görünüb hər tərəfdən yüksələn danışıq səsləri və o yan-bu yana çəkilən stul gurultuları onu çaşdırdı. O, çox yöndəmsiz bir halda otağın ortasında durub, nə edəcəyini düşünərək, bir çarə tapmağa çalışdı. Ancaq onu artıq görmüşdülər. Onu hay-küylə qarşılayıb, həmin saat giriş otağına keçdilər və onun şinelini bir də nəzərdən keçirməyə başladılar. Akaki Akakiyeviç bir qədər utanan kimi oldusa da, ancaq təmiz ürəkli bir adam olduğundan, hamının şineli tərifləməsinə sevinməyə bilmədi. Məlum şeydir ki, sonra hamı onun sözündən də, şinelindən də əl çəkib, öz qaydasilə, vist oyunu oynayan stolun başına yığışdılar. Bütün bu səs-küy, danışıq, yığın-yığın adamlar, bunlar hamısı Akaki Akakiyeviçə nə isə qəribə görünürdü. O, heç bilmirdi ki, əllərini, ayaqlarını, bütün vücudunu hara soxsun; qumar oynayanların yanında oturub kartlara tamaşa etdi, onun-bunun üzünə doyunca baxdı və bir qədərdən sonra darıxdığını hiss edib əsnəməyə başladı; bir də ki, onun adət elədiyi yatmaq vaxtı çoxdan

keçmişdi. O, ev sahibi ilə görüşüb xudahafizləşmək istədi, ancaq onu buraxmayıb dedilər ki, təzə paltarın şirinliyi üçün heç olmazsa adama bir qədəh şampan şərabı içməlidirlər. Bir saat sonra vineqretdən, dana əti soyutmasından, paştetdən, konditer piroqlarından və şampan şərabından ibarət axşam yeməyini gətirdilər. Akaki Akakiyeviçə iki qədəh şərab içirtdilər. Bunları içdikdən sonra o adamların şənləndiyini hiss etdi, ancaq heç bir surətlə yadından çıxara bilmədi ki, artıq saat on ikidir və evə getmək vaxtıdır. Ev sahibinin yenə onu birtəhər tutub saxlamaması üçün, o gizlincə otaqdan çıxdı, giriş otağında öz şinelini tapdı və çox təəssüflə onun yerə düşmüş olduğunu gördü, onu çırpdı, üstünə yapışan xırdaca tükləri qoparıb atdı, çiyninə saldı və pillələrlə düşüb küçəyə çıxdı. Küçə hələ işıq idi. Nökərlərin və hər cür xırda-xuruş adamların həmişəlik klubları olan xırdaca dükanlar açıq idi. Bağlı olan bəzi dükanların qapıları arasında da uzun işıq zolaqları görünürdü ki, bu da həmin dükanlarda adam olduğunu göstərirdi; bunlar yəqin ki, öz ağalarını nigaran qoyub dedi-qodu və söhbətlərini başa vurmaqda olan nökər və ev xidmətçiləri idilər. Akaki Akakiyeviç, kefi kök halda getməkdə idi, hətta, birdən-birə səbəbi məlum olmadan, bir xanımın dalınca azacıq yüyürən kimi də oldu; xanım isə bir ildırım sürətilə onun yanından keçib getdi; onun bədəninin bütün hissələri qeyri-adi bir surətdə tərpəşməkdə idi. Lakin Akaki Akakiyeviç elə həmin saat ayaq saxlayıb yenə əvvəlki kimi sakit-sakit yeriməyə başladı və haradan əmələ gəldiyi məlum olmayan öz iti yerişinə təəccübləndi. Bir az sonra onun qarşısına həmin tənha küçələr çıxdı ki, bunlar elə gündüzlər də o qədər gur olmur; o ki qaldı gecə ola. İndi həmin küçələr daha tənha və kimsəsiz idi. Fanarlara az-az rast gəlmək olurdu, görünür yağları qurtarmışdı. Taxta evlər və barılar görünməyə başladı; ins-cins görünmürdü; küçənin ortasında yalnız qar parıldayır, bir də yuxuya getmiş alçaq daxmacıqların örtülmüş pəncərə taxtaları qəmgin-qəmgin qaralırdı. Akaki Akakiyeviç bir yerə gəlib çıxdı ki, burada küçə ucsuz-bucaqsız bir meydana qovuşurdu. Meydanın o biri başında evlər zorla seçilir, meydanın özü isə qorxunc bir səhra kimi görünürdü.

Uzaqlarda, Allah bilir harada isə, dünyanın o biri ucunda imiş kimi görünən bir budkadan azacıq işıq gəlirdi. Burada Akaki Akakiyeviçin şənliyi xeyli azaldı. O, qeyri-ixtiyari bir qorxu içində

meydana ayaq basdı, elə bil ürəyinə dammışdı ki, bir bədbəxtlik üz verəcək. O dönüb arxasına və ətrafına göz gəzdirdi: elə bil dənizin ortasında idi. "Yox, yaxşısı budur ki, heç baxmayım," – deyə o düşündü və gözlərini yumub yeriməyə başladı. O, meydanın axırına çoxmu və ya azmı qaldığını bilmək üçün gözlərini açdıqda, birdən-birə gördü ki, qarşısında, demək olar ki, lap burnunun qabağında bığlı adamlar durmuşdur; o hətta, bunların necə adam olduqlarını seçə bilmədi. Onun gözləri qaraldı və ürəyi şiddətlə döyünməyə başladı. "Axı bu şinel mənimkidir!" – deyə adamlardan biri göy gurultusuna bənzər bir səslə bağırıb, Akaki Akakiyeviçin yaxasından yapışdı. Akaki Akakiyeviç "Qarovul!" – deyə çığırmaq istəyirdi ki, o biri adam bir məmur başı boyda olan yumruğunu ağzına dirəyib dedi: "Bir səsini çıxar görüm!" Akaki Akakiyeviç yalnız bunu hiss etdi ki, onun şinelini çıxartdılar, özünə də bir təpik vurdular; o, üzü-üstə qarın içinə yıxılıb, huşunu itirdi. Bir neçə dəqiqədən sonra özünə gəlib, ayağa qalxdı; ancaq daha yanında heç kəs yox idi. O, hiss etdi ki, çöl soyuqdur, əynində də şineli yoxdur; o, çığırmağa başladı, lakin səsi heç meydanın axırına çatmadı. O, məyus halda çığıra-çığıra meydandan keçib, budkaya sarı yüyürdü; budkanın yanında keşikçi öz alebardasında dayanıb maraqla baxırdı ki, görsün uzaqdan çığıra-çığıra onun üstünə yüyürən bu adam nə olan şeydir? Akaki Akakiyeviç onun yanına çatıb tövşüyərək bir səslə çığırmağa başladı ki, o, yatır, heç bir şeyə göz yetirmir və adamı soyduqlarını görmür. Keşikçi cavab verdi ki, o heç bir şey görməmişdir, yalnız onu görmüşdür ki, kim isə iki nəfər adam onu meydanın ortasında saxladılar, o güman edirmiş ki, bunlar onun tanışlarıdır; boş-boşuna deyinməkdənsə, yaxşısı budur ki, o, sabah nəzarətçinin yanına getsin, nəzarətçi şineli aparan adamları tapar. Akaki Akakiyeviç evə tamamilə pərişan bir halda gəlib çıxdı: hələ gicgahlarında və peysərində təkəmseyrək qalan saçları tamamilə bir-birinə qarışmışdı. Böyürləri, sinəsi və bütün pantalonu qar içində idi. Onun mənzilinin sahibi olan qarı qapının qəribə bir surətdə döyüldüyünü eşidib, yatağından sıçramış və bir ayağında başmaq, tələsik qapını açmağa yüyürüb, həya üçün, bir əli ilə köynəyini tutmuşdu; lakin qapını açdıqda, Akaki Akakiyeviçi bu gündə görüb geri çəkildi. Akaki Akakiyeviç işin nə yerdə olduğunu danışdıqda, qarı əllərini yelləyib düz məntəqə rəisinin yanına getmək lazım olduğunu dedi, çünki

kvartal nəzarətçisi vədə verib onu aldadar və süründürməyə salar; hamısından yaxşısı budur ki, məntəqə rəisinin yanına getsin, o hətta bir qədər tanışdır, çünki əvvəllər bunun yanında aşpaz işləyən çuxonlu Anna indi məntəqə rəisinin yanında dayə işləyir. O özü məntəqə rəisinin onların evinin yanından karetada keçib getdiyini tez-tez görür, o hər bazar günü kilsəyə gəlib dua edir və eyni zamanda şən-şən hamını nəzərdən keçirir, deməli ki, bütün bunlardan məlum olduğuna görə, o yaxşı bir adam olmalıdır. Akaki Akakiyeviç bu qərarı dinləyib qəmgin halda öz otağına keçdi və onun orada həmin gecəni necə başa vurduğunu başqasının vəziyyəti az-çox təsəvvür edə bilən adamın öz mühakiməsinə buraxırıq. Səhər tezdən Akaki Akakiyeviç məntəqə rəisinin yanına getdi; ancaq dedilər ki, o yatır; Akaki Akakiyeviç saat onda bir də getdi, yenə dedilər ki, yatır, o, bir də saat on birdə gəldi, dedilər ki məntəqə rəisi evdə yoxdur; o, bir də nahar vaxtı gəldi, – ancaq giriş otağında olan mirzələr onu heç bir surətdə içəri buraxmayıb, nə üçün, nə səbəbə gəldiyini və necə bir hadisə baş verdiyini mütləq bilmək istədilər. Belə ki, axırda Akaki Akakiyeviç ömründə birinci dəfə hirsini büruzə vermək istədi və qəti surətdə dedi ki, şəxsən məntəqə rəisinin özünü görməlidir, mirzələrin onu içəri buraxmamağa ixtiyari yoxdur, o departamentdən dövlət işi üçün gəlmişdir və onlardan şikayət edər, onda görərlər. Bunun müqabilində mirzələr heç bir şey deməyə cürət etmədilər və onlardan biri məntəqə rəisini çağırmağa getdi. Məntəqə rəisi şinelin oğurlanması barəsində söhbəti, nə isə, son dərəcə qəribə bir halda dinlədi. O, işin başlıca nöqtəsinə diqqət yetirmək əvəzinə, Akaki Akakiyeviçdən soruşmağa başladı ki, evə nə üçün belə gec qayıdırmış, ədəbsiz bir evdə-zadda olmayıbmış ki, belə ki, Akaki Akakiyeviç tamamilə pərt olub, onun yanından çıxdı və şinel barəsindəki işin davam etdirilib-etdirilməyəcəyini bilmədi. O, bütün bu günü qulluq etdiyi idarəyə getmədi (bu onun ömründə yeganə hadisə idi). O biri gün daha pis görkəm almış köhnə kapotunu geyib, rəngi tamamilə solğun halda idarəyə getdi. Şinelinin oğurlanması barəsində danışarkən, hətta, belə bir halda da, Akaki Akakiyeviçə istehza etmək istəyən bəzi məmurlar tapıldısa da, ancaq bu əhvalat çoxunun ürəyini kövrəltdi. Bu qərara gəldilər ki, həmin saat aralarında pul yığsınlar, ancaq çox cüzi miqdarda pul yığıldı; çünki məmurlar direktorun portretini çəkdirmək

və şöbə müdirinin təklifinə görə, direktorun dostu olan bir yazıçının kitabını almaq üçün xeyli pul sərf etmişdilər, beləliklə yığılan pul cüzi bir şey oldu. Akaki Akakiyeviçə rəhmi gələn məmur, heç olmazsa boş bir məsləhət ilə kömək etmək üçün, ona dedi ki, kvartal nəzarətçisinin yanına getməsin, çünki kvartal nəzarətçisi öz böyüklərinin rəğbətini qazanmaq üçün, bəlkə də bir təhərlə şineli tapar, ancaq Akaki Akakiyeviç şinelin özünə aid olduğunu sübut etmək üçün qanuni dəlillər təqdim etməsə, şineli polis idarəsində qalacaqdır; hamısından yaxşısı budur ki, o bir böyük adama müraciət etsin, həmin böyük adam lazım olan adamlarla yazışıb və danışıb işi sürətləndirə bilər. Çarə yox idi; Akaki Akakiyeviç bir böyük adamın yanına getməyi qərara aldı. Həmin böyük adamın vəzifəsinin nədən ibarət olduğu indiyə qədər məlum deyildir. Bilmək lazımdır ki, bu böyük adam bu yaxınlarda böyük adam olmuşdur, bundan əvvəl isə adam deyildi; amma onun mövqeyi indi də daha böyük adamların mövqeləri ilə müqayisə edildikdə, çox da böyük sayılmırdı. Ancaq həmişə elə adamlar tapıla bilər ki, başqalarının nəzərində böyük olmayan adam, onların nəzərində böyükdür. Bir də ki, həmin adam öz böyüklüyünü başqa vasitələrlə gözə çarpdırmağa çalışırdı: o, belə bir qayda qoymuşdu ki, işə gəldikdə aşağı rütbəli məmurlar onu hələ pillə başında qarşılamalıdırlar; onun yanına heç kəs getməyə cürət etməməlidir, hər bir şey möhkəm bir qayda üzrə olmalıdır: kollec qeydiyyatçısı quberniya katibinə məlumat verməli, quberniya katibi titulyar və ya o dərəcədə olan başqa bir katibə məlumat verməlidir, yalnız bundan sonra iş gəlib ona çıxmalıdır. Müqəddəs Rus ölkəsində artıq belə bir qayda əmələ gəlmişdir ki, hamı öz rəisini təqdil edir, hamı özünü ona bənzədir və onu yamsılayır. Hətta, deyirlər ki, bir titulyar müşaviri kiçik bir dəftərxanaya müdir qoyduqları zaman, o həmin saat özünə xüsusi bir otaq ayırıb oranı "idarə otağı" adlandırmış və qapının ağzına qırmızı yaxalıqlı və bafta-taftalı kapeldinerlər qoyubmuş ki, bunlar hər gələn adam üçün qapının dəstəyindən yapışıb açırmışlar. Amma həmin "idarə otağına" adi bir yazı stolu zorla yerləşərmiş. Böyük adamın üsul və adətləri sanballı və əzəmətli idisə də, ancaq çox mürəkkəb deyildi. Onun sisteminin başlıca əsası ciddilik idi. O, həmişə: "Ciddilik, ciddilik, bir də ciddilik!" – deyər və öz adəti üzrə, son sözü söylədikdə danışdığı adamın üzünə çox mənalı

mənalı baxardı. Amma bunun üçün heç bir səbəb də yox idi, çünki dəftərxananın bütün dövlət mexanizmini təşkil edən on nəfərə qədər məmur onsuz da lazımınca qorxu içində idilər: həmin böyük adamı uzaqdan gördükdə, onlar işlərini buraxıb, dik ayaq üstündə durub, rəisin otaqdan keçib getməsini gözlərdilər. Onun aşağı rütbəli məmurlarla adi danışığı çox ciddi olub, aşağıdakı üç cümlədən ibarət olardı: "Necə cürət edirsiniz? Bilirsinizmi kiminlə danışırsınız? Anlayırsınızmı qarşınızda duran kimdir?" Amma əslində o mehriban bir adam idi, yoldaşları ilə xoş rəftar edər, işə yarıyardı; ancaq generallıq rütbəsi onu lap azdırmışdı. O, general rütbəsi aldıqdan sonra özünü itirib, yolunu azmış və nə edəcəyini əsla bilmirdi.

Özünə bərabər adamla o ağıllı-başlı, olduqca mərifətli, bir çox cəhətlərdən, hətta, ağıllı bir adam idi. Ancaq özündən heç olmazsa bircə dərəcə də aşağı rütbəli adamlar arasına düşdükdə, o tamamilə adamlıqdan çıxırdı: qaradinməz olub qaralardı, onun vəziyyətinə adamın yazığı gələrdi, çünki, hətta, o özü də hiss edirdi ki, vaxtını burada olduğundan ölçülməz dərəcədə yaxşı keçirə bilərdi. Onun gözlərində bəzən maraqlı bir söhbət, ya da bir dəstəyə qoşulmaq üçün şiddətli arzu hiss olunurdu, lakin belə fikirlər onu qoymurdu: onun tərəfindən bu həddən artıq sadə bir hərəkət, həddən artıq sərbəstlik sayılmazmı, beləliklə, o öz nüfuz və hörmətini itirməzmi? Belə düşüncələr nəticəsində o həmişə eyni qaradinməz vəziyyətdə qalar, yalnız hərdən tək hecalı səslər çıxarardı; beləliklə də, o son dərəcə qaraqabaq bir adam ləqəbi qazanmışdı. Bizim Akaki Akakiyeviç belə böyük bir adamın yanına gəldi; həm də ən münasibətsiz, özü üçün həm də əlverişli olmayan, lakin həmin böyük adam üçün əlverişli olan bir zamanda gəlib çıxdı. Həmin böyük adam öz kabinetində idi və yaxında bura gəlmiş olan öz köhnə tanışı və uşaqlıq yoldaşı ilə şən-şən söhbət edirdi; bu yoldaşı ilə o neçə il idi ki, görüşməmişdi. Bu zaman ona ərz etdilər ki, Başmaçkin adlı birisi gəlmişdir. O, acıqlı bir səslə soruşdu: "Nəçidir?" Ona cavab verdilər ki: "Bir məmurdur". "Hə! Qoy gözləsin, indi vaxtım yoxdur", – deyə böyük adam cavab verdi. Burada söyləmək lazımdır ki, böyük adam tamamilə yalan deyirdi: onun vaxtı var idi, onlar dostu ilə artıq çoxdan idi ki, hər şey barəsində söhbətlərini qurtarmışdılar və artıq çoxdan bəri söhbətlərinə uzun-uzun sükutla ara verir və yalnız hərdənbir yavaşcadan bir-birinin buduna vurub deyirdilər: "Belə işlər, İvan Abramoviç! Belə

işlər, Stepan Varlamoviç!" Ancaq bütün bunlara baxmayaraq həmin böyük adam məmurun gözləməsini tapşırdı; beləliklə, o, çoxdan xidmət etməmiş və kənddə öz evində yaşamaqda olan dostuna göstərmək istəyirdi ki, məmurlar onun giriş otağında nə qədər gözləyirlər.

Axırda o doyunca söhbət edib və daha artıq sükut etdikdən sonra, əyri söykənəcəyi olan çox rahat kresloda bir siqara çəkdikdən sonra, nəhayət, sanki birdən yadına düşmüş kimi, qapının ağzında, əlində kağızlar, məlumat vermək üçün durmuş katibinə dedi:

– Hə, axı deyəsən, orada bir məmur vardı; ona deyin ki, içəri gələ bilər.

Böyük adam Akaki Akakiyeviçin yazıq görkəmini və köhnə vismundirini görüb; birdən ona müraciətlə dedi:

– Nə buyurursunuz? – Bu sözləri o, indiki mövqeyini və general rütbəsini almamışdan hələ bir həftə əvvəl öz otağında təklikdə güzgünün qabağında qəsdən öyrənmiş olduğu acıqlı və möhkəm bir səslə söylədi. Akaki Akakiyeviç hələ əvvəlcədən lazımınca qorxu hiss edib, bir qədər tutuldu və bacardığı kimi, dilinin sərbəstliyinin ona müsaidə etdiyi dərəcədə və başqa vaxtda olduğundan daha teztez "Filan" adətini işlədə-işlədə, izah etməyə başladı ki, şineli təptəzə idi. İndi onu insafsız bir surətdə soymuşdular və o həmin adama müraciət edir ki, o birtəhər, "filan" bir adamın qarşısında vasitəçilik edib, cənab ober-polismeyster ilə və ya başqa bir adamla yazışıb onun şinelini tapsın. Generala nədənsə elə gəldi ki, bu cür hərəkət etmək özbaşınalıqdır.

– Bu necə işdir, cənab, – deyə o acıqlı bir səslə davam etdi. – Qayda-qanun bilmirsinizmi? Siz hara gəlibsiniz? Bilmirsinizmi işi necə aparırlar? Bu barədə siz gərək əvvəlcə dəftərxanaya ərizə verəydiniz; həmin ərizə hissə müdirinə gedəydi, ondan şöbə müdirinə veriləydi, sonra katibə çataydı, katib isə onu mənə yetirə idi.

Akaki Akakiyeviç bütün olan-qalan cürətini toplayıb, eyni zamanda, çox bərk tərləmiş olduğunu hiss edə-edə dedi:

– Ancaq general həzrətləri... mən zati-alinizə ona görə zəhmət verməyə cürət etdim ki, katiblər... çox etibarlı adamlar deyil, filan...

– Necə, necə, necə? – deyə böyük adam dilləndi. – Bu cürət sizdə haradandır? Bu fikirlər sizin başınıza haradan girmişdir? Rəislərə və böyüklərə qarşı cavanlar arasında bu azğınlıq haradan belə yayılmışdır!

Deyəsən bu böyük adam Akaki Akakiyeviçin yaşının əllidən də ötdüyünü görməmişdi. Akaki Akakiyeviçə cavan demək yalnız nisbi olardı; yəni yaşı yetmişdən artıq olana nisbətən ona cavan demək olardı.

– Siz bilirsinizmi bu sözləri kimə deyirsiniz? Bilirsiniz sizin qarşınızdakı kimdir? Siz bunu anlayırsınızmı? Siz bunu qanırsınızmı? Mən sizdən soruşuram.

Bu sözləri söyləyib böyük adam ayağını yerə döydü və səsini elə yüksək bir dərəcəyə qaldırdı ki, bundan yalnız Akaki Akakiyeviçi deyil, başqasını da dəhşət götürərdi. Akaki Akakiyeviç yerində donub qaldı, yırğalandı, bütün bədəni əsdi və heç cür ayaq üstə dura bilmədi: əgər həmin saat xidmətçilər yüyürüb onu tutmasaydılar, döşəməyə səriləcəkdi. Onu, demək olar ki, hərəkətsiz bir halda otaqdan çıxartdılar. Böyük adam isə etdiyi təsirin gözlədiyindən də artıq olduğuna sevinərək öz sözlərindən başqa bir adamı, hətta, bihuş edə biləcəyi fikrindən tamamilə məmnun qalmış halda, gözünün ucu ilə dostuna baxdı ki, görsün o, bu işə necə baxır. O məmnuniyyətlə gördü ki, dostu ən qeyri-müəyyən bir vəziyyətdədir və hətta, özü də bir qədər qorxuya düşmüşdür.

Akaki Akakiyeviçin pillələnləri necə düşdüyündən və küçəyə necə çıxdığından əsla xəbəri yox idi. O, öz əl-ayağının varlığını da hiss etmirdi. O, ömründə bir general tərəfindən, həm də yad bir general tərəfindən hələ bu qədər şiddətli danlanmamışdı. O, küçələrdə vıyıldayan çovğundan ağzını açıb, səkilərdən düşüb çıxa-çıxa yeriyirdi; külək Peterburq qaydasınca dörd tərəfdən, bütün döngələrdən onun üstünə hücum edirdi. Küləkdən bir anda onun nəfəsi kəsildi, o evə bir halda gəlib çıxdı ki, daha bircə kəlmə də danışa bilmədi; onun bütün bədəni şişmişdi; o, yatağına uzandı. Bəzi vaxt lazımi məzəmmətin təsiri bu qədər şiddətli olur! Ertəsi gün onun bədəni qızdırma içində yanırdı. Peterburq iqliminin alicənab köməkliyi sayəsində xəstəlik gözlənildiyindən sürətlə inkişaf etdi və doktor gəldikdə, xəstənin nəbzinə baxıb xəstəni isindirməkdən başqa bir əlac göstərə bilmədi; bunu da yalnız ona görə etdi ki, xəstə təbabətin xeyirli köməyindən məhrum qalmasın; özü də xəbər verdi ki, bir sutka yarımdan sonra mütləq işi bitəcəkdir. Bundan sonra həkim evin xanımına müraciətlə dedi ki, "ay ana, siz nahaq

yerə vaxt itirməyin, onun üçün elə indidən bir şam ağacından tabut qayıtdırın, çünki palıd ağacından tabut onun üçün baha olar". Akaki Akakiyeviçin özü üçün məşum olan bu sözləri eşidib-eşitmədiyi, əgər eşitdisə, bu sözlərin ona sarsıdıcı bir təsir edib-etmədiyi, onun öz dərdli həyatı üçün təəssüflənib-təəssüflənmədiyi məlum deyildir, çünki o həmişə qızdırma içində sayıqlayırdı. Onun gözünə birbirindən qəribə olan səhnələr, görünürdü; o, gah Petroviçi görür və ona elə bir şinel sifariş edirdi ki, oğruları tutmağa tələsi olsun; gah ona elə gəlirdi ki, çarpayısının altı həmişə oğrularla doludur və o hər dəqiqə evin xanımını çağırıb tapşırırdı ki, hətta, yorğanının altından oğrunu çəkib çıxartsın; gah soruşurdu ki, köhnə kapotunu niyə gözünün qabağından asmışlar, onun ki, təzə şineli var; gah ona elə gəlirdi ki, generalın qabağında durub, onun yerli məzəmmətlərini dinləyir və tez-tez deyir: müqəssirəm, general həzrətləri, gah da, hətta pis-pis danışıb, ən dəhşətli sözlər söyləyirdi, belə ki, ömründə ondan bu cür sözlər eşitməmiş olan qoca ev xanımı, hətta, xaç vururdu, həm də ki, bu sözlər "general həzrətləri" sözlərindən həmin saat sonra söylənilirdi. Sonra isə o, tamamilə mənasız-mənasız danışırdı, belə ki, heç bir şey başa düşmək mümkün deyildi; yalnız bircə şeyi görmək mümkün idi ki, bütün bu hətərən-pətərən sözlər və fikirlər elə bircə həmin şinelin ətrafında hərlənirdi. Axırda yazıq Akaki Akakiyeviç canını tapşırdı. Onun nə otağını, nə də şeylərini möhürlədilər, çünki əvvəla, vərəsəsi yox idi; ikincisi, çox az bir irs qalmışdı ki, o da bundan ibarət idi: bir dəstə qaz lələyi, bir tutam ağ dövlət kağızı, üç cüt corab, iki-üç şalvar düyməsi, bir də ki, oxucuya məlum olan kapot. Bütün bunların kimə çatdığını Allah bilir: etiraf edirəm ki, bu əhvalatı nəql edən adam özü bu məsələ ilə heç maraqlanmamışdır. Akaki Akakiyeviçi aparıb basdırdılar və Peterburq Akaki Akakiyeviçsiz qaldı, elə bil bu adam heç yerli-dibli yox imiş. Heç kəsin müdafiə etmədiyi, heç kəs üçün əziz olmayan, heç bir kəsin maraqlanmadığı, hətta adi bir milçəyi sancağa taxan və ona mikroskopla baxan bir təbiyyətçinin də diqqətini cəlb etməyən bir məxluq yox olub getdi; bu elə bir məxluq idi ki, bütün dəftərxana istehzalarına itaətlə dözərdi və heç də fövqəladə bir iş olmadan, qəbirə getdi; lakin hər halda bu məxluq üçün hətta ömrünün ən sonunda da olsa, şinel şəklində xoş bir əlamət əyan oldu, onun yazıq

həyatını bir anlığa canlandırdı, sonra da padşahların və dünya hökmdarlarının başına gələn kimi dözülməz bir fəlakət onun da başına gəldi... Onun ölümündən bir neçə gün sonra departamentdən evinə bir xidmətçi göndərib, əmr etmişdilər ki, həmin saat idarəyə gəlsin, naçalnik onu tələb edir; Lakin xidmətçi əliboş qayıtmalı olub, məlumat verdi ki, Akaki Akakiyeviç daha gələ bilməz. "Niyə?" sualına xidmətçi cavab verdi ki, "elə-belə, o, ölmüşdür, dörd gün bundan qabaq basdırmışlar". Departamentdə Akaki Akakiyeviçin ölümündən belə xəbər tutdular və ertəsi gün artıq yerində yeni bir məmur oturmuşdu; o, boyca xeyli uca olub hərfləri onun kimi düz xətlə deyil, xeyli qıyqacı yazırdı.

Ancaq kim güman edə bilərdi ki, Akaki Akakiyeviç əhvalatı burada bitmir və o, heç kəs tərəfindən nəzərə alınmayan həyatının bir mükafatı imiş kimi ölümündən sonra bir neçə gün gurultulu bir həyat keçirəcəkdir? Ancaq belə oldu və bizim nağıl etdiyimiz bu adi əhvalat gözlənilmədən, xəyali bir nəticə ilə qurtaracaqdır. Peterburqa birdən-birə belə bir şayiə yayıldı ki, Kalinkin körpüsü yanında və onun ətraflarında gecələr adamların gözünə, nə isə, öz oğurlanmış şinelini axtaran məmur şəklində bir xəyalət görünür və xəyalət, adamların mənsəb və rütbəsinə baxmadan, hamının çiynindən hər cür şineli öz oğurlanmış şineli adına çəkib aparır: yaxaları pişik dərisindən, qunduz dərisindən, sırınmış, sırınmamış yenot dərisindən, tülkü dərisindən, ayı dərisindən kürk, müxtəsər, insanların öz bədənlərini bürümək üçün icad etdikləri xəz və dəri paltar nə rast gəlirsə, hamısını çəkib aparır. Departament məmurlarından biri öz gözü ilə həmin ölü xəyalətini görüb, onun Akaki Akakiyeviç olduğunu o saat tanıyıbmış. Lakin bundan onu elə bir qorxu götürübmüş ki, həmin saat var gücü ilə qaçmağa başlayıbmış və buna görə ona yaxşıca diqqətlə baxa bilməyibmiş, yalnız uzaqdan onu barmağı ilə hədələdiyini görübmüş. Hər bir tərəfdən fasiləsiz bir surətdə şikayətlər yağmağa başlamışdı ki, hələ titulyar müşavirlər bir yana, hətta, ən böyük gizli müşavirlərin də kürəkləri və çiyinləri, gecələr şinellər soyulduğuna görə, tamamilə soyuğun qabağında qalmalı olmuşdur. Polis idarəsinə əmr verilmişdi ki, ölü xəyalətini hər necə olursa-olsun, ya diri, ya ölü tutsunlar və başqalarına nümunə olmaq üçün ən amansız bir surətdə cəzalandırsınlar.

Az qalmışdı ki, bu iş müvəffəqiyyətlə yerinə yetirilsin. Kiryuşkin döngəsində bir kvartalın keşikçisi həmin ölü xəyalətin cinayət başında, vaxtilə fleyta çalan olub istefaya çıxmış bir musiqiçinin friz şinelini çəkib aparmaq istədiyi zaman azca qalmışdı ki, yaxalayıb tutsun. O, xəyalətin yaxasından yapışıb çığıraraq iki başqa yoldaşını da çağırmış və xəyaləti tutub saxlamağı onlara tapşırıb, özü yalnız bircə dəqiqəliyə əyilib çəkməsinin boğazından burunotu qabını çıxartmaq istəyirmiş ki, ömründə altı dəfə don vurmuş burnunu bir qədər təravətləndirsin; ancaq görünür burunotu elə bir burunotu imiş ki, buna hətta, ölünün xəyaləti də dözə bilməyibmiş. Keşikçi barmağını burnunun sağ pərdəsinə dirəyib sol əli ilə bir çimdik burunotu götürməyə macal tapmamış, ölü elə bərkdən asqırıbmış ki, üçünün də gözünü burunotu ilə doldurubmuş. Onlar yumruqlarını gözlərinə dirəyib ovuşdurunca ölünün izi-tozu da qalmayıbmış, belə ki, onlar ölünün, doğrudan da, öz əllərində olub-olmadığını hətta yaxşı bilmirlər. O vaxtdan bəri keşikçilər ölülərdən elə bərk qorxmağa başlamışdılar ki, hətta diriləri də tutmağa qorxur və yalnız uzaqdan çığırırdılar: "Hey, yolunu düz get!" Bundan sonra ölü məmur xəyaləti, hətta Kalinkin körpüsündən uzaqlarda da görünüb, bütün qorxaq adamları dəhşətə salırmış. Amma biz əslində tamamilə həqiqi olan bu əhvalatın xəyali bir istiqamət almasının əsl baisi olan həmin böyük adamı tamamilə yaddan çıxartdıq. Hər şeydən əvvəl, ədalətli olmaq vəzifəsi tələb edir deyək ki, həmin böyük adam, yaman danlanmış olan yazıq Akaki Akakiyeviç gedən kimi, mərhəmətə bənzər bir şey hiss etmişdi. Başqasının halına yanmaq onun üçün yad bir şey deyildi. Mənsəbinin çox zaman xeyirxahlıq hisslərinin büruzə çıxmasına mane olduğuna baxmayaraq, onun qəlbində bir çox mehriban duyğular yer etmişdi. Yanına gəlmiş dostu onun kabinetindən çıxan kimi, o, hətta, yazıq Akaki Akakiyeviç barəsində düşünməyə də başlamışdı. Bu zamandan başlayaraq, demək olar ki, hər gün yüksək rütbəli bir adamın məzəmmətinə dözə bilməyən Akaki Akakiyeviçin solğun üzü onun gözünə görünürdü. Akakı Akakiyeviçin fikri onu o qədər narahat etmişdi ki, aradan bir həftə keçəndən sonra o, hətta, Akaki Akakiyeviçin dalınca bir məmur göndərib onun işinin necə olduğunu və ona doğrudan da, kömək etmək mümkün olub-olmadığını öyrənməyi

qərara aldı. Akaki Akakiyeviçin qısa bir müddətdə və şiddətli qızdırma içində öldüyünü ona xəbər verdikdə, o, hətta, heyrət içində qalıb, vicdan əzabı duydu və bütün gün kefi yerində olmadı. O, birtəhər əylənmək, bu xoşagəlməz təsiri yadından çıxarmaq arzusu ilə axşam öz dostlarından birinin yanına getdi, onun evində ağıllı-başlı bir məclis gördü, hamısından yaxşısı bu idi ki, oradakılar hamısı, demək olar ki, bir rütbədə adamlar idi, belə ki, onun heç bir cəhətdən əli-qolu bağlanmayacaqdı. Bu onun ruhi vəziyyətinə çox qəribə bir təsir etdi. O, açıldı, xoşsifət, mehriban bir adam oldu, müxtəsər ki, bütün gecəni çox xoş keçirtdi. Axşam yeməyi yeyərkən iki stəkan şampan şərabı içdi (məlum olduğu kimi, bu şərab şən və xoş fikirlərə yaxşı təsir edir). Şampan şərabı onda cürbəcür gözlənilməz hərəkətlərə meyl əmələ gətirdi; belə ki, o birbaşa evə getmək istəməyib, Karolina İvanovna adlı, gərək ki, əslən alman olan tanış bir xanımın yanına getmək istədi. Bu xanımla onun tamamilə dostanə bir münasibəti var idi. Bunu də demək lazımdır ki, bu böyük adam xeyli yaşlı idi, yaxşı bir ər idi və hörmətli bir ailə sahibi idi. Biri artıq dəftərxanada xidmət edən iki oğlu və burnu bir qədər dik olsa da, ancaq gözəl olan on altı yaşlı qəşəng bir qızı hər gün gəlib, onun əlini öpər və deyərdilər: bonjour, papa[1]. Hələ canı sulu olub, hətta, heç də kifir olmayan arvadı, hər şeydən əvvəl, əlini öpdürər, sonra tərsinə çevirib özü onun əlini öpərdi. Lakin öz evindəki ailə mehribanlıqlarından tamamilə razı qalan həmin bu böyük adam, dostanə münasibətlər üçün şəhərin o biri başında bir aşna saxlamağı da ədəbli bir hərəkət hesab edirdi. Onun bu aşnası öz arvadından əsla nə cavan, nə də yaxşı idi; ancaq dünyada belə qəribə tapmacalar olur və bu barədə mühakimə yeritmək bizim işimiz deyil. Bəli, həmin böyük adam pilləkəndən düşüb, xizəyə oturdu və sürücüyə dedi:

– Karolina İvanovnanın yanına! – Özü isə bəzəkli və isti şinelinə bürünüb, elə xoş bir vəziyyət aldı ki, bir rus üçün bundan yaxşısını ağla gətirmək də mümkün deyil, yəni bu elə vəziyyətdir ki, özün heç bir şey fikirləşmirsən, amma bir-birindən xoş fikirlər onları axtarmağa zəhmət vermədən özləri sənin ağlına gəlir. O, böyük bir ləzzət içində keçirdiyi axşamın bütün xoş dəqiqələrini, kiçik

[1] Günün xeyir olsun, ata.

məclisi qəhqəhə ilə güldürən bütün sözləri ötəri olaraq yadına salırdı; o hətta bu sözlərdən bəzilərini yavaşcadan təkrar edirdi; ona elə gəlirdi ki, bu sözlər elə əvvəlki kimi gülməlidir və buna görə təəccüblü deyil ki, o özü də ürəkdən gülürdü. Ancaq şiddətlə əsən külək hərdənbir ona mane olur və Allah bilir haradan və hansı səbəbə görə şiddətlə əsib sanki sifətini kəsir, yığın-yığın qarı içəri atır, şinelin yaxasını bir yelkən kimi qabardır, ya da birdən qeyri-təbii bir qüvvə ilə onun başına çırpır və beləliklə, onu daim narahat edib bu vəziyyətdən qurtarmağa məcbur edirdi. Böyük adam birdən hiss etdi ki, kim isə çox möhkəm bir surətdə onun şinelinin yaxalığından yapışdı. O dönüb baxdıqda əynində köhnə vismundir olan orta boylu bir adam gördü və dəhşət içində onun Akaki Akakiyeviç olduğunu tanıdı. Məmurun üzü qar kimi ağappaq idi, özü də lap ölüyə bənzəyirdi. Lakin birdən bu böyük adamı bürüyən dəhşət hər bir həddi aşdı. O gördü ki, ölünün ağzı əyildi, oradan qorxunc məzar qoxusu gəldi və ölü bu sözləri söylədi:

– Hə! Axır ki, əlimə düşdün! Axır ki, sənin də yaxandan yapışdım filan-fəsman! Mənə elə sənin şinelin lazım idi! Mənim şinelimi tapmağa çalışmadın, üstəlik hələ məni danladın da, di indi öz şinelini ver!

Yazıq böyük adam az qalmışdı ölsün. Hərçənd o, dəftərxanada və ümumiyyətlə alçaq rütbəli adamların yanında çox tündxasiyyət idi, hərçənd onun bircə heybətli görkəminə baxanda, hər kəs deyərdi: "Aman, nə tündxasiyyətdir!" Ancaq burada o, pəhləvan görkəminə malik bir çox adamlar kimi elə qorxuya düşdü ki, doğrudan da, haqlı olaraq, hətta qəşş edəcəyindən qorxdu, hətta o özü şineli tez çiynindən atıb, qorxudan səsi dəyişmiş bir halda sürücüyə çığırdı:

– Var gücünlə evə sür!

Sürücü adətən ən qəti dəqiqələrdə çıxan bu səsi eşidib bundan sonra xeyli təsirli hərəkətlər də olduğunu bildiyindən, hər ehtimala görə, başını çiyinləri arasına qısıb qamçısını qaldıraraq qolaylandı və xizəyi ox kimi sürdü. Altı dəqiqədən azacıq artıq bir zamanda böyük adam öz evinin qapısı ağzında idi. O, rəngi solmuş, qorxuya düşmüş və şinelsiz halda, Karolina İvanovnanın yanına getmək əvəzinə öz evinə gəlib, özünü birtəhər otağına yetirdi və gecəni çox pərtbad bir halda keçirdi; belə ki, ertəsi gün səhər çay içilən vaxt qızı ona belə dedi:

– Ata, bu gün sənin rəngin lap qaçmışdır.

Ancaq ata dinmədi və hara getdiyi, hara getmək istədiyi və başına nələr gəldiyi barədə heç bir kəsə bir söz demədi. Bu hadisə ona çox şiddətli təsir etmişdi. O, hətta öz məmurlarına xeyli az-az hallarda deyirdi ki, "necə cürət edirsiniz, bilirsinizmi qabağınızdakı kimdir?" Əgər o, bu sözləri söyləmiş olsaydı da əvvəl işin nə yerdə olduğunu soruşub dinlədikdən sonra deyərdi. Ancaq qəribəsi budur ki, bu vaxtdan etibarən ölü məmur xəyaləti daha əsla gözə görünmədi. Görünür generalın şineli onun əyninə lap yaxşı gəlibmiş; hər halda dahi bir adamın çiynindən şinel qapıldığı barəsində heç bir yerdə heç bir şey eşidilmədi. Amma bir çox fəal və qayğıkeş adamlar heç cür sakit olmaq istəmir və deyirdilər ki, guya şəhərin uzaq hisslərində ölü məmur xəyaləti hələ də gözə görünürmüş. Doğrudan da, Kolomna keşikçilərindən biri həmin ölü xəyalətin bir evin dalından çıxdığını öz gözləri ilə görmüşdü. Ancaq həmin keşikçi öz təbiəti etibarilə çox aciz idi; bir dəfə adicə yekə bir donuz balası xüsusi bir evin qapısından qaçaraq çıxıb ona toxunmuş və yerə yıxmışdı, ətrafda duran faytonçular bərk gülüşmüşdülər. Keşikçi bu istehzaya görə onların hərəsindən bir quruş burunotu pulu almışdı; bəli, həmin keşikçi aciz və gücsüz olduğundan xəyaləti saxlaya bilməyibmiş, qaranlıqda onun dalınca düşüb gedibmiş, nəhayət xəyalət birdən durub ətrafına göz gəzdirib ondan soruşubmuş: "Nə istəyirsən?" və ona elə bir yumruq göstəribmiş ki, "heç bir şey" və həmin saat geri qayıdıbmış. Ancaq bu xəyalət boyca xeyli uca imiş, yekə bığları varmış və deyəsən Obuxov körpüsünə sarı gedib qaranlıqda gözdən itibmiş.

İVAN SERGEYEVİÇ TURGENEV

(1818-1883)

MUMU

Vaxtilə Moskvanın ucqar küçələrindən birində ağ sütunlu, çardaqlı və əyilmiş balkonlu boz bir evdə çoxlu nökər və qulluqçusu olan dul bir xanım yaşayırdı. Onun oğlanları Peterburqda qulluq edirdilər, qızları isə ərə getmişdilər; xanım öz evindən tək-tək hallarda çıxar, qocalığının son xəsis, cansıxıcı illərini tək-tənha keçirərdi. Onun fərəhsiz və tutqun gündüzü çoxdan keçmişdi, axşamı isə gecədən də qara idi.

Onun nökərləri içərisində ən qəribəsi boyu iki arşın on iki verşok[1], pəhləvan gövdəli, anadangəlmə lal doğulmuş dalandar Gerasim idi. Xanım onu kənddən gətirmişdi; o, kənddə xırdaca bir daxmada qardaşlarından ayrı yaşayır və az qala hamıdan düzgün töycü ödəyən bir kəndli hesab olunurdu. Təbiətin çox böyük qüvvət bəxş etdiyi Gerasim dörd adamın işini görərdi. Hər iş onun əli ilə yüngüllüklə görülərdi; o, yer şumlayan zaman iri əllərini var qüvvəsilə xışa basıb, elə bil atın köməyi olmadan təkbaşına yerin möhkəm sinəsini yaranda, ya da Pyotr günü[2] ot çalınanda əlindəki dəryazı cavan qayın ağacları meşəsini kökündən doğramaq istəyirmiş kimi var gücü ilə işə salanda, üç arşınlıq zəncirlə cəld və aramsız taxıl döyəndə və bu zaman çiyinlərinin uzunsov və bərk əzələləri ling kimi qalxıb-enəndə ona tamaşa etmək adama ləzzət verirdi. Daimi dinməmək yorulmaq bilmədən işləyən bu adamı daha əzəmətli göstərirdi. O, bacarıqlı bir kəndli idi, şikəstliyi olmasaydı hər bir qız ona həvəslə ərə gedərdi. Lakin budur, Gerasimi Moskvaya gətirdilər; ona çəkmə aldılar, yay paltarı, qış kürkü tikdirdilər, əlinə süpürgə və bel verib dalandar təyin etdilər.

[1] İki metrə yaxın

[2] Pyotr günü – 29 iyun

Əvvəllər yeni yaşayışı onun heç xoşuna gəlmədi. Uşaqlıqdan çöl işlərinə, kənd yaşayışına öyrəşmişdi. Öz bədbəxtliyi üzündən insanlarla ünsiyyət bağlamayan Gerasim məhsuldar torpaqda bitən ağac kimi lal və qüdrətli böyümüşdü... Şəhərə köçürüləndən sonra o, başına nə iş gəldiyini başa düşmürdü, darıxırdı, qurşağa qədər göy ot bitən zəmidən yenicə tutulub dəmiryol vaqonuna qoyulan, kök gövdəsini gah qığılcımlı tüstü, gah da dalğalanan buxar bürüyən, taqqıltı və uğultu ilə aparılan, həm də hara aparıldığını bilməyən cavan, sağlam bir öküz kimi çaşıb qalmışdı. Yeni vəzifəsi ağır kənd işlərindən sonra Gerasimə oyun-oyuncaq kimi gəlirdi; o, yarım saata hər işini qurtarır, ya həyətin ortasında dayanaraq ağzını açıb gəlib-gedənlərə baxır, özünün sirli vəziyyətinin həllini tapmaqda onlardan kömək istəyirdi, ya da birdən tənha guşəyə çəkilərək, süpürgəni və ya beli uzağa tullayıb üzüstə yıxılır, döşünü yerə verib kəməndə düşmüş heyvan kimi saatlarla hərəkətsiz qalırdı. Lakin insan hər şeyə alışır. Gerasim də, nəhayət, şəhər həyatına alışdı. Onun işi çox deyildi; bütün işi-gücü həyəti tər-təmiz saxlamaq, gündə iki dəfə bir çəllək su gətirmək, mətbəx və ev üçün odun daşıyıb-yarmaq, bir də özgələri həyətə qoymamaq və gecələri keşik çəkmək idi. Demək lazımdır ki, o öz vəzifəsini səylə yerinə yetirirdi: heç vaxt həyətdə nə talaşa, nə də zibil gözə dəyməzdi, onun ixtiyarına verilən əldən düşmüş sudaşıyan yabı palçıqlı bir gündə çəlləklə bir yerdə ilişib qalsaydı, o, çiyni ilə itələyib yalnız arabanı deyil, atın özünü də yerindən tərpədərdi; odun yarmağa girişəndə balta əlində şüşə kimi cingildəyər, odun qırıntıları və parçaları ətrafa səpələnərdi; özgələri həyətə buraxmamağa gələndə isə... bir dəfə gecə iki oğrunu tutub baş-başa elə vurmuşdu ki, onları polisə aparmağa da ehtiyac qalmamışdı və bu hadisədən sonra ətrafda hamı ona hörmət etməyə başlamışdı; hətta gündüzlər yoldan keçən, fırıldaqçı, sadəcə tanış olmayan adamlar da zəhmli dalandarı görəndə əllərini yelləyir və onun üstünə çığırırdılar, guya o bunların çığırtısını eşidəcəkmiş. Bütün yerdə qalan nökər və qulluqçularla Gerasim dostluq etməsə də, – onlar ondan çəkinirdilər. Gerasim isə onları öz adamı hesab edirdi. Onlar Gerasimə işarə ilə başa salırdılar, o da onları başa düşür, bütün əmrləri dürüst yerinə yetirirdi. Lakin Gerasim öz hüquqlarını da bilirdi, nökərlərin xörək yediyi otaqda daha heç kəs onun yerini tutmağa cürət etmirdi. Ümumiyyətlə,

Gerasim zabitəli və ciddi idi, o hər bir şeydə qayda qanun xoşlardı. Hətta xoruzlar belə onun yanında döyüşməyə cürət etməzdi, – yoxsa qiyamət qopardı. Gerasim onları döyüşən görsə, o dəqiqə ayaqlarından tutar, havada çarx kimi on dəfə fırladıb hərəsini bir tərəfə tullardı. Xanımın həyətində qaz da saxlanırdı; məlumdur ki, qaz lovğa və ağıllı quşdur, odur ki, Gerasim qazları çox istəyər, onlara qulluq edər və bəsləyərdi; onun özü təşəxxüslü bir erkək qaza oxşayırdı. Gerasimə mətbəxin altında balaca bir daxma ayırmışdılar; o bu daxmanı öz səliqəsilə düzəltmiş, özünə palıd taxtalarından dörd kötük üstündə çarpayı – əsil bir pəhləvan çarpayısı qayırmışdı; bu çarpayının üstünə yüz pud ağırlığında yük qoysaydın, yenə də əyilməzdi. Çarpayının altında möhkəm bir sandıq vardı, küncdə yenə də o cür möhkəm ağacdan qayrılmış balaca bir stol, stolun yanında isə üçayaqlı bir stul qoyulmuşdur. Bu stul o qədər möhkəm və yastı-yapalaq idi ki, bəzən Gerasim onu qaldırar, əlindən yerə salar və gülümsəyərdi. Daxmanın qapısına girdə, kömbəyə oxşayan qara bir qıfıl vurar, açarını həmişə öz yanında – kəmərində gəzdirərdi. O, daxmasına başqalarının gəlməsini xoşlamazdı.

Bir il beləcə gəlib keçdi; ancaq ilin axırında Gerasimin başına bir hadisə gəldi.

Gerasimin, qapısında dalandar işlədiyi qoca xanım hər şeydə qədim adətləri gözləyir və çoxlu qulluqçu saxlayırdı: onun evində paltaryuyanlar, toxucular, dülgərlər, kişi və qadın dərzilərdən başqa hətta bir sərrac[1] da vardı, o eyni zamanda baytar həkimi, nökərlər üçün də ara həkimi hesab olunurdu; bunlardan başqa xanımın xüsusi həkimi, bir də Kapiton Klimov adında əyyaş bir başmaqçısı vardı. Klimov özünü incidilmiş, layiqincə qiymətləndirilməmiş və Moskvanın ucqar bir yerində işsiz qalmağa deyil, paytaxtda yaşamağa layiq elmli bir adam hesab edirdi; içəndə də özünün dediyi kimi, təmkinlə və döşünə döyə-döyə məhz dərdinin çoxluğundan içirdi. Günlərin birində xanım onun barəsində eşikağası Qavrila ilə söhbət etməyə başladı; Qavrilanın təkcə sarı gözlərinə və ördək burnuna baxanda düşünmək olardı ki, tale onu başmaqçılıq etmək üçün yaratmışdır. Xanım, dünən küçədən sərxoş halda tapılıb gətirilən Kapitonun əxlaqca pozulmuş olmasından danışaraq heyifsilənirdi.

[1] Gündən qoşqu şeyləri hazırlayan usta

O birdən:

– Qavrila, sən biləni, onu evləndirsək necə olar? – dedi. – Bəlkə onda ağlı başına gəldi.

Qavrila:

– Nə üçün də evləndirməyək? – deyə cavab verdi. – Olar, lap yaxşı olar.

– Yaxşı, görəsən ona gedən olarmı?

– Əlbəttə. Ancaq siz bilən yaxşıdır. Hər halda, o, necə deyərlər, bir şeyə yaraya bilər, o da özü üçün bir adamdır.

– Deyəsən, Tatyana onun xoşuna gəlir?

Qavrila nəsə etiraz etmək istədi, dinməyib dodaqlarını büzdü.

Xanım ləzzətlə burunotu çəkə-çəkə:

– Hə!.. Qoy elçi göndərib Tatyananı istəsin, – deyə qərarını verdi, – eşidirsənmi?

Qavrila:

– Baş üstə, – dedi və çıxıb getdi.

Qavrila otağına qayıdaraq (otaq yandan tikilmiş ayrıca binada idi və demək olar ki, içərisi dəmir sandıqlarla dolu idi) əvvəlcə arvadını bayıra çıxartdı, sonra da pəncərənin yanında oturub fikrə getdi. Xanımın gözlənilməz əmri, deyəsən, onu çətinə salmışdı. Nəhayət, o qalxdı və Kapitonu çağırmaq üçün tapşırıq verdi, Kapiton gəldi... Ancaq biz onların söhbətini oxuculara bildirməmişdən qadaq, Kapitonun alacağı Tatyananın kim olduğunu və xanımın verdiyi əmrin eşikağasını nə üçün pərt elədiyini bir neçə sözlə nağıl etməyi yersiz hesab etmirik.

Yuxarıda dediyimiz kimi, paltaryuyan vəzifəsində işləyən Tatyana (səliqəli və qabiliyyətli olduğu üçün ona ancaq zərif paltarları yumaq tapşırılırdı), iyirmi səkkiz yaşında, alçaqboylu, arıq, sarışın saçlı, sol yanağında xalı olan bir qadın idi. Sol yanaqda xal olması Rusiyada nəhs əlamət – bədbəxt həyatın nişanəsi sayılır... Tatyana özünü çox da xoşbəxt hesab edə bilməzdi. Lap gənc yaşlarından ağ gün görməmişdi; iki adamın işini görürdü, amma heç vaxt onu mehribanlıqla dindirən olmamışdı; onu pis geyindirirdilər, çox da az əmək haqqı alırdı; qohumları da yox kimi idi: əlindən heç bir iş gəlmədiyi üçün kənddə saxlanmış olan qoca bir açarçı[1] onun dayısı

[1] Ağa evində ərzaq saxlanan binaya, anbara və zirzəmiyə nəzarət edən nökər

idi, o biri dayıları və əmiləri isə əkinçi idilər, başqa heç kəsi yox idi. Bir zamanlar Tatyana gözəl hesab olunurdu, lakin gözəlliyi çox tez solub getdi. Onun mülayim, daha doğrusu, ürkək bir xasiyyəti vardı: heç bir şeydə özünün qayğısına qalmaz, başqalarından isə son dərəcə qorxardı; fikri-zikri əlindəki işi vaxtında qurtarmaq idi, heç vaxt heç kəslə danışmaz, xanımın adı çəkiləndə tir-tir titrəyirdi, halbuki xanım onu üzdən demək olar ki, heç tanımırdı. Gerasimi kənddən gətirəndə Tatyana onun heybətli görkəminə baxdıqda qorxusundan az qala ürəyi getmişdi, o, bacardığı qədər Gerasimlə üz-üzə gəlməməyə çalışırdı; evdən çıxıb camaşırxanaya getməyə tələsirkən onun yanından ötüb-keçməli olanda gözlərini yumurdu. Gerasim əvvəllər ona bir o qədər də diqqət yetirmirdi, sonra onu görəndə gülməyə, daha sonra başdan-ayağa süzməyə başladı, indi isə gözünü ondan heç çəkmirdi. Tatyananın üzünün mülayim ifadəsinimi, yoxsa ürkək hərəkətlərinimi bəyənmişdi, bunu Allah bilir. Bir dəfə Tatyana, barmaqlarının ucunda xanımın nişastalanmış koftasını... ehtiyatla başı üstündə tutaraq həyətdən keçəndə kim isə birdən onun dirsəyindən möhkəm yapışdı; Tatyana dönüb baxdı və qorxusundan çığırdı: Gerasim onun arxasında durmuşdu. O, səfeh kimi gülümsəyib mehribanlıqla bağıraraq, Tatyanaya quyruğu və qanadları zərli, xoruzşəkilli pryanik uzatdı. Tatyana götürmək istəməsə də lal pryaniki zorla onun əlinə basıb başını salladı və yana çəkildi; oradan dönüb baxaraq bir daha mehribanlıqla nə isə bağırdı. O gündən Gerasim Tatyanaya rahatlıq vermirdi; Tatyana hara gedirdisə, Gerasim o dəqiqə hazır olur, qabağına çıxır, gülümsəyir, bağırır, əllərini yelləyir, birdən qoltuğundan bir lent çıxarıb zorla ona verir, süpürgə ilə qızın yolunun tozunu süpürürdü. Yazıq qız çaşıb qalmışdı, nə edəcəyini bilmirdi. Tezliklə bütün evdəkilər lal dalandarın hərəkətlərindən xəbər tutdu. Tatyanaya istehza etməyə, atmacalı və kinayəli sözlər yağdırmağa başladılar. Ancaq Gerasimə sataşmağa heç kəs cürət etmirdi; o, zarafat xoşlamırdı, onun yanında Tatyana ilə də heç kəsin işi olmurdu. İstəsə də, istəməsə də qız onun himayəsi altına düşmüşdü. Bütün lal-karlar kimi Gerasim də olduqca həssas idi, ona və ya qıza gülən olsaydı, o saat başa düşürdü. Bir dəfə nahar zamanı Tatyananın başçısı olan camaşırxana müdirəsi onu, necə deyərlər, sancmağa başladı, işi o yerə çatdırdı ki, yazıq qız gözlərini hara dikəcəyini bilmirdi, az qalmışdı

acığından ağlasın. Birdən Gerasim yerindən qalxdı, öz iri əlini camaşır müdirəsinin başına qoydu və elə bir qəzəblə onun üzünə baxdı ki, müdirə o dəqiqə stolun üstünə əyildi, hamı səsini kəsdi. Gerasim yenidən qaşığı götürüb qabağındakı borşu yeməyə girişdi. Hamı dodaqaltı: "Ay səni, lal şeytan, qulyabanı" – deyə mızıldandı; müdirə isə yerindən durub qulluqçu qızların otağına keçdi. Bir dəfə də Gerasim Kapitonun, indicə söhbətini elədiyimiz Kapitonun, Tatyana ilə olduqca şirin danışdığını görüb barmaq işarəsi ilə onu yanına çağırdı, karet damına aparıb küncdəki araba dişləsinin bir ucundan yapışdı və yüngülcə, lakin çoxmənalı bir tərzdə Kapitonu hədələdi. Bu əhvalatdan sonra daha heç kəs Tatyananı söhbətə tutmurdu. Bütün bu işlərə görə Gerasimə söz deyən olmurdu. Doğrudur, camaşır müdirəsi qızlar otağına gəlib çıxan kimi özündən getdi və çox ustalıqla Gerasimin kobud hərəkətini elə o gün xanımın nəzərinə çatdırdı; lakin qəribə qarı buna, müdirənin bərk təhqir olunmasına ancaq bir neçə dəfə güldü, müdirəni, Gerasimin öz ağır əlini onun başına nə cür qoyduğunu təkrar-təkrar danışmağa məcbur etdi, ertəsi gün də Gerasimə bir manat pul göndərdi; xanım onu sədaqətli və qüvvətli bir keşikçi kimi qiymətləndirib mükafat verirdi. Gerasim xanımdan lap əməlli-başlı qorxurdu, lakin yenə də onun mərhəmətinə güvənir və Tatyana ilə evlənməyə icazə almaq xahişilə onun yanına getməyə hazırlaşırdı. O ancaq eşikağasının vəd etdiyi paltarı gözləyirdi ki, xanımın yanına ləyaqətli bir şəkildə getsin, elə bu vaxtlarda da xanımın başına Tatyananı Kapitona vermək fikri düşdü.

Oxucu özü indi, xanım ilə söhbətindən sonra eşikağası Qavrilanın pərtliyinin səbəbini asanlıqla başa düşər. Qavrila pəncərə qabağında oturub fikirləşirdi: "Xanımın, əlbəttə, Gerasimə yazığı gəlir (bu, Qavrilaya yaxşıca məlum idi, çünki özü də Gerasimin könlünə dəymirdi), nə qədər olsa o, laldır, şikəstdir; Gerasimin Tatyanada gözü olduğunu xanıma necə xəbər verə bilərdi? Həm də insaf da yaxşı şeydir, ondan nə ər ola bilər? Digər tərəfdən, Allah, sən özün bağışla, bu qulyabanı Tatyananın Kapitona verilməsindən xəbər tutsa, vallah, evdə hər şeyi alt-üst edər. Axı onu başa salmaq olmayacaq, axı onu, o şeytanı günahkaram, günah elədim – heç cür yola gətirmək mümkün olmayacaq... Doğrudan da belədir..."

Kapitonun gəlib çıxması Qavrilanı öz düşüncələrindən ayırdı. Yelbeyin pinəçi içəriyə girdi, əllərini arxasında gizlətdi və divarın

qapıya yaxın yerinə sərbəst söykənərək, sağ ayağını sol ayağının üstünə xaç kimi aşırıb başını tərpətdi. Yəni: "Bu da mən, gəlmişəm. Nə istəyirsiniz?"

Qavrila Kapitona baxdı və barmaqları ilə pəncərənin çərçivəsini taqqıldatdı. Kapiton yalnız öz donuq gözlərini azca qıydı, lakin aşağı dikmədi, hətta bir balaca gülümsədi və əlini dağınıq, çal saçlarında gəzdirdi. Yəni ki, hə, mənəm. Nə baxırsan?

Qavrila:

–Yaxşısan, – dedi və susdu. – Yaxşısan, daha heç sözüm yoxdur.

Kapiton yalnız çiynini çəkdi. Ürəyində fikirləşdi ki, "Guya sən məndən yaxşısan?"

Qavrila tənə ilə sözünü davam etdirdi:

– Hə, bir özünə bax, əməlli bax. Gör nəyə oxşayırsan?

Kapiton sakit nəzərlə özünün yırtılıb-dağılmış sürtukuna, yamaqlı şalvarına baxdı, cırıq çəkmələrini, xüsusən sağ ayağını təşəxxüslə dayadığı çəkməsinin pəncəsini diqqətlə süzdü, yenə də gözlərini eşikağasına dikdi:

– Hə, nə var ki?

– Nə var ki? – deyə Qavrila təkrar etdi. – Nə var ki? Hələ bir "nə var ki" də deyirsən? Sən şeytana oxşayırsan (günahkaram, günah elədim), bəli, sən şeytana oxşayırsan.

Kapiton gözlərini tez-tez qırpdı.

Yenə də ürəyində fikirləşdi ki: "Qavrila Andreiç, danlayın, danlayın görək".

Qavrila sözə başladı:

– Sən yenə sərxoş idin, yenə, hə? Cavab ver görüm!

– Bədəncə zəif olduğum üçün, doğrudur, spirtli içki qəbul etmişdim, – deyə Kapiton cavab verdi.

– Bədəncə zəif olduğum üçün!.. Bütün iş ondadır ki, sənə az cəza verirlər. Hələ Piterdə də oxumusan... görürəm, çox şey öyrənmisən. Havayı çörək yeməkdən başqa bir şey bilmirsən.

– Bunu Qavrila Andreiç, bircə Allah bilir, ondan başqa heç kəs. Təkcə o bilir ki, bu dünyada mən nə cür adamam və çörəyi, doğrudan da, havayımı yeyirəm, yoxsa yox. Sərxoşluğuma gəlincə, burada məndən də çox yoldaşım günahkardır, o məni aldadıb şirnikləndirdi, sonra da aradan çıxdı, yəni çıxıb getdi, mən isə...

– Sən isə, avara, küçələrdə qaldın. Yaman fərsizsənmiş. Ancaq iş bunda deyildir, – deyə eşikağası sözünə davam etdi, – məsələ

başqa şeydədir. Xanım... – burada, o bir balaca dayandı, – xanım istəyir ki, sən evlənəsən. Eşidirsənmi? O belə hesab edir ki, sən evlənsən, ağıllanarsan. Başa düşürsənmi?

– Necə ki, başa düşmürəm.

– Çox əcəb. Mənə qalsa, səni möhkəm sıxışdırmaq daha yaxşı olardı. Ancaq bu, xanımın işidir. Nə deyirsən? Razısanmı?

Kapiton dişlərini ağartdı:

– İnsandan ötrü evlənmək çox yaxşıdır. Qavrila Andreiç, mən məmnuniyyətlə razıyam.

– Çox əcəb, – deyə Qavrila cavab verdi və öz-özünə fikirləşdi ki, daha buna nə demək olar, kişi düz danışır. – Ancaq bilirsən nə var, – deyə o ucadan davam etdi, – sənin üçün əlverişli olmayan bir nişanlı tapıblar.

– Kimdir, icazənizlə öyrənmək istəyirəm...

– Tatyana.

– Tatyana?

Kapiton gözlərini bərəldib divardan aralandı.

– Nə oldu, özünü niyə itirdin? Məgər xoşuna gəlmir?

– Necə yəni xoşuma gəlmir, Qavrila Andreiç. Pis qız deyil, işə canyandırandır, sakitdir... Ancaq, Qavrila Andreiç, axı siz özünüz yaxşı bilirsiniz, o qulyabanı, çöllərin vəhşisi qızın dalınca...

Eşikağası dilxor halda onun sözünü kəsdi:

– Bilirəm, qardaş, hamısını bilirəm, amma...

– Mənə rəhminiz gəlsin, Qavrila Andreiç. Axı o məni öldürər, vallah öldürər, milçəyi əzən kimi basıb əzər; onun əli bilirsiniz nədir, bir zəhmət çəkib onun əlinə baxın, onun əli elə bil ki, Mininin və Pojarskinin əlidir. Axı o kardır, vurur və necə şappıldatdığını eşitmir. Elə bil yuxuda iri yumruqlarını yelləyir. Heç bir yolla onu sakit eləmək mümkün deyildir. Nə üçün? Səbəbini özünüz də bilirsiniz, Qavrila Andreiç, o kardır, həm də ağlı topuğundadır. Axı o yırtıcıdır, vəhşidir. Qavrila Andreiç, vəhşidən pisdir... xalis odundur, odun, nə üçün də indi mən onun əlindən iztirab çəkim? Əlbəttə, indi daha heç bir şey mənim vecimə deyil: var-yoxdan çıxdım, hər bir çətinliyə dözməyə öyrəşdim, Kolomna çanağı kimi hisə-pasa batdım, – amma orası var ki, hər halda mən insanam, daş-divar deyiləm!

– Bilirəm, bilirəm, uzunçuluq eləmə...

Pinəçi qızğın bir halda davam edirdi:

– İlahi! Görəsən nə vaxt bu işlərə son qoyulacaq? Nə vaxt, ilahi! Mən bədbəxt, mən başıdaşlı! Əcəb taleyim varmış! Cavan vaxtlarımda ağam olan bir alman məni döyürdü, ömrümün ən yaxşı çağında öz qardaşımdan kötək yeyirdim, indi, yaşa dolduğum vaxtlarda isə gör nələr çəkirəm...

– Yassarın biri yassar, – deyə Qavrila səsləndi. – nə olub, belə uzunçuluq edirsən?

– Necə yəni nə olub, Qavrila Andreiç? Axı mən döyülməkdən qorxuram, Qavrila Andreiç. Ağam məni dörd divar arasında cəzalandırsın, amma camaat içində hörmətimi saxlasın, yenə də mən adamlar cərgəsində hesab olunuram, amma burada gör kimdən söz çəkmək lazım gəlir...

– Eh, rədd ol, get, – deyə Qavrila səbirsizliklə onun sözünü yarıda kəsdi.

Kapiton döndü və ağır addımlarla qapıya yönəldi.

– Tutaq ki, o heç yoxdur, – deyə eşikağası onun dalınca çığırdı, – sən özün necə, razısanmı?

Kapiton:

– Öz razılığımı bildirirəm, – deyə cavab verib uzaqlaşdı.

O, ən çətin hallarda belə ibarə ilə danışmaqdan əl çəkmirdi.

Eşikağası bir neçə dəfə otaqda gəzindi. Nəhayət:

– Hə, indi Tatyananı çağırın, – deyə səsləndi.

Bir neçə dəqiqədən sonra Tatyana güclə eşidiləcək dərəcədə səssizcə otağa girdi və qapının ağzında dayandı. O yavaşcadan:

– Qavrila Andreiç, nə buyurursunuz? – dedi.

Eşikağası diqqətlə ona baxdı:

– Hə, Tatyana, ərə getmək istəyirsənmi? – deyə sözə başladı. – Xanım sənin üçün nişanlı tapmışdır.

– Məsləhət sizindir, Qavrila Andreiç. Ancaq deyin görüm, xanım mənə kimi nişanlı seçmişdir? – deyə Tatyana cəsarətli bir halda əlavə etdi.

– Pinəçi Kapitonu.

– Baş üstə.

– Doğrudur, o, yelbeyin adamdır. Lakin bu cəhətdən xanımın ümidi sənədir.

– Baş üstə.

– Burada bir əngəl də var... axı bu kar Geraska sənin dalınca yaman gəzir. Sən bu ayını necə oldu belə bənd elədin? Axı o ayı səni öldürə bilər...

– Öldürər, Qavrila Andreiç, hökmən öldürər.

– Öldürər... hələ buna baxarıq. Sən necə deyirsən: öldürər? Bir özün fikirləş, məgər onun səni öldürməyə ixtiyarı var?

– Bilmirəm, Qavrila Andreiç, var, ya yox.

– Ay səfeh! Axı sən ona heç bir söz verməmisən...

– Nə buyurursunuz?

Eşikağası dinmədi və fikrə getdi: “Ay dilsiz-ağızsız bala”. Sonra da əlavə etdi:

– Hə, yaxşı. Bu barədə səninlə yenə danışarıq, indi isə, Tanyuşa, get, işini gör, mən görürəm ki, sən doğrudan da dilsiz-ağızsızsan.

Tatyana döndü, qapının tirinə yüngülcə söykəndi və çıxıb getdi.

Eşikağasını fikir götürdü: “Bəlkə də sabah xanım bu toy əhvalatını yadından çıxartdı, mənə nə olub belə əl-ayağa düşmüşəm? Biz bu şuluqçunu yumşaldarıq, bir şey olsa, polisə xəbər verərik...” O, ucadan arvadını səslədi:

– Ustinya Fyodorovna! Mənim əzizim, zəhmət çəkib samovar qoyun...

Tatyana, demək olar ki, bütün günü camaşırxanadan çıxmadı. O, əvvəlcə ağladı, sonra gözyaşını silərək, yenidən işə girişdi. Kapiton gecədən xeyli keçənə kimi qaraqabaq bir dostu ilə meyxanada oturub Piterdə bir ağanın yanında nə cür yaşadığından uzun-uzadı nağıl açdı; bu ağanın gözəl xasiyyəti varmış, göz yetirərmiş ki, hər işdə səliqə olsun, ancaq bir nöqsanı varmış: çox içki içərmiş və həddindən artıq qadın düşkünü imiş... Qaraqabaq dostu “hə-hə” deyərək onun danışdıqlarına qulaq asırdı; lakin axırda Kapiton bir hadisə üzündən sabah özünü öldürmək niyyətində olduğunu bildirdikdə, qaraqabaq dostu dedi ki, yatmaq vaxtı çatmışdır. Onlar dinməzcə və kobudcasına ayrıldılar.

İş elə gətirdi ki, eşikağasının gözlədiyi olmadı. Kapitonu evləndirmək xanımın başına elə girmişdi ki, o, yanında qalan qaravaşlardan biri ilə gecə ancaq bu barədə danışırdı; bu qaravaş ancaq xanımın yuxusu qaçanda onun başını qarışdırmaq üçün saxlanılır və gecə faytonçusu kimi gündüzlər yuxusunu alırdı. Qavrila səhər

çayından sonra məlumat vermək üçün xanımın yanına gələndə onun birinci sualı bu oldu:

– Hə, toy məsələsi nə yerdədir, düzəlirmi?

Eşikağası, söz yox, cavab verdi ki, iş lap yaxşı düzəlir, Kapiton öz razılığını bildirmək üçün elə bu gün xanımın yanına gələcəkdir. Xanımın nədənsə kefi yox idi; o, işlərlə çox məşğul olmadı. Eşikağası öz otağına qayıdıb yığıncaq çağırdı. İş, doğrudan da müzakirə edilməli idi. Tatyana, əlbəttə, etiraz etmirdi, lakin Kapiton hamıya açıqca deyirdi ki, onun iki yox, ancaq bir başı vardır... Gerasim hamıya acıqlı və iti nəzərlə baxır, qulluqçu qızların otağının qabağından aralanmır və deyəsən, özünə bir tələ qurulduğunu hiss edirdi. Yığılanlar (bunların içərisində ləqəbi Xvost dayı olan qoca bufetçi də vardı, ondan: "gör nələr olur", bir də "hə, hə, hə" sözlərindən başqa bir cavab almasalar da hamı məsləhət üçün hörmətlə ona müraciət edərdi) əvvəlcə Kapitonu üz verə biləcək təhlükədən qorumaq məqsədilə sutəmizləyən maşın anbarına saldılar və sonra möhkəm qərara gəlmək üçün fikirləşməyə girişdilər. Əlbəttə, zorakılıqla iş görmək asan idi, lakin Allah eləməmiş, səs-küy qalxsa, xanım narahat olar, qiyamət qopardı! Bəs necə olsun? Fikirləşdilər, axırda çıxış yolu tapdılar. Dəfələrlə müşahidə etmişdilər ki, Gerasimin sərxoşları görən gözü yoxdur... O, darvaza ağzında oturanda hər dəfə papağının günlüyü qulağına doğru əyilmiş bir sərxoş ayaqları dolaşa-dolaşa onun yanından keçəndə, Gerasim nifrətlə üzünü yana döndərərdi. Qərara aldılar Tatyananı öyrətsinlər ki, özünü sərxoşluğa vurub yırğalana-yırğalana, səndirləyə-səndirləyə Gerasimin yanından ötüb keçsin. Yazıq qız əvvəlcə razı olmadı. Lakin onu dilə tutdular; həm də o özü görürdü ki, ayrı yolla pərəstişkarından yaxasını qurtara bilməyəcəkdir. O, deyilənlərə əməl etdi. Kapitonu anbardan çıxartdılar: axı işin hər halda ona dəxli vardı. Gerasim darvaza ağzındakı səkidə oturub əlindəki bellə yeri döyəcləyirdi... Bütün künc-bucaqdan, pəncərə pərdələrinin dalından ona baxırdılar...

Kələk lap yaxşı baş tutdu. Tatyananı gördükdə o əvvəlcə həmişəki kimi mehribancasına mırıldanaraq başını tərpətdi, sonra diqqətlə baxdı, bel əlindən düşdü, yerindən sıçrayıb qıza yaxınlaşdı, az qala üzünü qızın üzünə yapışdıracaqdı... Qız qorxusundan daha artıq səndirlədi və gözlərini yumdu... Gerasim onun əlindən tutub bütün həyət boyu dalınca sürüdü və yığıncağın toplandığı otağa girib qızı düz

Kapitona sarı itələdi. Tatyana donub qalmışdı... Gerasim dayandı, ona baxdı, əlini yellədi və gülümsəyərək ağır addımlarla öz daxmasına çəkildi. Düz bir sutka oradan çıxmadı. Sürücü Antipka sonralar danışırdı ki, o, qapının deşiyindən Gerasimin çarpayıda oturub əlini yanağına tutaraq yavaşcadan, müəyyən bir ahənglə ancaq hərdənbir bağıra-bağıra mahnı oxuduğunu, yəni arabaçıların və ya gəmi yedəkçilərinin öz qəmli nəğmələrini oxuyarkən elədikləri kimi yırğalandığını, gözlərini yumduğunu və başını buladığını görmüşdü. Antipkanın tükləri ürpəşmiş və qapıdan kənara çəkilmişdi. Ertəsi gün Gerasim öz daxmasından çıxanda, onun görkəmində elə bir dəyişiklik hiss olunmurdu. O ancaq daha da qaşqabaqlı olmuşdu, Tatyanaya və Kapitona isə qətiyyən fikir vermirdi. Elə o axşam, onların hər ikisi qoltuqlarına bir qaz vurub xanımın yanına getdilər, bir həftədən sonra da evləndilər. Toy günündə də Gerasim öz davranışını dəyişdirmədi, ancaq çaydan susuz qayıtdı: nə cür olmuşdusa, yolda çəlləyi sındırmışdı; gecə isə tövlədə öz atını elə səylə təmizləyir və qaşovlayırdı ki, at küləkdə əyilən ot kimi əyilir və Gerasimin dəmir yumruqlarının altında ayaqlarının birini götürüb, o birini qoyurdu.

Bütün bu əhvalatlar yazda baş vermişdi. Daha bir il keçdi; bu müddətdə Kapiton içkiyə aludə olmaqda həddini aşdı və heç bir işə yaramayan adam kimi öz arvadı ilə uzaq kəndə göndərildi. Yola düşən günü Kapiton əvvəlcə çox ötkəm danışır və hamını inandırmağa çalışırdı ki, onu hara göndərsələr, lap dəyirman boğazından da salsalar, itib-batmayacaq, yenə diri çıxacaqdır, – lakin sonra ruhdan düşdü, şikayətlənməyə başladı ki, onu nadan adamların yanına aparırlar, axırda o qədər zəiflədi ki, öz şapkasını özü başına keçirə bilmədi. Onun bu halına acıyan xeyirxah bir adam şapkanın günlüyünü onun alnına doğru çəkib düzəltdi və üstündən basdı. Hər şey hazır olub, kəndlilər əllərində cilovları tutaraq "yaxşı yol" sözlərinin deyilməsini gözlədikləri vaxt Gerasim daxmasından çıxdı və Tatyanaya yaxınlaşıb ona qırmızı pambıq parçadan baş yaylığı bağışladı; o, bu yaylığı bir il qabaq Tatyana üçün almışdı.

O vaxta qədər başına gələn bütün müsibətlərə böyük laqeydliklə dözən Tatyana burada daha özünü saxlaya bilmədi, gözləri yaşardı, arabaya minəndə, xristian adətincə Gerasimlə üç dəfə öpüşdü. Gerasim onu qarovulxanaya kimi yola salmaq istəyirdi və əvvəlcə onun mindiyi arabanın yanınca bir qədər getdisə də, Krım keçidi adlanan yerdə birdən-birə dayandı, əlini salladı və çayın kənarı ilə yola düzəldi.

Axşam düşürdü. Gerasim yavaş-yavaş gedir, suya baxırdı. Birdən ona elə gəldi ki, sahildəki lehmədə nə isə çapalayır. O əyildi və qara xallı balaca bir ağ küçük gördü; küçük sahilə çıxmaq üçün ha əlləşirdisə də heç cür sudan çıxa bilmir, vurnuxur, sürüşür, islanmış, arıq bədəni tir-tir titrəyirdi. Gerasim yazıq itə bir qədər baxandan sonra onu bir əli ilə tutub qaldırdı, qoltuğuna alıb iri addımlarla evə qayıtdı. Daxmasına girib xilas etdiyi heyvanı çarpayıda yerləşdirdi, ağır çuxasını üstünə saldı, əvvəlcə tövlədən saman, sonra da mətbəxdən bir kasa süd gətirdi. Çuxanı yavaşca qaldırıb samanı heyvanın altına döşədi və kasanı çarpayının üstünə qoydu. Yazıq heyvancığaz üç həftəlik ancaq olardı, gözləri təzəcə açılmışdı; o hələ qabdan içməyi bacarmır, hey titrəyir və gözlərini qıyırdı. Gerasim iki barmağı ilə ehmallıca onun başından tutub burnunu kasaya doğru əydi. İt birdən-birə acgözlüklə, fınxıra-fınxıra, titrəyə-titrəyə, boğula-boğula südü içməyə başladı. Gerasim ona bir xeyli baxdı, baxdı, sonra birdən elə bərkdən güldü ki... Bütün gecəni küçüklə əlləşdi, onu yatırtdı, tumarladı, axırda özü də onun yanında uzanıb şirin və dərin yuxuya getdi.

Gerasim bu küçüyə elə qulluq edirdi ki, heç bir ana öz balasına belə baxmazdı. (Küçük dişi idi.) Təzə gətirildiyi günlərdə zəif, taqətsiz və çirkin idi, lakin getdikcə böyüdü və düzəldi, səkkiz aydan sonra xilaskarının daimi qayğısı sayəsində o, uzun qulaqları, yumşaq tüklü dik quyruğu və ifadəli, iri gözləri olan ispan cinsli, çox yaxşı bir itə çevrildi. O, Gerasimə yaman alışmışdı, ondan bir addım da aralanmır, quyruğunu bulaya-bulaya daim dalınca gəzirdi. Sahibi itə ad da qoymuşdu, – lallar bilirlər ki, onların bağırması başqalarını cəlb edir, odur ki, onu Mumu adlandırdı. Evdə də hamı iti xoşlayır və "Mumu" deyə çağırırdı. Mumu çox ağıllı idi, hamıya şırvanır, ancaq təkcə Gerasimi sevirdi. Gerasim də iti həddən artıq xoşlayırdı... Hətta özgələr onu tumarlayanda onun acığı gəlirdi: Kim bilir, oğurlanmasından qorxurdu, yoxsa qısqanırdımı! Mumu səhərlər dişlərilə Gerasimin ətəyindən dartaraq onu yuxudan oyadırdı, bərk dost olduğu sudaşıyan, qoca yabını cilovundan çəkə-çəkə onun yanına gətirirdi, üzündə lovğa bir ifadə Gerasimlə su gətirməyə çaya gedir, onun süpürgə və bellərinin keşiyini çəkir, heç kəsi Gerasimin daxmasına yaxınlaşmağa qoymurdu. Gerasim öz qapısında Mumu üçün bir deşik açmışdı; Mumu da ancaq Gerasimin otağının tam sahibi olduğunu hiss edirmiş kimi, içəriyə girən kimi sevinclə çarpayının üstünə sıç-

rayırdı. Gecələr o yatmırdı, elə belə, bekarçılıqdan dal ayaqları üstə oturub, başını qaldıraraq gözlərini qıyıb adətən dalbadal üç dəfə ulduzlara hürən səfeh həyət itləri kimi boş-boşuna hürmürdü, – yox, Mumunun nazik səsi heç vaxt nahaq yerə çıxmazdı: deməli, ya bir yad adam hasara yaxınlaşırdı, ya da haradansa şübhəli bir səs-küy və ya xışıltı gəlirdi. Bir sözlə, Mumu çox yaxşı keşik çəkirdi. Doğrudur, Mumudan başqa həyətdə Volçok adlı qonur xallı, sarı, qoca bir it də vardı, lakin onu heç vaxt, hətta gecələr də zəncirdən açıb buraxmırdılar, o özü də qocaldığından heç bir sərbəstlik istəmirdi, öz damındaca hey büzüşüb yatır, ancaq hərdənbir xırıltılı, demək olar ki, səssiz hürürdüsə də, tamamilə faydasız olduğunu özü də hiss edirmiş kimi dərhal səsini kəsirdi. Mumu heç vaxt ağalıq evinə girməzdi, Gerasim otaqlara odun aparanda Mumu həmişə dalda qalıb qapının ağzında onun çıxmasını səbirsizliklə gözləyər, qulaqlarını şəkləyərək qapı arxasından azacıq bir tıqqıltı belə eşidəndə başını gah sağa, gah da sola döndərərdi.

Beləliklə, bir il daha keçdi. Gerasim özünün dalandarlıq vəzifəsini yerinə yetirməklə taleyindən çox razı idi ki, birdən-birə heç də gözlənilməyən bir hadisə üz verdi... Hadisə bundan ibarət idi: gözəl yay günlərindən birində xanım öz qaravaşları ilə qonaq otağında gəzişirdi. Onun kefi kök idi, gülür və zarafatlaşırdı: qaravaşlar da gülür və zarafatlaşırdılar, lakin o qədər də sevinmirdilər; evdə xanımın şən olduğu saatları çox da xoşlamırdılar, çünki əvvələn, xanım belə vaxtlarda hər kəsdən tələb edirdi ki, dərhal və tamamilə onun sevincinə şərik olsun və birinin üzündə sevinc sezilməyəndə acıqlanırdı; ikincisi, xanımda bu coşqunluq çox davam etmir, tezliklə tutqunluq və qaşqabaqla əvəz olunurdu. O gün, necə olmuşdusa, xanım yerindən sevincək durmuşdu, kartda bəxtinə dörd valent çıxmışdı ki, bu da murada çatmaq əlamətidir (xanım səhərlər həmişə fal açardı), çay da ona çox ləzzət vermişdi, odur ki, öz otaq qulluqçusunu tərifləmiş, iki şahı bağışlamışdı. Xanım büzüşmüş dodaqlarında xoş təbəssüm, qonaq otağında gəzişə-gəzişə gəlib pəncərəyə yaxınlaşdı. Pəncərə qabağında salınmış çiçəkliyin düz orta ləkində qızılgül kolunun dibində Mumu uzanıb həvəslə sümük gəmirirdi. Xanım onu gördü:

– Aman Allah! – deyə o birdən səsləndi, – bu nə itdir?

Onun müraciət etdiyi qaravaş özünü itirdi: öz rəisinin sözünü nə mənada başa düşməyi hələ yaxşı bilməyən tabe bir adamı adətən nə cür cansıxıcı bir narahatçılıq bürüyürsə, o da eləcə özünü itirib qaldı.

– Bilm... bilm... bilmirəm, – deyə o kəkələdi, – deyəsən lalın itidir...

Xanım onun sözünü ağzında qoydu:

– Aman Allah! Necə də gözəl itdir! Tapşırın onu buraya gətirsinlər. Çoxdanmı o, lalın yanındadır? Necə olub ki, indiyədək onu görməmişəm?.. Tapşırın gətirsinlər...

Qaravaş o dəqiqə özünü dəhlizə atdı.

– Hey, orada kim var? – deyə o çığırdı, – tez Mumunu buraya gətirin! O çiçəklikdədir.

Xanım:

– A, deməli onun adı Mumudur, – dedi, – çox gözəl addır.

– Bəli, çox gözəl addır! – deyə qaravaş cavab verdi. – Stepan, tez ol!

Vəzifəsi lakeylik olan yekəpər Stepan cəld çiçəkliyə sarı yüyürdü, Mumunu az qala tutacaqdı ki, it məharətlə onun əlinin altından qaçdı, quyruğunu qaldırıb var qüvvəsilə Gerasimin yanına yüyürdü; Gerasim bu vaxt mətbəxin yanında iri bir çəlləyi uşaq nağarası kimi əlində o yana-bu yana çevirib silkələyir və içindəkini boşaldırdı. Stepan itin dalınca yüyürdü. Gerasimin ayaqları altında onu tutmaq üçün çalışsa da, Mumu özgənin əlinə düşmək istəməyərək sıçrayır və yaxasını qurtarırdı. Gerasim bütün bu həngaməyə rişxəndlə baxırdı, nəhayət, Stepan acıqlı bir halda ayağa durub Gerasimə işarə ilə tələsik başa saldı ki, xanım onun itinin yanına aparılmasını əmr etmişdir. Gerasim bir qədər təəccüb elədisə də, Mumunu çağırıb yerdən qaldırdı və Stepana verdi. Stepan iti qonaq otağına gətirib parket döşəmə üzərinə qoydu. Xanım mehriban bir səslə onu öz yanına çağırmağa başladı. Ömründə belə bir dəbdəbəli yer görməyən Mumu bərk qorxdu və qaçmaq üçün qapıya sarı atıldısa da qulluq göstərən Stepan onu dala itələdi, Mumu əsə-əsə divara qısıldı.

Xanım deyirdi:

– Mumu, Mumu, yanıma gəl, xanımın yanına gəl, gəl, axmaqcığaz... qorxma...

Qaravaşlar da hamısı birdən:

– Mumu, gəl, xanımın yanına gəl, – deyə təkrar edirdilər.

Mumu isə narahat bir halda ətrafına baxır, yerindən qımıldanmırdı.

Xanım:

– Ona yeməyə bir şey gətirin, – dedi, – Nə axmaq heyvandır! Xanımın yanına gəlmir. Nədən qorxur görəsən?!

Qaravaşlardan biri çəkinə-çəkinə və yaltaqlanaraq:

– Hələ öyrəşməyib, – dedi.

Stepan nəlbəkidə süd gətirib Mumunun qabağına qoydu. Mumu südü heç iyləmədi də, yenə əvvəlki kimi titrəyib ətrafına baxdı.

Xanım isə yaxınlaşaraq:

– Sən nə cür heyvansan? – dedi və əyilib onu sığallamaq istəyirdi ki, Mumu bütün bədəni əsə-əsə başını çevirdi və dişlərini qıcadı. Xanım cəld əlini çəkdi.

Ətrafı bir anlıq sükut bürüdü. Mumu, şikayətlənir və üzr istəyirmiş kimi nazik səslə zingildəyirdi... Xanım dala çəkildi və qaşqabağını salladı. İtin qəfil hərəkəti onu qorxutmuşdu.

Bütün qaravaşlar birdən:

– Ah, – deyə çığırdılar. – Allah eləməmiş, o sizi qapmadı ki? (Mumu ömründə heç kəsi qapmamışdı) Ah, ah!

Qarı səsi dəyişilmiş bir halda deyindi:

– Onu rədd eləyin gözümün qabağından! Murdar küçük! Yaman sərt itdir!

Sonra o, ağır-ağır çevrilərək öz kabinetinə yönəldi. Qaravaşlar qorxaqcasına bir-birinə baxıb onun ardınca getmək istəyirdilər ki, xanım dayandı, soyuq nəzərlə onlara baxdı və:

– Nə üçün gəlirsiniz? Mən ki, sizi çağırmıram, – deyərək getdi.

Qaravaşlar həyəcanlı bir halda əllərilə Stepana işarə elədilər; Stepan cəld Mumunu tutub tələsik bayıra, düz Gerasimin ayaqlarına atdı, – yarım saatdan sonra isə evdə dərin bir sükut hökm sürürdü, qoca xanım bulud kimi tutulmuş halda divanında oturmuşdu.

Belə mənasız, boş şeylər də bəzən insanın kefini poza bilərmiş!

Axşama kimi xanımın ovqatı təlx idi, o heç kəslə danışmadı, kart oynamadı; gecəni də çox pis keçirtdi. Özündən uydurmağa başladı ki, ona verilən odekolon, guya həmişəki odekolondan deyilmiş, balışdan sabun iyi gəlirmiş, o, camaşır müdirəsini çağırıb ona bütün yorğan-döşəyi iylətdirdi, – bir sözlə, yaman əsəbiləşdi və "qızışdı". Tapşırdı ki, ertəsi gün səhər Qavrilanı həmişəkindən bir saat tez çağırsınlar.

Qavrila ürəyində qorxu hiss edərək kabinetin qapısından içəri girən kimi xanım sözə başladı:

– Bir de görüm, bizim həyətdə o nə itdir bütün gecəni hürüb? Məni də yatmağa qoymadı!

Qavrila çox da cəsarətli olmayan bir səslə:

– İt... hansı it... bəlkə lalın itidir, – dedi.

– Mən bilmirəm lalındır, ya bir özgənindir, ancaq bütün gecəni qoymayıb yatam. Təəccüb edirəm, bu qədər çox it bizim nəyimizə gərəkdir! İstəyirəm səbəbini biləm! Bizim həyət itimiz var, ya yox?

– Əlbəttə ki, var! Volçok.

– Elə isə daha bu it nəyimizə gərəkdir? Bu, intizamsızlıqdan başqa bir şey deyildir. Hamısı ondandır ki, evdə böyük yoxdur. Bir də ki, it lalın nəyinə gərəkdir? Ona mənim həyətimdə it saxlamağa kim icazə verib? Dünən mən pəncərəyə yaxınlaşdım, gördüm ki, it çiçəklikdə uzanıb, tapıb gətirdiyi murdar bir şeyi gəmirir; axı orada mənim qızılgüllərim əkilmişdir...

Xanım bir qədər susdu.

– Onu elə bu gün buradan rədd eləyin... Eşidirsənmi?

– Baş üstə.

– Elə bu gün. İndi isə get. Haqq-hesaba baxmaq üçün sonra çağırtdıraram.

Qavrila çıxıb getdi.

Eşikağası qonaq otağından keçəndə guya səliqə yaratmaq üçün bir stolun üstündəki zəngi götürüb o birinin üstünə qoydu, zalda uzun burnunu yavaşcadan sildi və dəhlizə çıxdı. Dəhlizdə Stepan enli taxt üstündə yatmışdı. O, müharibə səhnəsini təsvir edən şəkildəki öldürülmüş əsgər kimi uzanmış, çılpaq ayaqları yorğan əvəzinə üstünə örtdüyü sürtukundan bayıra çıxmışdı. Eşikağası onu dümsükləyib oyatdı və pıçıltı ilə nəsə tapşırdı, Stepan bu tapşırığa yarıəsnəmə, yarıqəhqəhə ilə cavab verdi. Eşikağası çəkilib getdi, Stepan yerindən sıçradı, arxalığını və çəkmələrini geyinib çıxdı, qapının ağzında dayandı. Beş dəqiqə keçmədi ki, Gerasim dalında yekə bir odun şələsi gəlib çıxdı; ondan heç ayrılmayan Mumu da yanında idi. (Xanım hətta yayda da öz yataq otağını və kabinetini qızdırmağı əmr etmişdi.) Gerasim yanını qapıya verib, çiyni ilə onu itələdi və şələsi ilə evə girdi. Mumu isə həmişəki kimi onu gözləməli oldu. Stepan fürsətdən istifadə edib, çalağan cücənin üstünə şığıyan kimi, birdən itin üstünə atıldı, onu döşü ilə yerə sıxdı, qamarlayıb qucağına basdı, hətta papağını başına keçirmədən bayıra yüyürdü; rastına çıxan

birinci faytona minib Oxotnı ryada[1] sürdürdü. Orada tezliklə bir müştəri tapıb iti on şahıya satdı və azı bir həftə iti saxlamasını tapşırıb o saat qayıtdı. Hələ evə çatmamış faytondan düşdü, həyətin ətrafını hərlənib daldakı döngədən hasarı aşdı və özünü həyətə saldı; darvazadan ona görə keçmədi ki, Gerasimlə üz-üzə gəlməkdən qorxurdu.

Ancaq o nahaq yerə qorxurdu: Gerasim artıq həyətdə deyildi. O, evdən çıxan kimi Mumunun yox olduğunu görüb onu axtarmağa başladı; Gerasimin heç yadına gəlmirdi ki, Mumu bircə dəfə də olsa, onun qayıtmasını gözləməmiş olsun, odur ki, o yan-bu yana vurnuxmağa, iti axtarmağa, onu öz üsulu ilə çağırmağa başladı... öz daxmasına, samanlığa baş çəkdi, küçəyə yüyürdü, hər yana baxdı... İt yox idi. O, adamlara üzünü tutdu, yerdən yarım arşın yuxarını göstərib əllərilə itin şəklini çəkərək ən həyəcanlı işarələrlə onu soraqladı. Bəziləri Mumunun haraya getdiyini doğrudan da bilmir və yalnız başlarını bulayırdılar, başqaları bilir və cavab olaraq gülümsəyirdilər, eşikağası isə özünü olduqca təmkinli tutub sürücülərin üstünə qışqırmağa başladı. Onda Gerasim həyətdən qaçıb getdi.

O ancaq hava qaralanda qayıtdı. Yorğun görünüşündən, süst yerişindən, toz-torpağa batmış paltarından belə güman etmək olardı ki, o, Moskvanın yarısını dövrə vurub gəzmişdir. Gerasim ağalıq evinin pəncərələri qabağında dayandı, nökərlərdən yeddi nəfərin yığışdığı artırmaya nəzər saldı, üzünü döndərib bir daha "Mu-mu" – deyə bağırdı. Mumu cavab vermədi. Gerasim çəkilib getdi. Hamı dalınca baxdı, lakin nə gülümsəyən oldu, nə də bir söz deyən... hər şeylə maraqlanan sürücü Antipka isə ertəsi gün səhər mətbəxdə nağıl etdi ki, lal bütün gecəni ah-ufla başa vurmuşdur.

Ertəsi gün Gerasim heç gözə görünmədi. Odur ki, onun yerinə su gətirməyə sürücü Potap getməli oldu, bu işdən Potap yaman narazı qaldı. Xanım Qavriladan əmrinin yerinə yetirilib-yetirilmədiyini soruşdu. Qavrila cavab verdi ki, yerinə yetirilmişdir. Ertəsi gün səhər Gerasim daxmasından çıxdı və işləməyə başladı. Nahar vaxtı gəlib xörəyini yedi və yenə heç kəsə baş əymədən çıxıb getdi. Bütün lal-karlar kimi onsuz da ifadəsiz görünən üzü indi elə bil daşa dönmüşdü. Nahardan sonra o yenə həyətdən getdi, lakin bu dəfə gedişi uzun çəkmədi, qayıtdı və o dəqiqə samanlığa yönəldi.

---

[1] Moskvanın mərkəzi küçələrindən biridir, inqilaba qədər bazar bu küçədə yerləşirdi.

Süd kimi aydınlıq bir gecə idi. Gerasim uzanıb dərindən ah çəkir və tez-tez o yan-bu yana çevrilirdi; o birdən sanki ətəyinin dartıldığını hiss etdi, bütün bədəni əsdi, amma başını qaldırmadı, hətta gözlərini yumdu, budur, onu yenidən, əvvəlkindən daha bərk dartdılar, o yerindən sıçradı... Boynunda qırıq ip olan Mumu onun qarşısında fırlanırdı. Gerasimin sözsüz sinəsindən uzun sürən sevinc çığırtısı qopdu; o, Mumunu qaldırdı, qucağına basdı, it o dəqiqə onun burnunu, gözlərini, bığını və saqqalını yaladı... Gerasim bir az dayandı, fikrə getdi, samanlıqdan ehmalca enərək ətrafı gözdən keçirtdi, heç kəsin onu görməyəcəyini yəqin etdikdən sonra əngəlsiz-maneəsiz öz daxmasına çəkildi. Gerasim əvvəldən başa düşmüşdü ki, it öz-özünə itməmişdir, onu yəqin ki, xanımın əmri ilə azdırıblar; nökərlər Mumunun xanıma nə cür diş qıcadığını ona işarə ilə başa salmışdılar, odur ki, Gerasim də öz növbəsində tədbir görməyi qərara aldı. Əvvəlcə çörək verib Mumunu doyuzdurdu, sığalladı və yatırtdı, sonra bütün gecəni ayıq qalıb fikirləşdi ki, iti nə cür gizlətsin. Nəhayət, o, iti bütün günü daxmada saxlamaq, yalnız hərdənbir ona baş çəkmək, gecələr havaya çıxartmaq qərarına gəldi. Qapıdakı deşiyi köhnə çuxası ilə bərk-bərk tutdu; səhər tezdən o artıq həyətdə idi, özünü elə aparırdı ki, elə bil heç bir şey olmamışdı. Hətta (sadə bir biclik!) üzündə əvvəlki bikeflik ifadəsini də saxlamışdı.

Yazıq lalın ağlına belə gələ bilməzdi ki, Mumu öz zingiltisi ilə işin üstünü açar; doğrudan da tezliklə evdə hamı xəbər tutdu ki, lalın iti qayıtmışdır və bağlı daxmada saxlanılır, lakin Gerasimə və itə yazıqları gəldiyinə görə, bəlkə də laldan qorxduqlarına görə heç kəs bu sirdən xəbərdar olduğunu ona hiss etdirmirdi. Təkcə eşikağası peysərini qaşıdı və sonra əlini tovladı:

– Onu Allaha tapşırıram. Bəlkə də xanım heç xəbər tutmadı!

Lal isə heç vaxt bugünkü kimi səy göstərməmişdi: həyəti başdan-başa süpürüb təmizlədi, bir dənə də gərəksiz ot qoymayıb hamısını qopartdı, çiçəkliyin çəpərindəki payaların möhkəm olub-olmadığını yəqin etmək üçün onları bir-bir dartıb çıxartdı, sonra yenidən bərkitdi, bir sözlə, elə əlləşir və can yandırırdı ki, onun bu cür çalışqanlığı hətta xanımın da diqqətini cəlb etdi. O gün Gerasim öz dustağına iki dəfə xəlvəti baş çəkdi. Gecə isə o, it ilə bir yerdə samanlıqda yox, daxmada yatdı və ancaq gecə saat ikiyə işləyəndə onunla açıq havada gəzməyə çıxdı. İt ilə həyətdə xeyli gəzişəndən sonra qayıtmağa

hazırlaşırdı ki, birdən hasarın dalında, döngə tərəfdən xışıltı eşidildi. Mumu qulaqlarını şəklədi, mırıldandı, hasara yaxınlaşıb iylədi və qulaqbatırıcı bir səslə bərkdən hürməyə başladı. Bir nəfər sərxoş orada gecələmək fikrinə düşübmüş. Bu zaman xanım "əsəbi narahatlıqdan" sonra təzəcə yuxuya getmişdi: lap doyunca şam eləyəndə o həmişə bu cür narahat olardı. İtin qəfildən hürməsi onu ayıltdı, ürəyi çırpındı və dayanan kimi oldu.

– Qızlar, qızlar! – deyə o inildədi. – A qızlar!

Canlarına qorxu düşmüş qızlar, xanımın yataq otağına yüyürdülər.

Xanım darıxmış bir halda əllərini uzadaraq:

– Ah, ah, ölürəm! – dedi. – Bu it yenə, yenə gəlib çıxdı!.. Ah, həkimin dalınca adam göndərin. Onlar məni öldürmək istəyirlər... İt yenə gəlib çıxdı! Ah! – Xanım başını dala doğru atdı ki, bu da özündən getmək əlaməti olmalı idi.

Həkimin, daha doğrusu, ev arahəkimi Xaritonun dalınca yüyürdülər. Bütün məharəti altlığı yumşaq göndən tikilmiş çəkmə geyməkdən, nəzakətlə nəbz ölçməyi bacarmaqdan, gündə on dörd saat yatmaqdan, qalan vaxtı isə ah çəkməkdən və xanıma daim dəfnəgilas cövhəri içirtməklə sakit eləməkdən ibarət olan bu arahəkimi cəld özünü yetirdi; quş lələyi yandırıb tüstüsünü otağa yaydı; xanım gözlərini açdıqda isə içində çox xoşladığı dəfnəgilas cövhəri olan qədəhi dərhal gümüş podnosda ona uzatdı. Xanım dərmanı içdi və elə o dəqiqə itdən, Qavriladan, öz bəxtindən, ondan – yazıq qoca qarıdan hamının üz döndərdiyindən, hamının ona ölüm istədiyindən yanıqlı bir səslə şikayətlənməyə başladı. Bu arada bədbəxt Mumu yenə də hürür, Gerasim isə onu hasardan ayırmaq üçün nə qədər əlləşirdisə də zəhməti hədər gedirdi. Xanım:

– Budur... budur... yenə – deyə kəkələdi və gözləri axdı.

Arahəkimi qızlardan birinə nə isə pıçıldadı, qız dəhlizə yüyürdü, Stepanı silkələyib ayıltdı, Stepan da Qavrilanı oyatmağa yüyürdü. Qavrila isə qızışaraq bütün nökər və qulluqçuların ayağa qaldırılmasını əmr etdi.

Gerasim başını çevirdi, pəncərələrdə yanan işıqları və gəzişən kölgələri gördü, ürəyi bir fəlakətin baş verəcəyini hiss etdi, cəld Mumunu qoltuğuna vurub daxmasına yüyürdü və girib içəridən qapını bağladı. Bir neçə dəqiqə keçmişdi ki, beş adam onun qapısını itələyib açmağa çalışdı, lakin içəridən qapının bərk bağlı olduğunu hiss edib

dayandılar. Qavrila bərk tövşüyə-tövşüyə yüyürüb gəldi, onlara əmr etdi ki, səhərə kimi burada qalsınlar və keşik çəksinlər, özünü isə qulluqçu qızlar otağına saldı, çayı, qəndi və sair ərzağı oğurlayıb yerbəyer elədikləri baş qaravaş Lyubov Lyubimovnaya buyurdu ki, bədbəxtlikdən itin haradansa yenə qaçıb gəldiyini, lakin günü sabah öldürüləcəyini xanıma yetirsin, xanım rəhmə gəlib qəzəblənməsin və sakitləşsin. Yəqin ki, xanım belə tezliklə sakitləşməzdi, lakin arahəkimi tələsdiyindən dərmanı on iki damcı əvəzinə düz qırx damcı tökmüşdü; dəfnəgilas cövhərinin gücü öz təsirini göstərdi, on beş dəqiqədən sonra xanım bərk və şirin yuxuya getdi; Gerasim isə rəngi qaçmış halda öz çarpayısında uzanıb Mumunun ağzını bərk-bərk tutmuşdu.

Ertəsi gün səhər xanım yuxudan çox gec oyandı. Qavrila Gerasimin sığınacağına qəti basqın əmrini vermək üçün xanımın oyanmasını gözləyir, özü də şiddətli qəzəb fırtınasına davam gətirməyə hazırlaşırdı. Lakin fırtına qopmadı. Xanım yerində uzandığı halda baş qaravaşı yanına çağırtdırdı. O, alçaqdan, zəif səslə:

– Lyubov Lyubimovna, – deyə sözə başladı; xanım bəzən özünü sıxışdırılan və kimsəsiz bir əzabkeş kimi göstərməyi xoşlayırdı; onu demək artıqdır ki, belə hallarda evdəkilər özlərini necə pis hiss edirdilər, – Lyubov Lyubimovna, siz mənim halımı görürsünüz; əzizim, Qavrila Andreiçin yanına gedin, onunla danışın; məgər nacins bir it onun gözündə xanımın istirahətindən, bütün həyatından qiymətlidir? Mən buna inanmaq istəməzdim, – deyə o dərin bir təəssüf hissi ilə əlavə etdi. – Gedin, əzizim, zəhmət çəkib Qavrila Andreiçin yanına gedin!

Lyubov Lyubimovna Qavrila Andreiçin otağına getdi, onların nə barədə danışdıqları məlum deyildir, lakin bir dəstə nökər həyətdən keçib Gerasimin daxmasına tərəf yönəldi; Qavrila, külək olmamasına baxmayaraq, əli ilə papağını tuta-tuta qabaqda gedirdi; onun yanınca lakeylər və aşpazlar addımlayırdılar. Xvost dayı pəncərədən baxır və göstəriş verirdi, yəni sadəcə əllərini yelləyirdi; hamıdan dalda uşaqlar atılıb-düşür, oyunbazlıq edirdilər; bunların yarısı özgə həyətlərdən gəlmiş uşaqlardı. Daxmaya çıxan dar pilləkəndə tək bir keşikçi oturmuşdu; qapının ağzında əllərində ağac tutmuş iki nökər durmuşdu. Gələnlər yuxarı çıxıb pilləkən uzunu dayandılar. Qavrila yaxınlaşıb yumruğu ilə onu döydü və qışqırdı:

– Aç!

Boğuq bir it hürməsi eşidildi, lakin cavab çıxmadı.

– Sənə deyirlər aç! – deyə Qavrila təkrar etdi.

Stepan aşağıdan səsləndi:

– Qavrila Andreiç, axı o kardır, eşitmir.

Hamı gülüşdü.

– Bəs necə olsun? – deyə Qavrila yuxarıdan soruşdu.

Stepan cavab verdi:

– Onun qapısında deşik var, içəriyə ağac salın.

Qavrila əyildi.

– O, deşiyi çuxa ilə tutmuşdur.

– Çuxanı itələyib içəri salın.

Yenə boğuq bir it hürməsi eşidildi.

Dəstənin içindən:

– Bir gör, bir gör özünü necə aşkara çıxarır, – səsləri gəldi və yenə hamı gülüşdü.

Qavrila qulağının dibini qaşıdı. Nəhayət, sözünə davam etdi:

– Yox, qardaş! İstəyirsən əgər, çuxanı özün itələyib içəriyə sal.

– Nə olar ki, icazə verin!

Stepan yuxarıya dırmaşdı, ağacı əlinə alıb çuxanı içəriyə itələdi və:

– Çıx, çıx, – deyə-deyə ağacı içəridə hərləməyə başladı. O hələ də ağacı hərləyirdi ki, birdən daxmanın qapısı sürətlə açıldı, bütün nökərlər o dəqiqə pilləkəndən aşağıya yumalandılar. Qavrila hamıdan qabaqda idi. Xvost dayı pəncərəni örtdü.

Qavrila həyətdən çığırdı:

– Ey, ey, ey, dinc dur ha, bax, dinc dur!..

Gerasim hərəkətsiz bir halda kandarda dayanmışdı. Dəstə pilləkənin ayağına toplandı. Gerasim əyinlərində alman arxalığı olan bu adamcığazlara əllərini yüngülcə belinə qoymuş bir halda yuxarıdan baxırdı; qırmızı kəndli köynəyində o, bunların qarşısında bir nəhəng kimi görünürdü. Qavrila bir addım qabağa gəldi.

– Bax, qardaş, – deyə o səsləndi, – mənim yanımda dəcəllik eləmə.

O işarə ilə Gerasimə başa salmağa başladı ki, xanım hökmən sənin itini tələb edir; iti bu dəqiqə bizə verməlisən, yoxsa başın müsibət çəkər.

Gerasim ona baxdı, iti göstərdi, əlini ilgək bağlayırmış kimi boynunun ətrafına çəkərək, üzündə sual ifadəsi ilə eşikağasına baxdı.

Eşikağası:

– Hə, hə, hökmən, – deyə başını əyərək təsdiq etdi.

Gerasim gözlərini aşağı dikdi, sonra birdən silkindi, həmişə yanında dayanıb quyruğunu yazıq-yazıq bulayan və maraq içərisində qulaqlarını şəkləyən Mumunu bir də göstərdi, öz boynunda boğmaq işarəsini təkrar etdi və mənalı-mənalı öz döşünə vurdu, sanki bununla Mumunu tələf etməyi öz öhdəsinə götürdüyünü bildirirdi.

Qavrila cavabında əlini yellədi:

– Sən bizi aldadırsan!

Gerasim ona diqqətlə baxdı, istehza ilə gülümsədi, yenidən sinəsinə vurdu və qapını çırpıb örtdü:

Hamı səssiz-səmirsiz bir-birinin üzünə baxdı.

Qavrila sözə başladı:

– Bu nə deməkdir? Bağlı daxmadamı oturub qalacaqdır?

Stepan səsləndi:

– Qavrila Andreiç, onu rahat buraxın, söz verdi, yerinə yetirər. O belə adamdır... Söz ki verdi, hökmən əməl edər. O bu cəhətdən bizim tayımız deyil. Doğru sözə nə deyəsən? Bəli.

– Bəli, – deyə hamı təkrar etdi və başlarını əydilər. – Belədir. Bəli.

Xvost dayı da pəncərəni açıb dedi:

– Bəli.

Qavrila:

– Hə, qoy elə olsun, baxarıq, – deyə cavab verdi. Amma qarovul, hər halda, gərək qalsın. Ey, Yeroşka! – deyə o sarı rəngli qədəkdən kazak köynəyi geymiş, bağban hesab olunan solğunbənizli bir adama üzünü tutdu və əlavə etdi: – İşinin adı nədir? Dəyənəyi al, burada otur, bir şey olsa, yüyür, mənə xəbər ver!

Yeroşka dəyənəyi əlinə aldı və pilləkənin axırıncı pilləsində əyləşdi. Bir neçə nəfər maraqlanandan və uşaqlardan başqa hamı dağılışdı, Qavrila isə qayıdıb tapşırdı ki, hər bir şeyin yerinə yetirildiyi Lyubov Lyubimovnanın vasitəsilə xanıma xəbər verilsin, buna baxmayaraq, hər bir ehtimalı nəzərdə tutub sürücünü polis məmurunun yanına göndərdi. Xanım özünün cib yaylığına düyün vurdu, üzərinə odekolon töküb gicgahlarını sürtdü, çay içdi və hələ də dəfnəgilas cövhərinin təsiri altında olduğundan yenidən yatdı.

Bütün bu haray-həşirdən bir saat sonra daxmanın qapısı açıldı və Gerasim göründü. Onun əynində bayram arxalığı vardı; o, Mumunun boynuna ip bağlayıb dalınca aparırdı. Yeroşka kənara çəkildi və ona yol verdi. Gerasim darvazaya tərəf yönəldi. Uşaqlar və həyətdə olanların hamısı dinmədən, nəzərlərini ona yönəltdilər. O, heç dönüb baxmadı da, papağını isə ancaq küçədə başına keçirtdi. Qavrila həmin Yeroşkanı müşahidəçi sifətilə onun dalınca göndərdi. Yeroşka uzaqdan onun itlə bərabər aşxanaya girdiyini görüb oradan çıxmasını gözləməyə başladı.

Aşxanada Gerasimi tanıyır və onun işarələrini başa düşürdülər. O, ətli borş istədi və əlləri ilə stola söykənərək oturdu. Mumu onun stulunun yanında durub ağıllı gözlərilə sakit-sakit ona baxırdı. İtin tükü par-par parıldayırdı: görünürdü ki, təzəcə daranıb. Gerasimə borş gətirdilər. O, borşun içinə çörək doğradı, əti xırdaladı və qabı döşəmənin üstünə qoydu. Mumu həmişəki qaydasilə zərif-zərif yeməyə başladı, onun ağzı yeməyə lap azca toxunurdu; Gerasim ona bir xeyli baxdı, birdən-birə gözlərindən iki iri damcı yaş süzüldü. Damcılardan biri itin dik alnına, o biri borşun içinə düşdü. Gerasim əlilə üzünü örtdü. Mumu yarım boşqab yeyib ağız-burnunu yalaya-yalaya kənara çəkildi. Gerasim ayağa durdu, borşun pulunu verdi və aşxana xidmətçisinin bir qədər heyrətli baxışı altında çıxıb getdi. Gerasimi görəndə Yeroşka tində gizləndi və yanından ötüb keçən kimi yenidən Gerasimin dalınca düşdü.

Gerasim tələsmədən gedir və Mumunu açıb buraxmırdı. Küçənin tininə çatanda fikrə gedibmiş kimi dayandı və birdən sürətli addımlarla düz Krım keçidinə sarı yönəldi. Yolüstü o, yanında əlavə bina tikilən bir evin həyətinə girdi, oradan qoltuğuna iki kərpic vurub gətirdi. O, Krım keçidindən sahilə gedən yola döndü, payaya bağlanmış avarlı iki qayığın olduğu yerə çatdı (o, əvvəllər bu qayıqları görmüşdü) və Mumu ilə bu qayıqlardan birinə sıçradı. Bostanın küncündə qurulmuş alaçıqdan axsaq bir qoca çıxıb Gerasimin üstünə çığırdı. Gerasim ancaq başını yırğaladı və elə qüvvətlə avar çəkməyə başladı ki, çayın axınına qarşı olsa da bir anda azı yüz sajen[1] yol getdi. Qoca dayandı, dayandı, əvvəlcə sol, sonra da sağ əlilə çiynini qaşıyıb axsaya-axsaya öz alaçığına qayıtdı.

[1] Rus uzunluq ölçüsüdür, təxminən 2,13 metrə bərabərdir.

Gerasim isə hey avar çəkirdi. Budur, Moskva arxada qaldı. Sahil boyunca çəmənlər, bostanlar, tarlalar, meşələr uzanıb gedir, daxmalar görünməyə başlayırdı. Kənd həyatı hiss olunurdu. O, avarları buraxdı, qayığın dibini su basdığından qabağında, quru taxta üstündə oturan Mumuya sarı əyildi, güclü əllərini itin belində çarpazlayıb hərəkətsiz bir halda donub qaldı; ləpə indi qayığı yavaş-yavaş geriyə, şəhərə aparırdı. Nəhayət, Gerasim dikəldi, üzündən əzgin bir qəzəb yağa-yağa ipi gətirdiyi kərpiclərə doladı, ilgək bağlayıb Mumunun boynuna keçirtdi, iti çayın üstündə yuxarıya qaldırdı və axırıncı dəfə ona baxdı. İt inamla və qorxusuz bir halda Gerasimə baxır, yüngülcə quyruğunu bulayırdı. Gerasim üzünü yana çevirdi, gözlərini yumdu və əllərini açdı...

Gerasim heç bir şey eşitmədi, – nə suya düşən Mumunun qulaqları dələn zingiltisini, nə də suyun ağır-ağır sıçrayıb şappıldamasını; bizim üçün ən səssiz və sakit gecə belə səsli-səmirlidir, onun üçün isə ən gurultulu gündüz də lal-kar idi, o yenidən gözlərini açanda yenə əvvəlki kimi çayın üzündə bir-birini qovurmuş kimi görünən xırda ləpələr tələsir, əvvəlki kimi sıçrayır və qayığın yanlarına dəyir, yalnız xeyli arxada, sahilə doğru geniş dairələr yayılırdı.

Gerasim onun gözündən itən kimi Yeroşka evə qayıtdı və gördüklərinin hamısını xəbər verdi:

– Əlbəttə, o, iti suda batıracaqdır, – deyə Stepan qeyd etdi, – buna arxayın ola bilərsiniz. O ki söz verdi...

O gün Gerasimi daha görən olmadı. O, evdə nahar etmədi. Axşam düşdü; ondan başqa hamı axşam yeməyinə yığışdı.

Paltaryuyan kök arvad cır səslə çığırdı:

– Bu Gerasim də qəribə adamdır ha! Bir itdən ötrü bu qədər əl-ayağa düşmək olmaz ki!.. Doğrudan da!

Qabağındakı sıyıqdan qaşıqla öz boşqabına çəkən Stepan birdən çığırdı:

– Gerasim buraya gəlmişdi!

– Necə? Nə vaxt?

– İki saat olar! Bəs necə! Mən özüm onunla darvazada üz-üzə gəldim. O yenə buradan gedirdi, həyətdən çıxırdı. Mən iti ondan xəbər almaq istədim, deyəsən qanıqara idi. Məni elə bərk itələdi ki, görünür, elə-belə məni özündən kənar etmək istəyirdi: yəni ki, yaxamdan əl çək; bel damarıma elə güclü bir şapalaq vurdu ki, hələ

də yeri ağrıyır, oy, oy, oy. – Stepan burada ixtiyarsız gülümsünərək büzüşdü və peysərini ovuşdurdu. Sonra da əlavə etdi: – Bəli, heç söz ola bilməz, yaman ağır əli var.

Hamısı Stepana güldü və yeməkdən sonra yatmaq üçün dağılışdılar.

Bu arada T... şosesi ilə bir pəhləvan qəti addımlarla və dayanmadan yol gedirdi, çiynində torba, əlində uzun bir ağac vardı. Bu, Gerasim idi. Dalına baxmadan gedir, öz evinə, öz kəndinə, öz doğma yurduna tələsirdi. Yazıq Mumunu batırandan sonra o cəld daxmasına gəlmiş, şey-şüyünü köhnə bir çulun içinə yığıb bağlama düzəltmiş və çiyninə ataraq yola düzəlmişdi. O, hələ Moskvaya gətiriləndə yolu yaxşıca bələdləmişdi; xanımın onu apartdırdığı kənd şosedən cəmisi iyirmi beş verstlik[1] bir məsafədə idi. Gerasim şose ilə sarsılmaz bir cəsarət, ciddi və eyni zamanda şən bir qətiyyətlə irəliləyirdi. O gedirdi; yaxasını geniş açmışdı; O elə tələsirdi ki, sanki uzaq yerdə, yad adamlar arasında uzun müddət qaldıqdan sonra qoca anası onu doğma yurda çağırırdı; acgöz nəzərləri düz irəliyə zillənmişdi. Təzəcə düşmüş yay axşamı sakit və ılıq idi; bir tərəfdə – günəş batan yerdə göyün kənarı hələ də ağarır, batmaqda olan günəşin son şüası ilə zəifcə qızarırdı, o biri tərəfdə isə göy, boz bir alaqaranlıq baş qaldırırdı. Gecə həmin bu tərəfdən hücum çəkirdi. Hər yanda yüzlərlə bildirçin cikkildəşir, çəkçəki quşları səs-səsə verib ötüşürdü... Gerasim onları eşidə bilməzdi; o, qüvvətli addımlarla yanından ötüb-keçdiyi ağacların aydın gecə pıçıltısını da eşidə bilməzdi; lakin o, tutqun tarlalardan yayılan, yetişməkdə olan çovdarın tanış ətrini hiss edirdi, qarşıdan əsən küləyin – doğma yurdun küləyinin üzünə nəvazişlə toxunduğunu, saçlarında və saqqalında oynadığını hiss edirdi. Qarşısında ağaran ox kimi düz yolu – evinə gedən yolu görürdü; göydə yolunu işıqlandıran saysız-hesabsız ulduz görür və şir kimi cürətli qıvraq addımlarla yeriyirdi. Odur ki, çıxmağa başlayan günəş öz şehli qırmızı şüalarını yenicə qızışmış pəhləvanın üstünə saldıqda Moskva ilə onun arasında artıq 35 verst məsafə vardı...

İki gündən sonra o, artıq komasında idi və öz gəlişi ilə buraya köçürülmüş əsgər arvadını olduqca heyrətə salmışdı. Gerasim dini təsvirlər qarşısında dua edərək o dəqiqə koxanın yanına getdi. Koxa

[1] Verst – 1,06 kilometrə bərabər uzunluq ölçüsü

əvvəlcə təəccüb edən kimi oldu; lakin ot çalımı yenicə başlanırdı. Gerasim əla işçi olduğuna görə elə buradaca əlinə dəryaz verdilər, o, köhnə qaydasilə ot çalmağa girişdi, otu elə çalırdı ki, kəndlilər onun qol vurmasına və çalıb qabağına yığdığı ota baxdıqca quruyub qalırdılar...

Moskvada isə Gerasim qaçan günün sabahısı onu axtarmağa başladılar. Daxmasına getdilər, hər tərəfinə göz gəzdirdilər, Qavrilaya xəbər verdilər. O gəlib baxdı, çiyinlərini atdı və qət elədi ki, lal ya qaçmış, ya da özünün axmaq iti ilə bir yerdə batıb tələf olmuşdur. Polisə xəbər verdilər, xanıma bildirdilər. Xanım qəzəbləndi, ağladı, tapşırdı ki, onu hökmən axtarıb tapsınlar, inandırmağa başladı ki, iti tələf etməyi heç vaxt əmr etməmişdir, axırda Qavrilanın başına bir oyun açdı ki, Xvost dayı ona "E...eh!" deyib ağlını başına gətirənə kimi bütün günü başını bulaya-bulaya "hə!" deyə təkrar edib durdu. Nəhayət, Gerasimin xəbəri kənddən gəldi. Xanım bir qədər sakitləşdi. Əvvəlcə istədi əmr versin ki, onu tez Moskvaya qaytarsınlar, lakin sonra bildirdi ki, elə nankor adam ona heç lazım deyil. Nə isə özü bu hadisədən sonra tezliklə öldü; vərəsələrin isə Gerasimlə məşğul olmağa macalları yox idi: onlar analarının bütün başqa nökərlərini də töycü vermək şərtilə buraxdılar.

Gerasim indiyə kimi də öz kimsəsiz daxmasında tək-tənha yaşayır; əvvəlki kimi sağlam və qüvvətlidir, keçmişdəki kimi dörd adamın işini görür, keçmişdəki kimi də təşəxxüslü və ağır-səngindir. Lakin qonşuları belə bir cəhətə diqqət yetirdilər ki, o, Moskvadan qayıdandan sonra qadınlardan tamam uzaq gəzir, onların üzünə belə baxmır, yanında da it saxlamır. Kəndlilər öz aralarında danışırdılar: "Bəxti gətirib ki, ona qadın lazım deyil, it isə nəyinə gərəkdir! Onun həyətinə oğrunu kəməndlə də dartıb gətirə bilməzsən!" Lalın pəhləvan qüvvəti haqqında belə bir şayiə yayılmışdı.

FYODOR MİXAYLOVİÇ DOSTOYEVSKİ

(1821-1881)

GÜLMƏLİ ADAMIN YUXUSU

(fantastik hekayə)

Mən gülməli adamam. İndi mənə dəli deyirlər. Əgər onlar üçün hələ də gülməli adam olaraq qalmasaydım, bu rütbəmin qalxması olardı. Amma atıq indi acıqlanmıram, indi onlar hamısı mənə əzizdir. hətta onlar məən güləndə – nədənsə xüsusilə əziz olurlar. Əgər mən onlara baxaraq belə kədərlənməsəydim, özüm də, əlbəttə, özümü yox, onları sevdiyimdən gülərdim. Kədərimin isə səbəbi odur ki, onlar həqiqətən bilmirlər, mən isə bilirəm. Eh, həqiqəti təklikdə bilmək necə də çətindir! Lakin onlar bunu başa düşməzlər. Yox, başa düşməzlər.

Əvvəllər isə gülməli göründüyüm üçün yaman sıxılırdım. Yox, gülməli görünmürdüm, gülməli idim. Mən həmişə ola bilsin ki, lap anadan olandan bəri, bilirəm ki, gülməli olmuşam. Bəlkə də, yeddi yaşımda bilirdim ki, gülməliyəm. Sonra məktəbdə oxumuşam, daha sonra universitetdə, amma nə qədər oxuyurdumsa, bir o qədər də hiss edirdim ki, gülməliyəm. Beləliklə, axırda bütün universitet elmim elə bil bircə ondan ötəri mövcud idi ki, onun dərinliklərinə getdikcə mənə sübut eləsin və başa salsın ki, gülməliyəm. Elmdəki kimi həyatda da belə idi. İldən ilə hər barədə gülməli olmağım haqqında fikrim artır və möhkəmlənirdi. Onlar mənə gülürdülər ki, dünyada gülməli olduğumu ən çox bilən bir adam varsa, o da mən özüməm. Bax, elə mənə ağır gələn də bu idi ki, onlar bunu bilmirdilər, ancaq bunda özüm günahkar idim: mən həmişə elə məğrur olmuşam ki, bunu heç vaxt heç kimə etiraf etmək istəməmişəm. Bu məğrurluq illər keçdikcə artmışdı və mənə elə gəlir ki, birdən, təsadüfən kiminsə qarşısında gülməli olduğumu boynuma alsaydım,

onda oradaca, o axşam başımı dağıdardım, tapança gülləsi ilə. Eh, mən yeniyetməlik dövründə necə də əzab çəkərdim ki, birdən dözə bilmərəm və bunu yoldaşlarıma etiraf edərəm. Gənc bir oğlan olandan sonra dəhşətli xüsusiyyətim haqqında ildən ilə daha çox öyrənməyimə baxmayaraq, nədənsə bir az sakit hal aldım. Məhz nədənsə, iş orasındadır ki, mən hələ indi də nə üçün belə olduğumu təyin edə bilmirəm. Ola bilsin ona görə ki, ürəyimdə artıq məndən sonsuz dərəcədə uca olan səbəbdən heybətli bir qəm, kədər yığılırdı: məhz, bu ağlıma gələn etiqaddır ki, dünyanın hər yerində hər şey eynidir. Çoxdan bunu hiss edirdim, lakin tam əminlik axırıncı il necəsə birdən gəldi. Birdən hiss etdim ki, dünyanın mövcud olmasının və yaxud olmamasının mənim üçün heç bir fərqi yoxdur. Heç nəyin olmadığını eşitməyə və duymağa başladım. Əvvəlcə mənə hey elə gəlirdi ki, bunun əvəzində əvvəllər çox şey olub, ancaq sonra anladım ki, heç əvvəllər də heç nə olmayıb, lakin yalnız nədənsə mənə elə gəlib. Tədricən yəqin etdim ki, heç vaxt heç nə də olmayacaq. Onda mən birdən insanlara acıqlanmağımı tərgitdim və demək olar ki, onlara diqqət verməməyə başladım. Həqiqətən, hətta lap cüzi boş şeylərdə belə bu özünü büruzə verirdi: məsələn, mən yolda gedəndə adamlarla toqquşurdum. Bu, fikirli olmadığımdan deyildi: nə barədə fikirləşə bilərdim, fikirləşməyi tamam atmışdım: mənə təfavütü yoxdur. Və yaxşı olardı, saysız-hesabsız məsələləri həll edəm; ancaq mənə təfavütü olmadığından bu məsələlərin hamısı yoxa çıxdı. Və budur, ondan sonra həqiqəti bildim. Həqiqəti mən keçən noyabrda, məhz üçü noyabrda bildim və o vaxtdan bir anımı belə unutmuram. Bu çox qaranlıq bir axşamda baş verdi. Onda axşam saat on birdə evə qayıdırdım və məhz, yadımdadır, fikirləşdim ki, bundan da qaranlıq vaxt ola bilməz. Hətta fiziki cəhətdən də. Yağış bütün vahiməli idi, yadımdadır, insanlara qarşı açıq kinli bir yağış idi. O, qəfildən saat on birdə kəsdi və yağış vaxtı olan rütubət və soyuqdan betər qiyamət rütubət başladı. Və hər şeydən, hər küçədəki daşdan, hər küçədən aralı yerləşən döngələrdən buğ gəlirdi. Birdən təsəvvürümə gəldi ki, hər yanda qaz sönsəydi, sevindirici hal olardı, qaz isə ürəyi kədərləndirir, ona görə ki, o hər şeyi işıqlandırır. Həmin gün, demək olar ki, nahar eləməmişdim və axşamdan bir mühəndisgildə oturmuşdum, onlarda isə onun iki yoldaşı da oturmuşdu. Mən hey susurdum və deyəsən, onların zəhlələrini aparmışdım. Onlar mübahisəli bir şeydən danışırdılar və hətta birdən-birə qızışırdılar. Amma mən gördüm ki, onlar elə-belə qızışırlar. Mən bunu onların üzünə dedim: "Cənablar, axı sizin üçün, – dedim, – fərqi yoxdur". Onlar küsmədilər, eləcə mənə güldülər. Bu ondandır ki, tənəsiz-filansız dedim. Onlar da mənim üçün fərqi olmadığını görəndə sevincək oldular.

Küçədə qaz barədə düşünəndə göyə nəzər yetirdim. Göy dəhşət tutqun idi, amma parçalı buludları, onların arasında isə hədsiz dərəcədə balaca ulduz gözümə dəydi və diqqətlə ona baxmağa başladım. Səbəbi o idi ki, bu ulduz məndə bir fikir oyatdı. Mən bu gecə özümü öldürməyi qət etdim. Bu qəti qərara iki ay bundan əvvəl gəlmişdi və nə qədər kasıb olsam da, əla tapança almış və həmin gün də içini doldurmuşdum. Lakin iki ay keçmişdi, o isə hələ də qutuda idi. Lakin mənə o dərəcədə təfavütü yox idi, axırda istədim ki, biganə olmadığım bir dəqiqə tapam, nəyə görə, bilmirəm. Və beləliklə də, bu iki ayda mən hər gecə evə qayıdarkən düşünürdüm ki, özümü güllələyəcəyəm. Gözləyirdim. Bax, indi isə bu balaca ulduz mənə bir fikir verdi və mən qərar gəldim ki, bu, hökmən bu gecə olacaq. Amma niyə balaca ulduz fikir gətirdi – bilmirəm.

Hə, mən göyə baxırdım ki, qəflətən bir qız dirsəyimdən yapışdı. küçə artıq boşalmışdı və demək olar ki, heç kəs yox idi. Uzaqda arabada arabaçı yatırdı. Qızın səkkiz yaşı olardı, onun başında balaca yaylıq, əynində don vardı, tamam islanmışdı. Ancaq mən xüsusilə onun cırılmış yaş başmaqlarını yadımda saxladım, indi də yadımdadır. Onlar daha çox gözümə çarpdılar. O, qəfildən dirsəyimdən dartmağa və çağırmağa başladı. O ağlamırdı, lakin qırıq-qırıq hansısa sözləri qışqırır, onları da titrəməkdən düz əməlli deyə bilmirdi. O nədənsə vahimədə idi və bərkdən: "Anacan!" – deyə qışqırdı. bir istədim üzümü ona tərəf çevirəm, amma bir söz deməyib yoluma davam edirdim, ancaq o dalımca qaçır və məni dartırdı, onun səsindən ürkən uşaqların dilində olan ümidsizlik sədası gəldi. Mən bu sədanı tanıyıram. O, sözləri axıracan deməsə də anladım ki, haradasa onun anası ölür, yaxud orada bunların başına nəsə gəlib və o, anasına kömək eləmək üçün kimi isə çağırmağa, nəyi isə tapmağa çıxıb. Lakin onun dalınca getmədim, tərsinə, onu qovalamaq fikri ağlıma gəldi. Əvvəl ona dedim, qorodovoyu tapsın. Lakin o, balaca əllərini büküb hıçqıra-hıçqıra, tövşüyə-tövşüyə hey böyrümcə

qaçır, məni buraxmırdı. bax, onda ayağımı yerə vurdum və üstünə çığırdım. O, yalnız "cənab, cənab" deyə qışqırırdı, sonra birdən-birə məndən əl çəkərək dərhal qaçıb küçəni keçdi: orada da yoldan keçən görsəndi və yəqin ki, onun üstünə cumdu.

Beşinci mərtəbəyə qalxdım. Kirayə evdə yaşayıram. Otağım kasıb və balacadır, pəncərəm isə çardaqlı, yarımdairəvidir. Mənim müşənbə divanın, üstündə kitablar olan masam, iki stul və rahat, çoxdanın köhnəsi olsa da, volter kürsüm var.

Əyləşdim, şamı yandırdım və fikirləşməyə başladım. Yanımda, o biri otaqda divarın dalında mərəkə davam edirdi. Üç gün idi ki, mərəkə davam edirdi. Orada istefaya çıxmış kapitan yaşayırdı, onun da altı kefli qonağı var idi. Onlar araq içir və köhnə kartlarla ştos oynayırdılar. Keçən gecə dalaşma var idi və bilirəm ki, onlardan ikisi bir-birinin saçlarından tutub sürüyürdü. Sahibə şikayət etmək istəyirdi, amma kapitandan yaman qorxurdu. Bizdən başqa evlərdə bircə alçaqboy və arıq, üç balaca və burada xəstələnən uşaqları olan gəlmə hərbçi xanımı yaşayırdı. Və o da, uşaqlar da kapitandan çox qorxur və bütün gecəni əsir, xaç çevirirdilər. Ən balacasının isə qorxudan tutması olmuşdu. Bu kapitan, mən dəqiq bilirəm, özgə vaxt Nevskidən keçənləri dayandırıb dilənir. Onu xidmətə götürmürlər, amma, qəribə işdir (elə onunçun da bunu söyləyirəm), kapitan, bir aydır bizdə yaşadığı, məndə lakin heç bir dilxorçuluq yaratmayıb. Tanışlıqdan, əlbəttə, lap əvvəldən boyun qaçırdım. Elə onun özü də birinci dəfədən mənimlə darıxdı, amma onlar divarın dalından nə qədər qışqırsalar da və neçə nəfər olsalar da, heç vaxt mənim üçün fərqi yoxdur. bütün gecəni otururam və vallah onları eşitmirəm – o dərəcədə onları unuduram. Mən axı artıq bir ildir ki, gecə səhərədək yatmıram. Bütün gecəni masanın yanında kürsülərdə otururam və heç nə eləmirəm. Kitabları yalnız gündüz oxuyuram. Otururam və hətta heç nə düşünmürəm, eləcə bir növ fikirlər beynimdə fırlanır, mən isə onları azadlığa buraxıram.

Gecə şam tamamilə əriyir. Mən sakit masanın arxasına oturdum, tapançanı çıxarıb qarşıma qoydum. Onu qoyarkən, yadımdadır, özümdən soruşdum: "Eləmi?" və özümə tam müsbət cavab verdim: "Elə". Yəni özümü güllələyəcəyəm. Bilirdim ki, bu gecə özümü yəqin öldürəcəyəm, lakin o vaxta kimi masanın arxasında nə qədər oturacağam – bunu bilmirdim. Və əlbəttə, öz-özümü güllələyərdim, bu balaca qız olmasaydı.

II

Görürsünüzmü, mənim üçün heç nəyin fərqi olmasa da, məsələn, ağrını hiss edirdim. Kim məni vursa, ağrını hiss edərdim. Beləcə də mənəvi cəhətdən üreksıxıcı bir şey olsa, hələ həyatda heç nəyin fərqi olmadığını əvvəlki kimi rəhm hissi keçirərdim. Və bayaq yazığım gəldiyi: uşağa da hökmən kömək edərdim. Niyə onda qıza kömək etmədim? Ağlıma gələn bir ideyanın dərdindən: o məni dartıb çağıranda qabağımda qəflətən sual yaranmışdı, mən isə onu həll edə bilmirdim. sual boş sual idi, amma mən isə hirsləndim. Bu nəticədən sonra hirsləndim ki, əgər bu gecə özümlə vidalaşacağımı qərara almışamsa, onda, elə çıxır ki, mənə ayrı bir vaxta nisbətən indi heç nə təsir eləməməlidir. Bəs nədən birdən duydum ki, mənim üçün fərqi var və mənim qıza yazığım gəlir? Yadımdadır, yaman yazığım gəldi ona; hətta qəribə və mənim vəziyyətimdə tamam mümkün olmayan bir ağrıya qədər. Doğrusu, ondakı ötəri hissimi bundan yaxşı çatdırmağı bacarmıram. Amma o hiss evdə də, artıq masanın arxasında oturandan sonra da davam edirdi, mən də çoxdan olmayan kimi acıqlı idim. mühakimə mühakimənin dalınca gəlirdi. Aydın olurdu ki, insanamsa və hələ ki sıfır deyiləmsə və hələ sıfra dönməmişəmsə, onda yaşayıram, beləliklə də əzab çəkə, hirslənə və öz hərəkətlərimdən xəcalət çəkə bilərəm. Qoy olsun. Lakin özümü öldürəcəyəmsə, məsələn, iki saatdan sonra, onda qız nədir və xəcalət-filanla nədir işim? Mən sıfra dönürəm, mütləq sıfra. Və görəsən, şüurum bilə-bilə ki, indi qətiyyən olmayacağam və deməli heç nə olmayacaq, nə etdiyim alçaqlıqdan sonra xəcalət, nə qıza qarşı mərhəmət hissinə təsir etməmişdi? Axı mən elə o səbəbdən ayağımı yerə döyüb vəhşi səslə bədbəxt uşağın üstünə qışqırdım ki, "yəni, nəinki yazığım gəlmir, zalım əclaflıq da eləsəm, indi edərəm, çünki iki saatdan sonra hər şey sönəcək". İnanırsınızmı, ondan ötrü qışqırdım. İndi, demək olar ki, buna əminəm, həyat və dünyanın indi elə bil məndən asılı olmağı aydın görünürdü. Hətta belə demək olardı ki, dünya indi elə bil bir məndən ötrü düzəlib: öldürüm özümü, dünya da olmayacaq, hər halda mənim üçün heç nə məndən sonra olmayacaq və bütün bəşəriyyət, mənim şüurum sönən tək o saat xəyalat kimi, bircə mənim şüurumun mənsubu kimi sönəcək, ləğv olacaq, çünki ola bilsin ki, bütün bu dünya və bütün

bu insanlar tək elə mən özüməm. Yadımdadır ki, oturub düşünərkən, mən bütün bu yeni dalbadal yığışan sualları tamam ayrı tərəfə qoyub, lap yenisini ixtira edərdim. Misal üçün, əqlimə birdən qəribə fikir gəldi ki, nə olardı, əvvəllər Ayda və yaxud Marsda yaşasaydım və orada ən abırsız və namussuz hərəkət olsaydım, ona görə də söyülmüş və rüsvay edilmiş olsa idim, – necə ki yalnız yuxularda, vahimələrdə hərdən hiss və təsəvvür etmək mümkündür, – və sonra Yerə düşsə idim, ayrı planetdə etdiklərimi yaddaşımda saxlasa idim və bundan əlavə, artıq bir də oraya heç vaxt qayıtmayacağımı bilsə idim, Yerdən Aya baxdıqca mənə fərqi olacaq idi, yoxsa yox? O hərəkətə görə xəcalət çəkərdim, yoxsa yox?

Suallar artıq və mənasız idi, çünki tapança artıq gözümün qabağında idi və mən bütün varlığımla bilirdim ki, bu yəqin olacaqdır, amma suallar məni qızışdırırdı və mən cinlənirdim. Mən elə bil indi nəyi isə əvvəlcədən həll etməmiş olsa idim, ölə bilməzdim. Bir sözlə, bu qızcığaz məni xilas etmişdi, çünki suallarla atəşi uzaqlaşdırmışdım. Kapitanın da otağı elə bu vaxt sakitləşməkdə idi: onlar kart oynamağı qurtarıb, yatmağa hazırlaşır, hələlik isə mırtlanır, söyüşlərini tənbəl-tənbəl başa vururdular. bax elə burada, çıxmayan iş, masanın arxasında, kürsüdə yuxuya getdim. Özümdən bixəbər yuxuya getdim. Yuxular, məlumdur ki, çox qəribədir: bir şey olduqca aydın, xırda zərgərlik haşiyəsi tək görünür, o birisindən isə görəzə-bilməzə, sanki fəza və zamandan addayırsan. Yuxular elə bil dərrakə yox, dilək, baş yox, ürək yönəldir, amma buna baxmayaraq hərdən ağlım necə də dolaşıq hoqqalar çıxarırdı! Yuxuda onunla elə şeylər baş verir ki, heç dərk ediləsi deyil. Məsələn, mənim qardaşım beş il bundan əvvəl ölüb. Hərdən onu yuxuda görürəm: o, işlərimdə iştirak edir, lakin mən tamamilə yuxunun gedişatı zamanı bilirəm və xatirimdə saxlayıram ki, qardaşım ölüb və basdırılıb. Bəs o, ölü olsa da, burada, yanımda mənimlə birlikdə çalışmağına necə təəccüblənmirəm? Niyə ağlın bunlara yol verir? Lakin bəsdir. yuxuma başlayıram. Bəli, onda bu yuxunu gördüm, mənim üçü noyabrdakı yuxumu! Bunlar indi onun eləcə yuxu olduğunu deyib mənə sataşırlar. Amma bunun yuxu olub-olmamasının nə fərqi var? Bir yuxu mənə həqiqəti açıb. Axı bir dəfə həqiqəti tanıdın və gördünsə, onda bilirsən ki, bu həqiqətdir, qeyrisi yoxdur və ola bilməz, yatırsınızsa da, yaşayırsınızsa da. Qoy yuxuda olsun,

qoy olsun, ancaq siz tərifini göyə çıxartdınız bu həyatı mən intihar etməklə söndürmək istəyirdim, yuxum isə, mənim yuxum – ah, o mənə yeni, ulu, təzələnmiş, qüvvətli həyatdan xəbər verdi!

Dinləyin.

III

Mən dedim, yuxuya sezdirmədən getdim. Elə bil həmin materiyalar haqqında yuxuda da düşünürdüm. Birdən yuxuda gördüm ki, tapançanı götürürəm və oturduğum yerdə düz ürəyimə tuşlayıram, – başıma yox, ürəyimə. Mən isə əvvəlcə hökmən başımdan vurmağı fikrimdə tutmuşdum. Özü də sağ gicgahımdan. Döşümə tutandan sonra bir-iki saniyə gözləyirəm, şamım, masa və divar birdən tərpənməyə və yırğalanmağa başlayır. Mən dərhal çaxmağı basıram.

Yuxuda hərdən hündürlükdən yıxılanda və ya sizi kəsəndə, döyəndə siz ağrını hiss etmirsiniz, həqiqətən çarpayıda zədələnmirsiniz: onda ağrıdan oyanırsınız. Belə də mənim yuxumda: ağrını hiss etmədim, ancaq mənə elə gəlir ki, atəşimdən içim yerindən oynadı və hər şey söndü, hər tərəfim dəhşət qara oldu. Mən elə bil kor və lal oldum. Bir bərk şeyin üstündə dalı üstündə uzadılmışam. Heç nə görmürəm və bir balaca hərəkət belə edə bilmirəm. Ətrafımda gedib-gəlirlər, qışqırırlar, kapitan bərkdən danışır, sahibə ciyildəyir. Birdən ara verilir və artıq məni örtülü tabutda aparırlar. Tabutun yırğalanmağını hiss edirəm, o haqda düşünürəm. Və bu vaxt ona təəccüb edirəm ki, axı mən ölmüşəm, tamamilə ölmüşəm, bunu bilirəm və buna şübhə etmirəm, heç nə görmürəm və tərpənmirəm, bununla bərabər isə hiss edirəm və düşünürəm. Lakin çox tez belə halla razılaşıb, adətən yuxudakı kimi, həqiqəti sözsüz qəbul edirəm.

Budur, məni yenə basdırırlar, hamı gedir, mən təkəm, tamam tək. Tərpənmirəm. Əvvəllər məni necə qəbirdə basdıracaqlarını təsəvvür edəndə, qəbiri yalnız rütubət və soyuq hissi ilə bağlayırdım. İndi də hiss etdim ki, mənə yaman soyuqdur, əsasən də ayaq barmaqlarımın uclarına, amma ayrı heç nə hiss etmədim.

Mən uzanmışdım və qəribədir, ölünün gözləməyə lüzum olmamağını mübahisəsiz qəbul edərək heç nə gözləmirdim. Amma

nəmişlikdir. Neçə vaxt keçdiyini – saatmı, bir neçə gün, yoxsa çox, bilmirəm. qəfildən tabutun qapağından örtülü sol gözümə damcı düşdü, onun dalınca bir dəqiqədən sonra üçüncüsü və ilaxır və ilaxır. hər dəqiqədən bir. Ürəyində birdən dərin hiddət alışdı – yandı və bundan fiziki ağrı duydum: "Bu, yaramdır, – fikirləşdim, – bu, atəşdir, orada güllə..." Birdən hərəkətsiz olduğumdan səslə yox, bütün varlığımla, mənim baş verənlərin hökmdarını çağırdım:

– Kim olsan da, sən varsansa və indi baş verənlərdən ağıllı bir şey varsa, onun burada olmasına izn ver. Yox əgər sən ağılsız intiharımdan gələcək varlığımın eybəcər – əgər sən ağılsız intiharımdan gələcək varlığım eybəcərliyi və yöndəmsizliyi ilə qisas alırsansa, onda bil ki, heç bir vaxt və heç cür mənə verilən işgəncə, milyon illər boyu davam etsə də, mənim dinmədən duyduğum nifrətə tən ola bilməyəcəkdir!..

Çağırdım və susdum. Dərin sükut bütöv dəqiqə davam etdi, hətta bir damcı da düşdü, amma mən bilirdim, mən hədsiz, qətiyyətlə bilir və inanırdım ki, hər şey indi mütləq dəyişəcəkdir. Və budur, birdən qəbrim aralanır. Daha doğrusu, onun qazılıb açılmış olduğunu bilmirəm, ancaq mən isə tünd və mənə bəlli olmayan canlı ilə boşluğa düşmüşəm. Gözlərim görür. Gecədən xeyli keçmişdi, heç zaman, heç vaxt hələ belə qaranlıq olmamışdı! Biz artıq yerdən çox uzaq fəzada uçurduq. Məni aparandan heç nə soruşmurdum. gözləyir və fəxr edirdim. özümü inandırırdım ki, qorxmuram və qorxmadığına heyran qalmışdım. Nə qədər vaxt uçurduq, yadımda deyil, təsəvvür də edə bilmirdim: hər şey yuxuda olan kimi, fəza və zaman varlıq və şüur qanunlarından adlayıb yalnız ürək xülyalarının nöqtələrində dayanan kimi baş verirdi. Yadımdadır ki, qaranlıqda bir balaca ulduz gördüm. "Bu, Siriusdur?" – özümü saxlaya bilməyib soruşdum. – "Xeyr, bu, evinə qayıdarkən buludların arasında gördüyüm ulduzdur", – məni aparan canlı cavab verdi. Mən bilirdim ki, o, elə bil, insan simasındadır. Qəribə şeydir, canlını xoşlamırdım, hətta ona dərin nifrət bəsləyirdim. Tamam mövcud olmamağımı gözləyirdim, bunun üçün də gülləni ürəyimə vurmuşdum. İndi isə mən canlının, əlbəttə, insani olmayan, lakin mövcud olan, ömür sürən bir canlının əlindəyəm. "Onda elə çıxır ki, qəbirdən sonra da həyat var!" – təəccüblü yuxu yüngüllüyü ilə fikirləşdim, lakin ürəyimin mahiyyəti tam dərinliyi ilə mənimlə idi.

Və bir də olmaq lazımdırsa, – düşündüm, – və yenə kimin isə dəfedilməz iradəsi ilə yaşamalıyamsa, istəmirəm ki, məni bassın və alçaltsınlar!

"– Bilirsən ki, mən səndən qorxuram, onun üçün də məndən zəhlən gedir?" – həqarətli sualdan özümü saxlaya bilməyib birdən yol yoldaşıma dedim və ürəyimdə iynə sancısıtək alçalmağımı hiss etdim. Bu sualda bir etiraf var idi. O, sualıma cavab vermədi, buna baxmayaraq hiss etdim ki, mənə nifrət etmirlər və gülmürlər. hətta mənə yazıqları da gəlmir və yolumuzun naməlum, sirli, bir mənə aidiyyatı olan məqsədi var. Qorxu ürəyimdə artırdı. Nə isə səssiz, amma əzabla dinməz yoldaşımdan mənə keçir və sanki nüfuz edirdi. Biz tutqun və əsrarəngiz fəzada uçurduq. Çoxdan gözə tanış olan bürcləri artıq görmürdüm. Mən bilirdim ki, göyün fəzalarında elə ulduzlar var ki, onlardan şölələr Yerə yalnız min və milyon illər gəlib çıxır. Ola bilsin, biz artıq bu fəzaları uçub keçmişdik. Müdhiş və haldan düşmüş ürəyimdə nəyi isə gözləyirdim. Və birdən hansısa tanış və son dərəcədə haraylayan hiss məni sarsıtdı: birdən günəşimizi gördüm. Mən bilirdim ki, bu bizim Yeri yaradan bizim Günəş ola bilməz və biz Günəşimizdən hədsiz uzaq məsafədəyik, ancaq mən niyə isə varlığımla bilirdim ki, bu, büsbütün bizim Günəşdəndir, onun təkrarı və oxşarıdır. şirin, çağıran hissə şövqlə qəlbimdə səsləndi: mən də doğan işığın doğma gücünü ürəyimdə hay verib diriltdim və mən həyatı, keçmiş həyatı, qəbrimdən sonra ilk dəfə duydum.

– Lakin bu, Günəşdirsə, bu, tamamilə bizim Günəşdəndirsə, – qışqırdım, – bəs Yer hanı? – Və yoldaşım qaranlıqda zümrüd şəfəqi ilə parlayan balaca ulduza işarə elədi. Biz düz ona tərəf uçurduq.

– Və belə təkrarlar kainatda mümkündürmü, təbiətin qanunu doğrudanmı belə imiş?.. Və əgər ora da Yerdisə, doğrudanmı o bizim Yer kimidir... qətiyyən elə bədbəxt, yazıq, lakin əziz və daimi sevimli və bizim Yer kimi ən nankor uşaqlarında belə özünə qarşı acı sevgi yaradır?.. – tərk etdiyim əvvəlki Yeri çox güclü, coşqun məhəbbətdən həyəcanlanaraq çağırdım. İncitdiyim fağır qızın şəkli fikrimdən keçdi.

– Görəcəksən hər şeyi, – deyə yoldaşım cavab verdi və sözümdə kədər səsləndi. Ancaq biz tez-tez planetə yaxınlaşırdıq. O, gözlərimin qabağında böyüyürdü, artıq okeanı, Avropanın çevrəsini seçir-

dim. Birdən-birə ürəyimdə qeyri-adi böyük müqəddəs qısqanclıq hissi yandı: "Bu cür təkrarlıq necə və nə üçün ola bilər? Mən yalnız qoyub gəldiyim, nankor mən ürəyimə gülləni vurub həyatımı söndürəndə qanımın damcıları qalan yeri sevirəm, sevə bilərəm. Heç vaxt. Heç zaman o yeri sevməkdən əl çəkməmişəm, hətta o gecə onunla ayrılanda, ola bilsin, onu ayrı bir vaxtdan çox üzücü sevirdim. Bu yeni Yerdə əzab varmı? Bizim Yerdə biz, həqiqətən, ancaq əzabla və fəqət əzabdan sevə bilirik! Mən sevmək üçün əzablar istəyirəm. Mən istəyirəm, mən qoyub gəldiyim o Yeri bu dəqiqə göz yaşları axıdaraq öpmək həsrətindəyəm və istəmirəm, ayrısında olan həyatı qəbul etmirəm!

Amma yoldaşım məni daha artmışdı. Mən birdən, elə bil özümdən gizlin, bu ayrı Yerdə cənnət təki günəşli, füsunkar parlaq gün işığında oldum. Mən sanki bizim Yerdə Yunan Arxipelaqını təşkil edən adaların və ya Arxipelaqa bitişik olan materikin sahil boyu sahəsində durmuşam. Ah, hər şey dürüst, bizdəki kimi idi, ancaq bununla belə hər tərəf elə bil bir bayram və böyük, müqəddəs zəfərlə saçılırdı. Sakit, zümrüdvari dəniz ləpələnir və açıq-aşkar, az qala şüurlu olaralq məhəbbətlə sahilləri öpürdü. uca, çox gözəl ağaclar bütün zinətilə durmuş, saysız-hesabsız yarpaqları isə, əminəm ki, məni öz asta mülayim səsilə salamlayır və sanki məhəbbətli sözlər deyirdilər. Yaşıllıq parlaq ətirli çiçəklərlə yanırdı. quşlar dəstə ilə havada uçur və məndən qorxmayaraq çiynimə, əllərimə oturur, öz qəşəng, titrək qanadları ilə sevinə-sevinə məni vururdular. Nəhayət, mən bu xoşbəxt torpağın insanlarını gördüm və tanıdım. onlar özləri yanıma gəldilər, məni əhatə etdilər, məni öpdülər. Günəş övladları, öz günəşinin övladları, – ah, onlar necə də gözəl idilər! Heç vaxt mən bizim Yerdə insanda belə gözəllik görməmişəm. Yalnız uşaqlarımızda yaşlarının ən birinci illərində, bu gözəlliyin uzaq, zəif olsa da, inikasını tapmaq olar. bu xoşbəxt insanların gözləri saf nurla parlayırdı. Üzləri məna ilə şəfəqlənir, şüurları bir arxayınlıqla dolmuşdur. Lakin bu üzlər şad idi; bu insanların sözlərində və səslərində uşaq sevinci səslənirdi. Ah, mən o saat: onların sifətlərinə ilk nəzər salan kimi hər şeyi, hər şeyi anladım! Bu xəyanətlə murdarlanmayan torpaq idi, onun üstündə günaha batmayan adamlar yaşayırdılar, onlar cəmi bəşərin rəvayətinə görə günah etmiş əcdadlarımızın yaşadıqları o cür cənnətdə yaşayırdılar, bir fərqlə ki, burada

torpağın hər tərəfi eynilə cənnət idi. Bu insanlar şən gülərək mənə sıxlaşır və məni oxşayırdılar; onlar məni öz yanlarına apardılar və onlardan hər biri məni rahatlaşdırmaq istəyirdi. Ah, onlar məni heç nə barədə sorğu-suala tutmurdular, amma elə bil hər şeyi artıq bilirdilər və tezliklə üzümdən iztirabı qaçırmaq istəyirdilər.

IV

Görürsünüzmü, yenə də: di qoy bu yalnız yuxu olsun! Lakin bu günahsız və gözəl adamların məhəbbət hissi mənimlə əbədi qaldı və mən duyuram ki, onların məhəbbəti indi də oradan mənə yayılır. Mən onları özüm görmüşəm, tanımışam və inanmışam ki, onları sevmişəm, onlar üçün sonralar əzab çəkmişəm. Ah, mən həmin saat anladım, orada hətta çox şeydə onları qətiyyən başa düşməyəcəyəm; onlar çox şeyi bildikdə bizim elmimizə malik olmadıqları, məsələn, mənə, müasir rus tərəqqipərvər və rəzil peterburqluya həlledilməz gəlirdi. Amma tezliklə başa düşdüm ki, onların birliyi, bizim Yerdən fərqli olaraq, özgə səmimiyyətlərlə tamamlanır və qidalanırdı və onların arzuları da bizimkindən tam başqadır. Onlar heç nə arzulamırdılar və rahat idilər, onlar həyatı bizim təkmilləşmişdi. Lakin onların biliyi bizim elmimizinkindən dərin və ali idi; zira elmimiz axtarıb həyatın nə olduğunu izah etmək istəyir, başqalarına yaşamağı öyrətmək üçün özü onu anlamağa çalışır, onlar isə elmsiz də necə yaşamağı bilirdilər, bunu da başa düşdüm. Amma onların idrakını başa düşə bilmirdim. Onlar ağaclarını mənə işarə edirdilər və onlara məhəbbətlə tamaşa etməklərinin dərəcəsini anlaya bilmirdim: onlar sanki özlərinə bənzər canlılarla danışırdılar. Və bilirsinizmi, ola bilsin səhv etmərəm, desəm ki onlar ağaclarla danışırlar! Bəli, onlar ağacların dilini tapmışdı və əminəm ki, onlar da insanları başa düşürdülər. onlar bütün təbiətə də belə baxırdılar, – insanların məhəbbəti il qalib olmuş, onlarla sülhdə yaşayan, hücum etməyən və onları sevən heyvanlara da ulduzları işarə edir və onlardan nə isə söyləyirlər, nəyi ki anlaya bilmirdim, lakin əminəm ki, onlar göy ulduzları ilə, elə bil, nə iləsə də təmasda idilər, tək xəyalla yox, hansı isə canlı yolla. Ah, bu adamlar çalışmırdı ki, onları anlayım, onlar onsuz da məni sevirdi, ancaq buna

müqabil bilirdim ki, onlar da məni heç vaxt anlamayacaqlar, bu səbəbdən də bizim Yer haqqında onlara, demək olar, danışmamışdım. Bircə üstündə yaşadıqları torpağı yanlarında öpürdüm və sözsüz onlara pərəstiş edirdim və onlar bunu görür və pərəstiş etdiyindən utanmayaraq özlərini pərəstiş etməyə qoyurdular, çünki özləri də çox sevirdi. Mən göz yaşları içində hərdən onların ayaqlarını öpəndə pis olmurdular, necə güclü məhəbbətlə cavab verəcəklərini sevinclə bilirdim. Arabir təəccüblə özüm-özümdən soruşurdum: Necə mənim kimisini bunlar bütün vaxt təhqir etməməyi və həsəd hisslərini oyatmamağı bacarmışlar? Çox özümdən soruşmuşam, necə lovğa və yalançı olan mən öz biliklərimdən, hansılardan ki, onların, əlbəttə, xəbəri də yox idi, onlara danışmamağı, onları yalnız istədiyimdən də olsa, biliklərimlə təəccübləndirməyi arzu etməməyi bacarmışam? Onlar şux və şən idilər, uşaqlar kimi. Onlar gözəl ağaclıq və meşəliklərdə dolaşır, gözəl mahnılarını oxuyur, yüngül yeməklərlə, ağacların barı, meşələrin balı və onları sevən heyvanların südü ilə qidalanırdılar. Yemək və geyimləri üçün lap azca və yüngülcə işləyirdilər. Onlarda sevgi var idi və uşaqlar doğulurdu, amma bizim Yerdə yaşayanların ucdantutma hamısına üz verən və bəşəriyyətin az qala bütün günahlarının yeganə mənbəsi olan kobud şəhvət ehtirasını görmədim. Onlar dünyaya gələn uşaqlara keflərinin yeni iştirakçısı kimi sevinirdilər. Aralarında küsülülük və qısqanclıq yox idi və onların nə olduğunu hətta başa düşmürdülər. Uşaqlar hamısının uşağı idi, çünki hamısı bir ailə təşkil edirdilər. Onlarda xəstəlik, demək olar ki, yox idi, ölüm olsa da, ancaq adamlarla dövrələnmiş, güllər, nurlu üzlərlə son evə yola salınır, qoca isə gülümsəyərək onlara xeyir-dua verir. Bu şəraitdə kədər, göz yaşı deyilən şey görmədim, yalnız vəcdə qədər artırılmış, sakit, tamamlanmış, seyrçi vəcdə qədər məhəbbət idi. Belə fikirləşmək olar ki, onlar öz ölüləri ilə, hətta ölümdən sonra da təmasda idilər və yer həmrəyliyi ölümlə kəsilməmişdi. onlardan əbədi həyat haqqında soruşanda məni az qala anlamırdılar, lakin görünür, buna o dərəcədə əmin idilər ki, mülahizə etmədən bu onlarda sual doğururdu. Onların inamı yox idi, ancaq əvəzində qəti bilirdilər ki, dünyəvi sevincləri Yer üzərindəki təbiətin hüdudlarına qədər aşıb-daşanda onlar üçün – həm yaşayanlar, həm də ölənlər üçün Böyük kainatla daha geniş təmas olacaqdır.

Onlar bu anı sevinclə, amma tələsmədən, onun üçün əziyyət çəkmədən gözləyirdilər. Amma elə bil onu artıq ürək duymalarında əldə etmiş, o haqda bir-birlərinə xəbər verirdilər. Axşamlar, yuxuya gedəndə onlar ahəngli və həmahəng xorlar təşkil etməyi xoşlayırdılar. Bu mahnılarda onlar gedən günün verdiyi duyğuları çatdırırdılar, onu tərifləyirdilər və onunla vidalaşırdılar. Onlar təbiəti, torpağı, dənizi, meşələri vəsf edirdilər. Onlar bir-birinin haqqında mahnılar qoşmağı xoşlayır və bir-birini uşaq kimi tərifləyirdilər. Bu, ən sadə mahnılar idi, lakin onlar ürəkdən axır və ürəklərə yayılırdı. Bir mahnılarda yox, elə bil ki, bütün ömürlərini onlar yalnız bir-birlərinə baxıb həzz almaqla keçirirdilər. Bu, bir vurulmaq idi bir-birlərinə, büsbütün, ümumi. Qeyrilərini isə əzəmətli və coşqun mahnıları qəti başa düşmürdüm. Sözlərini başa düşərkən, mənasını tam dərk edə bilmirdim. O, elə bil, mənə anlaşılmaz qalırdı, bununla bərabər ürəyim, elə bil, qeyri-şüuri və tədricən onlarla dolurdu. Tez-tez onlara deyirdim ki, bunların hamısını hələ çoxdan, qabaqcadan ürəyimdə hiss etmişdim, bütün bu sevinc və qəsidə mənə hələ bizim Yerdə hərdən dözülməz qüssəyə çatan, sədalı həsrətlə özünü göstərirdi ki, mən onların hamısını və onların tərifnaməsini ürəyimin yuxuları və ağlımın xülyalarında hiss etmişdim ki, tez-tez batan Günəşə bizim Yerdən gözüyaşsız baxa bilmirdim ki, bizim Yerin insanlarına qarşı nifrətimdə kədər var idi: onlara sevmədən nifrət niyə edə bilmirəm, niyə onları bağışlaya bilmirəm, onlara məhəbbətimdə isə kədər: niyə onları nifrət etməyərək sevə bilmirəm? Onlar mənə qulaq asırdılar və mən görürdüm ki, onlar dediyimi təsəvvür edə bilmirlər, amma o haqda dediklərindən heyfsilənmirdim: bilirdim ki, tərk etdiklərimdən ötəri kədərimin gücünü duyurlar. Bəli, onlar əziz, məhəbbətlə dolub-daşan baxışları ilə mənə baxanda, mən hiss edəndə ki, onların yanında mənim də ürəyim onların ürəyi tək məsum və düz olur, onları anlamadığımdan heyfsilənmirdim. Həyatım doluluq hissindən nəfəsim kəsilirdi və dinmədən onlara dua edirdim.

Eh, hamı indi üzümə gülür və inandırır ki, xəbər verdiyim təfsilatları yuxuda belə görmək olmaz, mən yuxumda yalnız sayıqlayanda ürəyimin yaratdığı bir duyğunu görmüş və ya dərindən hiss etmişəm, təfsilatları isə artıq oyanandan sonra uydurmuşam. Bəli, əlbəttə, mən o yuxunun bir duyğusu ilə məğlub olmuşdum və tək duyğu qanlı-yaralı ürəyimdə salamat qalmışdı. Ancaq bununla belə

yuxumun həqiqi sürət və formaları, yəni hansıları ki, həqiqətən yuxumda görmüşdüm, o qədər ahəng tamamlanmış, o qədər doğru idi ki, ayılanda onları bizim zəif sözlərimizlə ifadə etməyə, əlbəttə, gücüm yox idi. Belə ki, onlar ağlımdan silinməli idi və deməli, həqiqətən, ola bilsin, özüm, qeyri-şüuri təfsilatları sonra uydurmağa məcbur olmuşam. Və onları tezliklə və az-çox çatdırmaq arzusu onları, əlbəttə, təhrif edib. Bununla bərabər, necə inanmayım ki, bunun hamısı olmuşdur? Olmuşdu, bəlkə, nağıl etdiyimdən min dəfə yaxşı, saf və şən olmuşdu. Bu, yuxudur, amma bunun hamısı, ola bilsin, heç yuxu deyilmiş, çünki burada elə bir dəhşətə qədər doğru şey baş verdi ki, bu yuxuya da girə bilməz idi. Qoy yuxumun ürəyim yaratsın, lakin sonra başıma gələn dəhşətli həqiqəti tək ürəyim yaratmaqda gücsüz idi. Tək mən onu necə uydura bilərdim? Doğrudanmı, mənim alçaq ürəyim və qərarsız, dəyərsiz ağlım belə həqiqət xəbərinədək yüksələ bilərmiş! Ah, özünüz fikirləşin: bu vaxtadək gizlədirdim, amma indi bu həqiqəti də söyləyib qurtaracağam. İş ondadır ki, mən... onların hamısını yoldan çıxartdım!

V

Bəli, bəli, hər şey onların hamısının mənəviyyatını pozmaqla qurtardı! Bu necə ola bilərdi, bilmirəm, ancaq aydın xatırlayıram. Yuxu minilliklərdən uçub gəlib məndə yalnız bütövlük hissini saxladı. Bircə bilirəm ki, günaha düşməyin səbəbi mən idim. Xeyli dövlətləri yoluxduran murdar trixin[1] kimi, taun[2] atomu kimi mən də bütün bu mənədək xoşbəxt, pak torpağı özümlə yoluxdurdum. Onlar yalan danışmağı öyrəndilər, yalanı sevdilər və yalanın gözəlliyini bildilər. Ah, bu, ola bilsin, məsumanə, zarafatdan, nazdan, məhəbbət oyunlarından, həqiqətən, ola bilsin, atomdan başladı, amma bu yalan atomu onların ürəklərinə girmiş və xoşlarına gəlmişdi. Sonra tez şəhvət doğuldu, şəhvət qısqanclığı doğdu, qısqanclıq – rəhmsizliyi... Ah, bilmirəm, xatırlamıram, ancaq tezliklə, çox tezliklə birinci qan fışqırdı: onlar təəccübləndilər,

[1] Trixin – heyvanların (xüsusilə donuzun) və insanların bədənində yaşayan parazit qurd

[2] Xəstəlik

dəhşətləndilər və dağılmağa, ayrılmağa başladılar. Narazılıqlar, tənələr başladı. Onlar həya tanıdı və həyanı ləyaqətə çıxartdılar. Qeyrət məfhumu yarandı və hər ittifaqın öz bayrağı qaldırıldı. Onlar heyvanları öyrətməyə başladılar və heyvanlar onların əlindən meşələrə çəkildi və onlara düşmən oldu. Ayırma, ayrılma, şəxsiyyət, mənimki və səninki uğrunda mübarizə başlandı. Onlar başqa dillərdə danışmağa başladılar. Onda bunlarda elm yarandı. Acıqlı olandan sonra onlar qardaşlıq və insaniyyətdən danışmağa başladılar və bu əqidələri anladılar. Cinayətkarlıq olandan sonra ədalət icad etdilər və onu qoruyub saxlamaq üçün özlərinə bir aləm kodeks təyin etdilər. Kodekslərin mühafizəsi üçün isə gilyotin[1] qoydular. Onlar nəyi itirdiklərini yalnız azacıq xatırlayır, bir vaxtlar pak və xoşbəxt olduqlarına hətta inanmaq istəmirdilər. Onlar bu əvvəlki xoşbəxtliyin mümkünlüyünə hətta gülür və onu xəyal adlandırırdılar. Onlar bunu hətta forma və surətdə özlərinə təsəvvür edə bilmirdilər, amma qəribə və möcüzəli işdir: keçmiş xöşbəxtliyə hər cür inamı itirərkən, onu nağıl adlandırarkən onlar o dərəcədə yenidən, bir daha məsum və xöşbəxt olmaq arzusuna düşdülər ki, ürəklərinin diləkləri qarşısında devrildilər, uşaq kimi bu diləyə səcdə etdilər, kilsələr tikdilər və əqidələrinə, "diləklərinə" də sitayiş etməyə başladılar, eyni zamanda onun yerinə yetirilməsini mümkün olmamasına və həyata keçirilə bilməməyinə tamamilə inanaraq, lakin göz yaşları içində onu həddən artıq sevər və pərəstiş edərdilər. Bunula bərabər, onlar itirdiyi o məsum və xoşbəxt hallarına qayıtmaq imkanı olsa idi, biri qəflətən onu yenə bunlara göstərsə və soruşsa idi: ona qayıtmaq istəyirlərmi? Onda yəqin ki, imtina edərdilər. Onlar mənə cavab verirdi: "Qoy biz yalançı, acıqlı və ədalətsizik, bunu bilirik, bu halda ağlayır və buna görə özümüzü üzür, özümüzə əzab veririk; ola bilsin ki, bizi gələcəkdə mühakimə edən və hətta adını bilmədiyimiz o mərhəmətli hakimdən də çox özümüzü cəzalandırırıq. Lakin bizdə elm var və onun vasitəsilə biz yenidən həqiqəti axtarıb tapacağıq, amma onu artıq şüurlu olaraq qəbul edəcəyik. Bilik hissdən üstündür, həyatı anlama – həyatdan üstün. Elm bizə hikmət verəcək, hikmət qanunları açacaq, xoşbəxtliyin qanunlarını bilmək

[1] Gilyotin – 1792-ci ildə Fransada burjua inqilabı zamanı doktor Gilyotin tərəfindən ixtira edilmiş başkəsən maşın

isə xoşbəxtlikdən üstündür". Gör onlar nə deyirdi və belə sözlərdən sonra hərəsi özünü hamıdan çox bəyənir. Qeyri cür bacara da bilməzdilər. Hərə o qədər öz şəxsiyyətinə qısqanc oldu ki, o birilərində onu var gücü ilə yalnız alçaltmağa və əksiltməyə çalışırdı və buna həyatını qoyurdu. köləlik peyda oldu: zəiflər məmnuniyyətlə qüvvətlilərə tabe olurdular, bir şərtlə ki, onlar zəiflərin özlərindən də zəiflərini tapdalamağa kömək etsinlər. Gözüyaşlı möminlər peyda oldu, bu adamların yanına keçir və onlara onların iftixarından, hədlərini aşdıqlarından və ahənglikdən, onların abırları töküldüyündən danışırdılar. Onları daşa basır və ya gülürdülər. Kilsələrin kandarında müqəddəs qan axırdı. Bununla bərabər belə fikirləşməyə başlayan adamlar meydana çıxdı: yenidən elə birləşək ki, hərə özünü hamıdan çox sevsə də, eyni zamanda heç kəsə mane olmasın və beləliklə, hamı elə bil yekdil cəmiyyətdə yaşasın. Bu fikrin üstündə böyük davalar qalxdı. Dalaşanların hamısı eyni zamanda bərk inanırdılar ki, elm, müdriklik və özünü qoruma hissi, nəhayət, insani yekdil və ağıllı cəmiyyətə birləşməyə məcbur edəcək. Buna görə də hələlik, işin sürətlənməsi üçün, "müdriklər" onların fikrini anlamayanları və bütün "namüdrikləri" fikrin zəfərinə mane olmasın deyə qırmağa çalışırdılar. Ancaq özünü qoruma hissi tez-tez zəifləməyə başladı, kəbirlilər və şöhrətpərəstlər peyda oldular. Onlar açıq tələb etdilər: ya hər şey, ya heç nə. Hər şeyi ələ keçirmək üçün canilikdən yapışırdılar, o alınmayanda isə – intihardan.

Artıq səhər idi, yəni hava hələ açılmamışdı, ancaq saat atlıya yaxın idi. Mən həmin kürsüdə oyandım, şamım tamam əriyib qurtarmışdı, kapitangil də yatmışdılar və ətrafda evimizdə nadir olan sakitlik var idi. Birinci növbədə olduqca böyük təəccüb içində cəld durdum; heç vaxt mənimlə, hətta cüzi və əhəmiyyətsiz şeylərə qədər, buna oxşar heç nə olmamışdı: hələ heç zaman mən, məsələn, beləcə kürsülərdə yuxuya getməzdim. Birdən burada durub özümə gələnədək, tapançam gözümə dəydi, hazır, doldurulu, lakin bir anda onu özümdən itələdim! Ah, indi həyat və həyat! Əllərimi qaldırdım; yalvarmadım, ağlamadım, fərəh, hədsiz fərəh bütün varlığımı qaldırdı. Bəli, həyat və xütbə. Xütbə haqqında elə o dəqiqə qərara gəldim və əlbəttə ki, ömürlük! Vəz etməyə gedirəm, vəz etmək istəyirəm – nəyi? Zira həqiqəti öz gözlərimlə görmüşəm, onun bütün şöhrətini görmüşəm! O zamandan da vəz edirəm. Bundan

başqa, hamını sevirəm, mənə gülənləri isə onların hamısından çox sevirəm. Niyə bu, belədir – bilmirəm və izah da edə bilmərəm, ancaq qoy belə olsun. Onlar deyir ki, mən artıq indi də çaşıram, yəni indi də çaşıramsa, get-gedə nə olacaq? Əsl həqiqətdir: çaşıram və ola bilsin, getdikcə pisləşəcək. Və əlbəttə ki, necə vəz etməyi tapana kimi bir neçə dəfə çaşacağam, çünki ona əməl etmək çox çətindir. Bunun hamısını mən indi də gün kimi aydın görürəm, ancaq qulaq asın: axı kim çaşmır! Bununla belə hamı eyni şey can atır, aqildən tutmuş axırıncı qulduradək, amma ayrı yollarla. Bu, köhnə həqiqətdir, yenisi isə budur: mən çox çaşa da bilmərəm. Çünki həqiqəti görmüşəm, görmüşəm və bilirəm ki, insanlar Yerdə yaşamaq qabiliyyətini itirməmiş gözəl və xoşbəxt ola bilər. Pisliyin insanların normal halı olmasına inana bilmirəm və inanmaq istəmirəm. Elə bu inamıma da onların hamısı gülür. Lakin necə inanmayım: mən həqiqəti görmüşəm, uydurmamışam, görmüşəm, görmüşəm və onun canlı surəti qəlbimə həmişəlik həkk olunub. Mən onu elə təkmilləşmiş bütövlükdə görmüşdüm ki, onun insanlarda olmamasına inana bilmirdim. Deməli, necə çaşa bilərəm? Kənara çıxacağam, əlbəttə, hətta bir neçə dəfə və özgə sözlərlə, bəlkə danışacağam, amma qısa müddət: gördüyümün canlı surəti həmişə mənimlə olacaq və həmişə səhvimi düzəldəcək və yol göstərəcək. Ah, mən lap min illik gümrah, təravətliyəm, mən gedirəm. Bilirsinizmi, əvvəlcə, hətta onların hamısını mən yoldan çıxartdığımı gizlətmək istəyirdim, ancaq bu, səhv idi, – bu da artıq birinci səhv! Lakin həqiqət mənə pıçıldadı ki, yalan deyirəm və məni qorudu və doğru yola yönəltdi. Lakin cənnəti necə təşkil edim – bilmirəm, çünki sözlərlə çatdırmağı bacarmıram. Sözləri yuxumdan sonra itirmişəm. Hər halda bütün əsas, zəruri sözləri. Lakin qoy olsun: mən gedəcəyəm və gözlərimlə görmüşəm, baxmayaraq ki, gördüyümü söyləyə bilmirəm. Amma bax bunu da elə adam ələsalanlar başa düşmürlər. "Yuxu görübmüşsən, sayıqlama, qarabasma imiş". Eh, doğrudanmı bu, ağılkəsən işdir? Onlar isə elə öyünürlər! Yuxu? Nədir yuxu? Bəs həyatımız yuxu deyilmi? Bir az da deyəcəyəm: qoy, qoy bu heç vaxt həyata keçməsin və cənnət olmasın (axı bunu ki, mən daha başa düşürəm!) mən isə yenə də vəz edəcəyəm. Amma halbuki, bu necə də asandır: bir gündə, bir saatda hər şey dərhal qaydaya salınar! Əsas başqalarını özün kimi istə, əsas budur, vəssalam, artıq heç nə lazım deyil! O saat necə yoluna

düşməyi tapacaqsan. Amma halbuki bu, axı yalnız – köhnə həqiqətdir, hansını ki, billion[1] dəfə təkrarlayıb və oxuyublar, ancaq ayaq tutmayıb! "Həyatı anlamaq həyatadan üstündür, xoşbəxtliyin qanunlarını bilmək – xoşbəxtlikdən üstün" – Bax bununla mübarizə etmək lazımdır! Edəcəyəm də! Hamı istəsə, elə indi hər şey qaydaya düşər.

O balaca qızı axatrıb tapmışam... Gedəcəyəm də! Gedəcəyəm də!

KARAMAZOV QARDAŞLARI

(romandan parça)

Abid Zosimanın söhbət və nəsihətlərindən

d) *Rus rahibi haqda və onun mümkün rolu barədə bəzi şeylər.*

Atalar və müəllimlər, rahib nədir? Maariflənmiş dünyada mədəni insanlar bu sözləri artıq istehzayla işlədirlər, bəzilərisə onu söyüş kimi işlədir. Getdikcə bu meyil daha da artmaqdadır. Təəssüflər olsun ki, rahiblər arasında da çoxlu müftəxorlar, şəhvətpərəstlər və sırtıq avaralar var. Tərbiyəli və təhsilli adamlar buna işarə etməklə söyləyirlər: "Özlərini cəmiyyətin faydasız üzvləri kimi damğalayan tənbəl və utanmaz dilənçilər, siz başqalarının hesabına dolanırsınız". Bununla belə, rahiblər arasında dinməzcə Allahına xidmət etmək arzusuyla alışıb yanan və dualar edən fağır insanlar yetərincədir. Onlardan az danışırlar və heç danışmırlar da. Desəm ki, rus torpağı, ola bilsin, məhz bu insanların xəlvəti duaları hesabına bir daha xilas edilmiş olsun, buna təəccüblənəcəklər! Çünki onlar doğrudan da "hər gün, hər saat, hər ay və hər il" xəlvətdə hazır dayanmışlar. Hələ ki onlar İsanın simasını ulu babalarının, apostolların və əzabkeşlərin zamanından ta bu günədək öz qəlblərində əzəmətlə və təhrif etmədən, ilahi həqiqət işığında gəzdirirlər və məqamı çatanda onu nizamı sarsılmış dünyaya gətirəcəklər. Bu, böyük ideyadır. Bu ulduz şərqdən doğacaq.

Rahib haqda düşündüklərim budur, necə ola bilər ki, bu düşündüklərim yalan və yekəxanalıq olsun? Bu dünyaya, Allahın xəlq

[1] Billion – milyard *(fransız sistemi üzrə)*

etdiyi bütün kainata nəzər salın, ilahi varlığın göstərdiyi həqiqətlər təhrif olunmayıbmı? Onlarınkı elmdir, elmdəsə hər şeyə hisslər nüfuz edib. Ruhani aləmsə insan mahiyyətinin ali bir yarısı olmaqla, tamamilə rədd edilmiş, hansısa təntənə və hətta nifrətlə qovulmuşdur. Xüsusən də son zamanlar dünya azadlığı elan edib, amma onların bu azadlığında nəyin şahidi oluruq: təkcə köləliyin və intiharın! Çünki dünya söyləyir: "Ehtiyacın varsa, onları təmin et, çünki sənin də ən zəngin və əsilzadə insanlar kimi, buna haqqın var. Ehtiyaclarını ödəməkdən çəkinmə, hətta onları artır da" – hal-hazırki dünyanın təlimi budur. Azadlığı da elə bunda görürlər. Belədə ehtiyacları artırmaq hüququndan nə hasil olur? Varlılar tənhalıq və mənəvi düşkünlüyə məhkumdurlar, kasıblarsa – həsədə və öldürməyə, çünki onlara hüquqlar verilib, ehtiyacları necə ödəməyin yollarısa göstərilməyib. Əmin edirlər ki, zaman irəli getdikcə dünya birləşir, qardaşlıq ünsiyyəti yaranır ki, buna da məsafələrin qısalması, fikirlərin hava ilə ötürülməsi xidmət edir. Amma insanların bu cür birliyinə inanmayın. Azadlığı öz ehtiyaclarını artırmaq və onları tezliklə ödəmək kimi anlayaraq, onlar öz təbiətlərini təhrif edirlər, çünki özlərində saysız-hesabsız mənasız və düşük arzular, vərdişlər və ağlagəlməz fərziyyələr yaradırlar. Yalnız bir-birinə həsəd aparmaq, bir-biri qarşısında öyünmək və şəhvətpərəstlikdən başqa məqsədləri yoxdur. Ziyafətlərə, səyahətlərə, ekipajlara, rütbələrə və xidmətçi kölələrə malik olmaq onlar üçün elə bir ehtiyacdır ki, bu yolda canlarını, şərəf və insana məhəbbətlərini qurban verirlər, hətta bu yanğılarını söndürə bilmədikdə özlərini tələf edirlər. Kasıblarda da eyni şeyi müşahidə edirik, amma onlar ödənilməmiş ehtiyaclarını və paxıllıqlarını hələlik sərxoşluqla söndürürlər. Lakin tez bir zamanda şərab əvəzinə qan içəcəklər, buna yaxındırlar. Mən sizdən soruşuram: belə bir insan azaddırmı? Bir nəfər "ideya mücahidi"ni tanıyırdım, özü mənə danışmışdı ki, qazamatda tənbəkidən məhrum edilən zaman o qədər sarsılıbmış ki, tənbəki əldə etmək xatirinə az qala öz "ideya"sına xilaf çıxmağa hazır imiş. Axı beləsi deyir: "Bəşəriyyət uğrunda döyüşə gedirəm". Axı beləsi hara gedəsidir və o, nəyə qadirdir? Bəlkə də ani bir hərəkətə qadirdir, uzun müddətə isə duruş gətirə bilməz. Təəccüblü deyil ki, azadlıq əvəzinə onlar köləlik əldə etdilər, gəncliyimdə qarşılaşdığım həmən o müəmmalı qona-

ğım və müəllimim demişkən, qardaşlığa və insanların birliyinə nail olmaq əvəzinə ayrılığa və tənhalığa düçar oldular. Ona görə də bəşəriyyətə, insanların qardaşlığına və birliyinə xidmət fikri günü-gündən sönməkdədir və həqiqətən də bu fikir artıq istehza ilə qarşılanır, axı bu kölə elə özü icad etdiyi sonsuz vərdişlərindən necə əl çəksin? O özünə qapanıb, dünya onun nəyinə gərəkdir. İnsanlar ona nail oldular ki, çox şey topladılar, sevincsə azaldı.

Rahiblik yolusa tamam başqa bir şeydir. Allaha xidmətə, dualara və pəhrizkarlığa hətta gülürlər də, amma əsl və həqiqi azadlığa aparan yol bunlardan keçir: gərəksiz və artıq ehtiyacları özümdən kənar edirəm, məğrur iradəmi itaətimlə qamçılayır və Allahın köməyi sayəsində mənəvi gümrahlıq qazanıram! Onlardan hansısı böyük ideyanı daşımağa və ona xidmət etməyə daha çox qadirdir – özünə qapanmış varlımı və ya şeylərin və vərdişlərin əsarətindən qurtulmuş məxluqmu? Rahibi onun tənhalığına görə qınayırlar: "Özünü xilas etmək, canını qurtarmaq üçün monastır divarları arasında gizlənmisən, bəşəriyyətə qardaşlıq xidmətini isə unutmusan". Lakin baxıb görək qardaşlığa kim daha çox qulluq edir? Çünki tənhalıq bizdə yox, onlardadır, onlarsa bunu görmürlər. Bizlərin arasından lap qədimdən xalq xadimləri yetişib, bəs indi niyə belələri ortaya çıxmasın? Elə həmin o həlimxasiyyət, müti pəhrizkarlar və qaradinməzlər ayağa qalxar və böyük bir iş uğrunda vuruşarlar. Rusiyanın qurtuluşu xalqın əlindədir. Rus monastırı əzəldən xalqladır. Əgər xalq təklənibsə, deməli, biz də təklənmişik. Xalq özümüzsayağı etiqad edir, etiqadsız xadim nə qədər səmimi və dahi olsa belə, bizdə, Rusiyada, heç nəyə nail ola bilməz. Bunu yaddan çıxarmayın. Xalq ateistə rast gələrək, ondan üstün olacaq, Rusiya vahid pravoslav ölkəyə çevriləcək. Xalqı və onun ürəyini qoruyun. Xəlvətcə tərbiyə edin onu. Budur sizin rahiblik şücaətiniz, çünki bu xalq ürəyində Allahı gəzdirən xalqdır.

e) *Ağalar və nökərlər haqqında, onların qarşılıqlı şəkildə ruhən qardaşlığının mümkünlüyü barədə*

İlahi, deyirlər ki, xalqın da günahı çoxdur. Mənəvi çürümə hallarısa yəqin ki, saatbasaat artır və yuxarıdan gəlir. Xalq arasında da tənhalıq başlayır: müftəxorlar və qolçomaqlar ortaya çıxır; artıq tacir daha çox saygı tələb edir, heç bir təhsili olmaya-olmaya özünü

savadlı göstərməyə çalışır, bu səbəbdən də əcdadlarımızdanqalma adətlərimizə hörmətsizlik edir və hətta atalarımızın dininə görə xəcalət də çəkir. Knyazlarla oturub durur, özü isə korlanmış kəndlidən savayı bir şey deyil. Xalq sərxoşluqdan çürüyüb və artıq bunu tərgidə bilmir. Ailəyə, arvadına, uşaqlara qarşı nə boyda qəddarlıq var; hər şeyə də səbəb sərxoşluqdur. Fabriklərdə cılız xəstə, qurumuş, beli bükülmüş və artıq pozulmuş on yaşlı uşaqlara rast gəlmişəm. Bürkülü otaq, bütün günü taqqıldayan maşın, bütün günü qurtarmaq bilməyən iş, əxlaqsız sözlər və şərab, şərab, bumu lazımdır tifil balaların qəlbi üçün? Günəş, uşaq oyunları gərəkdir ona və hər addımda gözəl nümunə, bir damcı da məhəbbət. Rahiblər, bunlar olmasın deyə, uşaqlara əziyyət verilməsin deyə, tezliklə, tezliklə ayağa qalxın və bunu təbliğ edin. Amma Allah Rusiyanı xilas edəcək, çünki sadə insan yolunu azmış olsa və artıq öz günahlarından əl çəkməyə gücü çatmasa belə, anlayır ki, onun pis əməlləri Allah tərəfindən lənətlənir, o, günah işlətməklə pis hərəkət edir. Xalqımız hələ də yorulmadan ədalətə inanır, Allahı tanıyır, onda mərhəmət oyatmaq üçün göz yaşları axıdır. Ali təbəqələr belə deyil. Elmə və yalnız öz ağıllarına əsaslanaraq, onlar ədalətli həyat qurmağa çalışırlar, amma bunu İsaya arxalanmadan edirlər və əvvəlki kimi yenə də elan edirlər ki, cinayət əməli yoxdursa, deməli, günah da yoxdur. Bəli, onlara görə, bu, düzdür: çünki əgər sənin Allahın yoxdursa, onda hansı cinayətdən söhbət gedə bilər? Avropada xalq varlılara qarşı üsyan edir, başçılar hər yerdə camaatı qan tökməyə çağırır və xalqın bu qəzəbinin ədalətli olduğunu təsdiq edirlər. Amma "onların qəzəbi lənətlənmişdir, çünki bu qəzəb amansızdır". Rusiyanısa dəfələrlə olduğu kimi Allah yenə də xilas edəcək. Qurtuluş xalqdan gələcək, onun inamından və dözümündən gələcək. Atalar və müəllimlər, xalqın inamını qoruyun, bu, sadəcə arzu deyildir: xalqımızda olan gözəl ləyaqət hissi bütün həyatım boyu məni təəccübləndirib, bunu özüm görmüşəm, müşahidə etmişəm və günahların ağırlığına, xalqımızın düşdüyü vəziyyətə rəğmən buna məəttəl qalmışam. İkiəsrlik köləlik zülmünə baxmayaraq, xalqımız ruhən köləlikdən uzaqdır. Öz zahiri görkəminə və rəftarına görə azaddır, heç kəsdən incikliyi yoxdur. Nə qisasçı, nə də paxıl deyil. "Sən şöhrətli, zəngin, ağıllı və istedadlısan, qoy olsun, Allah özü səni qorusun. Sənə hörmət-izzətim var,

amma dərk edirəm ki, mən də insanam. Həsəd aparmadan səni sevirəm, bununla da sənin qarşında öz insanlıq ləyaqətimi göstərirəm". Bütün bunları deməsələr də (çünki hələ də bunları söyləməyi bacarmırlar), belə hərəkət edirlər, özüm müşahidə etmişəm, özüm sınamışam və inanın ki, bizim ruslar nə qədər kasıb və mövqecə aşağıdırlarsa, bir o qədər də dürüstdürlər, onların arasındakı varlılar və yollarını azmış qolçomaqlar və müftəxorlar isə, hamılıqla pozulmuşlar, burada bizim də çox, çox qayğısızlığımız və nəzarətsizliyimiz olub. Lakin Allah öz bəndələrini xilas edəcək, çünki Rusiyanın böyüklüyü onun itaətkarlığındadır. Gələcəyimizi görmək arzusundayam və sanki onu görürəm də: çünki elə belə də olacaq, hətta ən rəzil varlımız belə öz var-dövlətinə görə kasıb qarşısında peşimançılıq çəkəcək, kasıbsa bu təvazö müqabilində onu anlayacaq, sevinclə ona güzəştə gedəcək və nəvazişlə cavab verəcək. İnanın ki, belə olacaq, hər şey buna doğru gedir. Bərabərlik insanın mənəvi məziyyətlərindədir, bunusa təkcə bizdə dərk edəcəklər. Qardaşlar varsa, qardaşlıq da olacaq, qardaşlıqdan öncə özgə birlik yoxdur. İsa obrazı qəlblərdədir və o, qiymətli almaztək bütün dünyaya işıq saçacaq... Olacaq, bu, olacaq!

Atalar və müəllimlər, bir dəfə başıma mütəəsiredici bir iş gəlmişdi. Səyahət zamanı K. quberniya şəhərində keçmiş denşikim Afanasiyə rast gəlmişdim, ondan ayrıldığım vaxtdan səkkiz il ötmüşdü. Qəflətən məni bazarda gördü, tanıdı və qaçaraq yanıma gəldi, ilahi, nə qədər sevinirdi, beləcə üstümə atıldı: "Atam, ağa, bu, sizsinizmi? Doğrudanmı sizi görürəm?" Məni öz evinə apardı. Artıq istefaya çıxmışdı, iki körpə uşaq atasıydı. Həyat yoldaşı ilə birgə bazarda xırda alverlə məşğul idi. Otağı çox kiçik olsa da, təmiz və xoşagələndi. Mənə yer göstərdi, samovarı yandırdı, arvadının dalınca adam göndərdi, gəlişim onunçun toy-bayram olmuşdu. Uşaqlarını yanıma gətirdi: "Ağa, xeyir-dua verin onlara". – "Mənmi xeyir-dua verim, – deyə ona cavab verirəm, – mən sadə və fağır bir rahibəm, Allahdan onlara xeyir-dua diləyirəm, sənəsə o vaxtdan hər gün dua edirəm, çünki hər şeyə səbəbkar sən oldun". Və bunu ona bacardığım kimi izah etdim. Bax beləcə: qarşımda dayanıb, gözlərini mənə zilləyib, təsəvvür edə bilmir ki, mən, onun əvvəlki ağası, zabit indi belə bir görkəmdə və paltardayam, hətta ağladı da. "Ey unudulmaz insan, nə üçün ağlayırsan, – deyə ona söyləyirəm, – yax-

şısı budur mənə ürəkdən sevin, çünki tutduğum yol sevincli və işıqlıdır". Çox danışmadı, elə hey ah çəkir və mənə baxıb mehribancasına başını bulayırdı. "Bəs var-dövlətiniz hanı, soruşur?" Cavab verirəm: "Monastıra vermişəm, yataqxanada yaşayırıq". Çay süfrəsindən sonra onlarla vidalaşmağa başladım və birdən o, monastıra sədəqə üçün mənə yarımmanat pul verir, digər yarımmanatlığı isə ovucumun içinə soxur və tələsə-tələsə söyləyir: "Bu isə sizə, qəribə səyyaha, gərək ola bilər". Yarımmanatlığı götürdüm, ona və arvadına təzim etdim, sevincək yola düşdüm və yol boyu düşündüm: "Budur, biz hər ikimiz, o öz evində, mənsə yol yolçusu, ah çəkirik, ola bilsin, Allahın bizi bir daha qarşılaşdırmasını yadımıza salıb şirin-şirin gülümsünürük də". O vaxtdan onu bir daha görmədim. Mən ona ağa, o isə mənə nökər olmuşdu, indisə məhəbbət və mərhəmətlə bir-birimizi qucaqlarkən, aramızda sarsılmaz bir insanı bağlılıq hasil oldu. Bu barədə çox düşünmüşəm, indisə aşağıdakı fikrə gəlmişəm: nə üçün ağlımıza batmır ki, ruslar arasında belə bir sarsılmaz və səmimi birlik vaxtında və özü də hər yerdə baş tuta bilərdi. Bunun mümkünlüyünə inanıram, vaxtsa yaxınlaşıb.

Nökərlər barəsindəsə aşağıdakıları əlavə etmək istəyirəm: əvvəllər, gənc ikən nökərlərə tez-tez acıqlanardım: "aşpaz qadın yeməyi qaynar verib, denşik paltarı təmizləməyib" və nə bilim nə. Amma o vaxtlar uşaqlıqda əziz qardaşımdan eşitdiyim bir fikir birdən-birə ağlımı başıma qoydu: "Başqasının qulluğumda durmağına nə dərəcədə layiqəm ki, yoxsul və müti olduğuna görə ona təpinirəm də?" Bu cür sadə və aydın fikirlərin ağlımıza belə gec gəlməsi o vaxt məni çox təəccübləndirmişdi. Nökərlərsiz ötüşmək mümkün olmadığından elə et ki, sənin nökərin ruhən daha azad olsun. Nəyə görə mən öz nökərimin nökəri olmayım və bunu elə etməyim ki, o, tərəfimdən heç bir yekəxanalıq duymasın, o da öz növbəsində mənim səmimiyyətimə inansın? Nə üçün nökərim mənə doğma olmasın və, nəhayət, nə üçün mən onu öz ailə üzvüm kimi qəbul etməyim və buna sevinməyim? Hətta indinin özündə də bu, mümkün olası və insanların gələcək sarsılmaz birliyinə xidmət edəsi bir işdir, bax onda insanlar indiki kimi özlərinə bənzər digərlərini nökərə çevirməyəcəklər, əksinə, İncildə deyildiyi kimi, var gücü ilə başqalarına xidmət etmək arzusunda bulunacaqlar. İnsanların maarif və mərhəmət meydanında göstərəcəkləri şücaətlərin,

nəhayət ki, onların fırıldaq gəlmək, xəyanət etmək, yalan satmaq və özünü öymək kimi qəddar hərəkətlərinə üstün gələcəyi günə çoxmu qalıb? Qəti əminəm ki, yox, arzu etdiyimiz günə az qalıb. Məsxərəyə qoyur və soruşurlar: bəs o gün nə zaman yetişəcək, bu, mümkün olası işdirmi? Mənsə düşünürəm ki, Allahın köməyilə bu əzəmətli işin öhdəsindən gələcəyik. Bəşəriyyət tarixində o qədər ideyalar meydana çıxıb ki, hətta on il bundan əvvəl onların ağla gətirilməsi belə təəccüb doğurardı, lakin sehrli məqam yetişən kimi bu ideyalar yaranmış və bütün Yer üzünə yayılmışdır. Bizdə də belə olacaq, xalqımız bütün dünyaya işıq saçacaq və insanlar söyləyəcəklər: "Şübhə ilə yanaşanların rədd etdikləri daş məhək daşına çevrildi". Məsxərəyə qoyanların özlərinə sual vermək yerinə düşərdi: əgər bizimki xəyaldırsa, onda siz Allahın köməyi olmadan öz binanızı nə vaxt inşa edəcəksiniz? Əgər onlar təsdiqləyirlərsə ki, əksinə, özləri bu birliyə doğru gedirlər, deməli, onların ən sadəlövhləri buna inanırlar, belə sadəlövhlük hətta təəccüb də doğurur. Həqiqətən də onlardakı xəyalpərəstlik bizdəkindən güclüdür. Dünyada ədalətin zəfər çalmasını istəyirlər, amma Allahdan dönməklə aləmi qana batıracaqlar, qansa qana səbəb olur, qılıncla gələn qılıncdan da tələf olar. İsanın mərhəməti olmasaydı, onlar sonuncu iki nəfər qalanadək bir-birinin axırına çıxardılar. Elə bu sonuncu iki nəfər də məğrurluqları sayəsində bir-birini saxlaya bilməzdilər, yəni sonuncu əvvəlcə özündən əvvəlkini, sonra da özünü məhv edərdi. Müti və fağır insanlar hesabına Allah öz mərhəmətini əsirgəmir və bu işlərə rəvac vermir. Hələ əynimdə zabit mundiri gəzdirərkən, dueldən sonrakı vaxtlar nökərlər barəsində danışmağa başlayanda, yadımdadır ki, hamı mənə təəccüblə baxmağa başlamışdı: "Nədi, nökəri divanda otuzdurub qarşısına çaymı gətirək?", – deyə söyləyirdilər. Mənsə onlara bu cür cavab verirdim: "Nə üçün də yox, heç olmasa hərdənbir". O vaxt hamı sözlərimə gülürdü. Onların sualı yelbeyin sual idi, mənim cavabımsa aydın deyildi, lakin düşünürəm ki, bu cavabda azca da olsa həqiqət vardı.

ə) ***İbadət, məhəbbət və başqa dünyalara qovuşmaq barəsində***

Gənc oğlan, ibadət etməyi unutma. Əgər ibadətin ürəkdən gəlirsə, onda hər dəfə qəlbində yeni bir hiss baş qaldıracaq, bu hissdən əvvəllər sənə məlum olmayan yeni bir fikir hasil olacaq və

yenidən səni ruhlandıracaq, bax onda anlayacaqsan ki, ibadət tərbiyə deməkmiş. Daha bir şeyi yadında saxla: hər gün və mümkünatın çatan zaman öz-özünə söylə: "İlahi, bu gün dünyasını dəyişib, hüzuruna gələnlərin hamısını bağışla". Çünki hər saat və hər an minlərlə insan bu dünya ilə vidalaşır və onların ruhları Allah qarşısında imtahana çəkilir – onların böyük əksəriyyəti bu dünya ilə birbirindən xəbərsiz vidalaşırlar, qəm və kədər içərisində getdiklərindən də kimsənin xəbəri olmur, bu səbəbdən onlara rəhm diləyən və, ümumiyyətlə, bu dünyada yaşayıb-yaşamadıqlarından xəbərdar olan yoxdur. Sən onu, o da səni tanımasa da, qoy dünyanın bu başından onun ruhunun şad olması üçün etdiyin dualar və ibadət Allah dərgahına yetişsin. Öz əməlləri üçün Allah qarşısında qorxu keçirən ruh bu dünyada ona dualar edən və onu sevən bir məxluqun varlığından necə də riqqətə gələcək. Allah hər ikinizə qarşı rəhmdil olacaq, əgər sən onunçun bu qədər dualar edə bilibsənsə, böyük Yaradanın səninlə müqayisədə rəhmi və sevgisi nəhayətsiz olduğundan, onun daha çox yazığı gələcək. Və sənin xatirinə onu bağışlayacaq.

Qardaşlar, insanların günahları sizi qorxutmasın, onları öz günahları ilə birgə sevin, çünki Yer üzündəki məhəbbətiniz ondan daha üstün olan İlahi sevgisinin oxşarıdır. Allahın xəlq etdiyi bütün varlıqları – kainatı və hər bir zərrəciyi – sevin. Heyvanları, bitkiləri, hər şeyi sevin. Hər bir şeyi sevsən, onlardakı ilahi sirri də dərk edərsən. Bir kərə dərk etdinsə, artıq hər gün durmadan daha aydın anlamağa başlayacaqsan. Və nəhayət, bütün dünyanı ümumbəşəri bir məhəbbətlə sevəcəksən. Heyvanları sevin: Allah onlara dərketmə qabiliyyətinin rüşeymlərini və qayğısız sevinc bəxş edib. Onların bu sevincini pozmayın, onlara əzab verməyin, onların sevinclərini əllərindən almayın, Allahın ziddinə getməyin. Ey insan, özünü heyvanlardan uca tutma: çünki onlar günahsızdırlar, sənsə öz böyüklüyünlə bərabər torpağı murdarlayır və özündən sonra murdar iz qoyub gedirsən – çox heyf ki, demək olar, hamımız beləyik! Xüsusən də uşaqları sevin, çünki onlar da mələklər kimi günahsızdırlar və bizi mərhəmətə gətirmək, ürəklərimizi təmiz saxlamaq və Allahdan gələn hansısa tapşırığı yerinə yetirməyimiz üçün mövcuddurlar. Körpəni təhqir edənin vay gününə. Mənisə Anfim ata uşaqları sevməyə öyrətmişdi: səyyahlıq etdiyimiz zaman bu mehri-

ban və qaradinməz insan pryanik və konfet alar və uşaqlara paylayardı: uşaq görəndə ürəyi atlanardı: budur insan.

Xüsusən də insanların günaha batdıqlarının şahidi olarkən başqa fikirlər ağuşunda səni təəccüb bürüyür və özündən soruşursan: "Zorla yoxsa itaətkarcasına sevməklə ələ almalı?" Həmişə bu qərara gəl: "İtaətkarcasına sevməklə ələ alacağam". Birdəfəlik bu qərara gəlsən, bütün dünyanı fəth edə bilərsən. İtaətkarano məhəbbət dəhşətli bir qüvvədir, ona bərabər heç bir hiss yoxdur. Hər gün, hər saat, hər dəqiqə öz ətrafında dolaş, özünə nəzər yetir ki, sənin siman əzəmətli görünsün. Budur, sən balaca uşağın yanından ötdün, axmaq söz işlədib, hirslə dolu qəlbinlə acıqlı ötdün; ola bilsin ki, uşaq heç gözünə də sataşmadı, o isə səni gördü, sənin eybəcər və günahkar siman onun köməksiz balaca qəlbində özünə yer aldı. Sən bunu bilmirdin, lakin çox güman ki, artıq o hərəkətinlə onun qəlbinə pis toxum saldın, axı o cücərəcək, hər şey də ona görə baş verdi ki, sən uşaq qarşısında özünü cilovlaya bilmədin, çünki özündə ehtiyatlı və canlı sevgi hissi tərbiyə etməmisən.

Qardaşlar, məhəbbət həyat məktəbidir, ona nail olmağı bacarmaq lazımdır, çünki o, çətinliklə qazanılır, baha qiymətə alınır, böyük zəhmət hesabına əldə edilir, çünki təsadüfi bir an üçün deyil, bütün ömür boyu sevmək lazımdır. Hamı, hətta zalım insanlar da təsadüfi və ani məhəbbətlə sevə bilərlər. Gənc qardaşım quşlardan onu bağışlamalarını xahiş edirdi, bu, sanki mənasız görünsə də, həqiqətdir, çünki hər şey okean kimidir, axır və bir-birinə qarışır, bir yerinə toxunanda dünyanın o başında əks-səda verir. Quşlardan üzrxahlıq diləmək bəlkə də mənasız bir şeydir, lakin əgər sən indikinə nisbətən ədalətli olsaydın, quşlara da, uşaqlara da, səni əhatə edən hər hansı digər canlıya da bir az, bir damcı da olsa, asan olardı. Bir daha deyirəm: hər şey okean kimidir. Bəşəriyyətə məhəbbətdən qovrulan insan onda quşlara da dualar edəcək ki, onlar da sənin günahını bağışlasınlar. İnsanlara nə qədər mənasız görünsə belə, bu coşqunluğun qədrini bil.

Dostlar, Allahdan özünüzə sevinc diləyin. Uşaqlar və səma quşları kimi şən olun. Qoy insanların işlətdikləri günahlar sizi bu əməlinizdən çəkindirməsin, qorxmayın ki, Allah işlərinizin üstündən xətt çəkər və onların həyata keçməsinə imkan verməz, deməyin ki: "Günah böyükdür, bədbəxtlik çoxdur, pis mühit üstələyir, bizsə tənha və gücsüzük, bu yaramaz mühit bizi əzəcək, xeyirxah niyyətlərimizin baş tutmasına imkan verməyəcək". Uşaqlar, bu məyusluqdan qaçın! Burada qurtuluşun bir yolu var: özünü ələ al və bütün bəşəriyyətin günahları üçün məsuliyyəti öz üzərinə götür. Dostum, axı bu, həqiqətən də belədir, çünki elə ki hamının bütün günahlarını səmimi qəlbdən öz üzərinə götürdün, dərhal görəcəksən ki, bu həqiqətən də beləymiş, hamının əvəzinə və hər şeyə görə günahkar elə sənsənmiş. Öz tənbəlliyini və gücsüzlüyünü insanların üzərinə yıxmaqla ona gəlib çıxacaqsan ki, şeytani təkəbbürlüyə uyacaq və Allahdan narazılıq edəcəksən. Şeytani təkəbbürlük barədə belə düşünürəm: onun nə olduğunu bu dünyada anlamağımız çətindir, ona görə də səhvə yol vermək, təkəbbürlüyə uymaq asan bir şeydir, üstəlik də hansısa əzəmətli və gözəl bir işə özünü sərf etdiyini düşünəsən. Bəli, qadir olduğumuz və bacardığımız çox şeylərin öhdəsindən hələ ki gələ bilməmişik, qoy bu, səni çaşdırmasın və bu məsələdə özünü doğrultmağa təhrik etməsin, axı sənin nəyə qadir olduğunu və nəyi bacarmadığını bilən ilahi varlıq var, buna özün də əminlik duyacaqsan və o vaxt hər şey tam düzgünlüyü ilə sənə agah olacaq, bax onda mübahisəni dayandıracaqsan. Biz həqiqətən də dünyanı bixəbərtək gəzib dolaşırıq; əgər İsanın əziz surəti qarşımızda canlanmasaydı, onda dünyanı su basmamışdan əvvəl insanın insi-cinsi necə yer üzündən silinib getmişdisə, biz də eləcə yolumuzdan azar və tələf olardıq. Bu dünyada çox şeylər bizə agah deyil, lakin bunun əvəzində bizə başqa bir dünyayla, daha uca və daha ali bir bir dünyayla gizli, məhrəm və canlı əlaqə duyğusu verilmişdir. Elə bizim fikirlərimizin və duyğularımızın kökü burada yox, başqa dünyalardadır. Bu səbəbdən də filosoflar deyirlər ki, Yer üzündə şeylərin mahiyyətini dərk etmək qeyri-mümkündür. Allah toxumları başqa dünyalardan götürmüş, bu dünyaya səpmiş və öz bağını salmışdır; və nə mümkünsə, o da cücərmişdir, amma salınmış bağ yaşayır və yalnız başqa gizli aləmlərlə canlı təmasda olduğundan həmişə yaşayır; əgər səndəki bu hiss zəifləyir və ya məhv olursa, onda sənin qəlbində salınmış o bağ da məhv olur. O halda həyata biganə qalacaq və hətta ona nifrət də bəsləyəcəksən. Mən belə düşünürəm.

f) Özün kimlərin hakimi ola bilərsənmi? Sonacan etiqad haqqında

Bir şeyi xüsusilə unutma ki, sən heç kəsin hakimi ola bilməzsən. Çünki qarşısındakı cinayətkar kimi özünü də günahkar hesab etməyincə və bu cinayətə görə hamıdan çox günahkar olmağını anlamayınca, yer üzündə heç kəs cinayətkara hakimlik edə bilməz. Bunu dərk edəndən sonra isə bəlkə də hakimlik edə bilər. İlk baxışdan ağılsız görünsə belə, bu, həqiqətdir. Çünki əgər mən mömin bir insan olsaydım, onda bəlkə də heç qarşımdakı cinayətkar da olmazdı. Özün də qəlbinlə ittiham etdiyin qarşısındakı o cinayətkarın cinayətini öz üzərinə götürməyi bacarırsansa, onda o andaca götür və onun əvəzinə sən özün işgəncə çək, onu isə danlaqsız burax getsin. Hətta əgər qanunla ona hakim təyin olunsan belə, bacardığın qədər bu ruhda çıxış et, çünki bu halda o özünü daha acı şəkildə ittiham edəcək. Əgər sənin öpüşlərindən sonra o özünü arsızlığa vuracaq və sənə güləcəksə, yenə də yolundan azma: deməli, onun vaxtı-vədəsi hələ yetişməyib, lakin hər şeyin öz vaxtı var; yox, əgər heç yetişməsə, yenə də o da olmasa, onun əvəzinə başqası anlayacaq və ona görə işgəncələr çəkəcək, özü özünü günahlandıracaq və həqiqət yerini tutacaq. Buna inan, hökmən inan, çünki bütün müqəddəslərin etiqadı və ümidi bundadır.

Yorulmadan çalış. Yuxuya getməmişdən qabaq yadına düşsə ki, "Mən lazım olan işi görməmisən", cəld ayağa dur və et. Əgər səni qəddar və hissiyyatsız adamlar əhatə edirlərsə və dediklərini qulaqardına vururlarsa, onda onların qarşısında diz çök və onlardan üzrxahlıq dilə, çünki əgər səni eşitmək istəmirlərsə, bu məsələdə sənin də günahın var. Yox, əgər qeyzlənmiş insanlarla danışa bilmirsənsə, onda dinməzcə, mütiliklə, heç zaman ümidini itirmədən onlara xidmət et. Əgər səni atsalar və zorla qovmuş olsalar, onda təklikdə torpağa düş və onu öp, onu göz yaşlarınla islat, bu tənhalıqda heç kəs səni görməsə və eşitməsə belə, axıtdığın göz yaşları sayəsində torpaq bəhrə verəcək. Əgər yer üzündə hamı etiqadından dönsə, belə bir şey baş versə və təkcə sən sadiq qalmış olsan belə, inamını itirmə: bax onda tək-tənha qalmış özünü qurban ver, Allaha dualar et. Əgər bu cür iki nəfərlə qarşılaşsanız, onda bu, bütöv bir dünyadır, canlı məhəbbət dünyasıdır, məhəbbətlə bir-

birinizə sarılın və Tanrıya dualar edin: çünki yalnız ikinizin qəlbində olsa da, onun həqiqəti öz yerini almışdır.

Əgər özün günah sahibisənsə və günahlarına görə son nəfəsədək ömrünü qəm-qüssədə keçirirsənsə, başqası üçün sevin, əməlisaleh insana görə ürəyin sevinclə dolsun, ona şadlan ki, sən günahkar olsan da, o əməlisalehdir və günaha batmayıb.

Əgər insanların qəddarlığı dözülməz dərəcədə, hətta onlardan intiqam almaq hissi ilə alışıb-yanmaq həddində səni əsəbiləşdirirsə, hər şeydən əvvəl bu duyğudan çəkin; dərhal get və insanların bu azğınlıqlarının günahkarı sən özünmüşsən kimi özünə əzablar ara. Bu əzabları qəbul et və onlara döz, onda ürəyinin odu sönər və anlayarsan ki, sən özün də günahkarsan, çünki bir nəfər günahsız bəndə qəddarlara doğru yol göstərə bilərdi, amma göstərməyib. Əgər sənin qəlbin işıq salsaydı, başqalarının da yolunu işıqlandırardın, sənin saldığın bu işığın nurunda, o, bəlkə də qəddarlığından çəkinərdi. Hətta işıqlandırdığın təqdirdə də insanları xilas etmək mümkün olmursa, onda da dönməz ol və ilahi varlığın qüdrətinə şübhə etmə; ona inan ki, indi xilas olmayıblarsa, sonra xilas olarlar. Onlar sonra da xilas olunmasalar, onların övladları xilas ediləcəklər, çünki sən artıq ölmüş olsan belə, sənin nurun sönməyəcəkdir. Ədalət carçısı bu dünyadan köçüb gedir, onun nurusa qalır. Adətən xilaskarın ölümündən sonra xilas olurlar. İnsan nəsli öz peyğəmbərlərini qəbul etmir və onları döyürlər, amma eyni zamanda insanlar əzab verdikləri şəxsləri sevir və onlara ehtiram bəsləyirlər. Sənsə hamı naminə çalışırsan, gələcək üçün əlləşirsən. Heç vaxt mükafat gözləmə, çünki onsuz da bu dünyada mükafatın böyükdür: səndəki bu ruhi şadlıq yalnız mömin bəndələrə nəsib ola biləcək. Nə zənginlərdən, nə də güclülərdən qorxma, lakin həmişə müdrik və xoşsifət ol. Hər şeyin qədərini, vaxtını və yerini bilməyə alış. Torpağa təzim etməyi və onu öpməyi bacar. Torpağı öp və yorulmadan, doymadan onu sev, hamını sev, hər şeyi sev, bu məftunluğu və bu vəcdi daim ara. Sevincdən doğan göz yaşları ilə torpağı islat və bu göz yaşlarını sev. Bu hərəkətindən utanma və onu əziz tut, çünki o, Allahın sənə bağışladığı böyük bir nemətdir, bu da hamıya qismət olmur, yalnız say-seçmə insanlara nəsib olur.

g) Cəhənnəm və cəhənnəm odu barəsində, mistik düşüncə

Atalar və müəllimlər, düşünürəm: "Cəhənnəm nədir?" Belə fikrə gəlirəm: "Sevgi bəsləməyin artıq mümkünsüz olduğunu göstərən işgəncədi bu". Haçansa bir dəfə nə zamanı, nə də məkanı ölçüyə gəlməyən sonsuz kainatda bir nəfər ruhi məxluqa dünyaya göz açdığı zaman bu sözləri demək imkanı verilmişdi: "Mən varam və mən sevirəm". Bu cür fəal və canlı şəkildə məhəbbətini izhar etmək imkanı bir kərə, yalnız bir kərə bəxş edilmişdi ona. Bu məqsədlə də yer üzünə gəlmişdi o, amma nə faydası: bu xoşbəxt məxluq bu əvəzsiz hədiyyəni rədd etdi, onu qiymətləndirə bilmədi, sevmədi, istehza ilə yanaşdı və laqeyd qaldı. Artıq bu dünyanı tərk etmiş belə bir insan, varlı adam və Lazar haqqında əsatirdəki kimi, İbrahimin məskənini görür, İbrahimlə söhbət edir, cənnətdə gəzir və Allahın dərgahına çata bilir, lakin onu ağrıdan odur ki, Yaradanın dərgahına sevməmiş gəlmişdir və onların məhəbbətinə etinasız olan bir kəsi sevənlərlə görüşəcəkdir. Hər şeyi aydın gördüyündən özözünə söyləyir: "İndi biliyə malikəm, lakin sevməyə can atsam da, mənim bu məhəbbətimdə elə bir şücaət olmayacaqdır, canımı fəda etmək də olmayacaqdır, çünki bu dünyadakı həyatım bitmişdir və indiki ruhi məhəbbətimin həsrətinin odunu söndürməyə İbrahim bir damcı da su xərcləməyəcək (yəni dünyadakı fəal həyatın hədiyyəsi bir daha mənə nəsib olmayacaqdır), dünyadakı məhəbbətə saymazyana yanaşdığımdan mənimçün artıq nə həyat var, nə də ki vaxt! Həyatımı başqalarının yolunda qurban verməyə də şad olardım, amma bu, artıq mümkün deyildir, çünki məhəbbət xatirinə qurban vermək istədiyim həyatım artıq ötüb keçmişdir və indi o həyatla bu mövcudluq arasında uçurum yaranmışdır". Cəhənnəm odunun maddi mövcudluğu barədə danışırlar: bu gizli mətləbi araşdırmır və ondan qorxuram, amma düşünürəm ki, cəhənnəm odu maddi olsaydı, buna həqiqətən də sevinərdilər, çünki belə xəyal edirəm ki, heç olmasa bir anlığa belə cəhənnəm odunda çox dəhşətli mənəvi işgəncələr unudulardı. Bir də ki, bu mənəvi işgəncələrdən onları xilas etmək qeyri-mümkündür, ona görə ki, bu, zahiri iztirab deyildir, bu onların daxilindədir. Düşünürəm ki, mənəvi iztirablardan qurtula bilsəydim, onlar daha da bədbəxt olardılar. Çünki onların işgəncələrini görən cənnətdəki möminlər bu şəxslərin günahlarından keçər və onları sonsuz dərəcədə sevərək öz yanlarına dəvət

edərdilər, lakin bununla da onların düçar olduqları əzabları daha da çoxalardı, çünki artıq mümkünsüz görünən bu minnətdarlıq məhəbbətini alovlandırmağın mənası yoxdur. Hərçənd ürkək qəlbimlə düşünürəm ki, möminlərin sevgisini qəbul edib ona cavab verə bilməməklə onlar bu dünyada saymamazlıq edib sığınmadıqları o fəal məhəbbətin hansısa obrazını, nəhayət ki, itaət göstərib o dünyada tapacaqlar... Qardaşlarım və dostlarım, təəssüf ki, fikirlərimi aydın ifadə edə bilmirəm. Bu dünyada özü-özünə qənim kəsilmişlərə, intihar edənlərə yazıqlar olsun! Düşünürəm ki, onlardan bədbəxti yoxdur. Deyilənlərə görə, onlardan ötrü Allaha dua etmək də günah sayılır, kilsə də zahirən bunu sanki rədd edir, amma qəlbimin dərinliklərində düşünürəm ki, onlar üçün də dualar etmək mümkün olaydı. Axı məhəbbət bəsləməyə görə İsa heç kəsə acıqlanmaz. Belələri barədə mən bütün ömrüm boyu içimdə dualar etmişəm, atalar və müəllimlər, etiraf edirəm ki, indi də hər gün dualar edirəm.

Mübahisəsiz biliklərinə və inkaredilməz həqiqəti görə bilmələrinə rəğmən, cəhənnəmdə də məğrurluq və qəddarlıqdan qurtulmayanlar var; tamamilə şeytana və məğrur ruha satılmış dəhşətli məxluqlar da var. Onlar üçün cəhənnəm artıq könüllüdür və onlar ondan doymaq bilmirlər. Çünki Allahı və həyatı lənətlədiklərindən özləri özlərini lənətə düçar ediblər. Səhranın ortasında ac qalmış adam öz qanını sorurmuş kimi, onlar öz kinli-küdurətli məğrurluqları ilə qidalanırlar. Amma əsrlər boyu doymurlar, bağışlanmaqdan imtina edirlər, onları doğru yola səsləyən Allahı lənətləyirlər. Canlı Allahı nifrətsiz seyr edə bilmirlər, tələb edirlər ki, həyatın, Allahın olmasın, Allah özünü və yaratdığı hər şeyi məhv etsin. Və əbədi olaraq öz qəzəblərinin odunda yanacaq, ölümü və yoxluğu arzulayacaqlar. Lakin ölümə nəsib olmayacaqlar...

Aleksey Fyodoroviç Karamazovun əlyazması burada qurtarır. Təkrar edirəm: o, tamamlanmamış və pərakəndə vəziyyətdədir. Məsələn, biblioqrafik məlumatlar abidin ancaq ilk gənclik illərini əhatə edir. Deyilənlər isə onun müxtəlif vaxtlarda söylədiyi fikirlərdən hasil olmuş və bir məcraya gətirilmiş öyüd-nəsihətləri və düşüncələri əks etdirir. Ömrünün son saatlarında abidin dilə gətirdiyi hər şey tam dəqiqliyi ilə müəyyənləşdirilməmişdir, onları Aleksey Fyodoroviçin yazıya aldığı əvvəlki nəsihətlərin əlyazmalarındakılarla tutuşdursaq, burada həmin o söhbətin yalnız ruhu və

xarakteri barədə anlayışın verildiyini görərik. Abidsə həqiqətən də gözlənilmədən vəfat etdi. Elə həmin o axşam abidin başına toplaşanlar yaxşı anlayırdılar ki, onun ölümünə lap az qalıb, amma hər halda belə tez canını tapşıracağına heç kim inanmırdı, əksinə, yuxarıda qeyd etdiyim kimi, onu gümrah və söhbətcil görən dostları, onun sağlamlığında çox davam etməsə də, gözəçarpacaq dəyişikliyi sezmişdilər. Sonradan təəccüblə bildirirdilər ki, hətta onun ölümünə beş dəqiqə qalmış əvvəlcədən nə baş verəcəyini heç vəchlə anlamaq mümkün deyildi. O, qəflətən sinəsində dözülməz ağrılar hiss etdi, çöhrəsi saraldı və əllərini bərk-bərk ürəyinin başına sıxdı. O anda hamı yerindən sıçradı və ona tərəf yüyürdü; o isə əzablar içərisində qovrulsa da, hələ də çöhrəsində təbəssüm onları seyr edərək, astaca kreslodan döşəməyə düşdü və dizə çökdü, sonra isə üzüqoylu yerə uzandı, əllərini sanki sevinc içində geniş açdı, torpağı öpə-öpə və Allaha yalvara-yalvara (özünün öyrətdiyi kimi) sakitcə və şən əhvali-ruhiyyədə canını tapşırdı. Onun ölüm xəbəri bir göz qırpımında hücrəyə yayıldı və monastıra çatdı. Yenicə canını tapşırmış abidin yaxınları və aidiyyatı olan dini şəxslər qədim adət-ənənəyə uyğun şəkildə meyiti dəfnə hazırlamağa başladılar, monastır əhli isə baş kilsəyə toplaşdı. Sonradan yayılan şayiələrə görə, abidin ölüm xəbəri hələ səhər işıqlanmamışdan şəhərə də gəlib çatmışdı. Səhər az qala bütün şəhər bu barədə danışırdı və çoxsaylı insan axını monastıra üz tutmuşdu. Amma bu barədə növbəti kitabda söhbət açacayıq, indisə əvvəlcədən əlavə edək ki, bircə gün ötməmiş heç kəsin gözləmədiyi bir hadisə baş verdi; o, həm monastır mühitində, həm də şəhərdə elə bir əcayib, həyəcanlı və qarmaqarışıq təəssürat doğurdu ki, o zamandan bu qədər vaxt keçməsinə baxmayaraq, çoxları üçün olduqca həyəcanlı həmin o gün indi də hafizələrdən getmir...

LEV NİKOLAYEVİÇ TOLSTOY

(1829-1910)

QAFQAZ ƏSİRİ

(hekayə)

I

Qafqazda bir ağa zabitlik edirdi. Onun adı Jilin idi.

Bir dəfə evdən ona məktub gəldi. Qoca anası ona yazırdı: "Artıq qocalmışam, ölməmişdən qabaq sevimli oğlumu görmək istəyirəm. Gəl mənimlə vidalaş, məni dəfn elə, sonra Allah köməyin olsun, yenə qulluğuna qayıt. Sənə adaxlı da tapmışam. Ağıllı, qəşəng qızdır, mülkü də var. Xoşun gəlsə, bəlkə evlənərsən və həmişəlik də qalarsan".

Jilin fikrə getdi: "Doğrudan da qarı lap əldən düşüb, bəlkə də heç onu görə bilmədim. Gedim. Qız yaxşı olsa bəlkə də evləndim".

O, polkovnikin yanına gedib məzuniyyət aldı, yoldaşları ilə vidalaşdı, öz əsgərlərini dörd vedrə arağa qonaq edib yola hazırlaşdı.

O zaman Qafqazda müharibə gedirdi. Yollardan nə gecə, nə də gündüz keçmək olurdu. Ruslardan biri qaladan bir az aralanan kimi tatarlar[1] ya onu öldürür, ya da tutub dağlara aparırdılar. Odur ki, həftədə iki dəfə bir qaladan o birisinə müşayiətçi əsgərlər göndərilirdi. Qabaqda və dalda əsgərlər, ortada isə camaat gedirdi.

Bu hadisə yayda olmuşdu. Səhər sübhdən arabalar qalanın dalına yığıldı, müşayiətçi əsgərlər də çıxıb yola düşdülər. Jilin atlı gedirdi və onun şeyləri arxada gələn arabalardan birində idi.

İyirmi beş verst yol getmək lazım idi. Arabalar asta gedirdi: gah əsgərlər dayanır, gah arabalardan birinin çarxı çıxır, gah da at dayanırdı, buna görə də hamı durub gözləyirdi.

[1] O vaxt Qafqazda yaşayan müsəlmanlara tatar deyirdilər.

Gün günortadan keçmişdi, arabalar isə yolun ancaq yarısını getmişdi. Toz və isti idi, günəş elə yandırırdı ki, daldalanmağa yer də yox idi. Çılpaq səhralıq: yolda nə bir ağac, nə də bir kol var.

Jilin qabağa keçib dayandı və arabaların gəlib ona çatmasını gözlədi. Eşitdi ki, arxada şeypur çalınır, yenə dayandılar. Jilin fikirləşdi: "Bəlkə əsgərlərsiz tək gedim? Atım yaxşıdır, əgər tatarlara rast gəlsəm də aradan çıxaram. Ya getməyim?.."

Dayanıb fikirləşir. At minmiş başqa bir silahlı zabit – Kostılin ona yaxınlaşıb dedi:

– Jilin, gəl, özümüz gedək. Taqətim yoxdur, acmışam, bir yandan da bu isti. Əynimdəki köynək də lap yaşdır, sıxsan su tökülər.

Tosqun, kök, qıpqırmızı qızarmış Kostılinin bədənindən tər su kimi axırdı. Jilin fikirləşib dedi:

– Tüfəngin doludurmu?

– Doludur.

– Onda gedək. Şərtimiz bu olsun ki, bir-birimizdən ayrılmayaq.

Beləliklə də onlar yola düzəlib getdilər. Çöl ilə söhbət edə-edə gedir, hey ətrafa boylanırdılar. Hər tərəf aydın görünürdü. Çöl qurtaran kimi yol iki dağın arasındakı dərəyə girdi. Jilin dedi:

– Dağa qalxıb baxmaq lazımdır, yoxsa birdən dağın dalından çıxan olar, görmərik.

Kostılin isə dedi:

– Nəyə baxaq. Gəl gedək.

Jilin onun sözünə qulaq asmadı.

– Yox, – dedi, – sən aşağıda gözlə, mən bir baxım.

Sonra da atını sola, dağ yuxarı çapdı. Jilinin atı ovçu atı idi (o bu atı dayça ikən ilxıdan yüz manata almışdı və özü minib öyrətmişdi); at onu sanki qanadlarında sıldırım dağa qaldırdı. Elə təzəcə çapmışdı ki, irəli baxanda, lap qabağında, on desyatinlik açıq yerdə atlı tatarların dayandığını gördü. Otuz nəfərə qədər idilər. Görən kimi atının başını geri döndərdi. Tatarlar da onu görüb ona tərəf çapdılar, çapa-çapa tüfənglərini qablarından çıxardırdılar. Jilin atını sıldırım aşağı dördayaq çapdı və Kostılini səslədi:

– Tüfəngini çıxart! – Özü isə ürəyində atına deyirdi: "Canımsan, apar məni burdan, ayağın ilişməsin: büdrəsən işim bitdi. Əlim tüfəngə çatsa, onlara təslim olmaram".

Kostılin isə gözləmək əvəzinə, tatarları görən kimi var qüvvəsi ilə atını qalaya tərəf qamçıladı. O, atın gah bu, gah da o biri böy-

rünü qamçılayırdı. Ancaq tozun arasından atın quyruğunu necə yellətməsi görünürdü.

Jilin gördü ki, işlər pisdir. Tüfəng getdi, bircə qılıncla da heç bir şey eləmək olmaz. Atını geriyə, əsgərlərə tərəf çapdı, istədi aradan çıxsın, gördü ki, altı nəfər çaparaq onun yolunu kəsmək istəyir. Onun öz atı yaxşı olsa da, onlarınkı daha yaxşı idi. Həm də çaparaq onun yolunu kəsirdilər. Atın başını yığmaq, geri döndərmək istədi, ancaq at götürüldü, dayanmayıb düz onların üstünə çapırdı. Boz atın üstündə oturmuş qırmızısaqqal bir tatarın ona yaxınlaşdığını gördü. O, çığıraraq dişlərini qıcırtmış, tüfəngini əlində hazır tutmuşdu.

"Hə, – deyə Jilin fikirləşir, – mən sizi tanıyıram, iblislər: diri tutduqlarını çalaya salacaq, qamçı ilə döyəcəklər. Diri ikən təslim olmayacağam..."

Jilin boydan uca olmasa da qoçaq idi. Qılıncını çəkib atını düz qırmızısaqqal tatarın üstünə çaparaq fikirləşdi. "Ya atın altına alıb əzərəm, ya da qılıncla doğrayaram".

Jilin atını çapıb çata bilmədi. Arxadan ona güllə atdılar, güllə ata dəydi. At birdən yerə sərilib Jilinin ayağının üstünə düşdü.

O, ayağa durmaq istədi, lakin bu vaxt iy vermiş iki tatar onun üstünə oturub qollarını dala burdular. O dartındı, tatarları kənara itələdi, ancaq atlarından yerə sıçrayan daha üç tatar gəlib tüfənglərinin qundağı ilə onun başına vurmağa başladı. Jilinin gözləri qaranlıq gətirdi, səndələdi. Tatarlar onu tutdular, yəhərindən ehtiyat tapqırlarını çıxartdılar, qollarını arxasına burub, tatar düyünü vurdular, sürüyə-sürüyə onu yəhərə tərəf apardılar. Papağını vurub saldılar, uzunboğaz çəkmələrini çıxartdılar, hər yerini axtardılar – pullarını, saatını cibindən götürdülər, paltarını cırıq-cırıq elədilər. Jilin atına nəzər saldı. Yazıq at böyrü üstə düşdüyü kimi də qalmışdı, ayaqlarını çırpır, lakin yerə çatdıra bilmirdi, başı deşilmişdi, bu deşikdən fışıltı ilə çıxan qara qan ətrafındakı bir arşın yeri islatmışdı.

Tatarlardan biri ata yaxınlaşıb yəhərini açmağa başladı, at isə elə çırpınırdı; tatar xəncərini çıxarıb atın başını kəsdi, qan fışqırdı, bədəni əsdi, canı çıxdı.

Tatarlar yəhəri və qayışları çıxartdılar. Qırmızısaqqal tatar atını mindi, o birisilər isə Jilini onun tərkinə oturtdular, yıxılmasın deyə belindən qayışla tatara bağlayıb dağlara apardılar.

Jilin tatarın tərkində oturub yırğalanır, üzü tatarın iy verən kürəyinə sürtülürdü. O, tatarın enli kürəyindən və damarları çıxmış boynundan başqa heç bir şey görmürdü. Tatarın qırxılmış boynu papağının altından göyərirdi. Jilinin başı yarılmışdı, gözlərinin üstünü qan basmışdı. O, atın üstündə nə özünü düzəldə, nə də qanı silə bilirdi. Qollarını elə burmuşdular ki, cinaq sümüyü ağrıyırdı.

Dağa qalxmaq xeyli çəkdi, çayın dayaz yerindən keçib yola çıxdılar, dərə ilə getməyə başladılar.

Jilin onu hansı yolla apardıqlarını yadda saxlamaq istədi, lakin gözləri qana bulaşmışdı, tərpənə də bilmirdi.

Qaranlıqlaşmağa başladı; daha bir çaydan keçdilər, daşlı yamaca çıxmağa başladılar, tüstü iyi gəldi, itlər hürüşdülər. Aula gəlib çıxdılar. Tatarlar atlarından düşdülər, tatar uşaqları yığışdı, Jilini dövrəyə aldılar, çığırır, şənlənirdilər və onu daşa basmağa başladılar.

Tatar uşaqları qovdu, Jilini atdan düşürtdü, öz işçisini səslədi. İrisifət, bircə köynəkdə olan noqay[1] gəldi. Köynəyi cırıq, bütün sinəsi açıq idi. Tatar ona nə isə əmr etdi. İşçisi dəmirlə halqalanmış iki palıd kötükdən ibarət kündə gətirdi. Kötüyün birində qıfıl halqası və qıfıl var idi.

Jilinin əllərini açdılar, kündəni geydirib tövləyə apardılar; onu içəri itələyib qapısını bağladılar. Jilin peyinin üstünə yıxıldı. Sonra qaranlıqda əli ilə yumşaq yer tapıb uzandı.

II

Jilin bütün gecəni demək olar ki, yatmadı. Gecələr qısa idi. Deşikdən gördü ki, hava işıqlaşır. Jilin qalxıb deşiyi böyütdü və baxmağa başladı.

Deşikdən dağın ətəyinə gedən yolu, sağ tərəfdə bir tatar evi, onun da yanında iki ağac gördü. Kandarda qara it uzanmışdı, keçi öz çəpişləri ilə gəzişərək quyruqlarını bulayırdı. Gördü ki, dağın ətəyilə cavan tatar qızı gedir. Əynində rəngbərəng paltarı, belbağısı var idi, çaxçur və uzunboğaz çəkmə geymişdi, başına yaylıq örtmüşdü, başında su ilə dolu böyük tənəkə bardaq aparırdı. Gedərkən çiyinləri tərpənir və yırğalanırdı, o, əynində təkcə köynək

[1] Noqay – dağlı, Dağıstan sakini

olan, başı qırxılmış tatar balasının əlindən tutmuşdu. Tatar qızı suyu evə apardı, əynində ipək arxalıq, kəmərində gümüş xəncər, yalın ayaqlarında başmaq olan dünənki qırmızısaqqal tatar bayıra çıxdı. Başındakı qoyun dərisindən olan qara hündür papağını dala vermişdi. Bayıra çıxdı, gərnəşdi, qırmızı saqqalını sığalladı. Dayandı, işçisinə nə isə dedi və harasa getdi.

Sonra iki oğlan atın üstündə suvata getdi. Atların alt çənəsi yaş idi. Sonra yenə başları qırxılı, əyinlərində təkcə köynək olan uşaqlar qaçışıb gəldilər, bir yerə yığışıb tövləyə yaxınlaşdılar, yerdən çubuq tapıb deşiyə soxmağa başladılar. Jilin onların üstünə elə qışqırdı ki, uşaqlar çığırtı qoparıb qaçdılar, onların təkcə çılpaq dizləri göründü.

Jilin isə su istəyirdi, boğazı qurumuşdu. Fikirləşdi ki, heç olmasa gəlib başa çıxaydılar. Birdən eşitdi ki, tövləni açırlar. Qırmızısaqqal tatar və boydan bir az qısa olan qarabuğdayı adam içəri girdi. Onun qara parlaq gözləri, qırmızı yanaqları, qısa vurulmuş saqqalı var idi. Üzü şən idi, elə gülürdü. Qaraşın kişi daha yaxşı geyinmişdi: əynində göy rəngli və qıraqlarına gümüşü bafta çəkilmiş arxalığı var idi. Belinə böyük gümüş xəncər bağlamışdı. Ayağında qıraqları gümüşü bafta ilə işlənmiş tumac başmaqları var idi. Bu zərif başmaqların üstündən başqa bir qalın başmaq geyinmişdi. Başına ağ qoyun dərisindən hündür papaq qoymuşdu.

Qırmızısaqqal tatar içəri girib nə isə dedi, elə bil söyürdü, dayandı, qapının üst tirinə söykənib xəncərini oynadır, canavar kimi acıqlı-acıqlı Jilinə baxırdı. Qaraşın adam isə cəld, diribaş idi, sanki yay üstündə durmuşdu, elə hey gəzişirdi. O, düz Jilinə yaxınlaşdı, sallağı oturdu, dişlərini qıcırtdı, əlini onun kürəyinə vurdu, tez-tez öz dilində nə isə qırıldatdı, göz vurdu, dilini marçıldatdı. Hey deyirdi:

"Koroşo urus! Koroşo urus!"

Jilin heç bir şey anlamayıb dedi: "Su verin, su verin içim".

Qaraşın tatar gülür, "Koroş urus", – deyə öz dilində qırıldadırdı.

Jilin dodaqları və əlləri ilə göstərdi ki, ona su versinlər.

Qaraşın tatar başa düşüb güldü, qapıya baxdı, kimi isə çağırdı:

– Dina!

Nazik, arıq, on iki-on üç yaşlı, sifətdən qaraşın tatara oxşayan bir qız qaçaraq gəldi. Görünür qızı idi. Onun da qara odlu gözləri

var idi, sifətdən də qəşəng idi. Əyninə göy rəngli, enli qolları olan kəmərsiz uzun paltar geymişdi. Paltarın ətəyinə, sinəsinə və qollarına qırmızı sapla naxış vurulmuşdu. Çaxçur geymişdi, ayaqlarında başmaq, başmaqların üstündən isə hündürdaban daha başqa bir başmaq var idi, boynuna rus yarımmanatlıqlarından boyunbağı salmışdı. Başıaçıq, hörükləri qara idi, hörüklərinə lent vurmuşdu, lentdən isə pilək və birmanatlıq gümüş pul asılmışdı.

Atası ona nə isə dedi. O, qaçıb getdi və tənəkə bardaq gətirərək yenə də qayıtdı. Suyu verib, sallağı oturdu, bütün bədəni elə büküldü ki, çiyinləri dizlərindən aşağı endi. Oturub gözlərini açaraq Jilinin su içməsinə elə baxırdı ki, sanki qarşısında vəhşi heyvan idi.

Jilin bardağı qaytarıb qıza verdi. Qız dağkeçisi kimi tullanıb getdi, hətta atası da güldü. Sonra onu harasa başqa bir yerə göndərdi. Qız bardağı götürüb qaçdı, girdə taxtanın üstündə fətir gətirdi və yenə oturaraq büküldü, gözünü çəkmədən baxdı.

Tatarlar yenə qapını bağlayıb getdilər, bir qədər keçmiş noqay Jilinin yanına gəlib dedi:

– Haydı, ağa haydı!

O da rusca bilmir. Ancaq Jilin başa düşdü ki, harasa getməyi əmr edir.

Jilin ayağında kündə, axsaya-axsaya bayıra çıxdı. Ayağını yerə qoya bilmirdi. Jilin noqayın arxasınca getdi. Qabaqda tatar kəndi göründü, ona qədər ev idi, kilsələrinin də uzun qülləsi var idi. Evlərin birinin qabağında yəhərlənmiş üç at dayanmışdı. Uşaqlar yüyənlərindən tutmuşdular. Qaraşın tatar həmin evdən bayıra çıxıb əli ilə Jilini yanına çağırdı. Gülürdü, elə öz dillərində nə isə danışırdı, sonra içəri girdi. Jilin də evə gəldi. Otaq yaxşı idi, divarları palçıqla hamar suvanmışdı. Qarşıdakı divara ala-bəzək pərqu asılmışdı. Xalçaların üstündən gümüşə tutulmuş tüfənglər, tapançalar, qılınclar asılmışdı. Başqa bir divarda isə döşəmə ilə bərabər kiçik buxarı var idi. Evin yeri torpaq idi, xırman kimi təmiz idi, bütün qabaq tərəfə keçə döşənmişdi, keçələrin üstündən xalçalar salınmışdı, xalçaların üstünə isə pərqu balışlar qoyulmuşdu. Xalçaların üstündə ayaqlarında başmaq olan qaraşın və qırmızısaqqal tatar, daha üç qonaq oturmuşdu. Hamısının arxasında pərqu balış, qabaqlarında isə girdə taxta üzərində qoyulmuş, darıdan bişirilmiş fəsəli, kasada inək yağı,

bardaqda isə tatar pivəsi buza qoyulmuşdu. Əlləri ilə yeyirdilər, odur ki, əlləri tamam yağlı idi.

Qaraşın tatar yerindən sıçrayıb tapşırdı ki, Jilini kənarda, xalçanın üzərində yox, torpağın üstündə oturtsunlar; o yenə xalçanın üstünə əyləşdi, qonaqlara fəsəli və buza payladı. Xidmətçi Jilini yerində oturdub üst başmaqlarını çıxartdı, aparıb qapının ağzında başqa başmaqlar ilə bir yerə qoydu, keçib keçənin üstündə, ağalara yaxın oturdu, onların yeməklərinə baxıb ağzının suyunu axıdırdı.

Tatarlar fəsəliləri yedilər, o biri qız kimi çaxçur və köynək geymiş başqa bir tatar qızı gəldi: başına yaylıq salmışdı. Yağı və fəsəliləri apardı, yaxşı bir ləyən və aftafa gətirdi. Tatarlar əllərini yudular, sonra diz üstündə oturub əllərini döşlərinə qoydular, ətrafa üfüləyib dua oxudular. Öz dillərində danışdılar. Sonra qonaqlardan biri Jilinə tərəf çevrilib rus dilində danışmağa başladı.

– Səni Qazi Məhəmməd tutub, – deyib qırmızısaqqal tatarı göstərdi, – sonra da Əbdül Murada verib, – deyə qaraşın tatarı göstərdi, – indi sənin ağan Əbdül Muraddır.

Jilin susurdu. Əbdül Murad dilləndi, Jilini göstərərək gülür və deyirdi:

– Soldat, urus, koroşo urus.

Mütərcim dedi:

– O sənə tapşırır ki, evə məktub yazasan, səni azad etmək üçün pul göndərsinlər. Pul gələn kimi o səni buraxacaq.

Jilin fikirləşib dedi:

– O çoxmu pul istəyir?

Tatarlar öz aralarında danışdılar; mütərcim dedi:

– Üç min manat.

– Yox, mən bu pulu verə bilmərəm, – deyə Jilin cavab verdi.

Əbdül yerindən sıçrayıb əllərini ölçə-ölçə Jilinə nə isə dedi, elə bilirdi ki, o başa düşəcək. Mütərcim tərcümə edib dedi:

– Bəs sən nə qədər verərsən?

Jilin fikirləşib dedi:

– Beş yüz manat.

Bunu eşitcək tatarlar tez-tez və hamı birdən danışmağa başladılar. Əbdül qırmızısaqqal tatarın üstünə elə qışqırmağa başladı ki, ağzı köpükləndi.

Qırmızısaqqal tatar isə üz-gözünü yığır, ağzını marçıldadırdı.
Onlar susdular, mütərcim dedi:
– Ağaya beş yüz manat azdır. O özü səni iki yüz manata almışdır. Qazi Mühəmməd ona borclu idi. O səni öz borcunun əvəzinə götürmüşdür. Üç min manatdan əskiyə buraxmaq olmaz. Məktub yazmasan, zindana salacaqlar, qamçı ilə cəzalandıracaqlar.
"Eh, – deyə Jilin fikirləşdi, – bunlardan nə qədər qorxsan bir o qədər pis olacaq".
Ayağa sıçrayıb dedi:
– Sən o itə de ki, əgər məni qorxutmaq istəyirsə, bir qəpik də verməyəcəyəm, məktub da yazmayacağam. Sizin kimi itlərdən qorxmamışam, qorxmayacağam da.
Mütərcim tərcümə edən kimi yenə hamısı birdən danışmağa başladı.
Çox qırıldatdılar, sonra qaraşın kişi yerindən sıçrayıb Jilinə yaxınlaşdı.
– Urus, – dedi, – cigit, cigit urus!
Cigit onların dilində "qoçaq" deməkdir. Özü də gülürdü. Mütərcim nə isə dedi, o da tərcümə etdi:
– Min manat ver.
Jilin dediyinin üstündə durdu:
– Beş yüz manatdan artıq vermərəm. Öldürsəniz, heç nə ala bilməzsiniz.
Tatarlar öz aralarında danışdılar, xidmətçini harasa göndərdilər, özləri isə gah Jilinə, gah da qapıya baxırdılar. Xidmətçi gəldi, arxasınca hündürboylu, yoğun, ayaqyalın, üst-başı cır-cındır bir adam da gəldi: onun da ayağında kündə vardı.
Jilin Kostılini görən kimi içini çəkdi. Onu da tutmuşdular. Hər ikisini bir yerdə oturtdular; onlar söhbət etməyə başladılar, tatarlar isə susur, onlara baxırdılar. Jilin başına gələnləri danışdı; Kostılin dedi ki, atı dayandı, tüfəngi açılmadı, həmin bu Əbdül çatıb onu tutdu.
Əbdül sıçrayıb Kostılini göstərdi, nə isə dedi. Mütərcim tərcümə etdi ki, onların hər ikisi bir ağanın ixtiyarındadır, kim tez pul versə, onu tez buraxacaqlar. O, Jilinə dedi:
– Bax, sən hirslənirsən, yoldaşın isə sakitdir. O, evə məktub yazmışdır, beş min manat göndərəcəklər. İndi onu yaxşı yedirdəcəklər, incitməyəcəklər də.

Jilin dedi:
– Yoldaşım özü bilər, bəlkə o varlıdır, mən isə varlı deyiləm. Mən necə demişəm elə də olacaq. İstəyirsiniz öldürün, xeyri ki, olmayacaq, beş yüz manatdan artıq yazmayacağam.
Susdular. Birdən Əbdül sıçrayıb balaca sandığından qələm, bir parça kağız və mürəkkəb çıxartdı, Jilinə verdi, əliylə çiyninə vurub, göstərdi: "Yaz". Beş yüz manata razı oldu.
Jilin mütərcimə dedi:
– Dayan bir, sən ona de ki, bizi yaxşı yedirtsin, əyin-başımızı versin, ikimizi bir yerdə saxlasın ki, günümüz yaxşı keçsin, həm də kündələri çıxartsın.
Özü də ağasına baxıb gülürdü. Ağa da gülürdü, o dinləyib dedi:
– Paltarın ən yaxşısını verərəm: həm çərkəzi, həm də uzunboğaz çəkmə, lap kefiniz istəyən. Yeməyiniz knyazların yeməyi kimi olacaq. Əgər bir yerdə yaşamaq istəyirlərsə, qoy tövlədə yaşasınlar. Amma kündələri çıxarmaq olmaz, qaçarlar. Ancaq gecələr çıxararam. – Yerindən sıçrayıb onun çiyninə vurdu. – Tvoya xoroş, moya xoroş!
Jilin məktub yazdı, məktubun üstünü isə düz yazmadı ki, gedib çatmasın. Özü isə fikirləşdi: "Qaçacağam".
Jilini Kostılinlə tövləyə apardılar, onlar üçün qarğıdalı samanı, bardaqda su, çörək, iki köhnə çərkəzi paltar və köhnə uzunboğaz əsgər çəkməsi gətirdilər. Görünür öldürülmüş əsgərləri soyundurmuşdular. Gecə kündələri çıxartdılar, onları tövləyə salıb qapını bağladılar.

III

Beləliklə, Jilin yoldaşı ilə bir ay yaşadı. Ağası elə gülürdü: "Tvoya, İvan xoroş – moya Abdul xoroş". Amma pis yedirdirdi: darı unundan bişirilmiş fətir və qoğal, bəzən isə yaxşı bişməmiş, xəmir çörəkdən başqa heç bir şey vermirdi.
Kostılin evə bir də məktub yazdı, pulun gəlməsini gözləyir və darıxırdı. Bütün günü tövlədə oturub günləri sayırdı ki, məktub nə vaxt gələcək, ya da yatırdı. Jilin isə bilirdi ki, məktub çatmayacaq, təzə məktub da yazmırdı.

"Anam üçün o qədər pul hardandır ki, mənim üçün versin, – deyə fikirləşirdi. – Anam elə çoxu mənim göndərdiyim ilə dolanıb. O, beş yüz manat yığsa lap soyular: Allahın köməyilə özüm qurtararam".

Özü isə ətrafa göz qoyur, çalışırdı ki, necə qaçsın.

Aulda gəzinir, fit çalır, gah da oturub əl işi görürdü, ya palçıqdan kukla düzəldir, ya çubuqdan bir şey hörürdü. Jilin əl işində usta idi.

Bir dəfə o burunlu, əlli-ayaqlı, əynində tatar paltarı olan bir kukla düzəldib damın üstünə qoydu.

Tatar qadınları suya gedirdilər. Ağanın qızı Dinka kuklanı görüb tatar arvadlarını çağırdı. Onlar bardaqlarını yerə qoyub baxdılar və gülüşdülər. Jilin kuklanı götürüb onlara verdi. Onlar gülür, götürməyə isə cürət etmirdilər. O, kuklanı qoyub tövləyə getdi ki, görsün nə olacaq?

Dina qaçıb gəldi, ətrafa baxdı, kuklanı qapıb qaçdı.

Səhər dan yeri sökülǝndə gördü ki, Dina kukla ilə bayıra çıxdı. Kuklanı qırmızı cındırla bəzəmişdi, onu yırğalayır və öz dilində layla deyirdi. Bir qarı çıxıb onun üstünə çığırdı, kuklanı əlindən alıb yerə çırpdı, Dinanı harasa işə göndərdi.

Jilin ondan da yaxşı bir kukla düzəldib Dinaya verdi. Bir dəfə Dina bardaq gətirib yerə qoydu, oturdu və Jilinə baxmağa başladı. Özü də gülür, bardağı göstərirdi.

"O niyə sevinir?" – deyə Jilin fikirləşdi. Bardağı götürüb içməyə başladı. Elə bilirdi sudur, amma süd imiş. O, südü içdi.

– Yaxşıdır, – dedi.

Dina elə sevindi ki!

– Yaxşı, İvan, yaxşı! – deyib ayağa sıçradı, əl çalıb bardağı qapdı və qaçdı.

O vaxtdan bəri hər gün onun üçün gizlincə süd gətirməyə başladı. Bəzən tatarlar keçi şorunu qoğal kimi yastılayıb damda qurudurdular. Həmin qoğallardan da gizlində onun üçün gətirərdi. Bir dəfə ağa qoyun kəsmişdi. Qız qolunun içində bir parça ət gətirib ataraq qaçdı.

Bir dəfə güclü tufan qopdu, yağış bir saata kimi elə bil vedrədən tökülürdü. Çayların suyu bulandı. Dayaz yerlərin suyu üç arşına qalxdı, daşları axıtmağa başladı. Hər tərəfdən sular axır, səsi dağlara düşürdü. Tufan keçən kimi kəndin içindən sular axdı. Jilin ağasından bıçaq alıb val, xırda taxta və çarx düzəltdi, çarxların da hər

iki tərəfinə kukla bərkitdi. Qızlar onun üçün xırda parça gətirdilər, o kuklaların birinə kişi, o birinə isə qadın paltarı geyindirdi. Bərkidib çarxları suya buraxdı. Çarxlar fırlanır, kuklalar isə tullanırdılar.

Bütün kənd yığıldı: oğlanlar, qızlar, arvadlar gəldilər. Tatarlar da gəlib ağızlarını marçıldatmağa başladılar.

– Ay urus! Ay İvan!

Əbdüldə sınıq rus saatı vardı. O, Jilini çağırdı, saatı göstərib ağzını marçıldatdı. Jilin dedi:

– Ver düzəldim.

Alıb bıçaqla sökdü, yenə yığıb verdi. Saat işlədi.

Ağası sevindi, öz köhnə cındır arxalığını gətirib, ona bağışladı. Neyləsin, götürdü: gecə üstə örtmək üçün kara gələrdi.

O vaxtdan Jilin haqqında söz yayıldı ki, o yaxşı ustadır. Uzaq kəndlərdən onun yanına gəlməyə başladılar: kimi tüfəngin çaxmağını, ya da pistoletini, kimi də saatını düzəltməyə gətirirdi. Ağası onun üçün karastı-kəlbətin, burğu və suvant da gətirdi.

Bir dəfə tatar xəstələnmişdi. Jilinin yanına gəlib dedilər:

– Gəl, müalicə elə.

Jilin də bilmirdi ki, necə müalicə edərlər. Gedib baxdı, fikirləşdi: "Bəlkə özü sağaldı". Tövləyə gedib su ilə qumu qatışdırdı. Tatarların yanında suya pıçıldadı və içmək üçün xəstəyə verdi. Onun bəxtindən tatar sağaldı. Jilin onların dilini yavaş-yavaş anlamağa başlamışdı. Ona öyrəşən tatarlar lazım olanda çağırırdılar: "İvan, İvan", bəziləri isə ona vəhşi kimi baxırdılar.

Qırmızısaqqal tatar Jilini sevmirdi. Onu görən kimi qaşqabağını sallayır, üzünü kənara çevirirdi, ya da söyürdü. Onlarda bir qoca da var idi. O, aulda yaşamırdı, dağın ətəyindən gəlirdi. Jilin onu məscidə gəlib Allaha dua edəndə görmüşdü. Onun boyu balaca idi, papağına ağ dəsmal dolamışdı. Onun qısa vurulmuş saqqalı və bığı pərqu kimi ağ, qırışıq üzü kərpic kimi qırmızı idi; burnu qırğı dimdiyi kimi əyri, gözləri ala, acıqlı, dişləri də yox idi. Yalnız iki köpək dişi var idi. Başında çalması, əlində əsası, canavar kimi ətrafına baxa-baxa gəzirdi. Jilini görən kimi mırıldanıb üzünü yana çevirirdi.

Bir dəfə Jilin dağın ətəyinə getdi ki, görsün qoca necə yaşayır. Yolla enib gördü ki, bir bağ, daş hasar, hasarın da o tərəfində gilas, şaftalı ağacı və yastıdamlı daxma vardı. Qabağa gedib küləşdən hörülmüş arı pətəkləri gördü. Arılar uçub vızıldayırdı. Qoca da diz-

ləri üstə çöküb arı pətəklərinin yanında nə isə edirdi. Jilin hündürə qalxıb baxmaq istəyirdi ki, ayağındakı kündə səs saldı. Qoca dönüb çığırdı, belindən tapançanı çıxarıb Jilinə atdı. O, daşın dalında güclə gizlənə bildi.

Qoca, ağanın yanına şikayətə gəldi. Ağası Jilini yanına çağırıb güldü və soruşdu:

– Qocanın yanına niyə getmişdin?

Jilin dedi:

– Mən ona pislik etməmişəm, istəyirdim görüm necə yaşayır.

Ağası bunları qocaya dedi. Qoca isə hirslənir, fısıldayır, nə isə qırıldadır, köpək dişlərini göstərərək Jilin üçün əllərini ölçürdü. Jilin hamısını başa düşmədi, amma bildi ki, qoca tələb edir: rusları öldürsün, daha aulda saxlamasın. Qoca getdi.

Jilin bu qocanın kim olduğunu ağasından soruşdu. Ağası dedi:

– Bu böyük adamdır! O, birinci igid olub, çoxlu rus öldürüb, varlı olub. Onun üç arvadı, səkkiz oğlu var idi. Hamısı bir kənddə yaşayırdı. Ruslar gəlib kəndi talan etmiş və yeddi oğlunu öldürmüşlər. Bir oğlu qalmış, o da ruslara satılmışdır. Qoca özü də gedib rusların tərəfinə keçmiş, üç ay onların yanında yaşamış, orada öz oğlunu tapıb öldürmüş və qaçmışdır. O zamandan vuruşmaqdan əl çəkmiş, Məkkəyə ibadətə getmişdir. Ona görə də başında çalma var. Məkkədə olanlara Hacı deyirlər, başlarına da çalma qoyurlar. O, sizləri sevmir. O, deyir səni öldürüm; amma mən öldürə bilmərəm, sənin üçün pul vermişəm, həm də mən, İvan, səni sevmişəm, səni nəinki öldürmək, hətta söz verməsəydim buraxmazdım da, – O, güldü, rusca dedi: – Tvoy, İvan xoroş, – moya Abdul xoroş!

IV

Jilin bir ay belə yaşadı. Gündüz aulu gəzir, ya da əl işi görür, gecə aul sakitləşəndə isə tövləyə gəlib yer qazırdı. Daş olduğundan qazmaq çətin idi. O, suvantı ilə daşları sürtür, divarın altından çıxmaq üçün deşik açırdı. "Bircə bilsəydim ki, hansı yolla qaçsam yaxşıdır, – deyə düşündü. – Tatarların da heç biri demir".

Ağa yola düşən kimi o, vaxt tapdı: nahardan sonra aulun kənarına, dağlara sarı getdi. Oralara bələd olmaq istəyirdi. Ağa yola

düşəndə balaca oğluna tapşırmışdı ki, Jilinin dalınca gəzsin, onu gözdən qoymasın. Balaca da Jilinin dalınca gəzib qışqırdı:

– Getmə! Atam tapşırıb. Bu saat camaatı çağırıram!

Jilin onu dilə tutmağa başladı.

– Mən, – dedi, – uzağa getmərəm, ancaq o dağa qalxacağam. Sizin camaatı müalicə etmək üçün mənə ot lazımdır. Mənimlə gedək. Mən kündə ilə qaça bilmərəm. Sənin üçün sabah yayla ox düzəldəcəyəm.

Uşağı dilə tutdu, getdilər. Belə baxanda dağ uzaqda deyildi, amma kündə ilə getmək çətin idi; bir qədər getdi, dağa güclə dırmana bildi. Jilin oturub ətrafa baxmağa başladı. Cənubda, tövlənin dalında dərə var idi, ilxı otlayırdı, daha aşağıda başqa bir aul görünürdü. Auldan o yana daha sıldırım başqa bir dağ, o dağın arxasında isə daha bir dağ ucalırdı. Dağların arasından göy meşə görünürdü, sonra isə dağlar yenə də yuxarı ucalırdı. Hamısından uca olan dağın başı qənd kimi ağ qarın altında qalmışdı. Başı qarlı bir dağ o birilərdən hündürə qalxırdı. Gündoğan və günbatana tərəf də belə dağlar uzanırdı, bəzi yerlərdə isə dərələrdəki aullardan tüstü qalxırdı. "Bütün bunlar onların tərəfidir", – deyə fikirləşdi. Rusların tərəfinə baxmağa başladı: aşağıda çay, öz aulu, ətrafı da bağçalar. Çayın sahilində balaca kuklalar kimi arvadlar oturub paltar yuyurlar. Auldan o yana bir qədər aşağı dağ, ondan o tərəfə meşəylə örtülmüş daha iki dağ var. İki dağın arasından isə düzən görünür. Lap uzaqlarda həmin düz görünən yerə sanki tüstü yayılmışdı. Jilin qaladakı evində yaşayarkən günəşin haradan doğub, harada batdığını xatırlamağa başladı. Düşündü, düz orada, bu dərədə bizim qala olmalıdır. Bu iki dağın arasıyla oraya qaçmaq lazımdır.

Günəş batmağa başladı. Qarlı dağların rəngi ağdan al-qırmızıya boyandı; qarlı dağlar qaranlıqlaşdı; dərədən buxar qalxdı, bizim qalanın yerləşdiyi dərə isə qürubdan sanki alovlandı. Jilin diqqətlə baxdı, dərədə gözünə nə isə göründü, elə bil bacadan tüstü çıxırdı. Elə də qərara gəldi ki, bu həmin rus qalasıdır.

Artıq gec idi. Mollanın səsi eşidildi.[1] Mal-qara qayıdır, inəklər böyürürdü. Balaca hey deyirdi: "Gedək". Jilin isə getmək istəmirdi.

Onlar evə qayıtdılar. "Artıq yolu tanıyıram, qaçmaq lazımdır", – deyə Jilin fikirləşdi. O, həmin gecə qaçmaq istədi. Ayın qaranlı-

[1] Azan nəzərdə tutulur

ğı idi. Bədbəxtlikdən axşamüstü tatarlar qayıtdılar. Çox vaxt onlar özləri ilə mal-qara gətirir və buna görə də şən olurdular. Bu dəfə isə heç nə gətirməmişdilər: onlar öldürülmüş tatarı yəhərin üstünə aşıraraq gətirirdilər, bu, kürən tatarın qardaşı idi. Hacı acıqlı idi. Onlar ölünü dəfn etmək üçün yığışdılar. Jilin də baxmaq üçün bayıra çıxdı. Ölünü ağa bükdülər, tabuta qoymadılar, kəndin dalındakı çinarın altına aparıb otun üstünə uzatdılar. Molla gəldi, qocalar yığıldı, qabaqlarına dəsmal sərdilər, ayaqqabılarını çıxartdılar, diz üstə meyitin qabağında cərgə ilə oturdular.

Qabaqda molla, arxada bir-birinin yanında başı çalmalı üç qoca, daha arxada isə tatarlar əyləşmişdilər. Başlarını aşağı sallayıb susurdular. Xeyli susdular. Molla başını qaldırıb dedi:

– Allah! – Bu bir sözü dedi, başlarını aşağı saldılar, yenə xeyli susdular. Oturub yerlərindən tərpənmirdilər.

Molla yenə də başını qaldırdı.

– Allah! – və hamı birdən: "Allah" – dedi, yenə də susdular. Otun üzərində uzadılmış meyit tərpənmirdi, onlar da ölü kimi oturmuşdular. Heç biri tərpənmirdi. Yalnız çinar yarpaqlarının küləkdən titrəməsi eşidilirdi. Sonra molla dua oxudu, hamı ayağa qalxdı, meyiti qaldırıb apardılar. Çalanın yanına gətirdilər. Bu sadə çala deyildi, o zirzəmi kimi yerin altında qazılmışdı. Meyiti qoltuqlarından və qıçlarının qatlanacağından tutub əydilər, astaca salladılar, onu yerin altına uzadıb əllərini qarnının üstünə qoydular.

Noqay yaşıl qamış gətirdi, çalanı qamışla örtüb üstünə tez torpaq tökdülər, hamarladılar, meyitin başı tərəfindən başdaşı qoydular. Torpağı tapdaladılar, yenə də qəbrin qabağında cərgə ilə oturdular. Xeyli müddət susdular.

– Allah! Allah! Allah! – Ah çəkib durdular.

Kürən tatar qocalara pul payladı, sonra qalxdı, qamçını götürüb üç dəfə alnına vurdu və evə getdi.

Sabahı günü Jilin gördü ki, qırmızısaqqal tatar atı kəndin kənarına aparır, onun arxasınca isə üç tatar gedir. Onlar kənddən kənara çıxdılar, kürən arxalığını çıxartdı, qollarını çırmaladı, qolları güclü idi, xəncərini çıxarıb daşda itilədi. Tatarlar atın başını yuxarı qanırdılar, kürən yaxınlaşdı, atın boğazını kəsdi, onu yerə yıxdı, yumruqları ilə dərisini soymağa başladı. Arvadlar, qızlar gəlib bağırsaqlarını və içalatını yumağa başladılar. Sonra atı doğrayıb evə gətirdilər. Bütün kənd kürənin evinə ehsana toplaşdı.

Üç gün at ətini yeyib buza içərək ölünü yad etdilər. Tatarlar hamısı evdə idi. Dördüncü gün Jilin gördü ki, nahar vaxtı onlar harasa hazırlaşırlar. Atları gətirdilər. On nəfərə kimi yığışıb getdi, qırmızısaqqal tatar da getdi. Evdə təkcə Əbdül qaldı. Ay yenicə doğmuşdu, gecələr hələ qaranlıq idi.

"İndi qaçmaq lazımdır" – deyə Jilin fikirləşdi. Bunu Kostılinə də dedi. Kostılin isə qorxdu.

– Axı necə qaçaq, biz heç yolu da tanımırıq.

– Mən yolu tanıyıram.

– Bir gecəyə gedib çatmarıq.

– Çatmarıq meşədə gecələyərik. Mən çörək də götürmüşəm. Hələ də oturub baxacaqsan? Pul göndərsələr yenə də yaxşıdır, bəlkə heç yığa bilmədilər. Tatarlar isə adamlarını ruslar öldürdüklərinə görə acıqlıdırlar. Danışırlar, bizi öldürmək istəyirlər.

Kostılin bir qədər fikirləşib dedi:

– Hə, gedək!

V

Jilin deşiyə girib onu bir qədər genəldirdi ki, Kostılin də keçə bilsin; oturub aulun sakitləşməsini gözlədilər.

Aulda camaat sakitləşən kimi Jilin divarın altına girib o tərəfdən çıxdı. Kostılinə pıçıldadı:

– Çıx.

Kostılin də deşiyə girdi, ayağı daşa ilişdi, gurultu qopartdı. Ağanın çox ayıq bir ala iti vardı. Yaman sərt it idi. Adı Ulyaşin idi. Jilin qabaqca onu yedirdib özünə öyrətmişdi. Ulyaşin səs eşidən kimi hürdü, dalınca da o biri itlər hürüşdü. Jilin alçaqdan fit çaldı, bir parça çörək atdı. Ulyaşin tanıdı, quyruğunu bulayıb susdu.

Ağası eşidib evindən bağırdı:

– Qayıt, qayıt, Ulyaşin!

Jilin isə Ulyaşinin qulağının ardını qaşıyır, it susur, özünü onun ayaqlarına sürtür, quyruğunu bulayırdı.

Bir qədər tində oturdular. Sakitlik çökdü, ancaq tövlədən qoyunların səsi və suyun daşlara dəyib şırıldaması eşidilirdi. Qaranlıq idi, göyün dərinliklərində ulduzlar görünürdü: dağın üzərində təzə ay qızardı, batmağa başladı. Dərədəki duman süd kimi ağarırdı.

Jilin qalxıb yoldaşına dedi:

– Hə, qardaş, haydı!

Yerlərindən tərpənib təzəcə aralanmışdılar ki, molla damda azan çəkdi: "Allah, bismillah! Əlrəhman!" Deməli camaat məscidə gedəcək. Yenə də oturub divarın dibində gizləndilər. Xeyli oturdular, gözlədilər ki, camaat keçib getsin. Yenə ara sakitləşdi.

– Ya Allah! – deyib xaç vurdular və yola düşdülər. Həyətdən keçib sıldırım dərənin ətəyi ilə çaya tərəf getdilər, çayı keçdilər, dərə ilə getməyə başladılar. Sıx duman yerə çökmüşdü, başlarının üstündə isə ulduzlar görünürdü. Jilin ulduzlara baxıb bilirdi ki, hansı tərəfə getmək lazımdır. Dumanlı hava sərin, yerimək asan idi, ancaq uzunboğaz çəkmələr köhnə olduğundan ayaqlarını çətinliklə çəkirdilər. Jilin özününküləri çıxarıb tulladı, ayaqyalın getdi. Bir daşın üstündən, o birisinin üstünə atılıb ulduzlara baxırdı. Kostılin geri qalmağa başladı.

– Yavaş get, – dedi, – lənətə gəlmiş ayaqqabılar ayağımı tamam sürtüb.

– Çıxart tulla, yüngül olarsan.

Kostılin ayaqyalın getməyə başladı, bu, daha pis oldu: daşlar ayaqlarını tamam əzib doğrayırdı və o yenə də geri qalırdı. Jilin ona dedi:

– Ayaqların yaralansa, yenə də sağalar, amma tutsalar daha pis olar, öldürərlər.

Kostılin heç bir şey demir, irəliləyərək hıqqıldayırdı. Onlar düzənliklə xeyli getdilər. Eşitdilər ki, sağda itlər hürüşür. Jilin dayanıb ətrafa baxdı, dağa dırmandı, əli ilə yeri yoxladı.

– Eh, – dedi, – səhv etmişik, sağa tərəf gəlmişik. Bura özgə auldur, mən onu dağdan görmüşdüm. Geriyə, həm də sola, dağa çıxmaq lazımdır. Orada meşə olmalıdır.

Kostılin isə dedi:

– Heç olmasa bir az gözlə, qoy nəfəsimi dərim, ayaqlarım qan içindədir.

– Ay qardaş, sağalar: sən yüngülcə hoppan. Bax belə!

Jilin geriyə, sol tərəfdəki dağa, meşəyə qaçdı.

Kostılin isə elə hey geri qalırdı, ah-uh edirdi.

Jilin ona susmaq üçün işarə edir, özü isə hey gedirdi.

Dağın üstünə qalxdılar. Elədir ki var, bura meşə idi. Meşəyə girdilər, tikanlar paltarlarını cırıq-cırıq elədi. Meşədə yolu tapdılar. Yola düzəldilər.

– Dayan! – Yoldan ayaq səsi gəldi. Dayandılar, qulaq asdılar. At ayağının tappıltısı eşidilib kəsildi. Onlar yolu düzələndə, yenə həmin səs gəldi. Onlar dayananda o da dayandı. Jilin sürünüb yola baxdı, orada nə isə dayanmışdı: ata da oxşamırdı. Atın üstündəki əcaib bir şey də adama oxşamırdı. Fınxırtı eşitdi. "Bu nə möcüzədir!" Jilin astadan fit çaldı, heyvan yoldan meşəyə elə tullandı ki, meşədə şaqqıltı eşidildi, sanki fırtına qopub budaqları sındırır.

Kostılin qorxudan yerə yıxıldı. Jilin isə gülüb dedi:

– Maraldır. Eşidirsənmi buynuzları ilə budaqları necə sındırır. Biz ondan qorxuruq, o bizdən.

Yenə getdilər. Ulduzlar enməyə başlayırdı, səhərə az qalırdı. Düzmü gedirlər, ya yox, bunu onlar bilmirdilər. Jilinə elə gəlirdi ki, onu həmin bu yolla aparmışdılar, öz adamlarına çatmaq üçün hələ on verst olar, amma düzgün nişanə yox idi, həm də gecə vaxtı ayırd etmək olmurdu. Talaya çıxdılar. Kostılin oturub dedi:

– Bilmirəm, daha mən gedə bilməyəcəyəm, ayaqlarım gəlmir.

Jilin onu dilə tutmağa başladı.

– Yox, – dedi, – gedib çıxa bilmərəm, yeriyə bilmirəm.

Jilin hirsləndi, tüpürüb onu söydü:

– Onda özüm tək gedərəm, salamat qal.

Kostılin yerindən sıçrayıb onun dalınca getdi. Onlar dörd verstə kimi getdilər. Meşədə duman daha da sıxlaşdı, qabaqda heç bir şey görünmürdü, ulduzlar da güclə seçilirdi.

Birdən qabaqda at nallarının səsini eşitdilər. Nalların daşlara necə ilişdiyi də eşidilirdi. Jilin qarnı üstə uzandı, qulağını yerə qoyub qulaq asmağa başladı.

– Elədir ki, var, buraya, bizə tərəf atlı gəlir!

Onlar qaçıb yoldan çıxdılar, kolların dibində oturub gözlədilər. Jilin yola tərəf sürünüb gördü ki, bir atlı tatar inək aparır. Burnunun altında nə isə mızıldayır. Tatar keçib getdi. Jilin Kostılinin yanına qayıtdı.

– Hə, rədd olub getdi; dur gedək.

Kostılin durmaq istəyəndə yıxıldı.

– Dura bilmirəm, vallah dura bilmirəm, taqətim yoxdur.

Tosqun kök kişini tər aparırdı. Meşədəki soyuq duman onu bürümüşdü, ayaqları parçalanmış, əldən düşmüşdü. Jilin onu güclə qaldırmağa başladı. Kostılin bərkdən çığırdı:

– Ay, incidir!

Jilin yerində quruyub qaldı.

– Niyə bağırırsan? Axı tatar yaxındadır, eşidər. – Özü isə fikirləşdi: "O, doğrudan da zəifləyib, indi mən nə edim? Yoldaşı atmaq olmaz".

– Bəsdir, qalx, – dedi, – gedə bilmirsənsə min dalıma aparım.

Kostılini dalına alıb baldırlarından tutdu, yola çıxıb aparmağa başladı.

– Amma, İsa xatirinə boğazımı sıxma, çiyinlərimdən tut, – dedi.

Jilin üçün ağır idi, ayaqları qan içində idi, özü də yorulmuşdu, əyilir, düzəlir, Kostılini yuxarı atırdı ki, o bir qədər hündürdə otursun və sonra yoluna davam edirdi.

Görünür, tatar Kostılinin bağırtısını eşitmişdi. Jilin eşitdi ki, arxadan kimsə gəlir, öz dilində çağırır. Jilin kolluğa cumdu. Tatar tüfəngini qapıb atəş açdı, vura bilmədi, öz dilində nə isə dedi və yoluna davam etdi.

Jilin dedi:

– Daha batdıq, qardaş! İndi o itin biri tatarları yığıb bizim ardımızca gələcək. Əgər üç verst getməsək onda batdıq. – Özü isə Kostılin barədə fikirləşir: "Niyə axı bu yükü özümlə götürdüm. Tək olsaydım, çoxdan çıxıb getmişdim".

Kostılin dedi:

– Sən get, mənə görə niyə sən də əziyyət çəkəsən.

– Yox, getmərəm; yoldaşı atmaq olmaz.

Yenə də onu çiyninə qaldırıb yoluna davam etdi. Beləliklə bir verst də getdilər. Meşə hey uzanır, sonu görünmürdü. Duman dağılmağa başladı, sanki buludlar da qatılaşdı. Artıq ulduzlar görünmürdü. Jilin əldən düşmüşdü.

Yolda daşla hörülmüş bir bulağa rast gəldilər, Jilin dayanıb Kostılini yerə düşürtdü.

– Qoy yorğunluğumu alım, su içim, – dedi, – çörək yeyək. Deyəsən yaxınlaşmışıq.

Su içmək üçün yenicə uzanmışdı ki, arxadan tappıltı eşidildi. Yenə də sağa kolluğa, sıldırım dağın ətəyinə atılıb uzandılar.

Tatarların danışığı eşidildi; tatarlar, onların yoldan döndükləri yerdə dayandılar. Öz aralarında danışdılar, itləri qısqırtmağa başladılar. Kolluqda nəyin isə cırıldadığını eşitdilər. Yad bir it birbaş üstlərinə gəldi. Dayanıb hürdü.

Tatarlar da ora girdilər. Bunlar da özgə tatarlar idi; onları tutdular, sarıyıb atların üstünə mindirərək apardılar.

Üç verst getmişdilər ki, ağaları Əbdül iki tatarla onların qarşısına çıxdı. Tatarlarla nə isə danışdı, Jilini və Kostılini öz atlarına mindirib geriyə, aula apardılar.

Əbdül artıq gülmür, onlarla bir kəlmə də danışmırdı.

Səhər açılanda onları aula gətirdilər, küçədə oturtdular. Uşaqlar qaçışıb gəldilər. Onlara daş atır, qamçıyla vurur və çığırışırdılar.

Tatarlar yığılıb dövrə vurdular, dağın ətəyindəki qoca da gəldi. Söhbətə başladılar. Jilin eşitdi ki, onlara nə edəcəklərindən danışırlar. Bəzisi deyir ki, onları uzaq dağlara göndərmək lazımdır, qoca isə deyir: "Öldürmək lazımdır". Əbdül mübahisə edib deyir: "Mən onlar üçün pul vermişəm. Mən onlardan ötrü pul almalıyam". Qoca isə deyirdi: "Onlar pul verməyəcəklər, ancaq başımıza bəla gətirəcəklər. Həm də ruslara yemək vermək günahdır. Öldürmək lazımdır, vəssalam".

Onlar dağılışdılar. Ağası Jilinə yaxınlaşıb dedi:

– Əgər sizdən ötrü pul göndərməsələr, iki həftədən sonra sizi şallaqlayacağam. Əgər bir də qaçmaq fikrinə düşsən səni it kimi öldürəcəyəm. Məktub yaz, yaxşı yaz.

Onlar üçün kağız gətirdilər. Onlar məktub yazdılar. Kündələri ayaqlarına keçirib məscidin arxasına apardılar. Orada beş arşın dərinliyində bir çala var idi, onları həmin çalaya salladılar.

VI

Onların yaşayış şəraiti daha da pisləşdi. Ayaqlarındakı kündələri çıxarmır, bayıra da buraxmırdılar. Onlara itə tullayan kimi xəmir çörək atırdılar. Bardaqda isə su sallayırdılar. Çala iy verir, içərisi bürkü və nəm olurdu. Kostılin lap xəstələndi, şişdi, bütün bədəni ağrıyırdı. Elə hey zarıldayır, ya da yatırdı. Jilin də qəmginləşmişdi: görürdü ki, iş pisdir. Bilmirdi özünü necə qurtarsın.

istədi lağım atsın, lakin torpağı tökməyə yer yox idi. Ağası da görüb öldürəcəyi ilə hədələmişdi.

Bir dəfə o, çalada sallağı oturub azadlıqda yaşamaq haqqında fikirləşir, ürəyi darıxırdı. Birdən onun lap dizi üstünə bir qoğal, sonra yenə də bir qoğal düşdü və gilas səpələndi. Yuxarı baxdı. Dinanı gördü. Dina ona baxıb güldü və qaçdı. Jilin fikrə getdi: "Dina kömək etməzmi?"

O, çalada yeri təmizlədi, qazıyıb palçıq çıxartdı, kukla düzəltməyə başladı. Bir neçə adam, it düzəltdi, fikirləşdi: "Dina gələndə onun üçün tullayaram".

Amma o biri gün Dina gəlmədi. Jilin at nallarının səsini eşitdi, kimlər isə gəldi, tatarlar məscidin yanına yığılıb mübahisə edir, bağırır, ruslar haqqında danışırdılar. Qocanın da səsini eşitdi. Yaxşı ayırd edə bilmədi, duydu ki, ruslar yaxınlaşıblar, tatarlar da qorxurlar ki, gəlib aula girərlər, bilmirlər ki, əsirləri neyləsinlər.

Danışıb getdilər. Birdən yuxarıdan xışıltı eşitdi. Gördü ki, Dina sallağı oturub dizləri başından da yuxarı qalxıb, boyunbağısı çala üzərində yellənir. Gözləri ulduz kimi parıldayır. Qolunun içindən iki dənə pendir qoğalı çıxarıb ona atdı. Jilin götürüb dedi:

– Nə vaxtdır niyə gəlmirdin? Mən sənin üçün oyuncaq düzəltmişəm. Al bax! – Bir-bir ona atmağa başladı. Qız isə başını yelləyir, baxmırdı.

– Lazım deyil! – dedi. Susdu, dinməzcə oturdu, sonra dedi: – İvan, səni öldürmək istəyirlər. – Özü də əli ilə öz boğazını göstərdi.

– Kim öldürmək istəyir?

– Atam, ona da qocalar deyir, mənim sənə yazığım gəlir.

Jilin dedi:

– Əgər yazığın gəlirsə, mənə uzun bir ağac gətir.

Qız başını yellədi ki, "olmaz", Jilin qollarını büküb qıza yalvardı:

– Dina, xahiş edirəm, Dinuşka, gətir.

– Olmaz, görərlər, hamısı evdədir, – deyib getdi.

Axşam Jilin oturub fikrə getmişdi: "Nə olacaq?" Hey yuxarı baxırdı. Ulduzlar görünürdü, ay isə hələ çıxmamışdı. Mollanın səsi eşidildi, ətraf sakitləşdi. Jilin mürgüləyə-mürgüləyə: "Qız qorxur" – deyə fikirləşdi.

Birdən başına palçıq töküldü, yuxarı baxdı – uzun bir paya çalanın o biri divarına dəydi, sonra da aşağı enib çuxura düşdü. Jilin

sevindi, əli ilə payanı aşağı çəkdi, paya möhkəm idi. O, bu payanı qabaqlar ağanın damı üstündə görmüşdü.

Yuxarı baxdı: ulduzlar göyün dərinliklərində parıldayırdı. Çalanın da üstündə, qaranlıqda Dinanın gözləri pişik gözləri kimi işıldayırdı. O, üzünü çalanın kənarına yaxınlaşdırıb pıçıldadı:

– İvan, İvan! – özü isə əllərini yellədib başa salırdı: "Yəni yavaş".

– Nədir? – deyə Jilin soruşdu.

– Hamı getdi, yalnız ikisi evdədir.

Jilin dedi:

– Hə, Kostılin, gedək axırıncı dəfə də çalışaq, mən səni dalıma alaram.

Kostılin eşitmək də istəmirdi.

– Yox, görünür mən buradan çıxa bilməyəcəyəm. Mən bu halda hara gedəcəyəm, tərpənməyə taqətim yoxdur.

– Onda əlvida, adımı pisliklə çəkmə. – O, Kostılinlə öpüşdü.

Payadan yapışdı, Dinaya dedi ki, payanı tutsun, dırmaşmağa başladı. İki dəfə yerə gəldi, kündə mane olurdu. Kostılin ona kömək etdi, o birtəhər yuxarı qalxdı. Dina var gücü ilə onun köynəyindən tutub dartır, özü də gülürdü.

Jilin payanı götürüb dedi:

– Apar yerinə qoy, Dina, yoxsa bilib səni döyərlər.

Qız payanı apardı, Jilinsə dağın ətəyinə tərəf getdi. Qayanın altından iti bir daş götürüb kündənin qıfılını qırmağa başladı. Qıfıl isə möhkəm idi. Heç cürə sındıra bilmirdi, həm də onun üçün çox narahat idi. Eşitdi ki, dağdan kimsə atıla-atıla gəlir. Fikirləşdi ki, yenə Dinadır. Dina qaçıb gəldi, daşı götürüb dedi:

– Ver mən eləyim.

Dizləri üstə oturub vurmağa başladı. Əlləri çubuq kimi nazik idi, gücü çatmırdı. Daşı tullayıb ağladı. Jilin yenə də qıfılı qırmağa başladı. Dina isə onun yanında sallağı oturub çiynindən tutdu. Jilin ətrafa baxıb gördü ki, solda dağın arxasında üfüq qıpqırmızı qızardı. Ay çıxmağa başladı. "Ay çıxana kimi dərəni keçib, meşəyə çatmaq lazımdır", – deyə fikirləşdi. Qalxıb daşı tulladı. Kündə ilə olsa da getmək lazımdır.

– Əlvida, Dinuşka, – dedi. – Ömrüm boyu səni xatırlayacağam.

Dina ondan yapışdı, qoğalları qoymaq üçün üstünü axtardı. Jilin qoğalları götürdü.

– Çox sağ ol, ağıllı qız, – dedi. – Mən olmasam sənin üçün kim kukla düzəldəcək? – Əli ilə qızın başını tumarladı.

Dina ağlayıb əllərini üzünə tutdu, keçi kimi atıla-atıla dağa qaçdı. Qaranlıqda yalnız saçına bağladığı muncuqların kürəklərinə necə dəydiyi eşidilirdi.

Jilin xaç çəkdi, kündənin qıfılını əlinə aldı ki, səs salmasın, yol ilə gedərək ayağını sürüyürdü. Özü isə ayın doğduğu tərəfə baxırdı. Yolu tanıdı. Düzünə səkkiz verst getmək lazımdır. Amma ay tamamilə çıxana kimi meşəyə çata biləydi. Çayı keçdi; dağın arxasında artıq hava işıqlaşmışdı. Dərə ilə gedərkən ətrafına baxırdı: ay hələ görünmürdü. Artıq üfüq ağarmağa başladı, dərənin bir tərəfinə getdikcə daha çox işıq düşürdü. Kölgə dağın ətəyinə tərəf sürünür, ona yaxınlaşırdı.

Jilin kölgə ilə gedirdi. O, tələsirdi, ay isə daha sürətlə çıxırdı. Artıq sağdan da zirvələr işıqlaşdı. Meşəyə yaxınlaşmağa başladı, ay dağların arxasından çıxdı, ətraf gündüz kimi aydın və işıqlı oldu. Ağaclarda bütün yarpaqlar görünürdü. Dağlar sakit və işıqlı idi: sanki hər şey cansız idi. Yalnız aşağıdan çayın şırıltısı eşidilirdi.

Meşəyə çatdı, heç kəsə rast gəlmədi. Jilin meşədə qaranlıq bir yer seçib dincəlməyə oturdu.

Dincəldi, qoğalı da yedi. Daş tapıb yenə də kündəni sındırmağa başladı. Əllərini tamam əzdi, amma qıfılı sındıra bilmədi. Qalxıb yol ilə getdi. Bir verst getmiş yoruldu, ayaqları lap sınırdı. On addım atıb dayanırdı. "Nə etməli, nə qədər gücüm varsa gedəcəyəm, – dedi, – otursam dura bilmərəm. Qalaya çata bilmərəm, hava işıqlaşan kimi meşədə uzanaram, gecə yenə də yol gedərəm".

Bütün gecəni yol getdi. Yalnız iki nəfər atlı tatar gördü. Jilin uzaqdan onların səsini eşidib, ağacın dalında gizləndi.

Artıq ay solmağa başladı, şeh düşdü, səhərə az qalırdı, Jilinsə hələ meşənin kənarına çatmamışdı. "Otuz addım da gedib meşəyə dönəcəyəm, oturacağam", – deyə fikirləşdi. Otuz addım getmişdi ki, gördü meşə qurtarır. Meşədən çıxıb gördü ki, ətraf tamam işıqdır, çöl və qala onun qarşısında sanki ovcunun içində idi, solda isə lap yaxında dağın ətəyində işıqlar yanıb-sönür, tüstü qalxır, adamlar da tonqalın ətrafına yığışmışlar.

Baxıb gördü ki, silahlar parıldayır – kazaklardır, əsgərlərdir.

Jilin sevindi, son gücünü toplayıb dağın ətəyinə getdi. Özü isə fikirləşirdi: "Allah eləməsin ki, bu açıq çöldə atlı tatar olsun: yaxın olsa da qaçmaq çətindir".

Elə bunu fikirləşmişdi ki, solda iki desyatin aralıda təpənin üstündə üç tatarın durduğunu gördü. Onu gördülər, ona tərəf cumdular. Ürəyi tamam düşdü. Əllərini yelləyib var gücü ilə bağırdı.

– Qardaşlar! Xilas edin! Qardaşlar!

Bizimkilər eşitdilər. Atlı kazaklar sıçrayıb tatarların yolunu kəsərək ona tərəf çapdılar.

Kazaklara uzaq, tatarlara isə yaxın idi. Jilin son gücünü topladı, kündəni əli ilə tutdu, kazaklara tərəf qaçdı, heç özündə deyildi, xaç çəkib bağırırdı:

– Qardaşlar! Qardaşlar! Qardaşlar!

Kazaklar on beş nəfər olardı.

Tatarlar qorxdular, çatmamış dayandılar. Jilin kazaklara tərəf qaçdı.

Kazaklar onu dövrəyə alıb soruşdular: "O kimdir, nəçidir, hardandır?" Jilinsə heç özündə deyildi, ağlayır və deyirdi:

– Qardaşlar! Qardaşlar!

Əsgərlər qaçışıb gəldilər, Jilinin başına yığıldılar, kimi ona çörək, kimi xörək, kimi araq verirdi; kimi şinellə üstünü örtürdü, kimi də kündəni sındırırdı.

Zabitlər onu tanıdılar, qalaya apardılar. Əsgərlər sevindilər, yoldaşları Jilinin yanına yığışdılar.

Jilin bütün başına gələnləri danışdı və dedi:

– Evə yaman getdim, yaman da evləndim! Yox, görünür ki, qismətim deyilmiş.

O, qalıb Qafqazda qulluq etdi. Bir aydan sonra isə beş min verib Kostılini aldılar. Onu gətirəndə lap yarımcan idi.

ANTON PAVLOVİÇ ÇEXOV

(1860-1904)

6 №-li PALATA

I

Xəstəxana həyətində ayıpəncəsi, gicitkən və çətənə kolluqları ilə bürünmüş kiçik bir fligel vardı. Fligelin dəmir damı paslanmışdı; su novçası yarıyadək sınıb tökülmüşdü, artırmasının pillələri çürümüş və qıraq-bucağında ot bitmişdi, evin suvağından təkcə iz qalmışdı. Fligelin qabaq tərəfi xəstəxanaya, dal tərəfi isə çölə baxırdı. Fligeli çöldən, üstünə çoxlu mıx çalınmış xəstəxana hasarı ayırırdı. Bu, ucları yuxarı sancılmış mıxlar, hasarın və fligelin özü, yalnız xəstəxana və həbsxana tikililərinə məxsus kədərli və çox pis bir görünüşdə idi.

Əgər gicitkənin dalayıb yandırmasından qorxmursunuzsa, gəlin dar cığırla gedib fligelin içərisinə tamaşa edək. Birinci qapını açıb dəhlizə giririk. Burada divarın və sobanın dibinə bir yığın xəstəxana tör-töküntüsü atılmışdır. Döşəklər, köhnə cırıq xalatlar, tumanlar, heç nəyə yaramayan göy zolaqlı köynəklər, yırtıq ayaqqabılar bir yerə tökülmüş, əzilmiş, qarışdırılmışdır, bu şeylər çürüyür və ətrafa pis qoxu yayır.

Gözətçi Nikita, damağında çubuq, həmişə bu tör-töküntünün üstünə uzanırdı; bu, istefaya çıxmış köhnə bir soldat idi, paltarına tikilmiş baftaları belə saralmışdı. Üzü sərt və arıqdı, sallaq qaşları sifətini qoyun itinə oxşadırdı, burnu pul kimi qırmızı idi; boyu alçaq, görünüşü arıqdı, lakin gövdəsi zəhmli, yumruqları saz idi. O, dünyada qayda-qanunu hər şeydən çox sevən və ona görə də bunları döyməyin zəruri olduğuna inanan sadədil, icraçı və küt adamlar zümrəsinə mənsub idi. O, adamların üzünə, döşünə, kürəyinə, hər yerinə vururdu və əmin idi ki, bunsuz burada qayda ola bilməz.

Sonra, dəhliz hesab edilməzsə, bütün fligeli tutan böyük, geniş bir otağa girirsiniz. Otağın divarları çirkli abı rəngə boyanmış, tavanı his çəkmişdir, yəqin qış vaxtı burada sobalar his verir və otaqda dəm olur. İçəridən çəkilmiş barmaqlıqlar pəncərələri eybəcər bir şəklə salmışdır. Döşəmə bozarmış və köhnəlmişdir. Otaqdan turş kələm, əsgi yanığı, taxtabiti və ammonyak qoxusu gəlir, bu qoxu ilk dəqiqədə sizə elə təsir bağışlayır ki, elə bil heyvanxanaya girmisiniz.

Otaqda döşəməyə vintlənmiş çarpayılar vardı. Bu çarpayılarda göy xəstəxana xalatı geymiş və başlarına qədim modalı qalpaq qoymuş adamlar oturur və yatırdılar. Bunlar dəli idilər.

Cəmisi beş nəfər idi. Bunlardan yalnız biri adlı-sanlı idi, qalanları isə adi meşşanlar idi. Qapıdan birinci olan ucaboy, arıq, sarı bığları parıldayan, ağlar gözlü meşşan, başını ovuclarına dayayıb, gözlərini bir nöqtəyə zilləmişdi. Bu kişi gecə-gündüz dərdə-qüssəyə qapılır, başını yırğalayır, ah çəkir və acı təbəssümlə gülümsəyirdi, söhbətdə az-az iştirak edir, suallara adətən cavab vermirdi. Yeməyi-içməyi da qeyri-ixtiyari idi: nə vaxt təklif etsələr; palatada bu pəncərədən o pəncərəyədək gəzişir və yanaqlarındakı qırmızılıq onun vərəm xəstəliyinə tutulduğunu göstərirdi.

Onun o tayındakı çarpayıda alçaq boylu, zirək, xeyli oynaq bir qoca uzanmışdı, onun keçi saqqalı, zənci saçları kimi qara, qıvırcıq saçları vardı. Gündüzlər palatada bu pəncərədən o pəncərəyədək gəzinir, öz yatağında bardaş qurub oturur, şaqraq quşu kimi fit çalır, yavaşca oxuyur və hırıldayırdı. Gecələr Allaha daha yaxşı ibadət eləmək üçün, yəni yumruqlarını döşünə döymək və barmaqları ilə qapını qurdalamaq üçün duranda, uşaq kimi şən və qıvraq olurdu. Bu, yəhudi Moyseyko idi, iyirmi il bundan əvvəl onun papaqçı dükanı yanan zaman başına hava gəlmişdi.

6 №-li palata sakinlərindən yalnız ona fligeldən və hətta xəstəxana həyətindən küçəyə çıxmağa izn verilirdi. Xəstəxanada uzun müddət qaldığına və dinc, zərərsiz bir dəli, bir şəhər təlxəyi olduğuna görə çoxdan bəri bu imtiyazdan istifadə edirdi, onu daima şəhərin küçələrində başına uşaqlar və itlər toplaşmış halda görməyə adət etmişdilər. Əynində xalat, başında məzəli bir qalpaq və ayağında tuflu, bəzən də ayaqyalın və hətta tumançaq küçələri dolaşır, darvaza və dükanların qarşısında durur və dilənirdi. Bir yerdə

ona kvas, başqa bir yerdə çörək, üçüncü bir yerdə pul verirdilər, beləliklə, fligelə həmişə tox və pullu qayıdırdı. Gətirdiklərinin hamısını Nikita əlindən alırdı. Soldat bu hərəkəti çox kobud və qəsdən edərək, yazığın ciblərini çevirir və Allaha and içirdi ki, bundan sonra cuhudu bir daha küçəyə buraxmayacaqdır, çünki qanunsuzluq ondan ötrü hər şeydən pisdir.

Moyseyka qulluq göstərməyi sevirdi. Yoldaşlarına su verir, yatdıqları zaman üstlərini örtür, hərəsinə küçədən bir qəpik pul gətirməyi və təzə şapka tikdirməyi vəd edirdi, sol tərəfindəki iflic qonşusuna qaşıqla xörək yedirirdi. Bütün bu xidmətləri yazığı gəldiyi üçün və ya insanpərvər duyğular xatirinə deyil, yalnız sağ tərəfindəki qonşusu Qromovu təqlid edərək qeyri-ixtiyari ona tabe olduğu üçün edirdi.

Otuz üç yaşlı İvan Dmitriç Qromov keçmişdə məhkəmə pristavı, quberniya katibi olmuşdu, nəciblərdəndi, təqib olunma xəstəliyinə tutulmuşdu. O, gah yumaq kimi yumurlanıb yataqda uzanır, gah da sanki hərəkət etmək məqsədilə, otaqda o küncdən-bu küncə gəzinirdi. O, həmişə məchul, anlaşılmaz bir intizarla həyəcanlı və gərgin bir vəziyyətdə idi. Dəhlizdə azacıq bir xışıltı və ya həyətdə bir səs eşitdimi, tez başını qaldırıb diqqətlə dinləməyə başlardı: onun dalınca gəlmişlər? Onumu axtarırlar? Bu zaman sifətində böyük bir təşviş və ikrah hissi oxunurdu.

Onun mübarizədən və uzun müddət davam edən qorxudan əzab çəkmiş ruhunu ayna kimi əks etdirən enli sümüklü, həmişə solğun və bədbəxt ifadəli üzü mənim xoşuma gəlirdi. Üzündə qəribə və xəstə bir ifadə vardı. Lakin çöhrəsində dərin və səmimi iztirabdan əmələ gələn incə cizgilər ağıl və mərifətə dəlalət edirdi, gözlərində qaynar bir parıltı vardı. O, mehriban və xidmət göstərən adam olduğu və Nikitadan başqa hamı ilə gözəl rəftar etdiyi üçün mənim xoşuma gəlirdi. Xəstələrdən biri yerə düymə, ya qaşıq salanda, cəld yerindən sıçrayır, yerə düşmüş şeyi qaldırıb yiyəsinə verirdi. Hər səhər yoldaşlarına "sabahınız xeyir olsun", yatanda isə "gecəniz xeyrə qalsın" deyərdi.

Həmişə gərgin vəziyyətdə olmaqdan və üz-gözünü turşutmaqdan başqa, onun dəliliyi bir də bundan ibarətdi: bəzən axşamlar öz xalatına bərk-bərk bürünür, bütün bədəni ilə əsir, dişləri bir-birinə dəyir, çarpayıların arası ilə o küncdən-bu küncə gəzinirdi. Bu zaman o, titrəmə-qızdırma tutmuş adama oxşayırdı. Gəzərkən

birdən-birə dayandığından və yoldaşlarına baxdığından mühüm bir şey demək istədiyi anlaşılırdı, lakin yəqin, onu dinləməyəcəklərini və ya anlamayacaqlarını fikirləşib, səbirsizliklə başını yırğalayır və gəzinməsində davam edirdi. Amma danışmaq arzusu tezliklə hər cür mülahizələrə qalib gəlirdi və iradəsini toplayıb odlu-odlu danışmağa başlayırdı. O, sayıqlayan adam kimi hərarətlə danışırdı, sözləri qarışıq və çox zaman anlaşılmaz olurdu, lakin gözlərində də, səsində də son dərəcə gözəl bir ifadə duyulurdu. O, danışanda onu bir dəli, bir insan kimi tanımağa başlayırsınız. Onun dəlilərə məxsus qızğın nitqini kağızda əks etdirmək çətin işdir. O, adamların alçaqlığından, haqqı tapdalayan zülmdən, bir zaman yer üzündə bərpa olacaq gözəl həyatdan, hər dəqiqə ona zalımların kütlüyünü və amansızlığını andıran pəncərə barmaqlıqlarından danışırdı. Beləliklə, köhnə, lakin hələ oxunub qurtarmamış mahnılardan qarışıq, pozuq bir popurri əmələ gəlirdi.

II

On iki-on beş il bundan əvvəl şəhərin baş küçəsində tikilmiş öz evində Qromov adlı ağır-səngin və varlı bir məmur yaşayırdı. Onun Sergey və İvan adlı iki oğlu vardı. Sergey dördüncü kurs tələbəsi olduğu zaman vərəm xəstəliyinə tutulub ölmüşdü; bu ölüm Qromov ailəsində birdən-birə dolu kimi yağan bir sıra bədbəxtliklərin başlanğıcı oldu. Sergeyin dəfnindən bir həftə sonra qoca atası saxtakarlıq və israf üstündə məhkəməyə verildi və çox çəkmədən həbsxana xəstəxanasında yatalaqdan öldü. Ev və bütün əmlak müzaidə ilə satıldı və İvan Dmitriç ailəsi ilə bərabər evsiz qaldılar.

Qabaqlar, İvan Dmitriç atasının sağlığında Peterburq Universitetində oxuyarkən atasından ayda altmış-yetmiş manat xərclik alardı. İndi isə öz həyatını tamamilə dəyişməyə məcbur olmuşdu. Səhər tezdən gecə yarısınadək az bir muzdla dərs verməli, ona-buna cür-bəcür ərizə yazmalı olduğu üçün yenə ac-yalavac dolanırdı, çünki qazandığının hamısını anasına göndərirdi. Nəhayət, İvan Dmitriç belə ağır yaşayışa davam gətirmədi: ruhdan düşüb xəstələndi və universiteti atıb evə qayıtdı. Şəhərdə qəza məktəbinə müəllimliyə girdi, lakin yoldaşları ilə yola getmədiyindən və şagirdlərin xoşuna gəlmədiyindən, tez bir zamanda müəllimliyi buraxdı. Bir azdan sonra anası da öldü. İvan Dmitriç altı ayadək işsiz qalıb yavan çörək və su

ilə dolanmağa məcbur oldu, sonra məhkəmə pristavı vəzifəsinə girdi. Xəstəliyinə görə qulluqdan çıxarılanadək bu vəzifədə qaldı.

O heç vaxt, hətta tələbəlik illərində belə sağlam adama oxşamırdı. Həmişə rəngi sarı, bədəni arıq idi, tez-tez soyuqlayır, az yeyir, pis yatırdı. Bircə qədəh çaxırdan başı gicəllənir və özündən gedirdi. Adamlara böyük meyl göstərirdi, lakin xasiyyətinin tündlüyü və vasvasılığı üzündən, heç kəslə isinişə bilmirdi, bu səbəbə görə özünə dost qazanmamışdı. Şəhərlilərə həmişə həqarətlə baxardı, dediyinə görə, onların kobud nadanlığı və heyvani yaşayışları ona alçaq və mənfur görünürdü. Tenor səsi ilə ucadan və qızğın danışardı, səsində narazılıq və qəzəb, yaxud da vəcd və heyrət duyulurdu. Onunla nə barədə danışırsan-danış, tez söhbəti eyni şeyə çevirərdi: şəhər həyatı adamı darıxdırır, cəmiyyət ali məqsədlər ardınca getmir, sönük, mənasız bir həyat sürür, həyatı təcavüzlərlə, qaba əxlaqsızlıqla və ikiüzlülüklə boyayır, alçaq adamlar tox və üst-başlı olduqları halda, namuslu adamlar ac-yalavac dolanırlar; yeni məktəblər açmaq, düzgün bir istiqamət götürən yerli qəzet, teatr, qiraətxana və ziyalı qüvvələrin birliyi lazımdır, cəmiyyət öz vəziyyətini düşünüb dəhşətə gəlməlidir. İvan Dmitriçin insanlar haqqında mühakimələri çox kəskin və qəti idi; o bütün bəşəriyyəti namuslu və alçaq adamlara bölürdü; ondan ötrü orta bir pillə yox idi.

Qadın və məhəbbət haqqında həmişə ehtiras və vəcdlə danışardı, lakin buna baxmayaraq ömründə bir dəfə də olsun birinə vurulmamışdı.

Mühakimələrinin kəskinliyinə və özünün əsəbiliyinə baxmayaraq, şəhərdə onu sevir və öz aralarında onu mehribancasına Vanya adlandırırdılar. Onun fitri nəzakəti, xidmətkarlığı, rəğbətliliyi, əxlaq təmizliyi, köhnəlmiş sürtuku, xəstə görünüşü və ailə bədbəxtlikləri adamda gözəl, səmimi və kədərli bir hiss oyadırdı, bir də o, yaxşı təhsil almış və çox mütaliə etmişdi, şəhərlilərin rəyincə hər şeyi bilirdi və şəhərdə bir növ səyyar lüğət hesab olunurdu.

Mütaliəyə çox vaxt sərf edərdi. Bir də görürdün ki, klubda oturub əsəbiliklə saqqalını didişdirir, jurnal və kitabları vərəqləyir. Üzündəki ifadəsindən anlaşılırdı ki, o, bütün bunları sürətlə oxuyur və çeynəmədən udur. Mütaliə onun xəstə vərdişlərindən biri idi, çünki əlinə keçən hər şeyi, hətta keçənilki qəzet və təqvimləri də eyni acgözlüklə oxuyurdu. Evdə həmişə uzanıb mütaliə edərdi.

III

Bir dəfə payız səhəri, İvan Dmitriç paltosunun yaxalığını qaldırıb, palçığı şappıldada-şappıldada döngələrdən, həyətlərdən keçərək, icra vərəqəsi ilə pul almaq üçün bir meşşanın evinə gedirdi. Hər səhər olduğu kimi indi də ovqatı təlx idi. Döngələrdən birində dörd nəfərdən ibarət silahlı konvoyla dövrəyə alınmış iki nəfər ayağı qandallı dustağa rast gəldi. Qabaqlarda İvan Dmitriç dustaqlara tez-tez rast gələr və həmişə onların halına yanardı, indi isə bu təsadüf ona xüsusi, qəribə bir təsir bağışladı. Nədənsə, ona elə gəldi ki, birdən onu da bu dustaqlar kimi qandallayıb, palçıqlı küçə ilə qazamata apara bilərlər. Meşşanın yanından evə qayıdarkən, poçtun tinində tanış bir polis nəzarətçisinə rast gəldi, nəzarətçi İvan Dmitriçlə salamlaşdı və küçə ilə bir neçə addım onunla bərabər getdi, bu hal ona, nədənsə, şübhəli göründü. Evə gəldikdə bütün günü dustaqlar və silahlı soldatlar fikrindən çıxmadı; anlaşılmaz bir həyəcan kitab oxumasına və fikrini cəmləşdirməsinə mane olurdu. Axşam lampa yandırmadı, gecə isə gözünə yuxu getmədi, hey düşünürdü ki, onu da həmin dustaqlar kimi qandallayıb qazamata sala bilərlər. Özünü heç bir şeydə müqəssir hesab etmirdi və gələcəkdə də heç bir kəsi öldürməyəcəyinə, yanğın törətməyəcəyinə, oğurluq etməyəcəyinə əmin idi, lakin bilmədən, qeyri-ixtiyari cinayət etmək çətindirmi, böhtan qurbanı olmaq və nəhayət, məhkəmədə səhv etmək mümkün deyilmi? Qoy heç kəs deməsin ki, mən dilənçi olmayacağam, ya həbsxanaya düşməyəcəyəm, bunu əsrlər boyu əldə edilmiş xalq təcrübəsi göstərmişdir. İndi ki, mühakimə üsulunda məhkəmə səhvi mümkün olan şeydir və bunda təəccüb ediləcək bir şey yoxdur. Özgənin iztirabına rəsmi, işgüzar bir əlaqə bəsləyən hakim, polis nəfəri, həkim kimi adamlar, zaman keçdikcə gördüklərinə o qədər adət edirlər ki, bu, artıq adi bir vərdiş olur və onlar istər-istəməz öz müştərilərinə rəsmi əlaqə bəsləyirlər, həmin adamlar bu cəhətdən həyətarası qoyun və dana kəsən və tökdükləri qanı görməyən mujikdən heç də fərqlənmirlər. Şəxsiyyətə rəhmsiz, formal əlaqə bəsləyəndə isə günahsız adamı bütün əmlakından və hüququndan məhrum edərək, özünü katorqa cəzasına məhkum etmək üçün hakimə yalnız bircə şey lazımdır: vaxt. Bir para formal cəhətlərə riayət etmək üçün vaxt lazımdır ki, bunun üçün də hakimlərə maaş verib saxlayırlar, bundan sonra isə hər şey bitdi, getdi. Sonra gəl dəmir yoldan iki yüz verst uzaqda olan bu kiçik, palçıqlı şəhərdən ədalət və

kömək gözlə! Hər bir zorakılıq cəmiyyət tərəfindən əlverişli bir zərurət kimi qarşılandıqda və hər bir mərhəmət, şəfqət aktı, məsələn, bəraət hökmü cəmiyyətdə bir sıra narazılıq və intiqam hisslərinə səbəb olduqda, ədalət haqqında düşünmək gülünc olmazdımı?

Səhər İvan Dmitriç yuxudan dəhşət içində ayıldı, alnını soyuq tər basmışdı, artıq hər dəqiqə həbs ediləcəyinə əmin olduğu halda, yerindən qalxdı. Dünənki ağır fikirlər indiyədək onu tərk etmirdisə, deməli, bunlarda azacıq da olsa həqiqət vardır, – deyə düşünürdü. Bu fikirlər adamın beyninə səbəbsiz girməzdi ki!

Bir qaradovoy tələsmədən pəncərənin qabağından keçdi: bu əbəs deyildi. Budur, iki nəfər adam da səssiz-səmirsiz evin yanında durdu. Bunlar niyə danışmırlar?

İvan Dmitriçdən ötrü əzablı gündüzlər və gecələr başlandı. Pəncərənin qabağından keçən və həyətə girən adamların hamısı ona casus və polis xəfiyyəsi kimi görünürdü. Günorta çağı adətən ispravnik öz qoşaatlı faytonunda küçədən keçirdi; o, şəhəryanı malikanəsindən polis idarəsinə gedirdi, lakin İvan Dmitriçə hər dəfə elə gəlirdi ki, o çox yeyin gedir və üzündə də xüsusi bir ifadə var: yəqin şəhərdə mühüm bir caninin zühur etdiyini bildirməyə tələsir.

İvan Dmitriç hər dəfə qapının zəngi çalınanda və ya darvaza döyüləndə diksinir və sahibəsinin yanında təzə bir adam görəndə qorxudan rəngi qaçırdı, polis nəfərinə və jandarmlara rast gələndə gülümsəyir və laqeyd olduğunu göstərmək üçün fit çalırdı. O hər dəqiqə həbs ediləcəyini gözünün altına aldığı üçün gecələr yatmırdı, lakin ev sahibəsinə özünü yatmış göstərmək üçün ucadan xoruldayırdı və köksünü ötürürdü, axı yatmamışsa, demək vicdan əzabı çəkir, bu isə şübhə oyada bilər! Faktlar və sağlam məntiq onu inandırırdı ki, bütün bu qorxu sarsaqlıq və dəlilikdir, həbs olunmaqda və qazamata düşməkdə isə dərindən baxsan, mahiyyət etibarı ilə, heç bir qorxu yoxdur, təki insanın vicdanı təmiz olsun; lakin o nə qədər ağılla və məntiqlə mühakimə edirdisə, qəlbindəki təlaş daha şiddətli və daha iztirablı olurdu. Bu hal, insan ayağı dəyməmiş meşədə guşənişin bir adamın ağacları qıraraq özünə məskən düzəltmək istədiyinə oxşayır, o, baltasını nə qədər işlədirmişsə, ağaclar o qədər sürətlə göyərib ətrafı bürüyürmüş. İvan Dmitriç, nəhayət bütün bu təşəbbüslərinin əbəs olduğunu görüb, mühakimə etməkdən əl çəkdi və bütünlüklə ümidsizliyə qapıldı, daimi bir qorxu içində yaşamağa başladı.

O, tənhalıq axtararaq adamlardan qaçmağa başladı. Əvvəllər qulluq etməkdən zəhləsi getdiyi halda indi qulluq ondan ötrü lap dözülməz olmuşdu. O qorxurdu ki, birdən onu aldadarlar, xəbəri olmadan cibinə rüşvət qoyarlar, sonra da üstünü açarlar və ya özü bilmədən rəsmi idarə kağızlarında saxtakarlığa bərabər olan bir səhv edər, ya da özgə pulunu itirər. Qəribə burasıdır ki, onun fikri heç bir zaman indiki kimi elastik və yaradıcı olmamışdı, indi o azadlığının və namusunun ciddi təhlükə altında olduğunu özünə təlqin etmək üçün hər gün min cür müxtəlif səbəblər uydurub düzəldirdi. Lakin burası var ki, xarici aləmə, xüsusən kitablara marağı xeyli azalmış, hafizəsi zəifləmişdi.

Yazda qar əriyəndən sonra dərədəki qəbiristanın yanında iki yarıçürümüş meyit tapmışdılar, bunların biri qoca arvad, o biri oğlan uşağı idi, meyitlərdə zorla öldürüldüklərini bildirən əlamətlər vardı. Şəhərdə hey bu meyitlərdən və bunları öldürənlərdən danışırdılar. İvan Dmitriç, ondan şübhələnməsinlər deyə, küçədə gülümsəyə-gülümsəyə gəzərdi, tanışlarına rast gələndə isə bənizi ağarır rəng verib rəng alır və inandırmağa başlayırdı ki, dünyada zəif və məzlum adamları öldürməkdən daha alçaq bir cinayət ola bilməz. Lakin bu yalan çox çəkmədən onu yordu və bir az fikirləşib bu qərara gəldi ki, onun vəziyyətində olan bir adam üçün ən yaxşısı ev sahibəsinin ərzaq anbarında gizlənməkdir. Anbarda bir gün, bir gecə və daha bir gün qaldı, bərk dondu və havanın qaralmasını gözləyib, oğru kimi anbardan yavaşca çıxıb öz otağına getdi. Səhər açılana kimi ətrafdakı səslərə diqqətlə qulaq asaraq, qımıldanmadan otağın ortasında dayandı. Səhər tezdən ev sahibəsinin yanına iki nəfər sobaqayıran gəldi, İvan Dmitriç bunların mətbəxdə soba qayırmaq üçün gəldiklərini bilirdi, lakin qorxunun gücündən onları sobaqayıran paltarı geymiş polis nəfərləri hesab etdi. Yavaşca otağından sivişib, qorxu içərisində, başı açıq və sürtuksuz küçə ilə qaçmağa başladı. İtlər onun dalınca düşüb hürüşürdü, arxasınca bir mujik bağırırdı, hava qulaqlarında vıyıldayırdı. İvan Dmitriçə elə gəlirdi ki, guya bu saat dünyanın bütün zor və zülmü bir yerə toplaşıb onun dalınca qaçır, onu qovur.

İvan Dmitriçi tutub evə gətirdilər və ev sahibəsini həkim dalınca göndərdilər. Haqqında irəlidə bəhs edəcəyimiz həkim Andrey Yefimıç, xəstənin başına soyuq kompres qoyulmasını tapşırdı, dəfnəgilənar damcısı yazdı, qəmli-qəmli başını yırğaladı və gedərkən bir daha gəlməyəcəyini ev sahibəsinə bildirdi, çünki adamların dəli

olmasına mane olmaq lazım deyildir. Evdə yaşamağa və müalicəyə vəsait olmadığından, İvan Dmitriçi tezliklə xəstəxanaya göndərdilər və orada onu zöhrəvi xəstəliklər palatasına yerləşdirdilər. O, gecələr yatmayıb şıltaqlıq edir və xəstələrin rahatlığını pozurdu; bir azdan sonra Andrey Yefimıçın əmrinə görə onu 6 №-li palataya köçürtdülər.

Bir ildən sonra şəhərdə artıq İvan Dmitriçi yaddan çıxartdılar, ev sahibəsi tərəfindən talvar altındakı xizəyə atılmış kitablarını da xırda uşaqlar daşıyıb apardılar.

IV

İvan Dmitriçin sol tərəfindəki qonşusu qabaqda dediyim kimi, cuhud Moyseyko idi, sağ tərəfindəki isə – piy bağlamış, yupyumru, küt və büsbütün ləkəsiz çöhrəli bir mujik idi. Bu – düşünmək və hiss etmək qabiliyyətini çoxdan itirmiş, hərəkətsiz, qarınqulu və murdar heyvan idi. O, həmişə ətrafa tünd boğucu bir qoxu yayırdı.

Onun yan-yörəsini sil-süpür edən Nikita, yumruqlarına rəhmi gəlmədən, var gücü ilə onu döyürdü, burada dəhşətli şey onun döyülməsi deyil, buna adət etmək olar, dəhşətli odur ki, bu kütləşmiş, duyğusunu itirmiş heyvan, döyülməsinə nə bir səslə, nə bir hərəkətlə, nə də gözlərinin ifadəsilə cavab verməyərək, yalnız ağır çəllək kimi yavaşca yırğalanırdı.

6 №-li palatanın beşinci və sonuncu sakini vaxtilə poçtda çeşidçi olan xoş, lakin bir az hiyləgər sifətli, alçaq boylu, sarışın bir meşşandı. Aydın və şən baxışlı, ağıllı və sakit gözlərindən ağlı başında olduğu və çox mühüm, xoş bir sirr gizlətdiyi anlaşılırdı. Yatağının və döşəyinin altında heç kəsə göstərmədiyi bir şeyi vardı, lakin bu şeyi heç kəsə göstərməməsi – əlindən alarlar və ya oğurlarlar, deyə qorxduğundan deyil, bəlkə utandığındandı. Bəzən, görürsən, pəncərəyə yanaşıb arxasını yoldaşlarına çevirir, döşünə nə isə taxır və sonra başını əyərək baxırdı, bu əsnada ona yanaşsaydın, pərt olar və döşündəki şeyi dartıb gizlədərdi. Lakin onun sirrini tapmaq çətin deyildi. O, tez-tez İvan Dmitriçə deyirdi:

– Məni təbrik edin, ikinci dərəcə ulduzlu Stanislav nişanı ilə təltif etmək istəyirlər, ikinci dərəcə Stanislav nişanı yalnız xaricilərə verirlər, lakin məndən ötrü nədənsə istisna etmək istəyirlər. – O gülümsəyir və çiyinlərini heyrətlə dartırdı. – Sözün düzü, mən heç bunu gözləməzdim!

İvan Dmitriç qəmli-qəmli dedi:

– Mən bundan heç nə anlamıram.

Keçmiş çeşidçi gözlərini hiyləgərcəsinə qıyaraq:

– Lakin xəbəriniz varmı, mən gec-tez nəyə nail olmaq istəyirəm? – deyə sözünə davam etdi. – Mütləq İsveç "Qütb ulduzu" əldə edəcəyəm. Bu nişanı almaq üçün əlləşməyə dəyər. Ağ xaç və qara lent. Gözəl şeydir.

Yəqin ki, heç bir yerdə həyat fligeldəki kimi yeknəsəq deyildi. Səhər xəstələr, iflic və yorğun mujikdən başqa, dəhlizdə iri çəlləkdə əl-üzlərini yuyub və xalatlarının ətəyi ilə qurulanırdılar: sonra Nikitanın baş korpusdan gətirdiyi çayı qalay krujkalarda içirdilər. Hər xəstəyə bir krujka çay düşürdü. Günorta turş kələmdən bişirilmiş borş və daşma ilə nahar edir, axşam isə nahardan qalmış daşmanı yeyirdilər. Boş vaxtlarda yatır, pəncərədən baxır və otağı o küncdən-bu küncə gəzirdilər. Bu rejim hər gün təkrar olunurdu. Hətta keçmiş çeşidçi də həmişə eyni nişanlardan söhbət salırdı.

6 №-li palatada təzə adamlara çox gec-gec rast gəlmək olurdu. Başına təzəcə hava gələn adamları həkim çoxdan bəri qəbul etmirdi, dəlixanaları ziyarət edən həvəskarlar isə bu dünyada çox deyil. Dəllək Semyon Lazarıç təqribən hər iki ayda bir dəfə fligelə gəlirdi. Onun dəlilərin başını necə qırxmasından və Nikitanın bu işdə ona necə kömək etməsindən, habelə gülümsəyən kefli dəllək gələn kimi xəstələr arasında necə şuluqluq düşməsindən burada danışmayacağam.

Fligelə dəlləkdən başqa heç kəs gəlməzdi. Xəstələr hər gün yalnız Nikitanı görməyə məhkum idilər.

Lakin bu yaxınlarda xəstəxana korpusuna qəribə bir şayiə yayıldı.

Şayiə buraxdılar ki, guya 6 №-li palatanı həkim ziyarət etməyə başlamışdır.

V

Qəribə bir şayiə!

Həkim Andrey Yefimıç Ragin özünə görə qəribə bir adamdı. Deyirdilər ki, o, gəncliyində çox dindar imiş və özünü ruhani vəzifəsinə hazırlayırmış. 1863-cü ildə gimnaziyanı bitirdikdən sonra ruhani akademiyaya girmək fikrinə düşür, lakin təbabət doktoru və

cərrah olan atası onu özünə oğul hesab etməyəcəyini bildirir. Bu əhvalatın nə qədər doğru olub-olmadığını bilmirəm, ancaq Andrey Yefimıç təbabət elminə və ümumiyyətlə, xüsusi elmlərə rəğbət bəsləmədiyini dəfələrlə özü etiraf etmişdi.

Hər halda o, tibb fakültəsini bitirdikdən sonra keşişliyə getmədi. O, dindarlıq əlamətləri göstərmirdi və həkimliyə təzə başlayan zamanlarda da, indiki kimi, ruhaniyə çox az oxşayırdı.

Onun mujiklərə məxsus ağır və qaba görkəmi vardı; sifətindən, saqqalından, yatıq saçlarından və yöndəmsiz möhkəm gövdəsindən böyük yol ağzında olan kök, həyasız və kobud meyxanaçıya oxşayırdı. Üzü sərt, göy damarlarla örtülü, gözləri xırda, burnu qırmızı idi. Boyu uca, kürəyi enli, qolları və qıçları nataraz idi; zorba yumruğu ilə bir dəfə vursaydı adamın canı çıxardı. Amma yerişi sakit və ehtiyatlı idi; dar dəhlizdə adama rast gəldikdə, həmişə yol vermək üçün kənara çəkilir və gözlədiyin kimi yoğun səslə deyil, yumşaq tenor səsi ilə "bağışlayın!" deyirdi. Boynunda balaca bir şiş vardı, bu şiş nişasta yaxalıq taxmasına mane olurdu, ona görə həmişə yumşaq kətandan və ya çitdən köynək geyərdi. Ümumiyyətlə o, həkim kimi geyinməzdi. Bir paltarı azından on il geyərdi, cuhud dükanından aldığı təzə paltarı da əynində daim köhnə, geyilmiş və əzik görünürdü, eyni sürtukda həm xəstələri qəbul edir, həm nahar eləyir, həm də qonaq gedirdi; lakin bütün bunlar xəstəlikdən deyil, öz üst-başına əsla fikir vermədiyindən irəli gəlirdi.

Andrey Yefimıç vəzifəsini qəbul etmək üçün şəhərə gəldikdə, "xeyirxah idarə" müdhiş bir halda idi. Palatalarda, dəhlizlərdə və xəstəxana həyətində üfunətdən nəfəs almaq mümkün deyildi. Xəstəxana mujikləri, xəstələrə baxanda və onların uşaqları xəstələrlə bərabər palatalarda yatırdılar. Tarakan, taxtabiti və siçan əlindən dad çəkirdilər. Cərrahiyyə şöbəsindən qızıl yel xəstəliyi əskik olmurdu. Bütün xəstəxanada iki dənə cərrah bıçağı vardı, termometr isə kökündən yox idi, vannalara kartof tökmüşdülər. Nəzarətçi, camaşırçı və feldşer xəstələri soyurdular. Andrey Yefimıçdan qabaqkı həkim barəsində danışırdılar ki, guya xəstəxana spirtini əlaltından satırmış və xəstəyə baxanlardan, xəstə qadınlardan özünə tam bir hərəmxana düzəldibmiş. Şəhərdə bu biabırçılıqları yaxşı bilirdilər və hətta mübaliğə ilə də danışırdılar, lakin bu, camaatı heç də narahat etmirdi, bir para adamlar bu biabırçılıqları safa çıxarırdılar,

guya xəstəxanaya yalnız meşşanlar və mujiklər gedir ki, onlar da narazı ola bilməzlər, çünki xəstəxanada onlar üçün öz evlərindəkindən yaxşı keçir, daha onlara kəklik yedirtməyəcəklər ki! Bəziləri də xəstəxana sahiblərinə haqq verməyə çalışaraq deyərdilər ki, zemstvonun yardımı olmadan yaxşı xəstəxana saxlamaq çətindir; Allaha şükür ki, heç olmasa xarab xəstəxana var. Cavan zemstvo isə nə şəhərlər, nə də şəhər ətrafında xəstəxana tikmək istəmirdi, şəhərin artıq öz xəstəxanası var, deyirdi.

Andrey Yefimıç xəstəxananı gözdən keçirərək, bu qərara gəldi ki, bu əxlaqsız bir idarədir və əhalinin sağlamlığı işinə son dərəcə zərərdir. Onun zənnincə, xəstələri bayıra atıb, xəstəxananı bağlamaq ən ağıllı iş idi. Lakin sonra Andrey Yefimıç düşündü ki, təkcə onun iradəsi kifayət deyil, bundan fayda çıxmaz, fiziki və əxlaqi murdarlıqları bir yerdən qovduqda onlar başqa yerə köçür; murdarlığın öz-özünə yox olub getməsini gözləmək lazımdır. Bir də əgər adamlar özlərinə xəstəxana açmışlarsa və buna dözürlərsə, demək, bu onlara lazımdır; mövhumat və bütün bu məişət pozğunluqları, murdarlıqları lazımdır, çünki bunlar, zaman keçdikcə, peyinin qaratorpağa çevrildiyi kimi, faydalı bir şeyə çevrilirlər, dünyada heç bir yaxşı şey tapılmaz ki, onun ilk mənbəyində murdarlıq olmasın.

Andrey Yefimıç vəzifəsini qəbul etdikdən sonra bu biabırçılıqlara laqeyd baxdı. Yalnız xəstəxana mujiklərindən və xəstə baxıcılarından xahiş etdi ki, palatalarda yatmasınlar və xəstəxanaya tibb alətləri ilə dolu iki şkaf qoydu; nəzarətçi, camaşırçı, feldşer və qızıl yel tutmuş xəstələr isə öz yerlərində qaldılar.

Andrey Yefimıç ağıl və namusu son dərəcə sevirdi, lakin öz ətrafında ağıllı və namuslu bir həyat qurmağa kirdarı yox idi və öz hüququna inanmırdı. Əmr etməyi, qadağan etməyi və israf etməyi qətiyyən bacarmırdı. Adama elə gəlirdi ki, o, səsini heç vaxt ucaltmamağa və felin əmr formasını işlətməməyə söz vermişdir. "Ver" və ya "gətir" sözlərini deməyə üzü gəlmirdi, yemək istəyəndə qətiyyətsizliklə öskürərək, aşpaz qadına deyərdi: "Deyəsən, acmışam..." və ya "Çay olsaydı, içərdim". Nəzarətçiyə oğurluqdan əl çəkməsini söyləməyi və ya onu qulluqdan çıxartmağı, ya da bu lazımsız, tüfeyli vəzifəsini büsbütün ləğv etməyi heç cür bacarmırdı. Andrey Yefimıçı aldatdıqda, ya ona yaltaqlıq etdikdə, yaxud da açıq-aşkar saxta bir pul sənədini ona imzalatmağa verdikdə, pul

kimi qızarır, özünü təqsirlı bir adam kimi hiss edirdi, amma bununla belə yenə də sənədi imzalayırdı; xəstələr aclıqdan və ya kobud xəstə baxıcılarından ona şikayət etdikdə, o utanır və taqsırlı bir adam kimi mızıldayırdı:

– Yaxşı, yaxşı, bu işə baxaram... Yəqin burada bir anlaşılmazlıq var...

Andrey Yefimıç ilk zamanlar çox səylə işləyirdi. Hər gün səhərdən nahar vaxtınadək xəstələri qəbul edir, operasiya edir və hətta mamalıq təcrübəsi ilə də məşğul olurdu. Qadınlar onun barəsində danışırdılar ki, guya çox diqqətlidir və xəstəlikləri, xüsusən uşaq və qadın xəstəliklərini çox gözəl bilir. Lakin zaman keçdikcə iş öz yeknəsəqliyi və açıq-aydın görünən faydasızlığı ilə onu darıxdırmağa başladı. Bu gün otuz xəstə qəbul etdiyin halda, sabah görürsən otuz beş nəfər oldu, birisigün isə bunların sayı qırxa çatırdı, beləliklə gündən-günə, ildən-ilə xəstələrin sayı şiddətlə artır, ölüm hadisələri də şəhərdə heç azalmırdı. Xəstəxanaya gələn qırx xəstəyə səhərdən naharadək ciddi yardım göstərməyə imkan yoxdur, demək, gündə qırx xəstəni aldatmalı olur. Hesabat ili ərzində xəstəxanaya gələn min iki yüz xəstə qəbul edilmişdi, demək, sadəcə olaraq min iki yüz adam aldadılmışdır. Ciddi xəstələri də palatalara qoymaq və onlarla elmi qaydada məşğul olmaq mümkün deyil, çünki qayda varsa da, elm yoxdur. Fəlsəfəni buraxıb, başqa həkimlər kimi qaydalara xırdaçılıqla riayət etdikdə isə, bundan ötrü çirk deyil, hər şeydən əvvəl təmizlik və ventilyasiya, iylənmiş turş kələmdən bişirilən borş deyil, keyfiyyətli xörək lazımdır və oğrular deyil, yaxşı köməkçilər lazımdır.

Bir də ölüm hər kəsin normal və qanuni aqibətidirsə, adamların ölümünə mane olmağın nə mənası? Bir alverçinin və ya bir məmurun beş-on il artıq yaşamasından nə çıxar? Təbabət elminin məqsədini dərmanların insan əzablarını azaltmasında gördükdə isə, ortaya belə bir sual çıxır ki, bu əzabı nə üçün azaltmalı? Əvvələn, deyirlər ki, əzab insanı kamala çatdırır, ikincisi, bəşəriyyət, doğrudan da, öz iztirablarını cürbəcür həb və damcı dərmanları ilə yüngülləşdirməyi öyrənsə, dini və fəlsəfəni bilmərrə atmış olar. Halbuki insanlar bu vaxta qədər din və fəlsəfə vasitəsilə nəinki özlərini hər cür fəlakətdən qorumuş, hətta onlarda özlərinə xoşbəxtlik də tapmışlar. Puşkin ölərkən müdhiş əzablar çəkmiş, zavallı Heyne bir neçə il iflic

olub yorğan-döşəyə düşmüşdür, nə üçün həyatları mənasız keçən və iztirab olmasaydı, amyöb kimi büsbütün boş bir ömür sürən Andrey Yefimıç və ya Matryona Savvişna kimiləri xəstələnməsin?

Andrey Yefimıç bu cür mühakimələrə qərq olaraq ruhdan düşdü və xəstəxanaya gəlməyə başladı.

VI

Onun həyatı belə keçirdi. Adətən səhər saat səkkizə yaxın yuxudan durub geyinir və çay içirdi. Sonra kabinetində oturub mütaliə ilə məşğul olur və ya xəstəxanaya gedirdi. Xəstəxanada qaranlıq, dar dəhlizdə ambulatoriya xəstələri oturub həkimin qəbulunu gözləyirdilər. Bunların yanı ilə çəkmələrini kərpic döşəməyə döyəcləyən mujiklər və xəstə baxıcıları, xalat geymiş arıq xəstələr keçir, çirkab qabları və s. aparırlar, uşaqlar ağlayır, dəhlizdə aralıq küləyi əsir. Andrey Yefimıç bilirdi ki, titrətməli, vərəmli və ümumiyyətlə həssas xəstələrə belə şərait əziyyət verir, lakin nə etməli? Qəbul otağında feldşer Sergey Sergeiç ona rast gəldi, bu, alçaq boylu, dolu bir adam idi, kök, qırxıq üzü təmizcə yuyulmuşdu, təzə gen-bol kostyumundan feldşerə deyil, əyana oxşayırdı. Şəhərdə geniş praktika ilə məşğul idi, ağ qalstuk taxır və özünü praktika ilə heç məşğul olmayan həkimlərdən məlumatlı hesab edirdi. Qəbul otağının küncündə ağır qəndilli böyük bir ikona vardı; divarlardan arxiereylərin şəkli, Svyatoqorsk monastırının görünüşü və peyğəmbər çiçəyindən əklillər asılmışdı. Sergey Sergeiç dindar adamdı və təmtərağı sevirdi. İkona onun xərci ilə qoyulmuşdu; bazar günləri qəbul otağında xəstələrdən biri, onun əmrinə görə, minacat oxuyardı, minacatdan sonra isə Sergey Sergeiç buxurdanla bütün palataları gəzir və onlara kündür tüstüsü verərdi.

Xəstə çox, vaxt isə az idi, ona görə iş yalnız sual-cavabla və xəstələrə ötəri bir sürtmə yağı və ya işlətmə dərmanı verməklə bitirdi. Andrey Yefimıç yumruğunu yanağına dayamış halda oturub, xəstələrə dalğın-dalğın və qeyri-ixtiyari suallar verirdi. Sergey Sergeiç də oturub əllərini ovuşdurur və hərdənbir işə qarışırdı:

– Rəhmli Allaha yaxşı ibadət etmədiyimiz üzündən xəstələnir və min cür məşəqqətlərə düçar oluruq, – deyirdi.

Andrey Yefimıç xəstələri qəbul edərkən heç bir operasiya etmirdi; operasiyaları çoxdan yadırğamışdı, qan görəndə pis hala

düşür, həyəcana gəlirdi. Boğazına baxmaq üçün uşağın ağzını açmaq lazım gələndə, uşaq isə ağlayaraq xırda əlləri ilə öz-özünü qoruyanda, uşağın çığırtısından başı gicəllənir, gözləri yaşarırdı. O, dərman yazmağa tələsir və əllərini havada yellədərək, qadına işarə edirdi ki, uşağı tez aparsın.

Qəbul zamanı xəstələrin qorxaqlığı və kütlüyü, qəşəng Sergey Sergeiçin yaxınlığı, divarlardakı şəkillər və iyirmi ildən artıq arası kəsilmədən verdiyi eyni suallar tezliklə onu darıxdırırdı. Buna görə beş-altı xəstə qəbul etdikdən sonra çıxıb gedirdi. Qalan xəstələri feldşer özü qəbul edirdi.

Andrey Yefimıç çoxdan bəri xüsusi praktika ilə məşğul olmadığını və buna görə ona heç kəsin mane olmayacağını düşünərək xoşhallıqla evə gəlir, tez kabinetində stol başında oturur və mütaliəyə başlayırdı. O, çox oxuyur və bundan ayrıca bir zövq alırdı. Maaşının yarısını kitab almağa sərf edirdi, altı otaqdan ibarət olan mənzilinin üç otağı kitab və köhnə jurnallarla dolu idi. Tarixə və fəlsəfəyə dair əsərləri hamısından çox sevirdi; təbabət elmindən isə yalnız "Vraç" jurnalını alırdı, bu jurnalı da həmişə axırından oxumağa başlardı. Mütaliəsi hər dəfə bir neçə saat çəkdiyi halda heç də onu yormurdu. Kitabları İvan Dmitriç kimi tez-tez və dəlicəsinə oxumayıb, ağır-ağır və mənasına fikir verə-verə oxuyardı, çox zaman bəyəndiyi və ya anlaşılmayan yerlərdə dayanıb fikirləşərdi. Kitabın yanında həmişə kiçik araq qrafini və boşqabsız-zadsız mahudun üstündə duzlu xiyar, ya da alma olardı. Hər yarım saatdan bir gözlərini kitabdan ayırmayaraq, bir qədəh araq töküb içirdi, sonra yenə baxmadan əli ilə xiyarı tapar və dişlərdi.

Saat üçdə üsulluca mətbəx qapısına yanaşıb öskürər və deyərdi:

– Daryuşka, xörək yesəydim pis olmazdı...

Pis və xoşa gəlməyən nahardan sonra Andrey Yefimıç əllərini qoynuna qoyub otaqları gəzir və düşünürdü. Saat dördü, dalınca da beşi vurur, o isə hey gəzib düşünməsində davam edirdi. Hərdənbir mətbəx qapısının cırıltısı eşidilir və Daryuşkanın qırmızı, yuxulu üzü görünürdü.

Daryuşka:

– Andrey Yefimıç, pivə içmək vaxtınız deyilmi? – deyə qayğılı bir tərzdə xatırladırdı.

Andrey Yefimıç:

– Yox, hələ vaxt deyil, – deyə cavab verirdi. – Mən gözlərəm... Bir az gözlərəm.

Axşamüstü adətən poçt müdiri Mixail Averyanıç onun yanına gəlirdi, Andrey Yefimıç yalnız bu adama ünsiyyət bağlayır və məclisinə dözürdü. Mixail Averyanıç vaxtilə xeyli dövlətli bir mülkədar olub, kavaleriyada qulluq etmişdi, lakin sonradan müflis olub, qoca vaxtında poçt idarəsinə qulluğa girmişdi. Bu, sağlam, gümrah görünüşlü, qəşəng ağ bakenli, nəzakətli, xoş və uca səsli bir adamdı. Mərhəmətli və həssas idisə də, xeyli ötkəmdi. Poçt idarəsinə gələnlərdən biri etiraz edəndə, razı olmayanda və ya mühakimə yeritməyə başlayanda, Mixail Averyanıç hirsindən pul kimi qızarır, bütün vücudu ilə titrəyir və gurultulu səslə: "Sus!" deyə bağırırdı, buna görə də poçt artıq çoxdan bəri qorxulu bir idarə kimi məşhur olmuşdu. Mixail Averyanıç Andrey Yefimıçı, mərifətli və alicənab olduğuna görə sevir və ona hörmət edirdi, başqa adamlara isə öz tabeliyindəkilər baxan kimi lovğalıqla baxırdı.

O, Andrey Yefimıçın kabinetinə girərkən:

– Bu da mən! – deyirdi. – Xoş gördük, əzizim! Deyəsən, zəhlənizi tökmüşəm, hə?

Doktor:

– Əksinə, çox şadam, – deyə cavab verirdi. – Sizin gəlişiniz həmişə mənə xoşdur.

Dostlar kabinetdə divan üstə oturub, bir qədər dinməz-söyləməz papiros çəkirdilər.

Andrey Yefimıç:

– Daryuşka, pivə olsa, pis olmaz ha! – deyirdi.

Birinci butulkanı da dinməz-söyləməz içirdilər, doktor düşüncəyə dalır, Mixail Averyanıç isə çox maraqlı bir şey nağıl edəcək adam kimi nəşələnir və dirçəlirdi. Söhbəti həmişə doktor başlayırdı.

O, başını yırğalayaraq müsahibinin gözlərinə baxmadan yavaş-yavaş danışırdı (o, heç vaxt adamın gözlərinə baxmazdı).

– Çox təəssüf ki, Mixail Averyanıç, şəhərimizdə bir nəfər də olsun ağıllı və maraqlı söhbət eləyən adam yoxdur. Bu bizdən ötrü böyük bir məhrumiyyətdir. Hətta ziyalılarımız da bayağılığa üstün gələ bilmirlər, inandırıram sizi ki, onların inkişaf dərəcəsi aşağı silkdən heç də yüksək deyil.

– Lap doğru deyirsiniz. Sözlərinizə tamamilə şərikəm.

Doktor sakitcə və kəlmə-kəlmə sözünə davam etdi:

– Siz özünüz də gözəlcə bilirsiniz ki, bu dünyada insan zəkasının ülvi mənəvi təzahürlərindən savayı, hər şey əhəmiyyətsiz və maraqsızdır. Ağıl heyvanla insan arasına möhkəm bir sədd çəkir, insanın ilahi bir vücud olmasına dəlalət edir və bir dərəcəyə qədər hətta onun üçün ölməzliyi, yəni olmayan bir şeyi əvəz edir. Buradan belə bir nəticə çıxır ki, insanın ağlı yeganə mümkün olan bir zövq mənbəyidir. Biz isə yan-yörəmizdə ağlı nə görürük, nə də eşidirik, demək, zövqdən məhrumuq. Əlbəttə, bizim kitablarımız vardır, lakin bu heç də canlı müsahibəni və ünsiyyəti əvəz etmir. Əgər belə bir müvəffəqiyyətsiz müqayisəyə icazə versəniz, cəsarətlə deyərəm ki, kitablar notdur, müsahibə isə mahnıdır.

– Lap doğru deyirsiniz.

Aralığa sükut çökdü. Daryuşka üzündə küt bir qüssə əlaməti olaraq mətbəxdən çıxdı və yumruğunu yanağına dayayaraq, söhbəti dinləmək üçün qapı ağzında durdu.

Mixail Averyanıç köksünü ötürərək dedi:

– Eh, siz də indiki adamlardan ağıl umursunuz!

Sonra o, keçmişdəki həyatdan danışmağa başladı:

– O zamanlar adamın günü xoş və maraqlı keçirdi. Rus ziyalıları nə qədər ağıllı, nə qədər zəkalı idilər, namus və dostluq məfhumlarını onlar nə qədər əziz tuturdular! O vaxtlar vekselsiz nə qədər istəsən borc pul ala bilərdin, ehtiyacı olan bir yoldaşına yardım əlini uzatmamaq əskiklik hesab olunurdu. Necə hərbi səfərlər, sərgüzəştlər, vuruşmalar, necə yoldaşlar, necə qadınlar vardı! Hələ Qafqaz – nə gözəl bir diyar! Bir batalyon komandirinin arvadı zabit paltarı geyib axşamlar dağlara gəzməyə gedərdi, bu qəribə qadın özü ilə bələdçi də götürməzdi. Deyirdilər ki, aulda onun bir knyazla romantik əhvalatı varmış.

Daryuşka:

– Ah pərvərdigara... – deyə ah çəkdi.

– Hələ necə içirdilər! Necə yeyirdilər! Necə də diribaş liberallar vardı!

Andrey Yefimıç dinləyir, amma eşitmirdi; o nə isə düşünür və pivəni ağır-ağır qurtuldadırdı. O, Mixail Averyanıçın sözünü kəsərək, birdən-birə danışmağa başladı.

– Çox zaman mənim yuxuma ağıllı adamlar girir və onlarla söhbət eləyirəm. Mən atamın sayəsində gözəl təhsil almışam, lakin altmışıncı illərin ideyalarının təsiri altında atam məni həkimlik oxumağa məcbur etdi. Mənə elə gəlir ki, o zaman atama qulaq asmasaydım, indi zehni hərəkatın tam mərkəzində olardım. Ehtimal ki, bir fakültənin üzvü olardım. Əlbəttə, ağıl da daimi deyil, keçib gedən müvəqqəti bir şeydir, lakin mənim ağla nə üçün meyl göstərdiyimi siz artıq bilirsiniz. Həyat insana qüssə verən bir tələdir. Mütəfəkkir bir adam yaşa dolub kamala çatdıqda özünü ixtiyarsız olaraq çıxılmaz bir tələdə hiss edir. Doğrudan da, o öz iradəsinə zidd olaraq, hər hansı bir təsadüf nəticəsində heçlikdən həyata keçirilmişdir... Nə üçün? Mütəfəkkir adam öz həyatının mənasını və məqsədini bilmək istəyəndə, ona demirlər, ya da sarsaq şeylər söyləyirlər, o, qapını döyür, amma açan olmur; ölüm də onun iradəsinə zidd olaraq onu yaxalayır. Həbsxanada ümumi bədbəxtliklə bir-birinə bağlı olan adamlar bir yerə toplanarkən özlərini yüngül hiss etdikləri kimi, həyatda da analizə və ümumiləşdirməyə nail olan adamlar bir yerə toplanıb, vaxtlarını məğrur və azad ideya mübadiləsi ilə keçirdikdə, tələdə olduğunu hiss etmirsən. Ağıl bu mənada əvəzedilməz bir zövqdür.

– Tamamilə doğrudur.

Andrey Yefimıç müsahibinin gözlərinə baxmadan sakitcə və ara verə-verə ağıllı adamlar və onların söhbəti haqqında danışırdı, Mixail Averyanıç isə onu diqqətlə dinləyir və "tamamilə doğrudur" deyə onunla razılaşırdı.

Poçt müdiri birdən:

– Siz ruhun ölməz olmasına inanırsınızmı? – deyə soruşdu.

– Xeyr, möhtərəm Mixail Averyanıç, inanmıram və inanmağa da əsasım yoxdur.

– Sözün düzü, mən də şübhələnirəm. Hərçənd məndə belə bir hiss vardır ki, guya heç ölməyəcəyəm. Bu yandan da öz-özümə deyirəm: ay qoca kaftar, vaxtındır, bu gün-sabah öləcəksən. Amma ürəyimdə bir səs mənə deyir: inanma, ölməyəcəksən!..

Mixail Averyanıç saat ona işləyəndə çıxıb getdi. Dəhlizdə kürkünü geyinərkən içini çəkərək dedi:

– Amma tale bizi nə hicra bir guşəyə atıb! Hər şeydən çox adam buna yanır ki, biz elə burada da öləcəyik. Eh!..

VII

Andrey Yefimıç dostunu yola salıb stol başına oturur və yenə kitab oxumağa başlayır. Axşamın, sonra gecənin sükutu heç bir səslə pozulmur, sanki vaxt dayanır və doktorla bərabər kitabın üzərində donurdu, adama elə gəlirdi ki, bu saat dünyada bu kitabdan və yaşıl şarlı lampadan başqa heç bir şey yoxdur. Doktorun mujiklərə məxsus kobud sifəti insan zəkasının hərəkəti qarşısında yavaş-yavaş riqqət və vəch təbəssümü ilə parlayırdı. "Ah, nə üçün insan ölməz deyil! – deyə o düşünürdü. – Əgər hər şey torpağa gömülməyə məhkum isə və nəhayət, Yer kürəsinin qabığı ilə bərabər soyuyacaqsa, sonra da milyonlarla il mənasız və məqsədsiz bir halda günəşin ətrafına dolanacaqsa – əcəba, beyin mərkəzləri və qırışıqları, görmə, danışma qabiliyyəti, xüsusi hisslər, dühа nə üçünmüş? Soyumaq və sonradan günəş ətrafında mənasızcasına hərlənmək üçün, yoxluqdan yüksək və bəlkə də ilahi ağla malik insan yaratmaq, sonra da onu sanki lağa qoymaq üçün torpağa çevirmək nəyə lazımmış?"

Maddələr mübadiləsi! Lakin bu ölməzlik surroqatı ilə özünə təsəlli vermək nə böyük bir qorxaqlıqdır! Təbiətdə baş verən şüursuz proseslər insan səfehliyindən də alçaqdır, çünki səfehlikdə, necə olsa, şüur və iradə var, proseslərdə isə heç nə yoxdur. Yalnız ölüm qarşısında qorxaqlığı qürur və ləyaqətindən çox olan bir qorxaq özünə təsəlli verə bilər ki, bir zaman onun bədəni otda, daşda, qurbağada yaşayacaqdır... Öz ölməzliyini maddələr mübadiləsində görmək-qiymətli və əziz bir skripka sındıqdan sonra, onun qabının parlaq gələcəyi olduğunu qabaqcadan xəbər vermək kimi çox qəribə bir şeydir.

Saat zəng vuranda Andrey Yefimıç kresloya söykənib bir az düşünmək üçün gözlərini yumur, sonra kitabdan oxuduğu gözəl fikirlərin təsiri altında öz keçmişinə və hal-hazırına bir nəzər salırdı. Keçmiş iyrəncdir, bunu yadına salmasan yaxşıdır. Lakin hazırda da hər şey keçmişdəki kimidir. Andrey Yefimıç bilirdi ki, onun fikirləri, soyumuş yer kürəsi ilə birlikdə günün ətrafında hərlənməkdə ikən, həkimin mənzili ilə yanaşı olan böyük korpusda adamlar cürbəcür xəstəliklər və natəmizliklər içərisində əzab çəkirlər; bəlkə bu saat bu adamlardan biri həşəratla çarpışır, digəri qızıl yel xəstəliyinə tutulur və ya bərk sarınmış sarğının əziyyətindən

inləyir; bəlkə xəstələr xəstə baxıcıları ilə bir yerdə kart oynayır, yaxud da araq içirlər. Hesabat ili ərzində min iki yüz adam aldadılmışdır; xəstəxananın bütün işi, iyirmi il bundan qabaqkı kimi, oğurluq, qeybət, dava-dalaş, qohumbazlıq, kobud şarlatanlıq üzərində qurulmuşdur, ona görə xəstəxana yenə qabaqkı kimi əhalinin sağlamlığı üçün son dərəcə zərərli bir müəssisədir. O bilirdi ki, 6 №-li palatada Nikita xəstələri barmaqlıq arxasında kötəkləyir, Moyseyko da hər gün şəhəri dolaşıb sədəqə yığır.

Digər tərəfdən, ona gözəlcə məlum idi ki, son iyirmi beş il içərisində təbabət elmində ağlasığmaz bir dəyişiklik əmələ gəlmişdir. Universitetdə oxuyan zaman ona elə gəlirdi ki, təbabət elminin aqibəti də tezliklə yalançı kimyanın və metafizikanın aqibətinə dönəcəkdir; indi isə gecələr mütaliə edərkən təbabət elmi ona təsir edir, onda heyrət oyadır və hətta onu vəcdə gətirərdi. Doğrudan da, nə gözlənilməz inkişaf, nə böyük bir inqilab! Antiseptika sayəsində elə operasiyalar edilir ki, böyük alim Piroqov bunu hətta in sne[1] qeyri-mümkün hesab edirdi. Adi zemstvo həkimləri diz oynağının kəsilməsi əməliyyatına cəsarətlə girişirlər, mədə operasiyasının yalnız yüzdə biri ölümlə nəticələnir, daş bağlama xəstəliyi isə, o qədər bekara şey hesab olunur ki, hətta bu xüsusda heç yazmırlar. Sifilisi olan xəstə tamamilə sağalır. Hələ irsiyyət nəzəriyyəsi, hipnotizm, Pasterin və Koxun kəşfləri, statistika ilə gigiyena, hələ bizim rus zemstvo təbabəti! Psixiatriya indiki xəstəliklər təsnifatı ilə, xəstəliyi tanımaq və müalicə etmək metodları ilə bərabər qabaqkına nisbətən tam bir Elbrusdur. İndi ağlını itirmiş adamların başına soyuq su tökmür və əyinlərinə dəli köynəyi geyindirmirlər, başına hava gəlmiş adamları indi insan kimi saxlayır və qəzetlərdə yazıldığı kimi, hətta onlar üçün teatr tamaşaları və ballar da düzəldirlər. Andrey Yefimıç bilirdi ki, indiki baxışları və zövqləri nəzərə aldıqda, 6 №-li palata kimi bir biabırçılıq yalnız dəmir yolundan iki yüz verst uzaq olan bir yerdə mümkündür, bu, yalnız bələdiyyə rəisi və bütün qlasnıları yarımsavadlı meşşan olan şəhərdə ola bilər; çünki bu yarımsavadlı meşşanların nəzərində həkim elə bir kahindir ki, o, xəstənin boğazına qalay töksə belə, ona tənqidsiz-zadsız inanması lazımdır! Başqa yerdə olsaydı, camaat və qəzetlər bu balaca Bastiliyanı çoxdan darmadağın etmişdilər.

[1] Gələcəkdə (*lat.*)

Andrey Yefimıç gözlərini açıb öz-özündən soruşdu: "Yaxşı, bəs nə olsun? Bundan nə çıxsın? Antiseptika da var, Kox və Paster də var, amma mahiyyət etibarilə, işlər heç dəyişməmişdir. Xəstəlik və ölüm hadisələri eyni dərəcədədir. Dəlilər üçün ballar və tamaşalar düzəldirlər, amma onları azadlığa buraxmırlar. Deməк, bütün bunlar boş-boş şeylərdir, əbəs yerə əlləşib-vuruşmaqdır və gözəl Vyana klinikası ilə mənim xəstəxanamın arasında, mahiyyət etibarilə, heç bir fərq yoxdur".

Lakin kədər və paxıllığa oxşayan bir hiss onun laqeyd qalmasına mane olurdu. Bu yəqin yorğunluqdan idi. Ağırlaşmış başı kitabın üstünə düşür, yumşaq olsun deyə əllərini üzünün altına qoyub düşünürdü:

"Mən zərərli bir işə xidmət edirəm, aldatdığım adamlardan maaş alıram, mən namuslu adam deyiləm. Ancaq öz-özlüyümdə mən axı bir heçəm, yalnız zəruri ictimai bəlanın bir zərrəsiyəm: bütün qəza məmurları pisdirlər, ziyanlı adamdırlar və müftə maaş alırlar... Demək, öz namussuzluğuma müqəssir mən deyiləm, zəmanədir... İki yüz il bundan sonra dünyaya gəlsəydim, başqa adam olardım".

Saat üçü vuranda Andrey Yefimıç lampanı söndürüb yataq otağına getdi. Lakin o yatmaq istəmirdi.

VIII

İki il bundan əvvəl zemsto səxavətə gəlib, zemstvo xəstəxanası açılanadək şəhər xəstəxanasında işləyən tibbi heyətin gücləndirilməsi üçün ildə üç yüz manat buraxmağı qərara almışdı, qəza həkimi Yevgeni Fyodorıç Xobotov Andrey Yefimıça köməkçi sifəti ilə göndərilmişdi. Bu, hələ otuz yaşına dolmamış, qarayanız bir gənc idi, onun boyu uca, almacıq sümükləri enli, gözləri xırda idi; yəqin ki, ata-babası başqa millətdənmiş. Şəhərə qəpiksiz gəlmişdi, yanında balaca bir çamadan və gənc, lakin kifir bir qadın vardı, öz dediyinə görə, bu onun aşpazı idi. Qadının südəmər bir uşağı vardı. Yevgeni Fyodorıç günlüklü şapka və uzunboğaz çəkmə geyirdi, qışda isə yarımkürkdə gəzirdi. O, çox çəkmədən feldşer Sergey Sergeyeviçlə və xəzinədarla dostlaşdı, qalan məmurları isə nədənsə aristokrat adlandırır və onlardan çəkinirdi. Mənzilində vur-tut bir kitabı vardı. "Vyana klinikasının 1881-ci il üçün ən yeni reseptləri". O, xəstələrin yanına gələrkən həmişə bu kitabı özü ilə götürərdi. Axşamlar klubda bilyard oynardı, kart oyununu isə heç sevməzdi. Danışarkən: ganitel, sirkəli mantifoliya, indi basacaq gopa və sair bu kimi sözləri həvəslə işlədərdi.

Xəstəxanaya həftədə iki dəfə gələr, palataları gəzər və xəstələri qəbul edərdi. Antiseptikanın yoxluğu və hecəmət bankları onun xoşuna gəlməzdi, lakin Andrey Yefimıçı haramzadə bir adam sayırdı, onun böyük məbləğ sahibi olduğunu güman edir və ona həsəd aparırdı. Mümkün olsaydı Andrey Yefimıçın yerini məmnuniyyətlə tutardı.

IX

Bahar gecələrindən birində, martın axırlarında, qar tamam əriyərkən, doktor öz dostu poçt müdirini qapıyadək ötürmək üçün həyətə çıxmışdı. Bu dəmdə sədəqə yığmaqdan qayıdan cuhud Moyseyko həyətə girirdi. Onun başı açıqdı, yalın ayaqlarına dayaz qaloş geymişdi, əlində balaca bir sədəqə torbası vardı.

O, soyuqdan əsə-əsə təbəssümlə doktora müraciət etdi:

– Bir qəpik ver!

Rədd etməyi bacarmayan Andrey Yefimıç ona bir dənə ikişahılıq verdi. Doktor onun qırmızı, arıq topuqlu yalın ayaqlarına baxıb fikirləşdi:

"Belə də iş olar? Bu soyuqda ayaqyalın necə davam gətirir?"

Doktor həm yazığı gəlməyə, həm də iyrənməyə oxşayan bir hisslə, gah yəhudinin daz başına, gah qırmızı topuqlarına baxaraq, onun ardınca fligelə getdi. İçəri girərkən Nikita cır-cındır üstündən qalxıb gərnəşməyə başladı.

Andrey Yefimıç yumşaq bir tərzdə dedi:

– Xoş gördük, Nikita. Bu yəhudiyə bir cüt çəkmə düzəltsəydik, pis olmazdı, yoxsa soyuqlayacaqdır.

– Baş üstə, zati-aliləri! Buyurduğunuzu nəzarətçiyə çatdıraram.

– Zəhmət olmasa! Mənim dilimdən xahiş edərsən. De ki, doktor özü təvəqqe elədi.

Dəhlizin palataya olan qapısı açıldı. İvan Dmitriç çarpayıda uzanmışdı. O, özgə adamın səsini eşidib dirsəkləndi. Dinləməyə başladı və danışan adamın doktor olduğunu anladı. Qəzəbindən

bütün vücudu titrədi, acıqlı üzü qızarmış, gözləri hədəqədən çıxmış bir halda yerindən sıçrayıb, palatanın ortasına yüyürdü.

– Doktor gəldi! – deyə bağırdı və qəhqəhə çəkdi. – Axır ki, gəlib çıxdı! Ağalar, təbrik edirəm, doktor sizi yad eləyib! Alçaq hərif! – deyə lap özündən çıxmış bir halda çığırdı, palatada bu vaxta qədər onda belə hal görməmişdilər, o, qəzəblə ayağını yerə döydü. – Bu əclafı öldürmək lazımdır! Yox, öldürmək də azdır! Ayaq-yoluna salıb boğulmalıdır!

Bu sözləri eşidən Andrey Yefimıç dəhlizdən palataya baxdı və yumşaq bir əda ilə dedi:

– Nə üçün?

İvan Dmitriç hədələyici bir görkəmlə ona yanaşdı və rəşə ilə xalata bürünərək:

– Nə üçün? Onun üçün ki, oğrusan! – dedi və tüpürmək istəyirmiş kimi dodaqlarını nifrətlə büzdü. – Şarlatan! Cəllad!

Andrey Yefimıç taqsırını duyan bir adam kimi gülümsəyərək dedi:

– Sakit olun! İnandırıram sizi ki, mən ömrümdə bir dəfə də olsun oğurluq eləməmişəm, qalan şeylərə gəldikdə siz çox mübaliğə edirsiniz. Mənim əlimdən acıqlı olduğunuzu görürəm. Xahiş edirəm, sakit olun və soyuqqanlıqla deyin: niyə mənim əlimdən acıqlısınız?

– Məni niyə burada saxlayırsınız?

– Xəstə olduğunuz üçün.

– Hə, xəstəyəm. Amma onlarla, yüzlərlə dəli azad gəzib dolaşır, çünki siz nadan olduğunuz üçün onları sağlam adamlardan ayırd edə bilmirsiniz. Nə üçün mən və bu yazıqlar hamının əvəzində bir günahkar kimi burada qalmalıyıq? Nə üçün siz, feldşer, nəzarətçi və sizin kimi bütün xəstəxana rəzilləri, əxlaqca bizdən qat-qat aşağı olduğunuz halda, özünüz burda yatmayıb, bizi yatırdırsınız? Bəs məntiq hanı?

– Əxlaqın və məntiqin buraya dəxli yoxdur. Hər şey təsadüfdən asılıdır. Kimi tutub buraya salıblarsa, o burada qalır, kimi salmayıblarsa, özü üçün gəzir, vəssalam. Mənim doktor, sənin isə ruhi xəstə olmağında nə bir əxlaq var, nə də bir məntiq, bu yalnız boş bir təsadüfdür.

İvan Dmitriç boğuq bir səslə:

– Mənim bu cəfəngiyatdan başım çıxmır... – deyib öz çarpayısına əyləşdi.

Nikita doktorun hüzurunda Moyseykanın ciblərini axtarmaqdan utandı; Moyseyko yığmış olduğu çörək qırıqlarını, kağız və sür-sümükləri yatağı üzərinə qoydu. O, soyuqdan hələ də titrəyə-titrəyə yəhudi dilində nə isə avazla danışmağa başladı. Yəqin təsəvvür edirdi ki, özünə bir dükan açıbdır.

İvan Dmitriç titrək bir səslə:

– Məni buraxın! – dedi.

– Buraxa bilmərəm.

– Axı nə üçün? Nə səbəbə?

– Ona görə ki, buna mənim ixtiyarım yoxdur. Özünüz fikirləşin, mən sizi buraxsam, bundan sizə nə fayda? Gedin. Şəhər əhli və ya polis sizi tutub yenə buraya salacaq.

İvan Dmitriç:

– Hə, hə, düzdür... – dedi və alnının tərini sildi.

– Bu dəhşətdir. Bəs mən başıma nə kül töküm? Nə çarə qılım?

İvan Dmitriçin səsi və onun xoş ifadəli gənc siması Andrey Yefimıçın xoşuna gəldi. O, bu cavan oğlanı oxşamaq və sakit etmək istədi. Onun yanında çarpayıya oturdu, bir qədər düşünüb dedi:

– Siz soruşursunuz ki, başıma nə çarə qılım? Sizin indiki vəziyyətinizdən yaxşı çarə – buradan qaçmaqdır. Lakin təəssüf ki, bundan bir fayda çıxmaz. Sizi tutacaqlar. Cəmiyyət özünü canilərdən, ruhi xəstələrdən və ümumiyyətlə, yaramaz adamlardan qoruduqda, ona batmaq olmaz. İndi bircə çarəniz var, siz bu qənaətə gəlməlisiniz ki, burada qalmağınız vacibdir.

– Mənim burada qalmağım kimə lazımdır?!

– Madam ki, həbsxanalar və dəlixanalar var, demək, bunlarda bir adam yatmalıdır, eləmi? Siz düşməsəniz, mən düşəcəyəm, mən düşməsən, bir başqası düşəcək. Səbr eləyin, bir vaxt gələcək ki, həbsxana və dəlixanalar olmayacaq, o zaman nə pəncərələrdə barmaqlıq olacaq, nə də dəlilərə geyindirilən xalatlar. Əlbəttə, belə bir zaman gec-tez gəlib çatacaqdır.

İvan Dmitriç istehza ilə gülümsədi və gözlərini süzərək dedi:

– Siz zarafat edirsiniz. Siz və sizin köməkçiniz Nikita kimi ağalar gələcəyin fikrini çəkmirsiniz, lakin, möhtərəm cənab, əmin ola bilərsiniz ki, gözəl vaxtlar gəlib çatacaqdır. Qoy mənim sözlərim

sizin xoşunuza gəlməsin, bu sözlərə gülün, lakin yeni həyat şəfəqi parlayacaq, həqiqət qalib gələcək və bizim küçədə də bayram olacaqdır! Mən bunu görə bilməyəcəyəm, ölüb gedəcəyəm, ancaq kimin isə nəvəsi, nəticəsi o günü öz gözləri ilə görəcək. Onları səmimi qəlbdən təbrik edirəm və xoşbəxtliklərinə sevinirəm! İrəli! Allah köməyiniz olsun, dostlarım!

İvan Dmitriçin gözləri fərəhlə parladı, o ayağa qalxdı və əlini pəncərəyə doğru uzadaraq həyəcanlı səsi ilə sözünə davam etdi:

– Bu barmaqlıqlar arxasından sizə xeyir-dua verirəm! Yaşasın həqiqət! Mən sevinirəm!

İvan Dmitriçin hərəkəti doktora bir qədər suni göründüsə də, yenə xoşuna gəldi. O:

– Burada sevinməyə bir səbəb görmürəm, – dedi. – Həbsxana və dəlixanalar olmayacaq, siz buyurduğunuz kimi, həqiqət qalib gələcək, lakin şeylərin mahiyyəti dəyişməyəcək, təbiət qanunları olduğu kimi qalacaqdır. Adamlar indiki kimi xəstələnəcək, qocalacaq və öləcəklər. Həyatınızı nə qədər gözəl bir şəfəq işıqlandırsa da, yenə axırda sizi tabuta qoyub torpağa basdıracaqlar!

– Bəs ölməzlik, bəs əbədiyyət necə?

– Bəsdir, canım!

– Siz inanmırsınız, amma mən inanıram. Dostoyevskinin və ya Volterin əsərlərində birisi deyir ki, əgər Allah olmasaydı, onu insanlar özü uydurub yaradardılar. Mən qəti surətdə əminəm ki, ölməzlik – əbədiyyət yoxdursa, böyük insan zəkası buna gec-tez nail olacaqdır.

Andrey Yefimıç sevincindən gülümsəyərək dedi:

– Yaxşı sözdür. Sizin bu cür etiqadlı olmağınız yaxşıdır. Belə bir etiqadla, adamı lap divar arasına hörsələr belə, adam firavan yaşayar. Siz bir yerdə təhsil almısınızmı?

– Bəli, universitetdə oxumuşam, ancaq qurtarmamışam.

– Siz düşüncəli və dərrakəli adamsınız. Siz hər bir şəraitdə öz-özünüzdən təsəlli tapa bilərsiniz. Həyatı dərk etməyə çalışan azad və dərin təfəkkür və dünyanın mənasız qayğılarına tam bir həqarətlə baxmaq – insan bu iki nemətdən ən yüksək bir şey görməmişdir. Siz üç qat barmaqlıq arxasında yaşamalı olsanız belə, bu nemətlərə nail ola bilərsiniz. Diogen çəllək içində yaşadığı halda, bütün dünyadakı padşahlardan xoşbəxt imiş.

İvan Dmitriç qaşqabağını töküb:

– Sizin bu Diogeniniz sarsağın biri imiş, – dedi və birdən-birə acıqlanaraq yerindən sıçradı, uca səslə danışmağa başladı, – Diogen və ya nə bilim dərk etmək barəsində danışmaqdan nə çıxar! Mən həyatı sevirəm, həm də ehtirasla sevirəm! Məndə təqib olunma xəstəliyi, əzabverici daimi qorxu var, amma elə dəqiqələr də olur ki, yaşamaq arzusu mənim bütün vücudumu qapayır, belə anlarda qorxuram dəli olam. Ehtirasla, ağlagəlməz bir həvəslə yaşamaq istəyirəm!

O, həyəcan içində otaqda gəzindi və alçaq səslə dedi:

– Xəyala dalanda məni kabuslar narahat edir. Yanıma bir cür adamlar gəlir, cürbəcür səslər, musiqi eşidirəm, mənə elə gəlir ki, meşələrdə, dəniz sahilində gəzirəm... İstəyirəm, yana-yana istəyirəm ki, mənim də işim-gücüm, qayğılarım olsun... Bir deyin, görüm, orada yeni bir şey varmı? – deyə İvan Dmitriç soruşdu. – Orada nə var?

– Siz şəhər barəsində bilmək istəyirsiniz, yoxsa ümumiyyətlə?

– Əvvəlcə mənə şəhər haqqında danışın, sonra ümumiyyətlə.

– Nə olar, deyim də. Şəhərdə qüssədən bərk darıxırsan. Bir adam tapmırsan ki, dərdini ona açıb deyəsən, ya da birini dinləyəsən. Təzə adam yoxdur. Amma bu yaxında şəhərə Xobotov adlı gənc bir həkim gəlibdir.

– O hələ mənim vaxtımda gəlib. Yoxsa qanmazdır?

– Bəli, tərbiyəsiz adamdır. Qəribə işdir... Hər şeydən görünür ki, bizim paytaxtımızda zehni durğunluq yoxdur, hərəkət var. Demək, orada həqiqi adamlar da olmalıdır, amma nədənsə hər dəfə oradan bizə sarsaq adamlar göndərirlər. Şəhərimiz nə bədbəxtdir!

İvan Dmitriç ah çəkdi və:

– Hə, bədbəxt şəhərdir! – deyə güldü. – Yaxşı, indi də ümumiyyətlə danışın. Qəzetlərdə və jurnallarda nə yazırlar?

Palata artıq qaranlıqdı. Doktor ayağa qalxıb, xarici ölkələrdə və Rusiya mətbuatında nələr yazıldığını və ictimai fikrin hansı istiqamətə doğru yönəldiyini nağıl etməyə başladı. İvan Dmitriç diqqətlə qulaq asır və suallar verirdi, lakin birdən dəhşətli bir şey xatırlayan adam kimi əlləri ilə başını qucaqladı və arxası doktora olaraq yatağa uzandı.

Andrey Yefimıç soruşdu:

– Sizə nə oldu?

– Bundan sonra siz məndən bir söz də eşitməyəcəksiniz! – deyə İvan Dmitriç kobud cavab verdi: – Məni tək buraxın!

– Axı nə üçün?

Andrey Yefimıç çiyinlərini dartdı, köksünü ötürüb bayıra çıxdı. Dəhlizdən keçərkən dedi:

– Nikita, buranı sil-süpür eləsəydin, nə yaxşı olardı... Havası çox ağırdır!

– Baş üstə, zati-aliləri.

Andrey Yefimıç öz mənzilinə gedərkən düşünürdü: "Nə xoş gəncdir! Burada yaşadığım müddət ərzində bu, gərək ki, söhbət eləməyə layiq olan birinci adamdır. O, mühakimə yürütməyi bacarır və məhz lazımlı şeylərlə maraqlanır".

O, mütaliə edərkən və yatağında uzandığı zaman hey İvan Dmitriç haqqında düşünürdü, səhər tezdən yuxudan oyandıqda isə dünən ağıllı və maraqlı bir adamla tanış olduğunu xatırladı və mümkün olan kimi onun yanına getməyi qərara aldı.

X

İvan Dmitriç dünənki vəziyyətdə uzanmış, başını əlləri arasına almış və qıçlarını altına yığmışdı. Üzü görünmürdü.

– Xoş gördük, dostum, – deyə Andrey Yefimıç onunla salamlaşdı. – Yatmayıbsınız ki?..

İvan Dmitriç üzünü yastıqdan ayırmayaraq dedi:

– Əvvələn, mən sizə dost deyiləm, ikincisi, nahaq yerə zəhmət çəkirsiniz: məndən bir kəlmə də söz ala bilməyəcəksiniz.

Andrey Yefimıç pərt olub mızıldandı:

– Qəribə işdir... Dünən sizinlə mehribancasına söhbət edirdik, amma nədənsə birdən-birə inciyib söhbəti qırdınız... Bəlkə mən söhbətimdə kobud bir söz işlətmişəm, ya da bəlkə, sizin əqidənizə zidd bir fikir söyləmişəm...

İvan Dmitriç yerində dikələrək istehza və təşvişlə doktora baxdı. Gözləri qızarmışdı.

– Hə, siz dediniz; mən də inandım! – dedi. – Casusluq etmək və işgəncə vermək üçün başqa yerə getməniz məsləhətdir, buradan sizə bir iş çıxmaz. Mən sizin buraya nə üçün gəldiyinizi hələ dünən duymuşdum.

Doktor gülümsünüb dedi:

– Qəribə bir fantaziya! Demək, sizin zənninizcə, mən casusam?

– Bəli, mən belə güman edirəm... Yanına sınanmaq üçün qoyulduğum adam casusdur, yoxsa doktor bunun məndən ötrü fərqi yoxdur.

– Amma, məni bağışlayın... Siz qəribə adamsınız!

Doktor, yatağın yanındakı kürsüdə əyləşib başını məzəmmətlə yırğaladı.

– Yaxşı, tutaq ki, siz haqlısınız, – dedi. – Fərz edək ki, mən sizi polisin əlinə vermək üçün sizdən söz alıram. Bunun nəticəsində sizi həbs edib məhkəməyə verirlər. Lakin məhkəmədə və ya həbsxanada gününüz buradakından pismi keçəcək? Sizi sürgün etsələr və hətta katorqaya göndərsələr, bu fligeldə oturmaqdan pismi olar? Zənnimizcə, pis olmaz... Bəs nədən qorxursunuz?

Bu sözlər, deyəsən, İvan Dmitriçə təsir etdi. O, sakitcə yatağa oturdu.

Axşam saat beşə işləyirdi. Andrey Yefimıç adətən bu vaxtlar öz otaqlarında gəzinər və Daryuşka, pivə içmək vaxtı deyilmi, deyə ondan soruşardı. Hava sakit və aydın idi.

Doktor:

– Nahardan sonra bir az gəzmək üçün evdən çıxmışam və gördüyünüz kimi, sizin yanınıza gəlmişəm, – dedi. – Bayırda bahar havası var.

İvan Dmitriç soruşdu:

– İndi hansı aydır? Martdırmı?

– Bəli, martın axırıdır.

– Bayır palçıqdır?

– Xeyr, bir qədər yox. Bağda artıq cığırlar açılıbdır.

İvan Dmitriç yuxudan təzəcə durmuş adam kimi, qızarmış gözlərini silərək dedi:

– Belə gündə adam faytona minib şəhər kənarına seyrə çıxaydı, sonra da evə, ılıq havalı rahat kabinetə qayıdaydı... və başının ağrısını qabiliyyətli bir həkimə müalicə etdirəydi... Çoxdan bəridir ki, mən insana layiq bir həyat keçirmirəm. Bura isə çox murdar yerdir! Dözülməz dərəcədə murdardır!

O dünənki həyəcanından sonra yorğun və əzgindi, həvəssiz danışırdı. Barmaqları titrəyirdi, üzündən başının bərk ağrıdığı bəlli olurdu.

Andrey Yefimıç dedi:

– İlıq və rahat kabinetlə bu palata arasında heç bir fərq yoxdur. İnsanın rahatlığı və firavanlığı onun xaricində deyil, daxilindədir.

– Necə yəni?

– Adi bir adam yaxşı və ya pis bir şeyi xaricdən, yəni fayton və kabinetdən gözləyir, zəkalı adam isə bunu özündə görür.

– Bu fəlsəfəni təbliğ etmək üçün Yunanıstana getməyiniz məsləhətdir, ora ılıqdır və havası narınc qoxusu verir, bu fəlsəfə buranın iqliminə uyğun gəlməz. Diogen haqqında mən kiminlə danışırdım? Sizinləmi?

– Bəli, dünən mənimlə danışırdınız.

– Diogenin kabinetə və isti otağa ehtiyacı yox idi; ora onsuz da istidir. Çəlləyin içində otur, zeytun və portağal yeyib ləzzət çək! Amma Rusiyada yaşamaq ona qismət olsaydı, nəinki dekabrda, hətta may ayında da evdən bayıra çıxmazdı. Soyuq ona bir toy tutardı ki...

– Xeyr. Soyuğu və ümumiyyətlə, hər bir ağrını hiss etməmək olar. Mark Avreli deyib ki, "ağrı – ağrı haqqında canlı bir təsəvvürdür. Bu təsəvvürü dəyişmək üçün iradənə güc ver, onu kənara at, şikayət eləmə – ağrı öz-özünə yox olar". Bu, doğru fikirdir. Filosof və ya sadəcə olaraq təfəkkürlü, zəkalı bir adam məhz bununla fərqlənir ki, iztiraba həqarətlə baxır. O, həmişə razıdır və heç bir şeyə heyrət etmir.

– Demək, mən əzab çəkdiyim, narazı olduğum və insan rəzalətinə heyrət etdiyim üçün axmağam.

– Siz nahaq belə danışırsınız. Əgər siz dərindən düşünsəniz, bizi həyəcana gətirən bütün xarici aləmin nə qədər boş, əhəmiyyətsiz olduğunu duyarsınız. Həyatı dərk etməyə çalışmaq lazımdır. Həqiqi nemət də məhz bu dərk etməkdir.

İvan Dmitriç üz-gözünü turşudub dedi:

– Dərk etmək... Xarici, daxili... Bağışlayın, mən bunları başa düşmürəm. – O, ayağa qalxaraq acıqla doktora baxdı və: – Mən ancaq onu bilirəm ki, Allah məni isti qandan və əsəblərdən ibarət olaraq yaratmışdır! – dedi. – Üzvi toxuma isə, yaşamaq qabiliyyətinə malik olduqda, hər bir qıcıqlanmadan hərəkətə gəlməlidir. Mən özüm də hərəkətə gəlirəm! Ağrıya çığırtı ilə və göz yaşı tökməklə, alçaqlığa – qəzəblə, rəzilliyə – nifrətlə cavab verirəm. Məncə, bunun özü elə həyat deməkdir. Orqanizm nə qədər alçaq

olursa, o qədər az həssas olur və qıcıqlanmaya daha zəif cavab verir; əksinə, orqanizm nə qədər yüksək olursa, o qədər də həssas olur və həyata, mühitə qarşı münasibətini daha qəti göstərir. Bunu bilməmək olarmı? Özünüz doktorsunuz, amma belə boş şeylərdən xəbəriniz yoxdur! Əzab və əziyyətə nifrət etmək, həmişə razı qalmaq və heç bir şeyə təəccüb etməmək üçün, bax, bu dərəcəyə çatmaq lazımdır, – deyə İvan Dmitriç piy bağlamış kök mujikə işarə etdi, – və ya gərək şiddətli iztirablara dözərək özünü elə möhkəmlədəsən ki, hər cür həssaslığı itirəsən, yəni başqa sözlə, yaşamaqdan əl çəkəsən. Bağışlayın, mən nə aliməm, nə filosof, – deyə İvan Dmitriç əsəbi halda sözünə davam etdi, – və bunlardan heç başım çıxmır. Mühakimə etməyə halım yoxdur.

– Əksinə, çox gözəl mühakimə edirsiniz.

– Özünüzü bənzətdiyiniz stoistlər[1] çox gözəl adamlardır, ancaq onların nəzəriyyəsi hələ iki min il bundan qabaq donub qaldı, bir qarış belə irəliləmədi və irəliləməyəcəkdir də, çünki bu nəzəriyyə əməli və həyati deyildir. Bu, yalnız öz həyatını hər cür nəzəriyyələri təhlil və təshih etməklə keçirən azlıq arasında müvəffəqiyyət qazana bildi, əksəriyyət isə bunu anlamırdı. Sərvətə və həyat rahatlığına laqeydlik, iztirablara və ölümə nifrət təbliğ edən nəzəriyyə isə böyük əksəriyyət üçün tamamilə anlaşılmazdır, çünki bu əksəriyyət heç vaxt var-dövlət, həyat rahatlığı görməmişdir; bu əksəriyyət üçün iztiraba nifrət etmək, həyatın özünə nifrət etmək deməkdir, çünki insanın bütün varlığı aclığı, soyuğu, həqarəti, itkini və ölüm qarşısında Hamlet qorxusunu hiss etməkdən ibarətdir. Bütün həyat da bu hadisələr üzərində qurulmuşdur: həyatdan usanmaq olar, ona nifrət etmək olar, lakin ona həqarətlə baxmaq yaramaz. Bəli, təkrar edirəm ki, stoist təliminin heç vaxt gələcəyi ola bilməz, halbuki, gördüyünüz kimi, mübarizə, ağrıya qarşı həssaslıq və qıcıqlanmaya cavab vermək qabiliyyəti əzəl vaxtdan indiyədək tərəqqi etməkdədir.

İvan Dmitriç birdən fikrinin izini itirib dayandı və təəssüflə alnının tərini sildi. Sonra:

– Mühüm bir şey deyəcəkdim, heyif ki, unutdum, – dedi. – Nə deyəcəkdim? Aha, yadıma düşdü: stoistlərdən biri yaxın bir dostunu azad etdirmək üçün, özünü bir qul kimi satmışdı. Görürsünüzmü,

[1] Stoistlər – stoizm məsləki tərəfdarları

demək, stoist də qıcıqlanmaya cavab verirmiş, çünki yaxın dostunun yolunda canından keçmək kimi alicənab bir hərəkət üçün qəzəblənmiş rəhmli bir qəlb lazımdır. Mən öyrəndiklərimin hamısını bu həbsxanada unutmuşam, yoxsa yenə də bir şey xatırlardım. Həzrət İsanı götürək. İsa həqiqi varlığa ağlamaq, gülümsəmək, kədərlənmək, acıqlanmaq, hətta qüssələnməklə cavab verirdi; o, iztirabları təbəssümlə qarşılamır və ölümə nifrət bəsləmir, o, bu fəlakətdən yaxa qurtarmaq üçün Gefsiman bağında ibadət eləyirdi.

İvan Dmitriç gülüb oturdu.

– Tutaq ki, insanın rahatlığı və firavan dolanması xarici mühitdən deyil, onun daxilindən asılıdır, – dedi. – Tutaq ki, iztiraba nifrət bəsləmək və heç bir şeyə heyrət etməmək lazımdır. Lakin siz bunu nəyə əsasən təbliğ edirsiniz? Siz alimsiniz? Filosofsunuz?

– Xeyr, mən filosof deyiləm, lakin bunu ağıllı fikir olduğu üçün hər kəs təbliğ etməlidir.

– Yox, mən bilmək istəyirəm ki, niyə siz dərk etmək, iztiraba nifrət bəsləmək və sairədə özünüzü səlahiyyətli hesab edirsiniz? Məgər siz ömrünüzdə iztirab çəkməmisiniz? İztirabın nə olduğunu bilirsiniz? Bağışlayın, sizi heç uşaqlıqda qamçı ilə döyüblər?

– Xeyr, mənim ata-anam fiziki cəzaya nifrət edirdilər.

– Məni isə atam rəhmsizcəsinə döyərdi. Atam yorğun, əzgin və sərt xasiyyətli bir məmur idi, burnu uzun, boynu sarı idi. Lakin gəlin sizin barənizdə danışaq. Bütün ömrümüz boyu sizə heç kəs barmağının ucu ilə belə toxunmamış, heç kəs sizi qorxutmamış, döyməmişdir, siz öküz kimi sağlamsınız, atanızın qanadı altında böyümüş və onun hesabına oxumuşsunuz, sonra birdən-birə işi az, maaşı çox olan qulluğa girmisiniz. İyirmi ildən artıq yanacağı, işığı, qulluqçusu olan havayı mənzildə yaşamısınız və istədiyiniz kimi, istədiyiniz qədər işləmək, hətta heç işləməmək hüququna malik olmusunuz. Siz təbiətcə tənbəl, lırt bir adamsınız, ona görə də həyatınızı elə qurmağa çalışıbsınız ki, sizi heç bir şey narahat eləməsin və yerinizdən tərpətməsin. İşlərinizi feldşerə və ya başqa yaramaz adamlara təhvil verib, özünüz isti və sakit bir yerdə oturmusunuz, vaxtınızı pul toplamaqla, kitab oxumaqla, cürbəcür yüksək mənasızlıqları düşünməklə və (İvan Dmitriç doktorun qırmızı burnuna baxdı) sərxoşluq etməklə keçirmisiniz. Xülasə, həyatı görməmisiniz, onu əsla tanımırsınız, həqiqətlə isə yalnız nəzəri cəhətdən tanış olmusunuz. İztiraba nifrət bəsləməyinizin və heç bir şeyə heyrətlənməmənizin səbəbi isə

olduqca sadədir: mənasız fikirlər və qayğılar, həyata, iztirablara və ölümə xaricən və daxilən nifrət bəsləmək, həyatın mahiyyətini dərk etmək cəhdləri, həqiqi nemət – bütün bu fəlsəfə Rusiya tənbəlləri üçün ən əlverişli bir şeydir. Məsələn, siz bir mujikin öz arvadını döydüyünü görürsünüz. Niyə müdaxilə edəsiniz? Qoy döysün, onsuz da hər ikisi gec-tez öləcəkdir; həm də döyən adam öz şapalaqları ilə, döydüyü adamı yox, özünü təhqir edir. Sərxoşluq etmək axmaq, ədəbsiz bir hərəkətdir, lakin içsən də öləcəksən, içməsən də. Görürsən, bir arvad gəlib diş ağrısından şikayət eləyir... Nə olsun ki? Ağrı, ağrını təsəvvür etməkdir və bir də dünyada xəstəliksiz yaşamaq olmaz, hamımız öləcəyik, ona görə də arvadı başından rədd elə, o sənin düşünməyinə və araq içməyinə mane olur. Gənc bir oğlan nə eləmək, nə cür yaşamağı öyrənmək üçün yanınıza məsləhətə gəlir; başqası cavab verməzdən əvvəl bir az düşünərdi, sizin isə cavabınız hazırdır: həyatı dərk etməyə və ya həqiqi neməti əldə etməyə çalış. Əcəba, bu fantastik "həqiqi nemət nə olan şeydir? Əlbəttə, buna cavab yoxdur. Bizi burada barmaqlıq arxasında saxlayır, canımızı çürüdür, bizə əzab verirlərsə, bu çox gözəl və ağıllı işdir, çünki bu palata ilə isti, rahat kabinet arasında heç bir fərq yoxdur. Əlverişli fəlsəfədir; görüləcək bir iş yox, vicdanın təmiz, özünü də bir alim kimi hiss edirsən... Xeyr, cənab, buna fəlsəfə, təfəkkür, geniş baxış demək olmaz, bu tənbəllik, sehrbazlıq, sayıqlamadır. Bəli! – deyə İvan Dmitriç yenə acıqlandı. – İztiraba nifrət edirsiniz, amma barmağınız qapı arasında qalsa elə bağırarsınız ki, boğazınız yırtılar!

Andrey Yefimıç həlimcəsinə gülümsəyərək dedi:

– Bəlkə bağırmaram...

– Bəli, inandıq. Məsələn, sizi iflic vursa, ya, tutaq ki, axmaq və alçaq bir adam, öz mövqeyindən və rütbəsindən istifadə edərək, sizi camaat qarşısında təhqir etsə və siz ona cəza verilməyəcəyini bilsəniz, adamları başından eləyib həyati idraka və həqiqi nemətə doğru yönəltmənin nə olduğunu anlarsınız.

Andrey Yefimıç zövqündən güldü və əllərini ovuşduraraq dedi:

– Bu çox maraqlıdır. Sizin ümumiləşdirməyə olan meyliniz məni heyrətə salır, mənə indicə verdiyiniz xarakteristika misilsizdir. Etiraf etməliyəm ki, sizinlə apardığım söhbət mənə böyük zövq verir. Mən sizi dinlədim, indi də xahiş edirəm məni dinləyəsiniz.

XI

Bu söhbət təqribən bir saat daha davam etdi və görünür, Andrey Yefimıça dərin təsir bağışladı. Bundan sonra o hər gün fligelə gəlməyə başladı. Oraya səhərlər və nahardan sonra gəlirdi və çox vaxt İvan Dmitriçlə söhbəti qaranlıq düşənədək davam edirdi. İvan Dmitriç əvvəllər ondan qaçır, onun gizli bir niyyətdə olduğundan şübhələnir və ondan zəhləsi getdiyini açıq bildirirdi, sonra isə ona öyrəşib öz qaba rəftarını təvazökar-kinayəli bir əlaqəyə çevirdi.

Bir azdan sonra bütün xəstəxanaya şayiə yayıldı ki, doktor Andrey Yefimıç 6 №-li palataya gəlib-getməyə başlayıb. Heç kəsnə feldşer, nə Nikita, nə də xəstə baxıcıları doktorun oraya nə üçün getdiyini, nə üçün orada saatlarla oturduğunu, nə barədə danışdığını və nə üçün resept yazmadığını heç cür başa düşmürdü. Doktorun hərəkətləri adama qəribə gəlirdi. Mixail Averyanıç çox vaxt onu evdə tapmırdı, halbuki qabaqlar heç belə ittifaq düşməzdi. Daryuşkanın da ovqatı təlx idi; çünki dostları pivəni daha vaxtında içmir və bəzən hətta nahara da gecikirdi.

Bir dəfə iyunun axırlarında, doktor Xobotov bir iş üçün Andrey Yefimıçın yanına gəlmişdi; onu evdə tapmadı, həyətə çıxıb axtarmağa başladı; həyətdəkilər dedilər ki, doktor ruhi xəstələrin yanına gedib Xobotov fligelə girib dəhlizdə durdu və belə bir söhbət eşitdi.

– Bizim əqidəmiz müxtəlifdir, siz məni öz məsləkinizə sarı cəlb edə bilməzsiniz, – deyə İvan Dmitriç əsəbi halda danışırdı. – Siz həyatla bilmərrə tanış deyilsiniz və ömrünüz uzunu heç vaxt iztirab çəkməmisiniz, mən isə anadan olduğum gündən indiyədək arasıkəsilmədən əzab çəkmişəm, ona görə də açıq deyirəm; mən özümü sizdən yüksək və hər bir cəhətcə məlumatlı hesab edirəm. Mənim başıma ağıl qoymayın.

Andrey Yefimıç dediklərinin anlaşılmadığına təəssüf edərək sakitcə dedi:

– Mən sizi heç də öz etiqadıma cəlb etmək iddiasında deyiləm. İş bunda deyil, dostum. Məsələ onda deyil ki, siz iztirab çəkmisiniz, mən yox. İztirab və sevinc keçicidir. Bunlardan əl çəkək. İş ondadır ki, siz və mən fikirləşirik, bir-birimizdə düşünmək və mühakimə etmək qabiliyyəti olduğunu görürük; bu hal, əqidələrimiz nə qədər müxtəlif olursa-olsun, bizi həmrəy edir. Bilsəniz, dostum, ümumi

səfihlik, korazehinlik, kütlük zəhləmi nə qədər tökübdür və hər dəfə sizinlə söhbət eləməkdən nə qədər xoşlanıram! Siz ağıllı adamsınız, mən sizdən zövq alıram.

Xobotov qapını bir verşok qədər aralayıb palataya baxdı; başında kalpak olan İvan Dmitriçlə doktor Andrey Yefimıç yataqda yanyana oturmuşdular. Dəli üz-gözünü qırışdırır, diksinir və ya rəşə ilə xalatına bürünürdü, doktor isə, başını aşağı dikib, sakitcə oturmuşdu, üzü qırmızı, qüssəli idi, onda bir acizlik ifadəsi vardı. Xobotov çiyinlərini qısıb gülümsündü və Nikitanın üzünə baxdı. Nikita da çiyinlərini çəkdi.

Ertəsi gün Xobotov feldşerlə birlikdə fligelə gəldi. Hər ikisi dəhlizdə durub içəridə gedən söhbəti dinləməyə başladı.

Xobotov fligeldən çıxarkən dedi:

– Bizim qoca, deyəsən, çox qorxub.

Sergey Sergeiç təmiz silinmiş çəkmələrini bulamasın deyə, gölməçələrin kənarı ilə üsulluca keçərək:

– Pərvərdigara, biz günahkar bəndələrinin günahından keç! – deyə ah çəkdi. – Sözün düzü, hörmətli Yevgeni Fyodorıç, mən bunu çoxdan gözləyirdim.

XII

Bu əhvalatdan sonra Andrey Yefimıç hər tərəfində əsrarəngiz şeylər müşahidə etməyə başladı. Mujiklər, xəstə baxıcıları və xəstələr ona rast gəldikdə sualedici nəzərlə ona baxır və sonra pıçıldaşırdı. Nəzarətçinin qızı Maşaya xəstəxana həyətindi rast gəlməyi sevən doktor, indi də, qızın başını sığallamaq üçün təbəssümlə ona yanaşdıqda, nədənsə qız ondan qaçırdı. Poçt müdiri Mixail Avreyanıç onu dinlərkən əvvəlki kimi "Tamamilə doğrudur demir, anlaşılmaz bir pərtliklə "hə-hə" deyə mızıldayır, dalğın-dalğın və kədərlə ona baxırdı, nədənsə o öz dostuna araq və pivəni tərgitməyi məsləhət görməyə başlamışdı, lakin mərifətli adam olduğundan, o bunu açıq söyləmirdi, eyhamla deyirdi: gah misilsiz adam olan bir nəfər batalyon komandirindən, gah da yaxşı bir polk keşişindən danışırdı, bunlar çox içməkdən xəstələnmişdilər, lakin içkini tərgidən kimi tamamilə sağalmışdılar. İş yoldaşı Xobotov iki-üç dəfə Andrey Yefimıçın yanına gəlmişdi; o da spirtli içkiləri

tərgitməyi məsləhət görürdü və heç bir bəhanə olmadan bromlu kalium içməyi məsləhət görürdü.

Avqust ayında Andrey Yefimıç bələdiyyə rəisindən bir məktub aldı. Rəis çox mühüm bir məsələ üçün onun gəlməsini xahiş edirdi. Andrey Yefimıç təyin olunmuş vaxtda bələdiyyə idarəsinə, orada qoşun rəisini, qəza məktəbinin ştat nəzarətçisini, bələdiyyə idarəsi üzvünü, Xobotovu və kök, sarışın bir cənab gördü, bu axırıncını Andrey Yefimıça həkim sifətilə təqdim etdilər. Polyak familiyası çətin tələffüz edilən bu həkim şəhərin otuz verstliyində olan at zavodunda yaşayırdı, indi yolüstü şəhərə gəlmişdi.

– Burada sizin işinizə dair bir ərizə var, – deyə hamı bir-birilə görüşüb stol başına oturduqdan sonra bələdiyyə idarəsinin rəisi, Andrey Yefimıça müraciət etdi. – Yevgeni Fyodorıç deyir ki, baş korpusda aptekin yeri darısqaldır, onu fligellərdən birinə köçürmək lazımdır. Əlbəttə, bu, düzələn şeydir, ancaq əsas səbəb odur ki, fligeli təmir etmək lazım gələcəkdir.

Andrey Yefimıç bir az düşündükdən sonra dedi:

– Bəli, təmirsiz keçinmək mümkün olmayacaq. Məsələn, apteki küncdəki fligelə köçürtsək, buna, məncə, azı beş yüz manat pul sərf etmək lazımdır. Bu, səmərəsiz xərcdir.

Bir az susdular.

Andrey Yefimıç sakit səslə sözünə davam etdi:

– Mən hələ on il əvvəl rəsmi məlumat vermişdim ki, bu xəstəxana hazırkı halında, şəhərin vəsaitini nəzərə aldıqda, onun üçün bəzəkdən başqa bir şey deyil. Xəstəxana qırxıncı illərdə tikilmişdir, lakin o vaxtlar vəsait imkanı bambaşqa idi. Şəhərimiz lazımsız tikililərə və artıq vəzifələrə çox böyük məbləğlər sərf edir. Mənim zənnimcə, başqa qayda olsaydı, bu pullara iki nümunəvi xəstəxana saxlamaq olardı.

Bələdiyyə idarəsinin rəisi cəld dedi:

– Nə olar, gəlin təzə qayda qoyaq!

– Bu xüsusda öz rəyini demək şərəfi mənə artıq nəsib olmuşdur: tibb işlərinin zemstvo ixtiyarına verilməsini məsləhət görmüşəm.

Sarışın həkim:

– Bəli, bəd olmaz, pulları zemstvoya verin o da oğurlasın, – deyə güldü.

Bələdiyyə idarəsinin üzvü də gülərək:

– O daha ümumi qaydadır, – deyə onunla razılaşdı.

Andrey Yefimıç əzgin və tutqun bir baxışla sarışın həkimə baxıb dedi:

– Ədalətli olmaq lazımdır.

Yenə susdular. Çay gəldi. Nədənsə bərk pərtləşmiş qoşun rəisi əlini stolun üstündən Andrey Yefimıçın əlinə yavaşca toxundurub dedi:

– Bizi lap yaddan çıxarmısınız ha, doktor. Amma orası var ki, siz rahibsiniz; kart oynamırsınız, qadınları xoşlamırsınız. Bizimlə oynamaq sizi darıxdırır.

Hamı qanacaqlı bir adam üçün bu şəhərdə yaşamağın nə qədər qüssəli olduğundan danışmağa başladı. Nə ağıllı-başlı teatr var, nə musiqi var, bir neçə gün bundan əvvəl klubda düzəldilmiş rəqs gecəsində iyirmi nəfər xanım olduğu halda, yalnız ikicə kavaler vardı. Gənclər rəqs etmir, ya bufetin ətrafında hərlənir, ya da kart oynayırlar. Andrey Yefimıç yavaşca, heç kəsə baxmadan, danışmağa başladı ki, təəssüf olsun, şəhərlilər öz həyat energiyasını, öz qəlbini və ağlını kart oynamağa və dedi-qoduya sərf edirlər, vaxtlarını maraqlı söhbətlə və mütaliə ilə keçirməyi bacarmır, ağlın verdiyi zövqdən istifadə etmək istəmirlər. Yalnız ağıl maraqlı və gözəldir, qalan nə varsa xırda, əhəmiyyətsiz və alçaq şeylərdir. Xobotov öz iş yoldaşına diqqətlə qulaq asırdı. Birdən o soruşdu:

– Andrey Yefimıç, bu gün ayın neçəsidir?

Cavab aldıqdan sonra, o sarışın həkim, öz bacarıqsızlığını duya-duya imtahan edən adamlar kimi, Andrey Yefimıçdan bu günün adını, ildə neçə gün olduğunu və 6 №-li palatada doğrudanmı qəribə bir peyğəmbər yaşadığını soruşmağa başladı.

Sonuncu suala cavab verərkən Andrey Yefimıç qızarıb dedi:

– Bəli, o, xəstədir, ancaq çox maraqlı gəncdir.

Ona daha heç bir sual vermədilər.

Andrey Yefimıç dəhlizdə paltosunu geyərkən, qoşun rəisi əlini onun çiyninə qoydu və köksünü ötürərək dedi:

– Biz qocaların istirahət etmək vaxtı çatıbdır!

Andrey Yefimıç bələdiyyə idarəsindən çıxarkən, bu adamların onun əqli qabiliyyətini yoxlamaq üçün təyin edilmiş bir komissiya olduğunu anladı. Ona verilən sualları xatırlayıb qızardı və nədənsə, ömründə ilk dəfə təbabət elminə bərk yazığı gəldi. Həkimlərin

indicə onu tədqiq etdiklərini xatırlayıb düşündü: "Pərvərdigara, bunlar ki, hələ bu yaxında psixiatriyanı keçib imtahan veriblər. Bəs bu cəhət, nadanlıq haradandır? Bunlar ki, psixiatriyadan heç bir şey başa düşmürlər!"

O, ömründə ilk dəfə özünü təhqir olunmuş hesab etdi və acığı tutdu.

Mixail Averyanıç həmən günün axşamı onun yanına gəldi. Poçt müdiri salamlaşmadan ona yanaşıb əllərindən tutdu və həyəcanlı bir səslə dedi:

– Əziz dostum, mənim sizə bəslədiyim səmimi hörmətə inandığınızı və məni dost saydığınızı sübut edin... – O, Andrey Yefimıçın danışmasına mane olaraq həyəcanla sözünə davam etdi: – Dostum! Mən sizi mərifətli və alicənab olduğunuza görə sevirəm. Məni dinləyin, əzizim. Elmin qaydaları həkimləri məcbur edir ki, həqiqəti sizdən gizlətsinlər, lakin mən həqiqəti bir əsgər kimi açıq-aşkar deyirəm: siz xəstəsiniz. Məni bağışlayın, dostum, amma bu həqiqətdir, bunu ətrafdakıların hamısı artıq çoxdan müşahidə ediblər. Bu saat doktor Yevgeni Fyodorıç mənə dedi ki, Andrey Yefimıç, öz sağlamlığını qorumaq üçün istirahət etmək və əylənmək lazımdır. Tamamilə doğrudur! Gözəl təklifdir! Bu günlərdə mən məzuniyyət alıb, havanı dəyişmək üçün başqa yerə gedəcəyəm. Mənimlə dost olduğunuzu sübut edin, bir yerdə gedək! Keçmişləri, cavanlığımızı yada salaq.

Andrey Yefimıç düşünərək dedi:

– Mən özümü tamamilə sağlam hesab edirəm. Gedə bilməyəcəyəm. İzin verin, dostluğumu sizə başqa yolla sübut edim.

Bir səbəb olmadan, kitabsız, Daryuşkasız, pivəsiz başqa bir yerə getmək iyirmi il ərzində qurulmuş bir qaydanı birdən-birə pozmaq, – belə bir ideya ilk dəqiqədə ona vəhşi və fantastik göründü. Lakin bələdiyyə idarəsindəki söhbəti və oradan evə qayıdarkən əhvalının pozulduğunu xatırladı və axmaq adamların onu dəli hesab etdikləri bir şəhərdən az bir müddətə başqa bir yerə getmək fikri xoşuna gəldi.

– Siz axı hara getmək fikrindəsiniz? – deyə soruşdu.

– Moskvaya, Peterburqa, Varşavaya... Varşavada mən beş il yaşamışam. Həyatımın ən xoşbəxt illərini orada keçirmişəm. Nə gözəl şəhərdir! Gedək mənimlə, əzizim!

XIII

Bir həftədən sonra Andrey Yefimıça təklif etdilər ki, istirahətə getsin, yəni istefa versin. Bu təklif ona çox da, təsir etmədi. Bir həftə də keçdikdən sonra o, Mixail Averyanıçla bərabər poçt tarantasına minib ən yaxında olan dəmiryol stansiyasına getdi. Günlər sərin və aydın keçirdi, göy üzü mavi, üfüqlər şəffaf idi. Stansiyayadək iki yüz verstlik yolu iki günə getdilər və yolda iki dəfə gecələdilər. Poçt stansiyalarında pis yuyulmuş stəkanlarda çay verdikdə və ya atları gec qoşduqda, Mixail Averyanıç hirsindən qızarır, bütün vücudu ilə əsir və "Sus! Çox danışma!" deyə bağırırdı. Tarantasda oturarkən isə, bir dəqiqə belə susmaq bilmədən, öz Qafqaz və Polşa səyahətindən nağıl edirdi. Nə qədər başına macəralar gəlmiş, nə qədər xoş təsadüflər olmuşdu! O, ucadan danışır və danışarkən gözlərində elə bir heyrət ifadəsi əmələ gəlirdi ki, adam onun yalan danışdığını zənn edirdi. Bundan başqa, o, nağıl edərkən, nəfəsini Andrey Yefimıçın üzünə verir və qəhqəhə ilə güləndə ağzını onun qulağına tuturdu. Bu, doktorun xoşuna gəlmir, onun düşünməyinə və fikrini toplamağa mane olurdu.

Dəmir yolu ilə, qənaət üçün, üçüncü klasda, papiros çəkməyənlərə məxsus vaqonda gedirdilər. Sərnişinlərin yarısı yuxarı təbəqədən olan adamlar idi. Mixail Averyanıç çox çəkmədən sərnişinlərin hamısı ilə tanış oldu. O, skamyadan-skamyaya keçərək, belə biabırçı yollarla getməyə dəyməz, – deyə ucadan danışırdı. – Hər yerdə dələduzlar yuva salıblar! At belində getmək bundan min dəfə yaxşıdır: bir gündə yüz verst yol getdikdən sonra özünü sağlam və gümrah hiss edirsən. Qıtlığa gələndə, qıtlığın səbəbi odur ki, Pinsk bataqlıqlarını qurudublar. Ümumiyyətlə, qayda-qanunsuzluq həddini aşıbdır. O özündən çıxır, ucadan danışır və başqalarını danışmağa qoymurdu. Bu tükənməz boşboğazlıq, uca qəhqəhələr və ifadəli hərəkətlər Andrey Yefimıçı yorurdu. "Hansımız dəliyik?" – deyə təəssüflə düşünürdü. – Heç bir şeylə sərnişinləri narahat etməməyə çalışan mənmi, yoxsa özünü buradakıların hamısından ağıllı və yaraşıqlı sayan və buna görə də heç kəsə dinclik verməyən bu xudpəsəndmi?

Moskvada Mixail Averyanıç poqonsuz zabit sürtuku və qırmızı qaytanlı şalvar geydi. O, küçədə hərbi furajkada və şineldə gəzdiyi üçün soldatlar ona təzim edirdilər. Andrey Yefimıça indi elə gəlirdi

ki, bu, vaxtilə malik olduğu ağalıq sifətlərindən yaxşılarını bilmərrə unutmuş və xarabalarını mühafizə etmiş bir adamdır. O, heç lazım olmadığı halda belə, ona xidmət göstərilməsini sevirdi. Kibrit qutusu stol üstə olduğu halda, o özünü görməməzliyə vurub, lakeyə bağırır, kibrit gətirilməsini əmr edirdi, qulluqçu qızın qabağında köynək-tumanda gəzməkdən utanmırdı, lakeylərin hamısını, qocaları belə "sən" deyə çağırır, acıqlananda onları axmaq və səfeh adlandırırdı. Bu cür rəftar Andrey Yefimıça ağayana, lakin iyrənc görünürdü.

Mixail Averyanıç öz dostunu əvvəlcə İverski kilsəsinə apardı. O, ürəkdən dua edir, gözlərindən yaş axıdaraq səcdəyə düşürdü, duanı oxuyub qurtardıqdan sonra isə dərin bir ah çəkib dedi:

– Adamın etiqadı olmasa da, dua eləyəndən sonra, nədənsə, təskinlik tapır. Siz də dua eləyin, əzizim.

Andrey Yefimıç pərt oldu və əyilib təsviri öpdü. Mixail Averyanıç isə dodaqlarını şişirtdi və başını yırğalayaraq, pıçıltı ilə dua oxudu, gözləri yenə yaşardı. Sonra Kremlə gedib tsar-puşkaya və tsar-kolokola[1] tamaşa etdilər və hətta əlləri ilə də onlara toxundular. Zamoskvoreçyenin mənzərəsini seyr etdilər. Spasitel kilsəsini və Rumyantsev muzeyini ziyarət etdilər.

Naharı Testovun restoranında elədilər. Mixail Avçryanıç saqqalını tumarlayaraq xörəklərin adlarına xeyli baxdı və restoranlarda özünü öz evindəki kimi sərbəst hiss edən bir qarınqulu kimi dedi:

– Görək bu gün bizi nəyə qonaq edəcəksiniz, mələk!

XIV

Doktor gəzir, baxır, yeyir, içir, lakin bircə şey hiss edirdi: Mixail Averyanıçın hərəkətləri onun zəhləsini tökmüşdü. Öz dostundan qaçmaq, gizlənmək istəyirdi, dostu isə onu gözdən qoymamağa və mümkün qədər çox əylənməyə çalışırdı. Tamaşa ediləcək bir şey olmayanda onu öz söhbətləri ilə əyləndirirdi. Andrey Yefimıç iki gün dözdü, üçüncü gün xəstə olduğunu və buna görə də bütün günü evdə qalacağını bildirdi. Dostu da onun xatiri üçün evdə qalacağını söylədi. Doğrudan da dincəlmək lazımdır, yoxsa bu qədər gəzməyə ayaq davam gətirməz. Andrey Yefimıç divana

[1] Kremldə ən böyük topun və ən böyük kilsə zənginin adıdır.

uzanıb üzünü divanın söykənəcəyinə çevirdi və canını dişinə tutub dostunun boşboğazlığını dinləməyə başladı; dostu qızğın-qızğın danışaraq inandırırdı ki, Fransa gec-tez Almaniyanı darmadağın eləyəcək, Moskvada dələduz adamlar çoxdur və atın zahirindən onun yaxşı-yamanlığını təyin etmək olmaz. Doktorun qulaqları səs salırdı, ürəyi şiddətlə döyünməyə başlamışdı, bununla belə ədəb gözləyərək dostunun çıxıb getməsini və ya susmasını xahiş edə bilmirdi. Xoşbəxtlikdən Mixail Averyanıç nömrədə oturmaqdan darıxdı və nahardan sonra gəzməyə çıxdı.

Andrey Yefimıç tək qalıb istirahət hissinə daldı. Divanda qımıldanmadan uzanmaq və otaqda tək-tənha olduğunu düşünmək nə qədər xoşdur! Tənhalıq olmadan həqiqi səadət mümkün deyil. İblis, yəqin, başqa mələklərin bilmədiyi təkliyi arzuladığı üçün, Allaha xəyanət etmişdir. Andrey Yefimıçın son günlər ərzində gördüklərini və eşitdiklərini düşünmək istəyirdi, lakin Mixail Averyanıç heç cür onun başından çıxmırdı.

"Axı o, dostluğundan, alicənablığından məzuniyyət götürüb buraya gəlmişdir, – deyə doktor təəssüflə düşünürdü. – Bu dostluq qəyyumluğundan daha pis şey yoxdur. Bunca xoşdil, səxavətli, nəşəli olduğu halda yenə darıxdırıcı adamdır. Dözülməz dərəcədə cansıxıcıdır. Həmişə ağıllı və gözəl sözlər danışan bunun kimi adamlara yaxından baxdıqda küt olduqları anlaşılır".

Bundan sonrakı günlərdə Andrey Yefimıç özünü xəstəliyə vurub, nömrədən bayıra çıxmırdı. Dostu onu öz söhbəti ilə əyləndirməyə başlayanda o, üzünü divanın söykənəcəyinə tutub darıxırdı, dostu olmayanda isə bu vəziyyətdə uzanıb istirahət edirdi. Buraya gəldiyi üçün özünə və gündən-günə daha boşboğaz və şitəngi olan dostuna acığı tuturdu, öz fikirlərini ciddi, yüksək bir tonda qurmağa heç cür nail ola bilmirdi, o öz xırdaçılığına acıqlanaraq düşünürdü: "Məni, İvan Dmitriç deyən kimi, həqiqət əlinə alır. Ancaq bu boş şeydir... Evə qayıdaram, yenə hər şey köhnə qayda ilə gedər..."

Peterburqda da eyni vəziyyət oldu: o, bütün günü nömrədən bayıra çıxmayıb divanda uzanırdı, yalnız pivə içmək istəyəndə ayağa dururdu.

Mixail Averyanıç hey onu Varşavaya getməyə tələsdirirdi.

Andrey Yefimıç yalvarıcı bir səslə deyirdi:

– Əziz dostum, mənim orada nə işim var? Siz tək gedin, mənə isə, izn verin evə gedim! Xahiş edirəm!

Mixail Averyanıç etiraz edərək dedi:

– Heç cür əl çəkən deyiləm! Varşava misilsiz bir şəhərdir. Orada mən beş il bəxtiyar həyat keçirmişəm.

Andrey Yefimıç dediyinə israr etmək iradəsi çatmadığından, canını dişinə tutub Varşavaya getdi. Burada da nömrədən bayıra çıxmır, divanda uzanır və özünə, dostuna və rusca başa düşmək istəyən lakeylərə acığı tuturdu. Mixail Averyanıç isə, həmişəki kimi sağlam, gümrah və nəşəli olub səhərdən axşama qədər şəhəri gəzir və köhnə tanışlarını axtarırdı. Bir neçə dəfə o, hətta evdə də yatmamışdı. Bir dəfə gecəni harada isə keçirdikdən sonra, səhər tezdən çox həyəcanlı bir halda evə qayıtdı, rəngi bərk qızarmışdı, saçları dağınıqdı. Uzun zaman otağı o küncdən-bu küncə gəzdi, nə isə dodaqaltı mızıldadı, sonra birdən-birə dayanıb dedi:

– Namus hər şeydən vacibdir!

Bir qədər də gəzdikdən sonra ikiəlli başını qucaqladı və faciəli bir səslə dedi:

– Bəli, namus hər şeydən vacibdir! Bu Babil şəhərinə gəlmək fikrinə düşdüyüm dəqiqəyə lənətlər olsun! Əziz dostum, – deyə doktora müraciət etdi, – mənə nifrət edin! Pullarımın hamısını qumara qoymuşam! Xahiş edirəm, mənə beş yüz manat borc verin!

Andrey Yefimıç beş yüz manat sayıb dinməz-söyləməz dostuna verdi. Mixail Averyanıçın rəngi hələ də utandığından və qəzəbindən qırmızı idi, ağızucu mənasız bir and içərək, şapkasını geydi və bayıra çıxdı. İki saatdan sonra qayıdıb kresloya sərildi və ucadan bir ah çəkib dedi:

– Namus xilas edildi! Gedək, dostum, daha bu mənhus şəhərdə bir dəqiqə belə qalmaq istəmirəm. Burada dələduzlar, Avstriya casusları doludur!

Dostlar öz şəhərlərinə qayıtdıqda artıq noyabr ayı idi, küçələri qalın qar örtmüşdü. Andrey Yefimıçın yerini doktor Xobotov tutmuşdu, o hələ köhnə mənzilində olurdu, Andrey Yefimıçın gəlib xəstəxanadakı mənzilini boşaldacağını gözləyirdi. Aşpaz qadın adlandırdığı kifir qadın fligellərin birində yaşayırdı.

Şəhərə yeni bir xəstəxana dedi-qodusu yayılmışdı. Deyirdilər ki, həmin kifir qadın nəzarətçi ilə savaşmışdır və nəzarətçi onun qabağında diz çökərək üzr istəyir.

Andrey Yefimıç gələn kimi özünə yeni, mənzil axtarmalı oldu. Poçt müdiri ona qorxaqcasına dedi:

– Bağışlayın, soruşmağa cəsarət eləyirəm, dostum, vəsaitdən-zaddan nəyiniz var?

Andrey Yefimıç dinməz-söyləməz pullarını sayıb dedi:

– Səksən altı manat.

Mixail Averyanıç doktoru anlamayaraq pərt halda dedi:

– Mən o barədə soruşmuram. Mən bilmək istəyirəm ki, ümumiyyətlə nə kimi bir vəsaitə maliksiniz?

– Mən də sizə cavab verdim ki, səksən altı manat!.. Bundan başqa heç nəyim yoxdur.

Mixail Averyanıç doktoru namuslu və nəcabətli bir adam hesab edirdi, bununla belə onun heç olmasa iyirmi minə qədər pulu olduğunu güman edirdi. İndi isə Andrey Yefimıçın çox yoxsul olduğu və yaşamağa heç mümkünü olmadığını bilib, nədənsə, birdən-birə ağladı və dostunu qucaqladı.

XV

Andrey Yefimıç meşşan Belovanın üçpəncərəli evində yaşayırdı. Evin mətbəxdən başqa üççə otağı vardı, Küçəyə pəncərəsi olan iki otağı doktor tutmuşdu, üçüncü otaqda və mətbəxdə isə Daryuşka və üç uşağı ilə bərabər Belova olurdu. Bəzən ev sahibəsinin yanına oynaşı gəlirdi, bu, sərxoş bir mujik idi, gecələr səs-küy salır, uşaqları və Daryuşkanı qorxudurdu. Bu mujik gələndə mətbəxdə oturub araq istəyir və hamının yerini dar edirdi, ona görə doktor ağlayan uşaqlara yazığı gəlib, onları öz yanına alır və döşəmə üstə yatırdırdı, bu hal ona böyük zövq verirdi.

Doktor qabaqkı kimi saat səkkizdə durur və çay içəndən sonra öz köhnə kitab və jurnallarını oxuyurdu. Təzələrini almağa mümkün yox idi. Kitablar köhnə olduğundanmı və ya bəlkə şərait dəyişdiyindənmi, mütaliə əvvəlki kimi onu cəlb etmir və yorurdu. Vaxtı boş keçməsin deyə, kitabları üçün müfəssəl kataloq düzəltmişdi, onların kötüklərinə nömrə yapışdırırdı, bu mexaniki və zəhmətli iş ona mütaliədən maraqlı gəlirdi. Yeknəsəq və zəhmətli iş onun fikirlərini anlaşılmaz bir surətdə oxşayırdı, o heç bir şeyin fikrini çəkmirdi, vaxt da sürətlə gəlib keçirdi. Hətta mətbəxdə oturub

Daryuşka ilə kartof soymaq və ya darı arıtmaq ona maraqlı gəlirdi. Şənbə və bazar günləri kilsəyə gedirdi. Divar dibində durub gözlərini süzür, nəğməyə qulaq asır və atası, ailəsi, universitet, din haqqında düşünürdü; özünü sakit, kədərli hiss edirdi, sonra kilsədən gedərkən ibadətin belə tez qurtardığına heyifsilənirdi.

O, söhbət etmək üçün iki dəfə xəstəxanaya, İvan Dmitriçin yanına getmişdi. Lakin İvan Dmitriç hər dəfə onu çox həyəcanlı və qəzəbli qarşılamışdı; Andrey Yefimıçdan onu rahat buraxmasını xahiş etmişdi, çünki boşboğazlıq çoxdan bəri onun zəhləsini tökmüşdü, o deyirdi ki, çəkdiyi olmazın əziyyətlər qarşısında bu əclaf və alçaq adamlardan yalnız bircə mükafat istəyir – onu təkbaşına dama salsınlar. Olmaya bunu da ona çox gördülər? Andrey Yefimıç hər iki dəfə onunla xudahafizləşərkən gecəniz xeyrə qalsın deyəndə, o, donquldanıb demişdi:

– İzalə ol başımdan!

İndi Andrey Yefimıç iki yol arasında qalmışdı; bilmirdi ki, bir də onun yanına getsin, ya yox? Getməyi isə arzu edirdi.

Əvvəllər Andrey Yefimıç nahardan sonra otaqları gəzib düşünürdü, indi isə nahar zamanından axşam çayınadək divanda üzü divara uzanaraq xırda-xuruş fikirlərə dalırdı və bu fikirlərə heç cür qalib gələ bilmirdi. İyirmi ildən artıq xidməti qarşısında ona nə bir təqaüd, nə də birdəfəlik maddi yardım göstərmədikləri ona bərk təsir etmişdi. Əlbəttə, o, namusla işləməmişdi, lakin təqaüdü, namuslu oldu-olmadı, hər bir qulluqçu alır. Müasir ədalət məhz bundan ibarətdir ki, rütbə ilə, ordenlə və təqaüdlə insanın əxlaqi keyfiyyəti və qabiliyyəti deyil, ümumiyyətlə hər cür xidmət təltif edilir. Bəs nə üçün təkcə o, istisna təşkil etsin? Pulu heç yox idi. Dükanın qabağından keçməyə və ev sahibəsinin gözünə görünməyə utanırdı. Pivə üçün artıq otuz iki manat borc yığılmışdı. Meşşan Belovaya da borclu idilər. Daryuşka köhnə paltarlardan və kitablardan satır və ev sahibəsinə yalan söyləyirdi ki, guya doktor bu yaxınlarda böyük pul alacaqdır.

Yığmış olduğu min manatı səyahətə xərclədiyinə heyifsilənirdi. Bu min manat belə gündə onun üçün böyük iş görərdi! Adamlar onu dinc qoymurdular. Xobotov öz xəstə iş yoldaşını hərdənbir yoluxmağı özünə borc bilirdi. Andrey Yefimıç onun hər şeyindən: tox sifətindən, pis, təvazökar danışığından, "iş yoldaşı" deməsindən,

uzunboğaz çəkmələrindən zəhləsi gedirdi, ən iyrənc şey də o idi ki, o Andrey Yefimıçi müalicə etməyi özünə borc bilirdi və doğrudan da onu sağaltmaqda olduğunu güman edirdi. Hər dəfə gələndə özü ilə bir şüşə bromlu kalium və ravənd həbi gətirirdi.

Mixail Averyanıç da öz dostunu yoluxmağı və onu əyləndirməyi özünə borc bilirdi. Hər dəfə Andrey Yefimıçın yanına gələndə saxta açıq-saçıqlıqla danışır, zorla qəhqəhə çəkir və doktoru inandırmağa başlayırdı ki, şükür Allaha, bu gün rəngi durudur, bundan sonra halı daha yaxşı olacaq. Bundan belə nəticə çıxarmaq olardı ki, o öz dostunun halını ümidsiz hesab edir. Varşavada aldığı borcu hələ qaytarmadığı üçün bərk xəcalət çəkirdi, ona görə də özünü o yerə qoymayaraq, daha ucadan qəhqəhə çəkir və gülməli söhbətlər edirdi. Danışdığı lətifələr və hekayələr istər Andrey Yefimıça, istərsə də özünə indi tükənməz və darıxdırıcı görünürdü.

Andrey Yefimıç həmişə onun hüzurunda divana uzanıb üzünü divara çevirir və canını dişinə tutub dostunun boşboğazlığını dinləyirdi, qəlbi acıqla dolurdu və hər dəfə dostu gedəndən sonra bu acıq getdikcə artır və sanki boğazını tıxayırdı.

Xırda fikirləri başından qovmaq üçün tez düşünməyə başlayırdı ki, o özü də, Xobotov da, Mixail Averyanıç da gec-tez məhv olub gedəcək və özlərindən sonra heç bir iz-əsər buraxmayacaqlar. – Əgər milyon il bundan sonra fəzada yer kürəsi yanından bir ruh uçub keçsə, ehtimal ki, yerdə gil və çılpaq qayalarından başqa heç bir şey görməyəcəkdir. Hər şey – mədəniyyət də, əxlaq qanunu da – məhv olub gedəcək və hətta yerində alaq otları da bitməyəcəkdir. Daha dükançıdan xəcalət çəkmək, vecsiz Xobotovla, Mixail Averyanıçla dostluq etmək nə deməkdir? Bütün bunlar boş və mənasız şeylərdir.

Lakin bu cür mühakimələr daha kömək etmirdi. Yer kürəsinin milyon il sonrakı halını təsəvvürünə gətirən kimi, çılpaq qayalığın arxasından uzunboğaz çəkməli Xobotov və ya gərgin bir surətdə qəhqəhə çəkən Mixail Averyanıç görünür və hətta onun xəcalətli pıçıltısı da eşidilirdi: "Varşavada aldığım borcu, əzizim, bu yaxında verəcəyəm... Arxayın ol".

XVI

Bir dəfə Mixail Averyanıç nahardan sonra dostunun yanına gəldi; Andrey Yefimıç divanda uzanmışdı. Elə bu zaman Xobotov da təsadüfən gəldi, özü ilə bromlu kalium gətirmişdi. Andrey Yefimıç yerində ağır-ağır dikəldi və əllərini divana dayayaraq oturdu.

Mixail Averyanıç sözə başladı:

– Bu gün, dostum, rəngin dünənkinə nisbətən xeyli durulmuşdur. Qoçaq adamsınız! Vallah, qoçaqsınız!

Xobotov əsnəyə-əsnəyə dedi:

– Əlbəttə, sağalmaq lazımdır. Söz yox ki, bu üzüntü sizi təngə gətiribdir.

Mixail Averyanıç nəşə ilə dedi:

– Sağalmağınıza söz ola bilməz. Hələ yüz il də yaşayacağıq! Bəs nə!

– Yüz il olmasa da, heç olmasa iyirmi il yaşayarıq, – deyə Xobotov təsəlli verdi. – Eybi yoxdur, əzizim, ruhdan düşməyin... Bu qədər qüssə çəkdiniz, yetər.

Mixail Averyanıç:

– Biz hələ özümüzü göstərəcəyik – deyə qəhqəhə çəkdi. – Hələ özümüzü göstərəcəyik! Gələn il, Allah qoysa, Qafqaza gedərik və oranı başdan-başa at belində gəzərik – hop-hop! Hop! Qafqazdan qayıdanda da, ölməsək, sağ qalsaq, toy elərik. – Mixail Averyanıç hiyləgərcəsinə göz vurdu. – Sizi, bizim əziz dostumuz, evləndirərik... Bəli, evləndirərik...

Andrey Yefimıç birdən səbr kasasının dolduğunu hiss etdi; ürəyi bərk-bərk döyünməyə başladı. Cəld yerindən durub pəncərəyə yanaşdı və:

– Bu bayağılıqdır! – dedi. – Məgər bayağı danışdığınızı anlamırsınız?

O, yumşaq və nəzakətlə danışmaq istəyirdi, lakin iradəsinə zidd olaraq yumruqlarını düyünlədi və başından yuxarı qaldırıb rəşəli bir səslə bağırdı:

– Məni rahat buraxın! – Rəngi pul kimi qızarmışdı, bütün bədəni əsirdi. – Rədd olun buradan! İkiniz də rədd olun!

Mixail Averyanıç və Xobotov ayağa qalxdılar və əvvəlcə ona heyrətlə, sonra isə qorxu ilə baxmağa başladılar. Andrey Yefimıç yenə bağırırdı:

– Hər ikiniz rədd olun! Kütün biri kütlər! Mənə sənin nə dostluğun lazımdır, nə də dərmanın, kütün biri küt! Nə qədər bayağılıq! Nə qədər rəzillik!

Xobotov və Mixail Averyanıç karıxmış halda bir-birinə baxdılar, dal-dalı çəkilib dəhlizə çıxdılar. Andrey Yefimıç bromlu kalium şüşəsini qapıb onların dalınca tulladı, şüşə cingilti ilə kandara dəyib qırıldı. Sonra onların dallarınca yüyürüb ağlar səslə bağırdı:

– Rədd olun buradan! Cəhənnəm olun başımdan!

Qonaqlar çıxıb gedəndən sonra Andrey Yefimıç titrətməqızdırmalı adam kimi əsərək, divana uzandı və uzun zaman:

– Küt adamlar! Axmaqlar! – deyə təkrar etdi.

Hirsi soyuyandan sonra ilk əvvəl başına belə bir fikir gəldi ki, zavallı Mixail Averyanıç indi yəqin bərk inciyib və ürəyi sınıbdır, nə qədər dəhşətli bir hal! Əvvəllər heç vaxt belə şey olmazdı. Bəs mənim ağlım və mərifətim hanı? Mənim idrakım və fəlsəfi laqeydliyim hanı?

Doktor xəcalətindən və təəssüfündən bütün gecə yata bilmədi, səhəri isə saat ona yaxın poçt idarəsinə gedib müdirdən üzr istədi.

Bundan mütəəssir olmuş Mixail Averyanıç içini çəkərək:

– Gəlin, dünənki əhvalatı heç yada salmayaq, – dedi və onun əlini bərk sıxdı. – Keçmişi yada salanın gözü çıxsın. Lyubovkin! – deyə ucadan elə bağırdı ki, bütün poçtalyonlar və camaat diksindi. – Stul ver görək. Sən gözlə! – deyə barmaqlıq arasından ona sifarişli məktub uzadan bir qadının üstünə qışqırdı. – Görürsən ki, başım qarışıqdır! – Sonra üzünü Andrey Yefimıça tutub nəzakətlə dedi: – Keçmişi yada salmasaq yaxşıdır. Oturun, əzizim, xahiş edirəm.

O bir dəqiqəliyə dizlərini sığalladıqdan sonra dedi:

– Sizdən incimək heç mənim fikrimə belə gəlməzdi. Xəstəliklə zarafat olmaz, dostum. Sizin dünənki tutmanız doktorla məni qorxutdu, sonra uzun-uzadı sizin haqqınızda danışdıq. Əziz dostum, niyə siz öz xəstəliyinizlə ciddi məşğul olmursunuz? Heç bu yarayan işdir? Dostluğumuza ərk eləyib açıq danışmağıma sizdən üzr istəyirəm, – deyə Mixail Averyanıç pıçıldadı, – sizin yaşayışınız olduqca pis şəraitdə keçir: darısqallıq, natəmizlik, qulluq edəniniz yox, müalicə üçün vəsaitiniz yox... Əziz dostum, doktorla bərabər sizdən bir xahişimiz var, məsləhətimizə əməl edin: xəstəxanada yatıb özünüzü müalicə etdirin! Orada yemək də, qulluq da, müalicə

də var. Söz yanınızda qalsın, Yevgeni Fyodorıç ətiacı adam olsa da, məlumatlıdır, ona tamamilə bel bağlamaq olar. Mənə söz verib ki, sizinlə məşğul olar.

Andrey Yefimıç poçt müdirinin səmimiliyindən və birdən-birə yanaqlarında işıldayan göz yaşlarından mütəəssir olub, əlini döşünə qoydu və:

– Hörmətli dostum, buna inanmayın! – deyə pıçıldadı. – Onların sözünə inanmayın! Yalan danışırlar! Mənim xəstəliyim yalnız bundan ibarətdir ki, iyirmi il ərzində bu şəhərdə yalnız bircə ağıllı adam tapmışam, ancaq o da dəlidir. Məndə heç bir xəstəlik yoxdur, ancaq mən çıxış yolu olmayan bir tilsimə düşmüşəm. Fərqi yoxdur, mən hər bir şeyə hazıram.

– Xəstəxanada yatmağınız məsləhətdir, əziz dostum.

– Məndən ötrü heç fərqi yoxdur, istər lap qəbir olsun.

– Ancaq, dostum, xahişim budur, söz verəsiniz ki, Yevgeni Fyodorıçın dediklərinə qulaq asacaqsınız.

– Söz verirəm. Ancaq təkrar edirəm, hörmətli dostum, mən tilsimə düşmüşəm. İndi hər şey, hətta dostlarımın səmimi müdaxiləsi belə, bircə şeyə – mənim məhv olmağıma sövq edilibdir. Mən məhv oluram və bunu mətanətlə etiraf edirəm.

– Fikir etməyin əzizim, sağalarsınız.

Andrey Yefimıç əsəbi halda dedi:

– Bu sözlərdən nə çıxar? Ömrünün axırında, mənim indi keçirdiyim haləti keçirməyə adam tək-tək tapılar. Sizə desələr ki, məsələn, böyrəkləriniz xarabdır və ürəyiniz şişibdir, özünüzü müalicə etdirməyə başlarsınız və ya sizə dəli, yaxud da cani desələr, xülasə, adamların diqqəti sizə cəlb olunsa, – bilin ki, çıxılmaz bir tilsimə düşmüsünüz. Bu tilsimdən çıxmağa can atdıqda, yolunuzda daha da azacaqsınız. Bu cür vəziyyətdə təslim olmaq lazımdır, çünki heç bir insan qüvvəsi sizi bu fəlakətdən qurtara bilməyəcəkdir. Məncə belədir.

Barmaqlığın dalındakı adamlar getdikcə artırdı. Andrey Yefimıç müdirin işinə mane olmasın deyə, ayağa qalxıb xudahafizləşməyə başladı. Mixail Averyanıç, xəstəxanada yatacağına dair ondan bir daha söz aldı və onu bayır qapıya qədər ötürdü.

Həmin gün axşama yaxın Xobotov gözlənilmədən Andrey Yefimıçın yanına gəldi, əynində yarımkürk, ayağında da uzunboğaz çəkmə vardı, o elə bir əda ilə danışmağa başladı ki, guya dünən heç bir şey olmayıbmış.

– Sizin yanınıza bir iş üçün gəlmişəm, dostum. Sizi dəvət etmək istəyirəm: mənimlə konsiliuma gəlmək istərsinizmi?

Andrey Yefimıç Xobotovun onu gəzinti ilə əyləndirmək və ya ona doğrudan da pul qazanmaq üçün imkan vermək niyyətində olduğunu güman edib, tez geyindi və onunla bərabər küçəyə çıxdı. O, dünənki taqsırını ört-basdır etməyə və barışmağa can atırdı, dünənki əhvalat haqqında dilinə bir kəlmə belə söz gətirməyən və ehtimal ki, ona yazığı gələn Xobotova ürəkdən təşəkkür edirdi.

Andrey Yefimıç soruşdu:

– Xəstəniz haradadır?

– Mənim xəstəxanamda. Mən çoxdan bəri onu sizə göstərmək istəyirdim... Çox maraqlı bir xəstəlikdir.

Xəstəxana həyətinə girdilər, baş korpusu ötüb, ruhi xəstələrin olduğu fligelə yollandılar. Nədənsə buraya gələnəcən heç danışmadılar. Nikita adəti üzrə yerindən sıçrayıb, ayaq üstə dik durdu.

Xobotov Andrey Yefimıçla palataya girərkən asta səslə dedi:

– Burada bir xəstənin ciyərində ağırlaşma əmələ gəlmişdir. Siz burada gözləyin, mən bu saat gəlirəm. Stetoskop gətirəcəyəm.

Xobotov bayıra çıxdı.

XVII

Hava qaralırdı. İvan Dmitriç üzünü yastığa tıxayıb öz yatağında uzanmışdı; iflic xəstə hərəkətsiz oturub yavaşca ağlayır və dodaqlarını titrədirdi. Kök mujik və keçmiş çeşidçi yatmışdılar. Sakitlikdi.

Andrey Yefimıç İvan Dmitriçin çarpayısında oturub gözləyirdi. Yarım saata qədər keçdi və palataya Xobotovun əvəzində Nikita girdi, qucağında xalat, kimin isə köynək-tumanı və tuflisi vardı.

O sakitcə dedi:

– Buyurun geyinin, zati-aliləri. – Yəqin, təzə gətirilmiş boş bir çarpayını göstərərək əlavə etdi: – Yatağınız budur, buraya buyurun. Eybi yoxdur, Allahın köməkliyi ilə sağalarsınız.

Andrey Yefimıç məsələni anladı. Dinməz-söyləməz durub Nikitanın göstərdiyi çarpayıda oturdu; Nikitanın dayanıb gözlədiyini gördükdə, lüt soyundu və soyunduğuna xəcalət çəkdi. Sonra

xəstəxana paltarını geydi, tuman çox gödək idi, köynək uzun idi, xalat isə quru balıq qoxusu verirdi. Nikita:

– Allah qoysa, sağalarsınız, – deyə təkrar etdi və Andrey Yefimıçın çıxartdığı paltarı qucağına alıb bayıra çıxdı və qapını bağladı.

Andrey Yefimıç utana-utana xalata bürünərək və öz təzə kostyumunda dustağa oxşadığını hiss edərək düşünürdü: "Fərqi yoxdur... İstər frak olsun, istər mundir olsun, istərsə də bu xalat olsun – heç fərqi yoxdur..."

Bəs saat? Yan cibindəki yazı dəftərçəsi? Papiros? Nikita paltarı hara apardı İndi, deyəsən, ölənə kimi daha şalvar, jilet və çəkmə geymək müyəssər olmayacaq. Bütün bunlar ilk zamanlar ona bir növ qəribə və hətta anlaşılmaz görünürdü. Andrey Yefimıç indi də bu fikirdə idi ki, meşşan Belovanın evi ilə 6 №-li palata arasında heç bir fərq yoxdur, bu dünyada hər şey mənasız və qarmaqarışıqdır, bununla belə Andrey Yefimıçın əlləri əsir, ayaqları soyuyurdu, bir azdan sonra İvan Dmitriçin durub onu xalatda görəcəyi fikrindən qorxurdu. O, durub otaqda bir az gəzdi və yenə oturdu.

Yarım saat, bir saat oturdu, bu cür boş-boşuna oturmaqdan bərk darıxdı; əcəba, bu adamlar kimi burada günlərlə, həftələrlə və hətta illərlə yaşamaq olarmı? Andrey Yefimıç darıxdığından oturur, gəzir, yenə da oturardu; gedib pəncərədən bayıra baxmaq və otaqda var-gəl eləmək olar. Bəs sonra? Büt kimi hey bu cür oturub düşünməkdən nə çıxar? Yox, bu mümkün deyil.

Andrey Yefimıç uzandı, lakin tez ayağa qalxdı, xalatının qolu ilə alnının tərini sildi və üzü quru balıq qoxusu verdiyini hiss etdi. Yenə otaqda gəzinməyə başladı. Qollarını heyrətlə açaraq dedi:

– Burada anlaşılmazlıq var... Məsələni aydınlaşdırmaq lazımdır, mütləq anlaşılmazlıq var...

Bu zaman İvan Dmitriç yuxudan oyandı. Çarpayısında oturub yumruqlarını yanaqlarına dayadı. Tüpürdü. Sonra tənbəl-tənbəl doktora baxdı və yəqin ki, ilk dəqiqə heç bir şey anlamadı; lakin az sonra onun yuxulu üzü acıqlı və istehzalı bir şəkil aldı. Gözünün birini qıyaraq, yuxulu səsi ilə xırıldadı:

– Aha, dostum, sizi də buraya basdılar! Çox şadam, vaxt var idi siz adamların qanını içirdiniz, indi isə sizinkini içəcəklər. Gözəl işdir!

Andrey Yefimıç İvan Dmitriçin sözlərindən qorxaraq:

– Burada bir növ anlaşılmazlıq var, – dedi, çiyinlərini qısdı və: – Bir növ anlaşılmazlıq var, – deyə təkrar etdi.

İvan Dmitriç yenə tüpürüb yerinə uzandı.

– Mənhus həyat! – deyə donquldandı. – Bu həyatın, çəkilən iztirablar qarşısında mükafatla, opera apofeozu ilə deyil, ölümlə bitəcəyini düşünmək nə qədər acı, nə qədər ağırdır! Ölən kimi mujiklər gəlib qol-qıçından yapışacaq və səni zirzəmiyə atacaqlar. Uf! Zərər yoxdur... O dünyada da bizim kefimiz kök olacaqdır. Mən o dünyadan kabus kimi buraya gəlib bu əclafları qorxudacağam. Məni gördükdə qorxudan saçları, saqqalları ağaracaq.

Moyseyko qayıtdı və doktoru gördükdə əlini ona uzadıb dedi:

– Bir qəpik sədəqə ver!

XVIII

Andrey Yefimıç pəncərəyə yanaşıb çölə baxdı. Hava qaralırdı, üfüqdə, sağ tərəfdən soyuq və tünd qırmızı ay çıxmaqda idi. Xəstəxana barısının təqribən yüz sajanlığında daş divarla hasarlanmış uca bir ev vardı. Bu, həbsxana idi.

"Bax, həqiqət budur!" – deyə Andrey Yefimıç düşündü və onu dəhşət bürüdü.

Ay da, həbsxana da, hasarın üstünə çalınmış mıxlar da, sümükyandıran zavodun uzaq alovu da dəhşətli idi. Arxa tərəfdən iniltili səs eşidilirdi. Andrey Yefimıç geri döndü, döşündə parlaq ulduzları və ordenləri olan bir adam gördü, bu adam gülümsəyir nə hiyləgərcəsinə göz vururdu. Bu da Andrey Yefimıça dəhşətli göründü.

Andrey Yefimıç öz-özünü inandırırdı ki, ayda da, həbsxanada da qəribə bir şey yoxdur, ruhən sağlam olan adamlar da orden taxırlar və bütün bunlar vaxtilə çürüyüb torpağa dönəcəklər, lakin birdən onu elə bir ümidsizlik qapladı ki, hər iki əli ilə barmaqlıqdan yapışıb var gücü ilə onu silkələdi. Möhkəm barmaqlıq heç qımıldanmadı da.

Sonra qorxusu artmasın deyə gedib İvan Dmitriçin yanında oturdu. O, titrəyərək və alnının soyuq tərini silərək dedi:

– Ruhdan düşdüm, əzizim. Ruhdan düşdüm. İvan Dmitriç istehza ilə ona dedi:

– Siz hələ bir az da filosofluq eləyin.

– Aman Allah, aman Allah... Elədir, elədir... Siz, gərək, demişdiniz ki, Rusiyada fəlsəfə yoxdur, amma hər kəs, hətta xırda-xuruş adamlar da filosofluq edir. Axı bu cür adamların filosofluq etməsinin heç kəsə zərəri yoxdur, – deyə Andrey Yefimıç ağlamaq istəyən və qarşısındakının ürəyini yumşaltmağa çalışan bir adam kimi dilləndi. – Daha bu cür istehzalı gülüş nəyə lazımmış? Bu xırda-xuruş adamlar təmin olunmadıqları halda, necə filosofluq etməsinlər? Ağıllı, mərifətli, məğrur, azadlıq sevən, Allah sifətli bir şəxs üçün çirkin, sarsaq bir şəhərə aralıq hakimi getməkdən və ömrünü küpə qoymaq, zəli salmaq, qan aldırmaqla keçirməkdən başqa çıxış yolu yoxdur. Bu qədər şarlatanlıq, məhdudluq, bayağılıq olar? Ay Allah!

– Siz axmaq söz danışırsınız. Aralıq həkimi olmağı bəyənmirdinizsə, nazir gedəydiniz.

– Heç yerə, heç yerə mümkün deyil. Biz acizik, əzizim. Əvvəllər mən laqeyd idim, sağlam və ağıllı mühakimələr yürüdürdüm, ancaq həyat qaba bir surətdə mənə toxunan kimi ruhdan düşdüm... Bu, yorğunluq nəticəsi idi... Biz zəifik, yaramazıq... Siz də beləsiniz, mənim əzizim. Siz ağıllısınız, alicənabsınız, ana südü ilə birlikdə sizə gözəl hisslər aşılanmışdır, lakin həyata qədəm qoyan kimi yorulub xəstələnmisiniz... Zəifsiniz, zəif!

Qaranlıq çökəndə Andrey Yefimıçı, qorxu və inciklik hissindən başqa, zəhlətökən bir şey də yormağa başladı. Nəhayət, o, başa düşdü ki, xətri pivə və papiros istəyir.

– Mən buradan çıxacağam, əzizim, – dedi. – Deyəcəyəm buraya işıq gətirsinlər... Dözə bilmirəm... qüvvəm çatmır...

Andrey Yefimıç gedib qapını açdı, lakin Nikita cəld yerindən sıçrayıb onu qabaqladı:

– Hara gedirsiniz? Olmaz, olmaz! – dedi. – Yatmaq vaxtıdır!

Andrey Yefimıç tələsik dedi:

– Mən ancaq bircə dəqiqə həyətdə gəzmək istəyirəm!

– Olmaz, olmaz, buyruq yoxdur. Özünüz ki, yaxşı bilirsiniz.

Nikita qapını çırpdı və arxasını qapıya dayadı.

Andrey Yefimıç çiyinlərini qısaraq soruşdu:

– Mən buradan çıxsam, kimə zərər toxuna bilər? Başa düşə bilmirəm! – Sonra titrək bir səslə dedi: – Nikita, mən çıxmalıyam! Mənə lazımdır!

Nikita öyüd tərzində dedi:

– Qayda-qanunu pozmayın, yaxşı deyil!

İvan Dmitriç birdən:

– Bu nə oyundur, belə də iş olar? – deyə bağırdı və yerindən sıçradı. – Onun nə haqqı var buraxmasın? Onlar nə cəsarətlə bizi burada saxlayırlar? Qanunda, gərək ki, aydın deyilir: heç kəs məhkəməsiz, azadlıqdan məhrum edilə bilməz! Bu zorakılıqdır! Özbaşınalıqdır!

Andrey Yefimıç İvan Dmitriçin bağırmasından ürəklənərək dedi:

– Əlbəttə, özbaşınalıqdır! Mənə lazımdır, ona görə də çıxmalıyam! Onun haqqı yoxdur! Burax, sənə deyirəm!

İvan Dmitriç:

– Eşitmirsən, qanmaz heyvan? – deyə bağırdı və yumruğu ilə qapını döydü. – Aç, yoxsa qapını sındıraram! Qaniçən!

Andrey Yefimıç bütün vücudu ilə əsərək çığırdı:

– Aç qapını! Mən tələb edirəm!

Nikita qapı dalından:

– Danış görək! – deyə cavab verdi. – Danış!

– Heç olmasa Yevgeni Fyodoriçi buraya çağır! De ki, səni Andrey Yefimıç bir dəqiqəliyə yanına çağırır! – Sabah özü gələcəkdir.

İvan Dmitriç sözünə davam edərək dedi:

– Bizi heç vaxt buraxmayacaqlar! Burada çürüdəcəklər. Pərvərdigara, doğrudanmı o dünyada cəhənnəm yoxdur və bu alçaq həriflər bağışlanacaqlar! Bəs ədalət hanı? Aç qapını, yaramaz, bağrım çatladı! – deyə o, cır səslə qışqırdı və qapıya təkan verdi. – Vurub başımı partladaram! Qatillər!

Nikita tez qapını açdı, əlləri ilə, dizi ilə Andrey Yefimıçı kobud surətdə itələdi, sonra qolaylanıb üzünə bir yumruq ilişdirdi. Andrey Yefimıça elə gəldi ki, guya başından böyük bir dalğa aşdı və onu çarpayıya doğru sürüklədi; ağzı doğrudan da şor olmuşdu; ehtimal ki, dişləri qanamışdı. Üzüb dalğanın üstünə çıxmaq istəyirmiş kimi, əllərini havada yırğalamağa başladı və kimin isə çarpayısından yapışdı, bu zaman Nikitanın iki dəfə kürəyinə vurduğunu hiss etdi.

İvan Dmitriç ucadan bağırdı, yəqin onu döyürdülər. Sonra hər şey sakitləşdi. Ay işığı barmaqlıqdan keçərək döşəməyə tor kimi

şəbəkəli kölgə salmışdı. Adamı vahimə bürüyürdü. Andrey Yefimıç nəfəsini gizlətmişdi: onu bir daha vuracaqlarını qorxu ilə gözləyirdi. Sanki bir adam orağı qapıb onun sinəsinə və bağırsaqlarına saplamış və burmuşdu. Ağrının gücündən yastığı dişləyirdi, dişlərini bərk-bərk qıcamışdı; birdən bu hərc-mərclik içində başından dəhşətli, dözülməz bir fikir keçdi: ayın işığında indi qara kilkələr kimi görünən bu adamlar da, demək, illər boyu hər gün onun bu saat hiss etdiyi ağrıları, işgəncələri keçirmişlər. Necə olmuşdur ki, o iyirmi il ərzində bu zavallıların çəkdiyi əzab və iztirabdan xəbəri olmamış və bunu bilmək də istəməmişdir. O, ağrının nə olduğunu bilmirdi, demək müqəssir deyildi, lakin Nikita kimi lal və qaba olan vicdan onu təpədən dırnağa qədər soyumağa məcbur etdi. Andrey Yefimıç yerindən dik atıldı, var gücü ilə bağırmaq, Nikitanı, sonra Xobotovu, nəzarətçini və feldşeri, axırda da özünü öldürmək üçün tez qaçmaq istədi, lakin sinəsindən heç bir səs çıxmadı, ayaqları da ona tabe olmadı, o, hirsindən təngnəfəs olub əynindəki xalatı və köynəyi parçaladı, döşəməyə sərələnib özündən getdi.

XIX

Ertəsi gün səhər onun başı bərk ağrıyır, qulaqları uğuldayırdı, bütün bədəni əzgin, taqətsiz idi. Dünənki zəifliyini xatırlayarkən, utanmır, sıxılmırdı. Dünən o, qorxaqlıq göstərir, hətta aydan da qorxurdu, qabaqlarda heç ağlına gətirmədiyi hissləri və fikirləri, məsələn, filosofluq edən xırda-xuruş adamların təmin edilmədiyi fikrini səmimiyyətlə ifadə edirdi. İndi isə ondan ötrü heç bir şeyin fərqi yox idi.

O, yemir, içmir, hərəkətsiz uzanır və qusurdu.

Ona sual verəndə: "Məndən ötrü fərqi yoxdur, – deyə düşünürdü. – Cavab verməyəcəyəm... Məndən ötrü fərqi yoxdur".

Nahardan sonra Mixail Averyanıç gəlib ona bir çetvər çay, bir girvənkə də marmelad gətirdi. Daryuşka da gəldi, qüssəli-qüssəli düz bir saat onun çarpayısının yanında hərəkətsiz dayandı. Doktor Xobotov da onu ziyarət etdi. O bir şüşə bromlu kalium gətirmişdi. Nikitaya tapşırdı ki, palataya dərman qoxusu versin.

Axşama yaxın Andrey Yefimıç apoplektik zərbədən öldü. Əvvəlcə özündə sarsıdıcı bir üşütmə və ürəkbulanma hiss etdi; elə

bil murdar bir şey bütün bədənini, hətta barmaqlarını bürüyərək, mədəsindən başına yayıldı, gözlərini və qulaqlarını qapladı. Gözlərində yaşıl işıltılar əmələ gəldi. Andrey Yefimıç əcəlinin çatdığını anladı və İvan Dmitriçin, Mixail Averyanıçla və milyonlarla adamların əbədiyyətə inandıqlarını xatırladı. Bəlkə əbədiyyət var? Lakin o bu əbədiyyəti istəmirdi, bunu yalnız bir anlığa düşünmüşdü – dünən kitabda oxuduğu fövqəladə gözəl və zərif bir maral sürüsü gözünün önündən keçdi; sonra bir arvad ona məktub uzatdı... Mixail Averyanıç nə isə bir söz dedi. Sonra hər şey yox oldu və Andrey Yefimıç əbədi yuxuya getdi.

Mujiklər gəlib onun qol-qıçından yapışdılar və ibadətxanaya apardılar, stol üstünə uzatdılar. Andrey Yefimıçın gözləri açıq qalmışdı, ay işığı üstünə düşmüşdü. Səhər Sergey Sergeiç gəlib çarmıxa çəkilmiş İsanın təsviri qarşısında dua oxudu və keçmiş müdirinin gözlərini qapadı. Ertəsi gün Andrey Yefimıçı dəfn etdilər. Dəfndə Mixail Averyanıçdan və Daryuşkadan başqa heç kəs yox idi.

1892

ALEKSEY MAKSİMOVİÇ QORKİ

(1868–1936)

MAKAR ÇUDRA

(hekayə)

Dənizdən əsən rütubətli və soyuq külək sahilə tərəf yeriyən dalğaların həzin melodiyasını və sahildəki kolların xışıltısını düzənliyə yayırdı. Bəzən şiddətli külək kolların qurumuş və bürüşmüş yarpaqlarını gətirib ocağa atır, alovu artırırdı; bizi əhatə edən payız gecəsinin qaranlığı diksinir və qorxaqcasına kənara çəkilirdi; bir an üçün, sol tərəfdən intəhasız düzənlik, sağdan isə ucsuz-bucaqsız dəniz və qarşımda qoca qaraçı Makar Çudra aydın görünürdü; o bizdən əlli addım uzaqda yerləşmiş və qaraçı köçünün atlarının keşiyini çəkirdi.

Makar, arxalığının yaxasından soxularaq tüklü sinəsinə amansız surətdə dəyən küləyə etina etmədən, üzü mənə tərəf olaraq, sərbəst bir vəziyyətdə uzanmışdı; böyük çubuğunu müntəzəm surətdə sorur, qalın tüstünü ağzından və burnundan ətrafa buraxırdı. O, gözlərini başımın üstündən düzənliyin ölü kimi sakit qaranlığına dikib, küləyin sərt zərbələrindən qorunmaq üçün heç bir hərəkət etmir və aramsız surətdə mənimlə danışırdı.

– Deməli, sən gəzirsən? Yaxşı işdir! Özünə yaxşı peşə tapmışsan, laçınım. Belə də lazımdır, gəz, gör, tamaşadan doyduqdan sonra uzan, öl – vəssalam!

Onun "belə də lazımdır" sözünə etdiyim etirazı şübhə ilə dinləyib, davam etdi:

– Həyatmı? Başqa adamlarmı? Eh! Bunlar nəyinə lazımdır? Məgər sən özün həyat deyilsənmi? Adamlar sənsiz yaşayırlar, bundan sonra da yaşayacaqlar. Yoxsa, elə bilirsən ki, sən bir adama lazımsan? Sən nə çörəksən, nə də əl ağacı, odur ki, heç kəsə lazım deyilsən.

– Öyrənmək və öyrətmək deyirsən? Sən insanları xoşbəxt etməyi öyrənə bilərsənmi? Yox, bilməzsən. Əvvəl qoy başın ağarsın, sonra öyrətməkdən danış. Nə öyrədəcəksən? Hər kəs özünə lazım olan şeyi bilir. Ağıllılar gördüklərini götürürlər, axmaqlar isə heç bir şey götürmürlər, hər kəs özü öyrənir.

– Sənin dediyin adamlar gülməlidirlər. Bir yerə toplaşıb, basırıq salırlar, halbuki dünyada nə qədər boş yer var, – o, bunu deyərək, əlini geniş açıb, çölə uzatdı, – hamısı da işləyir. Nə üçün? Kimə? Heç kəs bilmir. Görürsən biri yer şumlayır, düşünürsən: bax, bu kişi qan-tər töküb, torpağın üstündə işləyir, axırda da uzanıb, həmin torpağın içində çürüyəcək. Dünyada bir əsər-əlaməti də qalmayacaq, şumladığı yerdən o yanı görmür, axırda da axmaq doğulduğu kimi, axmaq da öləcəkdir.

– Məgər o, yer qazmaq üçün doğulub ki, axırda da, özü üçün bir qəbir qazmağa belə macal tapmadan ölüb getsin? Azadlığın nə olduğunu bilirmi? Geniş çöllərin nə olduğunu başa düşürmü? Dəniz dalğalarının söhbəti onun ürəyini açırmı? O, dünyaya qul gəlib, bütün ömrünü də qul kimi keçirib gedəcək. O özünə nə eləyə bilər? Bir az ağıllansa, özünü boğub öldürər.

– Amma mənim, budur bax, əlli səkkiz yaşım var. Dünyada gördüklərimi kağıza yazsan, sənin torban kimi min torba tutmaz. Sən bir de görüm mən hansı ölkələrdə olmamışam? Deyə də bilməzsən. Mən gəzdiyim ölkələri sən heç tanımırsan. Dünyada belə yaşamaq gərəkdir: gəz, gəz, vəssalam! Bir yerdə çox dayanmaqdan nə çıxar?! Gecə ilə gündüz bir-birini qova-qova yerin ətrafında qaçan kimi, sən də həyatdan usanmaq üçün həyat barəsində düşünməkdən qaç! Düşünsən, həyatdan zəhlən gedər. Həmişə belə olur. Mənim də başıma gəlib. Eh! Gəlib, laçınım!

– Qaliçinada həbsxanada oturmuşdum. Bir gün ürək sıxıntısından başıma belə bir fikir gəldi: "Dünyada nə üçün yaşayıram?" Həbsxana adamı darıxdırır, eh, yaman darıxdırır, laçınım! Pəncərədən çölə baxanda ürəyim tutuldu, elə bil, ürəyimi kəlbətinlə sıxdılar. Kim özünün nə üçün yaşadığını deyə bilər? Heç kəs deyə bilməz, laçınım! İnsan heç özünə bu sualı verməməlidir. Yaşa, vəssalam. Gəz, aləmi seyr elə, ürəyinə heç bir qəm-qüssə girə bilməz. Amma onda mən az qalmışdı toqqamla özümü boğum!

– He! Mən bir adamla söhbət eləyirdim. Sizin ruslardan idi, ciddi bir kişi idi. O deyirdi ki, adam öz kefi istədiyi kimi yox, Allah buyuran kimi yaşamalıdır. Allaha itaət elə ki, o da istədiyin şeyi sənə versin. Özünün isə paltarı tamam cır-cındır idi. Mən ona

dedim ki, özün üçün Allahdan bir dəst paltar istə. Hirsləndi və məni söyüb qovdu. Ondan bir az əvvəl deyirdi ki, insanları bağışlamaq və sevmək lazımdır. Mənim sözlərim ona toxunmuş olsa da, bağışlamalı idi. Bu da bir növ müəllim idi! Beləlṙi xalqa "az yeyin" deyirlər, özləri isə gündə on dəfə yeyirlər.

Makar tonqala tüpürüb susdu və çubuğunu yenidən doldurmağa başladı. Külək həzin-həzin və sakitcə vıyıldayırdı. Qaranlıqda atlar kişnəyir, qaraçı köçündən zərif və həris bir nəğmə eşidilirdi. Oxuyan Makarın qızı gözəl Nonka idi. Onun sinədən gələn gur səsini tanıyırdım. Bu səsdə mahnı oxuyanda da, salam verəndə də, həmişə bir əcaiblik, narazılıq və tələbkarlıq hiss olunurdu. Onun qaraşın sifətində çariçaya məxsus bir qürur müşahidə olunurdu; üstünə kölgə düşmüş kimi görünən qara gözlərində öz gözəlliyinə və cazibədarlığına qarşı bir iftixar parlayır və özündən başqalarına bir həqarət cilvələnirdi.

Makar çubuğunu mənə uzatdı.

– Çək. Qız yaxşımı oxuyur? Belə bir qızın səni sevməsini istərdinmi? Yox? Yaxşı! Belə də olmalıdır, qızlara etibar eləmə və onlardan uzaq gəz. Qızla öpüşmək – mənim çubuq çəkməyimdən daha yaxşı və ləzzətlidir, amma elə ki, öpdün qəlbindəki azadlıq da ölür. Səni görünməz və qırılmaz bir şeylə özünə bağlayır və sən tamam qəlbini ona verirsən. Doğru deyirəm! Qızlardan özünü gözlə! Onlar həmişə yalan danışırlar! "Səni dünyada hər şeydən artıq sevirəm" deyirlər, lakin bir sancaq batıran kimi, əlbəttə parçalayırlar. Mən onları tanıyıram! Eh, elə tanıyıram! İstəyirsən sənə bir əhvalat söyləyim, laçınım? Onu yadında saxla: saxlaya bilsən, həmişə azad quş kimi olarsan.

"Zobar adında gənc bir qaraçı var idi. Loyko Zobar. Bütün Macarıstan, Çexiya, Sloveniya və sahilboyundakı bütün yerlərdə onu tanıyırdılar, – qoçaq oğlan idi! O ətrafda bir kənd yox idi ki, orada beş-altı adam Loykonu öldürmək üçün and içməmiş olsun. Loyko isə istədiyi kimi dolanırdı. Birinin atı xoşuna gəldimi, at bir polk soldatın arasında olsa da, Zobar onu minib, çapacaq idi! Bir adamdan da qorxusu yox idi. Şeytan özü qoşunu ilə onun üstünə gəlsəydi, Zobar ona bir bıçaq soxmasaydı da, mütləq möhkəm söyər, hər birinin ağzına bir yumruq vurardı – başqa cür ola bilməzdi!

Bütün qaraçı köçləri onu tanıyırdılar, ya da adını eşitmişdilər. Onun atdan başqa heç bir şeydən xoşu gəlməzdi, atı da çox saxlamazdı. Bir az minəndən sonra satıb, pulunu da ona-buna paylardı. Onun üçün əziz bir şey yox idi. Ürəyi sənə lazım olsaydı, ancaq sənin könlün xoş olsun deyə o, ürəyini çıxarıb sənə verərdi. O, belə oğlan idi, laçınım!

O vaxt bizim köçümüz Bukovinada düşmüşdü. On il bundan əvvəl idi, yadımdadır bir dəfə bahar gecələrindən birində əyləşmişdik, mən idim, Koşut ilə müharibədə olmuş soldat Danilo idi, qoca Nur idi, başqaları da var idi. Danilonun qızı Radda da orada idi.

Mənim Nonkamı tanıyırsanmı? Lap padşah qızıdır! Amma Raddanı onunla müqayisə etmək olmaz, bu, Nonka üçün böyük bir şərəf olardı! Raddanı söz ilə tərif eləmək olmaz. Onun gözəlliyini bəlkə kamançada çalmaq olar və bunu çalan adam da kamançanı öz canı kimi sevməlidir.

O, çox cavanların ürəyini həsrət oduna yandırdı, bəli, çox ürəklər yandırdı! Moravada qoca, kəkilli bir mülkədar onu görəndə mat qaldı. Atın üstündə oturaraq, ona baxır, sanki isitmə içərisində titrəyirdi. Çox gözəl kişi idi, at ayaqlarını yerə vurduqca güləbətinli çuxası, yanından asılmış qılıncı ildırım kimi parıldayırdı. Qılıncı başdan-başa göyün bir parçasına bənzəyirdi. Qoca, təşəxxüslü mülkədar idi. Raddaya baxıb-baxıb: – Ay qız, məni öp, sənə bir kisə pul verərəm! – dedi. Radda cavab verməyib yalnız üzünü kənara çevirdi. Qoca mülkədar davam edərək: -Sözümdən incidinsə, bağışla – deyib, qızın ayağının altına bir kisə, böyük bir kisə pul atdı. Radda etinasızlıqla kisəni ayağı ilə palçığın içinə saldı. Mülkədar bunu görüncə:

– Eh, yamanca qızsan! – deyib, atını qamçıladı, atın ayaqları altından bulud kimi toz qalxdı.

Ertəsi gün yenə gəldi və obada ildırım kimi guruldayaraq: – Onun atası kimdir? – deyib bağırdı. Danilo qabağa yeridi. – Qızını mənə sat, nə istəyirsən verim! – Ona dedi: – Donuzdan tutmuş vicdanlarınadək hər şeylərini satmaq – panların peşəsidir. Mən isə Koşut ilə yanaşı müharibədə olmuş adamam, alış-veriş edən deyiləm! – Ağa hirsindən bağırıb qılıncına əl atdı. Lakin bizim cavanlardan biri onun atının qulağına yanar qov soxduğundan, at onu götürüb qaçdı. Biz də yığışıb oradan köçdük. İki gün yol getdikdən sonra, yenə gəlib bizə çatdı! – Ay camaat, Allahın və sizin qarşınızda vicdanım təmizdir, siz gəlin, qızı mənə arvadlığa verin, mən çox dövlətli adamam, var-yoxumu sizinlə bölərəm, -dedi. Dili danışırdısa da, bədəni at üstündə, yarpaq külək qabağında əsən kimi, əsirdi. Biz fikrə getdik.

Danilo qızından yavaşca soruşdu:

– Qızım, cavabın nədir, söylə!

– Qaraquş öz xoşu ilə qarğa yuvasına getsə, – o nə olar? – deyə Radda bizdən soruşdu.

Danilo və biz hamımız bu sözə güldük.

– Afərin, qızım! Eşitdinmi, ağa? İş düzəlmir! Özünə başqa bir yar axtar.

Bunu deyib, yola düşdük.

Ağa isə qeyzindən papağını yerə çırpıb, atını elə çapdı, elə çapdı ki, yer titrədi. Radda belə bir qız idi, laçınım!

Bəli! Bir dəfə gecə vaxtı əyləşmişdik, düzənlikdən musiqi səsi gəldi. Gözəl musiqi idi! Eşidənlərin damarlarında qan qaynamağa başlayır və onları naməlum bir yerə çəkirdi. Hamımıza elə gəlirdi ki, bu musiqini eşitdikdən sonra dünyada yaşamaq lazım deyil, yaşasan da, gərək cəmi dünyaya ağalıq edəsən, laçınım!

Budur, qaranlıqdan bir at çıxdı, onun üstündə bir nəfər çala-çala bizə tərəf gəlirdi. Tonqalın yanında dayandı, çalğını buraxıb gülə-gülə bizə baxmağa başladı. Danilo onu görüncə şadlıqla qışqırdı:

– Ehe, Zobar, sənsən! – Bu, Loyko Zobar idi.

Çiyninədək uzanmış bığları qıvrım saçlarına qarışmışdı; gözləri ulduz kimi şəfəq verirdi; gülüşü isə, vAllah, bir günəşdi! Onun atı ilə özünü sanki dəmirçi bir parça dəmirdən döymüşdü. Alovun işığında qana bulanmış kimi dayanıb, dişlərini parıldadaraq, gülürdü. O hələ məni dindirməmişdi və ya mənim də bu dünyada yaşadığımı görməmişdi, amma mən onu özüm kimi sevmədimsə, lənətə gəlim!"

Dünyada belə adamlar da var, laçınım! Bir dəfə gözlərinə baxmaqla ruhunu əsir edir, sən isə xəcalət çəkməyib, hətta fəxr edirsən. Belə adamla yaşadıqda sən özün də onun kimi birdən-birə yaxşı olursan. Belə adamlar dünyada azdır, dostum! Az olmağı da yaxşıdır! Dünyada yaxşı şey çox olsa idi, qiymət verən olmazdı! Bəli, bəli! İndi ardına qulaq as.

"Radda dedi: – Loyko, sən nə yaxşı çalırsan! Belə gözəl səs və həssas kamançanı sənin üçün kim düzəldib? Loyko gülüb dedi: – Özüm düzəltmişəm! Həm də bunu taxtadan yox, sevdiyim cavan bir qızın sinəsindən hazırlamışam. Simlərini onun ürəyindən çəkmişəm. Hələ də bir az yaxşı çalmır, amma mən yayı əlimdə möhkəm tutmağı bacarıram!

Məlum işdir, oğlanlar həmişə, ürəklərini yandırmasın deyə, qızların gözlərini dumanlatmağa çalışır və onları özlərinə cəlb edib, ürəklərini həsrətlə doldururlar. Loyko da belələrindəndi. Amma beləsinə rast gəlməmişdi. Radda üzünü o biri tərəfə döndərdi və əsnəyib: – Zobar ağıllı və qoçaqdır deyirdilər – insanlar nə yalançı imiş! – deyib uzaqlaşdı.

– Ehe, gözəl qız, sənin dişlərin iti imiş! – deyib, gözləri qızarmış Loyko atdan düşdü. – Xoş gördük, qardaşlar! Budur, mən də sizə qonaq gəldim!

Danilo cavabında: – Qonaq buyursun! – dedi, öpüşdük bir az söhbət edəndən sonra yatdıq... Çox bərk yatdıq. Səhər oyanarkən Zobarın başını dəsmalla sarınmış gördük. Bu nədir? Gecə yuxuda ikən onu at təpiklə vurub, dedilər.

E-ee!.. Mən və Danilo gülümsündük, hansı atın onu vurduğunu anladıq. Loyko Raddaya layiq deyildimi? Amma di gör ki, başqa idi. Qız nə qədər gözəl olsa da, ürəyi dar və dayaz idi. Boynundan bir pud qızıl assaydın da fərqi yox idi. Olduğu kimi qalacaqdı. O belə idi!

Bir neçə müddət orada yaşadıq. İşlərimiz o vaxtlar yaxşı gedirdi. Zobar da bizimlə bir yerdə idi. Yaxşı yoldaş idi! Yaxşı adamlar kimi ağıllı, hər bir şeydən xəbərdar, madyarca və rusca savadlı idi. Danışmağa başlayanda yüz il yatmayıb, onun söhbətinə qulaq asmaq istərdin, amma necə çalğı çalırdı!.. Əgər dünyada onun kimi bir çalğıçı varsa, başıma ildırım düşsün! Yayını bir dəfə simə çəkəndə qulaq asan adamın ürəyi yerindən oynayır, ikinci dəfə çəkəndə isə elə bil qulaq asa-asa adamın ürəyi dincəlirdi. Loyko isə, çalıb gülürdü. Onu dinlərkən insan həm gülmək və həm də ağlamaq istəyirdi. Elə bil kamançasının altından biri nalə edib, kömək istəyir və nalə də adamın ürəyini yandırır, elə bil ki, çöl göylərə qəmgin nağıllar söyləyirdi. Sevimli cavanı yola salan bir qız ağlayırdı! Sevimli cavan qızı çölə çağırırdı. Birdən – hey! – deyə bir səs eşidilirdi. Sərbəst ürək açan bir nəğmə gur-gur guruldayırdı, elə bil ki, günəş özü də bu nəğmənin səsinə göydə rəqs edirdi. Bax, belə, laçınım!

Adamın bütün damarları o nəğməni duyurdu, adam o nəğməyə qul olurdu. O vaxt Loyko: "Bıçaqlara əl atın, yoldaşlar!" – deyə bağırsaydı, hamımız onun göstərdiyi adamla bıçaq döyüşünə atılardıq. O, adama hər nə istəsəydi edərdi, hamı onu sevirdi, bərk sevirdi. Yalnız Radda ona etina etmir və bununla da kifayətlənməyib,

istehza edirdi. Qız, Zobarın ürəyini yandırmışdı, yaman yandırmışdı! Dişlərini qıcıdır, bığlarını yolurdu, gözləri dərinə düşmüşdü, bəzən də gözlərində, baxanları dəhşətə gətirən bir parıltı görünürdü. Gecələr igid Loyko düzə çəkilir və orada kamançasını sübhə kimi ağladırdı, kamançanın səsi sanki Zobarın iradəsini əlindən alırdı. Biz də uzanıb qulaq asır və düşünürdük: nə etməli? Bunu da bilirdik ki, bir-birinin üstünə yumalanan iki daşın arasına girən, yəqin əziləcəkdir. İş belə idi!

Bir dəfə hamımız bir yerə yığılıb, işdən danışırdıq. Kefimiz bir qədər pozuldu. Danilo Loykodan xahiş etdi: "Zobar, bir az oxu, ürəyimiz açılsın!" Zobar gözünü, bir az kənarda arxası üstə uzanıb, göyə tamaşa edən Raddaya dikib, simləri səsləndirdi. Kamança doğrudan da bir qız qəlbi kimi tərənnüm etdi və Loyko oxudu:

Hey-hey, könlüm odlanır,
Çöl isə çox uzanır!
Mənim acıqlı atım
Yel kimi qanadlanır!

Radda başını qaldırıb çevrildi və oxuyanın gözünün içinə baxıb güldü. Loyko dan yeri kimi alışdı.

Hey-hey, uç, apar,
Atım, məni irəli!
Bürümüş qaranlıqlar
Nəhayətsiz çölləri!
Orda bizi gözləyir
Qızıllanan dan yeri!
Uçub qarşılayaq gəl,
Qızaran şəfəqləri!
Hey-hey, durmadan
Yüksəklərə uçaq biz.
Ayın qıvrım saçına
Ancaq toxunmayaq biz!

Gözəl oxuyurdu! İndi daha heç kəs belə oxumur! Radda isə su süzülmüş kimi dedi:

– O qədər də yüksəklərə uçma, Loyko! Sonra ağzı üstündə bataqlığa yıxılarsan, bığların bulaşar Loyko vəhşi heyvan kimi ona baxıb durdu. Bir söz demədi. Oxumasına davam etdi:

Hey-hey, gün gəlib
Bizi yatmış görəcək,
Hey-hey... Onda üzümüz
Utanıb qızaracaq!

– Nəğmə buna deyərlər! – deyə Danilo səsləndi. – Ömrümdə belə nəğmə eşitməmişəm. Yalan deyirəmsə, Allahın lənətinə gəlim!

Qoca Nurun gah bığları tərpəşir, gah da çiyinləri qısılıb açılırdı. Zobarın bu gözəl nəğməsi hamının ürəyinə yapışdı, təkcə Raddaya xoş gəlmədi.

– Bir gün ağcaqanad da qaraquşun nərəsini bu cür yamsılamışdı, – deyə Radda cavab verdi; elə bil ki, üstümüzə soyuq su tökdülər.

Danilo qızına yönəlib:

– Radda, bəlkə könlün qamçı istəyir? – dedi.

Zobar isə acığından yer kimi qapqara qaraldı və papağını yerə çırpıb dedi:

– Dayan, Danilo! Harın ata polad yüyən lazımdır! Qızını mənə ərə ver!

Danilo cavabında:

– Əcəb söz danışırsan! – deyə güldü. – Bacarırsansa al, – dedi.

Loyko:

– Çox gözəl! – deyib, üzünü Raddaya tutdu: – Ay qız, çox lovğalanma, bir az məni dinlə! Sənin kimilərini çox görmüşəm ey, çox görmüşəm! Ancaq heç biri mənim ürəyimə sənin qədər yatmamışdır. Eh, Radda, sən mənim ruhumu əsir etdin! Nə etməli? Görünür, olacağa çarə yoxdur... dünyada elə bir at yoxdur ki, adam ona minib öz-özündən qaça bilsin!.. Allahın, namusumun, sənin atanın və buradakı adamların qarşısında səni özümə arvadlığa qəbul edirəm. Ancaq mənim iradəmə qarşı durma! Mən azad bir adamam və istədiyim kimi yaşayacağam! – O, dişlərini qıcadıb, gözlərini parıldadaraq, qıza yaxınlaşdı, əlini ona uzatdı.

– Bəli, Radda çöl atının ağzına yüyən vurdu! – dedik. Amma birdən Loyko əllərini qaldıraraq, arxası üstə yıxıldı!..

Bu necə işdir? Sanki cavanın ürəyinə bir güllə dəydi. Demə, Radda qayış qamçını onun ayağına dolayıb, özünə tərəf çəkmiş və Loykonu yıxmışdı.

Radda yenə sakitcə uzanıb, qımıldanmadan gülürdü. Biz baxıb, işin axırını gözləyirdik. Loyko yerdə oturub, əllərilə başını sıxırdı, sanki başı bu saat partlayacaqdı. Sonra sakitcə qalxıb, kimsəyə baxmadan çölə üz tutdu. Nur mənə pıçıldayıb: – Onu gözdən qoyma! – dedi. Mən də gecənin qaranlığında onun dalınca düzənliyə yollandım. Belə-belə işlər, laçınım!.."

Makar çubuğunun külünü boşaldıb, yenidən doldurmağa başladı. Mən şinelə daha bərk bürünüb, yerdə uzandığım halda onun gündən və küləkdən qaralmış qoca üzünə baxırdım. Başını qaşqabaqlı və ciddi bir halda aşağı salıb, dodağı altında danışırdı: çal bığları əsirdi, külək saçlarını qarışdırırdı. O, indi, ildırımdan yanmış, lakin möhkəm, məğrur və öz qüvvəsinə güvənən bir palıd ağacına bənzəyirdi. Dəniz əvvəlki kimi sahillə söhbətinə davam edir, külək də bu söhbəti çölə yayırdı. Nonka daha oxumurdu, göyün üzünü tutmuş buludlar payız gecəsini daha da qaranlıq etmişdi.

"Loyko başını aşağı dikərək və qollarını qamçı kimi yanına salaraq, yavaş-yavaş gedirdi. Çayın kənarına yetişib, daşın üstündə oturdu və dərindən bir ah çəkdi. Onun çəkdiyi ah, ürəyimi qana döndərdi; lakin özümü saxlayıb ona yaxınlaşdım. Sözlə dərdə əlac etmək olmaz, deyilmi?! Əlbəttə! Bir saat keçdi, iki saat keçdi, amma Loyko daşın üstündə əyləşib tərpənmirdi.

Mən bir kənarda uzanmışdım. Aydınlıq gecə idi, çöl ayın gümüş işığına qərq olmuşdu, hər yan görünürdü.

Bir də baxdım, köç tərəfdən Radda tələsik gedirdi.

Ürəyim şad oldu, dedim: – Afərin sənə, qoçaq Radda!

Radda yaxınlaşdı, oturmaqda olan Loykonun xəbəri yox idi. Əlini Loykonun çiyninə qoyarkən Loyko diksinib, başını cəld qaldırdı və tez qalxıb bıçağa əl atdı! İndicə qızı öldürəcək, – dedim və gecə səs salmaq və özüm də onlara tərəf yüyürmək istədim. Birdən Raddanın səsini eşitdim:

– Burax! Yoxsa təpəni dağıdaram.

– Baxdım, Radda əlindəki tapançanı Zobarın alnına dayamışdı. Qız deyil, bir şeytan idi. İndi bunlar qüvvətcə bərabər idilər. – Görək axırı nə olacaq? – dedim.

Radda tapançanı kəmərinə taxıb, Zobara dedi:

– Qulaq ver, Zobar, bıçağı kənara at, mən səni öldürməyə yox, səninlə barışmağa gəlmişəm! – O da bıçağı atıb, qaşqabaqlı bir halda Raddanın gözünün içinə baxdı. Qəribə mənzərə idi, qardaşım! İki adam üz-üzə durub vəhşi heyvan kimi bir-birinə baxırdı, ikisi də qəşəng, qoçaq. Bu mənzərəni bir nurlu ay, bir də mən seyr edirdim.

Radda dedi:

– Mənə bax, Loyko, mən səni sevirəm! Loyko, əl-ayağı bağlı adam kimi, ancaq çiynini oynatdı. – Dünyada çox cavan görmüşəm, sən onların hamısından həm igid, həm də gözəlsən. Onların hansına göz eləsə idim, bığlarını qırxdırar, xahiş eləsə idim, ayağıma yıxılardı. Amma nə fayda! Onların heç birini igid adlandırmaq olmazdı. Mən asanlıqla onların hamısını arvada döndərdim. Dünyada igid qaraçı az qalmışdır, Loyko! Mən heç vaxt heç kəsi sevməmişəm. Loyko, amma səni sevirəm. Bir də mən azadlığı sevirəm, azadlığı səndən daha artıq sevirəm. Nə mən sənsiz yaşaya bilərəm, nə sən mənsiz. Ona görə mən istəyirəm ki, sənin qəlbin də, vücudun da mənim olsun, eşidirsənmi?

Loyko gülümsündü.

– Eşidirəm! Sənin səsini eşidəndə adamın ürəyin şad olur! Yenə danış görək!

– Bir sözüm də var, Loyko! Nə qədər o yan-bu yana çapalasan, yenə də mən sənin öhdəndən gələcəyəm. Axırda mənim olacaqsan! Ona görə vaxtı nahaq yerə itirmə: səni mənim öpüşlərim və nəvazişlərim gözləyir... Mən səni bərk-bərk öpəcəyəm, Loyko mənim öpüşlərim sənin igidlik həyatını unutduracaq, cavan qaraçıların ürəyini şad edən nəğmələrin daha düzənliklərə yayılmayacaq, sən ancaq mənə, öz Raddana məhəbbət nəğmələri oxuyacaqsan! Vaxtı itirmə. Mən sözümü dedim, sabah sən öz böyük yoldaşına itaət edən kimi, mənə itaət edəcəksən. Gərək bütün köçün qabağında mənə ikiqat təzim edib sağ əlimi öpəsən! Onda mən də sənin arvadın olaram.

Şeytan qız gör nə tələb eləyirdi! Belə bir əhvalatı eşidən belə olmamışdır! Keçmişdə belə bir adət qaradağlılar arasında varmış, qocalar danışırdılar, qaraçılar arasında isə belə şey əsla olmamışdır. Laçınım, bundan daha gülməli bir şey söyləyə bilərsənmi? Bir il baş çatlatsan da, ağlına belə bir şey gələ bilməz!

Loyko kənara çəkilib, sinəsinə güllə dəymiş kimi, qışqırdı. Onun səsi bütün düzə qayıtdı. Radda diksindi, lakin qorxduğunu bildirmədi.

– Salamat qal, mən gedirəm. Sabah mənim əmrimə əməl edərsən. Eşidirsənmi, Loyko!

– Eşidirəm! Söylədiyin kimi edərəm, – deyə Loyko əlini Raddaya uzatdı. Radda etinasızcasına dönüb getdi. Loyko acığından titrəyib, küləkdən sınmış ağac kimi yerə sərildi. O həm gülür, həm ağlayırdı.

Məlun Radda igidi yaman hala saldı. Mən onu güclə özünə gətirdim.

Ehe! İnsanların çəkdiyi bu qəm-qüssə nəyə lazımdır? Qəmdən ürəyi parçalanan adamın ah-zarına qulaq asmaq kimin xoşuna gələr? Di, gəl, baş çıxar!..

Obaya qayıdıb, gördüyümü ağsaqqallara danışdım.

– Gözləyək, görək, axırı haraya çıxır, – dedilər.

Axırı gör nə oldu. Axşamtərəfi hamımız tonqalın kənarına yığılmışdıq. Loyko da oraya gəldi. Bir gecənin içində dəyişmiş, arıqlamışdı; gözləri dərinə düşmüşdü; gözlərini yerə dikib, başını qaldırmadan dedi:

Yoldaşlar, bilirsiniz nə var? Bu gecə ürəyim baxdım. Orada keçmiş azad yaşayışdan bir əsər tapmadım. Orada ancaq bircə Raddanın yerini gördüm! Odur, baxın, gözəl Radda, şah arvadı kimi baxıb gülür. O, öz azadlığını məndən artıq sevir, mən isə onu azadlığımdan artıq sevirəm, odur ki, onun əmrinə görə, mən ona təzim etməyə gəlmişəm. Qoy hamı görsün ki, indiyədək qızlarla, laçın ördəklə oynayan kimi, oynayan Loyko Zobarın ürəyini bu qızın gözəlliyi necə əsir etmişdir. Sonra o, mənim arvadım olacaq, məni öpüb-oxşayacaq və mən də azadlığımı yaddan çıxarıb, daha sizə nəğmələr oxumayacağam! Belədirmi, Radda! deyib, qəmli bir nəzərlə onun gözlərinə baxdı.

Radda isə dinməzcə başı ilə ona razılıq verib, ayaqlarını göstərdi. Biz də kənardan baxıb, bir şey anlamırdıq. Hətta çəkilib, qəlbimizdə Loyko Zobarın qız ayağına, – bu qız Radda olsa belə – yıxılacağını görmək istəmirdik. Bu hadisə hamını utandırırdı, hamımız heyfsilənir və kədərlənirdik.

Radda:

– Haydı! – deyə Zobara qışqırdı.

Loyko polad kimi cingildəyərək güldü və dedi:

– Ehe, tələsmə, hələ mənə əziyyət verəcək günlərin qabaqdadır... – Sonra üzünü bizə tutdu:

– İş belədir, yoldaşlar! Çarəm nədir? Raddamın ürəyinin zənn etdiyim qədər möhkəm olduğunu sınamalıyam. Bağışlayın məni, qardaşlar!

Biz onun nə demək istədiyini başa düşmədik. Birdən Radda yerə sərildi. Zobarın əyri bıçağı dəstəsinədək onun sinəsinə sancılmışdı. Donub qaldıq.

Radda xəncəri köksündən çıxarıb atdı və qara saçlarını yarasına basıb güldü və uca, aydın bir səslə:

– Əlvida, Loyko! Mən bilirdim ki, sən belə eləyəcəksən!.. – deyib öldü.

Anladınmı neçə qız idi, laçınım?! Yalan deyirəmsə, lənətə gəlim, şeytan kimi qız idi!

Loyko:

– Eh! Məğrur şahzadə, indi mən sənin ayağına yıxılıram, – deyib, var gücü ilə bağırdı və yerə yıxılıb, dodaqlarını ölmüş Raddanın ayaqlarına yapışdıraraq donub qaldı. Biz papaqlarımızı çıxarıb, kənarda dinməz durduq.

Buna sən nə deyirsən, laçınım? Nur: "Onun qollarını bağlamaq lazımdır!.." – demək istədi. Loykonun qollarını bağlamağa kimin əli gələrdi? Heç kəsin əli gəlməzdi. Bunu Nur da bilirdi. Əlini tovlayıb kənara çəkildi. Danilo Raddanın tulladığı bıçağı yerdən götürüb, bir qədər baxdı; əyri və iti bir bıçaq idi, üzərində Raddanın qanı hələ qurumamışdı. Sonra Danilo Loykoya yaxınlaşıb, bıçağı onun ürəyinin tuşundan kürəyinin arasına sancdı. Qoca soldat Danilo, necə olsa, Raddanın atası idi!

Loyko Daniloya tərəf dönüb:

– Bax belə! – deyə Raddanın dalınca getdi.

Biz tamaşa edirdik: bir çəngə saçını yarasına basmış Radda ala gözlərini göyə dikmiş halda yıxılmışdı. Onun ayağının altında sərilmiş igid Loyko Zobarın üzü saçları ilə örtülmüşdü.

Hamımız fikrə getmişdik. Qaşqabağını tökmüş qoca Danilonun bığları titrəyirdi, gözlərini göyə dikib susmuşdu. Saçı-saqqalı qar kimi ağarmış Nur isə üzü üstə yerə yıxılıb, elə hönkürtü ilə ağlayırdı ki, çiyinləri tərpənirdi.

Orada ağlamalı şey vardı, laçınım!

...İndi gedirsən, yaxşı, öz yolunla düz get. Yolundan dönmə. Bəlkə, nahaq yerə tələf olmaya bilərsən, laçınım!"

Makar susdu, çubuğunu və kisəsini cibinə qoydu, çuxasının yaxasını düymələdi. Narın yağış yağırdı, külək şiddətlənir, dənizin gurultusu get-gedə artırdı. Atlar bir-birinin dalınca sönməkdə olan tonqala tərəf gəlib böyük, fərasətli gözlərilə bizə tamaşa edirdilər. Axırda bizi hər tərəfdən əhatə elədilər. Makar öz sevimli qara atının boynunu tumarlayıb dedi:

– Hop, hop, ehe! – və mənə müraciətlə: – Yatmaq vaxtıdır! – dedi... Sonra çuxasını başına çəkib, zorba bədənini yerə sərdi.

Mən yatmaq istəmirdim. Qaranlıq çöldə əyləşib, gözlərimi dənizə dikmişdim. Gözümün qabağında Raddanın gözəl, nəcib, məğrur siması cilvələnməyə başladı. Saçının ucunu əlində dəstələyərək yarasının üstünə basmışdı. Qara, nazik barmaqlarının arasından damcı-damcı qan axır və od kimi qırmızı ulduzlar tökülürdü.

Onun dalınca igid Loyko Zobar gedirdi. Üzünə tökülmüş qara tellərinin altından tez-tez iri və soyuq gözyaşı damcıları axmaqda idi.

Yağış şiddətlənirdi; dənizin dalğaları bir cüt vüqarlı qaraçı gözəlinə Loyko Zobara və qoca soldat Danilonun qızı Raddaya kədərli və şanlı nəğmələr oxuyurdu.

Onların hər ikisi gecənin qaranlığında havada sakitcə süzürdü, gözəl Loyko məğrur Radda ilə bərabərləşə bilmirdi...

ALEKSANDR İVANOVİÇ KUPRİN

(1870-1938)

ZÜMRÜD

Tayı-bərabəri olmayan əbləq löhrəm
Xolstomerə itfah edirəm.

I

Amerikan biçimli, hündür boylu, ala, təmiz, gümüşü-poladı rəngdə olan qaçağan dördyaşar ayğır Zümrüd adəti üzrə gecə yarısına yaxın öz pəyəsində yuxudan ayıldı. Onun yan-yörəsində, sol və sağ tərəfində, habelə oradakı dəhlizin o biri tərəfində olan atlar otu dişlərində ləzzətlə xırtıldada-xırtıldada və arabir tozdan fınxıra-fınxıra, bir qərarla və tez-tez, sanki hamısı bir ahənglə gövşəyirdilər. Növbətçi mehtər küncdəki güləş yığını üstündə xoruldayırdı. Zümrüd günlərin növbələşməsindən və xorultunun xüsusi səsindən bilirdi ki, yatan Vasilidir; atlar bu gənc oğlanı sevmirdilər, çünki o, tövlədə pis qoxulu tənbəki çəkirdi, tez-tez atların yanına kefli gəlirdi, dizilə onların qarnına vururdu, yumruğunu az qala onların gözünə soxurdu, noxtanı tutub kobudcasına dartırdı və həmişə atların üstünə batıq, hədələyici bir səslə bağırırdı.

Zümrüd qapının barmaqlığına yanaşdı. Onun qapı qonşuluğundakı hələ yetkinləşməmiş olan gənc qara madyan Payızbülbülü öz axuru yanında dayanmışdı. Zümrüd qaranlıqda onun bədənini görmədi, lakin o, hər dəfə otdan ayrılıb başını geri çevirdikdə Payızbülbülünün iri gözləri bir neçə saniyə gözəl bənövşəyi işıq kimi parlayırdı. Zümrüd burnunun incə deşiklərini açıb köksünə bol-bol təmiz hava ötürdü, madyanın dərisinin az hiss edilən, lakin tünd, həyəcanlandırıcı iyini qavrayıb qısaca kişnədi. Madyan cəld geri çevrilərək zəif, titrək, nəvazişli və oynaq bir kişnəmə ilə cavab verdi.

O andaca Zümrüd sağ tərəfindən qısqanc bir nəfəs səsi eşitdi. Araya girən hələ hərdənbir şəhərin təkbətək priz yarışlarında qaçmaqda iştirak edən Onegin adlı qoca, tərs, qonur ayğır idi. Hər iki atın arasında nazik taxtadan arakəsmə var idi və bir-birini görə bilmirdilər, lakin Zümrüd burnunu barmaqlığın sağ böyrünə dayayaraq çeynənmiş otun Oneginin tez-tez nəfəs alan burun deşiklərindən çıxan açıq iyini aydınca duya bildi... Ayğırlar qulaqlarını başlarına qısıb boyunlarını əydilər, bir-birinə get-gedə daha bərk acıqlanaraq qaranlıqda bir müddət iyləşdilər. Birdən hər ikisi bir zamanda hirslə qıyyə çəkdilər hayxırdı və dırnaqlarını yerə döydü.

– Yenə başladınız, lənətə gəlmişlər! – deyə mehtər həmişəki adəti ilə hədə-qorxu gəlib yuxulu-yuxulu qışqırdı.

Atlar diksinib cəld barmaqlıqdan çəkilərək qulaqlarını şəklədilər. Onların çoxdan bəri bir-birindən zəhləsi gedirdi, lakin indi, üç gün bundan əvvəl həmin tövləyə incə, boy-buxunlu qara bir madyan qoyduqlarından, – adətən isə belə etmirlər və bunun səbəbi yalnız cıdıra hazırlaşdıqlarından yerin çatmaması idi, – gün olmurdu ki, aralarında bir neçə dəfə böyük dalaşma olmasın. İstər burada, istər bir yerə yığışanda, istərsə də suvarılmağa aparılanda onlar bir-birinə meydan oxuyur, savaşmağa atılırdılar. Amma Zümrüd bu uzunsov lovğa ayğırın qarşısında, bu kinli atın tündməzacı qarşısında, dəvə xirtdəyinə oxşayan dik xirtdəyi, kədərli çökük gözləri qarşısında, xüsusən onun illər boyu güclü cıdırlarda və keçmişdəki savaşmalarda sanki daşa dönmüş sümükləri qarşısında ürəyində bir qədər qorxu duyur, ondan çəkinirdi.

Heç də qorxmur və indicə elə bir şey olmamışdır, – deyə Zümrüd öz-özünə toxtaq verərək çevrildi, başını axura əyib otu yumşaq, çevik, elastik dodaqları ilə o yan-bu yana çevirməyə başladı. Əvvəlcə o ancaq ayrı-ayrı otları ağzına götürüb dadına baxdı, lakin az sonra gövşəmənin ləzzətinə aludə olub əməlli-başlı yemə girişdi. Eyni zamanda onun başında yavaş-yavaş maraqsız fikirlər dolaşır, arabir surətlər, iylər və səslər gəlib xatirinə düşməklə bu fikirlər irəlilərdə olan və indiki anı geridə buraxan zülmətli sonsuzluqda əbədi yox olub gedirdi.

"Ot" – deyə o düşünərkən axşamdan ot vermiş baş mehtər Nazarı xatırladı.

Nazar kişi əhvallı bir qoca idi; ondan həmişə nə qədər də xoş qara çörək və azca da şərab iyi gəlirdi; onun hərəkətləri asta və

mülayim idi, yulaf və ot vermək onun növbəsinə düşəndə ağıza daha dadlı gəlirdi, ata tumar verib altını təmizləyərkən onunla alçaqdan danışıb nəvazişlə danladığına və kəhiltisinə qulaq asmaq necə də xoş idi. Lakin Nazar kişidə nə isə başlıca bir şey çatışmırdı, yəni atçılıq hünəri yox idi, atı təlim məşqinə çıxarıb sürəndə cilovu tutmasından hiss edilirdi ki, əlləri əsir və düzgün sürmür.

Vaskada da bu nöqsan vardır, o qışqırıb atlara təpinirdisə də, bütün atlar bilirdilər ki, o qorxaqdır, buna görə ondan çəkinmirlər. Vaska at minməyi də bacarmır – hey yüyəni dartır, atın belində atılıb-düşür. Çəpgöz olan üçüncü mehtər isə, onların hər ikisindən yaxşı idi, lakin o atları sevmirdi, bədrəftar və hövsələsiz idi, əlləri də elə bil taxtadan olub ağır tərpənirdi. Andriyuşka adlı dördüncü mehtər hələ lap uşaq idi; o, südəmər dayça anasilə oynaqlaşdığı kimi, atlarla oynaqlaşır, xəlvətə salıb atların üst dodağından və burnunun deşikləri arasından öpür, – bu isə heç də xoşa gəlmir və gülüncdür.

Amma üzü qırxıq olub gözlərinə qızıl eynək taxan uca boylu, arıq və belibükük adam isə tamamilə özgə sayaq idi. O, ağıllı, hünərli və qorxmaz olub bütün varlığı ilə elə bil qəribə bir atın təcəssümü idi. O, heç bir zaman hirslənmir, qamçı ilə əsla vurmur, hətta hədə-qorxu da gəlmir, amerikankada[1] oturduqda isə onun güclü, fərasətli, hər şeyi dərk edən barmaqlarının hər bir işarəsinə tabe olmaq necə də sevinc, vüqar doğurur, son dərəcə xoşdur. Zümrüdü bədəninin bütün qüvvəsini toplayıb sürətlə qaça biləcəyi bir uğurlu ahəngdar vəziyyətdə sürməyi yalnız təkcə o bacara bilir, həm də bu necə də fərəhli və xoşdur.

O andaca xəyal Zümrüdü cıdır meydanına apardı, ora gedən qısa yol, təxminən hər bir ev, yol boyundakı hər bir dirək, meydanın qumu, tribuna, qaçan atlar, yamyaşıl ot, sarı lentlər gözünün qabağına gəldi. Bu günlərdə ayağı çuxurda burxulub axsayan üçyaşar qara kəhər birdən yadına düşdü. Onu düşünə-düşünə Zümrüd özü azca axsamağı xəyalında sınadı.

Zümrüdün ağzına düşmüş bir çəngə otun xüsusi və qəribə olan incə bir tamı vardı. Ayğır onu çox kövşədi, udduqdan sonra isə solmuş çiçəklərin və iyli quru otların zərif ətri hələ bir müddət ağzında qaldı. Atın xəyalından qarışıq, tamamilə tutqun, uzaq bir xatirə gəlib keçdi. Bu, bəzən papiros çəkən adamlarda olduğuna

[1] İkitəkərli cıdır arabası

bənzər bir şey idi; küçədə gedə-gedə papiros çəkirkən təsadüfən bir sümürmə onların nəzərində bir göz qırpımında nələri canlandırmır – divarının kağızı qədim çeşnəli, bir az qaranlıq dəhliz və bufet üzərində təkcə bir şam və ya gecə uzaqlara gedən bir yol, zınqırovların ahəngdar səsi və üzücü mürgü, yaxud da yaxında göy bir meşə, gözləri qamaşdıran qar, ovçuların heyvanı qovarağa salaraq qaldırdıqları hay-küy dizləri əsdirən ehtiraslı bir səbirsizlik bir an içində göz qabağına gəlir – bir zaman keçirilən, sonra da unudulan, xəyala gətirirkən ürəyi çırpındıran və indi ələkeçməz olan duyğular bir anlığa beləcə könülə gəlib ona sirdaş olur, nazla əyləndirir, bilinməz bir qüssəyə salır.

Bu aralıqda indiyə qədər axurlar üstündəki sezilməyən kiçik qara pəncərə bozarmağa və qaranlıqda görünməyə başladı. Atlar indi daha tənbəl-tənbəl gövşəyir, bir-birinin ardınca ağır-ağır və qolayca nəfəslərini ötürürdülər. Bayırda xoruz tanış səslə şeypur kimi gur və zildən banladı. Ətrafda da, ta uzaqlardakı başqa xoruzlar da orada-burada ağız-ağıza verib ara vermədən hey banlamaqda idilər.

Zümrüd başını axura sallayıb gövşədiyini ağzında saxlamağa, anlaşılmaz xatirənin təxminən bədənə yer eləyən və onda incə təsir oyadan həmin zövqü yenə də canlandırmağa, qüvvətləndirməyə nə qədər çalışdısa da, mümkün olmadı. Zümrüd bu fikirdə ikən özü bilmədən mürgülədi.

II

Onun ayaqları və bədəni çox səliqəli olub heç bir nöqsanı yox idi, buna görə də həmişə ayaq üstə yatıb azca qabağa və geriyə tərpənərdi. Bəzən o diksinərdi, o zaman onun bərk yuxusunu bir neçə saniyəlik qolay sayıq mürgü əvəz edərdi, lakin uzun dəqiqələr çəkməyən yuxu o qədər dərin yuxu idi ki, bu müddətdə onun əzələləri, əsəbləri və dərisi rahatlanardı, təravətlənərdi.

Dan yeri ağaranda o, yuxusunda gördü ki, erkən bir yaz səhəridir, yer üzü al şəfəqdən yanır, aranda ətirli bir çəməndədir. Ot nə qədər də qalın və şirəli idi, gözəlliyi vəsfəgəlməz şəffaf, yamyaşıl ot şəfəqdən nə qədər də lətafətli bir çəhrayı rəng alıb-rəng verirdi, şeh hər tərəfdə sayrışan işıqlar kimi parlayırdı. Belə bir mənzərəni

adamlar və heyvanlar yalnız uşaqlıq çağlarında görürlər. Müxtəlif ətirlər yüngül və seyrək havada təəccüb ediləcək dərəcədə aydınca duyulur. Kənddə bacadan burula-burula qalxan mavi və şəffaf tüstünün qoxusu səhərin sərin havasında hiss edilir, çəməndəki çiçəklərin hərəsi bir ətir saçır, çəpər kənarından uzanıb gedən izli-rizli nəm yolda bir çox iy: adam iyi, qatran iyi, at peyini iyi, toz iyi, keçib gedən naxırın təzə südünün iyi, hasarın küknar tirlərinin ətirli qatran iyi bir-birinə qarışmışdır.

Yalı qırxılmış yeddiaylıq Zümrüd başını sallaq tutaraq və dal ayaqları ilə təpik ata-ata çöldə avara-avara yel kimi uçur. O sanki havadan yoğrulduğundan öz bədəninin ağırlığını əsla hiss etmir. Ətirli çobanyastığı çiçəkləri onun ayaqları altında geriyə-geriyə qaçışır. O, birbaş günəşə doğru qanad almışdır. Nəm ot onun topuqlarını, dizlərini qamçılayaraq, onları üşüdüb qaraldır. Mavi göy, yamyaşıl ot, al günəş, gözəl hava, gəncliyin, qüvvətin və quş kimi uçmağın verdiyi fərəh başqa aləmdir!

Lakin budur, Zümrüd qısa, həyəcanlı, nəvazişkar və haylayan bir kişnəmə eşidir, bu kişnəmə ona o qədər yaxındır ki, həmişə uzaqdan min səs içindən tanış gəlir. O, sürətli qaçışına bir saniyəlik ara verir, başını dim-dik tutur, nazik qulaqlarını tərpədir, qısa pənbə quyruğunu süpürgəvari saxlayır, sonra da səs gələn tərəfə zənguləli bir səslə cavab verir, vücudu titrəyə-titrəyə anasının yanına qaçır.

Arıq, qoca, sakit bir madyan olan anası nəmli sifətini otdan ayırıb yuxarı qaldırır, cəld və diqqətlə dayçanı iyləyir və o saatca yenə də, sanki təcili bir işi görməyə tələsirmiş kimi, yeməyə girişir. Dayça çevik boynunu anasının qarnı altına əyib sifətini yuxarı tutaraq adəti üzrə dodaqları ilə ananın dal ayaqları arasını dürtmələyir, şirin, azca turşməzə südlə dolu olan ılıq elastik əmcəyi tapıb hey əmir və ayrılmaq bilmir, süd onun ağzına nazik isti şırnaqla fəvvarə vurur. Ana öz sağrısını ondan ayırır və özünü elə göstərir ki, guya dayçanın qasığını dişləmək istəyir.

Tövlə tamamilə işıqlaşdı. Atlar arasında yaşayan üfunətli, qoca, saqqallı keçi dalına içəridən tir söykənmiş qapıya yanaşdı, dala, mehtərə sarı baxaraq mələdi. Ayaqyalın Vaska pırtlaşıq başını qaşıya-qaşıya onun üçün qapını açdı. Bir qədər soyuq, buludsuz, sərt payız səhəri idi. Qapı taybatay açılan kimi tövlədən çıxan ılıq buğ dumanı bütün qapı ağzını bürüdü. Bayırdan qırov və xəzəl ətri xəfifcə içəri, axurlar üzərinə yayıldı.

Atlar yaxşıca bilirdilər ki, indicə yulaf tökəcəklər və səbirsizlikdən arakəsmə yanında yavaşcadan ağızlarını marçıldadırdılar. Acgöz və şıltaq Onegin dırnaqları ilə taxta döşəməni döyəcləyir, pis adəti üzrə axurun dəmir salınmış sürtük böyrünü üst dişləri ilə çeynəyərək boynunu uzadır, hava udur və gəyirirdi. Zümrüd sifətini arakəsməyə sürtüb qaşıyırdı.

O biri mehtərlər də gəldilər – onlar hamısı dörd nəfər idi – və dəmir ölçü qablarında axurlara yulaf gətirib tökməyə başladılar. Nazar xışıldayan ağır dənəli yulafı Zümrüdün axuruna tökdükcə, ayğır ılıq nəfəs buraxan burnunun deşiklərini titrədərək tələsə-tələsə qocanın gah çiynindən, gah da əli altından yemə dürtülürdü. Mülayim atın bu səbirsizliyini xoşlayan mehtər qəsdən tələsməyərək dirsəyilə axurun qabağını kəsib xeyirxahanə bir qabalıqla donquldanırdı:

– Ay qarınqulu... heyvanın bir acgözlüyünə bax... Yavaş, təpərsən... Olmaya istəyirsən bir ağzını şapalaqlayım... Hələ bir sifətilə məni dümsükləyir də.

Axurların üstündəki kiçik pəncərədən aşağı dördbucaq şəklində çəpəki bir fərəhli günəş sütunu uzanırdı və bu sütunda, aralarından pəncərənin çərçivəsindən düşən uzun kölgələr keçən milyonlarca qızıl tozcuqlar oynaşır, uçuşurdu.

III

Zümrüd yulafı elə təzəcə yeyib qurtarmışdı ki, həyətə çıxarmaq üçün dalınca gəldilər. Hava istiləşdi. Torpaq azca yumşaldı, lakin gecədən tövlənin divarlarına düşən qırov hələ ağarırdı. Tövlədən yenicə kürənib bayıra yığılmış peyin qalaqlarından qalın buğ qalxırdı, peyində eşələnən sərçələr, sanki öz aralarında bəhsləşirlərmiş kimi, bərk çığırışdılar. Zümrüd qapıda başını əyib ehtiyatlı addımlarla kandardan keçdi, dərindən nəfəs alıb köksünə ətirli hava aldı, sonra boynu və bütün bədəni ilə silkinərək bərkdən fınxırdı. Nazar ciddi bir tövrlə Zümrüdə: "Canın sağ olsun!" dedi. Zümrüd hərəkətsiz dura bilmirdi. Güclü hərəkətlər etmək, gözlərinə və burun deşiklərinə cəld axıb gələn havanın qıdıqlandırıcı təsirini hiss etmək, ürəyini qızğın-qızğın çırpındırmaq, dərindən nəfəs almaq istəyirdi. Dirəyə bağlanan Zümrüd kişnəyir, dal ayaqlarını atıb

oynayır, boynunu yana əyib ağında qırmızı damarlar olan qara iri domba gözlərilə qara madyana çəpəki baxırdı.

Nazar su ilə dolu olan vedrəni güclə tövşüyə-tövşüyə başından yuxarı qaldırıb madyanın kəkilindən quyruğuna qədər belinə tökdü. Zümrüd həmişə qəfildən olduğu üçün zəhmli olan bu təsirə, onun xoşuna gələn və qıvraqlaşdıran təsirə alışmışdı. Nazar yenə su gətirib onun yanlarına, sinəsinə, ayaqlarına və quyruğu altına səpələdi. Hər dəfə də qabarlı ovcu ilə atın bədənini möhkəmcə üzüaşağı sürtüb suyu sıxırdı. Geriyə dönüb baxırkən Zümrüd birdən qaralan və günəşdə par-par parıldayan öz azca sallaq sağrısını gördü.

Cıdır günü idi. Zümrüd bunu mehtərlərin, atların həndəvərində çox əsəbicəsinə tələsik qurdalandıqlarından bilirdi; bəzilərinə qarınları gödək olduğundan adətən nalların toxunduğuna görə dırnaqları üstündən dəri pəncə geydirirdilər, o birilərinin ayaqlarına topuğundan dizinə qədər kətandan sarğı sarıyırdılar və ya qabaq ayaqları tərəfdən sinələrinin altına haşiyəsi xəzdən olan enli tərliklər bağlayırdılar. Anbardan hündür qozlaları olan yüngül ikitəkərli amerikankaları itələyib bayıra çıxarırdılar; təkərlər hərlənirkən onların dəmir milləri titrəşə-titrəşə parıldayırdı, qırmızı çənbərlər və enli qabarıq qırmızı yan dişlələr üzərlərinə təzəcə lak çəkildiyindən işıldayırdı.

Tövlənin baş sürücüsü olan ingilis gəldiyi zaman artıq Zümrüd tamamilə qurudulmuş, şotka ilə təmizlənmiş, yun əlcəklə silinib tumarlanmışdı. O, çiyinləri və beli azca dik, əlləri uzun olan arıq və ucaboy bir şəxs idi; atlar da, adamlar da onun eyni dərəcədə hörmətini saxlayır və ondan eyni dərəcədə qorxurdular. Onun üzü qırxıq idi, günəşdən yanıb qaralmışdı, daş kimi bərk və nazik olan əyri dodaqları gülünc biçimli idi. Qızıl eynək taxırdı; ala və parlaq olan gözləri dik-dik, inadla və sakitcə baxırdı. O, hündür uzunboğaz çəkmədəki uzun qıçlarını bir-biri üzərinə aşırıb əllərini şalvarının dərin ciblərinə qoymuş halda və ağzındakı siqarı dodağının gah bir, gah o biri küncündə sümürə-sümürə yır-yığışı izləyirdi. Əynində xəz boyunlu sarı gödəkçə, başında isə kənarları ensiz və günlüyü düz uzun dördkünc qara kartuz var idi. Bəzən o, qırıq-qırıq və saymazyana bir tonla qısaca dillənərək iradlar tutur, göstərişlər verirdi, o andaca bütün mehtərlərlə fəhlələr başlarını ona tərəf çevirir, atlar da qulaqlarını ona sarı şəkləyirdilər.

Onun nəzəri xüsusən Zümrüdün necə qoşulmasında idi, atın alnından dırnaqlarına qədər bütün bədəninə diqqət yetirirdi. Zümrüd də bu düzgün, diqqətli baxışın ona dikildiyini duyaraq başını vüqarla qaldırır, çevik boynunu azca yana çevirir və nazik, işıq keçən qulaqlarını şax tuturdu. Sürücü özü barmağını atın qarnı ilə qarınaltısı arasına keçirərək onun bərk bağlanıb-bağlanmadığını yoxlayırdı. Sonra atların üstünə qırmızı haşiyəli və üzərində atların gözlərinə yaxın tərəfdə qırmızı dairəvi butaları və dal ayaqlarına yaxın tərəfdə aşağıda qırmızı tuğraları olan boz kətan çul örtdülər. İki mehtər, Nazar ilə çəpgöz, hər iki tərəfdən Zümrüdün yüyənindən tutub onu, o üz-bu üzündə tək-tək böyük daş evləri olan, yaxşıca bələd olduqları döşənmiş yol ilə cıdıra apardılar. Dairəvi cıdır meydanına gedən yol dörddə bir verstdən də az idi.

Cıdır həyətində artıq çoxlu at var idi, onların hamısını dairədə bir istiqamətdə, yəni saat əqrəbinin hərəkətinə əks olaraq dolandıqları qaçış dairəsində ağır-ağır gəzdirirdilər. Yerişə davamlı olan və quyruqları gödək vurulmuş köməkçi kiçik atları həyətin içində yedəkdə dolandırırdılar. Zümrüd həmişə bərabər qaçdıqları ağ aygırı o saatca tanıdı və hər iki at bir-birini salamlamaq əlaməti olaraq yavaşca və nəvazişlə kişnədi.

IV

Cıdırda zəng çalındı. Mehtərlər Zümrüdün üstündən çulu götürdülər. İngilis eynək arxasında günəşdən qamaşan gözlərini qıyaraq at dişlərinə oxşayan sarı, uzun dişlərini qıcırda-qıcırda və qırmancını qoltuğunda tutub əlcəklərini düyməleyə-düyməleyə yaxına gəldi. Mehtərlərdən biri Zümrüdün topuğuna qədər düşən yumşaq gur quyruğunu əlinə alıb onu ehtiyatla amerikankanın qozlası üzərinə qoydu, belə ki, quyruğun açıq rəngli ucları qozlanın dalından sallandı. Elastiki dişlələr bədənin ağırlığından rezin kimi dartınıb silkələndi. Zümrüd çəp-çəp dala baxıb, onun sağrısına lap kip oturan və ayaqlarını qabağa uzadıb dişlələrin üzərinə qoyan sürücünü gördü. Sürücü tələsmədən cilovu əllərinə alıb mehtərlərə qısaca qışqırdı, onlar ikisi də birdən əllərini atdan çəkdi. İndicə meydanda qaçmağa başlayacağından sevinən Zümrüd qabağa dartınmaq istədisə, güclü əllər onu dartıb saxladı, buna görə də o ancaq dal ayaqları üstə azca

qalxdı, boynunu silkələdi, gen, seyrək addımlı löhrəm yerişlə darvazadan çıxıb cıdır meydanına yüyürdü.

Taxta hasar boyunca, məsafəsi bir verst olan ellipsvari sarı qum yol – geniş qaçış yolu uzanırdı; qalın səpilmiş qum bir qədər nəm idi; buna görə də atların ayaqları altında yay kimi sıxılıb qalxır və ayaqları yormurdu. Atların dırnaqlarının sivri izləri, quttaperça şinlərinin buraxdıqları hamar və düz zolaqlar lentini şırımlamışdı.

Yan tərəfində iki yüz at gövdəsi uzunluğunda hündür taxta binadan ibarət olan tribuna ucalırdı, burada aşağıdan ta nazik dirəklər üzərində olan damına qədər dalğa kimi tərpəşən və uğultulu hay-küy salan camaatla dolu idi. Cilovun yavaşca və az qala eşidilməz tərpənişindən Zümrüd anladı ki, yerişi sürətləndirə bilər və təşəkkür edirmiş kimi fınxırdı.

O, boynunu irəli uzadıb azca sol dişiylə sarı tutmuş halda, sifətini yuxarı qaldıraraq, belini, demək olar, tərpətmədən rəvan, geniş addımlı löhrəm yerişlə yüyürürdü. Onun çox uzun olsa da, seyrək addımla qaçması uzaqdan elə təsir bağışlayırdı ki, sürətlə çapmır; sanki löhrəm dırnaqlarının uclarını yerə azca toxunduraraq, tələsmədən yolu pərgar kimi düz olan qabaq ayaqları ilə ölçürdü. Bu, əsl amerikan at sürməyi idi; burada isə bütün mətləb ondan ibarətdir ki, atın nəfəs alması asanlaşdırılmış olsun və havanın müqaviməti son dərəcə azaldılsın, qüvvə səmərəsiz yerə sərf edilməsin deyə qaçışda bütün lüzumsuz hərəkətlər aradan qaldırılmışdır, qaçışın xarici gözəlliyindən qaçınaraq, əsl diqqət atın asan, tər basmadan, dərin nəfəs ala-ala və yorulmadan qaçmasına verilir ki, bu da onu qüsursuz işləyən canlı bir maşına çevirir.

İndi, iki qaçış arasındakı fasilədə, atların keyini açdırırdılar; bunu isə həmişə atların cəld və həvəslə qaçmaqları üçün edirlər. Bir çox at, o cümlədən Zümrüd də bayır dairədə bir istiqamətdə, içəri dairədə üzbəüz qaçışırdılar. Xalis Oryol cinsindən olub yarmarka atına oxşayan, dik, biçimli boynu və novçavari quyruğu, bədənində alma boyda tutqun ləkələri olan ağ sifətli, ucaboy boz, löhrəm Zümrüdü ötüb keçdi. O qaça-qaça artıq tərdən qaralan kök, geniş sinəsi və su içində olan paçaları ilə silkinib qabaq ayaqlarını dizdən aşağı yanakı atır və hər addımında dalağı gur səslə atılıb düşürdü.

Sonra daldan qara seyrək yallı, boy-buxunlu, uzun bədənli mələz kəhər madyan gəlib yanaşdı. Ona da, Zümrüd kimi, amerikan sistemi

ilə gözəlcəsinə təlim verilmişdi. Onun hamar-saya tükü parıldayır, əzələlərinin hərəkətindən rəng alıb-rəng verirdi. Sürücülər nə barədə isə söhbətlə məşğul ikən hər iki at bir müddət yanaşı getdi. Zümrüd madyanı iylədi və gedə-gedə onunla oynaqlaşmaq istədisə, ingilis icazə vermədi, at tabe oldu.

Qarşıdan onlara tərəf tam löhrəm yerişlə yekə bir qara ayğır gəlirdi; onun bütün ayaqları dizdən aşağı tənziflə sarınmışdı, dizlərinə meşin taxılmış və qabaq ayaqlarının qoltuq altına tərlik bağlanmışdı. Onun qoşulduğu amerikankanın sol dişləsi uzun olub sağ dişlədən yarım arşın qabağa çıxmışdı, başı üstündə qövsdəki halqadan keçirilən ober-çekin qayışı yuxarıdan və hər iki yandan atın burnu üstünü bərk sıxmışdı. Zümrüdlə madyan ikisi də birdən onu gözlərinin ucları ilə süzdü və o andaca yəqin etdi ki, löhrəm son dərəcə qüvvətli, cəld qaçan və dözümlü atdırsa da, eyni zamanda çox tərs, tündxasiyyət, lovğa və tez küsəyəndir. Qara ayğırın ardınca açıq boz rəngli, bəzək-düzəkli bir ayğır gəlib keçdi. O, balaca olduğundan məzəli idi; ayaqlarını yerə çox tez-tez çırpıb dizlərindən yuxarı çox hündürə atdığından və kiçik, qəşəng başı ilə səliqəli olan boynunu çox ciddi tutub canfəşanlıq göstərdiyindən kənardan elə zənn etmək olar ki, o son dərəcə sürətlə çapır. Zümrüd bir qulağını ona tərəf tutub onu ancaq nifrətlə çəpəki süzdü.

O biri sürücü söhbətini qurtarıb at kişnəməsinə oxşar bir səslə bərkdən və qısaca güldü və madyanı sərbəst bir löhrəmlə sürdü. O heç bir güc gəlmədən, sakitcə, sanki qaçışının sürəti əsla özündən asılı deyilmiş kimi, Zümrüddən ayrılıb beli uzunu keçən və güclə nəzərə çarpan qara qayışlı hamar və qəşəng arxasını rəvan tutaraq irəli qaçdı.

O anda, burnu üstündə böyük ağ ləkəsi olan tünd-kürən bir ayğır Zümrüdə də, madyana da çatıb dördayaq çapa-çapa onları geridə buraxdı. O, uzun addımlarla tez-tez hoppana-hoppana gah uzanıb yerə əyilir, gah havada qabaq ayaqlarını dal ayaqları ilə az qala birləşdirirdi. Onun sürücüsü bütün bədənini dala yıxıb tarım tutduğu cilovdan asılaraq qozlada oturmaq deyil, uzanmış idi. Zümrüd çırpınmağa başlayıb cəld kənara buruldu, lakin ingilis yavaşca cilovu çəkib onu saxladı, atın hər bir hərəkətinə çevik və həssas olan əlləri ağırlaşıb birdən sanki dəmirə çevrildi. Daha bir dəfə də dairəni dolanmış olan kürən ayğır tribunanın yaxınlığında yenə Zümrüdü ötüb keçdi. O, bu ana qədər çapırdı, indi artıq ağzı köpük

içində idi, gözləri qızarmışdı, fınxıra-fınxıra nəfəs alırdı. Qabağa əyilmiş sürücü onun kürəyi boyunca var gücü ilə bir qamçı ilişdirdi. Nəhayət mehtərlər darvaza yanında onun yolunu kəsib cilovundan və ağzındakı yüyənindən tuta bildilər. Onu çim su içində, nəfəsi təngimiş halda, əsə-əsə, bir dəqiqədə arıqlamış halda cıdır meydanından çəkib apardılar.

Zümrüd tam löhrəm yerişlə bir də dairəni yarıya qədər qaçdı, sonra qaçış meydanına köndələn olan yola buruldu və darvazadan həyətə keçdi.

V

Cıdır meydanında bir neçə dəfə zəng çalındı. İldırım sürətilə çapan löhrəmlərin ayaq səsləri arabir açıq darvazalardan eşidilirdi, tribunalarda adamlar birdən çığırmağa başlayıb əl çalırdılar. Zümrüd başqa löhrəmlərin xətti ilə aşağı əydiyi başını yırğalaya-yırğalaya və kətan kisəcikdəki qulaqlarını tərpədə-tərpədə çox vaxt Nazarla yanaşı gedirdi. Keyi açdırıldıqdan sonra qan onun damarlarında rahatca və coşqunca axırdı, nəfəsi getdikcə daha da dərinləşir və sərbəstləşirdi, bütün bədəni rahatlaşdıqca və sərinləşdikcə, – bütün əzələləri yenə qaçmaq üçün səbirsiz bir arzu hiss edirdi.

Yarım saat keçdi. Cıdır meydanında yenə zəng çalındı. İndi sürücü amerikankaya əlcəksiz əyləşmişdi. Onun Zümrüddə həm rəğbət, həm qorxu oyadan ağ, yekə, sehrli əlləri vardı.

İngilis tələsmədən Zümrüdü cıdır meydanına sürdü. Gəzdirilib keyi açdırılmış atlar oradan bir-bir həyətə daxil olurdu. Dairədə ancaq Zümrüd və yolda onunla rastlaşan yekə qara ayğır qalmışdı. Tribunalar aşağıdan yuxarıya qədər adamla dopdolu idi, iynə atsaydın yerə düşməzdi; bu insan dəryasında saysız-hesabsız qədər üzlər və əllər – bir-birinə qarışmış halda dalğalanır, ağarırdı, çətirlər və şlyapalar rəngdən-rəngə çalmaqda idi, ağ kağızda çap olunmuş proqramlar əllərdə yarpaq kimi əsirdi. Az-az yürüşünü artıran və tribuna boyunca qaçıb gedən Zümrüd minlərcə gözün ayrılmadan ona dikildiyini hiss edirdi, o, aydınca başa düşürdü ki, bu gözlər ondan cəld olmasını, var qüvvəsini toplamasını, ürəyinin qüdrətlə çırpınmasını istəyir və bu düşüncə onu həvəsləndirir, əzələlərinə fərəhləndirici bir yüngüllük və şux bir çeviklik verirdi. Üstündə bir oğlan oturan tanış ağ ayğır Zümrüdün sağ tərəfində onunla yanaşı, qısa hoppanma ilə qaçırdı.

Zümrüd bədənini azca sola çevirmiş halda, rəvan, səlis, löhrəm bir yerişlə sərt dönərək üzərində qırmızı çevrə olan tirə yaxınlaşmağa başladı. Cıdır meydanında zəngi qısaca çaldılar. İngilis, demək olar, nəzərə çarpmadan qozlada özünü yığışdırdı və onun əlləri birdən cilovu möhkəm-möhkəm tutdu. "İndi buyur, meydan sənindir, lakin qüvvəni qoru. Hələ vaxtı deyil!" – Zümrüd anladı ki, cilovun hərəkətləri ona bu sözləri deyir və bunu anladığını bildirmək istəyirmiş kimi öz nazik, həssas qulaqlarını bir saniyəliyə daha əydi və yenə düz tutdu. Ağ ayğır yanda, bir qədər rəvan addımlarla qaçırdı. Zümrüd öz yalı böyründə onun bir qaydada aramla nəfəs aldığını eşidirdi.

Qırmızı tir geridə qaldı. Zümrüd daha bir sərt dönüş edib düz yola çıxır, ikinci tribunaya yaxınlaşır, uzaqdan hay-küy salan camaatın rəngdən-rəngə çalan qaraltısı görünür və hər addımda qaraltı böyüyür. "Bir az da güc vur! – sürücü izn verir, – bir az da, bir az da!" Zümrüd bir qədər qızışır və qaçışda var qüvvəsini toplayıb birdən işə salmaq istəyir. "Olarmı?" – deyə o düşünür. "Yox, hələ tezdir, tələş etmə, sonra", – deyə sehirli əllər cavab verib onu sakit eləyir.

Hər iki ayğır priz tirləri yanından, ikisi də birdən, lakin hər iki tribunanı birləşdirən diametrin qarşı tərəflərindən vurub keçir. Çox tarım çəkilən sapa yüngülcə toxunub onu cəld qırması Zümrüdü xofa salaraq qulaqlarını şəkklə tərpətməyə məcbur edir, lakin bütün varlığı ilə diqqətini ecazkar əllərə verməsi o andaca xoflanmanı ona unutdurur. "Daha bir az güc vur! Qızışma! Düz get!" – deyə sürücü əmr edir. Tribuna – dalğalanan insan dəryası bir an içində göz qabağından gəlib keçir. Daha bir neçə on sajen irəlilədikdən sonra dördü də – Zümrüd, ağ ayğır, ingilis və qısa üzəngidə ayaq üstə duraraq döşü ilə atın yalı üzərinə sərələnən köməkçi oğlan tənləşir, bir-birinə kip qovuşan yekparə bir vücud təşkil edir, vahid bir iradədən, qüdrətli hərəkətlərin misilsiz gözəlliyindən, musiqi kimi səslənən bir ahəngdən ilham alaraq fərəhlə qanad alıb gedir. Zümrüd ayaqlarını yerə bir qərarla və bir taktla vurur – tap-tap-tap-tap! Köməkçi bunu qısa və şiddətli şəklə salıb qoşalaşdırır – tarap-turup, tarap-turup! Daha bir dönüş də edər-etməz, ikinci tribuna get-gedə yaxınlaşır. "Sürəti artırımmı?" – deyə Zümrüd soruşur. "Artır, ancaq özündən çıxma!" – deyə əllər cavab verir.

İkinci tribuna gəlib göz qabağından keçərək geridə qalır. Adamlar qışqırıb nə isə deyirlər. Bu, Zümrüdü həvəsləndirir, o qızışır, daha cilovu hiss etmir, bir anlığa ümumi, sazlanmış yeriş taktından çıxır, sağ ayağı ilə dörd dəfə şıltaqlıqla hoppanır, lakin o dəqiqədə cilov bərk dartılaraq onun əngini əzişdirir, boynunu burub aşağı əyir və başını sağa döndərir. İndi sağ ayaqla hoppanmaq daha asan deyildir. Zümrüd hirslənir və ayağını dəyişdirmək istəyir, lakin sürücü duyuq düşüb atı qətiyyətlə və sakitcə löhrəm yerişlə sürür. Tribuna artıq çox geridə qalır, Zümrüd yenə taktla yerişə keçir, əllər də yenə yumşaq dost əlləri olur. Zümrüd öz taqsırını hiss edib löhrəm yerişini iki qat artırmaq istəyir. "Yox, yox, hələ tezdir, – deyə sürücü xoşhallıqla qeyd edir. – Eybi yoxdur, bizim bu səhvi düzəltməyə hələ vaxtımız var".

Beləliklə, onlar aralığa heç bir əngəl-ilişik çıxmadan ən yaxşı bir həmrəyliklə bir daha dairəni və yarısını başa vurdular. Lakin bu gün qara ayğır da qiyamət eləyir. Zümrüd cilova baxmayıb yerişini pozduğu zaman qara ayğır onu altı at gövdəsi qədər uzunluqda geridə buraxmışdı, amma indi Zümrüd geriliyini düzəldir və axırıncıdan əvvəlki tir yanında qabağa keçib onu 3 saniyə və saniyənin dörddə biri qədər geridə buraxır. "İndi olar. Get!" – deyə sürücü əmr edir. Zümrüd qulaqlarını başına kip qısıb yalnız bircə dəfə cəld geriyə baxır. İngilisin gərginlik, qətiyyət, hədəfə doğru can atmaq ifadəsi oxunan siması qıpqırmızı qızarır, səbirsizlikdən qışqırıb büzülən qırxıq dodaqları arasından bir-birinə bərk sıxdığı sarı, yekə dişləri görünür, ucada tutduğu cilov: "Nə qədər gücün varsa, ver gəlsin!" – deyə əmr edir. – "Bir də, bir də!" – İngilis birdən fit səsi kimi yüksələn bərk titrək səslə qışqırır:

– H-e-y-y-y, hey!

– Bax, belə, belə, belə, belə!.. – deyə-deyə köməkçi uşaq qaçışa uyğun bir ahənglə zil və gur səslə bağırır.

Sürət indicə qırılacaq nazik bir tük kimi ən yüksək bir gərginliyə çatır. Tap-tap-tap-tap! – Zümrüdün ayaqları yerdə düz izlər buraxır. Tarap-turup, tarap-turup! – irəlidə dördayaq qaçıb Zümrüdü ardınca yüyürdən ağ ayğırın ayaq səsləri eşidilir. Qaçış taktı ilə həmahəng halda çevik dişlələr tərpəşir, yəhər üstündəki və atın təxminən boynuna uzanmış uşaq da dördayaq qaçış taktı ilə həmahəng olaraq atılıb düşür.

Qarşıdan yarıb gələn hava qulaqlarda vıyıldayır, burnunun tez-tez yoğun şırnaqla buğ çıxan deşiklərini qıdıqlayır. Nəfəs təngləşir, dərini isti tər basır. Zümrüd bütün bədənilə burulub son dönüşü

hərlənib keçir. Tribuna canlanır və oradan Zümrüdü ürküdən, həyəcana salan və sevindirən min avazla nərə-bağırtı qopur. O, daha löhrəm yerişlə qaça bilməyəcək dərəcəyə gəlir, hoppanmaq, qaçmaq istəyir, lakin arxadakı bu qəribə əllər həm yalvarır, həm əmr edir, həm ovundurur: "Əzizim, hoppanma!.. Ancaq hoppanma!.. Bax belə, bax belə, bax belə". Zümrüd tirin yanından yel kimi uçub gedərək, hiss etmədən nəzarət sapını qırır. Tribunadan qışqırtı, gülüş, alqış səsləri şəlalə kimi çağlayır. Ağ elan vərəqələri, çətirlər, əl ağacları, şlyapalar havada fırlanır, tərpəşən üzlər və əllər arasında səyrişir. İngilis cilovu yavaşca boş buraxır. Bu hərəkət Zümrüdə deyir: "Daha sözüm yox, sağ ol, əzizim!" və o, qaçışını güclə saxlaya addımlama yerişə keçir. Bu anda, 7 saniyə sonra qara ayğır qarşı tərəfdəki öz tirinə təzəcə gəlib yanaşır.

İngilis keyləşən ayaqlarını güclə qaldırıb amerikankadan ağır-ağır yerə hoppanır və məxmər qozlanı götürüb onu özü ilə çəkdirmək üçün tərəziyə aparır. Qaçıb gələn mehtərlər Zümrüdün od kimi yanan belinə çul örtürlər və onu çəkib həyətə aparırlar. Camaatın uğultulu hay-küyü və jüri üzvləri köşkündən gələn zəng cingiltisi onu müşayiət edir. Atın ağzından yerə və mehtərlərin əllərinə qov kimi yüngül sarımtıl köpük düşür.

Bir neçə dəqiqə sonra Zümrüdü artıq qoşqudan açılmış halda yenə tribuna yanına gətirirlər. Zümrüdün tez-tez tövlədə gördüyü uzun paltolu və işıldayan yeni şlyapalı ucaboy adam onun boynunu ovuşdurur, ovcundakı qənd parçasını ağzına dürtür. İngilis də, buradaca, camaat arasındadır, o gülümsünür, üzünü qırışdıraraq uzun dişlərini ağardır. Zümrüdün üstündən çulu götürdülər, üzərində qara parça olan üçayaqlı qutu qabağında dayandırırlar, boz paltarda olan bir cənab bu parça altında gizlənib orada nə isə edir.

Budur adamlar tribunadan qara bulud kimi axışıb gəlir, onlar hər tərəfdən atı dövrələyib bağırır, əl-qol atırlar, gözləri parıldayır, üzləri qızarıb-bozarmış halda başlarını yaxından bir-birinə əyirlər. Onlar nədənsə narazıdırlar, barmaqlarını Zümrüdün ayaqlarına, başına və böyürlərinə dürtürlər, damğa vurulmuş sağ sağrısının tükünü əlləşdirirlər və yenə hamısı birdən bağırır. Zümrüd "Qəlb atdır, saxta löhrəmdir, bizi aldadırlar, bu dələduzluqdur, pulu qaytarın!" səslərini eşidir, bu sözləri anlamayıb qulaqlarını tələşlə tərpədir. Zümrüd təəccüblənib düşünür: "Onlar nə edirlər? Axı

mən necə də yaxşı qaçırdım!" Bu anda onun nəzəri ingilisin sifətinə sataşır. Həmişə sakit olub azca gülümsənən və daş kimi bərk olan bu sifət qəzəbdən alışıb-yanır. Birdən ingilis ucadan boğuq bir səslə bağırıb nə isə deyir, cəld əlini tolazlayır və sərt bir sillə səsi ümumi hay-küyü bir anlığa pozur.

VI

Zümrüdü çəkib evə apardılar, üç saatdan sonra ona yulaf verdilər, axşam isə quyu başında suvarılarkən hasarın arxasından sarı rəngə boyanan yekələnmiş ayın ucaldığını gördükdə ayın zəhmi onu basıb ürəyinə ağır vahimə saldı.

Sonra isə darıxdırıcı günlər başlandı.

Onu daha nə təlimə, nə keyini açdırmağa, nə də cıdıra çıxardırdılar. Lakin hər gün tanış olmayan bir çox adamlar gəlirdilər – onlara baxdırmaq üçün Zümrüdü həyətə çıxarırdılar, burada onlar Zümrüdü nəzərdən keçirir, hər sayaq əlləyib yoxlayır, ağzını aralayıb dişlərinə baxır, pemza ilə dərisini qaşovlayır və hamısı bir-birinə qışqırırdı.

Sonra o xatırlayır ki, bir dəfə onu axşamdan xeyli keçmiş tövlədən necə bayıra çıxartdılar, daş döşəməli uzun, xəlvət küçələrlə, pəncərələrindən işıq gələn evlərin yanı ilə çəkib apardılar, çox yol getdilər. O da yadındadır ki, vağzala gətirib yırğalanan qaranlıq bir vaqona saldılar, uzaq bir yerə aparırdılar, yolun uzaqlığı onu taqətdən salmışdı, qıçları titrəyirdi, yol boyu parovozların ara-sıra fitləri eşidilir, relslər uğultu ilə guruldayır, tüstünün boğucu qoxusu ətrafa yayılırdı, tutqun işıqlı fənərlər yellənirdi. Bir stansiyada onu vaqondan düşürtdülər, tanış olmayan yerlərlə xeyli yol getdilər, geniş çılpaq payız çöllərindən, kəndlərin yanından keçdilər, nəhayət yad bir tövləyə gətirib saldılar, başqa atlardan uzaqda, tək-tənha saxladılar.

Əvvəllər o hey cıdırdakı qaçışlarını, öz ingilisini, Kaskanı, Azarı, Onegini xəyalına gətirir, onları tez-tez yuxusunda görürdü, lakin vaxt gəlib keçdikcə, onların hamısını unudub getdi. Onu kimdən isə gizlədirdilər, onun bütün gənc, gözəl bədəni sıxılır, qüssə çəkir və hərəkətsizlikdən süstləşirdi. Bir də görürdün yenə tanış olmayan yeni adamlar gəlirdilər və yenə Zümrüdün ətrafında qurdalanır, onu əlləyib yoxlayır, didişdirir və bir-birinə hirslənib söyüşürdülər.

Zümrüd bəzən təsadüfi olaraq, açılan qapı arasından həyətdə azadə gəzib qaçışan atları görərdi, bu zaman o qışqırar, onlara hiddətini bildirər və şikayətlənərdi. Lakin o andaca qapını örtərdilər, o, yenə tək-tənha qalar, kədərli günləri davam edərdi.

Bu tövlədə baş mehtər kök üzündə xırdaca qara gözləri və nazik qara bığı olan yekəbaş, gözü yuxulu bir adam idi. O, Zümrüdə qarşı tamamilə etinasız idi. Zümrüd isə ondan anlaşılmaz bir qorxuya düşmüşdü.

Budur, bir dəfə, səhər tezdən, hələ bütün mehtərlər yatdığı zaman bu adam yavaşca-yavaşca, səssiz-səmirsiz, ayaqlarının ucunda Zümrüdün yanına gəldi, özü onun axuruna yulaf töküb getdi. Zümrüd buna bir az təəccübləndi, lakin itaətlə başını aşağı salıb yeməyə başladı. Yulaf şirin, bir qədər də acıtəhər idi, zəhər dadı verirdi. "Qəribədir, – deyə Zümrüd fikirləşdi, – mən bu vaxta qədər belə bir yulaf dadmamışam".

Birdən o, qarnında yüngül bir sancı hiss etdi. Sancı başlanandan bir qədər sonra dayandı, lakin yenə başlanıb əvvəlkindən şiddətli oldu və dəqiqəbədəqiqə artdı. Nəhayət ağrı dözülməz oldu. Zümrüd batıq səslə inlədi. Onun gözlərinin qabağında od saçan təkərlər hərlənirdi, qəfildən üz verən zəiflikdən bütün bədəni çim su oldu, tamam keyləşdi, ayaqları titrədi, dizləri qatlandı və aygır gurultu ilə döşəməyə yıxıldı. O, çox çalışdı ki, ayağa qalxsın, lakin ancaq bircə dəfə qabaq ayaqları üstə qalxa bildi və yenə böyrü üstə yerə sərələndi. Başında uğultulu bir qasırğa hərləndi; ingilis at dişi kimi uzun dişlərini ağarda-ağarda gəlib xəyalından keçdi. Onegin öz dəvə xirtdəyinə oxşayan xirtdəyini qabardaraq bərkdən kişnəyə-kişnəyə gəlib onun yanından sovuşdu. Hansı bir qüvvə isə Zümrüdü amansızlıqla və sürətlə çox dərin bir uçuruma, qaranlıq və soyuq bir quyuya sürükləyirdi. O daha tərpənə bilmədi.

Birdən qıc tutub ayaqlarını və boynunu bükdü, belini əydi. Atın bütün dərisi narın-narın və sürətlə titrədi, kəskin qoxu saçan köpüyə büründü.

Fənərin boylanan sarı işığı bir anlığa Zümrüdün gözlərini qamaşdırdı və o dəqiqəcə gözlərinin nuru getdi, işığı görməz oldu. Qulağı hələ gələn adamın kobud bağırtısını sezirdi, lakin o, çəkmə dabanı ilə böyrünə vurulan təpiyi daha hiss etmədi. Sonra da hər şey əbədi yox olub getdi.

İVAN ALEKSEYEVİÇ BUNİN

(1870-1953)

QARANLIQ XİYABANLAR

(hekayə)

Soyuq və yağışlı bir payız günü; yağış suyu basmış və bir çox qara təkər izləri il şırımlanmış Tula şahrahlarından birində uzun bir daxmaya üstlüyü yarıya qədər qaldırılmış, zığ-palçığa batmış üçatlı bir fayton yanaşdı. Faytona çamıra batmamaq üçün quyruqları düyülmüş lap adi atlar qoşulmuşdu. Uzun daxmanın bir başında poçt yerləşirdi, o biri başında isə xüsusi bir otaq var idi; burada dincəlmək, yaxud gecələmək, nahar etmək, yaxud da samovar qaynatdırmaq olardı. Daxmanın qarşısında dayanan faytonun sürücüsü qalın çuxa geymiş, belini qayışla möhkəm bağlamış, qarabuğdayı və olduqca sağlam, ciddi bir mujik idi, seyrək qara saqqalı vardı; lap qədim quldura bənzəyirdi. Faytonda başına qabağı uzun günlüklü böyük furajka qoymuş qədd-qamətli bir hərbçi qoca oturmuşdu. Qunduz xəzindən dik yaxalıqlı boz Nikolay şineli geymiş qocanın qaşları şəvə kimi qara olsa da, bığları tamam ağarmışdı; bığı ağ bakenbardları ilə birləşirdi; çənəsi qırxılmışdı; bütün zahiri görünüşü II Aleksandra oxşayırdı; bu cür zahiri görünüş Aleksandrın padşahlıq etdiyi dövrdə hərbi xidmətçilər arasında geniş yayılmışdı; onun baxışı da sualedici, ciddi və eyni zamanda yorğun bir adamın baxışı idi.

Atlar dayananda, düz qunclu hərbi çəkmə geymiş qoca ayağını faytondan sallayıb, zamşa əlcəkli əlləri ilə şinelinin ətəklərindən yapışaraq yüyürə-yüyürə daxmanın artırmasına qalxdı.

Sürücü qaba tərzdə qışqırdı:

– Sol tərəfə, zati-aliləri.

Ucaboylu qoca astanada başını bir az əyib, dəhlizə, sonra da sol tərəfdəki otağa daxil oldu.

Otaq isti və səliqəli idi; sol bucaqda təzə, zərli çərçivədə İsa peyğəmbərin şəkli asılmışdı; onun aşağısında üstünə təmiz, cod

süfrə salınmış masa vardı; masanın arxasında tər-təmiz skamyalar görünürdü; xeyli kənarda, sağ bucağı tutmuş mətbəx sobası tabaşirlə təzəcə ağardılmışdı. Yaxında taxta bənzəyən çarpayı var idi; taxtın üstünə ala çullar salınmışdı; çulların kənarı sobanın böyrünə dirənirdi; sobanın üstündə, – kələm, mal əti və dəfnə yarpağından hazırlanmış şorbanın iştahaaçan xoş qoxusu yayılırdı.

Müsafir şinelini skamyanın üstünə atanda, mundir və çəkmələrdə daha qamətli göründü; sonra papağını çıxartdı, solğun arıq əlini yorğun halda başına çəkdi; onun gicgahlarında gözlərinin küncələrinə sarı daranmış çal saçları qıvrım idi; qaragözlü uzunsov və qəşəng sifətinin bəzi yerlərində axırda çiçək izləri qalmışdı. Otaqda heç kəs yox idi, kişi dəhlizin qapısını açıb hiddətlə qışqırdı:

– Ey, kim var orda?

Otağa dərhal qarasaçlı bir qadın daxil oldu, onun da qaşları qara idi, o da yaşına uyğun olmayan dərəcədə gözəl idi; yaşlı qaraçıya bənzəyirdi; üst dodağında və yanaqlarının kənarlarında qara narın tüklər görünürdü; kök olmasına baxmayaraq gümrah yeriyirdi; qırmızı koftasının altından iri döşləri qabarır, dişi qaz qarnı kimi üçbucaq qarnı qara ipək yubkasının altından seçilirdi.

Xoş gəlibsiniz, zati-aliləri. – Qadın dedi. – Yeməkmi yeyəcəksiniz, yoxsa buyurursunuz, samovar gətirək?

Müsafir qadının ətli çiyinlərinə və qırmızı nimdaş tatar başmaqları geymiş çevik ayaqlarına ötəri nəzər salaraq, kəsik-kəsik və saymazyana cavab verdi:

– Samovar. Sən burada sahibkarsan, yoxsa xidmətçi?

– Sahibkaram, zati-aliləri.

– Deməli, buranı özün idarə edirsən?

– Elədir ki, var. Özüm.

– Bəs niyə belə? Dulsan ki, işi tək özün aparırsan?

– Dul deyiləm, zati-aliləri, bir şeylə yaşamaq lazımdır, ya yox? Bir də ki, təsərrüfatçılığı xoşlayıram.

– Belə de. Bu yaxşıdır. Necə də təmiz, səliqəli otağın var.

Gözlərini azca qıyıb, ona böyük maraqla baxan qadın cavab verdi.

– Təmizliyi də xoşlayıram. Axı mən ağaların evində boya-başa çatmışam, özümə ədəblə, tərbiyə ilə aparmaya bilərəmmi, Nikolay Alekseyeviç?

Müsafir qəddini cəld düzəltdi, gözlərini geniş açıb qızardı, tələsik dilləndi:

– Nadejda! Sənsənmi?

Qadın cavab verdi:

– Mənəm, Nikolay Alekseyeviç.

Hərbi adam taxtın üstündə əyləşərək, düz qadının gözünün içinə baxa-baxa dedi:

– Aman Allah, pərvərdigara! Kimin ağlına gələ bilərdi! Biz neçə ildir görüşməmişik? Otuz beş il varmı?

– Otuzdur, Nikolay Alekseyeviç. Mənim indi qırx səkkiz yaşım var, sizin isə, zənnimcə, altmışa yaxındır?

– Təqribən elədir... Aman Allah, nə qəribə işdir, təəccüblüdür!

– Nə təəccüblüdür, cənab?

– Elə hər şey, hər şey... Sən bunu necə başa düşmürsən!

Müsafirin yorğunluğu da, dalğınlığı da yox olmuşdu; o, ayağa qalxıb döşəməyə baxa-baxa otaqda qətiyyətlə var-gəl etməyə başladı. Sonra dayandı, ağsaqqallı sifəti qızarmış halda danışmağa başladı:

– O vaxtdan bəri sənin haqqında heç bir şey bilmirəm. Buraya necə gəlib çıxmısan? Nə üçün ağaların yanında qalmadın?

– Sizdən bir az sonra ağalar mənə azadlıq verdilər.

– Bəs harada yaşayırdın?

– Uzun əhvalatdır, cənab.

– Deyirsən, ərə getməyibsən?

– Yox, getməmişəm.

– Nə üçün? Sənin kimi gözəl bir qadın...

– Mən bunu edə bilməzdim.

– Nə üçün edə bilməzdin? Nə demək istəyirsən?

– Burada izah olunmalı nə var? Mənim sizi necə sevdiyimi, yəqin ki, xatırlayırsınız.

Müsafir elə qızardı ki, az qala gözləri yaşaracaqdı; qaşqabağını töküb, yenə var-gəl etməyə başladı. Burnunun altında dedi:

– Hər şey keçib gedir, əzizim. Sevgi, gənclik – hər şey. Adi, bayağı bir əhvalatdır. İllər ötdükcə hər şey keçib gedir. İovun kitabında bu barədə necə deyilib? “Axıb gedən sular kimi xatırlayacaqsan”.

– Allah kimə nə verirsə odur, Nikolay Alekseyeviç. Hamının gəncliyi keçib gedir, sevgi isə başqa şeydir.

Kişi başını qaldırdı, ayaq saxlayıb, iztirabla gülümsədi.

– Axı sən məni bütün ömrün boyu sevə bilməzdin ki!

– Deməli, bilərdim. Nə qədər vaxt keçsə də, daim bir hisslə yaşayırdım. Bilirdim ki, siz əvvəlki adam deyilsiniz, belə adam çoxdan

yoxdur; onu da bilirdim ki, sizin üçün sanki heç bir şey mövcud olmamışdır, amma baxın... indi məzəmmət etmək gecdir, ancaq bu, həqiqətdir ki, siz məni çox insafsızcasına atdınız, təkcə bu haqsızlığa görə neçə dəfə canıma qəsd etdim, özümü öldürmək istədim, hələ bundan əlavə baş verən əhvalatları demirəm. Axı vaxt var idi ki, mən sizi Nikolenko adlandırırdım, Nikolay Alekseyeviç, siz də mənə – yadınızdadırmı? – Qadın acı-acı gülümsəyərək, əlavə etdi, – daim "qaranlıq xiyabanlar" haqqında cürbəcür şeirlər oxuyurdunuz.

Kişi başını bulayıb dedi:

– Ah, sən nə qədər gözəl idin! Necə coşqun, necə göyçək idin! Nə cür bədən, nə cür gözlər! Yadındadırmı, hamı sənə necə məftunluqla tamaşa edirdi?

– Yadımdadır, cənab. Siz də çox gözəl idiniz. Axı öz gözəlliyimi, öz coşqunluğumu mən sizə verdim. Belə şeyi necə yaddan çıxarmaq olar?

– Ah, hər şey keçib gedir, hər şey yaddan çıxır.

– Hər şey keçib gedir, ancaq hər şey yaddan çıxmır.

Müsafir üzünü kənara çevirib, pəncərəyə yanaşaraq dedi:

– Get buradan. Get, xahiş edirəm.

Sonra da dəsmalını cibindən çıxarıb, gözlərinə sıxaraq, yeyin-yeyin əlavə etdi:

– Təki Allah məni bağışlasın. Sən isə, görünür, bağışlayıbsan.

Qadın qapının ağzında ayaq saxladı:

– Yox, Nikolay Alekseyeviç, bağışlamamışam. Bir halda ki, söhbət bizim hisslərimizə aid oldu, açığını deyəcəyəm: mən sizi heç vaxt bağışlaya bilməzdim. O vaxt mənim üçün dünyada sizdən əziz bir məxluq olmadığı kimi, sonralar da olmayıb. Ona görə də mən sizi bağışlaya bilmərəm. Əşi, xatırlamağın nə mənası var? Ölülər qəbiristandan qayıtmır.

Müsafirin sifəti artıq ciddi ifadə almışdı; o, pəncərənin qabağından çəkilərək, cavab verdi:

– Hə, hə, mənası yoxdur, əmr elə, atları qoşsunlar. Sənə yalnız bunu deyə bilərəm ki, heç vaxt xoşbəxt olmamışam, xahiş edirəm, ayrı şey düşünmə: məni bağışla, ola bilsin ki, mən sənin heysiyyətinə toxunmuram, lakin açıq deyirəm – mən arvadımı bütün varlığımla, dəlicəsinə sevirdim. Lakin o mənə xəyanət etdi, vəfasızlıq edib, səni atdığımdan daha betər təhqirlə məni atdı. Oğlumu məftunluqla sevirdim, ona nə cür ümidlər bəsləyirdim! Halbuki əclaf,

yaramaz çıxdı; bədxərc, həyasız, daşqəlbli, şərəfsiz, vicdansız bir adam oldu... Bir də elə bütün bunlar da ən adi, bayağı əhvalatdır. Salamat qal, əzizim. Güman edirəm ki, səni itirməklə həyatımda malik olduğum ən əziz məxluqu itirdim.

Qadın kişiyə yanaşıb onun əlini öpdü.

– Əmr elə, atları...

Solğun qürub günəşi göründü. Sürücü atları yortma sürürdü, o daim qara şırımları dəyişir, faytonu palçığı az olan izlərlə sürürdü, o da nə barədə isə fikirləşirdi. Nəhayət, ciddi və sərt ifadə ilə dedi:

– Zati-aliləri, biz yola düşəndə o arvad pəncərədən elə hey bizə tamaşa edirdi. Yəqin ki, siz onu çoxdan tanıyırsınız, eləmi?

– Çoxdan, Klim.

– Çox ağıllı arvaddır. Özü də deyirlər ki, yamanca varlıdır. Faizlə pul borc verir.

– Bunun heç bir əhəmiyyəti yoxdur.

– Necə yəni əhəmiyyəti yoxdur? Yaxşı yaşamağı kim istəməz? Vicdanla borc verəndə, pislik də az olar. Deyirlər ki, o arvad bu barədə ədalətlidir. Ancaq tərsxasiyyətdir! Vaxtında qaytarmadın – vay halına – özündən küs!

– Hə, hə, özündən küs... Yeyin sür, xahiş edirəm, qatara gecikməsək yaxşıdır...

Üfüqə sallanan günəş boş çöllərə sarı işıq saçırdı, atların ayaqları müntəzəm olaraq gölməçələrdə şappıldayırdı. Qara qaşlarını çatmış müsafir tez-tez görünən nallara baxa-baxa düşünürdü:

"Hə, özündən küs. Hə, əlbəttə, ən yaxşı dəqiqələr özü də ən yaxşı, həqiqətən məftunedici dəqiqələr! Çiçək açmışdı hər tərəfdə al-qırmızı giləmeyvələr. Cökələr, qaranlıq xiyabanlar, xəlvət guşələr... Lakin pərvərdigara, bəs sonra nə olardı? Mən onu atmasaydım, nə olardı? Həmin Nadejda – müsafir otağı saxlayan sahibkar qadın – mənim arvadım, mənim Peterburqdakı evimin sahibəsi, mənim uşaqlarımın anası?" Nə mənasız cəfəngiyat?!

O, gözlərini yumub başını bulayırdı.

GÜN VURMUŞDU

Nahardan sonra gur işıqlı və isti yeməkxanadan göyərtəyə çıxıb, sürahinin yanında dayandılar. Qadın gözlərini yumdu, əlinin dalını yanağına dayayaraq, məsum, məlahətli əda ilə güldü, – bu balaca qadının bütün hərəkətləri, bütün ədaları misilsiz dərəcədə gözəl idi. O dedi:

– Mən, deyəsən, sərxoşam... Siz haradan mənə rast gəldiniz? Üç saat bundan qabaq mən heç bilmirdim də ki, siz bu dünyada varsınız, yoxsa yox. Sizin varlığınızdan da xəbərsiz idim. Gəmiyə harada mindiyinizi də bilmirəm. Samaradamı? Lakin fərqi yoxdur... Mənim, deyəsən, başım hərlənir, ya da ki, gəminin hansı tərəfəsə döndərirlər.

Qabaq tərəf qaranlıq idi, işıqlar sayrışırdı. Qaranlıqdan onların üzünə şiddətli, sərin külək əsirdi, amma işıqlar harasa yana hərəkət edirdi: gəmi Volqaya yaraşan təşəxxüslə geniş və sərt dairə vuraraq, sürətlə kiçik körpüyə yanaşırdı.

Poruçik qadının əlindən tutub, dodaqlarına yaxınlaşdırdı. Gündən yanıb qaralmış, balaca, qüvvətli əldən günəş qoxusu gəlirdi. Bütöv bir yay ərzində cənub günəşi altında, isti dəniz qumunda uzanandan sonra, – qadın demişdi ki, Anapadan gəlir, onun nazik kətan donunun altındakı çox möhkəm bədəni, yəqin ki, gündən qaralıb əsmər rəng almışdır, – deyə düşünəndə zabitin qəlbi sevinc və dəhşətlə çırpınırdı. Poruçik dedi:

– Gəlin düşək...

Qadın heyrətlə soruşdu:

– Hara?

– Bu körpüdə.

– Nə üçün?

Zabit dinmədi. Qadın əlinin dalını yenə qızğın yanağına dayadı.

– Bu, dəlilikdir...

Zabit mənasız-mənasız təkrar etdi:

– Düşək, yalvarıram sizə...

Qadın üzünü yana çevirib dedi:

– Əşi, necə istəyirsiniz edin.

Sürətlə hərəkət edən gəmi, ehmallıca, tutqun işıq düşən körpüyə dəydi, onlar az qala bir-birinin üstünə yıxılacaqdılar. Kəndirin

ucu onların başı üzərindən keçdi, sonra gəmi geri çəkildi, su səs-küylə qaynadı, gəzdirmə körpülərin taqqıltısı eşidildi... Poruçik başıalovlu şeylərin dalınca yüyürdü.

Bir dəqiqədən sonra onlar ağır sükuta dalmış körpüdən keçdilər, dərin qumluğa çıxaraq, dinməz-söyləməz minik arabasına əyləşdilər. Əyri, seyrək fənərlərin arası ilə dikə qalxan, toxdan yumşalmış yol onlara bitib-tükənməz görünürdü. Nəhayət, qalxdılar, daş döşənmiş yola çıxanda arabanın çarxları taqqıldamağa başladı, qarşıda meydan göründü, hökumət idarələri, qüllə gözə çarpdı, onları yay gecəsinin qaranlığına dalmış isti qəza şəhərinin qoxuları bürüdü... Sürücü arabanı işıq düşən küçə qapısının qabağında əylədi, açıq qapıların arxasından yuxarı qalxan köhnə taxta pillələr görünürdü, çəhrayı köynək və sürtük geymiş, nədənsə narazı olan saqqalı xidmətçi müsafirlərin şeylərini götürüb, qabağa düşdü. Böyük, lakin dəhşətli dərəcədə bürkülü, bütün gün ərzində günəşin od kimi qızdırdığı nömrəyə daxil oldular. Nömrənin pəncərələrinə ağ pərdələr çəkilmişdi, ayna mizinin üstündə yanmayan iki şam var idi, onlar içəri girdilər, xidmətçi otaqdan çıxıb, qapını örtən kimi, poruçik qadının ağuşuna elə atıldı, ikisi də qucaqlaşıb dodaqlarını bir-birinə elə coşqunluqla sıxdılar ki, sonra bu anları uzun illər unuda bilmirdilər, bütün ömrü boyu, heç bir zaman nə zabit belə nəşə duya bilmişdi, nə də qadın.

Günəşli, isti, xoşbəxt səhər çağı idi; kilsə zənglərinin səsi ətrafa yayılırdı, mehmanxana qarşısındakı meydan bazarı səs-küylü idi; ətrafı bürümüş ot, qatran qoxusu, qəza rus şəhərini adətən bürüyən nə varsa, yenə də həmin mürəkkəb və ətirli şeylərin hamısından saçılan təravətli qoxular hər tərəfi ağzına almışdı.

Saat onda, adını hələ də deməyən, zarafatyana özünü qəşəng yad qadın adlandıran bu adsız balaca qadın yola düşüb getdi. Onlar az yatmışdılar. Lakin səhər, qadın çarpayı yanındakı arakəsmənin arxasından çıxaraq, beş dəqiqə ərzində əl-üzünü yuyub, paltarını geyəndən sonra, on yeddi yaşlı qız kimi təravətli idi. O, utanırdımı, sıxılırdımı? Yox, çox cüzi tərzdə. Əvvəlki kimi sadə, şən və artıq dərrakəli idi.

Zabit yenə d birlikdə getməyi xahiş edəndə qadın ona belə cavab verdi:

– Yox, yox, mənim əzizim, yox, siz məndən sonrakı gəmini gözləməlisiniz. Hərgah biz birlikdə yollansaq, hər şey korlanar. Bu

mənim üçün heç də xoş olmaz. Sizə sədaqətdən deyirəm, vicdanıma and içirəm ki, mən heç də sizin haqqımda düşünə biləcəyiniz kimi adam deyiləm. Mənim başıma gələn bu əhvalata hətta zərrə qədər də bənzəyən bir şey heç vaxt olmayıb, olmayacaq da. Mənim elə bil ki, gözüm bağlanmış, ağlım çaşmışdı... Yaxud da, doğrusu, bizim ikimizi də nə isə elə bil, gün vurmuşdu...

Poruçik onunla nəsə çox tez razılaşdı. Özünü xoşbəxt hesab edən kefi kök zabit qadını körpüyə qədər ötürdü, – onlar körpüyə çəhrayı "Təyyarə" adlanan gəminin yola düşdüyü məqamda çatmışdılar; zabit göyərtədə, hamının yanında qadını öpdü, gəzdirmə körpünü geri çəkdikləri məqamda körpüyə atıla bildi.

Zabit elə bu cür də yüngülcə, qayğısızlıqla mehmanxanaya qayıtdı. Buna baxmayaraq, nə isə dəyişmişdi. Qadınsız nömrə ona nə isə tamamilə başqa cür göründü. Otaqda hələ də qadın hökm sürürdü – amma otaq boş idi. Bu, təəccüblü idi! Qadının gözəl ingilis odekolonunun ətri hələ də otaqdan çəkilməmişdi, onun yarıya qədər içilmiş fincanı hələ də məcməyidə idi; amma ki, qadın özü yox idi... Qəflətən poruçikin qəlbi elə mehriban bir duyğu ilə, elə şəfqətlə sıxıldı ki, tez-tələsik papiros yandırıb, otaqda var-gəl etməyə başladı.

Zabit gözlərinin yaşardığını hiss edərək, gülüb ucadan dedi:

– Əcaib macəradır! "Vicdanıma and içirəm ki, mən heç də sizin düşünə biləcəyiniz kimi adam deyiləm..." Özü də yola düşüb getdi...

Arakəsmə kənara çəkilmişdi, yorğan-döşək hələ yığışdırılmamışdı. Zabit hiss edirdi ki, indi bu yatağa baxmağa taqəti çatmır. Poruçik arakəsməni yatağın qabağına çəkdi, pəncərələri örtdü ki, bazarın səs-küyünü və çarxların cırıltısını eşitməsin; qırış kəsmiş ağ pərdələri saldı, divanda əyləşdi... Bəli, bu da bizim "yol macəramızın" sonu! Getdi – indi artıq uzaqlardadır; yəqin şüşəbəndli ağ salonda, yaxud da göyərtədə əyləşib, günəş şüalarında parlayan nəhəng çaya, qarşıdan gələn gəmilərə, sarı ləpədöyənlərə, çayın bərq verən uzaq sularına və səmaya, bütün bu ucsuz-bucaqsız Volqa ənginliklərinə tamaşa edir... Özü də ki, əlvida, indi daha həmişəlik, əbədi olaraq... Ona görə ki, axı biz daha bundan sonra harada görüşə bilərik? – Zabit düşünürdü: "Axı mən ki, ağına-bozuna baxmadan onun özü, əri, üç yaşında qızının yaşadığı, ümumiyyətlə, bütün ailəsinin yaşadığı və bütün adi həyatının cərəyan etdiyi şəhərə ki gedə bilmərəm!" – İndi bu şəhər ona nə isə xüsusi, olduqca əziz, toxunulmaz

göründü. Qadının bu şəhərdə öz yalqız həyatı ilə, ola bilsin, onu tez-tez xatırlayaraq, onların təsadüfi, bu cür ötəri, ani görüşlərini yada sala-sala yaşayacağını, özü isə onu bir daha görə bilməyəcəyini düşündükcə bu fikir onu heyrətə salır, bütün varlığını sarsıdırdı. – Yox, bu ola bilməz! Bu, hədsiz böyük bir vəhşilik olardı, qeyri-təbii, həqiqətdən uzaq bir şey olardı! – Poruçikin qəlbi elə sızıldadı, onsuz keçəcək həyatının lüzumsuzluğunu, mənasızlığını elə dərindən hiss etdi ki, dəhşətə gəlib ümidsiz halda köksünü ötürdü.

Zabit ayağa qalxdı, otaqda yenə var-gəl edə-edə arakəsmə arxasındakı yatağa baxmaqdan özünü zorla saxlayırdı. – Əşi, nədir, axı mənə nə olub? Axı o qadının nəyi məni belə məftun edib, əslində, axı nə olub? Axı o qadının nəyi məni belə məftun edib, əslində, axı nə olub? Doğrudan da elə bil məni lap gün vurub! Əsas məsələ budur ki, mən indi bu ucqarlıqda bütün günü onsuz necə keçirəcəyəm?"

Qadının bütün məziyyətlərini o hələ də yaxşı xatırlayırdı, onun ən kiçik xüsusiyyətləri zabitin yadında idi; gündən qaralmış bədəninin, kətan donunun ətri, möhkəm bədəni hələ də gözünün qarşısında idi; gümrah, sadə və şən səsindəki məlahət hələ də qulaqlarında səslənirdi... Bir az bundan əvvəl onun bütün qadınlıq lətafətindən duyduğu fövqəladə nəşə zabiti hələ də tərk etməmişdi, lakin indi başlıca cəhət, hər halda, ikinci, tamamilə yeni yaranmış olan duyğu idi, – qəribə və anlaşılmaz bir duyğu; nə qədər ki, onlar bir yerdə idilər, belə bir duyğudan əsər-əlamət də yox idi, bunu o heç ağlına da gətirməzdi; dünən onunla tanış olanda zabit ancaq əylənmək fikrində idi, məzəli bir əyləncə haqqında düşünürdü, indi isə bu duyğu barədə qadına heç bir şey demək olmazdı.

Poruçik düşünürdü:

"Başlıcası budur ki, axı mən bunu heç vaxt deyə bilməyəcəyəm! Bəs mən nə edim, bu qurtarmaq bilməyən günü necə başa vurum; suları işıq saçan, çəhrayı gəmini qadınla birlikdə çəkib aparmış olan Volqa sahilində Allah tərəfindən də unudulmuş bu ucqar şəhərcikdə belə dözülməz əzabla, bu cür xatirələrlə necə yaşayım?!"

Bu dərddən xilas olmaq, bir şeylə məşğul olmaq, fikirlərdən yayınmaq, bir yerə getmək lazım idi. Poruçik qəti bir hərəkətlə papağını başına qoydu, qırmancı əlinə aldı, mahmızlarını cingildədə-cingildədə boş dəhlizdən keçib hündür pillələrlə küçə qapısına sarı yüyürdü... Getməyinə gedirəm, amma hara? Küçə qapısının qaba-

ğında yaraşıqlı çuxa geymiş gənc sürücü arxayın-arxayın tənbəki çəkirdi. Poruçik ona çaşqın halda və heyrətlə nəzər saldı: şahnişində bu cür arxayın oturub tənbəki çəkməkmi olar, ümumiyyətlə, heç mümkün şeydirmi ki, belə sadə, qayğısız, laqeyd bir adam olasan?

Zabit bazara tərəf gedə-gedə düşünürdü:

"Görünür, bütün bu şəhərdə belə dəhşətli dərəcədə bədbəxt adam təkcə mənəm".

Bazar camaatı dağılmağa başlamışdı. Poruçik nə üçünsə arabaların arasındakı təzəkdə, xiyar yüklənmiş arabaların, təptəzə kasaların, güvəclərin arasında gəzindi; yerdəcə oturan arvadlar bir-birinin ardınca onu səsləyirdilər; güvəcləri əllərinə alıb taqqıldadır, barmaqları ilə döyəcləyib xalis və möhkəm mal olmasını nümayiş etdirirdilər; mujiklər bağıra-bağıra ona müraciət edirdilər: – "Zati-aliləri, buyurun, əla xiyardır!"

Bütün bunlar o dərəcədə sarsaq və mənasız idi ki, zabit bazardan çıxıb qaçdı. Kilsəyə girdi, orada artıq ucadan, şən və əzmlə dini mahnı oxuyurdular; poruçik sonra xeyli gəzib-dolandı, dağın döşündə, suyu polad kimi parlayan enli çayın sahilindəki kiçik, isti və baxımsız qalmış bağda ayaq döydü...Poqonları və hərbi köynəyinin düymələri elə qızmışdı ki, onlara toxunmaq da olmurdu. Furajkasının qıraqları tərdən islanmışdı, sifəti elə bil yanırdı...

Poruçik mehmanxanaya qayıdanda, aşağı mərtəbədəki böyük, boş və sərin yeməkxanaya məmnuniyyətlə ayaq basdı; furajkasını böyük bir nəşə ilə başından götürüb, açıq pəncərə yanındakı masa arxasında əyləşdi; pəncərədən içəri isti gəlsə də, hər halda təmiz hava dolurdu; poruçik buzlu botvinya şorbası sifariş etdi... Hər şey yaxşı idi, hər şeydə misilsiz bir xoşbəxtlik, böyük bir sevinc vardı; hətta bu bürküdə, bazarın bütün qoxularında, bütün bu yad şəhərcikdə, bu köhnə qəza mehmanxanasında da bu xoşbəxtlik hökm sürürdü; eyni zamanda onun qəlbi sadəcə parçalanırdı. Zabit bir neçə qədəh araq içib, azca duzlanmış şüyüdlü xiyarla qəlyanaltı edirdi; o hiss edirdi ki, hərgah bir möcüzə baş versəydi – yəni qadını buraya qaytarmaq mümkün olsaydı, onunla bugünkü günü də birlikdə keçirmək mümkün olsaydı, o heç bir şeyə baxmayaraq günü sabah ölərdi, zabit ancaq ona görə o qadınla bir yerdə olmaq istəyir, yalnız ona görə bu gününü onunla keçirmək istəyirdi ki, onu necə iztirabla, necə coşqunluqla sevdiyini qadına söyləyə bilsin, ülvi məhəbbətini bir

şeylə ona sübut etsin... Nə üçün sübut etsin? Nə üçün inandırsın? Bilmirdi nə üçün, lakin bu onun üçün həyatında vacib idi.

Zabit qədəhinə beşinci dəfə araq süzüb dedi:

– Əsəblərim lap korlanıb!

Botvinyanı kənara itələyib, qara qəhvə sifariş etdi, papiros yandırıb, dərin düşüncəyə daldı: İndi o necə etsin, bu nagahani, gözlənilməz məhəbbətdən canını necə qurtarsın? Lakin can qurtarmaq, xilas olmaq mümkün deyildi – poruçik bunu bütün varlığı ilə hiss edirdi. O yenə cəld ayağa qalxdı, furajkasını və qırmancını götürdü; poçtun yerini xəbər alaraq, tələsik poçta yollandı; teleqramda yazacağı ifadəni yadında saxlamışdı: "Bundan belə mənim bütün həyatım ömürlük, qəbirə qədər sizindir, sizin ixtiyarınızdadır". Lakin poçtun və teleqrafın yerləşdiyi qalın divarlı köhnə evə çatanda dəhşətə gəlib ayaq saxladı. Poruçik qadının yaşadığı şəhərin harada olduğunu bilirdi; bilirdi ki, onun əri və üç yaşlı qızı vardı, lakin onun nə familiyası poruçikə məlum idi, nə də adı! Dünən nahar edəndə və mehmanxanada bunu qadından bir neçə dəfə soruşmuşdu, hər dəfə də qadın gülüb deyirdi:

– Mənim kim olduğumu, adımı bilmək sizin nəyinizə lazımdır?

Tində, poçtla yanaşı fotoqraf vitrini var idi. Poruçik dayanıb. Ensiz alnı, çiyinlərində sıx naxışlı və saçaqlı epoletləri, donba gözləri, olduqca gözəl və yaraşıqlı bakenbardları və çox enli sinəsi olan bir nəfər hərbi xidmətçiyə xeyli tamaşa etdi; onun sinəsi ordenlərlə dolu idi... İnsanın qəlbi yaralananda, fərəhsiz, adi şeylər adama necə də əcaib, dəhşətli təsir bağışlayır, – bəli, onun qəlbini bu dəhşətli "gün vurması", hədsiz böyük məhəbbət, misilsiz böyük bir səadət yaralamışdı!

O, təzəcə evlənən ər-arvada nəzər saldı – uzun sürtuk geymiş cavan oğlan ağ qalstuk bağlamış, saçını girdələmə vurdurmuşdu; qəddini şax tutub, nazik ipək parçadan gəlinlik paltarı geymiş qızın qoluna girmişdi; poruçik gözünü onlardan çəkib, başına yanakı tələbə şapkası qoymuş bir nəfər qəşəng və şux baxışlı qızın şəklinə nəzər saldı... Sonra, tanımadığı, iztirab çəkməyən bu adamlara qarşı üzücü həsəd duyğusundan usanaraq, gərgin nəzərlərlə küçə boyunca baxmağa başladı.

– Hara gedim? Necə edim?

Küçə bomboş idi. Evlərin hamısı bir cür – ağ, ikimərtəbəli tacir evləri idi; böyük bağları vardı, adama elə gəlirdi ki, bu evlərdə bir nəfər də yaşamır; daş döşənmiş küçənin üzərinə qəliz ağ tox çökmüşdü; bütün bunlar adamın gözünü tor kimi tuturdu; hər şey qaynar, alovlu və fərəhli günəş şüalarına qərq olmuşdu, lakin burada günəşin ziyası sanki lüzumsuz idi. Uzaqda küçə dikə qalxırdı; donqarlaşır və buludsuz, bozumtul, parlaq üfüqə dirənirdi. Bütün bu mənzərədə nə isə cənuba bənzəyən əlamət vardı, adama Sevastopolu, Kerçi... Anapanı xatırladırdı. Buna isə heç dözmək olmurdu. Ona görə gözü qamaşan poruçik başını aşağı saldı, ayağının altına diqqətlə baxaraq, səntirləyə-səntirləyə, büdrəyə-büdrəyə, mahmızları bir-birinə ilişə-ilişə geri addımladı.

Zabit mehmanxanaya elə yorğun, taqətsiz halda qayıtdı ki, elə bil, haradasa Türküstanda, Böyük səhrada çox uzaq səfərə çıxmışdı. Poruçik bütün qüvvəsini toplayıb özünün böyük və boş nömrəsinə daxil oldu. Nömrəni artıq yığışdırmışdılar; qadını xatırladan heç bir əsər-əlamət qalmamışdı; qadının yadından çıxarmış olduğu bircə dənə baş sancağı ayna mizinin üstündə qalmışdı! Zabit kitelini çıxarıb, aynada özünə baxdı: sifəti gündən yanıb bozarmış olan adicə zabit sifəti idi; bığlarını da gün yandırmış, ağımsov rəng almışdı; gözünün ağı maviyə çalırdı; üzü gündən qaraldığı üçün gözləri daha ağ görünürdü, – indi onun gözlərində dəlicəsinə həyəcanlı ifadə vardı; dik yaxalıqlı, kraxmallanmış nazik köynəkdə nə isə bir gənclik, dərin qəm-qüssə və sarsıntı duyurdu. Poruçik arxası üstə çarpayıya uzandı, tozlu çəkmələrini bir-birindən aralı qoydu. Pəncərələr açıq idi, pərdələr salınmışdı, xəfif külək arabir onları yelləyirdi; gündən qızmış dəmir damların bürküsü otağa dolurdu, Volqanın bütün bu işıq saçan, indi büsbütün boşalmış, səs-səmirsiz aləmi onun üçün cəhənnəm əzabına çevrilmişdi. Poruçik əllərini boynunun ardında daraqlayıb uzanmışdı, gözünü zilləyib qarşısına baxırdı. Sonra dişlərini qıcadı, gözlərini yumdu, hiss etdi ki, göz yaşı yanaqlarına axır; nəhayət, yuxuya getdi; yuxudan ayılanda isə gördü ki, pərdələrin arxasında, saralan axşam günəşinin qırmızımtıl şüaları parlayır.

Külək yatmışdı, mehmanxana otağı alovlanan soba kimi bürkü və xəfif idi... Dünənki günü də, bugünkü səhəri də zabit elə xatırlayırdı ki, elə bil bütün bu əhvalat on il bundan qabaq baş vermişdi.

O, aram-aram qalxdı, tələsmədən əl-üzünü yudu, pərdələri qaldırdı, zəngi çalıb samovar sifariş etdi; tapşırdı ki, haqq-hesab kağızını gətirsinlər; xeyli oturub limonlu çay içdi. Sonra əmr etdi ki, fayton çağırsınlar, şeylərini faytona aparsınlar; oturacağı gündən solub saralmış faytona əyləşərək, mehmanxana xidmətçisinə beş manat verdi.

Sürücü cilovları qaldırıb gülə-gülə dedi:

– Zati-aliləri, deyəsən, axı gecə sizi buraya mən gətirmişdim!

Körpüyə enəndə Volqa üzərinə gecənin göyümtül qaranlığı çökmüşdü, çaya bol-bol əlvan işıqlar səpələnmişdi, sürətlə yaxınlaşan gəminin də dor ağaclarında işıqlar sayrışırdı.

Sürücü yaltaqlıqla dedi:

– Sizi lap vaxtında gətirmişəm!

Poruçik ona da beş manat verdi; bilet alıb körpüyə keçdi... Dünənki kimi, indi də gəmi yan alanda ehmallıca körpüyə toxundu, poruçikin ayağının altı titrədiyi üçün başı azca hərləndi; havada sürətlə keçən kəndiri gördü; sonra bir az geri çəkilən gəminin çarxları altında kükrəyib iti axan suyun şırıltısı eşidildi... Artıq hər tərəfində işıqlar yanan, mətbəxin qoxusu yayılan bu izdihamlı gəmi ona fövqəladə fərəhli və xoş təsir bağışladı.

Bir dəqiqədən sonra gəmi yuxarıya sarı, səhər çağı qadını apardığı səmtə hərəkət etdi.

Tutqunlaşan yay şəfəqi üfüqlərdə söndükcə uzaqlarda titrəşən sularda hələ də əks olunurdu: ətrafı bürüyən qaranlığa səpələnmiş işıqlar üfüqlərin şəfəqi altında sürətlə geriyə süzürdü.

Poruçik göyərtədəki talvar altında əyləşmişdi, o özünü on il qocalmış hiss edirdi.

LEONİD NİKOLAYEVİÇ ANDREYEV

(1871-1919)

BEN-TOVİT

(hekayə)

Yer üzündə ən böyük cinayətin baş verdiyi Qolqofda, bir cüt quldurun arasında İsa məsihin çarmıxa çəkildiyi o dəhşətli gündə dan yeri ağarandan Qüdslü tacir Ben-Tovitin dişləri ağrıyırdı.

Əslində, ağrı dünən axşamdan başlamışdı: əvvəlcə sağ çənəsi zoqquldadı, ağıl dişinin böyründəki diş də elə bil bir balaca dikəlmişdi, dil dəyəndə sızıldayırdı. Amma şam yeməyindən sonra ağrı tamam kəsdi. Ben-Tovit hər şeyi unudub sakitləşdi. Bir də ki, dünən onun kefi çox kök idi, öz qoca uzunqulağını cavan, güclü bir eşşəyə dəyişmişdi.

Gecəni çox rahat yatdı. Ancaq səhərə yaxın nədənsə yerində qurcalanmağa başladı, elə bil yuxuda kimsə onu harasa çağırırdı. Ben-Tovit diksinib oyananda dişləri əməlli-başlı, lap düşməncəsinə ağrayırdı. Özü də ağrıyan təkcə dünənki diş deyildi, o biri dişləri də ona qoşulmuşdu. Baş-beyni dəhşətli ağrıyla doluydu; sanki ağzında bir ovuc qıpqırmızı közərmiş mismar çeynəyirdi.

Saxsı kuzədən ağzına bir qurtum su alıb saxladı – ağrı bir anlığa kəsdi. Ben-Tovit yenə yatağa uzandı, aldığı eşşəyi yadına salıb fikirləşdi ki, bu lənətə gəlmiş diş ağrısı olmasaydı, indi yəqin dünyada ondan xoşbəxt adam tapılmazdı. Elə bu xəyallarla da gözlərini yumub mürgüləmək istədi.

Amma ağzına aldığı su ılıq idi – bir azdan ağrı təzədən, əvvəlkindən də bərk qayıtdı, onu dik qaldırıb yataqda oturtdu. Ben-Tovit ağrıdan yelpələng kimi yırğalanırdı. Bütün sifəti qırışıb iri burnunun ətrafına yığılmışdı. Əzabdan ağappaq ağarmış bu burnun ucunda bir damla soyuq tər donub qalmışdı.

Sübh tezdən Qolqofdakı o üç çarmıxı görüb, dəhşətdən və dərddən rəngi qaralan günəşin ilk şüaları üzünə düşəndə Ben-Tovit hələ də ağrıdan yırğalana-yırğalana inildəyirdi.

O zavallı haqqı sevən, yaxşı və xeyirxah adam idi. Amma arvadı yuxudan oyananda dözmədi, ağzını gücnən aralayıb ona dişinin dibindən çıxanı dedi:

– Ölsəm də, heç kəsin vecinə olmaz. Səhərəcən tək-tənha çaqqal kimi ulaya-ulaya qalmışam.

Arvadı ərinin kinli adam olmadığını yaxşı bilirdi. Elə buna görə də, onun bu haqsız sözlərini səbirlə dinlədi və sonra kirimişcə gedib dərman gətirdi; üzünə yapışdırmağa siçan nəcisi, dişinə qoymağa əqrəb zəhəri.

Hər dəfə dərman qoyulanda ağrı kəsildi, amma bir azdan təzədən, əvvəlkindən də bərk tuturdu. Ağrısı kiriyən dəqiqələrdə Ben-Tovit eşşəyini yadına salıb özünə təskinlik verirdi, ağrı şiddətlənəndə isə inildəyə-inildəyə arvadını söyürdü, ağrı kəsməsə başını daşa çırpıb parça-parça edəcəyini deyirdi.

O, beləcə donquldana-donquldana evinin yastı damında o yan bu yana vurnuxurdu. Amma damın qırağına yaxınlaşmağa utanırdı, çünki başını, üz-gözünü arvad kimi yaylıqla sarımışdı. Arabir qonşunun uşaqları yüyürə-yüyürə gəlib aşağıdan onu səsləyirdilər, bir-birinin sözünü kəsə-kəsə Nazaretli İsa haqqında danışırdılar. Ben-Tovit bir anlığa dayanırdı, ağrıdan üz-gözünü büzüşdürüb onları dinləyirdi, sonra hirsli-hirsli ayağını yerə çırpıb uşaqları qovurdu. Doğrudur, o xeyirxah adamıydı, uşaqları da çox sevirdi, amma indi belə boş bir şeydən ötrü zəhləsini tökən bu uşaqların əlindən lap zara gəlmişdi.

Ən pisi bu idi ki, küçə də, qonşu evlərin damları da adamla doluydu və bu işsiz-gücsüz camaat ağzını ayırıb arvad kimi başını sarıyan Ben-Tovitə baxırdı. Ben-Tovit elə damdan aşağı enmək istəyirdi ki, arvadı üzünü ona tutub:

– Ora bax, – dedi, – quldurları aparırlar. Bax, bəlkə fikrin dağıldı.

Ben-Tovit acıqlı-acıqlı donquldandı:

– Əl çək, sən Allah! Görmürsən nə haldayam?!

Amma arvadının sözləri onda bir balaca ümid oyatdı ki, bəlkə baxsa elə doğrudan da dişlərinin ağrısı kəsər. Odur ki, könülsüz-könülsüz damın qırağına yaxınlaşıb bir gözünü yumdu və yanağını əliylə tutub üz-gözünü büzüşdürə-büzüşdürə aşağı baxdı. Dağa

qalxan ensiz küçəylə hay-küylü izdiham yeriyirdi. Səsdən qulaq, tozdan göz tutulurdu. İzdihamın ortasıyla kürəklərindəki xaçların ağırlığından belləri bükülmüş canilər gedirdilər. Onların başları üzərində Roma əsgərlərinin qamçıları ilan kimi qıvrılıb-açılırdı. Qəflətən o canilərin bir ayağının altına atılmış daşa ilişib yıxıldı; yazığın çiyninə tökülən uzun, sarışın saçları tərdən islanmışdı, dizinə çatan uzun, qanlı köynəyi də cırıq-cırıq idi. Camaat bir az da bərkdən çığırışıb onun başının üstünü aldı, o yazıq sanki rəngbərəng dalğaların altında qalıb gözdən itdi.

Ben-Tovit qəfil ağrıdan diksindi, elə bil dişinə odda qızmış iynə sancıb burdular, ikrahla sir-sifətini büzüb ufuldaya-ufuldaya damın qırağından çəkildi: "U-u-u..."

– Gör bir nə çığırışırlar!..

Ben-Tovit o çığırışanların indi gen-bol açılmış ağızlarındakı sağlam, möhkəm dişləri gözünün qabağına gətirib həsədlə donquldandı və ürəyində fikirləşdi ki, dişləri belə ağrımasaydı gör bu dəqiqə o özü necə çığırardı. Və bunu fikirləşən kimi ağrı elə qızışdı ki, o başını sağa-sola silkələyib öküz kimi böyürdü:

– Mu-u-u!.."

– Deyirlər, bu bədbəxt korların gözünü sağaldırmış.

Hələ də damın qırağından çəkilməyən arvadı bunu deyib əsgərlərin qamçıyla döyə-döyə yıxıldığı yerdən qalxıb yeriməyə məcbur elədiyi İsaya bir daş tulladı.

Ben-Tovit istehzayla:

– Heyif!.. – dedi. – Elə bacarığı vardısa, gərək dişimin ağrısına bir əncam çəkəydi.

Sonra camaatı göstərib acı-acı dilləndi:

– Gör nə tozanaq qaldırıblar!.. Elə bil qoyun sürüsüdü. Bunları gərək çubuğun qabağına qatıb qovasan. Məni bir aşağı endir, Sara!..

Arvadı haqlı çıxdı, gördüyü tamaşadan Ben-Tovitin əhvalı bir az düzəldi, bəlkə də yanağına yapışdırdığı siçan nəcisi kömək elədi, hər nəydisə, axır ki, yuxuya getdi. Yuxudan oyananda dişlərinin ağrısı tamam kəsilmişdi, təkcə sağ yanağı bir balaca şiş idi, o da lap güclə hiss olunurdu. Arvadı deyirdi ki, yox, heç o da hiss olunmur, – amma Ben-Tovit bic-bic qımışırdı, çünki arvadının xeyirxah adam olduğunu və onun könlünü almaq üçün belə dediyini yaxşı bilirdi.

Elə bu vaxt qonşuları dabbaq Samuil gəldi və Ben-Tovit onu tövləyə aparıb təzə eşşəyini göstərdi. Samiul eşşəyi də, Ben-Toviti də ağızdolusu tərif lədi.

Sonra Saranın xahişiylə Qolqofda çarmıxa çəkilənlərə tamaşa etməyə yollandılar.

Yol boyu Ben-Tovit hər şeyi – dünən axşam sağ çənəsinin zoqquldamağını da, gecəyarısı dişinin ağrısından diksinib yuxudan dik atılmağını da lap başdan Samuilə danışdı. Özü də, o, dediklərini təsvir eləyə-eləyə üz-gözünü turşudub gah gözlərini yumurdu, gah da başını yırğalayıb inildəyirdi. Samuil başını tərpədib ağappaq saqqalını yelləyə-yelləyə onun dərdinə şərik olurdu:

– Ay-ay-ay! Ağrıya bir bax ha!..

Ben-Tovit də bundan xoşallanıb, öz nağılını bir də təzədən başlayırdı. Beləcə, ağızdolusu söhbət edə-edə gəlib Qolqofa çatdılar. Bu dəhşətli gündə dünyanı işıqlandırmağa məhkum olunmuş günəş uzaqdakı təpələrin dalında batmışdı. Alaqaranlıqda çarmıxlar güclə sezilirdi və ortadakı çarmıxın altında diz çöküb dayanan tək-tük adamlar da adamdan çox kölgəyə oxşayırdılar.

Camaat çoxdan dağılışmışdı, hava get-gedə soyuyurdu. Çarmıxa çəkilənlərə gözucu baxandan sonra Ben-Tovit tələsik Samuilin qolundan yapışıb onu evə sarı döndərdi, yarımçıq qalan söhbətinə davam eləyib yenə yolboyu ufuldaya-ufuldaya, üz-gözünü büzüşdürə-büzüşdürə dəhşətli diş ağrısından danışıb ürəyini boşaltdı. Samuil onun dərdinə şərik çıxıb başını tərpədə-tərpədə "ah-uf" elədikcə Ben-Tovit lap qızışırdı.

Dərin dərələrin dibindən, ucsuz-bucaqsız səhraların qoynundan qalxan gecənin qatı qaranlığı yavaş-yavaş dünyanı tuturdu. Qaranlıq elə bil bu gün yer üzündə baş verən o dəhşətli cinayəti göy üzündən gizləmək istəyirdi.

YARIMÇIQ HEKAYƏ

Arvadım məni oyadanacan, ötən günün qeyri-müəyyənliyindən təngə gəlib elə paltarlı yataqda yuxulamışdım. Əlində tutduğu şamın işığı gecənin bu vədəsində nədənsə mənə günəşin şöləsi kimi parlaq göründü. Şamın işığında arvadımın solğun çənəsi tərpənirdi və bir cüt iri yad gözləri parıldayırdı.

– Xəbərin var, – dedi, – xəbərin var, bizim küçədə barrikada qururlar.

Sakitliyiydi. İkimizdə bir-birimizin yad gözlərinə baxırdıq və mən rəng-rufumun get-gedə necə ağardığını hiss eləyirdim. Bir anın içində həyat harasa yoxa çıxdı, – sonra, ürəyin gurultulu döyüntüsü ilə yenidən qayıtdı. Sakitliyiydi. Şamın alovu havada yırğalanırdı və həmin bu xırda, tutqun alov əyri qılınc kimi iti görünürdü.

– Qorxursan? – soruşdum.

Arvadımın solğun çənəsi əsirdi. O kipriklərini belə qırpmadan bir cüt gözünü düz mənə zilləmişdi və mən yalnız indi o qorxunc gözlərin mənə nə qədər yad olduğunu anladım. On il idi ki, hər gün baxdığım bu bir cüt gözü öz gözlərimdən yaxşı tanıyırdım, amma mənə yaxşı tanış olan bu bir cüt gözdə indi adını bilmədiyim nə isə təzə bir şey vardı. Məğrurluğa da oxşayırdı, amma yox, bu nə isə tamam ayrı, lap təzə bir şey idi. Ovcuma aldığım əli sopsoyuğuydu. O bu soyuq əliylə mənim əlimi bərk-bərk sıxdı, ancaq bu əlsıxmanın özündə də mənə yad olan nə isə bir yenilik vardı. İndiyəcən bircə dəfə də olsun əlimi bu cür sıxmamışdı.

– Çoxdan qururlar? – soruşdum.

– Saat birdə başlayıblar. Qardaşın da getdi. Deyəsən, qorxurdu ki, buraxmazsan, ona görə də səssizcə sivişib aradan çıxdı. Amma nə qədər ehtiyatlı tərpənsə də, evdən çıxanda gördüm.

Deməli, doğrudur: başladı. Yerimdən qalxdım və nədənsə səhərlər işə getdiyim vaxtlarda olduğu kimi uzun-uzadı əl-üzümü yudum. Arvadım əlində tutduğu şamla mənim üçün işıq salırdı. Sonra şamı söndürüb küçəyə açılan pəncərəyə yaxınlaşdıq. Yaz idi, may ayıydı və açıq pəncərədən içəri elə bir hava dolurdu ki, bu cür havaya bu qədim, nəhəng şəhərdə hələ heç vaxt rast gəlinməmişdi. Neçə gün idi ki, fabriklər də, dəmir yolları da işsiz dayanmışdı

və kömür tüstüsündən canını qurtaran hava çöllərin, çiçək açan bağçaların, lap elə şehin özünün də qoxusunu canına çəkmişdi. Düzü heç bilmirəm yaz gecəsi şəhərdən çıxıb lap uzaqlaşanda belə gözəl ətir qoxuyan nədi. Orda, şəhərdən uzaqda nə bir fənər, nə bir ekipaj gözə dəyir, nə də ki, şəhərin ucu-bucağı görünməyən daş yollarından qopan səs-küy qulağı deşir. Adam gözlərini yumanda ona elə gəlir ki, kənddədir. Qulaq as – it hürür. Mən hələ bu günəcən heç vaxt şəhərdə İtin necə hürdüyünü eşitməmişdim, ona görə də sevindiyimdən güldüm.

– Qulaq as, – it hürür...

Arvadım məni qucaqlayıb dedi:

– Orda, küçənin tinindədilər.

Əyilib pəncərədən aşağı boylandıq. Orda, dupduru qaranlığın lap dibində nəsə tərpəşirdi. Amma heç kim gözə dəymirdi. Nəyisə sökür, nəyisə tikirdilər. Kimsə ələkeçməz kölgə kimi tərpənirdi. Qəfil taqqıltı səsi eşidildi; ya balta, ya da çəkic taqqıltısıydı. Elə cingiltiylə, sevinclə taqqıldayırdı ki, elə bil meşədə, çay qırağında ya qayıq düzəldirdilər, ya da ki, bənd tikirdilər. Nəsə xoş, yaxşı bir hadisəni hiss eləyən adamlar kimi sevincək arvadımı qucaqladım. O, evlərin damından yuxarıda durub qüruba tərəf əyilən itibuynuzlu aya baxırdı. Ay elə cavan, elə gülməli görünürdü ki, sanki arzularla yaşayan və bu arzularını bir kimsəyə danışmağa ürək eləməyən cavan qız idi. Göydə durub üz üçün işıq saçırdı.

– Görəsən nə vaxt bədirlənəcək.

– Lazım deyil! Lazım deyil! – arvadım mənə yad bir qorxuyla sözümü kəsdi. – olacaqlar haqda danışmaq lazım deyil. Nəyinə lazımdı axı, nə vaxt bədirlənəcək? Gəl keçək bu yana.

Otaq qaranlıq idi və göz-gözü görməyən bu qaranlıqda hər ikimiz eyni şey haqda fikirləşə-fikirləşə xeyli susduq. Ağzımı açıb danışmağa başladığım vaxt mənə elə gəldi ki, danışan mən deyiləm, kimsə başqasıdı: mən heç nədən qorxmurdum, amma bu danışanın səsi xırıltılıydı, sanki susuzluqdan boğazı qurumuşdu.

– Necə olsun?..

– Bəs onlar?

– Onların yanında sən olarsan, anadan çəkdikləri bəsləridi. Onsuz da artıq bacarmıram.

– Bəs mən bacararam?

Bilirəm, heç yerindən də tərpənmədi, amma hiss elədim ki, getgedə məndən uzaqlaşır – lap uzaqlaşır. Otaq yaman soyudu, əllərimi ona sarı uzatdım, – ancaq o, əllərimi geri itələdi.

– Yüz ildə bir dəfə insanlar üçün bayram olur, sənsə bu bayramı mənə çox görürsən. Nəyə görə? – dedi.

– Axı səni öldürə bilərlər. Uşaqlarımız da məhv olar.

– Tanrı özü onlara kömək olar. Yox əgər ölsələr belə... Bütün bunları o deyirdi, mənim arvadım, o qadın ki, onunla on il idi bir yerdə yaşayırdım! Hələ dünənəcən ancaq uşaqları fikirləşən, onlar üçün qorxan, olacaqların qorxunc işartısını duyub dəhşətə gələn o qadın – görəsən, buna nə oldu belə? Dünən... axı mən özüm də dünən olanların hamısını yaddan çıxarmışam.

– Mənimlə getmək istəyirsən?

– Əsəbləşmə! – elə bildi ki, hirslənmişəm. – Bu gün onlar barrikadanın qurmağa başlayanda sən hələ yuxudaydın və mən onda başa düşdüm, birdən başa düşdüm ki, ər də, uşaqlar da hamısı – elə belə, müvəqqəti şeylərdi. Mən səni çox sevirəm, – əliylə əlimi tapıb mənə hələ də yad olan həmin o qüvvəylə sıxdı. – Eşidirsən, taqqıldadırlar? Taqqıldadırlar – dardasa divarlar uçulur, genişlik açılır, günəş oralara işıq saçır. Otuz yaşım var. Otuz yaş az deyil, amma indi mənə elə gəlir ki, on yeddi yaşındayam və kimisə bakirə, böyük, sonsuz bir sevgiylə sevirəm.

– Gecəyə bir bax! – dedim. – Elə bil şəhər yoxa çıxıb. Doğrusu, indi mən özüm də neçə yaşım olduğunu xatırlamıram.

– Taqqıldadırlar, – bu səs mənim üçün bütün ömrüm boyu eşitmək arzusunda olduğum musiqi, nəğmə kimidi. Heç bilmirəm kimi bu dəlisov sevgiylə sevirəm, belə bir sevgidən adamın həm ağlamağı gəlir, həm gülməyi tutur, həm də adam mahnı oxumaq istəyir. Necə də açıqlıq, necə də genişlikdi – bu xoşbəxtliyi əlimdən alma, qoy mən orda, gələcəyi belə cəsarətlə çağıran, məhv olmuş keçmişi məzardan qaldıran o adamlarla bir yerdə ölüm.

– Vaxt yoxa çıxıb.

– Sənə elə gəlir?

– Hə, vaxt yoxa çıxıb. Sən kimsən? Mən səni yaxşı tanımamışam. Sən adamsan?

Elə cingiltili bir səslə güldü ki, sanki doğrudanda on yeddi yaşı vardı.

– Hə. Amma, heç mən özüm də bunu bilmirdim. Sən də adamsan? Necə də qəribə, gözəl səslənir: adam.

Bu yazdıqlarım lap çoxdan başverənlərdir və indi kimlər ki, boz həyatın dərin yuxusuna dalıb elə yuxudaca ölürlər, – mənə inanmayacaqlar: o günlər vaxt yoxuydu.günəş çıxırdı və batırdı. Saatın əqrəbləri dairə vurub fırlanırdı, amma di gəl ki, vaxt yoxuydu. Həmin günlərdə başqa qəribə və möhtəşəm şeylər də baş verdi, ancaq indi, boz həyatın dərin yuxusuna dalıb elə yuxudaca ölənlər mənə inanmayacaqlar.

– Getmək lazımdır, – dedim.

– Gözlə, qoy sənə yemək gətirdim. Bu gün heç nə yeməmisən. Görürsən də nə qədər tədbirliyəm: özüm sabah gedəcəm. Uşaqları verib gəlib səni tapacam.

– Yoldaş, – dedim.

– Hə, yoldaş.

Açıq pəncərədən içəri çəmənlərin havası və sakitlik, arabir isə baltanın cingiltisi, şən taqqıltı səsi dolurdu. Mənsə stolun arxasında oturub baxırdım, qulaq asırdım. Hər şey o qədər sirli, yeni idi ki, adamın gülməyi gəlirdi. Divarlara baxırdım və divarlar mənə şüşə kimi şəffaf görünürdü. Elə bil bütün əbədiyyətə bircə dəfə göz gəzdirməklə onların necə uçacağını görürdüm. Təkcə mən həmişə olmuşam, varam və olacam. Hər şey ötüb keçəcək, mənsə qalacam. Hər şey mənə qəribə və gülməli görünürdü – sanki gördüklərimin hamısı saxtaydı – stol da, yemək də, yan-yörəmdə nə vardısa hamısı şəffaf və yüngül, müvəqqəti, hələlik mövcud olan şeylər idi.

– Niyə yemirsən? – arvadım soruşurdu.

Gülümsündüm:

– Çörək – çox qəribədi.

O, çörəyin bayat, quru diliminə baxdı və nədənsə üz-gözündə kədər göründü. Elə o cür baxa-baxa əlləriylə astaca önlüyünü düzəltdi, başını bir azca, lap bir azca yana, uşaqlar yatan tərəfə çevirdi.

– Onlara yazığın gəlir? – soruşdum.

Gözünü çörəkdən çəkməyib başını yırğaladı.

– Yox. Həyatda bu günəcən olub keçənlər yadıma düşdü. Hər şey necə də qəribədi! Hər şey – o uzun yuxudan duran adam kimi heyrət içində otağa göz gəzdirdi, – hər şey qəribədi. Burda biz yaşamışıq.

– Sən mənim arvadım olmusan.

– Ordakılarsa bizim uşaqlarımızdı.

– Sənin atan burda, – divarın o biri üzündə canını tapşırıb.

– Hə, canını tapşırıb. Amma ayılmadan ölüb.

Uşaqların ən kiçiyi yuxuda qorxub ağladı. Aşağıda barrikadalar qurulan bir vaxtda bu şəffaf dörd divar arasında öz payını istəyən adi uşaq çığırtısı adama çox qəribə gəlirdi.

Uşaq ağlayırdı. Adi bir sığal almaq və ya güc-bəlayla onu sakitləşdirəcək hansısa gülməli bir söz, bir vəd eşitmək istəyirdi. Ağladı və tez də kiridi.

– Yaxşı, get! – arvadım pıçıltıyla dedi.

– Uşaqları öpmək istəyirəm.

– Qorxuram oyadasan.

– Yox, oyanmazlar.

Sən demə böyüyü yatmayıbmış, hər şeyi eşidib anlayıbmış. Cəmi doqquz yaşı vardı, amma hər şeyi başa düşübmüş – mənalı və sərt baxışlarla məni qarşıladı.

– Tüfəng götürəcəksən? – fikirli-fikirli soruşdu.

– Hə, götürəcəm.

– Sobanın altındadı.

– Sən hardan bilirsən? Öp məni görüm. Məni yada salacaqsan?

O öz gödək köynəkcəsində isti yorğan-döşəkdən dik qalxıb bərk-bərk boynumu qucaqladı. İlıq əlləri yumşaq və incəydi. Peysərindəki saçlarını qaldırıb ilıq, incə boynundan öpdüm.

– Səni öldürəcəklər? – düz qulağımın içinə pıçıldadı.

– Yox. Qayıdacağam.

Bəs görən niyə ağlamırdı? Hərdən mən adi günlərdə evdən bayıra çıxanda bir də görürdün ki, ağlamağa başlayırdı – məgər bu ona da təsir edib? Kim bilir – o möhtəşəm günlərdə o qədər qəribə şeylər baş verildi ki!

Divarlara, çörəyə, alovu hələ də yırğalanmaqda olan şama baxdım və arvadımın əlini sıxdım.

– Di, hələlik.

– Hə, – hələlik.

Elə bu. Və mən getdim. Qaranlıq pilləkənlərdən zirzibil iyi gəlirdi; daş divarlar və zülmət dörd tərəfdən məni əhatəyə almışdı. Birtəhər axtarıb tapdığım pilləkənlərlə aşağı endiyim vaxt həmin qəribə, sirli, xoş olan o yeniliyi bir daha hiss etdim. Mən sevincək o yeniliyə tərəf addımlayırdım.

MİXAİL AFANASYEVİÇ BULQAKOV

(1891-1940)

MASTER VƏ MARQARİTA

II fəsil

PONTİ PİLAT

Qan-qırmızı astarlı ağ plaşda, yaz ayı nisanın on dördündə səhər tezdən İudeyanın prokuratoru Ponti Pilat əyri ayaqlarını sürüyə-sürüyə Böyük İrodun sarayının iki qanadını birləşdirən üstüörtülü sütunların arasına daxil oldu.

Dünyada prokuratorun ən çox gül yağının qoxusundan zəhləsi gedirdi, indi də hər şey nəhs gündən xəbər verirdi, çünki bu qoxu onu lap ertədən izləməyə başlamışdı. Prokuratora elə gəlirdi ki, bağdakı sərv ağacları, palmalar gül yağı qoxuyur, mühafizəçilərin dəri geyimlərinin və özlərinin tər iyinə də lənətə gəlmiş gül yağı qarışıb. Prokuratorla birlikdə Yerşalaimə gələn On ikinci İldırımsürətli legionun birinci koqortası[1] yerləşən sarayın arxasındakı fligellərdən qalxan tüstü, bağın yuxarı meydançasından ötüb sütunları bürümüşdü və kenturiyalardakı[2] kaşevarların[3] nahar hazırlamağa başladığını göstərən acı tüstüyə də yenə həmin gül yağının qoxusu hopmuşdu.

"Ey allahlar, allahlar, nəyə görə siz məni cəzalandırırsız?.. Hə, şübhə yoxdu! Bu odur, yenə odur, başın tən yarısını ağrıdan dəhşətli, məğlubedilməz hemikraniya xəstəliyi. Onun dərmanı, əlacı yoxdu. Çalışım başımı tərpətməyim..."

[1] Koqorta – qədim Romada piyada qoşun hissəsi, legionun onda biri

[2] Kenturiya – hərbi bölmə, ilk vaxtlar yüz nəfərdən ibarət olub

[3] Kaşevar – hərbi hissədə aşpaz

Fəvvarənin böyründəki mozaikalı döşəməyə kreslo qoyulmuşdu və prokurator heç kimə baxmadan oturub əlini yana açdı. Katib perqament parçasını ehtiramla onun əlinə qoydu. Prokurator ağrıdan üzünü turşudub, yazıya ötəri göz gəzdirdi, perqamenti katibə verib zorla dilləndi:

– Qalileydən olan məhkumdu? İşi tetrarxa[1] göndəribsiniz?

– Bəli, prokurator, – katib cavab verdi.

– Bəs nə deyir?

– O, rəy verməkdən imtina edib, Sinedrionun[2] ölüm hökmünü sizin təsdiqinizə yollayıb.

Prokuratorun yanağı səyridi və o, astadan dedi:

– Müttəhimi gətirin.

O saat iki legioner bağın meydançasından iyirmi yeddi yaşlarında bir adamı sütunların altındakı eyvana, prokuratorun kreslosunun qarşısına gətirdilər. Bu adamın əynindəki köhnə mavi xiton cırıq-cırıq idi. Başındakı ağ örtük alnından qayışla sıxılmış, əlləri arxadan bağlanmışdı. Sol gözünün altında iri qançır var idi, ağzının cızılmış kənarında qan qurumuşdu. Gətirilən adam həyəcanla, maraqla prokuratora baxırdı.

O isə bir az susandan sonra arami dilində astadan soruşdu:

– Yerşalaim məbədini dağıtmaq üçün camaatı qızışdıran sən idin?

Prokurator daş kimi oturmuşdu, yalnız sözləri deyəndə dodaqları azca tərpənirdi. Dəhşətli ağrıdan partlayan başını tərpətməyə qorxurdu.

Əlləri bağlı adam bir qədər qabağa əyilib danışmağa başladı:

– Xeyirxah insan! İnan mənə...

Ancaq prokurator yenə əvvəlki kimi tərpənmədən, səsini qaldırmadan onun sözünü ağzında qoydu:

– Sən məni xeyrxah insan adlandırırsan? Səhv edirsən. Yerşalaimdə hamı pıçıldaşır ki, mən qəddar yırtıcıyam, bu da tamamilə doğrudur, – həmin yeknəsəq səslə əlavə etdi: – Kenturion Siçovulqıranı yanıma çağırın.

Əlahiddə kenturiyaya komandanlıq edən Siçovulqıran ləqəbli kenturion Mark prokuratorun qarşısında dayananda hamıya elə gəldi ki, eyvana qaranlıq çökdü.

[1] Tetrarx – qədim Romada əyalət hökmdarı

[2] Sinedrion – qədim İsraildə məclis, şura, divan

Siçovulqıran legionun ən uzun əsgərindən də bir baş hündürdü və kürəyi o qədər enliydi ki, hələ yüksəyə qalxmamış günəşin qarşısını büsbütün kəsdi.

Prokurator kenturiona latın dilində dedi:

– Cinayətkar məni xeyirxah insan adlandırır. Onu bir dəqiqəliyə buradan apar, mənimlə necə danışmaq lazım olduğunu ona başa sal. Ancaq şikəst eləmə.

Hərəkətsiz oturan prokuratordan başqa hamının baxışı, əlinin işarəsiylə məhbusa arxasınca gəlməsini tapşıran Mark Siçovulqırana dikilmişdi.

Ümumiyyətlə, Mark Siçovulqıran harda peyda olur-olsun, boybuxununa görə hamının baxışı ona dikilirdi, onu ilk dəfə görənlər isə həm də kenturionun eybəcər hala düşmüş sifətindən gözlərini çəkə bilmirdilər: alman toppuzu nə zamansa onun burnunu xurdxəşil eləmişdi.

Mozaikalı döşəmədə Markın ağır çəkmələri taqqıldadı, əlləri bağlı məhbus sakitcə onun arxasınca getdi. Sütunların arasına sükut çökdü, eyvanın böyründəki bağda quruldayan göyərçinlərin səsi eşidildi, bir də fəvvarədən axan su öz sirli, həzin mahnısını oxuyurdu.

Prokurator istədi qalxsın, gicgahlarını fəvvarənin altına tutub, beləcə donub qalsın. Ancaq bilirdi ki, bu da ona kömək etməyəcək.

Siçovulqıran məhbusu sütunların altından bağa aparıb, tunc heykəlin yanında dayanmış legionerin əlindən qırmancı aldı, yüngülcə qolaylanıb, məhbusun kürəyinə çəkdi. Kenturionun zərbəsi yüngül olsa da, əlləri bağlı məhbusun ayağı yerdən üzüldü, havası çatmadı, rəngi qaçdı, gözləri axdı. Mark sol əliylə onu boş torba kimi asanca göyə qaldırıb, ayaqları üstə yerə qoydu və arami sözlərinin qol-qabırğasını sındıra-sındıra burnunda mızıldandı.

– Roma prokuratoruna – igemon[1] de. Başqa söz demə. Düz dayan. Məni başa düşdün, ya səni vurum?

Məhbus səndirləsə də özünü düzəltdi, rəngi üzünə qayıtdı, nəfəsini dərib xırıltılı səslə cavab verdi:

– Səni başa düşdüm. Məni vurma.

Bir dəqiqə sonra o yenə prokuratorun qarşısında dayanmışdı.

Boğuq xəstə səs dedi:

[1] İgemon – yunan dilində "canişin", "sərdar", "başçı"

– Adın?

– Mənim? – məhbus tezcə dilləndi, bütün varlığı ilə göstərməyə çalışdı ki, onu bir daha qəzəbləndirməmək üçün ağıllı-başlı cavab verməyə hazırdı.

Prokurator astadan dedi:

– Mənim adım mənə məlumdu. Özünü olduğundan da gic göstərməyə çalışma. Adın?

– İeşua, – məhbus tələsik dilləndi.

– Ayaman var?

– Qa-Nosri.

– Əslin hardandı?

– Qamala şəhərindən, – məhbus başıyla göstərdi ki, orada, uzaqlarda, ondan sağ tərəfdə, şimalda Qamala şəhəri var.

– Damarında hansı qan axır?

– Dəqiq bilmirəm, – məhbus tez cavab verdi, – valideynlərimi xatırlamıram. Mənə deyiblər ki, atam suriyalı olub...

– Daimi yaşayış yerin var?

– Daimi yaşayış yerim yoxdu, – məhbus sıxılaraq dedi, – şəhər-şəhər gəzirəm.

– Bunu bir sözlə də ifadə etmək olar: avara, – prokurator sözünə davam etdi: – Doğmaların var?

– Heç kimim yoxdur. Dünyada təkəm.

– Savadın var?

– Bəli.

– Arami dilindən başqasını bilirsən?

– Bilirəm. Yunan dilini.

Şişmiş göz qapağı qalxdı, əzabdan dumanlaşmış göz məhbusa dikildi. Bir gözü açılmamışdı.

Pilat yunan dilində danışdı:

– Demək, sən məbədi uçurmaq istəyirdin, xalqı da buna çağırırdın?

Bu yerdə məhbus yenə dirçəldi, gözlərindən qorxu çəkildi və o, yunan dilində dedi:

– Mən, xey... – az qala çaşdığına görə məhbusun gözlərində qorxu yanıb söndü, – igemon, mən heç vaxt məbəd uçurmaq fikrində olmamışam, heç kimi də bu mənasız hərəkətə təhrik etməmişəm.

Alçaq stola tərəf əyilib məhbusun verdiyi ifadəni yazan katibin sifətindən təəccüb oxundu. O, başını qaldırıb, dərhal da perqamentə sarı əydi.

– Bayramlarda bu şəhərə cürbəcür adamlar gəlir. Onların arasında sehrbazlar, münəccimlər, falçılar, qatillər olur, – prokurator yeknəsəq səslə dedi, – ancaq yalançılar da olur. Məsələn, sən yalançısan. Aydınca yazılıb: məbədi uçurmağa təhrik edirdi. Adamlar belə şahidlik edir.

– İgemon, bu xeyirxah adamlar, – məhbus dedi və tələsik əlavə etdi: – heç nə öyrənməyiblər və dediklərimin hamısını dolaşıq salıblar. Mən, ümumiyyətlə, bu dolaşıqlığın hələ çox uzun zaman davam edəcəyindən qorxuram. Hamısı da ona görədir ki, mənim dediklərimi o düzgün yazmır.

Sükut çökdü. Artıq hər iki xəstə göz məhbusa baxırdı.

– Sonuncu dəfə təkrar edirəm: özünü dəli yerinə qoyma, quldur, – Pilat yumşaq, yeknəsəq səslə dedi, – sənin barəndə az yazılıb, ancaq yazılanlar səni asmaq üçün kifayətdir.

– Yox, yox, igemon, – məhbus onu inandırmağa çalışdı, – bir nəfər əlində keçi dərisindən perqament arxamca gəzib elə hey yazır. Bir dəfə bu perqamentə baxanda dəhşətə gəldim. Orada yazılanların heç birini mən deməmişəm. Ona yalvardım: allah xatirinə, öz perqamentini yandır! Ancaq onu əlimdən qapıb qaçdı.

– Kim? – Pilat candərdi soruşdu və əliylə gicgahını sıxdı.

– Levi Matvey, – məhbus həvəslə bildirdi, – o, vergiyığan olub, ilk dəfə onunla Viffaqiyə gedən yolda, əncir bağlarının yanında görüşüb söhbət etdim. Əvvəl-əvvəl mənə düşmən kimi yanaşdı, hətta məni təhqir etdi, daha doğrusu, elə bildi it adlandırmaqla məni təhqir edir, – bu yerdə məhbus gülümsədi, – mən şəxsən bu heyvanda pis bir şey görmürəm ki, həmin sözdən də inciyəm.

Katib yazmağı dayandırıb, altdan-altdan təəccüblə məhbusa yox, prokuratora baxdı.

– ...Ancaq mənə qulaq asdıqca yumşalmağa başladı, – İeşua sözünə davam etdi, – nəhayət, pullarını yola atıb dedi ki, mənimlə gedəcək...

Pilat saralmış dişlərini göstərib, bir yanağı ilə gülümsədi və bütün bədəniylə katibə sarı dönüb dedi:

– Ey, Yerşalaim şəhəri! Burada nələr eşitmirsən. Eşitdinizmi, vergiyığan pullarını yola atıb!

Nə cavab verəcəyini bilmədiyindən, katib də Pilatın təbəssümünü yamsıladı.

– O dedi ki, daha pula nifrət edir, – İeşua Levi Matveyin qəribə hərəkətini izah elədi. – həmin vaxtdan o mənim yol yoldaşım oldu.

Hələ də acı-acı gülümsəyən prokurator məhbusa, sonra sağ tərəfdə, lap aşağılarda uzanan hippodromun at heykəllərinin başı üstündən durmadan yüksələn günəşə baxdı və dözülməz əzab içində fikirləşdi ki, vur-tut ikicə kəlmə: "Asın onu", – deyib, bu qəribə quldura eyvandan qovmaq ən canqurtaran işdi. Mühafizə dəstəsini də qovsun, sütunların altından sarayın içinə getsin, tapşırsın ki, otağı qaranlıq eləsinlər, yatağa yıxılıb soyuq su istəsin, yazıq səslə iti Banqanı çağırsın, ona qemikraniyadan şikayətlənsin. Prokuratorun ağrıyan başından bir anlığa zəhər haqqında şirniklendirici fikir də keçdi.

O, dumanlı baxışlarla məhbusu süzdü, bir müddət susub, səhər-səhər insafsızcasına yandırıb yaxan Yerşalaim günəşinin altında döyülməkdən sifəti əldən çıxmış məhbusun nə üçün onun qarşısında dayandığını və hələ nə qədər bu adama heç kimə lazım olmayan suallar verəcəyini əzabla düşündü.

– Levi Matvey? – xəstə xırıltılı səslə soruşub gözlərini yumdu.

– Bəli, Levi Matvey, – ona işgəncə verən zil səsi eşitdi.

– Bəs bazardakı camaata məbəd haqqında, axı, nə deyirdin?

Cavab verən adamın səsi sanki Pilatın gicgahını deşirdi, ona son dərəcə əzab verirdi və bu səs deyirdi:

– İgemon, mən deyirdim, köhnə inamın məbədi uçacaq və həqiqətin yeni məbədi qurulacaq. Belə deyirdim ki, anlasınlar.

– Avara, axı, sən nə üçün haqqında təsəvvürün belə olmadığı həqiqətdən danışıb, bazar camaatını çaşdırırdın? Nədi həqiqət?

Bu yerdə prokurator fikirləşdi: "Ey mənim allahlarım! Mən ondan məhkəmədə lazım olmayan şeylər soruşuram... Ağlım daha mənə xidmət etmir..." Və tünd maye dolu kasa yenə gözünün qabağına gəldi. "Zəhər verin mənə, zəhər..."

Yenə həmin səsi eşitdi:

– Hər şeydən əvvəl həqiqət odur ki, sənin başın ağrıyır və elə möhkəm ağrıyır ki, ürəksiz də olsa, ölüm haqqında fikirləşirsən.

Nəinki mənimlə danışmaq, mənə baxmaq belə sənin üçün çətindi. Mən indi qeyri-ixtiyari sənin cəlladına dönmüşəm, bu da məni kədərləndirir. Sən nə barədəsə düşünə də bilmirsən, yalnız itini arzulayırsan, görünür, bağlı olduğun yeganə varlıqdı. Ancaq əzabların indi qurtaracaq, başının ağrısı kəsəcək.

Katib gözlərini bərəldib məhbusa baxırdı və deyilənləri daha yazmırdı.

Pilat əzab dolu gözlərini məhbusa sarı qaldırdı və gördü ki, günəş artıq hippodromun üstündə xeyli yüksəkdə dayanıb, gün işığı sütunların arasına düşərək, İeşuanın əyilmiş sandallarına doğru sürünür, o isə gün işığından kənara çəkilir.

Prokurator kreslodan qalxıb, başını əlləri ilə sıxdı və qırxılmış sarımtıl sifətində dəhşət ifadə olundu. Ancaq o saat da ağrısını boğub, yenə kresloya çökdü.

Məhbus isə hələ danışırdı, ancaq katib artıq heç nə yazmırdı, boğazını qaz kimi uzadıb, ağzından söz qaçırmamağa çalışırdı.

– Budur, hər şey qurtardı, – məhbus dostcasına Pilata baxa-baxa dedi, – mən buna son dərəcə şadam. İgemon, sənə məsləhət görərdim, saraydan çıxıb piyada bu ətrafda, heç olmasa, Yeleon dağındakı bağda gəzəsən. Tufan qalxacaq, – məhbus günəşə baxıb gözlərini qıydı, – gec, axşama yaxın. Gəzinti sənə çox fayda verərdi, mənsə, məmnuniyyətlə, səni müşayiət edərdim. Başıma yeni fikirlər gəlib, güman edirəm, sənin üçün də maraqlı olar, həvəslə onları səninlə bölüşərdim, üstəlik də, sən çox ağıllı adam təsiri bağışlayırsan.

Katib meyit kimi ağardı və perqament bükülüsünü əlindən döşəməyə saldı.

– Bədbəxtlik ondadı ki, – heç kimin sözünü kəsmədiyi əli bağlı məhbus davam etdi, – sən həddindən çox qapalısan və adamlara olan inamını büsbütün itirmisən. Razılaş ki, bütün mehrini itə salmaq olmaz. İgemon, sənin həyatın kasıbdı, – danışan adam bu yerdə gülümsəməyə cəsarət etdi.

Katib indi ancaq bir şey haqqında fikirləşirdi, öz qulaqlarına inansın, ya inanmasın. İnanmaq lazım gəlirdi. Onda çalışdı ki, məhbusun görünməmiş ədəbsizliyi qarşısında özündən tez çıxan prokuratorun qəzəbinin məhz hansı əcaib şəkildə olacağını təsəvvür etsin. Prokuratoru yaxşı tanısa belə, katib bunu da təsəvvür edə bilmədi.

Bu vaxt prokuratorun üzgün, xırıltılı səsi eşidildi. O, latın dilində:

– Onun qollarını açın, – dedi.

Mühafizə dəstəsindəki legionerlərdən biri nizəni yerə vurub, başqasına verdi, yaxınlaşıb məhbusun əlini açdı. Katib perqament bükülüsünü yerdən qaldırdı, qərara aldı ki, hələ heç nə yazmasın, heç nəyə də təəccüblənməsin.

– Boynuna al, – Pilat astadan yunanca soruşdu, – sən böyük həkimsən?

– Yox, prokurator, mən həkim deyiləm, – məhbus əzilmiş, şişib qızarmış biləklərini ləzzətlə sığalladı.

Pilatın sərt baxışları məhbusa sancılmışdı, artıq bu baxışlar dumanlı deyildi, onlarda hamıya tanış olan qığılcımlar əmələ gəlmişdi.

– Bayaq heç soruşmadım, – Pilat dedi, – bəlkə latın dilini də bilirsən?

– Bəli, bilirəm, – məhbus cavab verdi.

Pilatın sarımtıl üzünə qızartı çökdü və o, latınca soruşdu:

– Nədən bildin ki, mən itimi çağırmaq istəyirəm?

– Çox sadəcə, – məhbus latınca cavab verdi, – sən əlini havada gəzdirdin, – məhbus Pilatın jestini təkrar etdi, – elə bil sığallamaq istəyirdin, dodaqların da...

– Hə, – Pilat dedi.

Susdular, sonra Pilat yunanca soruşdu:

– Demək, həkimsən?

– Yox, yox, – məhbus tələsik cavab verdi, – mənə inan, həkim deyiləm.

– Di yaxşı. Əgər bunu sirr kimi saxlamaq istəyirsənsə, saxla. Bunun işə dəxli yoxdur. Sən israr edirsən ki, məbədi dağıtmağa... yandırmağa, ya hər hansı bir yolla uçurmağa kimsəni təhrik etməmisən?

– İgemon, mən təkrar edirəm, heç kimi bu cür hərəkətə çağırmamışam. Məgər mən ağıldan kəm adama oxşayıram?

– Sən ağıldan kəmə oxşamırsan, – prokurator astadan dedi və sifətində nəsə qorxunc bir təbəssüm göründü, – and iç ki, belə bir şey olmayıb.

– Sən nəyə and içməyimi istəyirsən? – əlləri açılmış məhbus həvəslə soruşdu.

– Heç olmasa, öz canına and iç, – prokurator dedi, – ona and içməyin əsl vaxtıdı, çünki o, tükdən asılıdı, bunu bil.

– Yoxşa elə bilirsən onu sən asıbsan,igemon? – məhbus soruşdu, – əgər belədirsə, çox səhv edirsən.

Pilat diksindi və acıqla dedi:

– Mən bu tükü kəsə bilərəm.

– Elə buna görə də səhv edirsən, – məhbus əlilə gündən daldalanaraq işıqlı bir təbəssümlə etiraz etdi, – razılaş ki, o tükü yalnız onu asan kəsə bilər.

– Belə, belə, – Pilat gülümsədi, – indi mən heç şübhə etmirəm ki, Yerşalaimdəki veyillərin hamısı qarabaqara sənin arxanca gəzirmiş. Bilmirəm sənə kim dil verib, ancaq yaxşı dil verib. Yeri gəlmişkən, doğrudurmu ki, sən Yerşalaimə Suz darvazasından eşşəyin belində giribsən, dalınca düşən qara camaat da səni peyğəmbər kimi salamlayırmış? – bu yerdə prokurator perqament bükülüsünü göstərdi.

Məhbus təəccüblə prokuratora baxdı.

– Mənim eşşəyim yoxdur, igemon, – o dedi. – Doğrudur, mən Yerşalaimə Suz darvazasından keçib gəlmişəm, ancaq piyada, təkcə Levi Matveyin müşayətilə. Heç kim də məni salamlamayıb, çünki o vaxt Yerşalaimdə məni kimsə tanımırdı.

– Sən bu adamları tanıyırsanmı, – gözünü məhbusdan çəkmədən Pilat sözünə davam etdi, – biri Dismas, o biri Hestas, üçüncüsü Var-ravvan?

– Mən bu xeyirxah insanları tanımıram, – məhbus cavab verdi.

– Doğru deyirsən?

– Doğru deyirəm.

– İndi mənə de görüm, nə çox "xeyirxah insanlar" sözünü işlədirsən? Nədi, sən hamını belə adlandırırsan?

– Hamını, – məhbus cavab verdi, – dünyada pis insan yoxdu.

– İlk dəfədi bunu eşidirəm, – Pilat gülümsədi, – bəlkə də mən həyatı yaxşı bilmirəm! Daha yazma, – onsuz da heç nə yazmayan katibə dedi və məhbusla danışmağa davam etdi: – hansısa yunan kitabından bunu oxuyubsan?

– Yox, öz ağlımla bu nəticəyə gəlmişəm.

– Bunu da təbliğ edirsən?

– Bəli.

– Yaxşı, misal üçün, kenturion Mark, ona Siçovulqıran ləqəbi veriblər, o xeyirxah insandı?

– Bəli, – məhbus cavab verdi, – doğrudu, o, bədbəxt adamdı. Xeyirxah insanlar onu eybəcər hala salandan sonra qəddar və sərt olub. Maraqlıdı, kim onu eybəcər hala salıb?

– Həvəslə danışa bilərəm, – Pilat dedi, – çünki mən bunun şahidi olmuşam. İtlər ayının üstünə tökülüşdüyü kimi xeyirxah insanlar onun üstünə tökülüşdülər. Almanlar onun boynundan, əllərindən, ayaqlarından yapışdılar. Piyada manipul[1] mühasirəyə düşmüşdü və əgər mənim komandanlıq etdiyim süvari turma[2] cinahdan yarıb keçməsəydi, sən, filosof, indi Siçovulqıranla danışası olmayacaqdın. Bu hadisə İdistavizo yaxınlığında Qız vadisindəki döyüşdə olub.

– Əgər mən onunla söhbət etsəydim, – məhbus birdən xəyalpərəstliklə dedi, – əminəm ki, o büsbütün dəyişərdi.

– Güman edirəm, – Pilat dedi, – əgər legionun zabit və əsgərlərindən hər hansı biriylə danışmaq fikrinə düşsən, legionun leqatı buna çətin ki, sevinsin. Amma, hamımızın xoşbəxtliyindən, bu, baş verməyəcək, özü də bunun qayğısına qalanlardan birincisi mən olacağam.

Bu vaxt bir qaranquş süzüb sütunların arasına girdi, qızıl suyuna çəkilmiş tavanın altında dövrə vurub aşağı endi, qanadı az qaldı taxçadakı mis heykəlin sifətinə toxunsun və sütunun kopitelinin arxasında yoxa çıxdı. Görünür, orada yuva qurmaq fikrinə düşmüşdü.

Qaranquşun uçduğu müddətdə başı artıq ayazımış, aydınlaşmış prokurator nə edəcəyini düşünüb daşındı: igemon Qa-Nosri ləqəbli səfil filosof İeşuanın işini araşdırıb, onda cinayət tərkibi tapmadı. O cümlədən, bu yaxınlarda Yerşalaimdə baş verən iğtişaşlarla İeşuanın hərəkətləri arasında heç bir əlaqə aşkar etmədi. Demə, səfil filosof ruhi xəstəymiş. Bu səbəbdən Kiçik Sinedrion tərəfindən Qa-Nosriyə çıxarılmış ölüm hökmünü təsdiq etmir. Ancaq Qa-Nosrinin ağılsız, əsassız çıxışlarının Yerşalaimdə çaxnaşmaya səbəb ola biləcəyini nəzərə alıb, prokurator İeşuanı burdan uzaqlaşdırır və onu Aralıq dənizindəki Straton Qeysəriyyəsində, yəni məhz prokuratorun iqamətgahı olan yerdə həbsə saldırır.

[1] **Manipul** – qədim Romada iki kenturiyadan ibarət qoşun hissəsi

[2] **Turma** – qədim Romada atlı qoşun hissəsi

Bunu katibə diktə etmək qalırdı.

Qaranquşun qanadları igemonun başı üstündə pırıldadı, quş özünü fəvvarənin kasasına vurub, bayıra uçdu. Prokurator gözünü qaldırıb, məhbusa baxdı və onun yanında tozun sütun kimi göyə qalxdığını gördü.

– Onun haqqında olanlar qurtardı? – Pilat katibdən soruşdu.

– Təəssüf ki, yox, – katib qəfil dillənib, o biri perqament parçasını Pilata uzatdı.

– Daha nə yazılıb? – Pilat sifətini turşutdu.

Veriləni oxuyandan sonra onun sifəti lap dəyişdi. Boynuna, üzünə qanmı axdı, yoxsa başqa nəsə baş verdi, dərisi sarımtıllığını itirib bozardı, gözləri sanki çuxura düşdü.

Yəqin gicgahını zoqquldadan da həmin qandı, ancaq prokuratorun gözlərinə nəsə olmuşdu. Ona elə gəldi məhbusun başı harasa yoxa çıxdı, əvəzinə başqa baş peyda oldu. Bu daz başa qızıl tac qoyulmuşdu, alnında dərini yara etmiş və məlhəm çəkilmiş yumru xora var idi, dişsiz ağzı büzüşmüş, alt dodağı sallanmışdı. Pilata elə gəldi ki, eyvanın çəhrayı sütunları, aşağıda, bağın arxasında Yerşalaimin uzaqdan görünən damları yoxa çıxdı və hər şey Kaprey bağlarının sıx yaşıllığı içində itib batdı. Qulaqlarına da nəsə olmuşdu – uzaqlarda çalınan şeypurların vahiməli səsi gəldi və kiminsə burnunda təkəbbürlə uzada-uzada dediyi sözlər aydınca eşidildi: "Əlahəzrətin ləyaqətinin toxunulmazlığı haqqında qanuna görə..."

Qısa, bir-birinə bağlanmayan qeyri-adi fikirlər beynindən ötüb keçdi: "Həlak oldu", "Həlak oldular!.." Və bunların arasında ən cəfəngi kiminsə mütləq – kimin?! – ölümsüzlüyə qovuşacağı fikri idi və həm də ölümsüzlük fikri nədənsə sonsuz kədər oyadırdı.

Pilat qarabasmadan canını güclə qurtardı, baxışlarını eyvanda dolandırdı və yenə qarşısında dayanmış məhbusa baxdı.

– Qulaq as, Qa-Nosri, – prokurator İeşuanı qəribə nəzərlə süzdü, onun sifəti acıqlı, gözləri narahat idi, – sən haçansa böyük qeysər haqqında nəsə deyibsən? Cavab ver! Deyibsən?.. Yoxsa... demə...yibsən? – Pilat "demə" sözünü məhkəmədə lazım olduğundan bir az çox uzatdı və baxışıyla İeşuaya sanki hansı fikri isə aşılamağa çalışdı.

– Həqiqəti demək həm asan, həm də xoşdu, – məhbus dilləndi.

– Mənə dəxli yoxdur, – boğuq, acıqlı səslə Pilat dedi, – həqiqəti demək sənin üçün xoşdur, ya xoş deyil. Ancaq sən həqiqəti deməli olacaqsan. Əgər nəinki qaçılmaz, həm də əzablı ölüm istəmirsənsə, danışmamışdan hər sözünü ölç-biç.

İudeyanın prokuratoruna nə olduğunu heç kim bilmədi, ancaq o, gün işığından daldalanırmış kimi əlini qaldırmağı özünə rəva gördü və həmin əlini qalxan edib, məhbusa baxışıyla nəsə işarə etməyə çalışdı.

– Di cavab ver, – o dedi, – kiriaflı İudanı tanıyırsanmı və əgər qeysər haqqında danışıbsansa, ona məhz nə danışıbsan?

– Əhvalat belə olub, – məhbus həvəslə danışmağa başladı, – dünən axşam mən məbədin yanında özünü Kiriaf şəhərindən olan İuda kimi qələmə verən bir gənclə tanış oldum. O məni Aşağı Şəhərdəki evinə qonaq apardı...

– Xeyirxah insandı? – Pilatın gözlərində iblisanə bir təbəssüm yanıb söndü.

– Çox xeyirxah və hər şeyi bilməyə can atan adamdı, – məhbus təsdiqlədi, – o mənim fikirlərimə çox böyük maraq göstərdi, məni son dərəcə xoş üzlə qəbul elədi...

– Məşəllər yandırdı... – Pilat məhbusun ədasıyla acıqlı-acıqlı dedi, bu vaxt gözləri parıldayırdı.

– Bəli, – prokuratorun məlumatlılığına İeşua bir az təəccübləndi, – dövlət hakimiyyəti haqqında fikrimi söyləməyimi xahiş etdi. Bu məsələ onu çox maraqlandırırdı.

– Bəs sən nə dedin? – Pilat soruşdu, – yoxsa nə cavab verdiyini unutduğunu söyləyəcəksən? – artıq Pilatın səsində ümidsizlik var idi.

– Başqa şeylərdən əlavə dedim ki, – məhbus bildirdi, – hər bir hakimiyyət insanlar üzərində zorakılıq alətidir, vaxt gələcək nə qeysərlərin, nə də başqalarının hakimiyyəti olacaq. İnsan həqiqət və ədalət səltənətinə daxil olacaq, orada, ümumiyyətlə, heç bir hakimiyyətə ehtiyac qalmayacaq.

– Sonra!

– Sonra heç nə, – məhbus dedi, – bu yerdə adamlar içəri doluşub əl-qolumu bağladılar və məni həbsxanaya apardılar.

Katib bir kəlmə də olsun buraxmamağa çalışaraq, sözləri tələsik perqamentə yazırdı.

– Dünyada insanlar üçün imperator Tiverinin hakimiyyətindən böyük və adil hakimiyyət olmayıb, yoxdu və olmayacaq! – Pilatın kallaşmış xəstə səsi guruldadı.

Prokurator nədənsə katibə və mühafizəçilərə nifrətlə baxırdı.

– Ağılsız cinayətkar, onun haqqında fikir söyləmək sənin işin deyil! – Bu yerdə Pilat qışqırdı: – Mühafizəçilər eyvandan çıxarılsın! – Və katibə sarı dönüb əlavə etdi: – Məni cinayətkarla tək qoy, bu, dövlət məsələsidi.

Mühafizəçilər nizələrini qaldırıb, nallı çəkmələrini ahəngdar şəkildə yerə vura-vura eyvandan bağa çıxdılar, katib də onların arxasınca getdi.

Eyvandakı sükutu bir müddət yalnız fəvvarənin səsi pozdu. Pilat xırda borularla qalxan suyun kasaya necə dolub daşdığına, necə şırıltıyla töküldüyünə baxdı.

İlk olaraq məhbus dilləndi:

– Mən görürəm ki, kiriaflı gənclə danışdığıma görə nəsə bədbəxtlik baş verib. İgemon, hiss edirəm ki, ona fəlakət üz verəcək və mənim ona çox yazığım gəlir.

– Düşünürəm ki, – prokurator qəribə tərzdə gülümsədi, – sənin dünyada kiriaflı İudadan daha artıq yazığın gələsi bir adam da var, onu İudadan betər fəlakət gözləyir. Demək, soyuqqanlı, öz əqidəsinə sadiq olan cəllad Mark Siçovulqıran, səni, gördüyüm kimi, – prokurator İeşuanın eybəcər hala salınmış sifətini göstərdi, – moizələrinə görə döyən adamlar, dörd əsgəri öz əlaltılarıyla öldürən quldur Dismas və quldur Hestas, nəhayət, murdar satqın İuda – onların hamısı xeyirxah insandı?

– Bəli, – məhbus cavab verdi.

– Və həqiqət səltənəti bərqərar olacaq?

– Olacaq, igemon, – İeşua inamla cavab verdi.

– Heç vaxt olmayacaq! – Pilat qəfil elə dəhşətli səslə bağırdı ki, İeşua səndələdi. Çox illər əvvəl Qız vadisində Pilat öz atlılarına bu cür qışqırmışdı: "Doğra onları! Doğra onları! Nəhəng Siçovulqıran ələ keçib!" Əmr verməkdən kallaşmış səsini bir az da qaldırıb, sözləri elə dedi ki, onu bağda da eşitsinlər: – Cinayətkar! Cinayətkar! Cinayətkar!

Sonra astadan soruşdu:

– İeşua Qa-Nosri, allahlardan hansına inanırsan?

– Allah təkdi, – İeşua cavab verdi, – mən ona inanıram.

– Dua elə ona! Möhkəm dua elə! Ancaq, – bu yerdə Pilatın səsi batdı, – bu da kömək etməyəcək. Arvadın var? – Pilat nədənsə qüssə ilə soruşdu, ona nə olduğunu özü də anlamırdı.

– Yox, təkəm.

– Mənfur şəhər, – prokurator nəyə görəsə mızıldandı, üşüyürmüş kimi büzüşdü, əllərini bir-birinə sürtdü, – əgər səni kiriaflı İuda ilə görüşdən əvvəl öldürsəydilər, doğrusu, daha yaxşı olardı.

– Sən məni burax, igemon, – gözlənilmədən məhbus xahiş etdi və səsində həyəcan hiss olundu, – görürəm ki, məni öldürmək istəyirlər.

Pilatın sifəti səyridi, o, qan sağılmış gözlərini İeşuaya dikdi.

– Bədbəxt, sən güman edirsən ki, Roma prokuratoru sənin dediklərini söyləyən adamı buraxar? Ey allahlar, allahlar! Yoxsa istəyirsən sənin yerini mən tutum? Mən sənin fikirlərini bölüşmürəm. Mənə qulaq as: əgər bu andan sonra sən bircə kəlmə söz desən, kiminləsə danışsan, özünü məndən gözlə! Təkrar edirəm: özünü məndən gözlə.

– İgemon...

– Sus! – Pilat bağırdı, yenə eyvana girən qaranquşu hirsli baxışlarla izlədi. – Yanıma! – Pilat qışqırdı.

Katib və mühafizəçilər öz yerlərini tutdular, sonra Pilat elan etdi ki, Kiçik Sinedrionun yığıncağında cinayətkar İeşua Qa-Nosriyə çıxarılmış ölüm hökmünü təsdiq edir və katib Pilatın dediklərini yazdı.

Bir dəqiqə sonra Mark Siçovulqıran prokuratorun qarşısında dayanmışdı. Prokurator əmr etdi ki, cinayətkarı məxfi xidmətin rəisinə təhvil versin, həmçinin ona prokuratorun tapşırığını çatdırsın: İeşua Qa-Nosri başqa məhkumlardan ayrı saxlansın, İeşua ilə nə haqdasa danışmaq, onun hər hansı sualına cavab vermək məxfi xidmət dəstəsinə qadağan olunur və bu qadağanı pozan ağır cəza alacaq.

Markın işarəsiylə mühafizə dəstəsi İeşuanı dövrəyə alıb eyvandan çıxardı.

Sonra sinəsində gümüş şir başları parıldayan, dəbilqəsinə qartal lələkləri, qılıncının çiyin qayışına qızıl lövhəciklər bərkidilən, dizinə qədər qaytanla bağlı ayaqqabılarına üçqat altlıq vurulmuş, qıpqırmızı plaşını sol çiyninə atmış, boy-buxunlu, sarısaqqal, yaraşıqlı kişi prokuratorun qarşısında dayandı. Bu, legiona komandanlıq

edən leqat[1] idi. Prokurator ondan sebastiyalıların koqortasının indi harada yerləşdiyini soruşdu. Leqat məlumat verdi ki, sebastiyalılar cinayətkarlara çıxarılmış hökmün xalqa elan olunacağı hippodromun qarşısındakı meydanı mühafizə edir.

Prokurator tapşırıq verdi ki, leqat Roma koqortasından iki kenturiya ayırsın. Onlardan biri Siçovulqıranın başçılığı ilə cinayətkarları, edam üçün lazım olan alətlər yüklənmiş arabaları və cəlladları Keçəl Dağa müşayiət etsin, oraya çatandan sonra yuxarıdakı mühafizə dəstəsinə qoşulsun. O biri isə elə indi Keçəl Dağa göndərilsin və dərhal orada mühafizəni təşkil etsin. Bu məqsədlə, yəni Dağın mühafizəsi üçün prokurator leqatdan yardımçı süvari alayı – Suriya alasını[2] da göndərməsini xahiş etdi.

Leqat eyvandan çıxdıqdan sonra prokurator katibə əmr etdi ki, Sinedrionun prezidentini, iki üzvünü və Yerşalaim məbədlərinin mühafizə rəisini saraya çağırsın, ancaq elə etsin ki, bu adamlarla keçirəcəyi iclasa qədər prezidentlə təklikdə danışa bilsin.

Prokuratorun əmri tez və dəqiq yerinə yetirildi. Son günlər Yerşalaimi nəsə qeyri-adi bir acıqla yandırıb-yaxan günəş hələ öz ən yüksək nöqtəsinə çatmamışdı ki, bağın yuxarı terrasında, pilləkəni qoruyan iki ağ mərmər şirin yanında prokuratorla Sinedrion prezidentinin vəzifəsini icra edən, İudeyanın baş ruhanisi İosif Kaifa qarşılaşdı.

Bağda sakitlik idi. Ancaq sütunların arasından nəhəng fil ayaqlı palmalar bitən, günəşin yandırıb yaxdığı bağın yuxarı meydançasına çıxanda, asma körpüləri, qalaları və ən başlıcası, heç bir təsvirə gəlməyən, dam əvəzinə son dərəcə iri qızıl pulcuqlarla örtülmüş mərmər yığınından ibarət məbədiylə nifrət bəslədiyi bütün Yerşalaim şəhəri prokuratorun gözü qarşısında açıldı, – iti qulaqları çox uzaqlardan, saray bağının aşağı terrasını şəhər meydanından ayıran daş hasarın yanından qalxan, hərdən ah-naləyə bənzəyən səsləri aldı.

Prokurator artıq meydanda Yerşalaimdəki son iğtişaşlardan həyəcanlanmış xeyli şəhər sakininin yığışdığını, bu kütlənin hökmün çıxarılmasını səbirsizliklə gözlədiyini, orada qışqıranların isə su satanlar olduğunu başa düşdü.

[1] Leqat – komandir

[2] Ala – qədim Romada 500-1000 nəfərlik süvari dəstə

Prokurator əvvəlcə dözülməz bürküdən daldalanmaq üçün baş ruhanini eyvana dəvət etdi, ancaq Kaifa nəzakətlə üzr istəyib, bunu edə bilməyəcəyini söylədi. Pilat plaşın başlığını dazlaşan başına örtüb əsas məsələyə keçdi. Söhbət yunan dilində gedirdi.

Pilat dedi ki, İeşua Qa-Nosrinin işini araşdırıb və ölüm hökmünü təsdiqləyib.

Beləliklə, bu gün həyata keçiriləsi edama üç quldur: Dismas, Hestas, Var-ravvan və bundan əlavə İeşua Qa-Nosri məhkum edilib. Xalqı qeysər əleyhinə qiyama çağırmaq fikrinə düşən ilk ikisi Roma hökuməti tərəfindən döyüşlə ələ keçirilib və prokuratorun hesabındadılar, deməli, burada onlardan söhbət gedə bilməz. Sonuncuları – Var-ravvan və Qa-Nosrini isə yerli hakimiyyət tutub və onlar Sinedrion tərəfindən məhkum edilib. Qanuna və adətə görə, bu iki cinayətkardan birini bu gün girən böyük pasxa bayramı münasibətilə azadlığa buraxmaq lazım gələcək.

İndi prokurator bilmək istəyir, Sinedrion bu iki cinayətkardan hansını azad etmək fikrindədir: Var-ravvanı, ya Qa-Nosrini.

Kaifa sualın ona aydın olduğunu göstərmək üçün başını tərpətdi və cavab verdi:

– Sinedrion Var-ravvanın buraxılmasını xahiş edir.

Baş ruhaninin ona məhz bu cavabı verəcəyini prokurator yaxşı bilirdi, ancaq özünü elə aparmalı idi ki, guya belə cavab onu heyrətləndirib.

Pilat bunu böyük məharətlə etdi. Qaşlarını təkəbbürlə qaldırıb, heyrətlə baş ruhaninin düz gözlərinə baxdı.

– Boynuma alıram ki, bu cavab məni heyrətləndirdi, – prokurator mülayimcəsinə dedi, – burada nəsə bir anlaşılmazlıq olduğundan ehtiyatlanıram.

Pilat fikrini izah etdi. Baş ruhaniyə yaxşı məlumdur ki, Roma hakimiyyəti yerli ruhani hakimiyyətinin huquqlarına həmişə hörmətlə yanaşır, ancaq bu məsələdə səhv göz qabağındadır. Və bu səhvin aradan qaldırılmasında, əlbəttə, Roma hakimiyyəti maraqlıdı.

Əslində, Var-ravvanın və Qa-Nosrinin cinayətləri ağırlığına görə müqayisə edilməzdir. Əgər ikinci şəxs açıq-aşkar dəlidirsə, cəfəng çıxışlarıyla Yerşalaimdə və digər yerlərdə xalqı həyəcanlandırdığı üçün günahkardırsa, birincinin günahı daha ağırdır. Birbaşa qiyama çağırmağı azmış kimi, üstəlik, onu tutmaq istəyən keşikçini də öldürüb. Var-ravvan daha təhlükəlidi, nəinki Qa-Nosri.

Bütün deyilənlərin müqabilində prokurator xahiş edir ki, baş ruhani qərarı dəyişsin, iki cinayətkardan daha az ziyanlısını azad etsin, o da, şübhəsiz, Qa-Nosridi. Bəs indi sözü nədi?..

Kaifa düz Pilatın gözünün içinə baxdı, astadan, ancaq qətiyyətlə dedi ki, Sinedrion işlə çox diqqətlə tanış olub və Var-ravvanı azad etmək fikrində olduğunu ikinci dəfə söyləyir.

– Necə? Hətta mənim xahişimdən sonra? Roma hakimiyyətinin adından danışan şəxsin xahişindən sonra? Baş ruhani, üçüncü dəfə təkrar et.

– Biz üçüncü dəfə də bildiririk ki, Var-ravvanı azad edirik, – Kaifa sakitcə cavab verdi.

Hər şey bitmişdi və daha danışılası heç nə qalmamışdı. Qa-Nosri həmişəlik gedirdi, prokuratorun dəhşətli ağrılarını sağaldan olmayacaqdı; ölümdən savayı bu ağrının əlacı yoxdu. Ancaq indi Pilatı heyrətləndirən bu fikir deyildi. Bayaq eyvanda hiss etdiyi anlaşılmaz qüssə onun bütün varlığına hakim kəsilmişdi. Çalışdı qüssənin səbəbini özü üçün aydınlaşdırsın, ancaq bunun səbəbi də qəribə idi: prokuratora elə gəldi ki, məhbusa nəyisə deməyib, ya nəyəsə qulaq asmayıb.

Pilat bu fikri özündən qovdu və bu fikir gəldiyi kimi də bir anda uçub getdi. O uçub getdi, ancaq qüssənin səbəbi izah olunmamış qaldı, çünki ildırım kimi çaxan başqa fikir də onu izah edə bilməzdi: "Ölümsüzlük... ölümsüzlüyə qovuşdu..." Kim ölümsüzlüyə qovuşdu? Prokurator bunu başa düşmədi, ancaq bu müəmmalı ölümsüzlük haqqındakı fikir günün altında onu üşütdü.

– Yaxşı, – Pilat dedi, – qoy belə olsun.

Bu yerdə o, ətrafına göz gəzdirib, baş vermiş dəyişikliyə heyrətləndi. Qızılgüllərin çoxluğundan əyilmiş kollar, yuxarıdakı terrası dövrələmiş sərv ağacları, nar ağacları, yaşıllığın arasındakı ağ heykəllər, elə yaşıllığın özü də yoxa çıxmışdı. Bunların yerini içində yosunlar yırğalanan qıpqırmızı xılt tutmuşdu, bu xılt harasa axıb gedirdi və Pilatı da özü ilə aparırdı. Acizliyinə, gücsüzlüyünə görə o indi qəzəbdən boğulurdu.

– Canım sıxıldı, – Pilat dedi, – canım sıxıldı!

O, tərli, soyuq əliylə plaşın yaxasındakı toqqanı dartdı və plaş quma düşdü.

– Bu gün bürküdü, haradasa tufan qalxıb, – prokuratorun qızarmış sifətindən gözünü çəkmədən və qarşıdan gələn bütün məşəqqətləri hiss edərək Kaifa dilləndi. "Ah, bu ilin nisan ayı necə dəhşətlidi!"

– Bürküdən yox, – Pilat dedi, – səninlə bir yerdə olduğuma görə sıxıldım, Kaifa, – Pilat gözlərini qıyıb gülümsədi, – özünü gözlə, baş ruhani.

Baş ruhaninin gözləri parıldadı və heyrətləndiyini büruzə verməkdə prokuratordan heç də geri qalmadı.

– Mən nə eşidirəm, prokurator? – Kaifa təkəbbürlə və sakit tərzdə cavab verdi, – özün təsdiq etdiyin hökmə görə məni hədələyirsən? Belə şey ola bilərmi? Roma prokuratorunun nəsə deməmişdən əvvəl sözlərini ölçüb-biçdiyinə adət etmişik. Bizi kimsə eşitmədi ki, igemon?

Pilat donuq gözləriylə baş ruhaniyə baxdı və hirsindən gülümsədi.

– Bu nə sözdü, baş ruhani! Axı, bizi indi burada kim eşidə bilər? Məgər mən bu gün edam olunacaq gənc divanəyə oxşayıram? Mən uşağammı, Kaifa? Harada nə dediyimi bilirəm. Bağ, saray mühafizə olunur, siçan keçəsi deşik də yoxdu! Siçan nədi, hətta o da, adı nədi... Kiriaf şəhərindən olan? Yeri gəlmişkən, sən onu tanıyırsanmı, baş ruhani? Hə...əgər eləsi buraya girsə, çox peşman olar, buna yəqin inanarsan? Yadında saxla, baş ruhani, bundan sonra sənə rahatlıq yoxdu! Nə sənə, nə sənin xalqına, – və Pilat sağ tərəfi, uzaqda, yüksəklikdə parıldayan məbədi göstərdi, – bunu mən sənə deyirəm – pontiyalı Pilat, Qızıl Nizəli atlı!

– Bilirəm, bilirəm! – Qarasaqqal Kaifa çəkinmədən dedi və gözləri parıldadı. O, əllərini göyə qaldırıb sözünə davam etdi: – İudey xalqı ona nifrət bəslədiyini bilir, sən ona çox əzablar çəkdirmisən, ancaq onu məhv edə bilməyəcəksən! Onu allah qoruyacaq! Bizi eşidərlər, qüdrətli qeysər eşidər, bizi qənimimiz Pilatdan qoruyar!

– Heç də yox! – Pilat qışqırdı və hər dediyi sözlə o get-gedə yüngülləşirdi: daha riyakarlıq etməyə, sözləri seçməyə ehtiyac yox idi. – Məndən qeysərə çox şikayət etmisən, indi növbə mənimdi, Kaifa! İndi xəbər məndən gedəcək, özü də nə Antioxiya canişininə, nə də Romaya, birbaş Kapreyə, imperatorun özünə xəbər gedəcək ki, siz Yerşalaimdəki məlum qiyamçıları necə qoruyursunuz. Mən onda Yerşalaimi Soloman gölünün suyu ilə suvarmayacağam, ancaq sizin xeyriniz üçün belə istəyirdim! Su ilə yox! Yadına sal,

sizə görə imperatorun monoqramması olan qalxanları divardan çıxarası oldum, ordunun yerini dəyişdirdim, sizə görə özüm gələsi oldum ki, burada nələr baş verdiyini görüm! Mənim sözlərimi yadında saxla, baş ruhani. Onda Yerşalaim bir koqortayla canını qurtarmayacaq, yox! Şəhər divarının qarşısına Filmunatın bütöv bir legionu gələcək, ərəb atlı qoşunu gələcək, onda sən acı göz yaşı axıdanların səsini, iniltilərini eşidəcəksən! Sən onda xilas etdiyin Var-ravvanı xatırlayacaqsan və ziyansız moizələrinə görə filosofu ölümə göndərdiyinə peşman olacaqsan!

Baş ruhaninin sifəti ləkələrlə örtüldü, gözləri parıldadı. O, prokurator kimi hirsindən gülümsədi.

– Prokurator, indi dediklərinə sən özün inanırsanmı? Yox, inanmırsan! Xalqı yolundan azdıran adam, sən Yerşalaimə sülh, əminamanlıq gətirməmisən, sən bunu gözəl bilirsən, atlı. Sən onu buraxmaq istəyirdin ki, xalqın arasına qarışıqlıq salsın, etiqadını təhqir etsin və xalqı Roma qılıncının üstünə aparsın! Ancaq mən, İudeyanın baş ruhanisi nə qədər ki sağam, dinimizin təhqir olunmasına imkan verməyəcəm və xalqı müdafiə edəcəm! Eşidirsənmi, Pilat? – Kaifa hiddətlə əlini qaldırdı: – Bunu nəzərə al, prokurator!

Kaifa susdu və prokurator dənizin uğultusu kimi yenə Böyük İrodun darvazasına lap yaxınlaşan hay-küyü eşitdi. Bu uğultu aşağıdan prokuratorun ayaqlarına, sifətinə doğru qalxırdı. Arxa tərəfdən, sarayın dalından isə şeypurların təhlükə bildirən siqnalları, yüzlərlə ayağın ağır tappıltısı, dəmirlərin cingiltisi eşidildi, – prokurator başa düşdü ki, onun əmrinə uyğun olaraq Roma piyada qoşunu qiyamçıları və quldurları dəhşətə salan ölüm qabağı parada çıxmaq üçün artıq hərəkətə gəlib.

– Eşidirsənmi, prokurator? – baş ruhani astadan təkrar etdi, – doğrudanmı sən deyəcəksən ki, bütün bunların baiskarı, – baş ruhani bu yerdə hər iki əlini qaldırdı və qara başlıq Kaifanın başından sürüşdü, – miskin quldur Var-ravvandı?

Prokurator biləyinin arxası ilə soyuq, tərli alnını silib yerə, sonra gözünü qıyıb göyə baxdı, gördü ki, qaynar kürə düz başının üstündədi, Kaifanın kölgəsi isə lap kiçilərək şirin quyruğuna sığınıb və astadan soyuqqanlıqla dedi:

– Günorta yaxınlaşır. Başımız söhbətə qarışıb, işimizi isə davam etdirməliyik.

Baş ruhanidən nəzakətlə üzr istəyib, sonuncu qısa iclas üçün lazım olan başqa adamları çağırana qədər onun maqnoliyanın kölgəsində oturub gözləməsini xahiş etdi, sonra edamla bağlı bir sərəncam da verəcəkdi.

Kaifa əlini ürəyinin üstünə qoyub hörmətlə təzim etdi və bağda qaldı, Pilat isə eyvana qayıtdı. Onu gözləyən katibə tapşırdı ki, legionun leqatını, koqorta tribununu[1], həmçinin bağın aşağısındakı terrasda, fəvvarəli dairəvi köşkdə dəvət gözləyən Sinedrionun iki üzvünü və məbəd keşikçilərinin rəisini bağa dəvət etsin. Pilat bu saat qayıdacağını deyib, saraya keçdi.

Katib iclası toplayana qədər prokurator tünd pəncərə pərdələrinin günəşdən qoruduğu otaqda, gün işığı onu narahat etməsə də, sifətinin yarısı başlıqla örtülmüş bir nəfərlə görüşdü. Görüş çox qısa oldu. Prokurator bu adama astadan bir neçə söz dedi, sonra o getdi. Pilat isə sütunların arasından keçib bağa qayıtdı.

Orada görmək istədiyi adamların hamısına prokurator təntənəylə və soyuq tərzdə elan etdi ki, İeşua Qa-Nosri barədə çıxarılmış ölüm hökmünü təsdiq edir və Sinedrionun üzvlərindən rəsmi şəkildə xəbər aldı ki, cinayətkarlardan hansının sağ qalmasını məsləhət bilirlər. Bunun Var-ravvan olduğu cavabını alıb prokurator:

– Çox yaxşı, – dedi və katibə tapşırdı ki, bunu protokola qeyd etsin və katibin qumdan qaldırdığı toqqanı əlində sıxıb, təntənəli şəkildə dedi: – Vaxtdı!

İştirakçıların hamısı enli mərmər pilləkənlə, bihuşedici ətir saçan qızılgül kollarının arasıyla aşağı, saray divarına, sonunda Yerşalaimin cıdır meydanının sütunları və heykəlləri görünən daş döşənmiş böyük, hamar meydana çıxaran darvazaya tərəf getdilər.

Dəstə yalnız bağdan meydana çıxıb geniş daş eşafota qalxanda, Pilat qıyılmış gözləriylə yuxarıdan aşağı meydanı süzüb, vəziyyəti anlaya bildi. İndicə keçdiyi, yəni saray divarından daş eşafota qədər olan sahə boş idi, ancaq önündəki meydanı Pilat artıq görmürdü – onu kütlə tutmuşdu. Əgər üç cərgə düzülmüş sebastiyalı əsgərlər Pilatdan sol tərəfi və itureyalı yardımçı koqortanın əsgərləri sağ tərəfi saxlamasaydı, kütlə daş eşafotun özünü də, boş sahəni də doldurardı.

[1] Tribun – atlı qoşunun komandiri

Pilat lazımsız toqqanı qeyri-ixtiyarı ovcunda sıxaraq, gözlərini qıyıb daş eşafota qalxdı. Prokurator gün düşdüyünə görə gözlərini qıymamışdı, yox! Nə üçünsə məhkumları görmək istəmirdi, ancaq indi onun arxasınca edam meydançasına çıxarılacaqlarını da gözəl bilirdi.

Qıpqırmızı astarlı ağ plaş insan dənizi üzərindəki sıldırımda görünən kimi səs dalğası Pilatı vurdu:"Ha-a-a..." Haradasa uzaqda, hippodromun dərinliklərindən doğulan bu zəif səs sonra gurultuya çevrildi və bir neçə saniyə davam edib sönməyə başladı. "Məni gördülər", – prokurator düşündü. Səs dalğası sönməyə macal tapmamış birdən yenə artmağa başladı və əvvəlkindən yüksəyə qalxdı, ikinci dalğada, dəniz kükrəyəndə köpük üzə çıxdığı kimi, fit səsləri ucaldı və gurultunun içindən qadın iniltiləri eşidildi. "Məhkumları da edam meydançasına çıxardılar... – Pilat fikirləşdi, – inilti də ona görədir ki, izdiham qabağa yeriyəndə bir neçə qadın ayaq altında qaldı".

O, bir müddət gözlədi, çünki izdihamın öz içindəkiləri püskürüb sakitləşməyincə, heç bir qüvvəylə onu susdurmaq mümkün olmayacağını bilirdi.

Həmin an yetişəndə, prokurator sağ əlini yuxarı qaldırdı və səs-küy tamam yatdı.

Onda Pilat isti havanı bacardığı qədər sinəsinə yığıb qışqırdı və onun səsi minlərlə adamın başı üstündə dalğalandı:

– Qeysər imperator adından!

Kəsik-kəsik bağırtılardan qulaqları batdı – koqortalardakı əsgərlər nizə və bayraqlarını yuxarı ataraq hayqırdılar:

– Yaşasın qeysər!

Pilat başını qaldırıb günəşə baxdı. Gözlərində yaşıl alov oynadı, bu alov beynini qaynatdı və xırıltılı arami sözləri ətrafa yayıldı.

– Yerşalaimdə həbs olunmuş dörd cinayətkar, adam öldürdüklərinə, qiyama çağırışa, qanun və etiqadımızı təhqir etdiyinə görə rüsvayçı edama – dar ağacından asılmağa məhkum məhkum edilib. Bu edam indi Keçəl Dağda olacaq! Cinayətkarların adı – Dismas, Hestas, Var-ravvan və Qa-Nosridir. Budur, onlar sizin qarşınızdadı!

Pilat cinayətkarları görməsə də, əlilə sağ tərəfi göstərdi, çünki onların harada lazımsa, orada olduğunu bilirdi.

İzdiham heyrətdən, ya rahatlandığına görə uğuldadı. Uğultu yatanda Pilat sözünə davam etdi:

– Ancaq onların yalnız üçü edam olunacaq, çünki qanuna və adətə görə, pasxa bayramı münasibətilə məhkumlardan birinin mənfur həyatını, Kiçik Sinedrionun seçimi və Roma hakimiyyətinin təsdiqiylə, alicənab qeysər imperator onun özünə qaytaracaq!

Pilat sözləri qışqırdıqca, uğultunun get-gedə dərin sükutla əvəz olunduğunu hiss edirdi. Artıq heç bir səs-səmir eşidilmirdi, hətta elə bir an gəlib çatdı ki, Pilat, ümumiyyətlə, ətrafda hər şeyin yoxa çıxdığını düşündü. Nifrət bəslədiyi şəhər ölmüşdü, bircə o, günün altında üzünü göyə tutub qalmışdı. Pilat bir az susub, sonra qışqırdı:

– İndi sizin qarşınızda azadlığa buraxılacaq adamın adı...

Ad çəkməmişdən əvvəl heç nəyi unutmadığına əmin olmaq üçün yenə gözlədi, çünki həmin xoşbəxtin adını çəkəndən sonra ölü şəhərin diriləcəyini və başqa sözlərin eşidilməyəcəyini bilirdi.

"Qurtardımı? – Pilat öz-özünə pıçıldadı, – qurtardı. Ad!"

Və "r" hərfini uzadıb sükut çökmüş şəhərə qışqırdı:

– Var-ravvan!

Bu zaman ona elə gəldi ki, günəş başı üstündə cingiltiylə çilikləndi və qulaqlarına od doldu. Bu odda bağırtı, çığırtı, inilti, qəhqəhə və fit səsləri qaynayırdı.

Pilat çönüb, büdrəməmək üçün ayağı altındakı alabəzək taxta döşəmədən savayı heç hara baxmadan edam meydançasıyla geriyə, pilləkənə sarı getdi. O bilirdi ki, indi edam meydançasına tunc pullar, xurmalar dolu kimi yağır, izdiham çaxnaşır, adamlar bir-birini itələyir, bir-birinin belinə dırmaşır ki, öz gözləriylə möcüzəni – artıq ölümün pəncəsində olan adamın necə qurtulduğunu görsünlər! İstintaq zamanı burulmuş qollarından kəndiri legionerlər açanda, ağrının şiddətindən üz-gözünü qırışdırıb ufuldasa da, məhbusun mənasız, gic bir təbəssümlə necə gülümsədiyini görsünlər.

O bilirdi, elə bu vaxt mühafizəçilər qolları bağlı üç nəfəri artıq yan pilləkənlərlə düşürürlər ki, onları qərbə, şəhər kənarına, Keçəl Dağa aparan yola çıxarsınlar. Yalnız edam meydançasının arxasında Pilat təhlükəsizlikdə olduğuna inandığından başını qaldırdı – məhkumları daha görə bilməzdi.

İzdihamın get-gedə səngiyən uğultusunu, prokuratorun edam meydançasından dediklərini indi arami və yunan dilində təkrar

edən carçıların qışqırıqları batırmışdı. Bundan başqa o, at ayaqlarının zəif tappıltısını və şeypurun qısa, şən səsini eşitdi. Bazardan hippodrom meydanına çıxan küçənin damlarındakı uşaqların qulaqdeşən fışqırıqları və "ehtiyatlı ol!" bağırtıları da bu səslərə qarışdı.

Meydanın boşaldılmış sahəsində tək dayanmış əsgər əlindəki bayrağı həyacanla qaldıranda, prokurator, legionun leqatı, katib və mühafizəçilər dayandı.

Süvari ala camaatın yığnağından yan ötüb, tənəklərin dırmaşdığı daş hasarlı döngəyə burularaq, kəsə yolla Keçəl Dağa çapmaq üçün löhrəm yerişlə meydana girdi.

Süvari alanın uşaq kimi balaca, mulat kimi qara suriyalı komandiri çaparaq Pilatla bərabərləşəndə nəsə çımxırıb, qılıncını qınından çıxardı. Tərə batmış qara at kənara sıçrayıb şahə qalxdı. Sırayla üç-üç düzülmüş atlar toz-duman qaldırıb onun arxasınca çapdılar, bambuk mizraqların yüngül ucları atılıb düşürdü, dişləri şən-şən ağaran, parıldayan, ağ çalma altında lap qara görünən sifətlər prokuratorun yanından ötüb keçdilər.

Süvari ala tozu göyə qaldırıb döngəyə girdi və çiynindəki şeypur gün işığında parıldayan sonuncu əsgər Pilatın yanından çapıb keçdi. Pilat əlilə tozdan qorunaraq, narazılıqla sifətini qırışdırıb saray bağının darvazasına tərəf getdi, leqat, katib və mühafizəçilər də onun arxasınca hərəkət etdi.

Səhər saat ona az qalmışdı.

İSAAK EMMANUİLOVİÇ BABEL

(1894-1940)

İLYA İZAKOVİÇ İLƏ MARQARİTA PROKOFYEVNA

(hekayə)

Qerşkoviç, polis rəisinin otağından içini bürüyən sıxıntı ilə çıxdı. Oryoldan çıxan ilk qatara minib çıxıb getməliydi, əgər getməsəydi, özləri tapıb aparacaqdılar onu. Oryoldan çıxıb getməyi işinin də başa çatdığından xəbər verirdi. Əlində çantası qaranlıq bir küçəyə girdi, yavaş-yavaş addımlamağa başladı. Tində uzun boylu bir qadınla üzbəüz gəldi.

– Əşşi, gəl görək də!

Qerşokoviç başını qaldırdı; qadına baxanda gözlükləri od tutub yanırdı. Bir anlıq tərəddüt keçirəndən sonra razılaşdı:

– Yaxşı.

Qadın qoluna girdi onun. Tini buruldular.

– Hara getdik? Mehmanxanaya?

– Bütün gecəni qalacağam, – dedi Qerşkoviç, – sənin evinə gedək.

– Üç manata başa gələcək, bu sənə!

– İki! – deyə cavab verdi Qerşkoviç.

İki manat yarıma razılaşıb addımladılar.

Qadının otağı balaca, ancaq xudmani idi. Cırıq pərdələri, bir də qızılı rəngli gecə lampası vardı. İçəri girdilər. Qadın plaşını çıxartdı, paltarının düymələrini aça-aça göz vurdu kişiyə. Qerşkoviç sifətini turşutdu:

– Nə axmaq-axmaq hərəkətlər eləyirsən?!

– Yaman tərssən a, sən də!

Qerşkoviçin dizinin üstündə oturdu qadın.

– Ölüsü, ölüsü yüz kilo varsan, – dedi Qerşkoviç.

– Səksən.

Qerşkoviçin gicgahındakı çal saçları öpməyə başladı.

Qerşkoviç sifətini turşutdu yenə.

– Yorğunam. Yatmaq istəyirəm.

Qadın ayağa durdu. Onun da sifəti əyilmişdi.

– Yəhudisən sən?

– Yox.

Qadın:

– Hə, qoca, – dedi yavaş-yavaş – on manatla necədir aran?

Qerşkoviç durub qapıya tərəf getdi.

– Cəhənnəm, beş verərsən, – dedi qadın.

Qerşkoviç qayıtdı.

Pencəyini çıxarıb asmağa bir yer axtaranda yorğun bir səslə:

– Yatağı hazırla, – dedi. Adın nədir sənin?

– Marqarita.

– Mələfələri də dəyişdir, Marqarita.

Yataq geniş, mələfələr isə qar kimi ağappaq idi. Ağır-ağır soyundu Qerşkoviç, ağ corablarını çıxartdı, tərləyən əlləriylə ayaqlarını ovuşdurdu. Qapını bağlayıb açarı yastığın altına qoydu, uzandı. Marqarita, əsnəyərək heç tələsmədən paltarını soyundu, çiyinlərinə baxdı bir müddət. Orda bir sızanaq gözünə dəydi, onu sıxıb partlatdı. Daha sonra isə saçlarını açdı.

– Sənin adın nədir, atam?

– Eli, İlya İzakoviç.

– Tacirsən?

Qerşkoviç, qeyri-dəqiq bir cavab tərzi ilə:

– Bir işim var da, pis dolanmıram – dedi.

Marqarita işığı söndürüb qocanın yanına uzandı.

– Maşallah, özünə pis baxmamısan a, – dedi Qerşkoviç.

Bir azdan yuxuya getdilər. Ertəsi gün səhər-səhər günəş işığı doldu otağa.

Qerşkoviç oyandı, geyinib pəncərənin qabağına gəldi.

– Bizim yerlərdə hara baxırsansa bax, dəniz görəcəksən, burda isə göz işlədikcə düzənliklərdir, – dedi. – Gözəldir.

– Haralısan?

– Odessalıyam. Gözəl yerdir. Şəhərlərin ən gözəli...

Qeyri-müəyyən bir tərzdə gülümsədi.

Marqarita:

– Sənə fikir verirəm, görürəm ki, hər yeri sevirsən, – dedi.

– Düzdür, – dedi Qerşkoviç. – Hər yer özünə görə gözəldir, əgər insan varsa təbii.

Marqarita, dirsəyinə söykəndi:

– Necə də axmaqsan, – dedi – insanlar pisdir axı.

– Yox, – dedi Qerşkoviç. – İnsanlar pis deyil. Sadəcə onları kimsə pis olduqlarına inandırıb. Belə öyrəniblər.

Marqarita bir anlığına düşündü, daha gülümsədi. Qerşkoviçə diqqətlə baxaraq:

– Gülməlisən, – dedi – özü də yaman gülməlisən.

– Baxma mənə, geyinəcəyəm.

Səhər yeməyinə çay içib piroq yedilər. Qerşkoviç Marqaritaya çörəyin üstünə kərə yağı çəkməyi və onun da üstünə sosiska qoymağı öyrətdi.

– Elə görüm... Mən də yavaş-yavaş gedim.

Gedəndə:

– Al bu üç manatı, – dedi Qerşkoviç. – İnan mənə ki, insan bəzən bir qəpiyi belə çox çətinliklə qazanır.

Marqarita gülümsədi:

– Qoca kaftar. Qoy üç olsun. Bu gecə də gələcəksən?

– Gələcəyəm.

Axşam olan kimi əlində zənbil Qerşkoviç qapının ağzında göründü. Balıq, bir şüşə pivə, sosiska və alma. Marqaritanın əynində tünd rəngli paltar var idi. Yemək yeyə-yeyə xeyli danışdılar:

– Ayda əlli manat gəlirin olanda belə adam yaşaya bilmir, – dedi Marqarita. – Bu peşədə paltara sən deyən elə də pul getmir, ancaq səhər-axşam şorba yemək olmaz axı. On beş manat da kirayə pulu verirəm.

Qerşkoviç, balığı bərabər hissələrə bölməyə çalışaraq fikirli-fikirli:

– Odessada on manat versən ən gözəl otağı tuta bilərsən Moldovankada.

– Sonra da söz almaq-zad. Dilinə içki dəyən gəlir üstünə...

– Qismətdi də, - dedi Qerşkoviç.

Sonra ailəsindən, iflas edən işindən, əsgərlikdəki oğlundan danışdı.

Marqarita başını masanın üstünə qoyub diqqətlə lakin fikirli bir şəkildə qulaq asdı Qerşkoviçə. Yeməkdən sonra, Qerşkoviç pencəyini çıxardıb quru əskiyə gözlüyünü sildi. Balaca stolun arxasına keçib gecə lampasını özünə yaxınlaşdıraraq bir neçə iş məktubu yazdı. Marqarita isə saçlarını yudu.

Qerşkoviç, qaşlarını qaldırıb, ağır-ağır, diqqətlə yazır, arabir dayanıb düşünür, qələmi mürəkkəbə batırandan sonra silkələyib ucdakı artıq mürəkkəbi axıdırdı. Yazmağı bitirəndən sonra, Marqaritanı bir qalın qovluğun üstündə oturtdu:

– Ciddi bir qadınsınız, xanım, xahiş edirəm, oturun. Qerşkoviç gülümsədi. Gözləri balacalaşmışdı. İşıl-işıl parıldayırdı. Ertəsi gün Oryoldan getdi Qerşkoviç. Vağzalda qatarın yola düşməyinə bir neçə dəqiqə qalmış gəzişəndə gördü ki, budu Marqarita əlində bir çanta sürətilə gəlir. Çantada yağlı kökə var idi, kökənin büküldüyü kağız isə yağ içində idi. Qıpqırmızı olmuşdu Marqaritanın üzü, kədərliydi. Tələsik gəldiyi üçün çətinliklə nəfəs alırdı.

– Yolda yeməyin üçün gətirmişəm bunları. – dedi – düzdür elə bir şey deyil, amma...

– Təşəkkür edirəm, – dedi Qerşkoviç. Kökəni aldı, düşüncəli qaşlarını qaldırdı bir anlığına, beli büküldü.

Üçüncü zəng eşidildi elə həmin an. Sağollaşdılar.

– Çox sağ ol, Marqarita Prokofyevna.

– Gülə-gülə, İlya İzakoviç.

Qerşkoviç, qatara mindi. Və qatar tərpəndi.

MİXAİL MİXAYLOVİÇ ZOŞŞENKO

(1895-1958)

"MAVİ KİTAB"dan

M.Qorkiyə

Əziz Aleksey Maksimoviç!

İki il bundan qabaq məktubunuzda mənə məsləhət görmüşdünüz ki, insanlıq tarixi haqqında gülməli və satirik bir kitab yazım.

Təklif etdiyiniz mövzunu tam şəkildə qaldırmağa gücüm və məharətim çatmazdı. Mən yalnız insan münasibətlərinin qısa tarixini yaza bildim. İzin verin Aleksey Maksimoviç, mənim bu "Mavi kitab"ımı sizə ithaf edim.

Sizi ürəkdən sevən Mixail Zoşşenko
Yanvar 1934, Leninqrad

Heç bir zaman şuxluğumuzdan qalmamışıq. On beş ildir ki, bacardığımız qədər gülməli və əyləncəli əhvalatlar danışaraq camaatımızı bir xeyli şənləndiririk. Yazılarımızda ancaq istədiklərini görürlər, onları qayğılandıracaq ciddi və ibrətamiz bir şey görmürlər.

Biz də bundan xeyli məmnun oluruq. Bu gün də insanların cürbəcür hərəkətləri və hissləri haqqında məzəli bir kitab yazmaq qərarına gəldik. Amma indiki həyatımızdan söhbət açmaqdan əvvəl keçmiş günlərdən bir para əhvalatlar danışmaq istədik.

Dilettant və nadan kimi tarix səhifələrini vərəqlədikcə gördük ki, ən qəribə işlər çox az səbəblərdən törəyir. Gördük ki, tarixdə ən böyük rolu pul, məhəbbət, məkr, uğursuzluq və bir para başqa səbəblər oynayıb. Elə irəlidə bu barədə danışacayıq.

Beləliklə birinci bölümə – Pullar bölümünə girişirik.

Tarixdən bu barədə bildiklərimizi bir-bir sadalayıb zəhlənizi tökmək istəmirik. Onsuz da hər şey aydındır. Bircə onu deyək ki,

pul qamarlamaq həvəsi hörmətli bəşəriyyəti sarsıdan ən güclü ehtiraslardandı. Və bu güclü ehtirası dövlət çox vədə öz xırda məqsədləri üçün çox əla istifadə edə bilir. Məsələn dövlət canisini tutmaq gərək olanda onun başına məzənnə qoyurlar. Tarixin az qala hər səhifəsində bu ya digər kəlləyə qoyulan məzənnəni görürük.

Roma diktatoru Sulla (eramızdan əvvəl 83-cü il) hakimiyyəti ələ keçirəndən sonra rəqibi və düşməni Marinin bütün tərəfdarlarını məhv etmək əmri verib. Həyata və insan xislətinə yaxşı bələd olan Sulla heç kəsin canını qurtara bilməməsi üçün hər baş üçün çox yüksək qiymət qoyubmuş. Elan edib ki, hər bir qətlə yetirilən üçün on iki dinar (yəni qızıl pulla beş min) məbləğində mükafat verəcək.

Bu yüksək qiymət vətəndaşları elə cuşa gətirib ki, qatillər dəqiqəbaşı Sullanın evinə gəlib kəsilmiş başları təqdim edirmişlər.

Təxminən təsəvvür edirik ki, bu necə baş verirmiş.

Məsələn, qatil ehmallıca qapını döyüb yavaş səslə:

– Bağışlayın, – deyir – başları burda qəbul edirlər?

Yalın ayaqlarına sandalya keçirmiş cənab Sulla kürsüdə oturub məlahətli ariyaları zümzümə edərək məhkumların siyahısını nəzərdən keçirir və adların yanına quş qoyurmuş.

Qul içəri girib məlumat verir:

– Yenə gələn var... Baş gətirib. Qəbul edəcəksiz?

– Çağır gəlsin.

Əlində qiymətli hədiyyəni tutan qatil içəri girir.

Sulla:

– Dur görüm, – deyir – Bu nədir gətirmisən?

– Nə olacaq, başdı da...

– Görürəm başdı, amma kimin başıdı? Kimin başını mənə soxuşdurmaq istəyirsən?

– Başdı da, özünüz əmr verməmisiz?

– Axı bu baş mənim siyahımda yoxdu. Kimin başıdı bu? Cənab katib, zəhmət olmasa bir siyahıya bax, gör bu baş orda var?

– Görünür kiminsə kənar adamın başıdı. Məlum deyil kimin başıdı, amma görünür hansı bir kişininsə başını gətirib.

Qatil utana-utana üzr istəyir:

– Bağışlayın... Deməli çaşdırmışam... Tələsikdə səhv də ola bilər, neyləməli? – qoltuğundan başqa bir baş çıxarır – Onda bax bunu alın. Bu yəqin lazım olan başdır. Senatorun başıdır.

– Hə, bu başqa məsələ... – Sulla siyahıdakı adın qarşısına quş qoyur. – Qoy bura başı. Bu birini isə apar at. Nahaq kəsmisən...

– Bağışlayın, əlimə bu keçdi.

– Əlimə keçdi... İş belə getsə hərə bir baş kəsib gətirəcək. Bu qədər pulu mən hardan tapacam.

Qatil pulunu alıb və lazımsız başı götürüb gedir.

Bir sözlə üç-dörd həftə ərzində Sullaya iki mindən artıq baş gətiriblər...

Amma yarım əsr sonra (bizim eradan əvvəl 43-cü il) kəsilmiş başların məzəndəsi elə sıçrayıb qalxdı ki, dünyasında belə şey olmamışdı.

Yuli Sezar öldürüləndən sonra Roma konsulu Mark Antoni üç yüz senatoru və iki min atlını qətlə məhkum edib. Sulla kimi o da elan edib ki, siyahıdakıları ən qısa müddətdə öldürənlərə çox yüksək məbləğdə pul veriləcək.

Doğrudan da qiymət çox yüksək qoyulmuşdu – iyirmi beş min dinar (səkkiz min manat). Sahiblərini öldürən qullara ancaq üç min dinar boyun olunurdu ki, çox da qudurmasınlar, həddlərini bilsinlər.

Bundan sonra nə baş verdiyini təsəvvür etmək çətindir. Oğullar atalarını öldürürdülər, arvadlar yatan yerdə ərlərinin başını kəsirdilər. Borclular küçədə borc aldıqları adamları tutub məhv edirdilər. Qullar da geri qalmırdı, sahiblərinin canlarını alırdılar. Küçələrdən qan su yerinə axırdı, axı qiymətlər çox yüksək idi. Əgər dövlət axır ki, buna son qoymasaydı millət bir-birini qırıb qurtaracaqdı.

Amma tarix bundan da yüksək məbləğdən xəbər verir. Romanın ən böyük natiqi Siseronun başının məzənnəsi əlli min dinar imiş.

Onun kəsilmiş başı təntənəylə masanın üstündə qoyulubmuş. Mark Antoninin quduz arvadı Siseronun dilinə sancaq batırıb: "İndi qoy danışsın" - deyib.

Amma pul bir yana dursun, təbiətin bizə bəxş etdiyi duyğulardan ən başlıcası məhəbbətdi. Hər halda ölüm ayağında böyük təəssüf hissiylə ayrıldığım duyğulardan ən vacibi sevgidi. Fransız şairi Müsse deyir ki, bütün başqa hisslər eşqin yanında cılızdı. Belə deyəndə əlbəttə bir az hissə qapılıb, daha doğrusu lap ağ eləyib. Həm də, axı bunu fransız deyir, fransızlar da ki, məhəbbətçün sino gedənlərdi. Müsse də yəqin ki, arvadbazın biriymiş, odur ki, ağzına gələni danışıb. Deyirlər ki, bu fransızlar axşamlar bulvara çıxanda gözəl qızlardan başqa heç nə görmür, özü də onları "cücələr" adlandırırlar.

Gəlin yenə də tarixin dərinliklərinə dalaq. Məsələn, belə məzəli bir əhvalatı yada salaq. Bu əhvalat çox xoşuma gəlir, çünki səciyyəvidir. İvan Qroznının (Qorxunc İvanın) dövrünə aiddir.

O vaxt Rusiyaya Almaniyadan bir hersoq gəlibmiş – Qolştinski. Məlum deyil ki, bu zat Almaniyada nə işlə məşğul olurmuş. Rusiyaya gəlməkdə isə məqsədi siyasi mülahizələrə görə IV İvanın qardaşı qızıyla evlənmək imiş.

Əlqərəz gəlib çıxır. Yəqin ki, bər-bəzəkli, güman ki, ipək şalvarda... Bantlar, lentlər, filan... Böyründə şpaqası. Belə qırmızısifət, sarı bığlı... Olsun ki, içki düşkünü, naqqal...

Bəli, gəlir Rusiyaya, əvvəlcədən hər şey razılaşdırıldığıyçün dərhal toy günü təyin olunur.

Yəqin ki, mərəkə başlanır. Ana-bacılar ora-bura qaçışır. Toyuqdan, cücədən, donuzdan filan kəsirlər. Gəlini hamama aparırlar. Təzə bəy gəlinin atasıyla oturub araq istemal edir. Özü də yəqin basıb-kəsir – bağ belə, bostan belə... yəni ki, bizim Almaniyada... biz hersoqlar... filan-peşməkan.

Və gözlənilmədən çox kədərli hadisə baş verir. Gəlin qəfilcən ölür. Demə yazıq biçarə hamamdan çıxanda soyuqlayıb, sətəlcəm olub, üç gün içində canını tapşırıb.

Təzə bəyin təbii ki, halı pərişan olur, axı filan qədər xərci çıxıb. Əli ətəyindən uzun öz Almaniyasına qayıtmaq istəyir. Baş tutmamış təzə qohumlarıyla vidalaşarkən birdən ona deyirlər:

– Yoldaş hersoq, getməyə tələsmə. Bəxtin gətirib ki, bizim bir qızımız da var. Ölənin bacısı. Düzdür ondan böyükdür, sifətcə də... o söz... amma axı siz də basa-basa Almaniyadan o boyda yol gəlmisiz, əli ətəyindən uzun qayıtmayacaqsan ki... Bax da...

– Day nəyə baxacam, – Hersoq deyir – bunu əvvəlcədən deyəydiz də. Əlbəttə razıyam, gətirin görüm qızı.

Bir söz matəm qurtarar-qurtarmaz toy dəsgahı başlayır.

* * *

Başqa bir hadisə də İranda baş verir.

Məşhur Kirin oğlu Kəmbiz Misir fironu II Amazisin (eramızdan əvvəl 529-cu il) qızına elçi salır. Özü də qızı görmədən elçi göndərir. Çünki o vaxt İrandan Misirə getmək asan iş deyildi. Gərək bu səfərə neçə ay sərf eləyəydin.

Amma Kəmbiz eşitmişdi ki, Misir fironunun qızı qeyri-adi gözəlliyə malikdi.

Beləliklə dədəsi dünyanın yarısını tutmuş İran şahı Misirə elçilərini göndərir.

Yeganə qızını çox sevən firon onu uzaq diyara buraxmaq istəmirdi. O biri tərəfdən də qüdrətli İran hökmdarını narazı salmaqdan qorxurdu. Əlqərəz belə bir fənd işlədir – ən gözəl kənizlərindən birini öz qızı adıyla İrana göndərir.

Tarixdən bəllidir ki, Kəmbiz bu qızla evlənib çox xoşbəxt yaşayırmış. Qızı çox sevirmiş, amma təsadüfən bir gün yalan açılanda amansızlıqla arvadını öldürür və qoşununu toplayıb Misirə hücuma keçir.

Biz bu hadisəni belə təsəvvür edirik. Demək ki, Kəmbizlə arvadı təxtin üstündə əyləşib mazaqlaşırlar – rahat lükum yeyir, şərbət içir və s. Gombul bir fars da başlarının üstündə dayanıb yelpic yelləyir ki, şirniyyata milçək qonmasın.

İran şahı Kəmbiz bir-iki stəkan şerri-brendi içib sevgi dolu gözlərlə arvadını süzür, ona cürbəcür sözlər deyir, tutalım, bax belə: "Ah mənim misirli gözəlçəm, Misirdə nə var, nə yox? Dədən firon yəqin səni çox əzizləyib, lap ərköyün böyüdüb, həmi... Düzdür də, sənin kimi şirin-şəkər qızı necə əzizləməyəsən? Elə mən də səni görən kimi bir qəlbdən min qəlbə aşiq oldum. Duruşunla, yerişinlə əsl şah qızısan."

Bu zaman qız öz qadın cazibəsinə çox arxayın olub, ya onun qadın qəlbində nə isə baş verib, kim bilir, hər halda gülə-gülə:

– İşə bax – deyir – fironun qızı indi Misirdə oturub özüyçün. İran şahı da məni sevir – adicə kənizi. Gör məhəbbətin gücü nə yaman şeymiş... Kişilərin ağlını başından alır.

Bundan sonrakı səhnəni təsəvvür edəndə adamın tükü biz-biz olur.

Yəqin ki, Kəmbiz heyvan kimi böyürüb. Bir tuman-köynəkdə sıçrayıb taxtından qalxır. Bir şap-şupu ayağından düşür. Dodaqları ağarır, əlləri titrəyir, dizləri bükülür.

Fars dilində:

– Necə? – deyir. – Bir də təkrar elə görüm, nə dedin? Cənab nazirlər, tez bu dələduzu həbs edin.

Nazirlər qaçıb gəlir. Ah, ah, ay aman, belə də iş olar? Sakin olun əlahəzrət, baxın məstləriniz də düşüb, hökmdara yaraşmaz bu.

Amma şah heç cür sakit ola bilmir, heç belə təhqir olar? Hökmdarın heysiyyətini bu dərəcədə alçaltmaq olar?

Axşam bədbəxt kənizin başını kəsəndən sonra Kəmbiz uzun müddət nazirləriylə məsləhətləşib. Əl-qol ataraq otaqda var-gəl edib, yaman həyəcanlıymış.

– Bu Misir fironu nə oğraş adammış, – deyirmiş.

Nazirlər də köks ötürüb başlarını bulayır, amma gizlicə bir-birinə göz vururmuşlar.

– İndi, cənab nazirlər, belə təhqirdən sonra mən neyləməliyəm? Bu dəyyusun üstünə qoşun çəkim yəni?

– Olar əlahəzrət.

– Amma o it oğlu çox uzaqdadır axı. Misir... Afrika... Gərək bir il yol gedəsən... Özü də gavar dəvə belində. Ağırdı...

– Eyb etməz, əlahəzrət... Qoşunun hamısı olmasa da bir hissəsi gedib çatar...

Kəmbiz heç cür sakit ola bilmirdi:

– Mən də onu oxşayırdım, tumarlayırdım... Elə bilirdim ki, fironun qızıdı, sevdim onu, sən demə... başqa adammış... Nədi, cənab nazirlər, yəni mənə it dəyib ki, o firon qurumsaq qızını mənə layiq bilmədi. Çox matahmış... Köpək oğlu, gör nə pəsməndə mal göndərib mənə...

Xarici işlər naziri gülüşünü içində boğaraq ciddi səslə:

– Əsas odur ki, əlahəzrət, bu tarixə düşəcək... Yəni İran... Kəmbiz... gör ona kənizi necə soxuşdurublar.

– Sən də it oğlu it, niyə mənim qanımı daha da qaraldırsan? Gedin qoşunu yığın. Misiri yer üzündən silək gərək.

Bir sözlə Kəmbiz qoşunuyla birlikdə Misirə yola düşdü, çatıb bu ölkəni yerlə-yeksan etdi. Amma firon Amazis bu vaxt artıq dünyasını dəyişmişdi. Onun qardaşı oğlu Psemattix aqibətinin necə olacağını yaxşı bildiyi üçün vaxtında intihar edibmiş.

O ki, qaldı fironun gülməşəkər qızına, tarix onun barəsində heç bir məlumat vermir...

VLADİMİR VLADİMİROVİÇ NABOKOV

(1899-1977)

ÇORBUN QAYITMASI

(hekayə)

Ər-arvad Kellerlər teatrdan gec çıxdılar. Havası bir az tutqun olan, artıq səkkizinci yüzildi ki, çayın köndələn ləpələri kilsə binasının sudakı əksinə yüngülcə əl gəzdirdiyi bu sakit alman şəhərində Vaqneri ürəksiz çalır, zövqə görə, adamları musiqiynən ürəkləri bulanıncaya qədər doydururdular. Teatrdan sonra Keller arvadını öz ağ çaxırıynan ad çıxartmış bər-bəzəkli bir yeməkxanaya apardı və yalnız gecə saat ikiyə işləyəndən sonra, içəridən yelbeyincəsinə işıqlandırılmış avtomobil onları yatmış küçələrlə yeməkxana görünüşlü bir evin doqqazına çatdırdı. Fənərin solğun işığında üstündə yarpaqların ilməli kölgələri oynaşan səkiyə qabaqca Keller – prezident Krügerə oxşayan cantaraq qoca alman düşdü. Dalınca da arvadı sivişib yoğun baldırlarını maşından çıxartdı və Kellerin kraxmallı yaxasıynan arvadının donundakı şüşə muncuqları bir anlığa işıq tutub önə çıxartdı. Dəhlizdə qulluqçu onları yüyürərək qarşıladı və qorxu dolu pıçıltıyla Çorbun gəldiyini xəbər verdi. Varvara Klimovna Kellerin hələ təravətini itirməmiş yumru üzü həyəcandan titrədi və qızardı.

– O sizə dedim ki, qız xəstədi.

Qulluqçu daha tələskənliklə pıçıldamağa başladı. Keller ətli əlini öz çal kəklinə çəkdi və özünün dərin qırışlar basmış iri, bir az meymunabənzər sifətiylə (onun üst dodağıyla burnu arasındakı məsafə xeyli uzunuydu) qocasayağı qaşqabağını tökdü.

– Mən sabaha qədər gözləyə bilmərəm axı. Biz elə bu dəqiqə ora getməliyik, – deyə Varvara Klimovna başını əsdirə-əsdirə donquldandı və öz xurmayı parikinə örtdüyü duvağın ucundan tutaraq, bütün ağırlığıyla yerində fırlandı. – Ay qurban olduğum Allah... Deyirəm axı, bir aydı məktəb niyə gəlmir.

Keller yumruğu ilə öz qatlama silindirini düzəltdi və özünün düzgün, amma bir az boğaz ləhcəli ruscasıyla dedi:

– Bu adamın ağlı üstündə deyil. O, xəstə qadını yenə bir iyrənc mehmanxanada yerləşdirməyə necə ürək eləyib...

Amma qızının xəstə olduğunu düşünməklə onlar, əlbəttə, yanılırdılar. Çorb qulluqçuya ona görə belə demişdi ki, belə demək hamısından asan idi. Əslində o, xaricdən tək qayıtmış və yalnız indi dərk eləmişdi ki, axı arvadının necə həlak olduğunu və özünün niyə heç nə yazmadığını hər halda aydınlaşdırmalı olacaq. Bütün bunlar olduqca çətin idi. Necə aydınlaşdırasan ki, özün öz kədərini tək çəkmək istəmisən, onu kənar şeylərlə bulaşdırmağa və başqalarıyla bölüşməyə razı olmamısan? Ona elə gəlirdi ki, arvadının ölümü nadir, az qala görünməmiş hadisədi. Axı, bu cür ölümdən təmiz nə ola bilər – elektrik axınının zərbəsi ilə, hansı ki, şüşəyə dolanda ən təmiz və ən parlaq işıq verir.

Nitsadan on verst aralıda ağ şosse yolunda tufandan yıxılmış elektrik dirəyinin məftilinə onun gülə-gülə toxunduğu o yaz günündən bəri Çorb üçün bütün dünya susdu və uzaqlara çəkildi; hətta qucağında ən yaxın kəndə qədər apardığı o cəsəd də artıq ona yad və gərəksiz bir şey kimi gəlirdi. Arvadının dəfn olunacağı Nitsada vərəmli, iyrəncsifət keşiş əbəs yerə ondan təfərrüatları öyrənməyə çalışırdı, o, yalnız candərdi gülümsünür, rəngli xırda daşları bir ovcundan-o birinə tökə-tökə bütün günü çimərliyin çınqıllığında otururdu və gözlənilmədən, dəfn gününü gözləməyərək, toy səyahəti zamanı ikilikdə olduqları bütün o yerlərdən keçə-keçə geri Almaniyaya qayıtdı. Onların qışı keçirdikləri İsveçrədə indi alma ağacları çiçəkləmişdi və o, burada mehmanxanalardan başqa, heç yeri tanımadı; amma onların hələ payızda keçib getdikləri Şvarsvaldda isə o qədər də isinməmiş yaz günü çox şeyləri xatırlamağa əngəl olmadı. Cənub çimərliyində olduğu kimi, burada da o, yumru, qara ortasında düz ağ qurşağı olan o yeganə balaca daşı tapmağa çalışırdı, bu daşı ona axırıncı gəzintiləri ərəfəsində O göstərmişdi.

Nəyi görəndə ki, O, heyrətdən içini çəkmişdi, Çorb onların hamısını beləcə axtarırdı: qaya çevrəsinin bənzərsiz cizgisi, gümüşüboz rəngli pulcuqlarla örtülmüş evcik, qara küknar, ağ köpüklü axın üzərindəki kiçik körpü və – bəlkə də, taleyin qara yazısı kimi çiskindən muncuq-muncuq düzülmüş teleqraf məftillərində hörümçək tor-

larının bərq vurması. O, Çorbla yanaşı yeriyirdi. Onun hündürdaban çəkmələri tez-tez addımlayırdı və sakitləşmək bilməyən yüngül, güləyən əlləri elə hey hərəkətdəydi; gah koldan yarpaq qoparır, gah da, yanından keçərkən qayanın divarını sığallayırdı. O, Onun tünd çillərlə dolu balaca sifətini və dalğaların yuyub hamarladığı şüşə qırıqlarının rəngi kimi solğun yaşıla çalan iri gözlərini görürdü. Ona elə gələrdi ki, əgər o, birlikdə görüb-duyduqları bütün bu xırdalıqları bir yerə toplasa, əgər o yaxın keçmişi yenidən yarada bilsə, Onun obrazı ölümsüzləşəcək və Çorb üçün onu həmişəlik əvəz eləyəcək. Amma gecələr dözülməz olurdu... Gecələr Onun göz önündə canlanması birdən qorxu yaradırdı, o bu üç həftə yolçuluq zamanı, demək olar ki, yatmamışdı və indi, onunla rastlaşdıqları və nigah bağladıqları bu sakit şəhərin vağzalına yorğunluqdan, sərxoş kimi düşmüşdü. Keçən payız onlar elə bu vağzaldan yola düşüb getmişdilər.

Axşam saat səkkizə qalırdı. Evlərin arxasında kilsə qülləsinin qaraltısı aydınca seçilirdi. Vağzalın qabağındakı meydanda elə həmin köhnə-küşkül faytonlar qatarla düzülmüşdülər. Yenə həmin qəzetsatan batmış axşam səsiynən qışqırırdı. Həmin qara, tüklü it öz laqeyd gözləriylə reklam dirəkçiyinin yanında durub, nazik ayağını afişadakı qırmızı hərflərlə yazılmış "Parsifal" sözünün düz üstünə doğru qaldırmışdı.

Çorbun əl çamadanı və iri sarı sandığı var idi. O, faytonla şəhərin içindən keçirdi. Faytonçu cilovu tənbəl-tənbəl şappıldadır, bir əliylə də sandığı tuturdu. Çorbun yanındaydı ki, heç vaxt adıyla çağırmadığı o qadın faytonda gəzməyi sevərdi.

Döngədə, şəhər opera binasının arxasında köhnə, üçmərtəbəli bir mehmanxana var idi, pis ad çıxarmış bu mehmanxanada otaqlar bir həftəliyə də verilirdi, bir saatlığa da; bu, tutqun şüşələr arxasında cırıq-sökük pərdələri və heç vaxt açar görməmiş, nəzərəçarpmaz giriş qapısı olan qara bir ev idi ki, yan-yörəsində heç bir otu-ağacı yox idi. Solğun bənizli, sırtıq qulluqçu Çorbu nəm və kələm iyi verən dolanbac dəhlizlə apardı və o, qulluqçunun dalınca nömrəyə girən kimi, çarpayının başının üstə zərli çərçivədəki çəhrayı rəngli çimən qadın şəklindən o, saat tanıdı ki, bu, həmən, otaqdı – onun öz arvadıyla ilk birgəlik gecəsi keçirdiyi otaq. Onda ona hər şey əyləncəli gəlirdi – dəhlizdə qusan o pencəksiz gombul da, əl-üzyuyanda açıq rəngli gözəl saç tellərinin olması da onların nə üçünsə belə yaramaz

mehmanxananı seçməkləri də; amma onu ən çox güldürən – evdən necə qaçmaqları idi. Belə ki, kilsədən evə gələn kimi o, paltarını dəyişmək üçün öz otağına qaçdı, hələ ki qonaqlar yuxarıda axşam yeməyinə yığışırdılar. Keller əynində urvatlı frak, öz meymun sifətiylə boş-boş gülümsəyərək, əliylə gah onun, gah bunun çiyninə şappıldadır, arağı da özü paylayırdı; Varvara Klimovna isə yaxın dostları ikibir-ikibir, təzətoylular üçün hazırlanmış yatağa baxmağa aparırdı, kövrələrək, pıçıltıyla nəhəng tük döşəyi, portağal çiçəklərini, xalçanın üstündə yan-yana qoyulmuş iki cüt təzə gecəayaqqabılarını (böyük dama-dama və kiçik – qotazlı, qırmızı) onlara göstərirdi; xalçanın üstündə isə qot şriftiylə yazılmışdı. Biz qəbrə qədər bir yerdəyik. Sonra hamı stollara doğru hərəkət elədi, Çorbla arvadı isə bir andaca sözləşib arxa qapıdan çıxdılar və yalnız ertəsi gün səhər, ekspresin yola düşməsinə yarım saat qalmış, şey-şüylərinin dalınca evə gəldilər. Varvara Klimovna bütün gecəni hönkürmüşdü; əri isə (hər şeydən şübhələnən bu adamın gözündə Çorb yalnız dilənçi, mühacir və ədəbiyyatçı) qızının seçiminə, çaxıra çəkdiyi xərcə, əlindən heç nə gəlməyən polisə lənətlər yağdırırdı... Cavanlar gedəndən sonra isə gecə döngədəki mehmanxanaya baxmağa gedirdi, o vaxtdan bəri bu qara, korsayaq bina onun üçün nə isə nifrətamiz, elə bil cinayəti xatırladan bir şeyə çevrilmişdi.

Sandıq içəri gətiriləndə qədər Corb hərəkətsiz halda, divardakı o çəhrayı şəklə baxırdı. Qapı örtüləndən sonra o əyilib sandığın kilidini açdı. Küncdə divar kağızının didilmiş qırıntıları altından xışıltıyla siçan qaçdı. Çorb səksənib dabanı üstə geri fırlandı. Tavandan asılmış yalxı elektrik lampası azca yırğalanır, naqilin yaşıl taxtın üstünə düşən kölgəsi əyrilər boyunca sınırdı. O vaxt o, həmin bu taxtın üstündə yatmışdı. Arvadı isə yuxuda uşaq kimi rəvan nəfəs alırdı. O gecə Çorb onun yalnız cinağından öpdü – başqa heç nə.

Siçan yenə qurdalanmağa başladı. Elə kiçik səslər var ki, top gurultusundan daha qorxuncdu. Çorb sandıqdan aralandı, otaqda bir-iki dəfə o yan bu yana var-gəl elədi. Pərvanə cingiltiylə özünü lampaya çırpdı. Çorb qapını dartıb eşiyə çıxdı.

Pilləkəni düşərkən o, nə qədər yorulduğunu hiss elədi, döngəyə çatanda isə may gecəsinin donuq maviliyindən başı hərləndi. O, bulvara doğru dönərək, daha yeyin yeridi. Bu – meydan, bu – Daş atlı, bu da – şəhər bağının üstündəki qara buludlar. İndi şabalıd ağacları

çiçəkləyib, onda isə payız vaxtıydı. Toy ərəfəsində o gün onlar ikilikdə gəzdikcə-gəzdilər. Səkini bürümüş solğun yarpaqlardan gələn bir az torpaq, bir az nəm, bir az da bənövşə iyi nə qədər gözəl idi. O buludlu, gözəl günlərdə göy üzü tutqun-ağ rəngdə olurdu və asfalt yolun ortasındakı kiçik gölməçədə ağac budaqları, pis yuyulmuş fotoşəkil kimi əks olunurdu. Saralmış ağaclar boz evlərin arasında hərəkətsiz dayanmışdılar, onun yaşadığı evin qarşısındakı qovaq ağacının Solan yarpaqları isə şəffaf üzüm rənginə çalırdı. Çəpərin arxasında tozağacının sarmaşıqlarla tamamilə örtülmüş gövdəsi arabir gözə çarpırdı və o, danışırdı ki, Rousyada tozağaclarında sarmaşıq olmur, o isə deyirdi ki, onların balaca yarpaqlarının kürəntəhər çaları ütülənmiş ağdakı incə boz ləkələri xatırladır. Səki boyunca palıd və şabalıd ağacları düzülmüşdülər; qara qabığın üzərində məxmər kimi yumşaq yaşıl mamırlar bitmişdi; elə hey qopan yarpaqlar kağız parçaları kimi, çəpinə uçub küçənin o biri üzünə düşürdü. Bu yarpaqları o, küçənin təmir olunduğu yerdəki çəhrayı kərpic yığının yaxınlığından tapdığı kürəyin köməyi ilə göydə tutmağa çalışırdı. Bir az o yanda fəhlə furqonunun bacasından çıxan göyümtül tüstü burularaq budaqlar arasında əriyirdi və dincəlməkdə olan fəhlə əlini belinə qoyaraq, əlində kürək – solmuş yarpaq kimi yüngülcə süzən bu gənc xanıma tamaşa eləyirdi. O, hey atılır və gülürdü. Çorb başını azca əyərək, Onun arxasınca addımlayırdı və ona elə gəlirdi ki, bu solğun yarpaqlar necə qoxuyursa – xoşbəxtliyin də qoxusu bax elə beləcədi.

Şabalıd ağaclarının öz gecə gözəlliyi ilə doldurduğu bu küçəni o, indi güclə tanıdı. Qabaqda fənər yanırdı, şüşənin üstünə əyilmiş budağın ucundakı bir neçə yarpağın işıq elə bil canına hopmuşdu və onlar tamamilə şəffaf görünürdülər. Çorb yaxınlaşdı, doqqazın kölgəsi sınıq xəlbir şəklində səkidən onun üstünə axnadı, ayaqlarına dolandı. Çəpərin o üzündə, tutqun çınqıl zolağının arxasında tanış evin qaranlıq öndəmi görünürdü. Pəncərələrdən biri açıq idi və içəridən işıq gəlirdi. Bu kəhrəba rəngli viranədə qulluqçu yayğın hərəkətləri ilə ağappaq mələfələri döşəyirdi. Çorb onu ucadan səslədi, özü də – müxtəsər. O, bir əli ilə doqqazdan tutmuşdu və ovcunun içində hiss elədiyi şehli dəmir bütün xatırladıqlarının içində ən kəskin olanı idi.

Qulluqçu artıq yüyürə-yüyürə ona doğru gəlirdi. O, sonra Varvara Klimovnaya danışırdı ki, məni ən çox təəccübləndirən – Çorbun hələ də susaraq səkidə dayanmasıydı, halbuki mən dərhal doqqazı açmışdım. "Onun başında papaq yoxuydu və fənərin işığı onun alnına düşürdü, alnı tamam tər içindəydi, saçları da alnına yapışmışdı. Mən dedim ki, ağalar teatra gediblər. Və ondan soruşdum ki, niyə təksən, bu vaxt onun gözləri qorxunc şəkildə parıldadı. Deyəsən, çoxdan üzünü qırxmamışdı". O, alçaqdan dedi: "çatdırın ki, o, xəstədi". Mən soruşdum ki: "Siz hara düşmüsünüz?" O dedi: "Elə həmən ora, – dalınca da: – Bunun fərqi yoxdu. Mən sabah səhər gələcəm". Mən ona təklif elədim ki, gözləsin, amma o, heç bir cavab vermədən dönüb getdi.

Çorb beləcə, öz xatirələrinin lap başlanğıcına qayıdırdı. Bu, çox ağrılı və şirin sınağıydı və artıq sona yaxınlaşırdı. Onların ilk birgəlik gecəsini keçirdikləri o otaqda yalnız bircə gecə keçirmək qalırdı ki, artıq sabahısı sınaq bitəcək və onun obrazı tamamlanacaqdı.

İndi isə o, mavi qaranlıqda bütün skamyalarında dumanlı qaraltılar oturmuş bulvarla geri mehmanxanaya qayıdarkən birdən anladı ki, yorğun olsa da, yalxı lampası və pıçıldaşan künc-bucağı olan o otaqda tək yata bilməyəcək. O, meydandan keçib baş küçənin sıxlığına qarışdı və artıq o, nə eləyəcəyini bilirdi. Amma çox axtardı, belə ki, şəhər sakit və əxlaqlı bir yeriydi, sevginin satıldığı o gizli dalandan isə Çorbun xəbəri yox idi. Artıq onun bir saatı əlacsız gəzib-dolaşmaqdan dabanları yanır, qulaqları uğuldayırdı ki, təsadüfən gəlib həmin dalana çıxdı və dərhal da, onu səsləyən qadına yaxınlaşıb dişlərinin arasından: "Bir gecə", – dedi.

Qadın başını yana əyərək çantasını yellədi və cavab verdi: "İyirmi beş".

Çorb razılaşmaq işarəsi olaraq başını tərpətdi. Və yalnız xeyli sonra, təsadüfən ona doğru baxanda gördü ki, o, çox yıpranmış olsa da, yenə özlüyündə pis deyil və onun açıq rəngli, vurulmuş saçları var.

O, Çorbun düşdüyü mehmanxanada artıq dəfələrcə başqa kişilərlə olmuşdu və qaça-qaça pilləkəni düşən solğun bənizli, nazikburun qulluqçu dostcasına ona göz vurdu. Onlar dəhlizdən keçərkən qapılardan birinin arxasında ağır-ağır və eyni ardıcıllıqla çarpayının necə cırıldadığı eşidilirdi, elə bil kimsə kötük bıçqılayırdı. Bir neçə qapıdan sonra, başqa bir nömrədən yenə bu cür səs gəlirdi və bu vaxt qadın soyuq bir işvəylə dönüb Çorba baxdı.

Çorb dinib-danışmadan onu öz otağına gətirdi və dərhal da dərin yuxu intizarıyla öz yaxasını açmağa başladı. Qadın ona lap

yaxınlaşdı və gülümsəyərək soruşdu: – Bəs bizim o kiçik hədiyyə nə oldu?

Çorb yuxulu və dağınıq halda ona baxdı və onun nə demək istədiyini güclə dərk elədi. O isə pulu alaraq səliqəylə çantasına qoydu və yüngülcə ah çəkib yenə yaxınlaşdı, saçını yelləyərək: – Mən soyunum? – dedi.

– Hə, uzan, – uzan deyə Çorb mızıldandı, – səhər yenə verəcəm.

O, tələsik koftasının düymələrini açmağa başladı. Bu vaxt o, çəpinə hey Çorba baxır və onun fikirli qaraqabaqlığına bir qədər təəccüblənirdi. Çorb isə yeyin və səliqəsiz soyunaraq yatağa girdi və üzünü divara çevirdi.

Qadın dumanlı şəkildə düşündü ki, yəqin, bunun bir hoqqası var. O, yavaşca köynəyini qatlayıb stulun üstünə qoydu. Çorb artıq bərk yuxuya getmişdi.

Qadın otaqda gəzinməyə başladı və görəndə ki, pəncərənin yanına qoyulmuş sandığın qapağı bir az açıqdı, çöməlerək içindəkilərə göz gəzdirdi. Sonra çılpaq qollarını ehtiyatla çəkib-uzadaraq, bir gözünü yumub baxa-baxa əliylə yoxladı; bunlar necə gəldi yığılmış qadın paltarları, corabları, hansısa ipək parça-marçaydı – elə gözəl qoxuyurdular ki, o bundan kövrəldi.

O, ayağa qalxdı, əsnəyə-əsnəyə ombasını qaşıdı və necə var eləcə – çılpaq, yalnız corabda – pəncərəyə yaxınlaşıb pərdəni araladı. Pərdənin arxasında çərçivə açığıydı və küçənin göz oxşayan dərinliyində opera binasının tini, Daş Orfeyin gecənin maviliyində seçilən qara çiyni və binaların çəpinə qaranlığa doğru uzanan dumanlı öndəmlərində bir sıra işıqlar görünürdü. Orda, uzaqda xırda, qara-qara qaraltılar qapıların parlaq keçidindən axışıb çıxaraq, işıqlı pillələrin yarımdairəvi qatlarında qaynaşır və avtomobillər öz fənərlərini oynada-oynada, öz hamar belini parıldada-parıldada pillələrə doğru şütüyürdülər. Yalnız gediş-gəliş kəsilib işıqlar sönəndə qadın pərdəni örtdü və işıqları söndürüb, Çorbun yanında yatağa girdi. O, yuxuya gedə-gedə fikirləşirdi ki, artıq iki dəfə məhz bu otaqda olub və divardakı çəhrayı şəkil də yadındadı.

O, heç bir saat yatmamışdı ki, son son dərəcə qorxunc bir qışqırıq onu yuxudan oyatdı. Qışqıran Çorb idi. O, gecənin bir vaxtı ayrılıb böyrü üstə çevrildi və yanında uzanmış halda öz arvadını gördü. Dəhşətə gələrək, bütün sinəsinin gücüylə qışqırdı. Ağ qadın

kölgəsi yataqdan dik atıldı. O, tir-tir titrəyərək işığı yandıranda Çorb dolaşıq mələfələr içində arxası divara oturmuşdu və dəli bir parıltı ilə od saçan bir gözü görünürdü. Sonra o, yavaş-yavaş üzünü açdı, yavaş-yavaş qadını tanıdı. Qadın qorxu içində öz-özünə danışa-danışa tələsik köynəyini geyinirdi. Və Çorb rahat nəfəs aldı, başa düşdü ki, sınaq bitmişdir. O, taxtın üstünə adladı və əlləri ilə tüklü baldırını sıxaraq, laqeyd bir təbəssümlə qadına baxdı. Bu təbəssüm qadını daha da qorxutdu və o, yana çevrilərək, tez axırıncı düyməsini düymələdi, ayaqqabısının qaytanını bağladı, əlini atdı ki, şlyapasını başına qoysun.

Bu vaxt dəhlizdən danışıq və ayaq səsləri gəlməyə başladı: – Amma onun yanında qadın var... – deyə qulluqçu yazıq-yazıq təkrar eləyirdi.

Boğaz ləhcəli əsəbi səs isə təkrar eləyirdi: – Axı, mən sizə deyirəm, o mənim qızımdı.

Addımlar qapının arxasında dayandı. Sonra qapı döyüldü. Bu vaxt qadın masanın üstündən çantasını götürdü və qətiyyətlə qapını açdı. Onun qarşısında qatlama silindrli qoca bir cənab heyrət içində dayanmışdı, onun çiyni arxasından saçında duvaq, gözü yaşlı, kök bir qadın boylanırdı, lap arxada isə rəngi qaçmış, balacaboy qulluqçu ayaqlarının ucuna qalxaraq, gözləri bərəlmiş halda əliylə çağırış hərəkətləri eləyirdi. Qadın onun işarəsini dərhal anladı və cəld, qocanın yanından sivişib dəhlizə çıxdı. Qoca isə yenə də çaşqın-çaşqın başını ona doğru döndərdi və sonra öz xanımıyla birgə içəri keçdi. qapı örtüldü. Qadınla qulluqçu dəhlizdə qaldılar, qorxu içində bir-birinə baxa-baxa əyilib, dinşəməyə başladılar. Amma otaqda sakitlik idi. Ordan heç bir səs gəlmirdi.

– Onlar susurlar, – deyə qulluqçu pıçıldadı və barmağını dodaqlarının üstünə qoydu.

ANDREY PLATONOVİÇ PLATONOV

(1899-1951

ÜÇÜNCÜ OĞUL

(hekayə)

Vilayət şəhərində bir qarı öldü. Qarının əri təqaüddə olan yetmiş yaşlı fəhlə teleqraf kontoruna gedib, müxtəlif diyar və respublikalara eyni məzmunda altı teleqram göndərdi: "Anan öldü, gəl. Atan".

Teleqrafda işləyən yaşlı qadın öz titrək əlləriylə uzun-uzadı pulu saydı, möhürlədi. Qoca yuxusuzluqdan qızarmış gözləriylə taxta pəncərədən maddım-maddım qadına baxır və öz dərdini qovmaq üçün düşünür ki, yəqin bu süst və dalğın qadının da qəlbi sınıq, ruhu əndişəlidi – ya əri atıb, ya başqa dərdi var.

Buna görə ləng işləyir, pulları saya bilmir, yaddaşını, diqqətini itirib; hətta adi iş üçün də insanın daxilən xoşbəxt olması vacibdi.

Teleqramları göndərdikdən sonra qoca evə qayıtdı; uzun stolun böyründəki kətildə, öz mərhum arvadının soyuq ayaqları yanında oturdu. O, tənbəki çəkir, öz-özünə kədərlə sızıldanır, qəfəsdə o yan-bu yana hoppanan boz quşcuğazın tənha həyatına göz qoyur. Hərdən astadan ağlayır, sonra toxtayan kimi oturur, cib saatını çıxarıb qurur, pəncərəyə baxır və düşünürdü ki, son günlər hava tez-tez dəyişir: gah yarpaq tökümü başlayır, gah tənbəl-tənbəl lopa qar yağır, selləmə yağış tökür, gah da ulduzlar kimi soyuq günəş sönük işıq saçır; qoca beləcə düşünərək, oğullarının yolunu gözləyirdi.

Böyük oğlu birinci olaraq, aeroplanla uçub gəldi. Qalan beş oğlu ata evinə iki gün ərzində toplaşdı.

Onlardan biri, yaşca üçüncü oğlu altı yaşlı qızını da gətirdi və bu qızcığaz indiyənəcən babasını görməmişdi.

Stolun üstünə uzadılmış ana, artıq dörd gündü, onların yolunu gözləyirdi; meyitdən ölüm qoxusu gəlmirdi, çünki xəstəlik bu

bədəni qupquru qurutmuş, üzüntü və aclıq onu hər cür xıltdan təmizləmişdi. Oğullarına bol və sağlam həyat bəxş etmiş qarı özü üçün xəsiscəsinə xırdaca, qənaətə alışmış bədən saxlamış və lap miskin görkəmdə də olsa, uzun müddət onu qorumağa çalışmışdı ki, sağ qalıb, sevə bilsin, onlarla fəxr etsin.

İyirmi yaşından qırx yaşınadək olan zorba kişilər stolun üstündəki tabutu səssizcə dövrəyə aldılar. Onlar altı nəfərdi, yeddincisi, ən kiçik oğlundan da boyca balaca və zəif olan ata idi. O, qucağında nəvəsini tutmuşdu; qızcığaz ölüdən – ağcavaz, qıpqırmızı gözləriylə altdan-altdan onu süzən tanımadığı qarıdan qorxduğu üçün gözlərini yummuşdu.

Qarının oğulları sısqa, xəsis göz yaşlarıyla səssizcə ağlayır, üz-gözlərini əyirdilər ki, bu kədərə hönkürmədən dözə bilsinlər. Ata artıq ağlamırdı, göz yaşlarını hamıdan əvvəl tək-tənha ağlaya-ağlaya qurutmuşdu, indi də gizli həyəcan və yersiz sevinclə özpəhləvan cüssəli oğullarına göz qoyurdu. Onlardan ikisi dənizçi – gəmi komandirləri, biri – Moskvada aktyor, biri (kiçik qızıyla gələn) – fizik idi; ən kiçik oğlu aqronomluqda oxuyurdu, böyük oğlu isə aeroplan zavodunda sex rəisi işləyirdi, sinəsində orden – "fəhlə ləyaqətinə görə" vardı. Altı oğul və yeddincisi – ata ölmüş ananın yanını kəsdirib durmuşdu; oğlanlar öz kədərlərini, öz uşaqlır xatirələrini bir-birlərindən gizlədərək, səssizcə ağlayırdılar; uzun illərdi ki, onlar harda olurlarsa -olsun, lap min verstlərlə məsafədən də anadan güc almışdılar. İndi ana cansız cəsədə dönmüşdü, bir daha onları sevə bilməyəcəkdi – laqeyd və yad bir qarı kimi uzanmışdı, pis-pis susurdu, elə bil onlardan küsmüşdü, ya zəhləsi gedirdi...

Onun hər bir oğlu indi özünü yalqız və təhlükədə hiss edirdi, elə bil, hardasa qaranlıq bir çöllükdə, köhnə, kalafa evin pəncərəsindən qara çıraq yanırdı və bu çıraq gecəni, uçuşan böcəkləri, mavi otu, mığmığa dumanını, sahiblərinin atıb getdiyi daxmada xəlvəti ömür sürən uşaqlıq dünyasını cüssəli sarı işığa boyamışdı; bir vaxtlar bu daxmada bu qapıhəmişə açıq qalırdı. Açıq qalırdı ki, bu evdən çıxanlar oraya maneəsiz qayıda bilsinlər. Amma heç kəs qayıtmadı. İndi elə bil, pəncərədə yanan işıq birdən-birə sönmüş, gerçəklik xatirəyə dönmüşdü.

Qarı öləndə, ərinə vəsiyyət etmişdi ki, keşiş cənazə evdə ikən oxusun, mefiti evdən çıxaranda və qəbirə qoyanda isə keşişsiz də

ötüşmək olar, belə olsa, oğulları inciməz və cənazəni son mənzilə-cən yola sala bilərlər. Qarı Allaha inanmaqdan çox, istəyirdi ki, ömrü boyu sevdiyi əri duaların cüssəli zümzüməsi, cənazənin baş tərəfində yanan şamların işığı altında onun üçün daha çox xiffət çəkib kədərlənsin; o bu həyatla təntənəsiz və xatirəsiz vidalaşmaq istəmirdi. Oğulları gəldikdən sonra qoca neçə saat keşiş axtarırdı, axırda axşamüstü bir nəfəri tapıb gətirdi – o da qocaydı, adi qay-dada geyinmişdi, əynində ləbbadə-filan yoxdu, yalnız pəhriz yeməyi yediyindən sağlam rəngi, diri gözləri vardı. Keşiş, böy-ründə hərbi komandir çantası ilə gəlmişdi; çantada ruhani ləvazi-matları: möhür, nazik şamlar, İncil və zəncirdən sallanan buxardan vardı. O, cəld şamları tabutun ətrafına düzüb yandırdı, xəbərdarlıq etmədən buxardanı üfürüb tüstülətdi, İncili açıb, dua mızıldamağa başladı. Otağa toplaşmış oğlanlar ayağa durdular, Allaha inanmasa-lar da, dua oxunanda oturmuş olduqları üçün özlərini nəsə narahat hiss elədilər. Onlar tabutun önündə tərpənməz dayanıb, gözlərini yerə dikmişdilər. Ləbbadəsiz qoca keşiş tələm-tələsik, az qala is-tehzalı səslə, xırdaca ağıllı gözləriylə mərhum qarının pəhləvan oğullarına baxa-baxa dua oxuyur, aradabir mızıltıya keçirdi. O, mərhum qarının zorba və qaraqabağ oğullarından ehtiyat etsə də, qəlbində onlara qarşı anlaşılmaz hörmət duyurdu. Hürkməsəydi, lap həvəslə mırt vurar, ağıllı fikirlər yürüdər, onların rəğbətini qazanmağa çalışardı. Amma qardaşlar susurdular; heç biri, hətta qarının əri də xaç çevirmirdi. Elə bil ibadətin onlara heç bir dəxli yox idi, sanki onlar tabutun fəxri qarovulunda durmuşdular.

Keşiş dua mərasimini bitirdi, tabutun ətrafında yanan şamları üfürüb söndürdü, dini ləvazimatları təzədən komandir çantasına yığdı. Qarının əri onun ovcuna pul basdı və keşiş daha ləngimədi, ona milçək qədər məhəl qoymayan altı pəzəvəng kişinin arasından qorxa-qorxa sivişib, qapının arxasında görünməz oldu, o, məmnu-niyyətlə bu evdə xeyrata qalar, müharibələr və inqilabların pers-pektivindən danışar, heç cür yol tapa bilmədiyi yeni dünyanın nümayəndələri ilə görüşdən uzun müddət təsəlli tapardı; o, tək canına nəsə bir qəhrəmanlıq etmək istəyirdi ki, təzə nəslin dairə-sinə daxil olub, parlaq gələcəyə adlasın, – hətta yerli aerodroma müraciət etmişdi ki, onu oksigen maskası olmadan ən böyük hün-dürlüyə qaldırıb oradan paraşütlə aşağı buraxsınlar; amma kişiyə məhəl qoyan olmamışdı.

Axşam ata dib otaqda altı yer saldı, nəvəsini isə mərhum arvadı ilə qırx il yastığa baş qoyduğu dəmir çarpayıda, öz yanında yatırtdı. Çarpayı tabutun qoyulduğu böyük otaqda idi. Oğulları o biri otağa keçdilər. Onlar soyunub yatağa girənəcən, ata qapının ağzında dayanıb gözlədi, sonra qapını kip örtdü və hər yerdə işıqları söndürə-söndürə, nəvəsinin yanında, yatmağa getdi. Qızcığaz adyalı başına çəkib, geniş yataqda tək yatmışdı.

Qoca gecə alaqaranlığında bir müddət səssizcə dayandı, pəncə-rədən içəriyə göyünmü, yağan qarınmı sönük işığı süzülürdü. Qoca hansısa uzaq sirli xışıltıları dinlədi, sonra qapağı açıb tabuta yaxın-laşdı, arvadının soyuq əllərini, alnını, dodaqlarını öpdü və dedi: "İndən belə istirahət elə". O, ehmalca qızcığazın yanında uzandı və gözlərini yumdu ki, ürəyi hər şeyi unutsun. Bir az mürgülədi və yenə qəfildən oyandı. Oğullarının yatdığı otağın qapısı altından işıq düşürdü – orada işığı yandırmışdılar, ucadan danışır, gülüşürdülər.

Səs-küydən qız yerində qurcalanmağa başladı, ola bilsin, yat-mamışdı, intəhası gecənin və ölmüş qarının xofundan başını adya-lın altından çıxarmağa qorxurdu.

Böyük oğul öz tox və güclü səsiylə, son kəşf olan – metal təy-yarə pərlərindən heyranlıqla danışırdı. Dənizçi-qardaşlar əcnəbi limanlarda baş vermiş əhvalatları yada salır, arada da bir atalarının onların üstünə saldığı, uşaqlıq dövründən qalma köhnə adyalları təzəylə müzakirə edərək, ucadan gülürdülər.

Adyalların yuxarısı və aşağısına "baş" və "ayaq" sözləri yazıl-mış bez zolaqları tikilmişdi ki, uşaqlar onu düzgün örtsünlər, ayaq-ların olduğu çirkli, tərli tərəfi başlarına çəkməsinlər. Sonra dənizçi-lərdən biri uşaqlıqda olduğu kimi, aktyorla süpürləşməyə başladı, şitənib, stulu aşırdılar. Bir anlığa otağa sükut çökdü, gülüşənlər uşaq kimi qorxub pusdular, sonra görünür, yadlarına düşdü ki, anaları ölüb, heç nə eşitmir, onları cəzalandıran olmayacaq və yenə şitəndi-lər. Böyük oğul aktyordan xahiş elədi ki, astadan mahnı oxusun; axı, o Moskva mahnılarına yaxşı bələddi. Aktyor dedi ki, birdən-birə elə-belə oxumaq çətindi. "Yaxşı, – dedi, – üzümə bir şey örtün, yoxsa utanıram". Nəyləsə onun başını örtdülər və "pərdə dalında" oxumağa başladı. O, oxumaqda ikən, kiçik qardaş nəsə elədi, o biri qardaş çarpayıdan guppultuyla yerə dəydi. Hamı gülüşdü. Elə uca-dan güldülər ki, qaranlıq otaqda qızcığaz başını odeyalın altından çıxarıb çığırdı:

– Baba! Ay baba! Yatmısan?

– Yox,qurban olum, yatmamışam, oyağam, – qoca yatmadığını bildirmək üçün yalandan öskürdü ki, oğulları eşidib, narahat olmasınlar.

Qızcığaz daha dözməyib hıçqırdı. Qoca onun üzünü tumarladı – uşağın sir-sifəti göz yaşı içindəydi.

– Bu nədi, olmaya ağlayırsan? – qoca pıçıltı ilə soruşdu.

– Nənəyə yazığım gəlir, – qızcığaz dedi. – Hamı yaşayır, hamı gülüşür, təkcə o, ölüb.

Qoca dinmədi. Fısıldayıb, ehmalca öskürdü. Qızcığazı qorxu bürüdü, o, dikəlib oturdu ki, babasının üzünü görə bilsin, öyrənsin ki, o, yatıb, ya oyaqdı. Qızcığaz babasının əprimiş üzünə bir xeyli baxıb soruşdu.

– Bəs, nə üçün sən ağlayırsan? Görürsən, mən daha ağlamıram.

– Ağlamıram, məndən tər axır.

– Sən qarı üçün darıxırsan? – qızcığaz dedi. – Yaxşısı budu, ağlama, sən qocasan tezliklə öləcəksən, onsuz da onda ağlaya bilməyəcəksən.

– Yaxşı, ağlamayacağam, – qoca astadan dedi.

Səsli-küylü otağa qəfildən sükut çökdü. Bundan əvvəl oğlanlardan biri nəsə söylədi. Qoca onun səsindən üçüncü oğlunu – alim-fiziki, qızcığazın atasını tanıdı. Bayaqdan onun səsi çıxmırdı: o, heç nə demir və gülmürdü. Görünür, indi qardaşlarına elə söz demişdi ki, onlar nəinki gülüşmür, heç cınqır da çıxarmırdılar.

Az sonra otağın qapısı açıldı və ordan, gündüzlər geyindiyi kimi üçüncü oğul çıxdı. O, tabutdakı anasına yaxınlaşdı, onun heç kəsə qarşı bir hiss ifadə etməyən cansız üzünə tərəf əyildi...

Gecə yarıdan keçmişdi, xoflu bir səssizlik idi. Bomboş küçə kirimişdi. O biri otaqdan da səs-səmir gəlmirdi: qardaşlar ilbiz kimi qınlarına çəkilmişdi. Qoca da, qızcığaz da, tabutun üzərinə əyilib, donmuş adamı səksəkə içində, hətta nəfəs almağı da unudaraq izləyirdilər.

Üçüncü oğul birdən dikəldi, qaranlıqda əlini uzatdı, tabutun qırağından yapışdı, amma yenə müvazinətini saxlaya bilmədi, tabutu stolun üstüylə azca sürüdü, son anda tabut aşmasın deyə, əlini çəkdi və yerə yıxıldı. Başı taqqıltıyla, yad adam başı kimi, taxta katilin qırağına dəydi, amma onun heç cınqırı da çıxmadı, yalnız balaca qızı zil səslə çağırdı.

Beş qardaş alt tuman-köynəkdə yüyürüb gəldilər, onu qaldırıb, öz otaqlarına apardılar. Bir azdan üçüncü oğul özünə gələndə, biri qardaşlar artıq forma və paltarlarını geyinmişdilər, baxmayaraq ki, hələ gecə saat ikinin yarısı idi. Onlar tək-tək, xəlvətcə evə, həyətə, evi dövrələyən qaranlığa səpələndilər və orda, yalnız özlərinin anladıqları sözləri pıçıldaya-pıçıldaya ağladılar, sanki anası hər birinin başı üzərində dayanmışdı, onu eşidir, ölməklə öz övladını qüssələnməyə vadar etdiyi üçün xəcalət çəkirdi...

Səhərisi altı oğul tabutu qov kimi çiyinlərinə qaldırıb, ananı son mənzilə apardılar. O, artıq öz qarısı üçün xiffət çəkməyə öyrəşmişdi və indi ürəyində qürrələnir, öyünürdü ki, onun özünü də bu pəhləvan cüssəli kişilər dəfn edəcək.

DƏMİR QARI

(hekayə)

Ağacın yarpaqları xəfifcə, yer üzünü dolaşan küləyin nəğməsini mızıldayırdı.

Balaca Yeqor ağacın altında oturmuşdu, yarpaqların səsinə, donqultuya oxşayan ürək sözlərinə qulaq asırdı.

Əslində, yarpaqların özü yox, onların arasında gərdiş edən külək nəsə demək istəyirdi.

Yeqor istəyirdi öyrənsin ki, külək ondan nə istəyir, bu sözlər nəyi bildirir və o, üzünü küləyə tutub soruşdu:

– Sən kimsən? Nə deyirsən?

Bu dəfə küləkdən heç bir səs çıxmadı; külək getmişdi, yarpaqları yuxuya dalmışdı. Yeqor bir az da gözlədi və gördü ki, axşam düşüb. Payız günəşinin kasad işığı qoca palıd ağacını sarı rəngə boyadı və yaşamaq maraqsız oldu. Yeqor darıxırdı – evə getmək, şam eləmək və qaranlıqda yatmaq vaxtı çatmışdı. Yeqor yatmağı sevmirdi, o, fasiləsiz yaşamaq istəyirdi ki, hamısını görə bilsin; heyifsilənirdi ki, gecələr gözlərini yummalı olur, o zaman göydəki ulduzlar onun iştirakı olmadan tək-tənha yaşayırdı.

Yeqor, otun üstüylə sürünə-sürünə evə yatmağa tələsən böcəyi qaldırdı, onun xırdaca, tərpənməz üzünə, eyni vaxtda həm Yeqoru, həm də bütün dünyanı görən qara diri gözlərinə baxdı.

– Sən kimsən? – Yeqor böcəkdən soruşdu.

Böcək heç nə cavab vermədi, amma Yeqor başa düşürdü, balaca kələkbaz onun bilmədiyi şeyləri bilir, amma yalandan özünü elə göstərir ki, guya çox balacadı, ağlı heç nə kəsmir; o, qəsdən böcək olub ki, danışmasın, özü isə böcək-zad deyil, nəsə başqa şeydi.

– Sən yalançısan! – Yeqor bunu deyib, böcəyi arxası üstə çevirdi ki, onun kimliyini öyrənsin.

Böcək susurdu; o var gücüylə tüklücə ayaqlarını tərpədir, öz həyatını insandan müdafiə edir, onun üstünlüyünü qəbul etmək istəmirdi. Yeqor böcəyin bu yenilməz cəsarətinə təəccübləndi və bir daha əmin oldu ki, bu, böcək-zad deyil, çox mötəbər və ağıllı bir canlıdı.

– Sən yalan deyirsən, böcək deyilsən! – Yeqor bunu pıçıltıyla böcəyin üzünə dedi. – Sən biclik eləmə, onsuz da mən kim olduğunu öyrənəcəm. Yaxşısı budu, özün de.

Böcək əl-ayağını işə salaraq, Yeqoru ağrıtmaq istədi. Yeqor incidi:

– Sənin əlinə düşsəm, mən də heç nə deməyəcəm. – Və o, böcəyi havaya buraxdı ki, uçub iş dalınca getsin, həyatdan kənarda qalmasın.

Böcək əvvəl uçdu, sonra yerə qondu və pay-piyada yola düzəldi. Yeqor birdən-birə böcək üçün darıxdı. Başa düşdü ki, bir də onu görməyəcək, görsə də, onu tanımayacaq, çünki kənddə ona oxşayan saysız-hesabsız böcək var. Bu böcək isə haradasa yaşayacaq, sonra öləcək və hamı onu yaddan çıxaracaq, bircə Yeqor bu naməlum böcəyi heç vaxt unutmayacaq.

Ağacdan quru yarpaq düşdü. O bir vaxtlar torpaqdan yaranıb, ağacda ərsəyə gəlmişdi, neçə müddət oradan göyə tamaşa etmişdi və indi göydən yerə uzaq səfərdən evə qayıdan kimi qayıdırdı.

Acından saralıb-solmuş soxulcan quru yarpağın üstünə dırmaşırdı. "Bu kimdi belə? – Yeqor soxulcana çox heyrət elədi. – Gözləri yox, başı yox, nə fikirləşir, görəsən?" Yeqor soxulcanı da götürüb evə yollandı.

Axşam düşmüşdü; daxmalarda işıq yanırdı. Adamlar zəmilərdən qayıtmışdılar ki, bir yerdə, əlbir yaşasınlar, çünki hər yan qaranlıq idi.

Evdə anası Yeqora yemək verdi və sonra buyurdu ki, uzanıb yatsın. Yeqor köhnə odeyalı başına çəkib, bir müddət cınqırını çıxarmadı; çöllərdən, meşələrdən, dərələrdən gələn qorxulu, naməlum səsləri, xışıltıları dinlədi, sonra sol ovcunu açdı, bayaqdan bəri yumruğunda gizlədib saxladığı soxulcanı öz-özünə yaxınlaşdırıb:

– Düzünü de, sən kimsən? – soruşdu.

Soxulcan mürgü döyür, tərpənmirdi. Ondan çay, torpaq və ot qoxusu gəlirdi; o, tər-təmiz və fağır idi, ola bilsin, lap körpə idi, ola da bilsin, arıq və balaca bir qocaydı.

Soxulcan gecəni hiss edərək, yatmaq həvəsiylə onun ovcunda yumrulandı. Lakin Yeqor yatmaq istəmirdi: o, istəyirdi, yaşasın, kiminləsə oynasın, o, istəyirdi, elə indicə səhər açılsın ki, o, yatmasın, dura bilsin. Amma həyətdə gecəydi; az əvvəl başlamış bu gecə hələ uzun sürəcəkdi; indi yatsan da, sübh açılana qədər ən dəhşətli vaxtda oyanacaqsan, elə bir vaxtda ki, hamı yatıb, oyanmış adam isə bütün dünyada yalqızdı, çünki onu heç kəs görmür və heç kəsin yadında deyil.

Soxulcan Yeqorun ovcunda uzanmışdı.

– Gəl, mən sən olum, sən də mən ol, – Yeqor soxulcana dedi. – O vaxt mən bilərəm, sən kimsən; sən də mən olarsan, adam olmaq sənə sərfəlidi.

Amma soxulcan nədənsə razılaşmırdı; ola da bilsin, çoxdan yatmışdı və Yeqorun kim olduğunu bilmək onun heç vecinə də deyildi.

– Mən Yeqor olmaqdan bezmişəm, axı, nə qədər Yeqor olmaq olar? – Uşaq özü-özünə deyirdi. – Mən daha nəsə olmaq istəyirəm. Oyan, ay soxulcan. Gəl söhbət edək – sən mənim haqqımda fikirləş, mən də sənin haqqında fikirləşim.

Ana oğlunun səsini eşidib, ona yaxınlaşdı. O, hələ yatmamışdı – günün axır-uxur işlərini görürdü.

– Niyə yatmırsan, ay şuluqçu, bayaqdan nə mızıldanırsan? – anası onu məzəmmətlədi. – Yat, yoxsa dəmir qarı qaranlıqda çöldə gəzir, yatmayanları axtarır ki, oğurlayıb aparsın.

– Ana, o, kimdi? – Yeqor soruşdu.

– O, dəmirdəndi. Gecə görsənmir, zülmətdə yaşayır, adamları qorxuyla qorxudur, ürəkləri partladır.

– Bəs, o, nəçidi?

– Kim bilir, ay bala. Sən yat, – anası onun üstünü basdırıqladı, – ondan qorxma. O, bəlkə də yazıq bir qarıdı.

– Bəs, o, harda yaşayır? – Yeqor əl çəkmədi.

– O, dərələrdə gəzir, dirilik otunu axtarır, sür-sümük gəmirir, bir adam öləndə sevinir. Dəmir qarı istəyir ki, hamı ölsün, bu işıqlı dünyada o, tək qalsın, buna görə heç cür ölmək bilmir, neçə min ildi yaşayır, hamının öləcəyini gözləyir. Di yaxşı, yat, o, həyətləri gəzmir, qorxma. Yat, bala, yat...

Anası onun yanından çəkildi. Yeqor soxulcanı yastığın altında gizlətdi ki, onun üçün isti olsun və heç nədən qorxmasın.

– Anacan, bəs, sən kimsən? – Yeqor soruşdu.

Anası cavab vermədi. Fikirləşdi ki, Yeqor bir az da danışıb yatacaq.

– "Görəsən, mən kiməm, – Yeqor fikirləşdi və tapa bilmədi. – Yəqin mən də nəyəmsə. Ola bilməz ki, heç nə olmayasan!"

Daxmada səssizlik hökm sürürdü. Anası yatmağa getmişdi, atası çoxdan şirin yuxudaydı. Yeqor dinmədi. Həyətdə çəpər pıçıldayırdı, onun yaxınlığında bitmiş ağcaqayın ağacını laxladırdı. Yeqor sezmişdi ki, ən sakit havada da ağcaqayın yavaş-yavaş yırğalanır, elə bil, harasa can atır, çünki istəyir tez böyüsün, ya da yerindən qopub getsin; çəpər buna görə adamsız cırıldayır, narahat qonşudan gileylənirdi. Yəqin, ağac olmaq darıxdırıcı işdi, axı, ağac heç vaxt yerindən tərpənmir; eyni bir yerdə yaşayır...

– Ana, – Yeqor çağırıb, başını adyalın altından çıxardı. – Ağcaqayın nəçidi?

Amma anası yatmışdı. Yeqora hay verən olmadı. Yeqor gözlərini ala-toranlığa zillədi. Darı zəmisinə açılan pəncərədən içəriyə gecənin sönük, müəmmalı işığı süzülürdü. Yeqor dikəlib oturdu, fikirləşdi ki, görəsən, darı zəmisi qaranlıqda nə edir və yəqin indi kimsə yolla gedir, bu qaranlıqda, hara gedir? Görəsən, nəçidi?

Uzananlardan kimsə dərindən köks ötürdü, sonra zarıdı və susdu. Yeqor diksindi, yan-yörəsinə boylandı, yox, səs çox uzaqdan gəlirdi, sakitləşən kimi oldu, lakin yenə qüssəli, iniltili səs eşidildi – ya uzaqda yolla araba gedirdi, ya da dəmir qarı dərədə gəzişir, darıxırdı ki, insanlar elə bir ucdan doğulur, doğulur və o heç cür arzusuna çatıb, yer üzündə tək qala bilmir. "Gedim özüm hər şeyi öyrənim, – Yeqor qərara gəldi. – Görüm, gecələr kim yatmır və bu qarı nə cür adamdı?"

O, şalvarını geydi və ayaqyalın həyətə çıxdı. Ağcaqayın yarpaqlarını tərpədərək, yola düşməyə hazırlaşırdı, pıtraqlar çəpərə

sürtüşürdü, inək mərəkdə iştaha ilə nəsə gövşəyirdi. Həyətdə heç kəs yatmamışdı.

Dumduru ulduzlar göydə işıq saçırdı; onlar o qədər çox idi ki, yaxın görsənirdilər, – buna görə gecələr ulduzlar altında adam qorxmur, gündüzlər çöl çiçəklərinin arasındakı qədər hürküb xoflanmır.

Yeqor darı zəmisinin böyründən ötdü, mürgüləyən, pıçıldaşan günəbaxanları keçdi və hamının unudub, atdığı yolla dərəyə yönəldi.

Dərə köhnə idi. Buranı çoxdandı sular vurmurdu, dərəni başdan-başa qaba tikanlar, yabanı otlar, cod kollar örtmüşdü. Qocalar və qarılar burdan çör-çöp, çubuq yığır və qış aylarında öz daxmalarında səbət hörürdülər.

Yeqorı kolluğu keçib, dərəyə düşəndə gördü ki, yerin üstünə nisbətən bura daha səssiz və qaranlıqdı, – bircə ot, bircə yarpaq belə tərpənmirdi, – Yeqor xoflandı.

– Ay ulduzlar, mənə baxın, – pıçıldadı, – yoxsa tək qorxuram!

Lakin dərədən yalnız üç ulduz görsənirdi, onlar da çox-çox uzaqlarda sönük-sönük işarırdı, elə bil yavaş-yavaş uzaqlaşıb, zil qaranlıqda sönürdülər.

Yeqor otlara sığal çəkdi, hamar çınqıl tapdı, sonra pıtrağı tərpətdi, pıtraq həyətdəkinə oxşayırdı. Yeqorun qorxusu keçdi: "bunlar ki, qorxmur, mən niyə qorxmalıyam?" Bir az gedəndən sonra dərənin yamacında qazılmış kiçik mağaranı gördü, istədi bir az mürgüləsin, – gün ərzində yaşamaq və yeriməkdən yorulmuşdu.

– İşdi, yaxınlıqdan dəmir qarı keçsə, səsləyərəm, – Yeqor özözünə dedi, yerə uzandı, gecə sərinliyindən büzüşdü və gözlərini yumdu.

Səssizlik qatılaşdı, hər tərəf lal-kar oldu, ulduzlar buludların arasına çəkilib gizləndi və ot ölübmüş kimi sallandı.

Qəfildən, bütün ölmüş adamların təəssüf ahı kimi qəmgin bir səs eşidildi. Yeqor yuxuda bu tükürpədən iniltini eşidib, dərhal gözlərini açdı. Onun başı üzərində hər bir an var olmağa və yox olmağa müntəzir çox yekə, qapqara insan vücudu dayanmışdı.

– Sən kimsən? – Yeqor soruşdu. – Sən qarısan?

– Qarıyam.

– Barı sən, dəmirdənsən?.. Mənə dəmir qarı lazımdı.

– Sən məni neynirsən? – dəmir qarı soruşdu.

– Mən səni görmək istəyirəm – sən kimsən, sən nə üçünsən? – Yeqor dedi.
– Sən öləndə, mən deyəcəyəm kiməm, – qarının səsi cavab verdi.
– De, mən ölüm, – Yeqor razılaşdı və bir ovuc palçıq götürdü ki, qarının gözlərinə yaxıb, onu məğlub eləsin.
– Gəl yaxına, qulağına deyim, – qarı birinci dəfə idi ki, tərpəndi və iki dəmirin bir-birinə sürtülməsinə, ya qurumuş sümüklərin xıçıltısına oxşayan bayaqkı hüznlü səs eşidildi. – Gəl yaxına, sənə hər şeyi danışacağam və onda sən öləcəksən. Yoxsa balacasan, hələ çox yaşayacaqsan və Allah bilir, sənin ölümünü nə qədər gözləməli olacağam. Mənə yazığın gəlsin, axı mən qocayam.
– Onda de, kimsən? – Yeqor təkid etdi. – Sən məndən qorxma, mən ki, səndən qorxmuram.
Qarı Yeqorun üzərinə əyildi və üzünü ona yaxınlaşdırmağa başladı. Oğlan mağarasında kürəyi ilə yerə sıxıldı, ona yaxınlaşan sifətə baxıb, qışqırdı:
– Tanıdım, mən səni tanıdım! Sən mənə lazım deyilsən, mən səni öldürəcəyəm! – O, ovcundakı palçığı qarının üstünə atdı, özü də dönüb yerə qısıldı. Və axırıncı dəfə qarının xırıltılı səsini eşitdi:
– Sən məni tanımırsan, sən məni yaxşı görə bilmədin. Amma mən həmişə sənin ölməyini istəyəcəyəm, çünki sən məndən qorxmursan..
"Qorxmağa qorxuram, amma öyrəşəcəm və daha qorxmayacam", – Yeqor bu cür fikirləşib, dərin yuxuya daldı.
O, doğma bir istidən oyandı. Yumşaq, iri əllər onu harasa apardı. Yeqor soruşdu:
– Sən kimsən? Sən qarı deyilsən?
– Bəs, sən kimsən? – anası xısın-xısın güldü.
Yeqor gözlərini açdı, açan kimi də qıymalı oldu – sübh günəşi bütün kəndi, həyətdəki ağcaqayın ağacını, dörd bir yanı gur işığa qərq etmişdi.
– Sən nə cür dərəyə getmişdin? – anası soruşdu. – Səhər açılandan səni axtarırıq, atan çölə işləməyə nigaran getdi.
Yeqor dərədə dəmir qarı ilə necə mübarizə apardığını danışdı, sonra əlavə etdi ki, qarının üzünə palçıq atdığı üçün onun kim olduğunu bilə bilmədi.

Anası fikrə getdi, sonra Yeqoru yerə buraxdı, ona yad kimi baxaraq:
– Öz ayaqlarınla get, – dedi. – Sən bunları yuxuda görmüsən. – Yeqor etiraz elədi. Dəmir qarılar doğrudan var.
Anası heç nə demədi. Onlar evə girdilər. Dəhlizdə tanış soxulcan sürünürdü – Yeqorun yastığından, öz evinə tələsirdi. "Lalın biri lal, – Yeqor hirsləndi. Buna bax hələ! Demək istəmir kimdi. Onsuz da mən öyrənəcəm. Dəmir qarını da tapacam – özüm dəmir qoca olacam".
Yeqor dəhlizdə dayanıb, fikrə getdi. "Mən yalandan dəmir qoca olacağam, ki, qarı qorxub gəbərsin. Sonra mən dəmir qoca olmayacam – çünki istəmirəm. Mən təzədən anamın oğlu olacağam".

MİXAİL ALEKSANDROVİÇ ŞOLOXOV

(1905-1984)

İNSANIN TALEYİ

Yevgeniya Qriqoryevna Levitskayaya

Yuxarı Donda müharibədən sonra gələn yaz çox az-az görünən və tez düşən yazlardan idi. Martın sonunda Priazovyedən isti küləklər əsdi, iki gündən sonra Donun sol sahilindəki qumsallığın qarı tamam əridi, qar basmış dərələr və qobular su ilə doldu, buzu sınmış kiçik çaylar aşıb-daşdı, yollarda gediş-gəliş son dərəcə çətinləşdi.

Yolların belə pis vaxtında mən Bukanovskaya stanitsasına getməli oldum. Stanitsa çox da elə uzaqda deyildi, ora təxminən altmış kilometr yol olardı; ancaq bu yolu çox çətinliklə başa çatdırdıq. Yoldaşımla bərabər gün çıxmamışdan yola düşdük. Bir cüt harın at, yan qayışları sim kimi darta-darta briçkanı güclə çəkib aparırdı. Çarxlar topuna qədər qara və buza qarışmış yaş quma batırdı. Bir saatdan sonra atların böyründə, sağrısında, nazik döş qayışları altında sabun köpüyü kimi ağ köpüklər göründü; səhərin təmiz havasında at tərinin, atların qayış-quşqununa bol-bol sürtülmüş qatranın məstedici tünd qoxusu duyuldu.

Atlar lap çətinlik çəkəndə briçkadan düşüb piyada gedirdik. Əmik qar uzunboğaz çəkməmizin altında şappıldayırdı. Yerimək çox çətindi, lakin yolun qırağında, gün işığında büllur kimi parıldayan nazik buz hələ əriməmişdi, oradan getmək daha çətindi. Biz altı saatdan sonra yolu ancaq yarı eləyə bildik, gəlib kiçik Yelanka çayının bərəsinə çatdıq.

Bu çayın bəzi yeri yayda quruyur; indi o daşaraq, Moxovski xutoru qabağında, bolluca qızılağac bitmiş subasarda bir kilometr

ətrafa yayılmışdı. Çayı, ancaq üç adam götürə bilən, çox köhnə, yastı bir qayıqla keçməli idik. Briçkanı geri qaytardıq. Çayın o tayında, kolxoz anbarında, hələ qışdan atılıb qalmış köhnə bir "villis" vardı; biz ona minib gedəcəkdik. Şoferlə mən qorxa-qorxa bu köhnə qayığa mindik. Yoldaşım çayın qırağında, şeylərin yanında qaldı. Biz sahildən uzaqlaşan kimi, qayığın çürümüş dib taxtalarından xırdaxırda fəvvarələr vurmağa başladı. Sahilə çatana qədər qayığın deşiklərini tıxadıq, içinə dolan suyu atdıq. Bir saatdan sonra çayın o tayına çatdıq. Şofer gedib xutordan maşını gətirdi, sonra qayığa yaxınlaşıb avardan yapışaraq dedi:

– Bu andır suda parçalanıb dağılmasa, iki saatdan sonra qayıdıb gələrik, bizi bundan tez gözləməyin.

Xutor xeyli kənarda idi; qayıq yan aldığı sahə çox sakitlikdi. Belə sakitlik ancaq payızda, bir də yazın lap başlanğıcında insan yaşamayan yerlərdə olur. Sudan rütubət, qızılağac çürüntüsünün tünd və acı qoxusu gəlirdi; xəfif külək, yasəmən rəngli çən bürümüş uzaq Xoperətrafı çöllərindən, qar altından yeni çıxmış torpağın güclə duyulan və həmişə təravətli olan ətrini gətirirdi.

Bir az kənarda, sahil qumları üstündə aşıb yerə sərilmiş hörmə çəpər vardı. Çəpərin üstündə oturub papiros çəkmək istədim; əlimi sırıqlının sağ cibinə salanda gördüm ki, "Belomor" tamam islanıb, qanım qaraldı. Çayı keçəndə ləpə vurub suyu qayığa tökmüş, bulanıq su məni qurşağa qədər islatmışdı. Onda papirosun fikrini çəkməyə macal yox idi, qayığın batmaması üçün avarları buraxıb, suyu tez-tez qayıqdan kənara atmaq lazımdı. Bu cür diqqətsizliyimə indi çox peşman olmuşdum; islanmış papiros qutusunu üsulluca cibimdən çıxarıb çöməldim, bozarmış, yaş papirosları çəpərin üstünə düzdüm.

Günorta olmuşdu. Hava elə isti idi ki, elə bil may ayı idi. Mən papirosların tez quruyacağı ümidində idim. Hava isti olduğundan, pambıqlı soldat şalvarı və sırıqlı geydiyimə peşman oldum. Qışdan sonra birinci gün idi ki, hava belə isti idi. Adamın beləcə təkbaşına çəpər üstündə oturub, bütün varlığı ilə sükuta və tənhalığa dalması, köhnə, qulaqlı soldat papağını çıxarıb avar çəkməkdən tərləmiş saçını xəfif küləkdə qurutması, mavi göylərdə üzən iri, ağ buludları fikirə dalıb seyr etməsi nə qədər xoşdur!

Çox çəkmədi ki, xutorun kənarında olan həyətlərdən bir kişinin yola çıxdığını gördüm. O, balaca bir uşağın əlindən tutub gətirirdi; uşağın boynuna baxanda ona beş, ya altı yaş vermək olardı. Onlar yorğun-yorğun bərəyə sarı gedirdilər, ancaq maşını görüb mənə sarı döndülər. Ucaboylu, donqar kişi lap yaxına gəlib, tutqun, yoğun səslə dedi:

– Xoş gördük, qardaş!

– Xoş gördük. – Mənə sarı uzanan iri, kobud əli sıxdım.

O, uşağa sarı əyilib dedi:

– Oğul, əmi ilə görüş. O da, görünür, sənin dədən kimi şoferdir. Ancaq bir yük maşını sürürdük, o, bu balaca maşınını sürür.

Uşaq açıq-mavi gözlərini düz gözlərimin içinə zilləyib azca gülümsədi, qızarmış, soyuq əlini cəsarətlə mənə uzatdı, mən onun xırdaca əlini bir balaca silkələyib, soruşdum:

– Sənin əlin niyə belə soyuqdur, qoca? Hava istidir, amma sən üşüyürsən!?

O, xoş bir uşaq məsumluğu ilə dizlərimə sıxılıb, sarışın qaşlarını təəccüblə qaldırdı:

– Mən haradan qoca oldum, əmi? Mən uşağam, özüm də heç üşümürəm, əllərim də ona görə soyuqdur ki, qar yumalayırdım.

Uşağın atası, içində az şey olan əşya çantasını dalından aldı, yorğun halda yanımda oturub dedi:

– Bu sərnişin məni lap bir təhər eləyib! Onun ucbatından mən də əldən düşmüşəm. Addımımı iri atıram, o yüyürməyə başlayır, – di gəl onunla ayaqlaş görüm necə ayaqlaşırsan? O yerdə ki mən gərək bir addım atım, – üç addım atıram. Yerişimizi bir-birinə heç uyğunlaşdıra bilmirik, elə bil atla tısbağa gedir. Onu heç gözdən də qoymaq olmur! Bir balaca üzümü çevirdimmi – bir də görürəm ya özünü gölməçənin içinə verib, ya da buzu qırıb konfet kimi sorur. Yox, belə yol yoldaşı ilə səfərə çıxmaq kişi işi deyil, özü də piyada! – Bir az susduqdan sonra soruşdu: – Sən necə, qardaş, olmaya böyüyünü gözləyirsən?

Ona şofer olmadığımı demək yaxşı düşməzdi; belə cavab verdim:

– Gərək gözləyək də.

– O biri taydan gələcək?

– Bəli.

– Bəlkə biləsən: qayıq tez gələcək?

– İki saatdan sonra.

– Xeyli çəkəcək. Neyləyək, bir az dincələrik, tələsməli bir işim də yoxdur. Buradan keçəndə gördüm ki, bir şofer qardaşım özünü günə verir. Dedim qoy gedim yanına, bir yerdə papiros çəkək, – adam nə tək ölmək istəyir, nə də tək papiros çəkmək. Sən varlı adama oxşayırsan, – papiros çəkirsən. Deyəsən papirosun islanıb? Qardaş, at oldu çaş, tənbəki oldu yaş – at getsin! Yaxşısı budur, gəl mənim tənbəkimdən çəkək.

O, nazik, xaki şalvarının cibindən ağzı büzməli, moruq rəngli köhnə ipək kisəsini çıxartdı. Kisəni açanda, mən onun qırağında sapla tikilmiş bu sözləri oxuya bildim: "Əziz döyüşçüyə. Lebedyanskaya orta məktəbinin 6-cı sinif şagirdindən".

Biz evdə hazırlanmış tünd tənbəkidən çəkə-çəkə xeyli susduq. Mən ondan soruşmaq istəyirdim ki, sən bu uşaqla hara gedirsən, yolların belə pis vaxtında səni evdən çıxmağa məcbur edən nədir, ancaq o məni belə bir sualla qabaqladı:

– Sən də dava vaxtı həmişə maşın sürmüsən?

– Elə hesab elə ki, həmişə.

– Cəbhədə?

– Bəli.

– Qardaş, mənim də orada o ki var başım bəlalar çəkib.

O, iri, qara əllərini dizləri üstə qoyub belini əydi. Mən yandan ona baxdım, ürəyimdə dərin bir sızıltı duydum... Siz heç ömrünüzdə sanki kül tökülmüş, ağır kədər çökmüş gözlər görmüsünüzmü? Elə gözlər ki, adam onlara baxa bilmir... Təsadüfən rast gəldiyim bu adamın da gözləri belə idi.

O, çəpərdən əyri, quru bir çubuq sındırıb götürdü, bir dəqiqəliyə susaraq, bu çubuqla qumun üzərində qəribə şəkillər çəkib dedi:

– Hərdən elə olur ki, gecə yata bilmirəm, gözümü döyə-döyə qaranlığa baxıb fikirləşirəm, öz-özümdən soruşuram: "Ey həyat, sən niyə mənim başıma bu müsibəti gətirdin? Niyə mənə bu qədər əzab verdin?" Heç kəs mənə cavab vermir, heç kəs – nə qaranlıqda, nə aydın gün işığında... Heç kəs də cavab verməyəcək! – O birdən oğlunu görüb susdu, onu yavaşca itələyə-itələyə mehribanlıqla dedi: – Get, bala, suyun qırağında oyna, daşqın sularda uşaqlar özünə həmişə bir şey tapa bilər. Ancaq özünü gözlə, ayaqlarını islatma.

Biz hələ kirimişcə papiros çəkəndə, mən gizlin-gizlin həm ona, həm də onun oğluna baxıb bir şeyə təəccüb etdim: uşağın geyimi

sadə olsa da, yaxşı idi, amma atasınınkı elə deyildi, - bu, mənə qəribə göründü. Uşağın uzun kurtkasının içinə köhnə, nazik tumac çəkilmişdi; kiçik uzunboğaz çəkməsi də elə tikilmişdi ki, yun corabla geyə bilsin; qolunun cırığı çox məharətlə tikilmişdi, - bunlar hamısı bacarıqlı bir qadının, bir ananın onun qeydinə qaldığını göstərirdi. Atasının geyimi isə tamam başqa cür idi: bir neçə yerdən yanmış sırıqlısı başdansovma, kobud halda közərmişdi, köhnə, xaki şalvarının yırtığı yaxşı yamanmamışdı, elə bil ki, yamaq qoyulub, kişi əli ilə iri-iri sırınmışdı; ayağındakı soldat çəkməsi təzə idi, çox az geyilmişdi, amma qalın yun corabını güvə dağıtmışdı, bu coraba qadın əli dəyməmişdi... Onda mən düşündüm: "Ya bu kişi duldur, ya da arvadı ilə yola getmir".

O, suya sarı gedən oğlunun dalınca baxaraq, boğuq-boğuq öskürdü, yenə də danışmağa başladı; mənim bütün diqqətim onda idi:

- Əvvəllər güzəranım pis keçmirdi. Mən özüm Voronej vilayətindənəm, min doqquz yüzüncü ildə anadan olmuşam. Vətəndaş müharibəsində Qızıl Orduda, Kikvidzenin diviziyasında idim. İyirmi ikinci ildə aclıq olanda Kubana gəlib qolçomaqlara eşşək kimi işlədim, ona görə də sağ qaldım. Atam, anam, balaca bacım evdə acından öldü. Mən tək qaldım. Qohum-əqrəbadan heç kəsim yox idi, heç kəsim, tək idim. Bir ildən sonra Kubandan qayıtdım, daxmamı satıb Voronejə getdim. Əvvəl dülgərlər artelində işlədim, sonra zavoda işə girdim, çilingərlik sənətini öyrəndim. Çox keçmədi ki, evləndim. Arvadım uşaq evində tərbiyə almışdı. Yetimdi. Çox yaxşı qızdı. Gülüb-danışan, mülayim, üzüyola, ağıllı, mənim tayım deyildi. O, lap uşaqlıqdan pis günün acısını dadmışdı, bəlkə də buna görə onun xasiyyəti belə idi. Kənardan baxanda adama çox da elə qəşəng görünmürdü; mən axı ona kənardan baxmırdım - o, mənim canım-ciyərim idi! Dünyada mənim üçün ondan gözəl, ondan sevimli bir insan yox idi, olmayacaq da!

Görərdin ki, işdən yorğun gəlmişəm, hərdən də yaman acıqlı olardım. Kobudluq eləsəydim də, o mənə kobud cavab verməzdi, yenə də mehriban, mülayim olardı, bilməzdi məni harada oturtsun. Evdə elə bir şey olmasa da, çalışardı ki, mənə ləzzətli yemək hazırlasın. Ona baxıb ürəyim dincəlirdi. Bir az sonra onu qucaqlayıb deyirdim: "İrina, əzizim, məni bağışla, kobudluq elədim. Bilirsən, bu gün işim düz gətirmədi!" Yenə də barışardıq, mən də sakit olardım. Bilirsən, qardaş, işdən ötrü bu nə deməkdir?! Səhər yuxudan lap gümrah durardım, elə bil bizim aramızda heç bir şey olmamışdı. Zavoda gedərdim, necə iş olsaydı, həvəslə görərdim! Bax, adamın ağıllı, yaxşı arvadı olması bu deməkdir.

Hərdən elə olardı ki, maaş alanda gedib yoldaşlarla içərdim. Bəzən də elə içərdim ki, evə gələndə qıçlarım bir-birinə dolaşırdı, elə yeriyərdim ki, yəqin kənardan baxanları dəhşət alardı. Küçələr mənə darlıq elərdi, hələ dalanları demirəm... Onda mən pəhləvan kimi güclü idim, sağlamdım, çox da içə bilərdim, ancaq evə həmişə öz ayağımla gəlirdim. Hərdən də görərdin ki, yolun qalanını lap sürətlə, yəni iməkləyə-iməkləyə gəlmişəm, hər halda özümü evə yetirərdim. İrinka yenə də məni nə məzəmmət elərdi, nə üstümə çığırardı, nə də dava salardı. Ancaq gülərdi, özü də elə gülərdi ki, mən bundan inciməyim. Ayaqqabılarımı çıxarıb, yavaşca deyərdi: "Andryuşa, sən divar tərəfdə yat, birdən yuxulu-yuxulu çarpayıdan yıxılarsan". Mən də, bir torba çovdar kimi çul düşərdim, hər şey gözümün qabağında ala-bula çalardı. Ancaq yuxuda duyardım ki, İrinka əli ilə üsulluca mənim başımı tumarlayır, mehriban səslə nəsə pıçıldayır, deməli, mənə ürəyi yanır...

Səhər işə iki saat qalmış məni yuxudan oyadardı, ayağa qaldırardı ki, özümə gəlim. Bilirdi ki, mən dəm olanda heç bir şey yemirəm. Gedib bir duzlu xiyar, ya ayrı bir şey gətirərdi, balaca bir taraş stəkana araq töküb deyərdi: "Andryuşa, iç, eynin açılsın, ancaq, əzizim, daha belə eləmə!" Onun bu yaxşılığından çıxmaq olardımı? Arağı içib, sözlə yox, gözlərimlə ona təşəkkür elərdim, onu öpüb, dinməz-söyləməz işə gedərdim. Amma bu dəmli vaxtımda mənə acıqlı bir söz desəydi, üstümə çığırsaydı, ya məni danlasaydı, yəqin ki, elə o gün yenə də içib lülqənbər olardım. Bəzi ailələrdə belə olur: o ailədə ki, arvad axmaqdır. Mən belə sarsaqlarını da çox görmüşəm, bilirəm.

Çox keçmədi ki, bizim uşaqlarımız oldu: əvvəl bir oğlumuz, sonralar da iki qızımız... Onda mən yoldaşlarımdan uzaqlaşdım. Bütün maaşımı evə gətirirdim: ailə böyümüşdü, daha içməyə imkan yox idi. İstirahət günləri bir parç pivə içirdim, bununla da məsələ qurtarırdı.

İyirmi doqquzuncu ildə maşın sürmək həvəsinə düşdüm. Avtomobil işini öyrəndim, yük maşını sürməyə başladım. Bu iş məni elə həvəsləndirdi ki, daha zavoda qayıtmaq istəmədim. Maşın sürmək

daha artıq ürəyimi açırdı. On il bu sayaq dolandıq. Bu illərin necə gəlib-keçdiyini heç özüm də bilmədim. Elə bil bir yuxu idi. On il nədi axı! Hansı bir ahıldan istəyirsən soruş, soruş gör o öz ömrünün necə gəlib keçdiyini bilibmi? O, heç bir şey bilməyib! Keçmiş, bax, o çən içində görünən çöl kimidir! Səhər mən oradan gəlirdim, o yerlərdə nə çən vardı, nə duman; amma iyirmi kilometr gedəndən sonra o yerləri çən bürümüşdü, buradan baxanda meşə ilə alaqotunu, tarla ilə biçənəyi bir-birindən seçmək olmur...

Bu on ili mən gecə-gündüz işlədim. Yaxşı da pul alırdım. Başqalarından pis yaşamırdıq. Uşaqlar da könlümüzü açırdı: üçü də əla oxuyurdu. Anatolinin riyaziyyata elə bir qabiliyyəti vardı ki, onun barəsində lap mərkəzi qəzetdə yazdılar. Onda bu elmə belə böyük istedad hardandı, qardaş, bunu özüm də bilmirdim. Ancaq bu məni çox fərəhləndirirdi, onunla fəxr edirdim, özü də necə fəxr edirdim!

Bu on ildə biz bir az pul yığmışdıq, müharibədən əvvəl özümüzə ikiotaqlı bir ev tikdik. Evin künlüyü də vardı, kiçik bir dəhlizi də. İrina iki keçi aldı. Bundan artıq nə lazımdı? Uşaqlar südlü aş yeyə bilirdi, yaşamağa evimiz vardı, əyin-başımız da pis deyildi, deməli, hər şey yerli-yerində idi. Ancaq evimin yeri yaxşı deyildi: təyyarə zavodundan bir qədər kənarda mənə altı sot yer vermişdilər. Evim ayrı yerdə olsaydı, bəlkə də güzəranım başqa cür olardı...

Bu arada müharibə başlandı. Bir gün sonra hərbi komissariatdan çağırış vərəqi aldım, ertəsi gün qatara mindik. Bütün ailə məni ötürməyə gəlmişdi. İrina, Anatoli, iki də qızım: Nastenka, bir də Olyuşka. Uşaqların hamısı özünü ələ almışdı. Qızlarımın gözləri yaşardı, – bunsuz olmaz ki! Anatolinin ancaq çiyinləri tərpənirdi, elə bil üşüyürdü. Onda oğlum on yeddi yaşına girmişdi. Amma İrina... On yeddi ildi biz bir yerdə yaşayırdıq, mən onu indiyə kimi belə görməmişdim... Gecə mənim köynəyimin çiyni, döş tərəfi onun göz yaşından islanmışdı, səhər də elə... Vağzala gəldik. İrinaya elə yazığım gəlirdi ki, heç üzünə baxa bilmirdim: dodaqları ağlamaqdan şişmişdi, saçı yaylığının altından çıxmışdı, gözləri bulanıqdı, baxışlarında bir mənasızlıq vardı; onlar – ağlı yerindən oynamış adamın baxışına oxşayırdı. Komandirlər xəbərdarlıq elədilər ki, vaqona minək. İrina başını mənim sinəmə qoydu, boynumu qucaqladı. O, kəsilmiş ağac kimi əsirdi... Uşaqlar da onu ovundururdu, mən də, ancaq bunun heç köməyi olmurdu. Başqa arvadlar ərləri ilə, oğulları ilə söhbət edirdi, amma mənim İrinam, yarpaq budağa sıxılan kim, mənə sıxılıb durmuşdu, bütün bədəni titrəyirdi, bircə kəlmə də danışa bilmirdi. Ona dedim ki: "Mənim əzizim, İrina, özünü ələ al! Bu ayrılıq çağında bircə kəlmə də olsa mənə söz de!" O hər sözü içini çəkə-çəkə deyirdi: "Mənim canım... ciyərim... Andryuşa... biz... bir daha... bu dünyada... bir-birimizi... görməyəcəyik..."

Bir yandan mənim ona elə yazığım gəlirdi ki, ürəyim parçalanırdı, bir yandan da o belə sözlər deyirdi... O başa düşməli idi ki, onlardan ayrılmaq mənim üçün də asan deyil, mən axı kefə getmirdim! Onun bu hərəkətinə acığım tutdu! İrinkanın əllərini zorla boynumdan ayırdım, onu yavaşca çiynindən itələdim. Onu yavaş itələsəm də, mən yamanca güclü idim: o üç addım geri getdi, sonra yenə də kiçik addımlarla üstümə gəldi, əllərini mənə sarı uzatdı. Mən çığırıb ona dedim: "Belə də ayrılmaq olar? Niyə sən məni vaxtından əvvəl diri-diri basdırırsan?" Yenə onu qucaqladım, gördüm ki, halı özündə deyil...

O, birdən sözünü kəsdi, araya çökən sükut içində mən onun boğazında nəyinsə qaynadığını, qəhərləndiyini eşitdim. Onun həyəcanı mənə də keçdi. Mən ona çəpinə baxdım, lakin onun ölgün, sönük gözlərində bircə damla da yaş görmədim. O, dərdli-dərdli başını aşağı dikib oturmuşdu, onun qeyri-ixtiyari olaraq aşağı sallanmış iri əlləri yavaşca titrəyirdi; çənəsi də, qətiyyət ifadə olunan dodaqları da titrəyirdi...

Mən astadan dedim:

– Əzizim, bunları yadına salma. – Görünür, o, mənim sözümü eşitmədi, böyük bir iradə ilə həyəcanını boğaraq, xırıltılı səslə dedi:

– Onu itələdiyimi lap ölənə kimi, lap axır nəfəsimə kimi özümə başlamayacağam!..

Yenə də susdu; xeyli danışmadı. İstədi papiros eşsin, qəzet əlində cırıldı, tənbəki dizləri üstə töküldü. Axırda o, birtəhər papirosunu eşib yandırdı, bir neçə dəfə dərindən qullab vurdu, öskürərək sözünə davam elədi:

– Mən İrinadan aralandım, onun üzünü əllərimin içinə alıb öpdüm, dodaqları buz kimi idi. Uşaqlarla da görüşüb ayrıldım, vaqona sarı yüyürdüm. Qatar yola düşmüşdü, atılıb vaqonun pilləkəninə mindim. Qatar lap yavaş-yavaş gedirdi. Dönüb baxdım: yetim uşaqlarım bir araya yığışmışdılar, əllərini yelləyirdilər, məni

yola salırdılar, gülümsəmək istəyirdilər, ancaq gülümsəyə bilmirdilər. İrina əllərini döşünə sıxmışdı, dodaqları kağız kimi ağarmışdı, nəsə pıçıldayıb deyirdi, mənə baxırdı, gözlərini qırpmırdı, özünü elə hey qabağa verirdi, elə bil ki, bərk əsən küləyə sarı yerimək istəyirdi... O, bu cür də həmişəlik mənim xəyalımda qalıb: əlləri döşünə sıxılmış, dodaqları ağarmış, yaşla dolu gözləri geniş açılmışdır... Çox vaxt onu yuxuda da belə görürəm... Axı onda niyə mən onu itələdim? Bu indi də yadıma düşəndə elə bil ürəyimi küt bıçaqla doğrayırlar...

Bizi Ukraynada, Belaya Serkov ətrafında hissələrə ayırdılar. Mənə bir "ZİS-5" maşın verdilər. Elə bu maşında da cəbhəyə getdim. Müharibə haqqında sənə nə danışım axı: özün görmüsən, özün bilirsən ki, o, əvvəl necə idi. Evdən tez-tez kağız alırdım, amma gec-gec cavab yazırdım. Görürdün, yazırdım ki, hər şey öz qaydasında gedir, yavaş-yavaş vuruşuruq, indi geri çəkilsək də, bu yaxınlarda qüvvəmizi toplayıb frislərin burnuna duzlu su qoyacağıq. Bundan başqa daha nə yazmaq olardı?! Pis vaxt idi, heç kağız yazmaq yada düşmürdü. Bir də ki, lap boynuma alıram: mən özüm də qəm-qüssə gətirən şeylər yazmaq istəmirdim. O zar-zar zarıldayan adamlar ki, vardı, yeri gəldi-gəlmədi, hər gün arvadlarına, sevdiyi qızlara kağız yazırdılar, burunlarının suyunu yazdıqları kağıza tökürdülər, mənim onlardan zəhləm gedirdi. Onlar nə yazırdılar? Yazırdılar ki, "çox çətinə düşmüşük, ağır günlər keçiririk, yəqin ki, bizi öldürəcəklər..." Həmin bu adamlar, bu şalvar geymiş qancıqlar öz hallarından şikayət edirdilər, istəyirdilər ki, başqalarının onlara yazığı gəlsin, amma başa düşmürdülər ki, evdə qalan o bədbəxt arvadlar, uşaqlar heç onlardan az əziyyət çəkmirlər. Bütün dövlət onlara arxalanır! Belə bir yükün altında dayanıb durmaq üçün gör bizim arvadlarda, uşaqlarda necə bir qüvvət olmalı idi?! Bəli, onlar dayanıb durdular, əyilmədilər! Amma belə bir əclaf, belə bir miskin qəmli-şikayətli bir kağız yazdımı, elə bil işləyən arvadın qıçına selbə vurdular! Belə bir kağızdan sonra o qaragün arvadın qol-qanadı qırılacaq, əvvəlki kimi işləyə bilməyəcək. Yox, belə olmaz! Ehtiyac olan yerdə sən gərək hər şeyə dözəsən, hər şeyə qatlaşasan, elə ona görə də sən kişisən, ona görə də sən əsgərsən! Yox, əgər səndə kişilikdən çox arvad xasiyyəti varsa, onda get qırçınlı tuman gey, qoy bu qırçınlar sənin arıq dalını kök göstərsin, heç olmasa daldan da olsa arvada oxşayasan, sonra da get çuğun-

dur alağı elə, ya da inək sağ, belə bir adam cəbhəyə lazım deyil, sənsiz də cəbhədə üfunət çoxdur!

Ancaq mənə bircə il də vuruşmaq qismət olmadı... Bu az vaxtda iki dəfə yaralandım, ancaq yaram yüngül oldu: əvvəl qolumun ətindən, sonra da qıçımdan yaralandım. Birinci dəfə mənə təyyarədən atılan güllə, ikinci dəfə də top gülləsi qəlpəsi dəymişdi. Almanlar mənim maşınımı yuxarıdan da, yanlardan da dəlik-deşik etmişdilər, amma, qardaş, əvvəl günlər mənimki gətirirdi... Gətirdi... Axırda işin içindən əngəl çıxdı... Qırx ikinci ilin may ayında Lazovenko tərəfdə əsir düşdüm. Əsir düşməyim də belə oldu. Onda almanlar yaman hücum edirdilər, bizim yüz iyirmi iki millimetrli haubitsa batareyasının gülləsi az qalırdı qurtarsın. İşin lap qızğın çağında mənim maşınıma top gülləsi yüklədilər, gülləri maşına yığanda özüm də bərk işlədim; elə tərləmişdim ki, gimnastyorkam kürəyimə yapışmışdı. Top güllələrini yerinə çox tez çatdırmaq lazımdı, çünki vuruşma bizə yaxınlaşırdı: sol tərəfdə kiminsə tankları guruldayırdı, sağ tərəfdə atışma gedirdi, qabaq tərəfdə də meydan yaman qızışırdı...

Bizim avtomobil rotasının komandiri məndən soruşdu: "Sokolov, bu odun içindən keçə bilərsənmi?" Bunu heç soruşmaq lazım deyildi! Orada mənim yoldaşlarım bəlkə də məhv olurdu, mən burada durub nəm-nüm eləyəcəkdim? Dedim ki: "Buna söz ola bilməz! Mən gərək bu odun içindən keçib gedəm, vəssalam" – "Yaxşı da, onda daha durma! Var qüvvənlə sür getsin!"

Mən də var qüvvəmlə sürüb getdim. Heç ömrümdə belə maşın sürməmişdim! Bilirdim ki, apardığım kartof deyil. Bilirdim ki, bu yük ilə maşını ehtiyatlı sürmək lazımdır. Ancaq burada nə ehtiyat! Yoldaşlarım orada boş əl ilə vuruşurdular, düşmən bütün yolu hər tərəfdən topa tutmuşdu. Maşını altı kilometrə qədər bərk sürdüm, kənd yoluna keçməyə az qalmışdı, gərək özümü dərəyə yetirəydim, batareya orada idi. Bir də nə gördüm: vay dədəm vay! – bizim piyada hissələrimiz çölə, yolun sağına, soluna tökülüşürlər, atılan minalar onların arasında partlayır. İndi axı mən nə edəydim? Geriyəmi dönəydim? Yox! Maşına o ki lazımdı güc verdim! Batareyaya vur-tut bircə kilometr yol qalmışdı. Maşını kənd yoluna döndərmişdim, ancaq, qardaş, özümü yoldaşlarıma yetirə bilmədim... Görünür, düşmənin uzaqvuran topunun gülləsi maşınımın yanına düşübmüş. Mən heç bir partlayış səsi eşitmədim, ancaq elə bil

başımda nəsə partladı, ayrı heç bir şey bilmədim. Onda necə sağ qaldım, bilmirəm. Xəndəkdən səkkiz metr kənarda nə qədər yıxılıb qalmışdım, bu da mənə məlum deyildi. Ayılanda ayağa qalxmaq istədim. Qalxa bilmədim: başım dartınır, bütün bədənim əsirdi, elə bil ki, titrədirdim, gözlərim qaranlıq gətirirdi; sol çiynimdə nəsə şıqqıldayırdı, xırçıldayırdı, bütün bədənimdə elə bir ağrı vardı ki, deynən məni iki gün elə hey döymüşdülər, əllərinə keçəni mənə vurmuşdular. Qarnı üstə xeyli süründüm, axırda bir təhər ayağa qalxdım. Yenə də heç bir şey başa düşə bilmirdim, bilmirdim ki, haradayam, başıma nə iş gəlib. Yaddaşım tamam korlanmışdı. Təzədən yerdə uzanmağa da qorxurdum, qorxurdum ki, uzansam daha qalxa bilməyəm, öləm. Ayaq üstə durub yırğalanırdım: tufanda qovaq yırğalanan kimi.

Haçandan-haçana özümə gəldim, fikrimi topladım, yan-yörəmə baxdım. Elə bil ki, bir adam ürəyimi məngənəyə alıb sıxdı: apardığım top güllələri ətrafa səpələnmişdi, bir az kənarda maşınım arxası üstə düşüb qalmışdı, özü də qırıq-qırıq olmuşdu, amma vuruşma arxa tərəfdə gedirdi, mənim gəldiyim yerdə... Bu necə olan şeydi?..

Niyə sizdən gizlədim; elə bu zaman qıçlarım girdən düşdü, kəsilmiş ağac kimi yerə sərildim: başa düşdüm ki, mən indi mühasirədəyəm, lap düzünü desək, faşistlərə əsir düşmüşdüm. Bəli, müharibədə belə şeylər də olur...

Eh, qardaş, görürsən ki, adam heç özü istəmədiyi halda əsir düşür, bunu başa düşmək asan deyil. Kim ki, bunu özü görməyib, özü bu işə düşməyib – bunu ona qandırmaq, onu bir insan kimi başa salmaq çətin şeydir.

Bəli, deməli, yıxılıb qalmışam yerdə, eşidirəm ki, tanklar guruldayır. Dörd orta alman tankı sürətlə yanımdan ötüb keçdi, mənim top gülləsi götürdüyüm yerə yönəldi... Bunu görəndə adam nə hala düşə bilər? Sonra toplar ötüb keçdi, onun da ardınca səfər mətbəxi göründü, daha sonra piyada hissə gəlib keçdi, – bu da elə çox deyildi, vuruşmada əzilmiş bir rotadan artıq olmazdı. Gözucu onlara baxdım, sonra yenə də üzümü yerə qoyub, gözlərimi yumdum; onlara baxa bilmirdim, onlardan zəhləm gedirdi, ürəyim nifrətlə dolu idi...

Elə bildim ki, hamısı keçib getdi, başımı azca qaldırdım, gördüm ki, altı nəfər avtomatçı gəlir, məndən yüz metrə qədər uzaqda olardılar. Onlar yoldan çıxıb düz mənim üstümə yönəldilər; dinib-

danışmırdılar. Öz-özümə dedim: "Budur, ölüm yaxınlaşır". Qalxıb oturdum, uzanmış halda ölmək istəmirdim. Sonra ayağa qalxdım. Onlardan biri, bir neçə addım qalmış, çiynini əyib avtomatını çıxartdı. İnsan çox qəribə yaranıb: bu zaman mən heç vahiməyə düşmədim, ürəyimdə zərrə qədər qorxu duymadım. Ancaq avtomatçıya baxıb fikirləşirdim: "Bu saat o, məni avtomatla vuracaq, ancaq haramdan vuracaq? Başımdan ya sinəmdən?" O, mənim bədənimin harasını dəlik-deşik edəcəkdi, – elə bil ki, mənim üçün bunun bir təfavütü vardı!

O, cavan bir oğlandı, sir-sifətdən pis deyildi, qarayanızdı, dodaqları nazikdi, gözləri balaca qıyılmışdı. Öz-özümə fikirləşib dedim: "Bu heç ağına-bozuna baxmadan məni öldürər". Elədi ki, var: avtomatını üstümə tuşladı, mən də onun düz gözlərinin içinə baxdım, susub durdum. Onlardan biri, deyəsən, yefreytor idi, qarayanız oğlandan yaşlı idi, ahıl bir adamdı; çığırıb yoldaşını kənara çəkdi, mənə yaxınlaşıb öz dilində nəsə dedi, sağ qolumu dirsəkdən bükdü, demək, gücümü yoxlayırdı; "Ba-a" deyib, gün batan tərəfi göstərdi. Bununla demək istəyirdi ki: "Yeri, heyvan, get bizim rayx üçün işlə!" İt oğlu, yerə sahib çıxmışdı!..

Qarayanız avtomatçı mənim uzunboğaz çəkməmə baxdı, çəkməm yaxşı idi. Əli ilə çəkməmi göstərib dedi: "Çıxart". Yerdə oturub çəkmələri çıxartdım, ona verdim. Çəkməni əlimdən lap dartıb aldı, patavanı da açıb ona sarı uzatdım, özüm də altdan yuxarı ona baxdım. O, bərkdən çığırdı, öz dilində məni söydü, yenə də avtomatına əl atdı. O birilər qəhqəhə ilə güldülər. Bununla da məndən əl çəkdilər. Ancaq o qarayanız avtomatçı yola çıxana kimi üç dəfə dönüb mənə baxdı, gözləri qurd balasının gözü kimi parıldayırdı: mənə acığı tutmuşdu, niyə?! Elə bil çəkməni o mənim ayağımdan deyil, mən onun ayağından çıxartmışdım.

Neynim, qardaş, ayrı əlacım yox idi. Yola çıxdım. Voronejlilər kimi yeddimərtəbə ana söyüşü söyüb, qərbə sarı, əsirliyə getdim!.. Onda mən çox pis yeriyirdim, saatda bir kilometrdən artıq yol gedə bilmirdim. İstəyirdim addımımı qabağa atam, amma kefli adam kimi səndirləyirdim, yolu eninə-uzununa gedirdim. Bir az getmişdim ki, bizim əsgərlərdən bir dəstə gəlib mənə çatdı. Onlar mənim olduğum diviziyadandı. On nəfər alman avtomatçı əsirləri qabağına qatıb aparırdı. Dəstənin qabağında gedən avtomatçı mənə yaxınlaşdı, heç

bir pis söz demədi, ancaq qolaylanıb avtomatın qundağını başıma vurdu. Yıxılacaqdım ki, yoldaşlarım məni tutub dəstənin içinə itələdilər, yarım saata kimi qoluma girib apardılar, yıxılsaydım, avtomatçı məni elə oradaca öldürəcəkdi. Özümə gələndə, qoluma girən əsirlərdən biri pıçıldadı: "Allah eləməsin ki, yıxılasan! Nə qədər gücün var, canını dişinə tut, yeri, yıxıldın, öldürəcəklər". Mən də, nə qədər gücüm vardı, canımı dişimə tutub yeriyirdim.

Gün batan kimi almanlar keşikçilərin sayını artırdılar: yük maşınında iyirmiyə qədər avtomatçı gəldi, bizi yeyin-yeyin getməyə məcbur elədi. Bərk yaralılar özlərini o birilərə yetirə bilmirdilər; onları elə yolda güllələyirdilər. İki nəfər qaçmaq istədi, daha bunu hesaba almamışdılar ki, aylı gecədə, düzənliyin ortasında qaçıb qurtarmaq asan deyil: əlbəttə, onları da vurub öldürdülər. Gecə yarı olmuşdu, gəlib bir kəndə çatdıq, kəndin yarısı yanmışdı. Bizi qübbəsi dağılmış bir kilsəyə doldurdular, gecəni orada qalacaqdıq. Kilsənin daş döşəməsi üstündə bircə saman çöpü də yox idi, hamı şinelsizdi, bircə gimnastyorkada, şalvarda yıxılıb yatdıq. Altımıza salmağa heç bir şey yox idi. Kimisinin heç gimnastyorkası da yox idi, əyinlərində bircə bez köynək vardı. Bunların çoxu kiçik komandirlərdi. Onlar kitellərini, gimnastyorkalarını çıxarıb atmışdılar ki, adi əsgərdən seçilməsinlər. Topçular da gimnastyorkasız idilər, topların yanında əlləşəndə necə idilərsə, elə də əsir düşmüşdülər.

Gecə bərk yağış yağdı, biz hamımız təpədən-dırnağa kimi islandıq. Kilsənin qübbəsini ya iri top gülləsi, ya da təyyarədən atılan bomba dağıtmışdı, damını da bomba qəlpələri dəlik-deşik etmişdi: mehrabın özündə də quru yer tapmaq olmurdu. Bütün gecəni birtəhər kilsədə keçirdik – qoyun sürüsü qaranlıq ağılda keçirən kimi... Gecənin bir yarısında gördüm ki, kim isə qoluma toxunub soruşdu: "Yoldaş, sən yaralı deyilsən?" Dedim: "Qardaş, sənə nə – yaralıyam ya yox?" Dedi: "Mən hərbi həkiməm, bəlkə sənə köməyim dəydi". Dedim ki: "Mənim sol çiynim xırçıldayır, özü də şişir, yaman da ağrıyır". O qəti bir səslə dedi: "Gimnastyorkanı, alt köynəyini çıxart". Mən də çıxartdım. Başladı nazik barmaqları ilə çiynimi əlləşdirməyə, elə də əlləşdirirdi ki, gözlərim qaranlıq gətirirdi. Dişimi dişimə sıxıb dedim: "Görünür, sən mal həkimisən, adam həkimi deyilsən: ağrıyan yeri elə niyə sıxırsan, ay insafsız?" Amma o, çiynimi elə hey əlləşdirirdi, sonra acıqlı-acıqlı

dedi: "Sənin işin susmaqdır! Bu danışıq nədir? Möhkəm dur, bu saat daha bərk ağrıyacaq". Bunu deyib qolumu elə dartdı ki, gözümdən od çıxdı. Özümə gələndə dedim: "Sən nə qayırırsan, ay faşistin biri faşist! Qolum qırıq-qırıq olub, sən də onu elə dartırsan!" O astadan gülüb dedi: "Elə bilirdim, sən məni sağ əlinlə vuracaqsan, heç demə, dinc adamsanmış! Sənin qolun sınmamışdı, çıxmışdı, yerinə saldım. İndi necədir, ağrısı yüngülləşdimi?" Doğrudan da, gördüm ki, ağrı yavaş-yavaş yüngülləşir. Ona lap ürəkdən təşəkkür elədim. O da qaranlıqda məndən uzaqlaşdı, gedə-gedə soruşurdu: "Yaralı olan varmı?" Bax, əsil həkim buna deyərlər! Əsir də düşsə, lap qaranlıqda da öz borcunu yerinə yetirirdi.

O gecə çox pis gecə idi. Baş keşikçi bizi iki-iki kilsəyə salanda xəbərdarlıq etmişdi ki, gecə sizi çölə çıxmağa qoymayacaqlar. Tərs kimi əsirlərdən biri çölə çıxmaq istədi, heç demə, o, mömin adammış. Özünü xeyli saxladı, axırda ağladı. Dedi ki: "Mən bu müqəddəs kilsəni murdarlaya bilmərəm! Axı mən Allaha inanıram, mən xristianam! Mən neyniyim, qardaşlar? Bizim də camaata bələdsən də! Bir parası gülürdü, bir parası söyüş söyürdü, bir parası da ona cürbəcür zarafatyana məsləhətlər verirdi. O bizim hamımızı güldürdü, amma işin axırı çox pis oldu. O, başladı qapını döyüb yalvarmağa ki, məni çölə buraxın. Yaman da buraxdılar: faşist qapının dalından avtomatını işə saldı, atılan güllələr qapını eninə deşik-deşik elədi: bu mömin də öldü, bundan başqa üç adam da; biri də bərk yaralandı, o, səhərə yaxın öldü.

Ölənlərin hamısını bir yerə yığdıq, hamı kirimişcə oturub fikrə getdi: iş indidən yaxşı gətirmirdi... Bir azdan sonra astadan, pıçıltı ilə danışmağa başladıq. Hamı bir-birindən soruşurdu: sən haralısan, hansı mahaldansan, necə olub ki, əsir düşmüsən? Bir vzvoddan ya rotadan olan dostlar, tanışlar qaranlıqda bir-birini itirmişdilər, onlar yavaşca bir-birini səsləməyə başladılar. Yanımda iki adam astadan danışırdı. Onlardan biri deyirdi: "Sabah bizi qabaqlarına qatıb aparmamışdan əvvəl sıraya düzsələr, sonra da desələr ki, kim komissarsa, kommunistsə, yəhudisə qabağa çıxsın, onda bax, sən vzvod komandiri olduğunu gizlətmə ha! Bununla canını qurtara bilməyəcəksən. Gimnastyorkanı çıxartmaqla elə bilirsən adi əsgər olub getdin? Xeyr, bu fırıldaq baş tutmayacaq! Mən sənin yerinə cavab vermək fikrində deyiləm. Hamıdan əvvəl mən səni göstərəcəyəm!

Mən bilirəm ki, sən kommunistsən, məni də partiyaya girməyə təbliğ eləyirdin, indi öz gördüyün işin cavabını ver". Bunu mənim lap yanımda, sol tərəfimdə oturan adam deyirdi. Ondan o yanda oturan cavan bir oğlanın səsi eşidilirdi: "Krıjnyov, mən həmişə hiss eləyirdim ki, sən savadsız olduğunu bəhanə eləyib partiyaya girmədin. Amma sənin xain olacağını mən heç ağlıma gətirmirdim. Sən ki, yeddillik məktəbi qurtarmısan?" Krıjnyov deyilən adam tənbəl-tənbəl ona belə cavab verdi: "Yaxşı da, qurtarmışam, nə olsun ki?" Onlar xeyli susdular. Sonra vzvod komandiri yavaşca dedi: "Yoldaş Krıjnyov, məni ələ vermə!" O biri astadan gülüb dedi: "Yoldaşlar cəbhənin o tayında qaldı, mən sənin yoldaşınzadın deyiləm. Sən də heç məndən xahiş eləmə, mən hər necə olsa sənin kimi olduğunu deyəcəyəm. Hər kəsin canı özünə şirindir!"

Onlar susdular. Krıjnyovun bu alçaqlığı mənə elə təsir elədi ki, bütün bədənimi titrətmə tutdu. Öz-özümə dedim: "Yox, köpək oğlu, mən qoymayacağam sən öz komandirini ələ verəsən. Sən bu kilsədən öz ayağınla çıxmayacaqsan, səni bir leş kimi buradan sürüyə-sürüyə çıxardacaqlar!" Hava təzəcə işıqlanırdı, gördüm ki, mənim yanımda yekəsifət bir oğlan qollarını başının altına qoyub, arxası üstə yatır, onun yanında arıq, natıq burun, cavan bir oğlan alt köynəkdə oturub dizlərini qucaqlayıb, rəngi də yaman ağarıb. Fikirləşdim ki: "Belə cavan oğlan belə yoğun bir yekəpərin öhdəsindən gələ bilməz. Gərək özüm onun işini bitirəm".

Əlimi cavan oğlana toxundurub, yavaşca soruşdum: "Sən vzvod komandirisən?" O bir söz demədi, ancaq başını tərpətdi. Arxası üstə yatan oğlanı göstərib dedim: "Bu səni ələ vermək istəyir?" O yenə də başını tərpətdi. Dedim ki: "Onda sən onun qıçlarından tut ki, çabalamasın! Cəld ol!" Özümü onun üstünə yıxıb, barmaqlarımı boğazına ilişdirdim. O heç cınqırını da çıxara bilmədi. Bir neçə dəqiqə onun boğazını buraxmadım, sonra ayağa qalxdım. Xain murdar olmuşdu, dili də bayıra çıxmışdı.

Onu boğandan sonra özümü çox pis hiss elədim. Əllərimi yumaq istəyirdim, elə bil adam deyil, sürünən bir həşərat öldürmüşdüm... Ömrümdə birinci dəfə idi ki, adam öldürürdüm, o da özümüzünkülərdən oldu... O, haradan özümüzünkülərdəndi? O, yaddan da pis idi, o, satqın, xaindir! Ayağa qalxıb vzvod komandirinə dedim: "Yoldaş, gedək buradan, kilsə böyükdür".

Elə Krıjnyov deyən kimi də oldu. Səhər bizim hamımızı kilsənin qabağında sıraya düzdülər. Avtomatçılar bizi dövrəyə aldılar. Üç eses zabiti zərərli hesab etdikləri adamları seçməyə başladı. Kimin kommunist, kimin komandir, kimin komissar olduğunu soruşdular, heç kəsdən səs çıxmadı. Bələlərini ələ verən bir əclaf da tapılmadı. Əsirlərin az qala yarısı kommunistdi, komandirlər də vardı, məlum şeydir ki, komissarlar da! Burada iki yüzdən artıq adam vardı, onlardan ancaq dördünü seçib ayırdılar: bunun biri yəhudi, üçü də rus əsgəri idi. Ruslar ona görə bəlaya düşdülər ki, qarayanız idilər, saçları da qıvrımdı! Esesçi bir-bir onlara yaxınlaşıb soruşurdu: "Cuhudsan?" Onlar deyirdi: "Yox, rusam". Onların sözünə fikir verən kim idi?! "Qabağa çıx!", vəssalam.

O yazıqları güllələdilər, bizi də qabaqlarına qatıb apardılar. O vzvod komandiri ki vardı, onunla xaini boğub öldürmüşdük, – Poznana qədər məndən ayrılmadı. Elə gedə-gedə tez-tez mənim əlimi sıxırdı. Poznanda bizi ayırdılar. Bunun belə bir səbəbi oldu.

Bilirsən, qardaş, nə oldu: elə ilk gündən mən özümünkülərin yanına qaçmaq fikrinə düşdüm. Ancaq elə qaçmaq istəyirdim ki, ələ keçməyəm. Poznana qədər bu mümkün olmadı. Poznanda bizi əsil düşərgəyə saldılar. Burada əlimə fürsət düşdü. Mayın axırında bizi düşərgənin qabağında olan kiçik bir meşəyə qəbir qazmağa göndərdilər, – ölən hərbi əsirləri orada basdıracaqdılar. Onda bizim adamlar ishaldan yaman qırılırdı. Mən Poznan torpağını qaza-qaza ətrafıma baxırdım; gördüm ki, bizim keşiyimizi çəkənlərdən ikisi çörək yeməyə oturdu, biri də günün altında yuxuya getdi. Beli atıb, yavaşca kolun dalına keçdim. Sonra da düz günçıxana sarı qaçmağa başladım.

Görünür, keşikçilər gec duyuq düşmüşdülər. Mən bir gündə qırx kilometr qədər yol getdim. Mənim kimi arıq, əldən düşmüş adamda bu qədər güc haradandı? Bunu heç özüm də bilmirəm. Ancaq mənim qaçmağımdan bir şey çıxmadı; dördüncü gün məni tutdular. Onda mən o viranə qalmış düşərgədən xeyli uzaqda idim. Xəfiyyə itlərini izimə salıblarmış, itlər gəlib məni biçilməmiş yulaf zəmisinin içində tapdılar.

Səhər açılanda düzənliklə getməyə qorxdum; meşəyə də azı üç kilometr yol vardı, buna görə də gündüzü keçirmək üçün yulaf zəmisində gizləndim. Sünbülləri ovcumun içində əzişdirib dən elədim, bir az yedim, bir qədər də ehtiyat üçün ciblərimə doldurdum.

Bir də gördüm ki, haradasa it hürür, motosikl səsi gəlir. Ürəyim qopdu, çünki itlər getdikcə mənə yaxınlaşırdı. Üzü üstə yerə yatdım, əllərimlə üzümü örtdüm ki, heç olmasa sifətimi didib-dağıtmasınlar. İtlər gəlib mənim üstümü aldılar, bircə dəqiqədə əynimdəki cır-cındırı parçalayıb çıxartdılar. Qaldım anadangəlmə lüt-üryan. İtlər məni yulafın içində istədikləri kimi o yan-bu yana sürüyürdülər. Axırda bir köpək qabaq ayaqlarını sinəmə qoydu, dişlərini qıcıyıb gözlərini boğazıma zillədi, ancaq hələ dəymirdi.

Bu zaman iki motosikl gəldi. Almanlar əvvəl məni könülləri istədiyi qədər döydülər, sonra itləri üstümə qısqırtdılar. İtlər məni didib-dağıdırdı, ətimi parça-parça qoparırdı. Almanlar məni çılçılpaq, bütün qan içində düşərgəyə apardılar. Bir ay məni karserə saldılar, yenə də sağ qaldım... Ölmədim!..

Qardaş, əsirlikdə başıma gələn müsibətləri yada salmaq mənim üçün əzabdır, amma onları danışmaq daha artıq əzabdır!.. Almaniyada bizim adamların çəkdiyi müsibətləri, insan ağlına sığmayan zülmləri yada salanda, düşərgələrdə əzab içində tələf olan yoldaşlarımızı, dostlarımızı xatırlayanda ürəyim parçalanır, nəfəsim tutulur...

İkiillik əsarətdə məni haralara aparmadılar! Almaniyanın yarısını gəzdim: Saksoniyada oldum, silikat zavodunda işlədim, Rur vilayətində daş kömür çıxartdım, Bavariyada torpaq işində işləməkdən belim büküldü. Türingiyada oldum. Alman torpağında ayaqlamadığım yer qalmadı. Oranın təbiəti cürbəcürdür, qardaş. Amma bizi hər yerdə bir qayda ilə döyürdülər, öldürürdülər. Özləri də, bu lənətə gəlmiş həşəratlar, bu məlunlar edə döyürdülər ki, bizdə heç heyvanı da elə döymürlər! Yumruqla da döyürdülər, rezin dəyənəklə də, əllərinə keçən hər cür dəmirlə də. Ayaqlarının altına salıb tapdalayırdılar... Hələ mən tüfəng qundağını, ağacı demirəm!

Ona görə döyürdülər ki, biz rusuq; ona görə döyürdülər ki, biz hələ sağıq, hələ dünya işığına baxa bilirik; ona görə döyürdülər ki, onlar üçün, o əclaflar üçün işləyirdik. Bir də ona görə döyürdülər ki, nə bilim, ay belə baxmadın, addımını elə atmadın, elə dönmədin... Bir də ki, kefləri istədiyi üçün döyürdülər; döyürdülər ki, səni silkələsinlər, sən öz qanında boğulasan, döyülə-döyülə gəbərəsən... Bizim hamımıza, yəqin ki, Almaniyadakı sobalar azlıq elərdi...

Hər yerdə də bir cür yemək verirdilər: yüz əlli qram çörək, bunun da yarısı ağac ovuntusu; bir qab da şalğam suyu. Bəzi yerdə qaynar su verirdilər, bəzi yerdə yox. Daha sənə nə deyim axı, bir

özün fikirləş: davadan qabaq səksən altı kiloqram idim, amma payızda əlli kilodan artıq gəlmirdim. Bir dəri, bir sümük qalmışdım, sümüklərimi də güclə çəkib aparırdım. Amma işləməyinə işlədirdilər, bircə kəlmə də söz deməyə ixtiyarın yox idi. Elə işlədirdilər ki, heç yük atı da buna tab gətirə bilməzdi!

Sentyabrın əvvəllərində bizi, yüz qırx sovet hərbi əsgərini, Kyustrin şəhəri ətrafındakı düşərgədən Drezdenin yaxınlığındakı B-14 düşərgəsinə apardılar. Həmin düşərgədə iki minə qədər bizim əsgərlərdən vardı. Hamısı da daş karxanalarında işləyirdi. Bütün işlər əl ilə görülürdü: daşı çıxardırdıq, kəsirdik, əzirdik. Gündə hər adam gərək dörd kubmetr daş verəydi. Onu da bilin ki, bu adamlar elə hala düşmüşdülər ki, burunlarından tutsaydın, canları çıxardı. Elə oldu ki, iki aydan sonra bura gələn yüz qırx adamdan əlli yeddisi qaldı. Fikir verirsən də, qardaş! Yamanca müsibətdi! Ölənləri basdırmağa macal tapmırdıq. O yandan da düşərgəyə səs yayılmışdı ki, almanlar Stalinqradı tutublar, Sibirə tərəf irəliləyirlər. Dərd dərd üstündən bizi çulğalayırdı, belimizi sındırırdı, gözümüzü yerdən ayıra bilmirdik, elə bil ki, biz də bu yad yerə, alman torpağının altına can atırdıq. Bir yandan da düşərgə keşikçiləri hər gün içirdilər, ucadan nəğmə oxuyurdular, sevinirdilər, şənlik edirdilər.

Bir gün işdən baraklara qayıtmışdıq. Bütün günü yağış yağmışdı, əynimizdəki cır-cındır islanıb suya dönmüşdü, əsən soyuq küləkdən it kimi tir-tir əsirdik, dişimiz-dişimizə dəyirdi. Paltarımızı qurutmağa yer yox idi, qızınmağa da elə. Acından ölürdük, bu, ölüm deyildi, bu, ölümdən də betərdi! Axşam bizə yemək də vermirdilər.

Mən yaş cır-cındırı əynimdən çıxartdım, taxtın üstünə atıb dedim: "Hər adam gərək gündə dörd kubmetr daş versin, amma bizim hər birimizin qəbrinə bir kubmetr daş lap bolluğuna çatar". Mən ancaq bunu dedim, heç demə bizim içimizdə özümüzkülərdən əclaf varmış, gedib mənim ürək yanğısı ilə dediyim bu sözləri düşərgənin komendantına xəbər verir.

Düşərgənin komendantı, onların dilincə lager-fürer, Müller adlı bir almandı. Orta boylu, möhkəm bədənli, özü də bütün ağdı: saçı da, qaşı da, kirpiyi də, hətta gözləri də ağımtıldı; dəmbərəngöz bir şeydi. Rusca elə danışırdı ki, sənlə mən danışan kimi, özü də "o" hərfini bərk deyirdi, elə bil ki, lap Volqa ətrafında böyümüşdü. Ana söyüşü söyməkdə də yamanca usta idi. Heç bilmək olmurdu ki, bu

məlun bu söyüşü hardan öyrənmişdi. Görərdin ki, bizi blokun qabağında sıraya düzdü (baraka onlar blok deyirlər), öz əsas dəstəsi ilə, köpək sürüsü kimi sıranın qabağından keçməyə başladı; sağ əlini də yuxarıda hazır tutardı. Bu əlinə meşin əlcək taxardı, əlcəyin də içinə qurğuşun parçası qoyardı ki, vuranda əli əzilməsin. Yeridikcə bir adamı ötürər, o birinin burnuna vurub "qan alardı", buna da "qripdən qoruma" deyərdi. Hər gün də bunu elərdi. Düşərgədə dörd blok vardı. Bu cür "qripdən qorumağı" bir gün bir blok üçün eləyirdi, o biri gün o biri blok üçün, üçüncü, dördüncü blokları da o biri günlər... Məlun yamanca səliqəli idi. İstirahət günləri də işləyirdi. Ancaq o axmaq bir şeyi anlaya bilmirdi: adamların burnundan qan "almamışdan" əvvəl, özünü acıqlandırmaq üçün, on dəqiqə sıranın qabağında durub bizi söyərdi: ana söyüşlərini nahaq yerə bizim üstümüzə yağdırardı, amma biz bundan yüngüllük duyardıq: axı bunlar bizim sözlərdi, bu sözləri eşidəndə elə bil ki, ana yurdundan balaca bir meh əsirdi... O Müller deyilən bilsəydi ki, onun söyüşü bizə ancaq ləzzət verir, bizi rus dilində söyməzdi, öz dilində söyərdi. Mənim bir moskvalı dostum vardı, ancaq onun Müllerə bərk acığı tuturdu. Deyirdi ki: "Müller bizi söyəndə gözlərimi yumuram, mənə elə gəlir ki, Moskvada, Zatsepdəyəm, pivəxanada oturub pivə içirəm: könlümə elə pivə düşür ki, lap başım gicəllənir".

Bəli, həmin bu komendant, daş barəsində ki söz demişdim, onun ertəsi günü məni öz yanına çağırtdırdı. Baraka axşam bir dilmanc, iki də keşikçi gəldi. Soruşdu ki: "Sokolov Andrey kimdir?" Dedim ki, mənəm. "Dalımızca gəl, sən herr lager-fürer özü tələb edir!" Məlum şeydir ki, niyə tələb edir: öldürməyə! Yoldaşlarımla vidalaşıb ayrıldım, hamı bilirdi ki, ölümə gedirəm. Ah çəkib yola düşdüm. Düşərgənin həyətindən gedirdim, ulduzlara baxırdım, onlarla da vidalaşırdım, fikirləşib öz-özümə deyirdim: "Budur, Andrey Sokolov, sənin əzablı günlərin qurtardı, yəni düşərgə dili ilə desək, üç yüz otuz birinci nömrə öldü". İrinkaya, uşaqlara yazığım gəldi. Sonra bu ürək sızıltısı keçib getdi. Özümü ələ aldım; ona görə ələ aldım ki, bir əsgər kimi tapançanın lüləsinə cəsarətlə baxım, düşmənlər görməsin ki, ömrümün son dəqiqəsində həyatdan ayrılmaq hər necə olsa mənim üçün çətindir...

Komendantın otağı, bizim yaxşı kənd klubu kimi, tərtəmizdi. Pəncərələrə gül dibçəkləri qoyulmuşdu. Düşərgənin bütün böyükləri stolun ətrafında oturmuşdu. Onlar beş nəfərdi; şnaps içir, üstündən də donuz piyi yeyirdilər. Stolun üstündə təzə açılmış yekə bir şnaps şüşəsi, çörək, donuz piyi, islanmış alma, ağzıaçıq cürbəcür konserv qutuları vardı. Mən bir anda bu yeməli şeyləri gözdən keçirtdim, desəm inanmazsan, – başım elə hərləndi ki, az qaldı qusam. Axı mən ac qurd kimi idim, insan yeyən yeməklərdən yadırğamışdım, amma burada, gözümün qabağında gör nə qədər yeməli şey vardı! Birtəhər özümü saxladım ki, qusmayım, amma gözümü süfrədən güclə ayırdım.

Müller düz mənim qabağımda oturmuşdu; bir az kefli idi, tapançanı bir əlindən o biri əlinə ata-ata oynadırdı, özü də düz mənə baxırdı, gözlərini də ilan kimi qırpmırdı. Mən, əlbəttə, hərbi qayda ilə əllərimi yanıma salıb, çəkmələrimin yeyilmiş dabanlarını şaqqıltı ilə bir-birinə vurub bərkdən dedim: "Herr komendant, hərbi əsir Andrey Sokolov sizin əmrinizə görə gəlmişdir!" O da mənə belə dedi: "Adə, rus İvan, demək dörd kubmetr daş hazırlamaq çoxdur?" Dedim: "Bəli, herr komendant, çoxdur". – "Bəs onda bir kubmetr sənin qəbrinə çatarmı?" "Bəli, herr komendant, çatar da, hələ artıq da qalar".

O, yerindən qalxıb dedi: "Mən sənə indi böyük bir yaxşılıq edəcəyəm: bu sözə görə bu saat səni özüm öz əlimlə güllələyəcəyəm. Ancaq burada yaxşı deyil, həyətə gedək, orada məsələni həll edərik". Dedim: "İxtiyar sizindir". O, bir az dayanıb fikirləşdi, sonra tapançanı stolun üstünə atdı, bir dolu stəkan şnaps tökdü, bir parça çörək götürüb üstünə bir tikə donuz piyi qoydu, bunları mənə verib dedi: "Russ İvan, ölməmişdən qabaq bu şnapsı alman silahının qalibiyyəti şərəfinə iç".

Mən şnaps dolu stəkanı da, üstünə donuz piyi qoyulmuş çörəyi də əlimə almışdım, ancaq bu sözləri eşidəndə elə bil ki, üstümə od tökdülər! Fikirləşib öz-özümə dedim: "Mən rus əsgəri alman silahının qalibiyyəti şərəfinə içim, – elə şey olar?! Herr komendant, sən daha ayrı şey istəmirsən ki? Mən onsuz da öləcəyəm, cəhənnəm ol sən öz arağınla!"

Stəkanı, çörəyi süfrəyə qoyub dedim: "Məni qonaq etdiyiniz üçün təşəkkür edirəm, ancaq içən deyiləm". O gülümsəyib dedi: "Bizim qalibiyyətimiz üçün içmək istəmirsən?" Dedim: "Öz ölümüm üçün, çəkdiyim əzabdan qurtarmağım üçün içərəm!" Bunu

deyib stəkanı götürdüm, arağı iki qurtuma içib, stəkanı yerə qoydum, çörəyə heç əl vurmadım, ağzımı ədəblə silib dedim: "Məni qonaq etdiyiniz üçün təşəkkür edirəm, herr komendant, mən hazıram, gedək məsələni həll edin".

O, diqqətlə mənə baxıb dedi: "Heç olmasa ölməmişdən qabaq şnapsın üstündən bir parça çörək ye". Mən ona belə cavab verdim: "Mən birinci stəkandan sonra çörək yemirəm". Stəkanı yenə də doldurub mənə verdi. Mən bunu da içdim. Çörəyə yenə də əl vurmadım, özümü qoçaqlığa vurub fikirləşdim: "Heç olmasa həyatə çıxmamışdan, ölməmişdən qabaq bir içim!" Komendant ağımtıl qaşlarını qalxızıb soruşdu: "Russ İvan, sən niyə çörək yemirsən? Utanma, ye!" Mən yenə də öz sözümün üstündə durdum: "Bağışlayın, herr komendant, mən ikinci stəkanın da üstündən çörək yeməyə vərdiş eləməmişəm". Komendant ovurdlarını şişirdib fınxırdı, qəhqəhə ilə güldü, gülə-gülə yoldaşlarına almanca nəsə dedi, görünür, mənim sözlərimi onlara tərcümə edirdi. Onlar da güldülər, stullarını tərpədib, sifətlərini mənə sarı döndərdilər, gördüm ki, deyəsən, indi bir az yumşalıblar.

Komendant stəkanı bir də doldurdu: onun əlləri gülməkdən əsirdi. Bu stəkanı da başıma çəkdim, ancaq iki qurtuma deyil, yavaş-yavaş içdim: çörəkdən bir tikə dişlədim, qalanını süfrəyə qoydum. İstədim o məlunlara göstərəm ki, mən acından ölsəm də, onların sədəqəsinə göz dikmirəm, məndə rus ləyaqəti, rus qüruru var, onlar nə qədər çalışsa da, məni heyvana döndərə bilmədilər!

Komendant üzdən ciddiləşdi, döşündəki iki dəmir xaçı düzəltdi, stolun dalından silahsız çıxıb dedi: "Sokolov, sən xalis rus əsgərisən. Sən qoçaq əsgərsən. Mən də əsgərəm, mən ləyaqətli düşmənə hörmət edirəm. Mən səni öldürməyəcəyəm. Bir də ki, bu gün bizim şanlı qoşunlarımız Volqanın sahilinə çatmışdır. Stalinqradı tamam tutmuşlar. Bu bizim üçün böyük sevincdir, buna görə də mən böyük bir alicənablıqla sənin ömrünü sənə bağışlayıram. Öz blokuna get. Bunu da göstərdiyin cəsarət üçün sənə verirəm". Süfrədən bir kömbə çörək, bir parça da donuz piyi götürüb verdi.

Çörəyi var gücümlə özümə çıxdım, piyi sol əlimdə tutdum, işin belə qurtaracağını heç gözləmirdim, özümü elə itirmişdim ki, heç sağ ol da demədim, nizamla dönüb, qapıya sarı getdik. Gedə-gedə fikirləşirdim: "İndi o mənim kürəyimi odlayacaq, bu şeyləri uşaqlara

yetirə bilməyəcəyəm". Yox, zaval ötmüşdü. Bu dəfə də ölüm mənim yanımdan keçib getdi, onun ancaq soyuq nəfəsi mənə toxundu...

Komendantın otağından çıxanda ayaq üstə möhkəm dururdum, amma həyətdə işim xarablaşdı. Özümü birtəhər baraka salıb, sement döşəməyə yıxıldım; huşumu itirdim. Hələ səhər açılmamışdı, yoldaşlarım məni ayıldıb soruşdular: "Danış görək nə olmuşdu?" Komendant otağında olan əhvalatı yadıma salıb onlara danışdım. Taxtada, mənim yanımda yatan yoldaşım soruşdu: "Bu yeməyi necə bölüşdürəcəyik?" Bunu soruşanda onun səsi əsirdi. Dedim: "Hamıya bir təndə!" Səhər açılana kimi gözlədik. Səhər açılanda çörəyi, piyi bərk sapla kəsdik. Hərəyə kibrit qutusu boyda çörək düşdü, çörəyin hər qırıntısını hesaba alırdıq, piy də, özün başa düşürsən, elə oldu ki, hərə öz payına düşənlə ancaq dodağını yağlaya bilərdi. Amma elə bölüşdürdük ki, heç kəs inciмədi.

Çox keçmədi, əsirlərdən üç yüz nəfər ən sağlam olanlarını bataqlıq qurutmağa göndərdilər, oradan da Rur vilayətində kömür mədənlərində işləməyə apardılar. Mən qırx dördüncü ilə kimi orada qaldım. Bu zaman bizimkilər Almaniyanın əngini əzmişdilər, faşistlər indi əsirlərə ayrı cür baxırdılar. Bir gün gündüz işləyən əsirlərin hamısını sıraya düzdülər, bir nəfər ober-leytenant gəlmişdi, o, dilmancla bizə belə dedi: "Kim ki, orduda, ya da davadan qabaq şofer olub bir addım qabağa çıxsın". Yeddi nəfər qabağa çıxdı. Bizə köhnə şofer paltarı verdilər, özümüzü də keşikçi dəstəsi ilə Potsdam şəhərinə apardılar. Orada bizim hamımızı bir-birimizdən ayırdılar. Məni "Todt"da işləməyə göndərdilər: almanların yol çəkmək və müdafiə istehkamı qurmaq üçün bir üzdəniraq idarəsi vardı, ona "Todt" deyirdilər.

Mən "oppel-admiral" maşınında, mayor rütbəsində olan bir mühəndisi gəzdirirdim. Pah, bu yamanca kök faşistdi! Boy balaca, qarın yekə, eni-uzunu bir boyda; daldan enli – iri sağrılı arvad kimi! Qabaq tərəfdən, mundirinin yaxasından, bir-birinin üstündən üç yekə lət buxaq sallanmışdı, dal tərəfdən də, boynunun ardında bir-birinin üstə üç qalın qırışıq vardı. Mənə elə gəlirdi ki, onun bədənində üç pud xalis piy var. Yeriyəndə parovoz kimi fıs-fıs fısıldayırdı, yeməyə oturanda o qədər yeyirdi ki, adam lap məəttəl qalırdı! Bütün günü gövşəyirdi, matradan konyak içirdi. Onun yediyindən mənə də hərdən bir şey düşürdü: bir də görürdün yolda

maşını saxlatdırdı, kolbasa, pendir kəsib yeməyə başladı, yedikcə də konyak içirdi, kefi gələndə mənim də qabağıma bir parça şey atırdı, – it qabağına atan kimi! Bu şeyləri heç vaxt əlimə verməzdi, bunu özü üçün əskiklik hesab elərdi. Hər necə olsa, mənim indiki halımı düşərgədəki halımla heç tutuşdurmaq olmazdı. Buna görə də yavaş-yavaş adama oxşamağa, az da olsa əmələ gəlməyə başladım.

Mən bu mayoru iki həftə Potsdamdan Berlinə, Berlindən Potsdama apardım. Sonra onu cəbhə boyunda müdafiə istehkamları qurmağa göndərdilər. Burada yuxum da tamam qaçdı: gecələr sabaha kimi fikirləşirdim ki, vətənə necə qaçım...

Biz Polotsk şəhərinə gəldik. Dan yeri ağarırdı; mən bu iki ildə bizim topların gurultusunu birinci dəfə eşitdim. Bunu eşidəndə, bilirsən, qardaş, ürəyim necə çırpındı! Hələ subay olanda, İrina ilə görüşə gedəndə də ürəyim belə çırpınmamışdı! Vuruşma Polotskinin şərq tərəfində, şəhərin on səkkiz kilometrliyində gedirdi. Almanlar şəhərdə yaman acıqlı, əsəbi olmuşdular. Mənim gəzdirdiyim kök mayor da tez-tez içməyə başlamışdı. Gündüzlər mən onu maşında şəhərin kənarına aparırdım. O, istehkam qurmaq üçün sərəncam verirdi, gecə isə təkbaşına oturub içirdi. O, başdan-ayağa şişmişdi, gözlərinin altı torbalaşmışdı...

Fikirləşib öz-özümə dedim: "Daha gözləmək olmaz! Mənim vaxtım gəlib çatıb! Özü də gərək tək qaçmayam, bu kök mayoru da özümlə aparam, orada bizimkilərə lazım olar!"

Xarabalıqdan iki kiloqramlıq bir çəki daşı tapdım. Onu silgi cırcındırına büküdüm ki, mayoru vurmalı olsam, qan çıxmasın. Yolda bir qırıq telefon məftili gördüm, onu da götürdüm. Nə lazımsa hamısını diqqətlə hazırladım, qabaq oturacağın altında gizlətdim. Almanlarla vidalaşmağa iki gün qalmışdı. Axşamdı. Benzin götürüb qayıdırdım, gördüm ki, bir alman zabiti divardan yapışa-yapışa gəlir, bərk keflidir, üst-başı da tamam toz-torpağa batıb. Maşını saxladım, onu uçmuş evlərin içinə çəkdim, mundirini dartıb əynindən çıxartdım, pilotkasını başından götürdüm, bunları da gətirib oturacağın altına qoydum.

İyunun iyirmi doqquzunda mayor əmr etdi ki, onu şəhərin qırağına, Trosnitsa tərəfə aparım. Orada qurulan istehkamlara o başçılıq edirdi. Yola düşdük. Mayor dal tərəfdə oturub sakitcə mürgüləyirdi, mənim də ürəyim elə döyünürdü ki, az qalırdı ağzımdan çıxsın.

Maşını bərk sürürdüm, şəhərin kənarına çatanda sürəti azaltdım; sonra maşını saxladım. Düşüb ətrafa baxdım: uzaqdan, arxa tərəfdən iki yük maşını gəlirdi. Çəki daşını çıxartdım, maşının qapısını açdım. Kök mayor özünü oturacağın arxasına verib xoruldayırdı, elə bil ki, arvadının yanında yatırdı. Çəki daşını onun sol gicgahına vurdum; başı sallandı; daşı bir də gicgahına vurdum, mayorun özündən getdiyini yəqin bilmək istəyirdim, öldürmək istəmirdim, onu diri aparmaq fikrində idim, bizim adamlara o, gərək çox şeylər danışaydı... "Parabellumunu qoburundan çıxarıb cibimə qoydum: mantirovkanı dal oturacağın arxasına vurdum, telefon məftilini mayorun boynuna keçirdim, o biri ucunu aparıb mantirovkaya bağladım. Bunu ona görə elədim ki, maşını bərk sürəndə mayor böyrü üstə yıxılmasın. Alman mundirini tez əynimə geydim, pilotkanı başıma qoydum, maşını birbaş o yerə sürdüm ki, orada yer uğuldayırdı, vuruşma gedirdi...

Almanların qabaq xəttini – iki üstüörtülü səngər arasından keçdim. Blindajdan bir neçə avtomatçı çıxdı, mən qəsdən sürəti azaltdım ki, mayoru görsünlər. Onlar hay-küy qaldırdılar, əllərini yellədilər, demək istəyirdilər ki, o yana getmək olmaz, mən də guya onların nə demək istədiyini başa düşmürdüm. Maşını sürətlə sürdüm: saatda səksən kilometr! Onlar duyuq düşüb maşını pulemyota tutanda mən özümü ara zonaya yetirmişdim, top güllələrinin, bombaların açdığı çuxurlar arasında maşını o yan-bu yana bura-bura elə qaçırdım ki, heç dovşan da belə qaça bilməzdi.

Almanlar dal tərəfdən maşını gülləyə basmışdı, bizimkilər də qabaq tərəfdən zəhləmi tökürdü: avtomatdan güllə açırdılar. Maşının qabaq şüşəsini dörd yerdən deşdilər, radiatora bir neçə güllə dəydi... Bir təhər özümü göl qırağındakı kiçik meşəyə yetirdim. Bizimkilər maşına sarı yüyürdülər: mən cəld maşından çıxıb özümü meşəyə atdım, yerə yıxılıb torpağı öpməyə başladım; nəfəsim tutulurdu...

Hamıdan tez cavan bir oğlan yüyürüb gəldi, onun gimnastyorkasında xaki rəngli poqon vardı, – mən indiyə kimi belə şey görməmişdim. O, dişini qıcayıb dedi: "Hə, məlun fris, yol azmısan?" Mən o saat əynimdəki alman mundirini çıxartdım, pilotkanı ayağımın altına atıb dedim: "Ay səfeh, ay mənim əzizim! Oğul, başına dönüm! Mən fris hardan oldum, mən xalis voronejliyəm. Əsir düşmüşdüm, bildinmi? Siz o qabanı oradan açın – o maşında oturanı;

onun portfelini götürün, məni komandirinizin yanına aparın". Tapançamı onlara verdim. Onlar məni aparıb bir-birinə təhvil verdilər. Axşamüstü polkovnikin yanına çatdım. O, diviziya komandiri idi. Diviziya komandirinin yanına çatana kimi məni yaxşıca yedirtdilər, hamama apardılar, sorğu-sual edib danışdırdılar, mənə pal-paltar verdilər, belə ki, blindaja, polkovnikin yanına lap qayda ilə gəldim; həm bədəncə, həm ruhca tər-təmiz, özü də hərbi geyimdə! Polkovnik stolun dalından durub mənim qabağıma gəldi. Bütün zabitlərin yanında məni qucaqlayıb dedi: "Sağ ol, əsgər, almanlardan gətirdiyin bu qiymətli hədiyyə üçün sağ ol! Sənin o portfelli mayorun, tutulub gətirilən iyirmi "dildən" də qiymətlidir! Komandanlıqdan xahiş edəcəyəm, səni dövlət mükafatına təqdim etsinlər". Onun bu sözündən, mənə göstərdiyi bu hörmətdən yaman həyəcanlandım, dodaqlarım əsdi, ancaq bu sözləri deyə bildim: "Yoldaş polkovnik, xahiş edirəm, məni atıcı hissəyə göndərəsiniz!"

Polkovnik güldü, əlini çiynimə vurub dedi: "Sən güclə ayaq üstə durursan, səndən nə döyüşçü. Elə bu gün səni hərbi xəstəxanaya göndərərəm. Orada səni müalicə edərlər, yaxşı yedirdərlər, əmələ gələrsən, sonra da bir aylığa evinizə, məzuniyyətə gedərsən, geri qayıdanda, baxarıq, görək səni hansı hissəyə göndərmək olar".

Polkovnik də, onun yanında olan zabitlər də lap ürəkdən əlimi sıxdılar, mənimlə vidalaşdılar. Bilindajdan çıxanda böyük həyəcan içində idim, çünki bu iki ildə mənimlə bir insan kimi rəftar edilməmişdi, mən bundan yadırğamışdım. Qardaş, onu da deyim ki, hələ uzun zaman məndə bir şey adət olub qaldı: rəislərlə danışanda istər-istəməz boynumu qısırdım, elə bil qorxurdum ki, məni vuracaqlar. Bax, faşist düşərgələrində bizi bu kökə salmışdılar!..

Xəstəxanaya gedən kimi İrinaya kağız göndərdim. Başıma gələn əhvalatı, əsir düşdüyümü, əsirlikdən qaçdığımı, özümlə bir alman mayoru gətirdiyimi qısaca yazdım. Özümü saxlaya bilməyib, bunu da yazdım ki, polkovnik məni mükafata təqdim etməyə söz vermişdir, ancaq heç bilmirəm bu uşaqcasına lovğalıq haradan mənim ağlıma gəlmişdi...

İki həftə yeyib yatdım. Mənə az-az, amma tez-tez yemək verirdilər, həkim deyirdi ki, birdən çoxlu yemək verilsə, səni xarab elər. Yavaş-yavaş lap əmələ gəldim. Amma iki həftədən sonra heç bir şey yeyə bilmədim, – evdən cavab gəlmirdi, mən də, boynuma alıram, yaman darıxırdım. Yemək heç yadıma düşmürdü, gözümə yuxu getmirdi, fikrimə pis-pis şeylər gəlirdi... Üçüncü həftədə Voronejdən bir kağız aldım. Kağızı İrina deyil, qonşumuz dülgər İvan Timofeyeviç yazırdı. Heç kəsə rəva görmürəm ki, belə bir məktub alsın! İvan Timofeyeviç yazırdı ki, qırx ikinci ilin iyun ayında almanlar təyyarə zavodunu bombaladılar, onda ağır bombalardan biri düz sizin evinizin üstünə düşdü. Bu zaman İrina qızları ilə evdə imiş. Yazırdı ki, onların heç izini də tapmadıq, evin yerində dərin bir çuxur əmələ gəlmişdi... Kağızı axıra kimi oxuya bilmədim: gözlərim qaraldı, ürəyim yumaq kimi sıxıldı. Çarpayıda uzandım; bir azdan sonra kağızı axıra kimi oxudum. Qonşumuz yazırdı ki, almanlar oranı bombalayanda oğlun Anatoli şəhərdə idi. Axşam qəsəbəyə qayıtdı, gedib evlərinin yerində əmələ gələn çuxura baxdı, yenə də şəhərə getdi. Qonşusuna deyibmiş ki, gedib xahiş edəcəyəm, məni könüllü cəbhəyə göndərsinlər. Məktub bununla qurtarırdı.

Ürəyim sakit olanda, qulaqlarımda qanın uğultusunu duyanda İrina ilə vağzalda ayrılmağım yadıma düşdü: o məndən nə çətinliklə ayrılmışdı! Deməli, hələ onda İrinanın ürəyinə damıbmış ki, biz bir daha bu dünyada görüşməyəcəyik... Onda mən İrinanı itələdim... Mənim ailəm vardı, evim vardı; bunu mən illərlə qurub düzəltmişdim; bir anda bunlar hamısı məhv olub getdi, mən tək qaldım, fikirləşib öz-özümə dedim: Bəlkə mənim bu məşəqqətli həyatım bir yuxu imiş! Axı əsir olanda mən çox vaxt gecələr xəyalımda İrina ilə, uşaqlarla danışırdım, onlara ürək verirdim, deyirdim ki, İrina, mənim balalarım, dərd çəkməyin, mənim canım bərkdir, hər şeyə dözəcəyəm, yenə də qayıdacağam, biz yenə də bir yerdə yaşayacağıq... Deməli, mən iki il ölülərlə danışırmışam!..

Sokolov bir az susdu, sonra astadan, qırıq-qırıq dedi:

– Qardaş, elə bil ki, boğuluram, gəl bir papiros çəkək...

Papiros çəkdik. Su basmış meşədə ağacdələn ağacı dimdiyi ilə bərkdən tıqqıldadırdı. Yenə əvvəlki kimi isti külək qızılağac sırğacıqlarını ağır-ağır tərpədirdi; yenə əvvəlki kimi ağ buludlar göyün mavi dərinliklərində ağ yelkənli qayıq kimi üzürdü. Lakin bu kədərli sükut anlarında bu ucsuz-bucaqsız dünya mənə başqa cür göründü – o dünya ki, öz baharı ilə böyük bir dəyişikliyə, canlıların həyatda həmişəlik bərqərar olmasına hazırlaşırdı...

Susmaq mənə əzab verirdi; soruşdum ki:

– Sonra nə oldu?

O, könülsüz halda dedi:

– Sonra? Sonra polkovnik mənə bir aylıq məzuniyyət verdi. Bir həftədən sonra özümü Voronejə yetirdim. Vaxtilə ailəm yaşadığı yerə piyada getdim. Orada nə gördüm: çirkli su ilə dolmuş dərin bir çuxur, çuxurun da ətrafında qurşağa kimi alaqotu... Boş, kimsəsiz bir yer, qəbir sükutu... Ah, qardaş, bilirsən onda mən nə əzab çəkdim!.. Xeyli dayanıb durdum, ürəyim od tutub yandı, sonra yenə də vağzala getdim. Orada bircə saat da qala bilmədim: elə o gün diviziyaya qayıtdım.

Üç aydan sonra mənim də ürəyim açıldı, elə bil ki, bulud altından gün çıxdı. Anatolidən xəbər gəldi. Mənə məktub yazmışdı: görünür, məktubu başqa bir cəbhədən göndərmişdi. Ünvanımı qonşumuz İvan Timofeyeviçdən öyrənibmiş. Heç demə, əvvəl o, topçuluq məktəbində oxuyubmuş, riyaziyyata olan qabiliyyəti orada lazım olmuşdu. Məktəbi bir ildən sonra müvəffəqiyyətlə qurtarmış, cəbhəyə getmişdi. Yazırdı ki, "mənə kapitan rütbəsi vermişlər, "qırxbeşlər" deyilən batareyaya komandirlik edirəm, altı dənə ordenim, medalım var". Sözün qısası, atasını hər barədə vurub ötmüşdü! Yenə də mən onunla yaman lovğalandım! Hər necə olsa, o mənim oğlumdu, özü də kapitandı, batareya komandiri idi, bu sənə zarafat gəlməsin! Gör nə qədər ordeni vardı! Amma onun atası "Studebeker"də top gülləsi, başqa hərbi şeylər daşıyırdı. Bunun eyibi yoxdur: mən öz dövranımı sürmüşəm, amma onun həyatı hələ qabaqda idi.

Bu məktubu alandan sonra, gecələr, qoca adam kimi, xəyala dalardım, öz-özümə deyərdim: elə ki, dava qurtardı, oğlumu evləndirəcəyəm, özüm də onların yanında yaşayacağam, dülgərlik eləyəcəyəm, həm də öz nəvələrimə baxacağam. Bəli, ağlıma belə-belə qoçaqlığa xas olan fikirlər gəlirdi. Ancaq burada da əlim boşa çıxdı. Qışda biz dayanmadan hücum edirdik, bir-birimizə tez-tez kağız yazmağa vaxt yox idi. Davanın qurtarmasına az qalmışdı. Berlinin lap yanında, səhər çağı Anatoliyə balaca bir məktub göndərdim, ertəsi gün məktuba cavab gəldi. Burada mən başa düşdüm ki, bizim hər ikimiz, ata-oğul, ayrı-ayrı yollarla alman paytaxtına yaxınlaşmışıq, özümüz də bir-birimizdən uzaqda deyilik. Onu böyük intizarla gözləyirdim, ürəyim dözmürdü, deyirdim, görəsən haçaq görüşəcəyik... Bu da mənə nəsib olmadı... Düz mayın doqquzunda, səhər çağı, Qələbə günü alman snayperi mənim Anatolimi vurub öldürdü...

Bundan bir gün sonra rota komandiri məni öz yanına çağırtdırdı. Onun yanında mənim tanımadığım bir topçu podpolkovniki də oturmuşdu. Otağa girdim. O, yerindən qalxdı, elə bil ki, rütbəcə mən ondan böyükdüm. Rota komandiri dedi: "Sokolov, səni görmək istəyirlər". Özü isə pəncərəyə sarı döndü. Bu zaman elə bil məni ildırım vurdu: pis bir xəbər eşidəcəyimi duymuşdum. Podpolkovnik mənə yaxınlaşıb yavaşca dedi: "Ata, özünü möhkəm tut. Sənin oğlun kapitan Sokolov bu gün batareyada həlak olmuşdur. Gedək!"

Mən səndələdim, amma özümü ayaqüstə saxlaya bildim. Hələ indi də podpolkovniklə bərabər yekə bir maşında getdiyimi, daş-torpaq tökülmüş küçələrdən keçdiyimi, sıraya düzülmüş soldatları, qırmızı məxmərə tutulmuş tabutu yuxu kimi xatırlayıram. Amma Anatolini, bax, səni görən kimi görürəm, qardaş. Tabuta yaxınlaşdım. Oğlum o tabutda idi: o həm mənim oğlumdu, həm də mənim deyildi. Mənim oğlum gülərüzlü, ensizkürəkli, nazikboyunlu, arıqlığından xirtdəyi çıxmış bir uşaqdı; amma tabutda yatan enlikürək, cavan, qəşəng bir kişi idi. Onun gözləri azca açıqdı, elə bil ki, o mənə yox, mənə məlum olmayan uzaq-uzaq üfüqlərə baxırdı. Yalnız mənim əvvəlki oğlumun, mənim tanıdığım Tolkanın kiçik bir təbəssümü dodaqlarının ucunda həmişəlik qalmışdı. Mən onu öpüb kənara çəkildim. Podpolkovnik nitq söylədi. Mənim Anatolimin yoldaşları, dostları göz yaşlarını silirdilər, amma mənim gözümdən yaş çıxmırdı, görünür, mənim göz yaşım ürəyimdə qurumuşdu... Bəlkə də ona görə ürəyim belə ağrıyır?..

Mən son fərəhimi, son ümidimi yad bir ölkədə – alman torpağında dəfn etdim. Oğlumun batareyası atəş açdı, o öz komandirini uzaq-uzaq yollara yola salırdı. Mənim də qəlbimdə elə bil ki, bir şey qırıldı... Böyük müsibət içində öz hissəmə qayıtdım. Çox keçmədi, məni ordudan buraxdılar. Fikirləşdim ki, hara gedim! Voronejəmi? Yox, dedim, ora getmərəm! Yadıma düşdü ki, Uryupinskdə bir dostum var, yaralandığına görə hələ qışda ordudan buraxılmışdı, bir zaman o məni öz yanına çağırırdı. Bu yadıma düşdü. Uryupinskə getdim.

Dostum arvadı ilə şəhərin kənarında yaşayırdı. Ev özününkü idi. Özləri də sonsuzdurlar. O, əlil olsa da, avtorotada şoferlik edirdi, mən də orada işə girdim. Onlar öz evlərində mənə yer verdilər. Biz rayonlara cürbəcür yük daşıyırdıq. Payızda taxıl daşımağa

başladıq. Bu zaman mən bu təzə oğlumla tanış oldum, – indi, odur, qumda oynayır.

Maşınla işdən şəhərə qayıdanda, məlum şeydir, ən əvvəl çayxanaya girirdim ki, bir şey yeyim, yorğunluğum çıxsın deyə yüz qram da içirdim. Bunu da deyim ki, mən bu zəhrimar arağa yamanca öyrəşmişdim... Bir gün çayxananın qabağında bu uşağı gördüm. Ertəsi gün yenə gördüm. Üstü-başı cır-cındır, xırdaca bir uşaq. Üzü tamam qarpız suyuna bulaşmışdı, üstündən də toz qonmuşdu. Yamanca çirkli idi. Saçı daranmamışdı, amma gözləri, gecə yağışından sonra çıxan ulduz kimi parıldayırdı! Qəribə şeydir, o mənim elə xoşuma gəldi ki, onsuz darıxmağa başladım, tələsirdim ki, işdən tez qayıdıb onu görüm. O, çayxananın qabağında dolanırdı, kim nə versə onu yeyirdi.

Dördüncü günü taxıl yüklənmiş maşını sovxozdan birbaş çayxananın qabağına sürdüm. Həmin uşaq artırmada oturub ayaqlarını yelləyirdi, aydın görünürdü ki, acdır. Başımı maşının pəncərəsindən çıxarıb onu çağırdım, dedim ki: "Adə, Vanyuşka! Tez ol maşına min, səni elevatora aparım, qayıdıb gələndə burada nahar elərik". O mənim səsimdən diksindi, tez artırmadan düşüb, bir təhər maşının pilləsinə qalxdı, sonra da yavaşca dedi: "Əmi, siz haradan bilirsiniz ki, mənim adım Vanyadır?" Özü də təəccüblə mənə baxırdı, gözləyirdi ki, görsün mən də deyəcəyəm. Dedim ki, mən dünya görmüş adamam, hər şeyi bilirəm.

O düşüb sağ tərəfdən maşına yaxınlaşdı; mən maşının qapısını açdım, onu öz yanımda oturtdum; yola düşdük. Çox diribaş uşaqdı. O birdən susdu, fikrə getdi. Ucları yuxarı qatlanmış kirpikləri altından arabir mənə baxıb ah çəkirdi. Özü körpəcə tifildi, amma ah çəkməyi öyrənmişdi. Onun nəsibi bumu olmalı idi? Soruşdum ki: "Vanya, sənin atan hardadır?" O pıçıldayıb dedi: "Cəbhədə ölüb". – "Bəs anan hanı?" – "Biz gələndə bomba düşdü, anam vaqonda öldü". – "Siz hardan gəlirdiniz?" – "Bilmirəm, yadımda deyil". – "Burada sənin heç bir qohum-əqrəban yoxdur?" – "Heç kəsim yoxdur". – "Gecə harda qalırsan?" – "Harda olsa".

Bunu eşidəndə ürəyim odlandı, gözlərim doldu, o saat belə bir qərara gəldim: – Yox, heç ola bilməz ki, biz ayrılıqda məhv olub gedək! Mən onu oğulluğa götürəcəyəm! Elə o saat ürəyimdə bir yüngüllük hiss etdim, elə bil könlümə işıq düşdü. Ona sarı əyilib yavaşca dedim:

"Vanyuşa, sən bilirsənmi mən kiməm?" O, yavaşca soruşdu: "Kimsiniz?" Mən yenə də yavaşca dedim: "Mən sənin atanam!"

Aman Allah, bu vaxt heç bilirsən nə oldu?! O, boynumu qucaqladı, üzümü, gözümü, dodağımı, alnımı öpməyə başladı, özü də ardıcquşu kimi, elə nazik səslə çığırdı ki, kabinədə ayrı heç bir səs eşitmək olmadı. Dedi ki: "Atacan, əzizim! Mən bilirdim! Mən bilirdim ki, sən məni tapacaqsan! Hər necə olsa tapacaqsan! Mən səni çox gözlədim, deyirdim, görəsən sən məni haçaq tapacaqsan!" O, mənə sıxılmışdı, bütün bədəni, küləkdə əsən xırdaca ot kimi titrəyirdi. Mənim də bütün bədənim titrəyirdi, əllərim əsirdi, gözlərimə elə bil duman çökmüşdü... Onda necə oldu ki, maşının sükanını əlimdən buraxdım, buna ancaq təəccüb etmək olar! Ancaq maşın su dolmuş xəndəyə girdi, onda motoru söndürdüm. Nə qədər ki, duman gözümdən çəkilməmişdi, maşını sürməyə qorxurdum, deyirdim, adam-zad basıb elərəm. Beş-altı dəqiqə dayanıb gözlədim, oğlum var gücü ilə mənə sıxılırdı, susurdu, titrəyirdi. Mən onu sağ əlimlə qucaqladım, yavaşca özümə sıxdım, sol əlimlə maşını işə salıb, geri döndüm, öz otağıma qayıtdım. Daha elevatora getmək nədi, onda heç elevator yadıma düşürdü?!

Maşını darvazanın qabağında saxladım, təzə oğlumu qucağıma alıb, evə sarı getdim. O, xırdaca əlləri ilə boynumu qucaqlamışdı, üzünü qırxılmamış üzümə bərk-bərk sıxmışdı, elə bil mənə yapışıb qalmışdı. Bu cür də mən onu evə apardım. Dostum da, arvadı da evdə idilər – bu lap yerinə düşdü. İçəri girən kimi gözümün ikisi ilə də göz vurub, gümrah səslə dedim: "Budur, mən öz Vanyuşkamı tapdım! Əziz dostlar, bizi qəbul edin!" Onların övladı olmurdu, o saat bildilər ki, mən nə demək istəyirəm, tez əl-ayağa düşdülər. Amma mən ha çalışırdım, oğlumu özümdən aralaya bilmirdim. Axırda birtəhər tovlayıb yola gətirdim. Əllərini sabunla yuyub, stolun yanında oturtdum. Dostumun arvadı boşqaba borş töküb onun qabağına qoydu. Oğlum, görünür, çox ac imiş: arvad onun xörəyi acgözlüklə yediyini görüb, özünü saxlaya bilmədi, gözündən yaş sel kimi axdı. Sobanın qabağında, döşlüyünü gözünə basıb ağlayırdı. Vanyuşka onun ağladığını görüb yanına yüyürdü, ətəyindən çəkə-çəkə soruşdu: "Xala, siz niyə ağlayırsınız? Atam məni çayxananın qabağında tapdı. Hamı gərək buna sevinsin, siz ağlayırsınız!" Arvad bunu eşidəndə daha bərkdən ağlamağa başladı; ağlamaqdan gözləri şişdi!

Nahardan sonra onu dəlləkxanaya apardım, saçını qırxdırdım, evdə özüm onu təknəyə qoyub yuyundurdum, təmiz bir döşəkağına büküdüm. O məni qucaqladı, elə qucağımda da yuxuya getdi. Onu üsulluca çarpayıya qoydum, gedib maşına mindim, birbaş elevatora sürdüm. Taxılı boşaltdım, maşını aparıb dayanacaqda qoydum, tez mağazalara dəydim. Oğluma balaca bir mahud şalvar, bir üst köynəyi, bir cüt səndəl, bir dənə də lif kartuz aldım. Evə aparanda məlum oldu ki, bunlar hamısı uşağa çox böyükdür, malı da çox pisdir. Aldığım şalvardan ötrü dostumun arvadı məni danladı da. Dedi ki: "Sənin ağlın çaşıb nədir? Belə istidə uşağa mahud şalvar geydirmək olar?" O saat tikiş maşınını stolun üstünə qoydu, sandığı axtardı. Bir saata kimi mənim Vanyuşkama xırdaca bir sətin tuman, bir də qısa qollu ağ köynək tikdi. Axşam mən onu öz yanıma salıb yatırtdım: bu uzun müddətdə birinci dəfə idi ki, mən rahat yata bilmişdim. Amma gecə dörd dəfə yuxudan oyandım. Ayılıb görürdüm ki, o, mənim qoltuğuma sıxılıb, – sərçə öz yuvasına sıxılan kimi; özü də yavaş-yavaş fıldayır. Elə sevinirdim ki, bunu söz ilə demək olmaz! Çalışırdım ki, tərpənməyim, onu yuxudan oyatmayım, ancaq yenə səbrim çatmırdı, astaca durub kibriti yandırırdım, ona fərəhlə baxırdım...

Səhərə yaxın yuxudan ayıldım, elə bil ki, nəfəsim tutulurdu. Gördüm ki, oğlum döşəkağının arasından çıxıb, əl-qolunu atıb çəpinə yatıbdır, ayağını da boğazıma dirəyib. Onunla bir yerdə yatanda narahat olurdum, ancaq buna adət eləmişdim, onsuz darıxırdım. Gecə yatanda gah baş-gözünü sığallayırdım, gah saçını qoxulayırdım, onda ürəyim sakit olurdu, yumşalırdı. Axı dərd əlindən ürəyim daşa dönmüşdü...

İlk günlər onu maşına qoyub özümlə aparırdım. Sonra gördüm ki, belə olmayacaq. Tək olanda mənim özümə nə lazımdı? Bir parça çörək, bir baş soğan, bir az da duz – bütün günü tox olurdum. Amma indi məsələ başqa cür olmuşdu: ona gah süd tapmaq, gah yumurta bişirmək lazımdı; bunlar olsa da yenə isti xörəksiz iş keçmirdi. Bunu da eləyəndə işim tökülüb qalırdı. Canımı dişimə tutub, onu ev yiyəsinin arvadının yanında qoydum, özüm maşına minib getdim. O, axşama kimi göz yaşı tökmüşdü, axşam da qaçıb elevatora gəlmişdi ki, məni görsün. Axşamdan xeyli keçənə kimi orada məni gözləmişdi.

Əvvəl vaxtlar onu saxlamaqda çox çətinlik çəkirdim. Bir gün bərk yorulmuşdum. Hava heç qaralmamışdı ki, yerimə girdim.

Oğlum həmişə sərçə kimi civildəyər, bir şey danışardı, amma indi susurdu. Soruşdum ki: "Oğul, nə fikirləşirsən?" O, tavana baxa-baxa məndən soruşdu: "Ata, sən meşin paltonu neylədin?" Mənim heç ömrümdə meşin paltom olmamışdı! İşin içindən çıxmaq üçün dedim: "Voronejdə qalıb". – "Bəs sən məni niyə bu qədər çox axtardın?" Dedi ki: "Oğul, mən səni Almaniyada da axtarmışam, Polşada da, bütün Belorusiyanı gəzib dolanmışam, gah piyada, gah maşında, heç demə sən Uryupinskdə imişsən..." – "Uryupinsk Almaniyaya yaxındır! Polşa bizim evimizdən çox uzaqdadır?" Ta yatana kimi biz belə söhbət edirdik.

Qardaş, sən elə bilirsən meşin paltonu o nahaq yerə soruşurdu? Xeyr, bunu heç də nahaq yerə soruşmurdu. Görünür, onun əsl atası bir vaxtlar meşin palto geyirmiş, bu da onun yadında qalmışdır. Uşaq yaddaşı yayda çaxan ildırım kimidir, bir anda parıldayır, hər yeri işıqlandırır, yenə də sönür. Onun da yaddaşı ildırım kimi çaxıb sönürdü.

Biz bəlkə bir il də Uryupinskdə yaşardıq, ancaq noyabr ayında başıma qəziyə gəldi. Bir gün maşını sürürdüm, yer palçıqdı, bir xutorun içindən keçəndə maşın baş alıb getdi, saxlaya bilmədim. Elə bu zaman haradansa bir inək çıxdı, maşın ona toxundu, inək yıxıldı. Elə o saat arvadlar hay-küy saldılar, camaat yığışdı, avtomobil müfəttişi də dərhal hazır oldu. Nə qədər yalvardım ki, mənə rəhmi gəlsin, olmadı, şoferlik vəsiqəmi alıb apardı. İnək yerindən qalxdı, quyruğunu belinə qoyub, küçə ilə qaça-qaça getdi, mən də şoferlik vəsiqəsindən məhrum oldum. Qışı dülgər işlədim. Mənim bir dostum var, orduda bir yerdə qulluq eləmişik. O sizin vilayətdə, Kaşar rayonunda şoferlik edir. Onunla məktublaşdım; o məni öz yanına çağırdı. Yazdı ki, beş-altı ay dülgər işlərsən, sonra bizim vilayətdə sənə təzə şoferlik vəsiqəsi verərlər. İndi mən də öz oğlumla səfərə çıxıb Kaşara gedirəm.

Bir də ki, bu qəziyə mənim başıma gəlməsəydi də, Uryupinskdən çıxıb gedəcəkdim. Qəm-qüssə məni uzun zaman bir yerdə yaşamağa qoymur. Elə ki Vanyuşka böyüdü, onu məktəbə qoydum – bəlkə ondan sonra sakitləşib, bir yerdə yaşaya bildim. İndisə hələlik oğlumla rus torpağını gəzib dolanıram.

Dedi ki:

– Yol getmək onun üçün çətin olar.

– O öz ayağı ilə çox az yeriyir, çiynimə alıb aparıram. Könlü gəzmək istəyəndə çiynimdən düşür, yolun qırağı ilə çəpiş kimi

tullana-tullana gedir. Qardaş, bunlar hamısı keçib gedərdi, biz birtəhər yaşardıq, ancaq ürəyim axır vaxtlar sözümə baxmır, qapaqlarını dəyişmək lazımdır. Hərdən elə sıxılır, elə ağrıyır ki, gözüm qaranlıq gətirir. Qorxuram ki, bir gün yuxuda öləm, oğlumu qorxudam. Bundan başqa bir müsibət də mənə üz verib: öz əziz arvadımı, uşaqlarımı çox vaxt yuxuda görürəm. Çox vaxt da belə görürəm: mən tikanlı məftil çəpər içindəyəm, onlar da çəpərin bayırında... İrina ilə, uşaqlarla söhbət eləyirəm; ancaq məftilləri əlimlə aralamaq istəyəndə, onlar çıxıb gedirlər, elə bil ki, yox olurlar... Bir şey də çox qəribədir: gündüzlər özümü çox möhkəm tuturam, bircə "ahvay" da eləmirəm, amma gecə yuxudan ayılanda görürəm, balış göz yaşından tamam islanıb...

Meşədən yoldaşımın və suya dəyən avarların səsi eşidildi.

İndi mənə yaxın olan buy ad adam yerindən qalxdı, ağac kimi bərk, iri əlini mənə sarı uzadaraq dedi:

- Sağlıqla qal, qardaş! Yaxşı yol!

– Sən də sağlıqla qal! Uğur olsun!

– Təşəkkür edirəm! Adə, oğul, gəl minək qayığa.

Uşaq atasına sarı yüyürdü, onun sağ tərəfinə keçib sırıqlısının ətəyindən tutdu, ayaqlarını xırda-xırda ataraq, iri addımlarla gedən atasının yanı ilə tez-tez yeriməyə başladı.

Budur, misli-bərabəri görünməmiş dəhşətli bir hərbi qasırğa ilə qürbət ellərə atılmış iki xırdaca qum zərrəsi, yetim qalmış iki insan!.. Qarşıda onları nə gözləyirdi? Adam düşünmək istəyir ki, bu rus, yenilməz iradəyə malik olan bu insan ağır vəziyyətdən çıxacaq, onun qanadı altında böyüyən bu uşaqdan elə bir insan yetişəcək ki, Vətən tələb edərsə, o hər şeyə dözəcək, qarşısına çıxan maneələri dəf edəcəkdir!

Mən ağır bir kədərlə onların ardınca baxırdım... Bəlkə də bizim bu ayrılığımız elə bununla da bitib gedəcəkdi, lakin belə olmadı: Vanyuşka, xırdaca ayaqları bir-birinə dolaşa-dolaşa, bir neçə addım getdikdən sonra, dayanmadan dönüb mənə baxdı, kiçicik, çəhrayı əlini yellədi. Birdən sanki yumşaq, lakin caynaqlı bir pəncə ürəyimi sıxdı, tez üzümü yana çevirdim. Bəli, yaşa dolmuş, müharibə illərində saçı ağarmış kişilər ancaq yuxuda ağlamırlar, onlar oyaq da olanda ağlayırlar. Burada əsas məsələ uşağın qəlbini yaralamamaqdır: o gərək sənin yanaqlarından axan bir neçə damla göz yaşını görməsin, kişilərin axıtdığı odlu göz yaşını...

VİKTOR PETROVİÇ ASTAFYEV

(1924-2001)

ƏSGƏR VƏ ANA

(hekayə)

Lələkdən yumşaq olan nədir?
Ana ürəyi.
Daşdan bərk olan nədir?
Ana ürəyi.

Qadın əlini vedrəyə salıb bir ovuc yulaf götürdü və dəni nazik şırımla barmaqları arasından sovurdu. Toyuqlar qar burulğanı kimi onun ətrafını aldılar. Onlar qanadlarını çırpır, qaqqıldaşır, hətta dimdikləşməyə də macal tapırdılar.

Mən onun təkcə əlini, bir də kürəyini görürdüm. Kürəyi azca donqar olduğundan xalatı qalxmışdı, hiss edirdin ki, ixtiyar bir qadındır. Əli elə bil qranitdən yonulmuşdu, özü də elə səylə yonulmuşdu ki, üzərindəki xırda və iri damarlar belə gözə çarpırdı. Təəccüblüdür ki, bu əllər necə də zərif hərəkətlər edə bilirdi.

Quşabaxan qadın qalan yulafı ovcuna boşaltdı, təcrübəli səpici kimi qolaylanıb dəni qabağına səpdi. Mən nə isə həyəcanlandım. Mən haradasa buna bənzər bir əl görmüşdüm.

Quşabaxan qadın qanun-qaydanın ziddinə olaraq örtdüyü güllü ləçəyini səliqəyə saldı və sərgiyə gələnlərə toyuqlar barədə danışmağa başladı. Toyuqlar isə taraqqa-turuqla dimdiklərini işə salmışdılar.

Quşabaxan sözünü bitirəndə soruşdum:

– Anacan siz hansı vilayətdənsiniz?

– Kaluqadanam. Olmuşsunuzmu orada?

– Olmuşam. O yerlərdə vuruşmuşam. Bəlkə də elə sizin kəndinizi almanlardan xilas etmişəm.

O, kəndin adını söylədi. Yox, mən bu kənddə olmamışdım. Ancaq buna oxşar, üzü dərin qırışlı, çuxura düşmüş göy gözləri olan

bir qadın xatırımda canlandı. Əgər həmin o qadına təsadüf etmək mənə qismət olsa idi, mən indi quşabaxan qadına dediyim eyni sözləri ona deyərdim.

– Deməli ki, olan-olub, ötüb-keçib, eləmi?

O mənim sualımı öz düşündüyü kimi yozdu:

– Əlbəttə, olan-olub, ötüb-keçib, sərgiyə də öz toyuqlarımla düşmüşəm, indi çörəyi də çox alırıq, – deyə yavaşca, məlahətli səslə cavab verdi.

Onun bu qısa cavabında o qədər təmkinlik, sakitlik hiss edirdin ki, istər-istəməz, daha dərin, başqa bir məna duyurdun. Sanki o bununla bildirmək istəyirdi ki, "başqa cürə ola da bilməz". Rus eli nə qədər müharibələr, nə qədər od-alov görmüşdür, ancaq o yenə xalqın zəhməti ilə mövcud olmuş və mövcuddur da!

Quşabaxan qadının başı yenə də öz işinə qarışdı. Mən isə dərinliklərində hələ də göy çiçək rəngi görünən, solğun gözlü qadına baxır, baxırdım. Özlüyümdə həmin o qadın haqqında fikirləşirdim, o qadın ki, müharibənin ağır, dəmir təkəri onun ürəyinin üstündən keçib getmişdi...

O zaman mən çox cavandım. Yadımdadır, sizə söyləmək istədiyim görüşdən bir az əvvəl üzümü ilk dəfə hərbi xəstəxananın dəlləyi qırxdı. Sonradan bildim ki, o məndən xoşu gəldiyi üçün üzümü qırxıbmış. O vaxtlar üzümdə tək-tək tük vardı. Ancaq, görünür, dəlləyin əli yüngül imiş. Dəllək qadın necə əfsunladısa üzümü sıx tük basdı, indi, əgər bircə həftə saqqalıma dəyməsəm öz doğma uşaqlarım məni tanımazlar.

Yadımdadır, hərbi xəstəxanadan çıxanda qarnı tox, üzüm qırxılmış, özüm də gümrah idim. Dalımda içərisi boş, balaca bir çanta, kəmərimdə də qumqumanın torbası ön cəbhəyə gedirdim, yol uzunu da hey gözləri qüssəli, güləyən dəllək qadını və hərbi xəstəxanadakı qayğısız həyatımı xatırlayırdım.

Qumqumanın torbasından bir azca cecə arağının qoxusu gəlirdi. Arabir, hərbiçi adam üçün şüşə qumqumanı icad edən adamın qarasına ağzıma gələni deyirdim. Axı məni "xoşlayan" qadın canı qızdıran cecə arağı almaq üçün axırıncı qəpiyini vermişdi, mən isə onun dadına baxmadan lənətə gəlmiş şüşəni vurub sındırmışdım. Bədbəxtlikdən hava da elə idi ki, xəstəxana şəraitinə alışmış və bir az da tənbəlləşmiş əsgəri ruhlandıran bir şey olmasa idi, o, üzülərdi.

Mənə elə gəlirdi ki, boz səma pilotkama dəyir. Yuxarıdan nə isə tökülür, qəm-qüssə yağırdı. Yağsa idi dərd yarı idi. Belə havada yad yollarda palçıq tapdalamaqdansa, gərək evdə oturub kitab oxuyasan, heç olmasa, səngərdə eşmə çəkəsən, vaxtı birtəhər öldürmək üçün, hər dəfə Allah bilir haralarda ilişib yubanmış starşinanı könlün istədiyi qədər söyəsən. Sonra da ki, fürsət (biz təsərrüfat rotasının arabasını və mətbəxini belə adlandırırdıq) düşən kimi bir qazança noxudlu ət yeyib xor-xor yatasan.

Eh, bizimkilər nə uzaq getmişlər!

Getdikcə gedirəm, ancaq hələ top-tüfəng səsi eşitmirəm, heç olmasa şoseyə çıxsaydım, maşın haylardım...

Çəkmələrimə palçıq yapışmışdı. Ayaqlarıma nəm keçmişdi. Çəkmələrim köhnə idi, çox işlənmişdi. Mənim elə hər şeyim köhnə idi. Özüm də köhnə idim, bu tutqun, küknar kükürdü kimi uzanan gün də...

Müharibədə boz-bulanıq gün adi həyatdakından daha çox olur. Görünür, elə bunun üçün də yağmurlu, sanki aşağı enmiş səma məni belə əzirdi.

Qəliz palçığın içərisində gəzən səngər dostlarım təsəvvürümdə canlandı. Kimi tüfəngli, kiminin çiynində "Peteer", kəmərində patrondaş, əzik-üzük qazança, kürək və başqa şeylər, pis havada həmişə olduğu kimi kəmərin altı da ki boş! Hey irəliləyirlər, heç bilmirlər ki, bu gün yemək, qurunmaq onlara müyəssər olacaqdımı, ya elə yaş-yaş yıxılıb yatacaqdılar, heç olmasa yatacaqdılarmı, havanın açılmasını görmək onlara qismət olacaqdımı? Əzizim, belə bir müharibədə piyada qoşunda olmaq və sağ qalmaq, çox çətin məsələ idi. Olduqca çətindi! Məni iki dəfə yaralamışdılar. Hərbi xəstəxanaya düşmüşdüm.

Üçüncü dəfə qurtaracaqdımmı? Üç – əsgər bunu nəhs rəqəm sayır. Almaniyaya hələ çox vardı, qələbə isə bundan da uzaqda idi. Burasını da deyim ki, mən doyunca döyüşmüşdüm, arxa cəbhədə olmağa necə deyərlər ixtiyarım vardı. Bunun üçün "Geriyə dön!" əmri kifayətdi. Rəhmətlik serjant Rüstəm belə komanda verməyi sevərdi. İş burasındadır ki, mən hərbi xidmətə yaramırdım. Yaxındakı köçürmə məntəqəsinə gedib sarğı kağızında yazılmış arayışı göstərsəydim, məni zavodlardan, ya yol quran hissələrdən birinə göndərəcəkdilər. Bəlkə lap doğma şəhərimizə də düşə bilərdim, orada zavod çoxdu...

Vallah bu dünya çox qəribə qurulub! O dəfə hərbi xəstəxanadan çıxanda hər şey öz qaydasında idi. Paltarlarım, çəkmələrim təptəzə idi. Hətta qayışım belə, at tapqırı kimi iplikdən də olsa, hər halda təzə idi. Amma bir qəddar, zalım oğlu güllə açıb yumşaq ətimi yaralamaqdansa, sümüyümü sındırdı, məni hərbi sıradan çıxardı, indi də gedib ya kərpic ya da sabun bişirməliyəm. Madam ki, ikinci dərəcəli döyüşçüyəm, demək tumanımdan tutmuş pilotkama kimi, hamısı "köhnə" olacaq, hətta əlimə verilmiş arayışı da elə kağızda yazıblar ki, müharibədən əvvəl mağazada buna siyənək balığını sarımağa utanardılar. Qumquma da şüşədəndir, azuqə də bircə günlükdür. Köçürmə məntəqəsinə çatana kimi bəsdir, tənəkə qumquma da lazım deyildir...

Belə fikirlərdən əsəblərim gərilmişdi, özüm də necə yerimişdimsə tamam palçığa batmışdım. Hirsimdən hərbi xəstəxana rəisinin dalınca o ki var dedim, söz yox ki, sonra da keçdim Hitlerə, onu görüm ölüsünə tabut tapılmasın.

Uzaqda işıq göründü, o an da söndü. Mən birdən ayıldım və bilaixtiyar ətrafa göz gəzdirdim. Ancaq bir ins-cins yoxdu, işıq da daha görünmürdü. Lap ürəyim sıxıldı, narahat oldum. Gözlərimi qarşıya zillədim, işıq bir də görünsə idi, sevincimdən çığırmağa hazırdım. Axı işıq olan yerdə adam da var. Adam arasında olsam bu üzücü fikirlər də məndən əl çəkər, mütləq əl çəkər, bu ürəyi yandıran kin-küdurət! Tez, lap tez özümü insanların yanına salmalı idim. Addımlarımı yeyinlətdim, lap qaçırdım. Sakit kəndin kənarına çatanda, sinədolusu nəfəs aldım, alnımın tərini sildim. Görəsən nə səbəbə mən belə özümdən çıxmışdım? Yorulmuşdum, yəqin müharibə məni yormuşdu, hamı müharibədən yorulmuşdu. Çox ağır şeydir – Müharibə!

Müharibə bu kəndin kənarından keçmişdi. Bəzi evlər uçmuş, bəzisi yanıb külə dönmüşdü. Ağacların çoxusu sınmışdı, bostanlarda top güllləsindən xəndəklər, səngərlər açılmışdı. Ancaq bəzi daxmalarda pəncərə taxtalarının və giş pərdələrin arasından süzülən işıq zolağından məlumdu ki, adam yaşayır. Onlar pəncərə taxtalarını bağlamaq adətini hələ də yadırğamamışdılar, işığı da tez yandırırdılar. Deyəsən uzaqdan gözümə işıq dəyəndə kimsə giş pərdəsini qaldırmışdı.

Kəndin lap kənarında sıx fındıq ağaclarının və üç əyri armud ağacının arxasından bir daxma görünürdü. Zaman onu torpağa yastılatmış, damını yosun basmışdı. Payalardan düzəldilmiş həyət qapısına əl dəyən kimi yıxıldı, demə qapının həncaməsi yoxmuş. Mən qapını əvvəlki yerinə qoyana kimi daxmadan bir qadın çıxdı və artırmada dayandı:

– Nə istəyirsiniz? – deyə o sərt səslə, ehtiyatla soruşdu və çuxura düşmüş gözlərilə məni başdan-ayağa süzdü.

Yəqin ki, mənim dar şinelim, kirli sarğılarım və qumqumamın torbası ev sahibinə şübhəli görünmüşdü.

– Hərbi xəstəxanadan çıxmışam... Yatmaq üçün bir gecəliyə yer istəyirəm...

Qadın kal səslə:

– Yatmaq üçün yerim yoxdur! – dedi və gözlərini döndərdi, – mənim evim elə yer deyil.

– Mən sizi narahat etmərəm, – deyə, əsgərlik təcrübəmə əsasən inad edib, əl çəkmədim.

– Bax o başa get, oradakı daxma daha təmizdir.

– Xalacan, ayaqlarım getmir!

– Gedər, hələ cavansan.

– Yaralı əsgəri qovursunuz, eh, ay xala!..

Bu sözlər arvada təsir etdi.

– Deyirsən də... – O, yana çəkilib mənə yol verdi. Mən dəhlizə keçdim, kandardakı köhnə sırıqlı şalvara ayaqlarımı silib adətə görə dedim:

– Salaməleyküm, xeyirxah insanlar!

Cavab çıxmadı. Çox qəribə idi. Adətən cəbhəyə yaxın olan kəndlərdə ev çatışmırdı, buna görə də hər daxmada iki, ya üç ailə yaşayırdı. Mən neçə-neçə əsgər yola salmış şinelimi çıxartdım və ikonasız mehrabın altındakı skamyada oturdum. Mehrabda ikonaların yerində dördbucaq ləkələr qalmışdı.

Ev sahibi içəri girdi.

– Kənddə çox adam qalıb?

– Çox. Altıya kimi daxma salamatdır. Bunlar da ağzına kimi doludur.

– Bəs sizinki niyə boşdur?

– Mənimki belədir, – deyə o, hirslə sözümü kəsdi və kartof soymağa başladı. Onun kartof soymasından asanlıqla bilmək olurdu ki, bu qadın insan qiymətini biləndir və qənaət etməyi bacarır. Kartof qabığı bıçağın altından bir şərid kimi çıxırdı. Adama elə gəlirdi ki,

nə kartof, nə də bıçaq hərəkət etmir. Əlləri o qədər cəld işləyirdi ki, yalnız güclə qulağa çatan xışıltı eşidilirdi.

Biz ailədə doqquz dəcəl idik, anam kartofun qabığını beləcə cəld, ancaq bundan da nazik soyardı.

Ana!.. Anam!.. gözlərimi yumdum. Budur, o qarşımda durub – dar sinəli, qarnı zədəli, iri, həmişə işlə məşğul, həmişə qayğılı. Görən bizsiz günü necə keçir? Mən evdən gedən beşinci övladı idim. Qızlar isə çoxdan ər evinə köçmüşdülər. Beş nəfərdən üçünün ölüm kağızı gəlmişdi. Bu kağızlar çörək kartoçkaları ilə bir yerdə anamın yastığı altına qoyulmuşdu. İndi bəlkə dördüncüsü də oradadır. Müharibədə hər gün adam qırılır. Bəlkə beşincisi də, yəni mənimki də yastığın altına düşəcək. Ona onsuz da cod görünən yastığı lap dəmirdən sərt olacaq və anamın yanaqlarını ağcaqayın közü kimi yandıracaq.

Ev sahibəsi kartofu çuqun qazana elə tökdü ki, səsinə mən fikrimdən ayıldım, təndəki kisəsi üçün cibimə əl atdım.

Maxorkanın tünd iyi daxmaya yayılanda qadın birdən burnunu çəkdi və onun dərisi çatlamış, damarlı əlləri bir an hərəkətsiz qaldı. Bu əllər mənə yenə anamı xatırlatdı. Buna görə də danışmağa başladım:

– Deməli sizin yaxın qohum-əqrəbanız da yoxdur? – Özlüyümdə isə fikirləşirdim ki, xəbərsiz-ətərsiz, birdən-birə, özü də sapsağlam qayıtsam evdəkilər necə sevinərlər.

– Bilirsən nə var: gecələməyə gəlmisən, yıxıl yat! – Ev sahibi dedi və vedrəni götürüb tez çölə çıxdı.

Mən onu nəzərlərimlə ötürdüm və pəncərəyə sarı baxdım. Bir qoca qarı o yandan ev sahibinə tərəf gəlirdi, dayanıb əlini gözlərinin üstə tutdu, sonra da gözlənilmədən tüpürüb o biri səkiyə keçdi.

Burada nə isə vardı!

Mən şəkləndim, otağı bir də diqqətlə nəzərdən keçirdim.

Baxımsızlıq hiss olunurdu, hər yeri toz basmışdı, hər şey çürümüş, sınıb dağılmışdı. Ətrafdakı şeylərlə uyuşmayan nikelli çarpayının üstündən iki şəkil asılmışdı. Biri gümrah bir kişi, o biri isə qadın şəkli idi – mən ev sahibəsini çox çətinliklə tanıdım. Onlar bir-birilərindən aralı asılmışdılar, ağardılmış divarda, ortada ləkə görünürdü. Yəqin bu yerdə vaxtilə üçüncü portret varmış.

Ev sahibəsi su gətirdi. Mən diqqətlə onu nəzərdən keçirdim. Üzdən ona əllidən az vermək olardı. Enlikürək, ucaboy, arıq bir

arvaddı. Yuyulmaqdan bozarmış, üstündəki gülləri güclə seçilən yaylığını qaşlarına kimi çəkmişdi. Elə bil o nəsə itirmişdi və çalışırdı, yadına salsın ki, harada, nə vaxt itirmişdir.

Arvad baltanı götürüb çölə çıxdı. Mən dəhlizdə ona yetdim.

– Anacan, bircə dəqiqə! Verin, əl-qolumu açım...

– Sən nə istəyirsən axı? Yatmağa gəlmisən, yat da...

– Verin, verin, anacan! Əsgər gərək vətəndaşlarına kömək edə.

– Nə zəhlətökən adamsan...

O, axır ki, baltanı verdi, özü də daxmaya qayıtdı.

Malalanmış anbarın divarları güllədən, qəlpədən dəlik-deşik olmuşdu. Burada bir neçə qurumuş alma ağacı və top güllesindən sınmış gilənar ağacı vardı. Canlı aləmdən heç yerdə əsər-əlamət yoxdu. Peyinə bulaşmış payanın üstündəki yaş toyuq lələkləri və gicitkən kolları arasına düşmüş gözsüz toyuq başı, canlı aləmin yeganə əlamətləri idi.

Dumanlı, ancaq hələ sönməmiş qəzəb yenidən məni üstələdi. Baltanı götürüb tələsik odun yarmağa başladım. Yardım, yardım, birdən baltanın başı dəstəkdən çıxdı, az qala alnıma dəyəcəkdi.

– Belə də karastı olar!

Arxamda kimsə hırıldadı. Çöndüm. Alçaq çəpərin o üzündə xoruz kimi uzunbaldır, paltarında cürbəcür yamaqlar olan bir oğlan dayanmışdı. Palçığa bulaşmış ayaqlarına, elə bil "içigi"[1] geyinmişdi.

– Burada nəyə baxırsan? – soruşdum. – Balta qazançana dəysəydi; birbaş Allahın yanına behiştə təşrif aparmışdın.

Oğlan burnunu çəkərək ayağı ilə ayağını qaşıdı:

– Çox qorxutma, qorxan deyiləm!

– Sən bir igidə bax!

Bu sözümə cavab olaraq oğlan dedi:

– Gecələmək üçün ora niyə gedib çıxdın? Burada faşist anası yaşayır.

Tələsik dedim:

– Bir dayan, dayan! Necə yəni faşist anası?

– Faşist anası da! Onda bilmədiyin yerə baş soxma! – Görünür üzümün ifadəsindən oğlan məsələnin nə yerdə olduğunu izah etmək lazım gəldiyini başa düşdü. – Onun oğlu cəbhədən qaçıb polisliyə

[1] Uzunboğaz çəkmə

düzəlmişdi. Bizimkilər onu bax oradaca tutub işini bitirdilər, – deyə oğlan əlini çölə sarı uzatdı.

Nəhayət, işin nə yerdə olduğunu başa düşdüm. Halım dəyişildi. Ancaq mən bərkdən-boşdan çıxmış əsgər idim, buna görə də sakit danışmağa çalışdım:

– Bilirsən nə var, balaca, ağzına gələni danışmaqdansa, bir balta gətirsən daha yaxşı olar.

Oğlan karıxmış halda üzümə baxdı və götürüldü. Əlimi qeyri-iradi şalvarımdakı balaca cibimə vurdum, hərbi xidmətlərdən azad olduğum barədəki arayış həmin cibimdə idi. Ancaq bu zaman oğlan qayıdıb gəldi və mənə qəşəng bir balta uzatdı.

– Sındırmayasan ha, babamın baltasıdır, – deyə oğlan mızıldadı və nədənsə gözləri əllərimə zilləndi.

– Yaxşı, – dedim və ev sahibəsinin baltası üçün dəstək yonmağa başladım.

Bir vaxtlar mən jonqlyorluq etməyi xoşlardım, buna görə də dəfələrlə ovuclarım yaralanmış halda anamın üstünə qayıtmışdım. Əllərimi sarıdıqdan sonra peysərimə bir şapalaq çəkib yola saldığından cəmisi iki-üç il keçmişdir. Ancaq bu gün bu kənddə ötən günlər mənə o qədər əlçatmaz və uzaq göründü ki, xatirələri qovalamaq üçün başımı silkələdim. Onlar həmişə ən namünasib vaxtlarda məni yaxalayırdılar. Ovcuma tüpürüb hər iki baltanı atıb-tutmağa başladım, hər dəfə də dəstəklərindən yapışırdım.

– Aydındır?

– Çox gözəldir! – deyə oğlan heyran-heyran pıçıldadı və görünür həyəcanlandığından yenə bir ayağı ilə o biri ayağını qaşıdı: – Əmi, ay əmi, gəl bizdə yat, evimiz elə istidir ki! Duza qoyulmuş almamız da var. Gedirsən, hə?

– Balaca, aldada bilməzsən, gedəsi deyiləm, – deyə cavab verdim və albalı ağacının korlanmış gövdəsini yonub düzəltmək üçün işə girişdim.

Biz şam edib, yatmağa hazırlaşanadək tutqun gün, gözə çarpmadan, axşam ala-toranına qarışdı. Ev sahibəsi nə süfrə başında, nə də sonra bir kəlmə də olsa dinib-danışmadı. Mən də onu daha sorğu-suala tutmadım, eşmə düzəldib çölə çıxdım.

Gərək bu evdən çıxıb gedəydim. Həmin o oğlangildə məni bundan qat-qat səmimi qarşılardılar. Ancaq mən belə hərəkət edə bil-

məzdim. Ürəyim qısılırdı. Məni nə isə sıxır, əziyyət verirdi, bilmirdim ki, nə edim, ev sahibəsi ilə nədən danışım. Ancaq, mən burada qalmalı idim. Niyə? Nə üçün? Burasını izah edə bilməzdim. Mən cavandım və buna görə də yalnız hiss edirdim, izah edə bilmirdim.

Eşməni çəkə-çəkə fikirləşirdim. Ətrafda hər şey mürgü döyürdü, hava boğanaqdı, eyni zamanda nə isə məni əzir, narahat edirdi. Mən bir addım atıb yağışın altında durdum, yağış şırıldayırdı. Yağışın narın damlaları üzümə dəyirdi, ancaq məni heç bu da sərinlətmədi. Damdan düşən yağış damlaları lap seçmə kimi bir-birinin ardınca sürüşüb xəzan yarpaqlara dəydikcə xışıltı salırdı. Mənə elə gəlirdi ki, haradasa, lap yaxında yadelli əsgərlər nallı çəkmələrlə addımlayır, hey addımlayırlar.

Kənddə nə bir səs, nə də işıq vardı. Hətta it hürüşməsi də eşidilmirdi. Müharibə yoxsa itlərə də divan tutmuşdu?

Ev sahibəsi qapını açdı.

– İçəridə çək, – dedi. Bu əmrmi idi, yoxsa xahişmi, bilmədim. Tez də qapını çırpdı, elə bil nədənsə qorxmuşdu.

Yatağımı çarpayıda saldı, özü isə sobanın üstünə qalxdı.

Mən yuxusuzluqdan əziyyət çəkməzdim, hətta hərbi xəstəxanada belə yuxu dərmanı atmamışdım. Həmin gecə isə uzun müddət gözlərimi yummadım. Ev sahibəsini narahat etməkdən qorxduğum üçün tərpənmirdim də. Bu sakitlik içərisindən, zülmətlər aləmindən, nədənsə, lap aydınca yenə anamı gördüm.

Balaca, sərt. Acığını məndən çıxardı. Ailədə mən uşaqların ən kiçiyi idim. Son beşiyi isə çox nazladar və çox da döyərlər. Atam mehtər işləyərdi, içməyi sevərdi. Bizə şirin qoğal alardı və heç vaxt incitməzdi. Mən həmişə atama qısılırdım, anamı isə çox sevməzdim.

O zamanlar axı hələ çox cavandım, lap cavan. Müharibəyə kimi əynimə kostyum geyməmişdim. Nə gizlədim, kolbasanın, pendirin və almanın da dadına ancaq cəbhədə baxmışdım. Ailəmiz böyük idi, çox kasıb idik, anam bizi birtəhər dolandırırdı.

Mən isə heç bir şey başa düşmür, anamı incidirdim. Müharibəyə gedəndə anam xəstə yatırdı. O nə ağlayır, nə də məni öpürdü, amma: “Sən öz azğın başını orda nahaqca yerə bomba altına tutma”, – deyə o tapşırır, mən isə gülümsünürdüm. Birdən anam yazıq-yazıq içini çəkdi. Məni bağrına basdı: “Heç olmasa sən qalaydın!” – dedi.

Mən ömrümdə onu belə kövrək görməmişdim. Buna görə də özümü itirdim. Narahat oldum və anamın üstə qışqırdım ki: "Sən məni nə bilmisən?"

Anam qəribə, ürəyə toxunan bir məhəbbətlə başını buladı, sinədolusu ah çəkərək dilləndi: "Bəsdir, bəsdir, hirslənmə, hirslənmə, özün bilən yaxşıdır, savadlı adamsan..." Daha bir söz əlavə etmədi. İndi də mən onu vidalaşanda necə idisə, elə o cür, gözləri qüssəli görürəm. Mən heç vaxt, heç kimdə belə bir qüssə görməmişəm.

Ötüb keçən həmin o gecə mən:

– Ana!.. Ana!.. – deyə, pıçıldadım. – Səni görmək istərdim, lap elə bu saat istərdim. Heç olmasa yuxuma gir, mənimlə danış, ya bir üzümə bax...

İki dəfə yaralanmış, hələ bir medal da almış əsgər belə dəlisovluqdan gərək utansın. Ancaq nə edəsən? Əslində belə idi: mən dəlisovluq edir, çağırır, qüssələnir, dərdə-qəmə batırdım. İndi bunu etiraf etmək olar. İllər ötüb, adamlar qınamazlar məni. Onlar bir çox məsələləri ayırd etməyi, bəzi şeyləri bir-birlərinə bağışlamağı öyrənmişlər. Mən görürəm ki, adamlarımızın səxavəti artıb, ürəkləri aprel şumu kimi yumşalıb. Müharibə vaxtı isə biz çox qəddar idik, dərd, təhqirlər, itirdiklərimizin ağrısı bizi belə etmişdi.

İndi təsəvvür edə bilmirəm ki, o zaman mən necə oldu ki, hər şeyi unudub yuxuya getdim. Uşaq vaxtı yatanda atamın at təri qoxusu verən kürkünü üstümə çəkərdim. İndi də yuxuya gedəndə bu qoxu, ətirli ot iyinə qarışaraq məni əhatə etdi. Yəqin ki, yuxuda evimizi görmüşəm. Ancaq çox bərk yatdığımdan gördüklərimi yada sala bilmədim. Üzümə zillənmiş nəzərlərdən narahat olub çevrildim və gözlərimi açdım.

Stolun üstündə başıpapaqlı lampa yanırdı. Onun da yanında çiyninə yun şal salmış ev sahibəsi oturmuşdu. O elə bil daşa dönmüşdü. Gözlərini də üzümə zilləmişdi. Lampanın işığı kiçik bir tum kimi gözlərinin içində əks olunmuşdu. Bəlkə bu bəbəklərin dərinliklərində gizlədilmiş, almaz dənəsi kimi bərkimiş kədərdi ki, lampa işıqlandırırdı. Bu solmayan, eyni zamanda böyüməyən bir zərrə idi.

– Siz niyə yatmırsınız?

Ev sahibəsi diksindi, çiynindən sürüşən şalı çəkib qaldırdı və saçaqlarını barmağına dolaya-dolaya dedi:

– Yata bilmirəm, yuxum çəkilib.

Ona baxmaq çox çətindi, dinib danışmamaq isə bundan da ağırdı. Mən başımın işarəsilə sanki alaqaranlıq otağa gözlərini zilləmiş şəkildəki kişini göstərdim:

– Ərinizdir, eləmi?

– Ərimdir. Danila. Bağban idi. Müharibədən bircə il əvvəl öldü, – o mənim lal sualıma cavab verərək əlavə etdi: – Mən isə quşabaxan idim. Bir dəfə hətta sərgiyə də getmişdim. Eh, bu çoxdan olan işdir...

Oğlu barədə vermək istədiyim sual dilimin ucunda idi. Ancaq cəld fikrimdən döndüm, onu ağlıma gələn sualla əvəz etdim:

– İndi bağda ərinizin əvəzinə işləyirsiniz?

– Yo-o-ox... kolxozdan çıxmışam.

– Belə niyə?

– Arvadlar gün verib işıq vermirdilər.

Görürdüm ki, ev sahibəsi bacardıqca sakit danışmağa çalışır. Buna görə də sözləri ehtiyatla, aram-aram söyləyir, sanki nəyinsə, bir şeyin cingildəməsindən və təsadüfən düşüb sınmasından qorxurdu.

– Sən evlisən? Uşaqların varmı?

– Hələ yoxdur. Evlənməyə vaxt olmayıb.

– Hə, – o təəssüflə, mənə elə gəldi ki, bəlkə də heyifsilənə-heyifsilənə səsini uzatdı və fikirli davam etdi: – Vaxt olar, evlənərsən, uşaqların olar...

– Eh, buna dəryada balıq sevdası deyərlər.

Ev sahibəsi cəld üzümə baxdı, sonra nəzərləri iki şəkil arasındakı dördbucağa dikildi və ağzının kənarındakı qırışlar sanki dərinləşdi.

– Bəzən dirinin ölüyə paxıllığı tutur. Mənim də bir oğlum vardı. – O güclə dilləndi. – Özü öldü, onun cəzasını adamlar indi mənə çəkdirirlər. – O, fikrə getdi, nəzərləri böyrümdən ötüb pəncərəyə, üzərindən, soxulcanlar kimi sürünən, iri yağış damlaları süzülən şüşələrə dikildi.

Daxmaya girmiş şiddətli külək güllə kimi vıyıldadı. Soxulcanların sürəti itiləşdi. Armud budağı silkələndi, göz yaşı kimi süzülən yağış damlalarını şüşəyə yaydı.

O, yavaşca dedi:

– Külək qalxır, yağış buludlarını dağıdar, sənin də yolun yüngülləşər.

– Hə-ə, bəlkə də yüngülləşdi, – deyə mən tərəddüdlə cavab verdim. Ev sahibəsi yenə iti gözlərini mənə zillədi. – Yorucu yağış keçib gedir, – tələsik əlavə etdim. – Sizinki də keçib gedəcək. Axı sizin nə təqsiriniz?

– Adamlar nahaq yerə mühakimə etmirlər! – Qadın şalı sinəsinə çəkdi, sanki birdən üşüdü, ancaq tezliklə süstləşdi, əlləri yanına düşdü, gözlərini yumdu, – deyirlər ki, gürzə, o balası ki, doğulandan sonra sürünmür, onu özü yeyir. Baxırsan ki, ilan deyiləm, ancaq mən də...

Görünür ya boğazı qəhərləndi, ya ürəyi qısıldı. O, heç kimdən kömək gözləməyən bir adam kimi, əlini uzadıb stolun üstündəki parçı götürdü, bir udum su içdi və lap astadan sözünə davam etdi:

– El arasında deyirlər ki, uşaq evin çırağıdır. Mənim övladım isə evimi çıraqsız qoydu. Bir balaca dəcəllik etdimi, mən onu balalı toyuq kimi o saat qanadımın altına aldım. Məktəbi atdı – qanadımın altına aldım, içməyə başladı – yenə dinmədim, cavan qızı korladı – ört-basdır etdim, bütün bunları mən uşaq dəcəlliyi hesab edirdim. Lakin onda ki, bəd ayaqda öz yoldaşlarını atdı, onda ki, yadelliyə qulluq göstərdi, yalnız onda mən ayıldım və gördüm ki... o gərək xırda həşərat kimi dəlik-deşiyə girəydi. Ancaq çaşıb dəlik-deşik əvəzinə öz doğma evinə gəldi. Onu axtarıb tapdılar, yalvardım, and verdim ki, öz hissəsini tapsın. Mənə elə gəldi ki, dediyimi edəcək, getdi, ancaq başqa bir yol seçdi. Sonra məndən də gizlənirdi. Yəqin hiss edirdi ki, onu parçalayacağam. Başqaları onu rahladılar, heç olmasa məni bu ağır işdən qorudular...

Ev sahibəsi parçı yenə ağzına apardı. Dişləri qabı döyəcləyirdi. Deyəsən su ona soyuq göründü, o parçı əllərilə isitməyə başladı.

– Eh, ötən illəri qaytarmaq mümkün olsaydı, əgər hər şeyi təzədən başlamağa imkan olsaydı... – Heç bir əlaqə – keçid gözləmədən o yenə davam etdi, bu yerə çatanda başa düşdüm ki, o adəti üzrə öz-özü ilə söhbət edirmiş.

Ev sahibəsi gözlənilmədən susdu. Elə bil dərin yuxudan ayıldı, ətrafa göz gəzdirib odu söndürdü.

Daxma qəflətən zülmətə qərq oldu. Küləyin uğultusu təzədən gücləndi. Armud budağı pəncərəni pişik kimi cırmaqladı. Haradasa

salınmamış həyət qapısı çəkçəkin quşu kimi cırıldadı. Bir müddət sonra sobanın üstündən arvadın səsi eşidildi:

– Hərbi xəstəxanadan cəbhəyə gedəcəksən, yoxsa...

Sual elə gözlənilməz oldu ki, lap məni sarsıtdı. Bilaixtiyar yerimdən sıçradım, təhqir olunmuş kimi sərt cavab verdim:

– Bundan başqa hara gedə bilərəm?

– Nə çoxdur yer. Dünya böyükdür. Vay, vay, vay, müharibə zor işdir. O, çoxunun gözlərini yumdu, çoxunun gözünü açdı... Di yaxşı, yat, yat. Sənə mane oluram, uzaq yola çıxacaqsan, axı...

Ev sahibəsi çönüb ah çəkdi. Mən isə onun yuxuya getməsini gözlədim. Onun oğlunu cəbhəyə yola salmasını təsəvvürümdə canlandırmağa çalışdım: – oxşayıb ağlamış, yəqin ətrafındakı adamlardan geri qalmamağı, özünü, öz valideynini rüsvay etməməyi tapşırmışdı.

Papiros çəkmək istədim. Oturdum, tütün bükmək üçün kağız axtarmağa başladım, əlim arayışa toxundu. Hə, mənə elə bu lazımdı! Xışıldayan kağıza maxorka tökdüm. Ev sahibəsini dəng etməkdən çəkinmədən "katyuşa"ya xod verdim. Piltə közərdi. Mən eşmədən bir qullab alıb, başımı yastığa qoydum.

– Niyə belə qalın kağızda çəkirsən? Məgər qəzet qəhətdir?

– Qəzetim yoxdur...

Yenə araya sükut çökdü. Divar arxasında yağışın şırıltısı kəsildi. Külək də zəiflədi, belə ki, hər soranda alışan eşmənin cırıltısı eşidildi.

Az qalırdı, eşmə dodaqlarımı yandırsın. Demək qurtarıb! Mən kötüyü kandara atdım. O havada yarımdairə cızıb, ləyənin içinə düşəndə cızıldadı.

– Hə, indi yat, Allah köməyin olsun! – deyə ev sahibəsi astaca, mənə elə gəldi ki, yüngülləşmiş kimi dilləndi.

Mən uzandım, gözlərimi yumdum, gecə öz örtüyünü üstümə sərdi, bu örtükdən, evimizin, atamın isti kürkünün ətri gəlirdi.

Çox gec ayıldım. Dərilməmiş meyvəsi yetimtək büzülmüş armud ağacının gülünc şəkildə əyilmiş budaqları arasından günəşin üzgün şüaları otağa süzülürdü. Yağış gücdən düşmüş, kəsmişdi. Mən tez yola hazırlaşdım. Ev sahibəsi məni süfrəyə çağırdı, sobadan bir qazan şala bürümüş kartof əzməsi çıxartdı.

Mən yeyirdim, o isə əllərini qoynuna qoyub sobanın yanında durmuşdu, nə qədər xahiş edirdim ki, mənimlə yesin, amma süfrəyə

yaxın gəlmirdi. O, kədərli halda maraqla mənə baxırdı. Sonra da çantamı çiynimə keçirəndə kömək etdi, şinelimin çarpazlarını da bağladı, məni həyət qapısına kimi ötürdü.

Mən ona əlimi uzatdım. O, təəccüblə, ağlamaqdan şövqünü itirmiş gözlərini üzümə dikdi. Bu gözlər hələ də peyğəmbər çiçəyinin rəngini saxlamışdılar. Əgər duzlu göz yaşları onun rəngini tamam soluxdura bilməmişdisə, tamam axırına çıxmamışdısa demək vaxtilə bu gözlər çox parlaq imişlər. Ev sahibəsi ehtiyatla əlini uzatdı, elə bil birdən burada bir hiylə, kələk olacağından qorxurdu.

– Fikir çəkmə, ana. Hər iş düzələr, – dedim. Başqa bir söz tapa bilmədim. Dinməzcə onun əlini bir də sıxdım və ciddi səslə: – Düzələcək, keçəcək, – dedim. – Adamlarımızın ürəyindən çıxacaq, o kəslər ki, bağışlanmalıdır, onları bağışlayacaqlar. Bizimkilər qəddar deyillər...

– Mən bu ümidlə də yaşayıram, – deyə qadın gözlərini yana döndərib cavab verdi.

Kəndin kənarına çatanda arxaya dönüb, yastı-yapalaq daxmaya baxdım.

Başı çoxdan kəsilməmiş fındıq ağaclarının üstündə arıq bir əl görünürdü, o yellənirdi, elə bil ev sahibəsi ardımca bir çimdik dən atırdı. Başa düşmək olmurdu ki, o, əlini yelləđir, yoxsa köhnə qayda ilə xaç vurur. Əgər xaç vururdusa, duası xoş saata düşmüşdü: çünki keşməkeşli müharibə yollarını keçərkən mənə bir xətər belə toxunmadı, özüm də qalibiyyətlə evə döndüm.

Keçən yay kənd təsərrüfat sərgisində quşabaxan arvad mənə həmin bu əhvalatı xatırlatdı.

Öz əziyyətli xırda işini görən arvaddan ayrılanda mən o vədə müharibə zamanı etdiyim kimi baş əyib dedim:

– Sağ olun, anacan!

O mənə baxdı. Yorğunluqdanmı, ya da nə isə gizlətməyə adət etdiyindənmi, yarıyuxulu seyrək kirpikli göz qapaqları bir anda açıldı, sakit, gücle göy rəngli ağıllı gözləri göründü.

– Yaxşı yol, əziz oğlum! – deyə dilləndi, əlini elə bil əlvida demək üçün qaldırdı, ancaq yox, sinəsinə aparıb xalatını düzəltdi.

Mən ayrılıb getdim və uzun müddət onun nəzərlərini üstümdə hiss etdim.

YURİ PAVLOVİÇ KAZAKOV

(1927-1982)

PALID MEŞƏLƏRİNDƏ PAYIZ

(hekayə)

Bulaqdan su gətirmək üçün vedrəni götürdüm. Həmin gecə mən xoşbəxt idim, çünki o, gecə kateri ilə gəlirdi. Ancaq mən xoşbəxtliyin nə olduğunu bilirdim, üzüdönüklüyünə də yaxşı bələd idim, ona görə vedrəni qəsdən götürdüm ki, guya onun gəlməyinə inanmıram, elə belə su gətirməyə gedirəm.

Göz-gözü görmürdü, adam heç istəmirdi evdən çıxsın. Şamı fənərin içinə qoymaq üçün çox əlləşdim, düzəldib yandıranda isə şüşə bir anlığa tərlədi, zəif işıq ləkəsi titrədi, o vaxta qədər ki, axır şam alışıb yandı, şüşə quruyub şəffaflaşdı.

Fənərin səksəkəli işığı yoluma düşürdü. Yəqin ki, stansiya yoldəyişəninə oxşayırdım. Uzunboğaz çəkmələrimin altında xışıldaşan şehli ağcaqayın yarpaqları idi, bir də fənərin tutqun işığında qızılı rəngə çalan şam iynələri; çılpaq kolların üstündə isə zərinc qızarırdı.

Gecə vaxtı tək-tənha yola çıxmaq yaman pisdir, adamı vahimə basır. Bircə sənin çəkmələrin xışıltı salır, bircə sən işıqda görünürsən, qalan hər şey nəfəsini qısıb, sakitcə sənə tamaşa eləyir.

Xiyaban üzü enişə aşağı düşürdü, tezliklə pəncərəmin işığı gözdən itdi, sonra xiyaban da qurtardı, qarşıda seyrək kollar, küknarlar, palıdlıq başlandı. Küknar budaqlarına, büzüşmüş çobanyastıqlarına, qupquru çubuqlara toxunan vedrənin danqıltısı sakitlikdə lap uzağa yayılırdı.

Cığır tez-tez əyilir, uçuruma düşürdü, hərdən tozağacı gözə dəyirdi. Sonra tozağacları da arxada qaldı, cığır daşlığa çıxdı, sərin hava vurdu məni, fənərin işıq topasından kənarda heç nə görünməsə də, qarşımda geniş bir boşluğun açıldığını duydum: çaya çatmışdım.

Söyüdlərin arasından keçib, yaş otu ayaqlaya-ayaqlaya çay boyu aşağı, katerlərin yan aldığı yerə tərəf düşdüm. Qaranlıqda bulaq ahəngdarca pıqqıldayırdı. Fənəri yerə qoyub, bulağın gözünə düşdüm, sudan doyunca içib ağzımı paltarımın qolu ilə sildim. Sonra su dolu vedrəni fənərin yanına qoyub, katerin dayandığı uzaq limana tərəf baxmağa başladım. Katerin böyürlərindəki qırmızı, yaşıl işıqlar güclə görünürdü. Mən oturub siqaret yandırdım. Üşümüş əllərim titrəyirdi. Ani olaraq fikirləşdim ki, əgər o, katerdə olmasa, katerdəkilər fənərin işığını görüb elə zənn edəcəklər ki, mən də katerə minmək istəyirəm, sahilə yan alıb dayanacaqlar. Belə fikirləşəndə fənəri söndürdüm.

Hər yeri qaranlıq bürüdü; gecənin bu vaxtında yəqin ki, çayın neçə kilometrlik sahili boyu məndən başqa heç kim olmazdı. Yuxarıda, palıd meşəsinin arxasında isə kiçik kənd qaranlığa bürünüb yatmışdı, qıraq tərəfdə bircə mənim evimin işığı yanırdı.

Mən onun keçib gəldiyi uzun yolu xəyalımda canlandırdım: Arxangelskidən necə çıxmağını, vaqonda necə yatmağını, pəncərənin qabağında oturub kiminləsə söhbət eləməyini, indi Oka ilə üzərkən sahillərə baxmağını – dəvət eləyəndə, mən bu yerlər haqqında ona yazmışdım – onun necə göyərtəyə qalxıb, palıd meşələrinin iyi hopmuş nəmiş küləyə qarşı dayanmasını, bütün yol boyu aşağıda, tərləmiş şüşələrin arxasında olan söhbətləri, əgər qarşılayan olmasa, harada düşməyi, harada gecələməyi məsləhət görənləri xatırladım.

Sonra mən Şimalı, oralarda keçirdiyim günləri, vətəgədə yaşamağımı, bəyaz gecələrdə onunla balıq ovlamağımızı xatırladım. Balıqçılar xoruldaşa-xoruldaşa, inləyə-inləyə yatışanda, biz dalğaların çəkilməsini gözləyib, iri qayıqda dənizə çıxırdıq. O səssizcə avar çəkir, mən isə dərinliyə, dəniz yosunlarının arasına diqqətlə baxa-baxa balıq axtarırdım. Neştəri səssizcə qaldırıb, qəfildən onu dişli balığın boynuna sancırdım, sonra da gücümü yığıb, neştəri yuxarı çəkirdim: balıq suyu üzümüzə sıçrada-sıçrada neştərin ucunda çırpınır, ağzını geniş açırdı, çevrə kimi büzüşərək, tez də yay kimi açılır, bütün bu hərəkətləri ilə tritonu xatırladırdı. Lap sonra balıq qayığın dibində atılıb-düşür, çabalayırdı...

Mənim üçün olduqca xoşbəxt keçmiş bütün bu ili xatırladım: bolluca hekayə yazmağımı, qalmış bu günlər ərzində çayın sahilində, sakitlikdə, təbiətin qoynunda yenə də yazacağımı...

Gecə məni bürümüşdü: papirosumu sümürəndə, köz əllərimi, sifətimi, çəkmələrimi aydınca işıqlandırırdı, ancaq o işıq mənim ulduzların kül rəngli parıltısını görməyimə mane olmurdu. Bu payız göydə saysız-hesabsız ulduz vardı və o ulduzların işığında çay da, ağaclar da, sahildəki ağ daşlar da, təpələrin üstündə qaralan dördkünc tarlalar da, o tarlalardan da tünd rəngli, ətir qoxuyan yarğanlar ovuc içindəki kimi aydınca görünürdü. Mən buradaca fikirləşdim ki, həyatda ən başlıcası neçə il yaşamaq deyil: otuz, əlli, yaxud səksən il; yaşamaq üçün bu qədər vaxt onsuz da azdır və bu qədər yaşayandan sonra ölmək yenə də adama dəhşətli görünəcək. Odur ki, başlıca məsələ hər bir adamın həyatında neçə belə gecənin olmağıdır.

Kater elə bil yerində dayanmışdı, ancaq qarşıdakı sahildən aralanmağı o demək idi ki, üzü yuxarı, mənə tərəf gəlir. Tezliklə güclü mühərrikin ahəngdar döyüntüsü eşidildi və birdən məni dəhşət bürüdü ki, o gəlməyəcək, o, katerdə yoxdur, mən hədər yerə onu gözləyirəm...

Daha otura bilmədim, sahil boyu gəzişməyə başladım. Gözümü katerdən çəkmədən fikirləşirdim ki, evə tək-tənha, bircə vedrə su ilə qayıtmağım pis olacaq, ev mənə necə də boş görünəcək. Mümkündürmü ki, bir belə vaxtdan, uğursuzluqdan sonra yenə də bəxtimiz gətirməsin, biz görüşməyək, hər şey beləcə kül olub getsin?

Üç ay əvvəl Şimaldan evə qayıtmağımı, məni yola salmaq üçün onun gözlənilmədən vətəgədən kəndə gəlməyini, körpücüyün üstündə dayanıb, məni uzaq səfərə aparacaq gəmiyə baxmağını, elə hey təkrarladığı sözləri xatırladım: "Niyə gedirsən? Sən heç nə başa düşmürsən! Sən heç nə başa düşmürsən! Niyə gedirsən?" Mən isə gəmidə, gözü yaşarmış qadınların, hay-küylə qışqırışan oğlanların arasında dayanıb, gələcəkdə hər şeyi yoluna qoyacağıma zəif ümid bəsləyə-bəsləyə, buradan çıxıb getməyimlə nəsə axmaq bir hərəkət eləməyimi başa düşürdüm.

Kater artıq yaxında idi, mən daha gəzinmirdim. Lap qıraqda, qapqara suyun döyəclədiyi yarğanın üstündə durub gözlərimi qıymışdım, ona baxırdım. Həyəcan dolu ümid nəfəsimi təngidirdi.

Mühərrikin səsi birdən-birə alçaldı, göyərtədəki köşkün üstündən projektorun sahilə sancılan yayğın işıq şüası ağacdan-ağaca tullanaraq, katerin yan alması üçün yer axtarmağa başladı. Kater özünü yavaş-yavaş sağ tərəfə verəndə, projektorun güclü işığı üzümə dəydi, mən çevrildim, sonra dönüb yenə də katerə baxdım. Yuxarı

göyərtədə dayanmış matros artıq körpücüyü açırdı ki, aşağı düşüb trapın bir ucunu sahilə endirsin. O, ağ geyimdə matrosun yanında dayanmışdı.

Katerin burnu yumşaqca sahilə sancıldı, matros trapı itələyib, düşmək üçün ona kömək elədi. Projektorun işığı gözümə düşdüyündən heç cür ona baxa bilmirdim. O yuxarıdakı meşəli təpənin üstünə yekə, titrək kölgə sala-sala mənə yaxınlaşdı. Onu öpmək istədim, ancaq tez də fikrimdən daşındım, mən bunu projektorun işığında eləmək istəmədim. Biz yanaşı durub, əllərimizi işığın qabağına verərək, gərginliklə gülümsəyə-gülümsəyə katerə baxmağa başladıq. Kater geri getdi. Projektorun işıq şüası bir azdan söndü, mühərrik aşağıda yenə gurladı və kater sürətlə çay boyu üzü yuxarı uzaqlaşmağa başaldı. Biz tək qaldıq.

– Axır ki, gəlib çıxdın, – mən utana-utana dilləndim. – Salam!

O, dabanlarını yerdən üzərək, əllərini bütün ağırlığı ilə mənim çiyinlərimə qoyub gözlərimdən öpdü.

– Gedək! – mən öskürdüm. – Zəhrimar, necə də qaranlıqdı. Dayan, qoy fənəri yandırım...

Mən fənəri yandırdım. Fənər yenə də dumanlandı, yenə də şamın alışmasını, şüşənin quruyub şəffaflanmasını gözləməli olduq. Sonra getdik: mən, əlimdə çamadan, fənər – qabaqda, o, bir vedrə su ilə – arxada.

– Sənə ağır deyil ki? – bir dəqiqə keçməmiş mən soruşdum.

– Yeri, yeri! – o, boğuq səslə dedi.

Onun səsi həmişə belə boğuq çıxırdı, ümumiyyətlə, o, möhkəm bədənli, güclü idi. Əvvəllər uzun müddət bu mənim xoşuma gəlmirdi. Çünki mən qadınlarda zərifliyi sevirdim. Ancaq indi, bu gecə vaxtı, çayın sahilində, bir-birimizin ardınca gedə-gedə, neçə-neçə günlərin ağrı-acısından, məktublaşmasından, qorxulu, vahiməli yuxularından sonra onun səsi də, möhkəm bədəni də, cod əlləri də, şimallılara məxsus ləhcəsi də – hamısı qatardan ayrı düşmüş qərib çöl quşunu xatırladırdı.

Biz sağa dönüb nə vaxtsa, kim tərəfindənsə tapdanmış cığırla yarğan boyu yuxarı qalxmağa başladıq. Yolun qıraqları şam ağacları, quşarmudu, fındıq kolları ilə dolu idi. Yolumuzu fənərlə işıqlandıraraq yarğanı qalxırdıq, başımızın üstündən isə ensiz bir ulduz çayı axırdı və həmin o çayda üzən qara şam budaqları tez-tez, növbə ilə ulduzların üstünü açıb-örtürdülər.

Güclə nəfəs ala-ala qara şamlı xiyabana çıxıb yanaşı getdik. Birdən mən onu saxlayıb, bu yerləri göstərməyə, buraların adamları haqqında danışmağa daxili bir ehtiyac duydum.

– Nəfəs al, – dedim, – gör nə iyi gəlir!

– Çaxır qoxusu gəlir, – azca nəfəsi təngimiş halda o cavab verdi. – Bayaqdan duymuşam, hələ gəmidə olanda...

– Yarpaqların iyidi. Hələ bura gəl!

Biz əlimizdəki şeyləri xiyabana qoyub arxı tullandıq, fənərlə işıq sala-sala kolların arasına girdik.

– Hardasa buralarda olmalıdı... – mən mızıldandım.

– Göbələklərə bax! – arxadan o, heyrətlə dilləndi.

Nəhayət, mən axtardığımı tapdım: ağ cücə tükləri otların, sarı yarpaqların üstünə dağılmışdı.

– Bax, – deyib yerə işıq saldım. – Kənddə toyuq ferması var. Cücələr böyüyüblər, indi onları damdan bayıra buraxırlar. Tülkü də hər gün gəlib buralarda güdür, cücələr meşəyə dağılışan kimi tutub yerindəcə yeyir.

Mən o qaşqa tülkünü, onun cücəni yeyəndən sonra dodaqlarını yalayıb, fınxıra-fınxıra ağız-burnuna yapışmış tükləri təmizləməsini nəzərimdə canlandırdım.

– Onu öldürmək lazımdır! – o dedi.

– Mənim tüfəngim var, səninlə meşələri hərlənərik. Bəlkə bəxtimiz gətirdi...

Xiyabana qayıdıb yolumuza davam elədik. Evimin işıqlı pəncərəsi göründü, biz oraya çatandan sonra nə olacağını fikirləşdim. Könlümdən içmək keçdi: evdə arağım vardı, özüm düzəltmişdim. Quşarmudunu meşədən yığıb, evdə şirə çıxardan maşından keçirəndən sonra sapsarı köpüyü arağın içinə süzmüşdüm.

– Bizdə isə qışdır! – sanki təəccüblənərək, o birdən dilləndi.

– Dvina donub, ortasından buzqıran gəmilər keçid açıb. Ağappaqdı, bircə keçid qara... Özü də buğ qalxır. Həmin dar keçidlə gəmi üzəndə böyrüncə, buzun üstüynən itlər qaçır. Özü də nədənsə üç-üç qaçırlar.

Onun şimallı ləhcəsi ilə dediyi "üç-üç" mənim yadıma Dvinanı, gəmiləri, Arxangelski, Ağ dənizin sahilində yerləşən kəndləri saldı. İkimərtəbəli, hündür, boş daxmalar, daxmaların qara divarları, sakitlik, tənhalıq.

– Dənizdə su donub? – mən soruşdum.

– Donub, – dedi və fikrə getdi, yəqin ki, oradakılar yadına düşdü. – Qayıdanda marallarla getməli olacağam, əgər...

O susdu, mən isə onun nəfəsinə, ayaq səslərinə qulaq verə-verə gözlədim, sonra soruşdum:

– Əgər nə?

– Heç, – daha da boğuq səslə, astadan dilləndi. – Əgər buz bir az da irəliləsə!

Ayaqlarımızı pilləkənlərə döyəcləyib evə keçdik.

– U-u! – O, yaylığını aça-aça otağı gözdən keçirməyə başladı. O, həmişə təəccüblənəndə, ya sevinəndə, beləcə astadan "u-u" eləyirdi.

Ev kiçik, köhnə bir ev idi. Mən onu yalnız yay aylarını burada yaşayan bir moskvalıdan kirayə götürmüşdüm. Mebel, demək olar ki, yoxuydu, yalnız köhnə çarpayılar, stol-stullar... Böcəklər divarları oyub, ağappaq ağac ununa batırmışdılar. Lakin evdə radioqəbuledici, elektrik işığı, soba, mənim axşamlar oxumağı sevdiyim bir neçə qalın kitab vardı.

– Çıxar paltonu! Bu saat sobanı da yandırarıq... – dedim, çırpı gətirmək üçün həyətə çıxdım. Ancaq xoşbəxtlik məni boğurdu, başımda nəsə cingildəyir, əllərim titrəyirdi, ümumiyyətlə, birdən-birə zəifləmişdim, oturmaq istəyirdim. Sayrışan ulduzlar daha da aşağı enmişdilər. "Şaxta olacaq, – fikirləşdim. – Deməli, səhərə ağaclarda bir dənə də yarpaq qalmayacaq. Çox keçməz, ilk qar da yağar!"

Okanın üstü ilə üç dəfə dalbadal mülayim bir fit sürüşdü. Səs ətrafdakı təpələrə dəyib xeyli müddət havadan asılı qaldı – aşağı tərəfdən indi az təsadüf edilən köhnə buxar yedəkçəkəni gedirdi. Təzə katerlər çox qısa, ucadan, pəltək fitlər verirlər. Fermada fit səsinə oyanmış bir neçə xoruz kal səslə banladı...

Mən bir neçə quru budaq qırdım, soba üçün odun da götürüb evə getdim. O, paltosunu çıxarıb arxası mənə tərəf durmuşdu. Qəzet xışıldada-xışıldada çamadandan nəsə çıxarırdı. Əynində güllü don vardı. Don onun bədəninə dar idi, əgər mən onu bu donda Moskvada qonaqlığa və ya bir kluba aparsaydım, oradakılar gizlicə gülümsəyərdilər. Bu don isə yəqin ki, onun ən yaxşı donu idi. Mən xatırladım ki, adətən o, balaqları uzunboğaz çəkmələrinin içində görünməyən idman şalvarının üstündən bir köhnə, rəngi solmuş yubka geyirdi və bu geyim orada ona çox yaraşırdı.

Çay qoyub, sobanı yandırmağa başladım. Tezliklə soba gurladı, çırpılar alışdı, tüstü, odun iyi gəldi.

– Bu da sənin payın! – o, arxadan səsləndi.

Mən dönüb, stolun üstündə tünd, enlibel, çənəsi yuxarı çıxmış tutqun-gümüşü, qəşəng bir somğa balığı gördüm. Evə balıq iyi yayılan kimi səyahət üçün yenə də burnumun ucu göynədi.

O, dənizçi qızı idi. Yayın qızılı gecəsində dənizdə, motobotda doğulmuşdu. Ancaq gecələrə laqeyd baxırdı. O, gecələri yalnız gəlmə adamlar görüb, onlardakı sakitliyin, tənhalığın divanəsi olur. Yalnız orada qonaq olanda, hamıdan ayrı düşüb, necə deyərlər, hamının yadından çıxanda, gecələri yatmayıb fikirləşir, fikirləşirsən və özün-özünə deyirsən: "Hə, hə! Eybi yox, bu, gecədir, sən isə burada həmişəlik deyilsən. Gecədən sənə nə var ki, qoy günəş dənizin qırağından qalxsın. Yat, yat..."

Bəs o? Gecələr o, çit pərdə arxasında ölü kimi yatırdı, çünki sübh tezdən alatoranlıqda yuxudan durmalı, yekəpər balıqçılarla birgə avar çəkməli, gecə səpilmiş torların balığını çıxarmalı, sonra balıq şorbası bişirib qabları yumalı idi... Bu işlər həmişə təkrar olunurdu, hər yay, ta mən oraya gələnə qədər.

İndi isə biz Oka sahillərində araq içib somğa yeyirik, söhbət eləyirik, müxtəlif hekayətləri xatırlayırıq. Bəyaz gecələrdə dənizdə dişli balıq vurmağımızı, fırtına vaxtı balıqçılarla tor çəkərkən ağzımıza dolan acı suyun ürəyimizi bulandırmağını, mayaka çörək dalınca getməyimizi, bir dəfə gecə kənd kitabxanasında ayaqqabılarımızı, sırıqlılarımızı çıxarıb, vətəgədə olduğumuz vaxt ərzində gəlmiş qəzet-jurnalları oxumağımızı xatırlayırdıq.

Mən kürkü, sobanın böyründə döşəmənin üstünə atdım. Çaydanı, konfet və fincanları götürüb kürkün üstünə uzandıq. Bir-birimizə, çəhrayı kürəyə, oradakı kömürlərə, alovun onların üstü ilə sürüşməsinə baxırdıq və beləcə çox uzanmaqdan ötrü, mən hərdən qalxıb sobaya çırpı atırdım, soba təzədən alışıb çırtıldadıqca, biz istidən kənara çəkilirdik. Yerimdən duranda saat iki olardı, yata bilmirdim. Mənə elə gəlirdi ki, yuxlasam, onu itirəcəyəm, yanımda olduğunu hiss eləməyəcəyəm; istəyirdim ki, o həmişə mənimlə olsun. "Apar məni öz yuxularına ki, həmişə səninlə olum, – demək istəyirdim. – Çünki uzun müddətə ayrılmaq olmaz". Sonra fikirləşdim ki, bizdən ayrılan adamlar bizim üçün birdəfəlik yox olurlar, ölürlər, əgər bir

daha onlarla qarşılaşmırıqsa, biz də onların nəzərində ölürük. Sevincdənmi, kədərdənmi, nədənsə yata bilməyəndə adamın başına qəribə fikirlər gəlir.

– Sən də oyaqsan? – yavaşca soruşdum.

– Hə, – o, yataqdan cavab verdi. – Rahatam. Baxma, geyinim...

Mən otağın küncünə çəkilib, orada divardan asılmış radioqəbuledicini açdım. Haray-həşir, diktorların səs-küyü içində musiqi axtarırdım. Musiqinin olacağını bilirdim və tapdım onu. Kişi səsi ingiliscə bəmdən nəsə dedi, kiçik fasilə verəndə başa düşdüm ki, indi musiqi səslənəcək:

Az qaldı tüklərim biz-biz olsun, ilk səsdən mən melodiyanı tanıdım. Həmişə kefimin yaxşı, ya da pis vaxtı olanda, mən bu caz melodiyasını xatırlayırdım. O melodiya mənə yaddır, ancaq onda nəsə bir gizli xəyal var: kədərdirmi, sevincdirmi, başa düşmək olmur. O melodiyanı uzaq yol gedəndə, bir fikir mənə zövq, yaxud əzab verəndə tez-tez xatırlayıram. O melodiya Moskvada keçirdiyimiz bir gecəni mənim yadıma salırdı: əldən-ayaqdan düşmüş halda ikimiz, tək-tənha və bədbəxt gəzərkən bütün gecə ərzində bir dəfə də olsun onun dilindən tənə eşitməyib utanmağımı...

Moskavada dörd-beş günün avaraçılığından sonra o, Arxangelskə yola düşürdü. Hər şey həmişə Moskva vağzallarında olduğu kimi idi, yükdaşıyanlar arabacıqlarını dartıb aparır, avtokarlar uğuldaşır, hamı tələsir, vidalaşırdı. Vaxta bir neçə dəqiqə qalırdı... Bir neçə gün də boş vaxtı olmasına baxmayaraq, o gedirdi. Mən isə yana-yana ürəyimdə özümü, onu qınayırdım. Fikirləşirdim ki, o gedəndən sonra darıxacamğam, yəqin qəlbimdəki boşluğu doldurmaq üçün yenə də içkiyə qurşanacağam.

– Getmə! – dedim.

O, istehza ilə gülümsünüb, altdan-yuxarı titrək gözləri ilə üzümə baxdı. Tünd gözləri yaşıla çalırdı, daha doğrusu, gözlərin yaşıl, yaxud qara olduğunu seçmək olmurdu. Ancaq yaxşı yadımdaydı ki, o orada, Şimalda, mənə baxanda, gözləri qara idi.

– Necə də axmaqlıq eləyirik! – dedim. – Onda mən heç bir şey... Belə də axmaqlıq olar? Getmə!

– İndi danışmağın mənası yoxdur, – o, hirslə mızıldandı.

– Gərək, qohumlarını evində qalmayaydın!

– Bəs harada qalaydım? Sizdə? Nə fərqi var ki, – tərsliklə inad etdi. – İndi danışmağın mənası yoxdur...

– Gedək mehmanxanaya, bu qalan günləri orada yaşayırsan.

– Qatar yola düşür, – deyib üzünü yana tutdu.

– Yox, sən bir fikirləş! Bu qədər məktublaşmadan sonra biz bir yerdə olacağıq. Tək. Fikirləş!

O, xeyli müddət dinmədi. Dodağını dişləyib, baxışlarını üzümdə gəzdirdi, nəhayət, yazıq-yazıq, güllə dəymiş yaralı kimi soruşdu:

– Qalsam, sevinəcəksən?

Boğazım qurudu, nəfəsim tutula-tutula dönüb vaqona keçdim, qabağıma keçənləri itələyə-itələyə onun kupesini tapıb çamadanı götürdüm. Perrona çıxandan sonra yol bələdçilərinin, vaqonun yanında dayanmış adamların bizə necə baxdığı indiyə qədər yadımdan çıxmır.- Gedək, – dedim.

– Bəs bilet? – o, gözlərində sevinc, soruşdu.

– Tüpürüm o biletə! – dedim və onun əlindən yapışdım.

Meydana çıxıb taksiyə əyləşdik.

– Mehmanxanaya! – dedim.

– Hansına? – sürücü soruşdu.

– Fərqi yoxdu.

Maşın yerindən götürülüb, vağzalların, evlərin, adamların yanından keçərək, işıqforlara, artıq yanmağa başlamış neon lampalı lövhələrə qarşı getdi.

– Saxla burada! – Hansısa mağazanın yanından keçəndə, maşını əylətdirdim. Düşüb bir şüşə çaxır aldım, çaxırı yan cibimə qoyub maşına qayıtdım. Qədəhləri qaldırıb, bir-birimizin gözlərinə baxa-baxa bu çaxırı necə içməyimizi xəyalımda canlandırdım. Mehmanxananın qabağında maşından düşüb, inzibatçının yanına gedəndə isə artıq o çaxırın dadını ağzımda hiss eləyirdim.

– Yer yoxdur, – inzibatçı təmkinini pozmadan mənə bildirdi.

– Necə nömrə olursa-olsun. Başa düşürsünüzmü, fərqi yoxdu, ən pis, ən yaxşı nömrə!

– Yer yoxdur, – o narazılıqla üzünü turşudub, aramsız zəng çalan telefonun dəstəyini götürdü.

O, daxili bir sıxıntı ilə dəbdəbəli sütunlara, güzgülərə baxa-baxa vestibüldə məni gözləyirdi. O cür sıxıla-sıxıla da üzümə baxdı, elə bil mən bu cah-cəlalın sahibi idim! Biz taksi dayanacağına çıxdıq.

– Gedək ayrısına, – məyus-məyus dilləndim.

O, dinməz-söyləməz, maşına oturdu: düşdük Moskvanın küçələrinə. Taksini dostumun evinə sürdürdüm, az qaldı ki, dostumdan bizi bir gecəliyinə evdə saxlamağı xahiş eləyəm, ancaq bacısının qonaqları vardı. Mən onlara, üstündə çaxır olan stola, taxta, maral dərisindən tikilmiş nazik başmaqlardakı çılpaq ayaqlara baxıb fikrimdən daşındım. Ancaq pulu bir az artıq götürdüm.

– Qonaq ol! – dostum baxışlarımı hiss eləyib dedi.

– Yox, məni gözləyirlər, sağ ol!

Bir saat da keçdi, iki saat da keçdi, biz elə maşınla Moskvanı ələk-vələk eləyir, hər yerdə də eyni cavab alırdıq. "Yer yoxdur!" Küçəyə çıxanda mən böyük mehmanxana binalarına evlərə, artıq əksəriyyəti qaralmış çoxmərtəbəli pəncərə sıralarına baxıb, gecənin bu vaxtında öz otağında rahatca oturan, uzanan, radio dinləyən, kitab oxuyan, qadın qucaqlaya bilənlər haqqında fikirləşirdim, ürəyim ağrımağa başlayırdı.

Nəhayət, əldən-ayaqdan düşəndən sonra biz onun çamadanını vağzala aparıb, saxlama kamerasına təhvil verdik, çıxıb Sokolniki tərəfə addımladıq. Saat on ikiyə işləyirdi.

– Neyləyək, hə? – mən gülüb soruşdum.

– Nə bilim, – o, yorğun-yorğun dilləndi. – Bəlkə restorana gedək? Mən yemək istəyirəm...

– Restoranlar bağlanıb, – saata baxıb dedim, yenə də axmaq-axmaq güldüm. – Gedək mərkəzə tərəf, bulvarlara...

İti addımlarla gedirdik, Şimalda dənizin qırağı ilə getdiyimiz kimi, iyirmi kilometr aralıdakı kluba, kinoya tələsə-tələsə getdiyimiz kimi... Fənərlər sönmüşdü, yalnız küçənin bir tərəfində, hər iki fənərdən biri yanırdı. Küçələrdən hənirti kəsilmək üzrəydi. Axır ki, gəlib Tver bulvarına çıxdıq, skamya tapıb oturduq.

– Sizin evə getmək mümkün deyil? – o, ümidlə soruşdu.

– Mümkün olsaydı, burada səninlə gəzməzdimki!.. Evdə atam-anam, necə eləyəsən!

– Yaxşı, – dedi. – Qəm yemə, sabah mən çıxıb gedərəm, səhər qatarı da var. Sonra isə... – O, köks ötürdü. – Sonra sən yenə də nə vaxtsa bizim tərəflərə gələrsən.

Mən onu qucaqladım, o mənə sıxılıb gözlərini yumdu.

– Biz elə belə də otururıq, düz deyil? – o vurnuxub, yerini rahatlaya-rahatlaya mızıldandı. – Sən yaxşı oğlansan, mən səni

sevirəm. Axmaq adam, mən hələ orada səni sevirdim, sən isə bilmirdin... Yazıqsan, yazıq!

Bir dəqiqə tərpənməz oturduqdan sonra o, tuflilərini çıxardı, ayaqlarını altına yığıb yubkası ilə örtdü.

– Ayaqlarım ağrıyır, – yuxulu-yuxulu mızıldandı. – Bu tuflilərə də heç öyrəşməmişəm...

Yan xiyabanla iki milis gedirdi. Bizi görən kimi onlardan biri işığa çıxıb yaxınlaşdı.

– Vətəndaş, durun burdan! – milis nədənsə yalnız mənə müraciətlə dedi. – Belə şeylərə icazə verilmir.

– Nəyə icazə verilmir? – o utana-utana, tuflilərini şişmiş ayaqlarına geyincə, mən soruşdum.

– Artıq danışmaq lazım deyil!

Biz durub getdik. Mən yenə də evlərə, pəncərələrə baxırdım, taxtı olan o tək otaq heç cür xəyalımdan getmirdi. O otaqda heç nə yox idi, zəif, çəhrayı işıqdan, bir də taxtdan savayı.

– Bura bax, gəlsənə bu evlərin birinə girək, – tərəddüdlə dedim.

– Gedək, – o razılaşdı və yüngülcə gülümsündü. – Mən orada tuflilərimi çıxardaram, pilləkənlərin üstündə oturarıq.

Biz qaranlıq bir həyətə girdik. Lap küncə, axırıncı girişə keçdik, arxamızca qapını örtüb pilləkənlərin üstündə oturduq. O, oturan kimi ayaqqabılarını çıxarıb pəncələrini ovxalamağa başladı.

– Yorulubsan? – soruşub siqaret yandırdım. – Moskvada bizimki gətirmədi.

– Hə, – o, yanağını çiynimə sürtdü. – Çox böyük şəhərdi.

Ayaq səsləri eşidildi, qapı açıldı, dalandar qadın çıxıb bizi gördü.

– Durun sürüşün buradan! – çığırdı. – Başımıza bəla olublar! Küçə pişikləri kimi qapılarda sülənirlər! Durun sürüşün, yoxsa...

O, önlüyünün cibindən parıldayan fişdırığını çıxardı. Sümükləri çıxmış siftindən qəzəb yağırdı. Biz yenə də həyət boyu gedirdik, dalandar arvad isə arxamızca gələ-gələ donquldanırdı. Küçədə bir-birimizin üzünə baxıb gülüşdük.

– Bura sənin üçün Ağ dəniz deyil, – dedim.

– Eybi yox, – o yenə də məni sakitləşdirdi, – gəl elə belə gəzək. Ya də gedək vağzala, oturacaqların üstündə yataq, hə?

– Yaxşı, – mən razılaşdım və birdən qırışığım açıldı: – Bura bax, mən axmağam, gəl şəhər kənarına gedək! Taksi götürək, məndə pul var, gedək otuz kilometr o yana – bizdə elə eləyirlər!

Küçə ilə yavaş-yavaş taksi gəlirdi. Mən əvvəllər evə gec qayıdanda, gecə taksilərinə baxmağı çox xoşlardım. Yaşıl işıqlarını yandıraraq, sehrlənmiş kimi, onlar yavaş-yavaş yatmış şəhəri hərlənirlər və o işıqlara baxanda, adam uzaq bir səfərə çıxmaq istəyir.

Biz taksiyə əyləşdik.

– Şəhər kənarına? – sürücü təkrarən soruşdu və göz-görəti sırtıqlaşdı. – Yeddi manat yarım versəz, apararam, – dedi.

– Yaxşı, – dedim. Mənim üçün artıq çöl də bayır kimi idi.

Yol tamam boşalmışdı. Qərb tərəfdə hələ alatoranlıq idi, ancaq dan yeri ağarmışdı, səhər açılırdı. Şüşələrin arxasında külək eyni bir ahənglə vıyıldayır, içəridən kəskin benzin iyi gəlirdi.

Sürücü kiçik bir meşənin yanında maşının sürətini azaldıb:

– Burada saxlayım? – soruşdu. – Bizdə bundan uzağa aparmırlar, – dedi və qıza baxıb: – Kənddən gəlib? – soruşdu.

Maşından çıxan kimi sübh soyuğu iliyimizə işlədi.

– Yarım saat bəs eləyər? – deyə sürücü mənalı-mənalı məni süzdü. – Mən gözümün acısını alım, gəlib oyadarsınız. Siqaretin var? Ver birini tüstülədim...

Sürücü yolun qırağında maşını döndərməyə başladı, biz isə şax otların üstü ilə meşəyə tərəf getdik. Bu an mənim duyduğum bircə şey vardısa, o da ətrafın nəmişliyi, iliyə işləyən soyuq idi. Çəkmələrim islanmışdı, qırışları düzəlmiş şalvarım isə haça boruya oxşayırdı. Meşədə alatoranlıq idi: mən bir anlığa onun üzünə baxıb nə edəcəyimi fikirləşdim. Yorğun görkəmi vardı, gözlərinin altı qaralmışdı. Birdən o, açıq-açığına əsnəyib, sanki buraya nədən ötrü gəldiyimizi başa düşməyərək, ətrafa darıxdırıcı nəzər saldı.

– Belə də meşə olar?.. – dodaqaltı mızıldanıb, hirslə mənim üzümə baxdı.

Mən də əsnədim. Evdə rahat yorğan-döşəkdə yatmaq əvəzinə bu soyuqda, nəmişlikdə veyillənməyimə görə özümə acığım tutdu.

– Zəhləmiz töküldü, – o əsəbi halda əsnəyərək, boğuq səslə dilləndi. – Ay allah! Lazım deyil, heç nə lazım deyil, mən istəmirəm, qayıdaq geri...

– Qayıdaq deyirsən, qayıdaq də, – könülsüzlüklə dedim və yenə əsnədim. – Ancaq gəl bunu içək, cibim sallanır.

Butulkanı çıxarıb ağzını açmaq istədim, ancaq tıxac çox möhkəm oturduğundan, onu surğuclu-zadlı şüşənin boğazından içəri itələdim.

– İç, – şüşəni ona uzatdım.

– İstəmirəm, – mızıldandı, ancaq şüşəni aldı və köks ötürüb içməyə başladı. Qan kimi iki damla onun çənəsi ilə aşağı sızanda, öskürüb şüşəni mənə qaytardı. Mən qalan çaxırı içib butulkanı tulladım.

– Gedək, – daxili bir yüngüllüklə dedim.

Biz yenə də meşənin nəmişliyində qıjı kollarının, çəmənlikdəki təpəciklərin arası ilə gəzirdik. O hey donunun ətəyini qaldırırdı ki, şehə dəyib islanmasın.

– Niyə belə tez? – sürücü istehza ilə mənə baxdı. – Xasiyyətiniz tutmadı?

– Sür! – qəzəblə dedim və ürəyimdə baş qaldıran onu vurmaq hissini güclə boğdum.

Maşınla geri qayıdanda, sərt döngələrdə bir-birimizin üstünə aşa-aşa mürgüləyirdik və yadımdadır ki, bizim belə ani olaraq bir-birimizə toxunmağımız mənim üçün heç də xoş deyildi, yəqin elə onun üçün də... Səhər saat beş olardı, qatarın vaxtına qalmış üç saatı hələ haradasa veyillənməli idik. Çaxır beynimə vurmuşdu, özümü pis hiss eləyirdim.

O üç saat mənim üçün işgəncə idi və ən başlıcası, mən onu tək qoyub gedə bilməzdim, axıra kimi onunla qalmalı idim. Başım bərk ağrıdığından nə edəcəyimi bilmirdim.

– Di yaxşı, məktub yaz, – deyərək o, tutacaqdan yapışdı.

Onu bir anlıq saxlamağa özümdə güc tapdım.

– İncimə, – mızıldandım, alnından öpüb qapıya tərəf getdim. Yadımdadır, ondan ayrılandan sonra elə yüngülləşdim ki, özüm də buna təəccüb elədim, ancaq qəlbimin dərinliyində bir yara göynəyirdi və mən nədənsə xəcalət çəkirdim...

Kürkü radioqəbuledicinin yanına çəkdim. Qucaqlaşıb oturduq. Bütün bu ayları mən nəyisə itirmək hissi ilə yaşamışdım, indi isə tapmışdım və bu tapıntı təsəvvür eləmədiyimdən də qiymətliydi.

Kontrabas qəmgin-qəmgin deyinərək, zülmətdə özünün görünməyən yolunu gəzir, qalxıb-enərək hansısa bir məchul çevrədə fırlanırdı, onun belə yavaş, asta hərəkəti mənə ulduzlu səmanı xatırladırdı. Ona qulaq asa-asa saksafon nədənsə gileylənir, truba elə hey ünyetməz ənginliklərə qalxır, hərdən onların arasına royal öz ağır, akokalipsik akordları ilə daxil olurdu. Və bir ölçü şkalası kimi,

zaman kimi, ritmi sinkoplara bölə-bölə, zərb yumşaq, boş səsi ilə onların hamısını özünə tabe edirdi.

– İşığı yandırmayaq, yaxşı? – o, döşəmənin üstündən yuxarı, qəbuledicinin yaşılımtıl şkalasına və canavar gözü kimi yanan işığına baxaraq dedi.

– Yaxşı, – mən razılaşdım. Fikirləşdim ki, bəlkə belə gecə mənim ömrümdə bir də heç zaman olmayacaq. Və heyfsiləndim ki, onun gəlməyindən artıq üç saat keçib. Mən istədim ki, bütün bunlar təzədən başlansın: mən yenə də, əlimdə fənər, çıxıb onu gözləyim, biz yenə də keçmişi xatırlayaq, sonra yenə də qaranlıqda bir-birimizi itirəcəyimizdən qorxaq.

O, bir dəqiqəliyə nədən ötürsə yerindən qalxdı, pəncərəyə baxıb boğuq səslə:

– Qar... – dedi.

Mən də dikəlib pəncərənin arxasındakı qranlığa baxdım. Sakit qar yağırdı. Bu payızın birinci, həqiqi qarı. Sabah siçanların meşədə, çör-çöp komalarının, dovşanların isə gəmirməyi sevdikləri akasiya ağaclarının ətrafında necə iz qoyacaqlarını təsəvvürümdə canlandırdım, tüfəngim yadıma düşəndə isə lap sevindim. Qarın yağmağı, onun gəlib çıxmağı, bizim bir yerdə olmağımız necə də yaxşı idi və indi bizim musiqimiz, keçmişimiz, bəlkə də keçmişimizdən də yaxşı gələcəyimiz vardı. Sabah mən onu sevdiyim yerlərə aparıb. Okanı, tarlaları, təpələri, meşələri, yarğanları göstərəcəkdim...

Gecə keçirdi, biz isə yata bilmirdik. Bir-birimizi itirəcəyimizdən qorxa-qorxa pıçıltı ilə danışıb qucaqlaşırdıq. Yenə də sobanı alışdırıb, onun odlu ağzına, üzümüzü yandıran qırmızı işığına baxırdıq. Səhər saat yeddiyə yaxın, pəncərələr maviləşəndə, biz yuxladıq və evimizdə bizi oyadacaq bir adam olmadığından çox yatdıq. Yatdığımız vaxtda gün çıxıb qarı əritmişdi, ancaq bir azdan şaxta güclənməyə başladı. Çay içəndən sonra tüfəngi də götürüb evdən çıxdıq. Hətta bir anlığa gözlərimiz ağrıdı: elə təmiz, soyuq hava, elə ağ qış işığı vurdu ki bizi... Qar ərimişdi, ancaq yer nazik buz qatı ilə örtülmüşdü. Buz qabığı tutqun, boz idi. Üstündən buğ qalxan tövlələrin qabağına buzovlar yığışmışdı və o buzovlar ayaqlarını yerə, sanki taxta döşəməyə döyəcləyirdilər. Qışlaq çovdarın ortasında şirin-şirin otlayan buzovların bəziləri isə tez-tez qıvrım tüklü dal ayaqlarını aralayaraq, quyruqlarını qaldırıb siyiyirdilər və onların islatdığı yerlərdə körpə çovdarın yaş, zümrüd ləkələri görünürdü.

Biz əvvəlcə yolla getdik. Əyri-üyrü meşə yolu bomboz olmuşdu. Meşədə saralmış zəncirotular başlarını buzun üstünə sallamışdılar. Buzun içi yarpaqla dolu idi. Arabir buz bağlamış son göbələklər görünürdü və biz onları ayağımızın ucu ilə vuranda, göbələklər qırılıb taqqıldaya-taqqıldaya buzun üstü ilə xeyli uzağa sürüşürdülər.

Təpələrin üstündə tarlalar uzaqdan tüstü kimi yaşıl, un səpilmiş kimi ağ görünürdülər: ot tayaları qaralmış, çılpaq meşəyə sanki tozağaclarının ağ gövdələrindən çəpər çəkilmişdi: ağcaqovaqların yaşılımtıl gövdələri işıldaşır, təpəlik yerlərdə ağacların qırmızı papaqları yanırdı. Göz üşüdən, bomboş çay çılpaq meşənin ağacları arasından uzaq məsafədə görünürdü. Biz qarlı yarğanla aşağı düşüb, arxamızca palçıqlı, sonra isə təmiz, dərin izlər qoya-qoya kəsilmiş ağcaqovağın yanındakı bulaqdan su içdik. Suyun dibində çoxlu ağcaqayın, palıd yarpağı vardı. Kəsilmiş ağcaqovağın acı, soyuq iyi gəlirdi və baltalanmış yerdə ağac kəhrəba rəngindəydi.

– Qəşəngdi? – onun üzünə baxdım və mat qaldım: gözləri yaşıl rəngdəydi.

– Hə, qəşəngdi! – o, acgözlüklə ətrafa baxaraq dodaqlarını yalaya-yalaya cavab verdi.

– Ağ dəniz sahillərindən də yaxşıdı? – yenə də mən soruşdum.

O yenə də çaya, təpə boyu yuxarı baxmağa başladı, gözləri daha da yaşıllaşdı.

– Ağ dəniz... – qeyri-müəyyənliklə dilləndi. – Bizdə... bizdə... Burada isə palıdlar, – o öz fikrini yarımçıq qoydu. – Belə yeri sən necə tapmısan? Mən özümü xoşbəxt sanırdım, ancaq bu mənə çox qəribə görünürdü, mən qorxurdum: nədənsə, o payız hər şey mənə çox asan başa gəlirdi. Sakitləşmək üçün papiros yandırıb özümü tüstüyə, buğa tutdum. Okada Aleksin tərəfdən yedəkçəkən kater göründü. Kater dalğaları qova-qova iti sürətlə çayın axarı ilə aşağı gedirdi, biz onu dinib-danışmadan baxışlarımızla izlədik. Katerin maşın bölməsindən güclü buxar çıxırdı. Buxarın bir şırımı isə katerin böyründən, suyun üstündəki deşikdən kənara püskürürdü.

Kater döngədə gözdən itəndə, yenidən Okaya baxmaq üçün biz əl-ələ verib işıqlı meşədə, seyrək ağacların arasıynan təpə boyu yuxarı çıxmağa başladıq. Ağappaq bir yuxuda olan kimi, yavaş-yavaş, dinməzcə gedirdik. Axır ki, birlikdəydik.

VASİLİ MAKAROVİÇ ŞUKŞİN

(1929-1974)

BİR EVİN SAKİNLƏRİ

(hekayə)

Şənbə günü, axşam tərəfi Təzəkənd kolxozunun klubunda yenicə göndərilmiş bir pyesin müzakirəsi gedirdi və həmin müzakirədə bədii özfəaliyyət dərnəyinin on iki nəfər üzvü iştirak edirdi.

Törəboy, gombul, şöhrətpərəst, lovğa və dəymədüşər Vanya Tatus nitq söyləyirdi. O, vilayət mərkəzindəki mədəni-maarif məktəbini bu il qurtarıb gəlmişdi və geyimə, əyin-başa maya qoymaqda onun bütün kənddə tayı-bərabəri yox idi. Bədii özfəaliyyətə Vanya rəhbərlik eləyirdi...

– Bu gün mən sizə çox vacib bir xəbər çatdırmalıyam.

– Nə olub, müfəttiş gəlir?

Bunu deyən Volodka Marov idi. Volodka tibb bacısı Vera ilə gəzirdi və həmin o Veradan Vanya Tatusun da xoşu gəlirdi, ancaq Vanya özünü tox tutmağı qərara almışdı; bu fikirdə idi ki, onun məğrur sevgisini Vera gec-tez görməlidir və görüb, o köntöy Volodkadan əl çəkməlidir. Belə olmasa, yəni Vera Volodkadan əl çəkməsə, onda o, baxtından küsməli idi. Hər halda, Veranın son peşmançılığı üçün hər cür əsas vardı. Amma Volodka da hərif deyildi, Vanyanın niyyətini duymuşdu və onun qanını içməyə həmişə hazır idi. Bədii özfəaliyyətə də Volodka bu niyyətlə yazılmışdı... Vera da burda idi, öz həmişəki yerində əyləşmişdi. Özfəaliyyətin bu təhər dəlisi olasan, dram sənətinə bu qədər məhəbbət bəsləyəsən və özün də rejissoru qoyub, gedib şoferin birinə vurulasan. Vanyanı hər şeydən çox yandıran bu idi. Axı Volodka ilə nədən danışmaq olardı: çarxdanmı, təkərdənmi?.. İxtiyarı özündə olsaydı, Volodkanın atmacalarına o, nəinki əhəmiyyət verməzdi, heç onu, o Volodkanı Vanya adam yerinə də qoymazdı, ancaq ixtiyar özündə deyildi, rəqibə cavab verməK də hərdən lazım gəlirdi.

Buna görə Vanya:

– Marov, zarafatı sonraya saxlayaq, – dedi. – Bizə vilayət mərkəzindən pyes göndərilib. Müəllifi həmyerlimizdir. Pyesi hazırlayıb, mərkəzdə, müsabiqədə göstərməliyik. Zarafat yaxşı şeydi, Marov, ancaq gərək elə zarafat eləyəsən ki, finalda...

Volodka:

– Penalda, – deyib, yenə söz altda qalmadı.

Vera Volodkaya acıqlandı:

– Bəsdi! – dedi. – Pyes nədəndi, Vanya? Qadın rolu var?

– Pyes kolxoz həyatındandır, şəxsi... – Vanya annotasiyaya baxdı. – Şəxsi mülkiyyətçilik meyillərini kökündən baltalayır. Müəllif özü xalq həyatının dibindən çıxmışdır, müasir kolxoz kəndini, onun adət və ənənələrini gözəl bilir. Müəllifin hər kəlməsi... boyunduruq kimi möhkəmdir.

– Dibindən? Dibindən nədir? – deyə Vaska Yermilov özfəaliyyət rəhbərinin sözünü kəsdi. Vaska da şofer idi. Volodkanın dostuydu, özünün də səfehlikdə, kənd içində, yaxşı ad-sanı vardı. Burada darıxmamaqdan ötrü Volodka dostunu da gətirib, bədii özfəaliyyətə yazdırmışdı və indi Vaskanın üzünə baxa-baxa o, zarafatın, söz güləşdirməyin əsl məqamı olduğunu fikirləşirdi.

Vera bu söhbətdən narazı idi.

– Kəs, Vasya, sən Allah, kəs səsini!

– Mən istəyirəm başa düşüm: necə yəni dibindən? Dibi nədir? Məsələn, pivə çəlləyinin dibi... Amma bu, başqa məsələdi...

Azca aralıda əyləşmiş bir nəfər evli kişi söhbətə qarışdı:

– Karın könlündəki... – dedi. – Bunun da fikri-zikri pivə çəlləyinin yanındadır.

– Sən özün guya ki, bilirsən?

– Bilirəm, niyə bilmirəm? Dibindən, yəni aşağı təbəqədən, sadə xalqın içindən.

– İndi sadə xalq yoxdur, sıravi kolxozçu var, – deyə Vanya tezcə düzəliş verdi.

Vaska narazı halda mızıldandı:

– Bəs orda niyə elə yazmayıblar? – dedi. Çünki bu Vaska deyilən adamın zarafat adlı şeydən bilmərrə xəbəri yox idi.

Amma evli kişi də təslim olmaq istəmirdi.

– Yox, mən elə deməzdim. Zəhmətkeş kəndli deyilsəydi, məncə, daha düz olardı.

Dərnəyin bir qocaman üzvü də vardı – Yelistratıç. Köhnə hoqqabaz idi. Gənc nəslin arasında bu adam keçmişin bilicisi hesab olunurdu, pyeslərin kəndə aid yerləri, kollektivləşmə və sairə məsələlər barədə Yelistratıç öz mötəbər fikrini mütləq söyləməli idi. "Kəndli" sözünü eşidəndə Yelistratıç aşkar təşvişə düşdü.

– İndi kəndli də yoxdur, – dedi. – Kolxoz var, kolxozçu var...

– Qadın rolu, Vanya! Qadın rolu varmı? – Veranı ayrı şey maraqlandırmırdı.

Vanya ciddi tövrlə:

– Sakit, yoldaşlar! – dedi. – Bu saat hər şey aydın olacaqdır. Pyesin qısa məzmunu belədir: İvan Petrov adında bir oğlan, yaxşı bir insan, ordu sıralarından kolxoza qayıdır. Əvvəlcə o... – Vanya kağıza baxdı, – zəhmətkeş kəndli həyatının qaynar əmək meydanına atılır...

Evli kişi məmnun halda:

– Bəli – dedi. – Zəhmətkeş kəndli – tamamilə doğrudur!

– Əməkçi kənd də demək olar. Kolxoz kəndi, yaxud əməkçi kənd, ikisi də eyni şeydir. Davam edirəm: deməli, qaynar əmək meydanına atılır. Ancaq çox keçməmiş evlənir. Bir sözlə, arvad alır. Beləliklə də, əvvəl qayınata və qayınanasının, sonra isə bilavasitə öz həyat yoldaşının təsiri altına düşür: şəxsi mülkiyyətçiliyə meyl edir. Özünə ev tikməyə başlayır, hündür hasarlar çəkdirir. Pyesin adı "Bir "evin" sakinləri"dir. Ev sözü dırnaq arasına alınıb, çünki bu cür böyük tikiliyə sadəcə "ev" demək düzgün olmazdı. Adamlar İvanı düz yola dəvət edirdilər. İvan isə yola gəlmək istəmir, maddi maraq motivləri ilə özünə haqq qazandırmağa çalışır...

Bu yerdə Yelistratıç yenə özünü saxlaya bilmədi:

– Gədənin ata-anası sağdımı? – dedi.

Vanya, qocanın dediyinə heç əhəmiyyət vermədən, davam elədi:

– Hamı heyrət içindədir: axı bu, necə ola bilər? Bu keyfiyyət İvanda hansı təsirlərdən yaranmışdır?.. İvanı divar qəzetində kəskin tənqid atəşinə tuturlar. Gənclər özfəaliyyət səhnəsində onun barəsində ifşaedici çastuşkalar oxuyurlar... Yadınızdadırmı, bizim İvanovu da mən bu yolla tərbiyə eləmək istəyirdim, ancaq məni müdafiə eləyən olmadı.

– İvanov işləyəndi.

– İşləyəndi. Çox gözəl. Amma bu yerdə, sual oluna bilər: kim üçün işləyəndi?.. Nə isə, qızlar həmin çastuşkaları klubun səhnəsində ürəkdən ifa edirlər: zal dağılır – müsbət reaksiya! Ancaq İvan ipə-sapa yatmaq istəmir. Məsələ kolxoz iclasında müzakirə olunur. Kolxoz fəalları, İvanın keçmiş dostları, qocaman kolxozçular bir-birinin ardınca xitabət kürsüsünə yan alırlar. Onlar amansızdırlar, lakin bu, adi amansızlıq deyil... Adamlar İvanı başa salırlar ki, o evi tikdirməklə İvan özü ilə kollektiv arasında dərin uçurum yarada bilər. "Ev" dedikdə, burda hasar nəzərdə tutulmalıdır. Ev tire hasar. Burası aydındırmı?

Vera dedi:

– Arvadı hansı mövqedən çıxış eləyir?

Evli kişi:

– Orada yazılıb ki! – dedi. – Ər-arvad əlbir hərəkət eləyirlər.

Bu yerdə Yelistratıçın yadına xalq məsəli düşdü:

– İt itin ayağını bastalamaz! – dedi.

– İclasda İvanın arvadı da iştirak edirmi?

– Və yalnız orda, o iclasda, – deyə Vanya söhbətin mabədinə keçdi, – qayınata və qayınananın onu hansı uçuruma doğru sürükləməkdə olduğunu İvan dərindən dərk edir. O, iclasdan qəzəblə çıxıb, hələ tikilib qurtarmamış evə tərəf hiddətlə addımlayır. Evin təkcə damı hazır deyildi. İvan özünü ora yetirir, əlləri əsə-əsə kibrit qutusunu çıxarıb... – Burda Vanya səsini yavaşıtdı (çünki əsl aktyor ayrı cür də edə bilməzdi) və mübhəm bir həyəcanla astadan dedi: – Kibrit çəkib, evə od vurur.

Amma belə sonluğu, deyəsən, heç kəs gözləmirdi.

– Necə?

– Özü ha!

– Yox bir!

– Yanğından mühafizə idarəsi varmı o kənddə?

Veranı isə pyes yaman tutmuşdu.

– Bu əsər tragediyadı da, hə, Vanya?

– Tragediya olmasa da, hər halda... ictimai dram sayıla bilər.

Tamaşanın texniki tərtibatına xüsusi marağı olan bir şəxs sevincini gizlətmədən soruşdu:

– Səhnədə biz də bir şey yandıracağıqmı?

Vanya davam elədi:

– Bəli, yoldaşlar! İşdən sonra, ağır zəhmət bahasına, öz əli ilə tikdiyi bir binanı insan od vurub yandırır!

Vanyanın təntənəli, qalib görkəmindən zənd-zəhləsi gedən Volodka kinli-kinli dedi:

– Necə yəni? Lap axıracan? Ay yandı ha! – Volodka heç cür ağlına sığışdıra bilmirdi ki, müasir pyesdə ev yana bilər.

Bu məsələ evli kişini də bir qədər çaşdırmışdı:

– Əhvalat nə vaxt baş verir? Yaydamı?

– Sakit, sakit! – deyə artist Vanya ucadan dilləndi. – O, öz evinə od vurur, lakin kolxozçular... fikir verin, pyesin ən gərgin yeri buradır. Kulminasiya! Müəllifin əsəri finala doğru necə ustalıqla istiqamətləndirdiyinə diqqət yetirin! Yerindən ox kimi qopan İvan "Alçaqlar, vicdansızlar, siz məni məhvə doğru aparırsınız!" – deyə sürətlə qaçır. Arvadı...

– O ki qaçmışdı bayaq.

– Arvadı dalınca yüyürür. Qaçırlar.

– Bəs bayaq qaçmışdı axı?

– Bənizi qar kimi ağarmış qadın az sonra təzədən iclasa qayıdır... İclasda artıq başqa məsələ müzakirə olunmaqdadır. Qadın izdihamı yararaq, irəli keçib titrək səslə qışqırır: "Kömək edin, yoldaşlar! O, evə od vurmuşdur!" Kolxozçular bir-birinin ardınca təzə evə doğru axışırlar. Bir ağsaqqal kişi... ayrı səmtə burulur. Qoca, İvanın qayınatası yaşayan tərəfə qaçır. Səhnə arxasından qocanın səsi gəlir: "Bəs siz? Ehey, siz də yanırsınızmı?" Əsl tragediya momentidir!.. Ümumiyyətlə, bu pyesi biz bütövlüklə tragi-komediya səpgisində işləməliyik.

– Ev nə oldu, yandımı? – Soruşan yenə Volodka idi.

– Evi kolxozçular hifz eləyirlər. Onlar İvanı başa salırlar ki, evi uşaq bağçasına vermək lazımdır. Buna görə İvanın özü də, heç tərəddüd göstərmədən, yanğınsöndürənlərə qoşulur. O bir ucdan yanğın söndürür, bir ucdan da öz-özünə, fasiləsiz təkrar edir: "Alçaqlar, vicdansızlar, siz məni məhvə doğru aparırdınız!"

– Bu sözləri kimə deyir o? – Vaska ehtiyatla soruşdu.

– Qayınatası ilə qayınanasının ünvanına deyir də, bunu bilməyə nə var ki!

– Güclü pyesdir!

Volodka:

– Elə bu? – dedi. – Dalısı yoxdur?

– Var. Axırda İvan, bir qədər xəcalətli olsa da, yenə kollektiv arasındadır. Xoşbəxtdir. Başqa qız və oğlanlarla birgə uşaq bağçasını yeni ilədək təhvil vermək barədə öhdəçilik imzalayır.

Volodka təəccübləndi:

– Bəs özü? Özü harda yaşayacaq?

Vanya:

– Hələlik qayınatasının yanında... – dedi. Və eyni vaxtda da o, qəhrəmanın öz qayınata və qayınanasını "alçaq", "vicdansız" sözləri ilə damğaladığını yadına salıb, bir qədər duruxduqdan sonra əlavə elədi: – Yaşamağa yer tapılar.

– Harda?

– Bura bax, olmaya sən pyesin ideyasını bəyənmirsən?

– Bəyənirəm. Ancaq bilmək istəyirəm ki, o adam harda yaşayacaq.

– Yox, sən ideyanı bəyənmirsən.

– Siyasəti soxma bura: mən deyirəm harda yaşayacaq?

Bu deyişmədən evli kişinin heç xoşu gəlmədi.

– Tutaq ki, gedib özünə bir ayrı ev də tikəcək, xırda ev. İndi razı qaldın?

– Axı nəynən tikəcək: əvvəl birini, sonra ikincisini... hansı pulla tikəcək?

Vanya qəzəbini gizlətmədən:

– İkinci evin söhbəti bizə qalmayıb! – dedi. – Bu məsələ bizi qətiyyən maraqlandırmır. Biz burda pyes müzakirə eləyirdik və məsələyə professional yanaşmaq lazımdır. Ancaq mən belə görürəm ki, heç o birinci ev də səni maraqlandırmır.

– Bir müddət qayınatasının evində qalmalıdır.

Bu dəfə evli kişi belə mülahizə elədi.

Bu yerdə Vaska bomba kimi partladı:

– Yox bir! Belə şey ömründə ola bilməz! Nə danışırsınız, onların arasında elə bir dava düşər ki, heç olmayan kimi. Axı o kişi, yəni qayınata o ev tikiləndə İvana kömək eləyib. Əsgərdə pul nə gəzir? Deməli, qayınata əl tutub ona... Kürəkən isə havalanıb, götürüb od vurub, yandırıb evi. Bu boyda zıppıltıdan sonra qayınata öz kürəkəninə nə deyə bilər: "Çox sağ ol, çox razıyam" eləmi?

– Sən hamını öz arşınınla ölçmə.
Mübahisəyə son qoymaq məqsədi ilə Vanya:
– O qayınata məni bir damcı da maraqlandırmır! – dedi.
Evli kişi dikəldi:
– Mən belə görürəm ki, burda bəziləri ziyanlı ideya yürütmək istəyirlər! – Oturdu. Onun Volodka kimi çoxdanışan adamlardan zənd-zəhləsi gedirdi.
Bu söz Volodkanı tutdu, nə tutdu:
– De də, niyə dayandın? De görək o hansı ziyanlı ideyadır?
Evli kişi ayağa durdu:
– Qayınataya rəğbət oyatmaq!
Axmaq bir sakitlik əmələ gəldi.
– Təklif var ki, Volodka Marov dram dərnəyindən azad edilsin, – deyə evli kişi təzədən hücuma keçdi. – Lap bu Vaskanın özü də! Bu adamlar bura məşqə gəlmirlər, söz güləşdirməyə gəlirlər.
Vaska incidi:
– Mən niyə?
Texniki tərtibat həvəskarı Vaskanı müdafiə elədi:
– Yox. Vaskanı çıxartmaq lazım deyil, çünki o, düzələ bilər.
Yerbəyerdən səslər gəldi:
– Vaska ağıllıdı, çalışqandı, Marovun təsiri altına düşüb.
– Onda Vaskanın nəzərinə çatdırılsın. Və ona ciddi xəbərdarlıq edilsin: spirtli içkilərdən sui-istifadə etməməlidir. – Evli kişinin növbəti təklifi bu idi.
Bu təklifdən Yelistratıçın çox xoşu gəldi:
– Bax, bu başqa məsələ! – dedi. – Belə şeyi cəzasız qoymaq olmaz. Bayramda-zadda hərdən içməyin ziyanı yoxdur. Amma sən, Vaska, ağına-bozuna baxan deyilsən. Özün də şofersən, maşın sürürsən.
Müzakirədə kitabxanaçı da iştirak eləyirdi. Bu adam yaşa dolandan sonra da gənclik təravətini itirməyən tək-tük qadınlardan idi. Kitabxanaçı:
– Tamam tərgitsə yaxşıdır, – dedi.
– Deyirsiniz heç içməsin? – Yelistratıç başını buladı. – Ağlım kəsmir... Kişidir axı...
– Nə olsun ki, kişidi? Nə olsun ki, kişidi? – Evli kişi əl-qolunu ölçürdü. – Niyə içir? Onu araq içməyə nə vadar eləyir? Bu suala cavab verə bilərmi?

Göyün üzünü qara buludlar almaqda idi.
Vasya dedi:
– Toyda-bayramda hamı içir də. Bəyəm mən keçəl-zadam?
Vanya məsələni yekunlaşdırmağa başladı:
– Aydındır: iki nəfər lehinə, iki nəfər əleyhinə. Səsə qoyuram: kim...
Elə bu vaxt rayon icraiyyə komitəsi mədəniyyət şöbəsinin sabiq müdiri, pensiyaçı və bədii özfəaliyyətin könüllü hamisi – himayəçisi Matryona İvanovna Vdovina zal boyu addımlayaraq, keçib birinci sırada əyləşdi.
– Salam, yoldaşlar! İşlər necə gedir?
– Pyes müzakirə edirik, Matryona İvanovna.
– Aha, aha.
– Pyesin ideyası bəzilərini qane eləmir.
Matryona İvanovna təəccübləndi:
– Necə yəni? Yaxşı pyesdir, mən oxumuşam. İdeyadan kim narazıdır ki?
– Mən ideyadan razıyam, – deyə Volodka nifrətlə Vanyanın üzünə baxdı. – Mən o adamın harda yaşayacağını bilmək istəyirəm.
– Kimin?
– Əsgərin.
– Hansı əsgərin?
Vanya dedi:
– Pyesin qəhrəmanından söhbət gedir, Matryona İvanovna...
– Danışanda bir az aydın danış, Marov. O adam artıq əsgər deyildir.
– Oy, az qala məni də qorxutmuşduz: sözə bax, əsgər harda yaşayacaq? Danışanda, doğrudan da, çalışıb aydın danışmaq lazımdır. Yoxsa belə çıxır ki, guya bizdə əsgərin yaşamağı üçün yer yoxdur. İdeyanın nəyini bəyənmirlər?
– Belədi də... ikibaşlı sual yürüdürlər. İvan harada yaşayacaq?
Volodka özündən çıxdı:
– Bura bax, sən məni dolaşdırma... İkibaşlı. Yox bir səkkizbaşlı. Mən burda adam kimi söz soruşuram.
– Buyur, buyur!
– Evi uşaq bağçasına verib, düzdürmü? Qayınatası ilə də möhkəm dalaşıb, deməli, daha orda qala bilməz... Bu adam bir yerdə yaşamalıdır, yoxsa yox?

Matryona İvanovna gülümsədi:

– Eh, kişilər – xoruz tayfası! Mübahisə eləməyə söz tapmısız. Məlum məsələdir ki, kolxoz onu evlə təmin etməlidir. Borcudur təmin eləsin. Vəzifəsidir. Axı o öz evini uşaq bağçasına bağışlayıb...

– Pyesdə belə şey yoxdu axı.

Vdovina bir qədər fikrə getdi.

– Bax bunu, ola bilər müəllif unudub. Gəlin, belə şərtləşək, uşaqlar: mən müəllifə zəng vurub, xahiş elərəm ki, bu məsələni pyesə əlavə eləsin. Yoxsa doğrudan da birtəhər çıxır... Belə çıxır ki, kollektivdə onun taleyini düşünən yoxdur. Bu cəhəti nəzərə almaq mütləq lazımdır. Pyesi götürməyimizi mən müəllifə zəng eləyib demişəm. O bizi təbrik edir və hamımıza səmimi salam göndərir. Biz, uşaqlar, çox ciddi imtahan qarşısındayıq. Əgər müsabiqədə birinci yerə çıxa bilsək...

Yerbəyerdən sual dalınca sual gəldi:

– Çıxa bilsək nə olacaq ki?

– Deyin də, Matryona İvanovna!

– Bizi intizarda qoymayın!

– Bəlkə xalq teatrı olacağıq!

– Bir tamaşaya görə?

– Hər şey özümüzdən asılıdır.

– Yəqin qastrola göndərəcəklər...

Vdovina gülümsəyərək əlini əlinə çırpdı:

– Yox, yox, heç cür deyə bilmərəm. – O, hələ də gülümsəyirdi. – Bilməsəz, daha səylə çalışacaqsınız, bu bir həqiqətdir. Pedaqoji nöqteyi-nəzərdən də bu, məhz belə olmalıdır. Sizə müvəffəqiyyətlər arzu edirəm, dostlar!

Poçtun məktub daşıyanı kluba girdi.

– Matryona İvanovna, – dedi, – sizə teleqram var. Evinizə aparmışdım, evdə heç kəs yox idi...

Matryona İvanovna eynəyini taxıb, teleqramı oxudu.

– Nə xoş təsadüf! – dedi. – Biz indicə onun barəsində danışırdıq.

– Müəllifdəndir?

– Bəli. Görün müəllif nə yazır: "Vasyanın nəğməsini" tamam çıxardın. Nöqtə. Qızın mahnısı belədir: "Oğlan, oğlan, yolda qoyma gözümü". Nöqtə. Uğurlar arzulayıram. Kopılov". Görürsüz də, müəllif qəlbi belə şeydir...

Vanya şübhəli-şübhəli gözlərini döydü.

– O orda, mən bilən, oxumur axı?

– Kim?

– Qız da. Qəhrəmanın həyat yoldaşı. Pyesdə belə şey yoxdur.

Matryona İvanovna:

– Düzdür, – dedi, – orda qızın oxumağını nəsə, heç mən də xatırlaya bilmirəm. Yəqin müəllif pyesi səhv salıb. Görünür başqa yerdə də onun əsəri hazırlanır... Səhv salıb, belədir ki var. Mən ona zəng vuranda bu məsələni də aydınlaşdıraram... Başlayın, dostlar! İşə başlayın!

TATYANA NİKİTİÇNA TOLSTAYA

(1951)

KVADRAT

(hekayə)

1913, yaxud 1914, yaxud da 1915-ci ilin naməlum bir günündə Polşa əsilli rus rəssamı Kazimir Maleviç eni-uzunu 79,5x79,5 sm. kiçik kətan parçanı götürüb, qıraqlarını ağ, ortasını isə qatı qara boya ilə rənglədi. Bu sadə əməliyyatı istənilən uşaq yerinə yetirə bilərdi. Amma doğrudur, belə böyük formatı bir rəngə boyamağa uşaqların səbri çatmazdı. Belə işin öhdəsindən yalnız çertyojçu gələ bilərdi, (Maleviç gəncliyində çertyojçu işləmişdi) lakin bu qədər sadə həndəsi forma çertyojçular üçün maraqlı deyil. Bu rəsmi ruhi xəstə çəkə bilərdi, amma, görünür, qismət olmamışdı, hətta hansısa ruhi xəstə o rəsmi çəksəydi belə, çox güman ki, onun, həmin rəsmi lazım olan zaman lazım olan yerdə keçirilən sərgiyə çıxarmaq imkanı olmayacaqdı.

Sadədən də sadə olan bu əməliyyatı yerinə yetirməklə Maleviç dünyada ən məşhur, ən qorxunc, ən müdhiş rəsmin – "Qara kvadrat"ın müəllifi oldu. Əlinin adi bir hərəkəti ilə o, köhnə incəsənətlə təzənin, insanla kölgənin, tabutla qızılgülün, həyatla ölümün, Allahla İblisin arasından əbədi keçilməz bir xətt çəkdi, onların arasındakı uçurumu bələdlədi. Öz dediyinə görə o, "hər şeyi sıfıra endirdi". Sıfır nədənsə kvadrat formasında alındı və bu sadə kəşf incəsənətin mövcudluq tarixində ən dəhşətli hadisələrdən oldu.

Nə etdiyini Maleviç özü də başa düşdü. Bu əlamətdar hadisədən bir il-il yarım əvvəl o, öz dostları və həmfikirləri ilə birlikdə futuristlərin gözəl şimal məmləkətlərindən birindəki bağ evində keçirilən birinci ümumrusiya qurultayında iştirak etmişdi və orada onlar "Günəş üzərində qələbə" adlı opera yazmağı qərara alıb, ideyanı oradaca həyata keçirməyə çalışmışdılar. Maleviç həmin əsərə səhnə quruluşu verirdi. Müəyyən mənada hələ doğulmamış, gələcək kvadratı xatırladan ağ-qara dekorasiyalardan biri opera aktı üçün arxalıq kimi nəzərdə tutulmuşdu. Onda fırça altından öz-özünə, düşünülmədən, ilhamla çıxmış həmin şey sonralar birdənbirə Peterburq emalatxanasında tələb olunan, müdhiş, sehrli nöqtənin – özündən sonra, özü ilə əlaqəli və arxasında daha heç nəyin mövcudluğu mümkün olmayan nöqtənin tapılması rəssam tərəfindən nəzəriyyə nailiyyəti, sonuncu, ali nailiyyət kimi dərk olundu. Dahiyanə rəssam duyumu, Yaradanın peyğəmbər bəsirətilə o, qaranlığa soxduğu əllərilə qadağan olunmuş rəngin qadağan olunmuş fiqurunu axtarıb tapdı. Bu o qədər sadə bir rəng fiquru idi ki, onun yanından, onu görmədən, görəndə də diqqətə layiq bilməyən minlərlə sənətkar keçib getmişdi... Ancaq onu da demək lazımdı ki, o vaxtadək "Günəş üzərində qələbə" çalmağa cürət edənlərin, Zülmət Knyazına meydan oxuyanların sayı bir o qədər də çox deyildi. Maleviçin cürəti çatdı və İblislə alverə, gözləməkdən gözünün kökü saralmış Faustlara həsr edilmiş doğrucul dastanlara uyğunluqla həmin dəqiqədəcə, yubanmadan və məmnuniyyətlə peyda olmuş sahibi-qürbətən qeyri-mövcudluğun sadə düsturunu tapmaqda rəssama kömək etdi.

Həmin 1915-ci ilin sonunda (Birinci Dünya Müharibəsinin ən qızğın çağı) məşum rəsm əsəri bir sıra başqaları ilə yanaşı futuristlərin sərgisində nümayiş etdirilirdi. Özünün bütün başqa rəsmlərini Maleviç adi qaydada, divarlardan necə gəldi asmış, "Kvadrat"a isə xüsusi yer ayırmışdı. İndiyə qədər qorunub saxlanmış fotodan görünür ki, "Qara kvadrat" künc tərəfdə, tavana yaxın asılıb. Ora adətən ikona asırlar. Güman ki, həmin mühüm əhəmiyyətli, müqəddəs küncün bu halda rəng yox "gözəl" mənasında işlənən "qırmızı" sözü ilə adlanması onun – boya və rəng adamının diqqətindən yayınmayıb. Maleviç qara deşiyi müqəddəsküncə bilərəkdən asmışdı: öz işini o, "Zəmanəmizin ikonası" adlandırmışdı. "Qırmızı" yerinə – qara (sıfır rəng), sifət yerinə boşluq (sıfır cizgi), ikona yerinə, yəni yuxarıya, işığa, əbədi həyata açılan pəncərə yerinə – zülmət, zirzəmi, o dünyaya açılmış quyu ağzı, əbədi qaranlıq.

Maleviçin müasiri, gözəl rəssam və sənətşünas A.Benua bu rəsm haqqında yazırdı: "Ağ haşiyəli Qara kvadrat sadə şey deyil,

sadəcə, nəyəsə meydan oxumaq deyil, Mars çölündə baş vermiş təsadüfi, xırda epizod deyil, o, mənfur boşluq adı altındakı başlanğıcın özünütəsdiq aktlarından biridir və həyatda sevimli, zərif hər şeyi təkəbbürdən, lovğalıqdan, lağlağıdan keçirərək hamını məhvə gətirib çıxaracağı ilə öyünür".

O hadisədən çox-çox əvvəl, 1869-cu ilin sentyabrında, başına gələn bir hadisə zamanı Lev Tolstoy qəribə, güman ki, dünyagörüşündə əsaslı dəyişikliyin başlanğıcını qoymuş həyəcanlı hisslər yaşamışdı. O, evdən şən əhvalla çıxmışdı, vacib və əlverişli bir sövdəgərliyə – yeni malikanə almağa gedirdi. At belində, ordan-burdan məzəli söhbətlər eləyə-eləyə gedirmişlər. Gecə düşür. "Mən mürgülədim, ancaq birdən ayıldım: nədənsə xoflanmağa başladım. (...) Birdən mənə elə gəldi ki, mənim bu uzaq yolu getməyimin mənası yoxdur, yəni mən elə burada, yad eldə öləcəyəm. Məni dəhşət bürüdü". Yolçular kiçik Arzamas şəhərində gecələməyi qərarlaşdırırlar. "Budur, axır ki, həyətdə at bağlamağa dirəyi olan bir evə yaxınlaşdıq. Ev ağ olsa da mənə dəhşətli dərəcədə qüssəli göründü. Hətta mən yenidən xoflandım. (...) Balaca dəhliz vardı; yanağında ləkə olan, (bu ləkə mənə dəhşətli göründü) yuxulu bir adam bizə otağı göstərdi. Zülmət bir otağıydı. Mən içəri keçdim və daha çox xoflandım.

(...) Tər-təmiz ağardılmış kvadrat bir otaq. Xatirimdədir ki, otağın məhz bu kvadratlılığı mənə əzab verirdi. Qırmızı pərdə ilə büsbütün örtülmüş bir pəncərəsi vardı... (...) Mən balıncı götürüb divana uzandım. Ayılanda otaqda kimsə görəmmədim, qaranlıq idi. (...) Hiss edirdim ki, təzədən yuxulamağım heç cür mümkün deyil. Mən bura nəyə gəlmişdim? Özümü hara aparıram? Nədən, hara qaçıram? Mən nəsə dəhşətli bir şeydən qaçıram və qaçıb qurtula bilmirəm. (...) Dəhlizə çıxdım. Fikirləşirdim ki, mənə əzab verən o şeyin cəngindən çıxaram. Ancaq o da hər nə idisə, arxamca dəhlizə çıxmaqla məni daha da məyus eləmişdi. Məni yenidən, hətta bayaqkından da artıq qorxu bürüdü.

Bu nə axmaqlıqdı, – öz-özümə dedim. – Mən nə səbəblə karıxıram, nədən qorxuram?

– Məndən, – ölüm dinməzcə cavab verdi. – Mən burdayam.

(...) Mən təzədən yerimdə uzanmağa cəhd elədim. Uzandım və dərhal da dəhşətlə yerimdən sıçradım. Və can üzən bir qüssə məni

bürüdü; nəsə, qusmaqdan əvvəl adamı bürüyən qüssə kimi mənəvi darıxdırıcılıq. Qorxudan adamın əti ürpəşir. Sanki ölümdən qorxursan, ancaq həyatı xatırlayıb yada salırsan və görürsən ki, bu öləziyən həyata görə qorxursan. Nəsə həyatla ölüm çuğlaşırdı. Bağrım yarılırdı, elə bil nəsə ürəyimi cırmaqlayırdı, ancaq bu işi sonacan görüb başa çıxa bilmirdi. Keçib bir də yatmışlara baxdım, bir də uzanıb yatmağa çalışdım; amma yenə də həmin dəhşət – qırmızı, ağ, kvadratşəkilli. Nəsə cırılır, amma cırılıb paralana bilmir. Qupquru bir əzab və hikkə ilə dolu canımda zərrə qədər də xeyirxahlıq hiss etmirdim, yalnız özümə və məni əmələ gətirən nələrəsə qarşı rəvan, sakit bir hirs və hikkə duyurdum".

Yazıçının həyatında baş vermiş bu məşhur, qəribə hadisə sadəcə ruhi sarsıntının qəfləti həmləsi deyil, ölümlə, şərlə gözlənilməz qarşılaşmadır: sonralar onu "Arzamas dəhşəti" adlandırdılar. Qırmızı, ağ, kvadratşəkilli. Maleviçin rəsmlərindən birinin sözlə təsviri kimi səslənir.

Ağ-qırmızı kvadratın dəhşətini həyatda yaşamış Lev Tolstoy baş verən hadisəni əvvəlcədən təsəvvür edib, ona qarşı özünün müəyyən nəzarətini tətbiq eləyə bilməzdi. O, yazıçının qarşısını kəsib ona hücum elədi və nəticədə yazıçı dərhal olmasa da, yavaş-yavaş, dönməzcəsinə əvvəllər yaşadığı həyat tərzindən, ailədən, sevgidən, qohum-əqrəba anlayışlarından, onu əhatə edən dünyanın maddi və mənəvi əsaslarından, incəsənətdən imtina etdi. Agah olmuş "həqiqət" onu boşluğa, sıfıra, özünüməhvə sürüklədi. Həyatını "mənəvi axtarışlara" sərf etmiş yazıçının sonda tapdığı bir ovuc bayağı dəyər erkən xaçpərəstliyin təlqin etdiyi variantlardakı xeyir-şər anlayışlarından uzağa getməmişdi. Onun davamçıları da bu dünyanı tərk etdilər, amma yenə də yan almağa sahil, lövbər salmağa liman tapmadılar. Araq əvəzinə çay içmək, ət yeməmək, ailə münasibətlərini pisləmək, öz çəkməni öz əllərinlə tikmək (özü də naşıcasına, büzüb-büzüşdürmək) – mahiyyət etibarilə, budur kvadratdan keçmiş şəxsiyyətin mənəvi axtarışlarının ümumi nəticəsi. "Mən buradayam", – ölüm sədası səssizcə pıçıldadı və həyat üzüaşağı yuvarlanıb darmadağın oldu. Hələ mübarizə davam edirdi, hələ (yaşamaq istədiyinə görə cəzalandırılaraq, müəllif tərəfindən amansızcasına qətlə yetirilən) Anna Karenina, qələmdən çıxacaq neçə-neçə ədəbi möcüzə irəlidə idi, amma kvadrat qalib gəldi,

yazıçı öz bətnindən incəsənətin həyat verən gücünü dartıb çıxardı, bayağılıqlarla dolu, öyüd-nəsihət hekayətləri yazmağa başladı və öz fiziki ölümündən əvvəl sönərək, dünyanı son əsərlərində olan bədii qüdrətlə yox, özünün həqiqi sarsıntıları və əzabları, etiraz fərdiyyətçiliyi, aşkar özünütənqidin o vaxtlara qədər misli görünməmiş kütləvi miqyası ilə heyrətləndirdi.

Axtarışlarında olsa da, Maleviç kvadratı tapacağını gözləmirdi. "Supermatizm"in (termin Maleviçindir) icadından əvvəlki dövrlərdə o, "aloqizm" (məntiqsizlik), yəni normal ağılın sərhədlərindən kənara çıxmaq arzusunda olaraq, "məntiqlə – təbiiliklə, meşşan xislətli qayda və küfrlərlə mübarizə" aparırdı. Onun səsinə səs verildi və yoxdan var olmuş kvadrat onu öz ağuşuna aldı. Rəssam İblislə sazişin ona gətirdiyi şöhrətlə fəxr edə bilərdi və fəxr edirdi də. Bilmirəm, o bu şöhrətin özü ilə birlikdə gətirdiyi ikibaşlılığı da hiss edirdimi? "Rəssamın ən məşhur əsəri" – bu o deməkdir ki, rəssamın digər əsərləri bir o qədər məşhur deyil, bir o qədər mənalı və bir o qədər cazibədar deyil, xülasə, onların hamısı bu əsərdən pisdir. Həqiqətən də onun bütün yaratdıqları kvadratla müqayisədə qəribə, solğun pərdəyə bürünür. Onun sifət yerinə şəffaf, rüşeymsiz yumurtalara bənzər bomboş avallar qoyulmuş həndəsi. Əlvan kəndlilərdən ibarət rəsm silsiləsi var. Onlar rəngarəng, dekorativ rəsmlərdir, amma onlar sanki Kvadrat quyusunun tünd ağzına yönəlməklə sonuncu dəfə titrəyə-titrəyə dibsiz dərinliyə yuvarlanmaq qorxusu altında kiçik göy qurşağının qarmaqarışıq, tələm-tələsik rəng yaxımları qədərində mənasız görünürlər. Onun impressionist üslubda işlədiyi çəhrayı çalarlı, adi mənzərələri var, belələrini çox rəssamlar, ondan da yaxşı çəkirdilər. Həyatının sonuna yaxın o, fiqurativ sənətə qayıtmağa cəhd göstərdi və onun bu işlərinin də o cür dəhşətli ab-havaya malik olacağını əvvəlcədən demək mümkün idi: insanlar yox, mumlanmış meyitlər, mum kuklalar öz paltarlarının çərçivəsi içindən gərgin nəzərlərlə adama baxır, sanki onlar "kəndlilər" silsiləsinin ən əlvan yerlərindən tikə-tikə kəsilərək quraşdırılıblar. Əlbəttə, zirvəyə çatandan sonra yol yalnız aşağı apara bilər. Ancaq dəhşət burasındadır ki, zirvədə nəsə yoxdur.

Sənətşünaslar Maleviç haqqında məhəbbətlə yazırlar: "Qara kvadrat" indiyə qədərki rəngkarlıq təsəvvürlərinin hamısını özündə cəmləşdirir, o, naturalist təqlidçiliyin yolunu qapayır, mütləq forma

kimi mövcuddur və bir-birinə bağlılığı olmayan, yaxud qarşılıqlı bağlılığı olan sərbəst formaların əsərin mənasını təşkil etməsinin incəsənət təcəssümatını verir".

Doğrudur, Kvadrat "yolu qapayır", o cümlədən rəssamın özü üçün də yolu qapayır. "O mütləq forma kimi mövcuddur" – bu da doğrudur, amma bu o deməkdir ki, onunla müqayisədə bütün başqa formalar lazımsızdır, çünki tərifə görə onlar qeyri-mütləqdir. "İncəsənət təcəssümatı..." isə doğru çıxmadı. O, incəsənət təcəssümatının sonunu, mümkünsüzlüyünü, lazımsızlığını göstərir, o, incəsənəti yandırıb kül edən sobadır, incəsənəti udan quyu ağzıdır, çünki o, yəni kvadrat, yuxarıda iqtibası gətirilmiş Benuanın dediyinə görə "mənfur boşluq adı altındakı başlanğıcın özünütəsdiq aktlarından biridir və həyatda sevimli, zərif hər şeyi təkəbbürdən, lovğalıqdan keçirərək hamını məhvə gətirib çıxaracağı ilə öyünür."

"Kvadrata qədərki" dövrün rəssamı öz peşəsinə yiyələnməyi bütün həyatı boyu öyrənir, ölü, süstı, xaotik materiya ilə mübarizə aparır, ona nəfəs verməyə cəhd edir; o dua eləyə-eləyə sanki odu üfürüb daşda işıq yandırmağa çalışır, o, ayaqlarının pəncəsi üstə qalxıb, boynunu uzadır, insan gözü dəyməyən yerləri ani də olsa görməyə çalışır. Hərdən onun duaları müstəcəb olur, əməyi və nəvazişi uğurla nəticələnir; kiçik bir anlığa, ya da uzun-uzun anlar müddətində "həmin o iş" baş tutur, "o" gəlib çıxır. Allah (mələk, ruh, ilham pərisi, hərdən İblis) rəhmə gəlib, özü üçün, özünün bizdən gizli, heyrətamiz evi üçün qoruyub saxladığı, həmin şeyləri, həmin uçağan, yüngül hissləri, adı bizə bəlli olmayan səma odunun tikə-parçalarını əldən verir. İlahi hədiyyəni xahiş-minnətlə almış sənətkar səmimi minnətdarlıq, təhqirdən uzaq fəqirlik, rüsvayçılıqdan uzaq fəxarət hissləri ilə dolu bir an yaşayır, kənardan görünən və görünməyən ən təmiz və ən pak göz yaşlarının axıdılması anını – katarsis anını keçirir. "O" dalğa ilə gəldiyi kimi də gedir, sənətkarı tərk edir. Sənətkar mövhumatçılığa meyllənir. O, bu görüşün təkrarını istəyir, o bilir ki, gələn dəfə Tanrının lütf haləsinə buraxılmaya da bilər; o, mənəvi gözlərini geniş açır, o, dərin, daxili bir inamla anlayır ki, cənnətin qapısını onun üzünə nələr (xəsislik, mənfəətpərəstlik, iddiabazlıq, təkəbbür) qapaya bilər; o, hissiyyatını elə yönləndirmək istəyir ki, öz bələdçi mələkləri qarşısında günaha batmasın, o bilir ki, özü ən yaxşı halda yalnız müəllifliyə

şərikdir, usta köməkçisidir, amma sevimli köməkçidir, amma müəlliflıyin təcli şərikidir. Ruhun istədiyi yerdə və istədiyi kimi hərəkət etdiyini sənətkar bilir. Bilir ki, o özü bir sənətkar olaraq, adi həyatda ruhun onu seçməsi üçün həqiqətən layiqli bir iş görməyib və əgər bu möcüzə baş veribsə, onda şükür etmək lazımdır.

"Kvadratdan sonrakı" dövrün rəssamı – kvadrata üz tutub ibadət etmiş, qara deşiyə baxarkən dəhşətlənib onun önündən qaçmamış rəssam ilham pərisinə, mələyə-filana inanmır; onun qara, qısa metal qanadlı öz mələkləri – bu dünyada şöhrətin qiymətini və o şöhrətin ən sıx və çoxqatlı tikələrini qarmalamağın üsullarını bilən proqmatik, özündənrazı ağaları var. Sənət lazım deyil, baş lazımdır; ilham lazım deyil, düzgün təxmin lazımdır. İnsanlar yeniliyi sevir – fikirləşib yenilik uydurmaq lazımdır; insanlar donquldanmağı xoşlayır – onları donquldandırmaq lazımdır; insanlar etinasızdır – onlar heyrətlənməlidirlər: onların burnuna nəsə üfunətli, təhqiramiz, iyrənc bir şey sürtmək lazımdır. Əgər ağacla insanın kürəyinə vursan, geri qanrılacaq; bax elə buradaca onun üzünə tüpürüb, əvəzində haqq olaraq ondan mütləq pul almaq lazımdır, əks-təqdirdə bu incəsənət olmadı ki: əgər insan buna etiraz edərək donquldanmağa başlasa, onda onu "gicbəsər" adlandırmaq və izah eləmək lazımdır ki, incəsənətin məğzi və mənası onun yerdəcə öldüyünü xəbər verməkdir, ona görə də mənim ardımca təkrar edin: ölüb, ölüb, ölüb. Tanrı ölüb, Tanrı heç zaman doğulmamışdı, Tanrını ayaqlar altında tapdalamaq lazımdır, Tanrı sizə nifrət edir, Tanrı kor gicbəsərin biridir, Tanrı alverçidir, Tanrı İblisdir. Sənət ölüb, siz də ölmüsünüz, ha-ha, pul ödəyin, əvəzində isə bu nəcis parçasını alın, həqiqidir – tünd, bərk, özümüzünkü – möhkəm tutun. "Sevimli və zərif" heç nə yoxdur, heç zaman da olmayıb; nə işıq olub, nə uçuş, nə buludlar arasından boylanan şəfəq, nə zülmətdə parlayan işartı, nə yuxu, nə də əhd-peyman. Həyat özü bu dəqiqə, bu yerdəcə ölüm deməkdir.

Lev Tolstoy bir dəfə dəhşətlənib yazdı: "Həyatla ölüm nəsə bir-birinə qarışmışdı", – və həmin andan axıra qədər bacardığı kimi, başa düşdüyü kimi, var qüvvəsilə, "İncil" nəhənglərinin miqyasına bərabər qüdrətlə vuruşdu. "Kimsə İakovla sübh şəfəqi doğana qədər döyüşdü..." Dahilə İblisin döyüşünə baxmaq dəhşətlidir: gah biri dov gəlir, gah da o biri... "İvan İliçin ölümü" həmin döyüş meydanıdır ki, var, orada kimin qələbə çaldığını da demək çətindir. Tolstoy bu povestdə deyir, deyir, təkrarlayır, beynimizi deşir, bizi inandırır ki, həyat ölüm deməkdir. Amma onun can üstə olan qəhrəmanı povestin sonunda, sanki yeni həyata doğulmuş kimi ölümün səltənətinə qədəm qoyaraq əzablardan qurtulur, düşüncə yönünü dəyişir, haqqa tapınır, bizi tərk edib gedir və deyəsən, getdiyi yerdə əbədi təsəlliyə qovuşur. "Yeni sənət" haqqa tapınmaq, ilahi ədalətə doğru yüksəliş, nicat ideyalarının özünü ələ salır – ələ salır və bununla fəxr edir, buna sevinir və bu "şərəfə" təntənələr düzənləyir.

Tanrı haqqında danışmaq ya sonsuzluq dərəcəsində mürəkkəb bir işdir ki, o söhbətə başlamağın özü dəhşətli görünür, ya da, əksinə, çox sadə məsələdir: əgər sən Tanrının varlığını istəyirsənsə, o var. İstəmirsənsə, yoxdur. O bizim özümüz də daxil olmaqla, hər şeydir, bizim üçün isə o, birinci növbədə bizim özümüz deməkdir. Onun bizimlə işi yoxdur (onun təhrif olunmuş surətini başqa adamlar bizə tanıtmağa çalışırlar), o sadəcə, su kimi lal sakitliklə bizim içimizdə, ruhumuzdadır. Onun axtarışında biz özümüzü axtarırıq, onun inkarında biz özümüzü inkar edirik, onu ələ salmaqla biz özümüzü ələ salırıq – seçim bizimdir. Humanizm anlayışının murdarlanması ilə müqəddəs kəlamların murdarlanması eyni şeydir.

"Müqəddəs kəlamların murdarlanması" XX əsrin şüarıdır – heyvərələrin, savadsızların və istedadsızların şüarı. Bu, başqalarını inandırmaq üçün istedadsız adamların bir-birinə verdiyi günah bağışlamaq fərmanı kimi dillər əzbərinə çevrilir: bəli, hər şey beləcə də olmalıdır, hər şey mənasız və dayaz (guya demokratik, guya hamı üçün) olmalıdır; hamının hamı haqqında danışmaq, mühakimə yürütmək haqqı var, böyük nüfuz sahibi olmaq prinsip etibarilə mümkün deyil; dəyərlər mərtəbəsinin mövcudluğu eyibli bir şeydir (axı hamı bərabərdir), sənətin dəyərini tələbat və ödənilən pulun miqdarı müəyyənləşdirir. "Yeniliklər" və dəbdə olan qalmaqallar təəccüblü dərəcədə yeni və qalmaqallı deyillər: Kvadratın pərəstişkarları müxtəlif orqanizm ifrazatlarını və onlardan düzəldilmiş məmulatları incəsənətin yeni nailiyyətləri kimi təqdim etməkdən usanmırlar; sanki Adəm və Həvva – biri huşsuzluq mərəzinə mübtəla, o birisə Altsheymer sindromundan əziyyət çəkən adamtək – özlərini və dünyaya gətirdikləri uşaqları inandırmağa cəhd edərdilər ki, onlar heç nə yox, məhz palçıqdan törəmə və məzmunca palçıqdan başqa heç nə olmayan nəsnədirlər.

* * *

Mən Rusiyanın Amerika pulu ilə fəaliyyət göstərən fondlarından birində "müasir incəsənət" üzrə "ekspert" vəzifəsini icra edirəm. Bizə "bədii layihələr" təqdim edirlər, biz də onların həyata keçirilməsi üçün pul ayırıb-ayırmamaq məsələsini həll edirik. Mənimlə birlikdə ekspertlər şurasında "köhnə", kvadrata qədərki incəsənətin dəyərli mütəxəssisləri və dərin biliciləri çalışır. Bizim hamımızın kvadratdan və "mənfur boşluq adı altındakı başlanğıcın özünütəsdiq aktlarından" zəhləmiz gedir. Ancaq bizə ardı-arası kəsilmədən yalnız mənfur boşluq gətirirlər, başqa nəsə yoxdur. Bizə ayrılmış pul xərclənməlidir, əks-təqdirdə fondu bağlayarlar. Bizim bu kasıb ölkəmizdə isə çoxlarının çörəyi fonddan çıxır. Ona görə də biz çalışırıq pulu heç olmasa, ən az iyrənclik edənlərə, mənasızlığa ən az yuvarlananlara verək. Keçən il çay sahili boyunca boş çərçivələrini düzən rəssama: böyük "Ə" hərfini (sözünü) gözəl kölgəsilə birlikdə yazmış başqa birisinə. Peterburq parklarında it nəcisi yığmaq tədbirlərini təşkil etmiş yaradıcılıq qrupuna pul verdik. Bu il isə daş parçalarına marka yapışdırıb, onları Rusiyanın müxtəlif şəhərlərinə göndərən qadına və sualtı qayıqda qan gölməçəsi yaratmış qrupa (tamaşaçılar qan gölməçəsini keçərkən qulaqlarına taxacaqları radiocihazlarda Abelyar və Eloizanın tarixini dinləməliydilər) pul verdik. Növbəti iclasımızdan sonra biz küçəyə çıxıb dinməzcə, bir-birimizin gözünə baxmadan siqaret çəkirik. Sonra tələm-tələsik bir-birimizin əlini sıxıb, dağılışırıq.

VLADİMİR GEORGİYEVİÇ SOROKİN

(1955)

SNAYPERİN SƏHƏRİ

(hekayə)

Səhər saat səkkizdə snayper mətbəxdə çayını içəndə bayırda güclü sulu qar yağımı başladı. Lopa-lopa yağan qar az keçməmiş pəncərədən görünən bomboz boşluğu da, karnizi də örtdü. Çayını bitirən snayper stəkanını yaxaladı, nəfəsliyi açıb küçəyə nəzər saldı. Damları və ağacları örtən dümağ qara hələlik təslim olmayan yaş asfalt öz qaralığını qorumaqdaydı.

Bayıra tüpürən snayper nəfəsliyi örtüb, yır-yığışa başladı. Qırmızı yun jaketini, isti qış şalvarını, qulaqlı papağını geyindi, qardan seçilməmək üçün ağ rəngli xələtinə büründü, kətan çantasını çiyninə keçirdi, eyni parçadan qılıfı olan karabinini əlinə alıb eşiyə çıxdı.

Bayırda nəmişlik idi.

Qar aramsız ələyirdi, zibil qutularının həndəvərində iki nəfər itlə dolaşırdı, bir yük maşını mağazaya yan almağa çalışırdı.

Qılıfı çiyninə, əlcəklərini isə əllərinə taxan snayper, asfaltla yeriməyə başladı. İtlə gəzənlərə yetişəndə onlardan birisiylə salamlaşdı. Tanışı da gülümsünərək başını tərpətdi.

Bazar günü olsa da, tramvay ləbələb doluydu.

Güc-bəla kassaya yanaşan snayper dəliyə üç qəpiklik salıb, bir bilet cırdı. Salona tərəf keçmək istəyəndə öz çantasıyla bir kişiyə toxundu.

Papağını düzəldən kişi onu süzüb:

– Barı tramvayda o şoğəribini yerə qoy da... – deyib donquldadı.

Bunu cavabsız qoyan snayper irəliləyərək, özünü boş oturacağa yıxdı.

Altı dayanacaqdan sonra, universamın yanında, təxminən hamı düşdü. Yarıboş salonu təbəssümlə süzən snayper yerini bir az da rahatladı.

Daha üç dayanacaq gedəndən sonra o da düşdü.

– Üçüncü Malenkov dalanı, ev səkkiz... – deyə o, əlindəki kağız parçasını süzərək mızıldandı. – Haradasa buralardadır...

Çiynindəki qılıfa çəki-düzən verib, küçəylə irəliləməyə başladı.

Yan-yörəsində blok tipli evlər ucalırdı.

Skamyada oturan ağbirçək xəbər aldı:

– Səkkizinci ev? Budey, burdadır dana!

Bunu deyərək o, çənəsiylə yaxınlıqdakı bir qrup evi göstərdi. Gözünü qıyan snayper soruşdu:

– Amma bunlardan hansıdır?

– Odey, o soldakı. Səkkizinci odur.

– Təşəkkür.

– Bir şey deyil.

Xəndəyin üstündən hoppanan snayper evlərə tərəf yönəldi.

Evlər müdirinin evini asanlıqla tapdı. Qapı zənginə eşiyə çıxan dazbaş, nə isə gövşəyən, maykalı kişi başını yırğaladı:

– Məni axtarırsız? Keçək içəri.

Snayper:

– Yox, canım, sağ olun, – dedi. – Mən çardaqla əlaqədar gəlmişəm... bu da vəsiqəm, – deyib əlini xələtinin yaxasından içəri apardı.

Evlər müdiri gülümsünərək:

– Barı bir bura keçin də. Bəyəm eşikdə də... – dedi.

İstəməsə də, snayper içəri keçib vəsiqəni ona uzatdı. Sənədə əlüstü göz atan evlər müdiri:

– Hər şey aydındır... Bircə dəqiqə səbr edin... – deyib, əlindəki açar dəstəsindən birisini ayırdı. – Orda qapı salxaqdır, açanda onu bir az yuxarıya doğru dartın. Bir də oralarda ehtiyatlı olun, şüşə qırığı əlindən tərpənmək olmur...

Açar başını tərpədən snayperin əlcəkli ovcunda əridi.

Çardaq qapısıyla xeyli əlləşməli oldu. Qapını itələyərək, açarı bir neçə yol burmalı oldu və handan-hana diziylə qapıya möhkəm basmaqla bu işin çəmini tapdı.

Çardaq qaranlıq və rütubətli idi. Sement və pişik iyi verirdi.

Snayper yerə tüpürdü, qapını örtərək, ehtiyatla dar pəncərəyə yanaşdı. Ayaqları altında bəzən şüşə şaqqıldayır, bəzən isə kömür şlakı xırçıldayırdı.

Pəncərəni açdı, çantasını çıxarıb ayaqlarının yanına qoydu. Daha sonra qılıfdan çıxartdığı karabini üsulluca damın üstündə qoydu.

Qarla örtülü şiferin üstündən qanadlarını çırparaq pırıltıyla uçan bir göyərçin aşağılarda gözdən itdi.

Çantasını açan snayper ordan qeyd dəftərini və patron yığdığı parusin torbacığı çıxartdı.

Patron torbasını karabinin böyrünə qoydu, dəftərin son kərə yazılan səhifəsini açdı.

– Demək... Üçüncü Malenkov dalanı, ev... səkkiz, doqquz, doqquz "a"... aha, otuz dama.

Çantadan götürdüyü qələmi həmin səhifəyə qoyub, elə dəftər əlindəcə dama qalxdı.

Qar yenə də yağmağındaydı, amma əvvəlkinə nisbətən seyrək və narın idi. Qarlı dam örtüyü ayaqları altında quru-quru çırtıldayırdı. Karabinin kəmərini sol qoluna keçirən snayper əlindəki dəftər və patron torbasıyla ehmallıca aşağıya, damın lap ətəyinə endi. Burada navalçaya yaxın bir yerdə artıq pas tutmuş məftillərdən hörülmüş alçaq, metal məhəccər var idi.

Snayper bu məhəccər boyu navalçanın üstünə uzandı, torbasından yağ qoxuyan güllə darağını çıxarıb karabinə taxdı. Bunun ardınca saat kəmərinin altında saxladığı məxmər əskiylə optik nişan linzasını yaxşıca sildi.

– Səkkiz, doqquz, doqquz "a"... – deyib, 8, 9 və 9 "a"nömrəli evlərin arasındakı həyəti gözdən keçirdi, dodaqlarını fit çalar kimi büzüb, nəfəsini buraxdı.

Həyət çox iri idi.

Lap ortada taxta çəpərə alınmış sürüşmə qurğusu, yan-yörəsində uşaq oyun meydançasının köhnə-kühnə "göbələkləri", bir az irəlidə isə qarajlar sırası gözə dəyirdi.

Snayper dəftəri yaxına çəkib, açdı.

Səhifənin baş tərəfində bayaq yazdığı "Üçüncü Malenkov dalanı, ev nömrə 8, 9, 9 "a" qeydi, onun altında isə otuz kvadratdan ibarət ensiz bir düzbucaqlı vardı.

Qoruyucunu boşlayıb, sürgünü geri çəkdi, tüfəngin qundaq hissəmini çiyninə keçirdincə uc tərəfində susdurucu olan qara lülə döşəməyə tuşlandı. Artıq həyətdə – sürüşmə yerində, bina girişlərində, qarajlar tərəfdə – adamlar gözə dəyirdi. Nişangahı qarajlar səmtə

yönəltdi: budur, bir qapı açıqdır, içəridə birisi "Zaporojets" maşınının altında dəbələnir. O biri qarajın yanında da üç nəfər var.

Snayper bu üç nəfəri hədəf seçdi, amma oradan keçən bir qadın görüntünü örtdü. Snayper onu hədəfə aldı. Yaşıl paltolu bir kök qadının bir əlində ərzaq dolu tor zənbil, digərində isə bidon vardı. Hədəfdəki "üstəgəl"i qadının qəhvəyi yaylığına tuşlayan snayper, nəfəsini qısıb, elə həmin hərəkətin davamı kimi tətiyi basdı.

Tanış və küt bir səs gəldi: pdum! Qundaq çiynində bir təkan yaratdı.

Qadın səndələdi, yük tutan əlləri yuxarıya dartındı, ayaqları büküldü. Arxası üstə düşdü. Asfalta düşən boş bidonun cingiltili bir saniyə sonra snayperin qulağına gəlib çatdı.

O üç kişi qadına tərəf qaçdı.

Onların qadına tərəf əyilməsini gözləyən snayper, onlardan birinin peysərinə bir güllə sıxdı. Yoldaşları onu qucaqlayıb, qaraja tərəf sürütmək istədilər, amma ki əbəs yerə, çünki heç ikicə addım atmamış birisi yerindəcə qacıyıb üzüüstə düşdü, digəri isə qarnını tutub, onun böyründə bükülüb qaldı.

Bayaqdan ayaqları "Zaporojets"in altından görünən kişi əlini ətəyinə silə-silə bayıra çıxıb, o üç nəfərə yaxınlaşdı. Bu, ucaboy və kürən birisiydi. Onun başını hədəf götürən snayper atəş etdi. Kürənbala gözə görünməyən çəkic zərbəsi yeyibmiş kimi ikiqat oldu, amma sonra əlini sinəsinə sıxaraq yerindən sıçradı, bir neçə metr qaçıb özünü skamyanın üstünə atmaq istəsə də, onun arxasına yumbalandı.

Snayper darağa yeni güllələr taxdı, lüləni qonan qar dənəciklərinin şehindən təmizlədi, dəftərə tərəf əyilib, beş damaya səliqə ilə "üstəgəl" işarəsi qoydu. Aradan keçən vaxt ərzində qar tamam kəsmişdi, açıq dəftərə ara-sıra düşən qar dənəcikləri daha çox snayperin başı üstündə dövrə vuraraq damın altında yox olurdular.

Üzbəüz binanın girişindən qadınla kişi çıxdı. Snayper nişangahı onlara yönəltdi. Kişi qısa kürk və ağ rəngli xəz papaq geymişdi. Gülümsünərək qadına tez-tələsik nələrsə deyən bu kişi bir əli ilə qadının qoluna girmişdi, o biri, sərbəst əli isə jestlərlə girinc idi. Onu maraqla dinləyən qadın dodaqlarının təbəssümünü Samur xəzli yaxalığına gömməyə çalışırdı.

Kişinin iri papağını hədəfə gətirən snayper tətiyi basdı: pdum! Səndələyən kişi üzüquylu yola sərələndi.

Çaşqın qadın donub qaldı, çantası qolundan sürüşüb düşdü və az sonra onun nisbətən ləngiyən çığırtısı snaypera yetişdi.

"Üstəgəl" işarəsi qadının kürəyinə oturdu.

Pdum!

Yola çökən qadın ağır-ağır bir böyrü üstə düşdü. Yaxınlıqdakı kiçik dükandan çıxan iki qarı yerdə çabalayanları matdım-matdım süzürdülər.

"Üstəgəl" işarəsi onlardan birinin boz yaylığına qondu.

Pdum!

Barmaqlarını şanalayan qarı nənə kürəyi üstə yıxıldı. Digər qarı qışqırıb, yanını basa-basa evə tərəf götürüldü.

Pdum!

Ağbirçək sanki səndələdi, addımını yan atdı. Kötük ayaqları bükülüncə o da yerə sərildi.

Həyətə qırmızı "Moskviç" girdi. Qarajlar tərəfə yan alaraq, tam o ölənlərin yanında durdu. Qapını açan göy jaketli, şişman kişi yerə sərələnənlərə tərəf qaçdı, yerdəki qan gölməçəsini görüncə əllərini, kağız tək ağaran üzünə apardı.

Pdum!

Şişmanın ağzı aralandı, başı geriyə qatlandı, sinəsinin ortasındakı xımxırda dəlikdən qan fəvvarəsi fışqırmağa başladı. Şişman kişi "körpü" vəziyyəti alacaqmış kimi geriyə doğru əyildi, əlləri çənəsinə tərəf uzandı. Bir göz qırpımı beləcə donmaqla geriyə yıxıldı. Tabsız ayaqları titrədi, dombalan gözləri göylərə sancıldı.

Snayper darağa yenə güllələr düzdü, dəftərə daha beş xaç işarəsi qoydu.

Haradasa alt tərəfdən zəif taqqıltı gəldi, görünür, dama yaxın üst mərtəbədə nəfəsliyi açdılar. Bunun ardınca radio səsi eşidildi. Gülünc təsir bağışlayan səsdən və zalda qopan qəhqəhələrdən təxmin etmək olardı ki, radioda Raykinin monoloqonu verirlər.

Təzə qarın bir çimdiyini götürən snayper bunu ağzına atdı.

Vurulmuş qadınla kişiyə tərəf iki nəfər – gen pijama şalvarında bir qocahal kişi və yaxası açıq ev xələtində bir yaşlı qadın qaçırdı.

Oraya birinci yetişən kişi ölü qadının donuq üzünə baxıb, onu silkələdi:

– Saşa! Saşacan! Saşa!

Onun xırıltılı səsi gəlib snaypera çatdı.

Yaşlı qadın ora çatınca qocanı bir yana itələdi, həyəcanla ölən qadının kürkünü açmağa çalışdı. Dizləri üstə düşən qoca başını əllərinin məngənəsinə saldı.

Pdum!

Qocanın başı yerindən oynadı, boynunun ardında tünd qırmızı ləkə peyda oldu. Qurdalansa da, başını qaldırammadı, böyrü üstə qaldı.

Pdum!

Onunla gələn xala da üzünə tutdu, qırışmış əllərinin arasından sürətlə qan axmağa başladı. O da üzüqoylu ölü qadının üstünə yıxıldı.

Snayper nişangahı pəncərələr boyu gəzdirdi.

Tül pərdəni aralayan cavan bir qız dəhşət içində aşağıda olub-bitənləri seyr edirdi.

Pdum!

Qız yıxıldı. Güllə pəncərədə dişli bir dəlik açmışdı.

Bir başqa pəncərənin nəfəsliyini cəld açan qadın da dişarı boylandı, əlini al-qırmızı boyadığı dodaqlarına söykəyib, üzüaşağı nə isə çığırdı.

Pdum!

Güllə nəfəsliyin qırağından bir parça qopartdı, çığırtı qadının ağzındaca qaldı. Özünü aşağı atacaqmış kimi bir az da irəli gəldi, gözləri qara dama daşına döndü. Qolları üstünə düşən başını bir yol qaldırdı, sonra başı yenə ora düşdü. Ağzından daşan qan əllərini bürüdü.

Onun arxa tərəfindən, otağın içindən çığıraraq, yaralıya tərəf cuman hündür kişi xeylağı qadının çiyinlərindən yapışdı.

Pdum!

Kişi də getdi kütə.

Kəllə-mayallaq bir fraza deyən Raykin uzun, ara-sıra fit çıxaran bir qəhqəhəyə başladı. Qəflətən zaldakılardan qısıq səslə nəsə xəbər aldı. Zalda hay-küy yarandı. Raykin sualı bir də, ucadan səsləndirdi. Zalda bayaqkından betər küy qopdu. Uzun pauzadan sonra o, yenə, sakit və ciddi tərzdə sözə başladı. Zal uğunub getdi.

Xaç işarələri qoyan snayper güllə darağını yenilədi və sürgünü çəkdi.

Ölən qarını yerdən qaldıran üç nəfər bina girişinə tərəf yönəldi. Başqa dörd nəfər isə digər qarını yerdən götürdü. Bu dördlükdən ucaboylu, enlikürək cavanı hədəf seçən snayper onun kürəyinin düz ortasına bir güllə sıxdı. Qara çökən cavan oğlan bir saniyəliyinə tabsız əllərini tərpətsə də, qəflətən yerindən qalxıb götürüldü. Amma on addım atandan sonra tab gətirməyib, yerə yumbalandı. Qalan üç nəfər də harayasa əkildi.

Artıq Raykin aramsız nə isə danışırdı, hırıldayan zal onun dediklərini güclə tuturdu.

Snayper bir cavanı nişan alıb, tətiyi basdı. Onun başının yanından ötən güllə digərinin ayağına tuş gəldi.

Snayper:

– Sarsaq... – deyə mızıldandı və yaralının axırına çıxdı.

Raykin yenə qəhqəhə çəkdi, hıçqırdı və son olaraq nəsə çığırdı. Ona ünvanlanmış alqışlar "Sabahınız xeyir!" mahnısına qarışdı. Diktor xanımın gümrah səsi radio dinləyiciləri ilə vidalaşdı.

Qarının cəsədi artıq binanın girişindəydi, göy paltolu qadın giriş qapısını açıq tutmuşdu, iki kişi isə səndələyərək cəsədi içəri salmağa çalışırdı.

Pdum!

Onun arxasındakı kişi taqətsiz halda yerə aşdı.

Pdum!

Digər kişi cəsədin üstünə düşdü. Binanın içinə girən qadın bir an sonra yenə göründü, mərhumun əlini öz ovcuna aldı.

Pdum!

Qıvrılan qadın mərhumun üstünə yıxıldı.

Snayper yeni xaçlar çəkdi. Hələ beş xana boş idi.

Torbasında darağın milçəsini axtarıb tapdı, amma güllə darağı əlindən sürüşüb düşdü, navalçaya dəyərək damın altında görüntüdən qeyb oldu.

– Bircə bu çatmırdı... – deyib snayper yerindən sıçradı, məhəccərdən aşağıya boylandı.

Güllə darağı xırda nöqtə kimi aşağıda, skamyanın böyründə qaralmaqdaydı. Nişangahı bu nöqtəyə yönəldib baxdı – özüdür ki var.

Yenidən məhəccərin dibinə uzandı, güllə darağını yerinə taxıb, aşağılara boylandı.

Həyət bomboş idi.
Qar üstündə bir dəstə meyit qaralırdı.
Qarajlar tərəfdə qaçan ala-bula bir it havanı qoxulayaraq, təşvişlə hürsə də, meyitlərə yaxınlaşmağa ürək etmirdi.
Snayper nişangahı yenidən pəncərələrə yönəltdi.
Az qala bütün pəncərələr pərdəli idi.
Nişangah halqası ağır-ağır pəncərələrin üzərində gəzdi. Bir pəncərədə pərdə azca dəbərdi. Snayper diqqətini topladı.
Pərdə azacıq aralandı və qara fonda gözlüklü bir qoca zühur etdi. "Üstəgəl" işarəsi onun üstünə gəldi.
Pdum!
Pərdə yırğalandı, qocanın üzü fondakı zülmətə qarışdı.
Nişangah yenə də pəncərələrdə gəzişirdi. Aşağıda uğultu qopdu.
Yandakı evin böyründən çıxan boz rəngli "Volqa" həyətə girdi. Ölən cavanın meyitinə çatıb dayandı, qapılar açıldı, qırmızı idman gödəkçəsi geymiş bir kişi və kürklü bir qadın maşından endi.
Kişi qan gölündə üzən cavanı üzüstə çevirməyə başladı, qorxa-qorxa ora yanaşan qadın isə əlləriylə ağzını tutub, başını yırğaladı.
Pdum!
Qısaca çığıran qadın yolun üstünə çökdü.
Pdum!
Kişi də onun böyründə büzükdü.
Snayper qarı ovuclayaraq ağzına basdı.
Dizlərini qarnına yığan kişi kürəyi üstə çevrildi.
Yuxarıdan qanadların çırpıntı səsi gəldi. Snayperin lap yaxınlığına, məhəccərin üstünə qonan lacivərd rəngli göyərçin öz anlamaz baxışlarını ona dikdi. Snayper ona bir çəngə qar atdı. Göyərçin ürküb getdi.
Uzaqda aşağılarda, bir qapı çırpıldı və az sonra yolda bir fiqur qaraltı verdi. Snayper onu nişangaha gətirdi.
Səki ilə bu gələn evlər müdiri idi.
Yerdəki üç meyitə yanaşınca, o dayanıb köksünü ötürdü, gözünü qıyıb pəncərələri süzdü. İdman gödəkçəsi geymiş kişi əvvəlki kimi arxası üstə qalmışdı, "Volqa"nın qapıları açıq idi, motor da çalışırdı.
Meyitə tərəf əyilən evlər müdiri, qəddini düzəldəndən sonra bircə başını bulamaqla yetindi.

Onu nişan seçən snayper barmağını tətiyə aparsa da, açarı ona qaytaracağını xatırladı və fikrindən daşındı.
Evlər müdiri yola düzəldi binanın o biri başında tindən qıvraq hərəkətlə çıxan və əlində nəsə aparan qısaboy qocayla rastlaşdı. Ona sevincək əl uzadan qocaya, başıyla həyəti göstərən evlər müdiri qaşqabaqla nələrsə söylədi.
Eşitdiklərindən qocanın gözləri bərələ qaldı. Evlər müdiri daha nə isə dedi, onu dəhşət içində dinləyən qoca, müdirin arxa tərəfindəki həyəti arabir onun çiyni üstən tələşla süzməkdəydi.
Snayper qocanın başını hədəf götürüb, tətiyi basdı.
Pdum!
Nimdaş qulaqlı papaq qocanın başından bir kənara uçdu: o, qorxudan yerə oturdu, amma qəflətən papağını yerdən qamarlayıb qaçmağa üz qoydu.
Pdum!
Güllə onun çiyninin üstündən keçdi. Qoca tini burulub qeybə çəkildi. Yan-yörəsinə baxınan evlər müdiri də onun ardınca aradan çıxdı.
Yan tərəfə tüpürən snayper yeni daraq taxdı.
Həyət elə əvvəlki kimi bomboş idi. İt ölən cavanın ayağını qoxlayırdı.
Radioda xəbərlər oxunurdu və bir qızın öz atasına qəhqəhələr içində nələrsə anlatdığı eşidilirdi.
Həyətə iki uşaq – bir qızla bir oğlan girdi. Snayper onları hədəfə gətirdi. Onlar sürüşmə qurğusuna tərəf üz tutmuşdular, ayaqları sürüşdüyündən qız oğlanın əlindən möhkəmcə yapışmışdı. Oğlanın danışdığı sözlərə gülən bu qızın beret altından çıxan xırda hörükləri titrəşirdi. Qovaq ağaclığını keçib, onlar qurğuya oturdular, oğlan ürəkli qız isə ürkək-ürkək üzüaşağı sürüşdü.
Snayper oğlanı nişan aldı.
Pdum!
Oğlan yıxıldı, yerində dikələrək ayaqlarını altına yığdı. Ağzından qan axmağa başladı. Yırğalanaraq yanı üstə düşdü.
Qız ona yanaşdı.
Pdum!
Əlləriylə havanı yaran qız buzun üstünə quylandı. Bereti başından düşdü.

Son iki xaç işarəsini çəkən snayper ayın tarixini yazıb imza atdı, dəftəri örtdü. Karabini boşaltdı, atılmış güllə gilizlərini yığıb, torbaya atdı.

Aşağıdan nə isə bir musiqi sədası ucalırdı.

Pəncərədən çardağa keçən snayper, torbanı və dəftəri çantasına qoydu, karabinə qılıfını geyindirdi, bir kənarda qalaqlanmış köhnə izolyasiya materialının üstünə işəyib, qapıya tərəf yönəldi.

Evlər müdiri evdə olmadığından çardağın açarını onun arvadına təhvil verdi.

Həyətə çıxınca ikilinin cəsədləri yanında dayanmış iki nəfərə rastladı.

"Volqa"nın qpıları bayaqkı kimi taybatay açıq idi, motor çalışmağındaydı, radio da nə isə qırıldadırdı. Yaxınlaşan snayperin üzündə bir canıyananlıq uman, rəngi avazımış hündürboy kişi:

– Dəhşətdir... – dedi. Axı buna nə deyəsən, hə? Hanı bizim o tərifli milisimiz? Yəqin domino çırpır hardasa!? Anlayışla başını tərpədən snayper öz yoluna davam etdi.

Üçüncü skamyanın tuşuna çatanda çevik hərəkətlə əyilib darağı götürdü və cibinə dürtdü.

Yandakı evin arxasında mağaza var idi. Lap girişdə sosis satırdılar. Növbəyə duran snayper, özünün bayaq gülləsindən qaçıb-qurtulan qocadan sonra olduğunun fərqinə vardı.

Yarım saatdan sonra növbə qocaya çatdı. Sosisləri torbasına dolduran qoca satıcıya üç manat altı qəpik uzatdı. Dəmir pulları əyri-üyrü qavzana atan satıcı üzünü snayperə tutdu:

– Sizə nə qədər?

– Bir kilo. – sözlərini mızıldayan snayper hazırladığı çantasını bəri başdan irəli itələdi.

ALEKSEY NİKOLAYEVİÇ VARLAMOV

(1963)

AXINTI

(hekayə)

Verstovla Anna bapbalaca dayanacaqda qatardan düşəndə hava hələ işıqlanmamışdı və düşdükləri yerin meşə, yoxsa hansısa insan məskəni olduğunu Anna dərhal anlaya bilmədi. Verstov nəqliyyat axtarmağa yollandı, Anna isə güclə işartısı gələn bu çölləmədə şey-şüylərin yanında tək qaldı. Elə həmin andaca onu ciddi görkəmli, qaraqabaq, yekə-yekə itlər dövrəyə alıb, layiqincə iylədilər, sonra da öz görkəmlərilə yazıq qonağı necə vahimələndirdiklərinin fərqinə varmadan onun böyründə yerə döşəndilər. Soyuğuydu, göydə ulduzlar sayrışırdı: qan-bağır olmuş Anna yanını çantanın üstünə qoyub siqaret yandırdı. Son iki gecəni yaxşı yatmamışdı, yol onu yormuşdu: neçə dəfələrlə bir qatardan düşüb başqasına – adi sərnişin qatarına yox, meşə doğrayanları aparan "kukuşkalara" – minmişdilər və indi ona elə gəlirdi ki, belə uzaqlardan bir də geri, yaşadığı doğma yerlərə, qayıtmaq mümkün olmayacaq.

Qaranlıqda motosikl zırıldadı, Anna əlində közərən siqaretini yaxınlaşmaqda olan adamlardan gizlətməyə macal tapmadı. Güman ki, onlar Annanı gecənin bu vaxtı çöl-bayıra çıxmaqdan qorxmayan yerli adamlardan biri sayaraq hayladılar. Qadın hay vermədən Allaha yalvarmağa başladı ki, adamlar çəkilib getsinlər, ancaq onlar yaxınlaşdılar. Biri kibrit çöpünü yandırıb onun üzünü işıqlandırdı. Yəqin ki, qorxudan dodaqları titrəyən qadının ağarmış sifətinə baxmaq onlara ləzzət verirdi, odur ki, hər dəfə çöp yanıb qurtaranda yenisini alışdırırdılar. Nəhayət, bu əyləncədən istədikləri qədər ləzzət aldıqlarındanmı, yoxsa kibritləri qurtardığındanmı, o cür də,

dinməzcə, çəkilib getdilər. Anna çətinliklə də olsa, ağır çantaları bir-bir dartıb çölləmədən ağacların yanına apardı və orada nəfəsini içinə çəkib gizləndi. O özünü büruzə verməmək üçün ağlamağa da qorxurdu.

Eləcə o, sübh açılana qədər orada oturdu. İşıqlananda isə ətrafda gözünə görünən mənzərə onu gecənin qaranlığındakından az qorxutmadı: tikilib başa çatdırılmamış, pəncərələrinin şüşələri sındırılmış evlərdi, hasarlar uzanıb gedirdi, yerdə neçə illər öncə buralara tökülmüş nəhəng inşaat boruları, məftil, kabel topları və çoxlu ca zir-zibil vardı. Adamların bu dəhşətin içində necə yaşadığını, nə ilə məşğul olduğunu başa düşə bilməyən Anna özünün buralara nəyə görə gəlib çıxdığını anlamaqda çətinlik çəkirdi. O heç təsəvvür eləyə bilmirdi ki, dünyada belə yerlər ola bilər. İtlər də çəkilib gedəndən sonra ətrafa qeyri-adi bir sükut çökdü, yalnız çox uzaqlarda işləyən bir traktorun zəif çırtıltısı eşidilirdi.

Nəhayət, üz-gözünün kir-pasağı aşkarca görünən, pırtlaşıq saçlı Verstov gəlib çıxdı. Annanın içini çəkməsinə fikir vermədən o, ağır çantaları xurcuntayı eləyib çiyninə atdı və onlar palçığı dizə çıxan ara yollardakı gölməçələrin arası ilə gedərək, ağacdoğrayan sexin ətrafa səpələnmiş zir-zibilinin böyründən iti addımlarla keçib getdilər. Anna çadır və yataq kisələri yığılmış, nisbətən yüngül çantanı kürəyinə şələləmişdi, ancaq buna da baxmayaraq, tezcə yorulub əldən düşmüşdü, Verstov isə nəfəs dərmək üçün ona ayaq saxlamağa imkan vermirdi. Gedə-gedə, geri də qanrılmadan Verstov dedi ki, bu gün onların bəxti gətirib: bir həftəymiş ki, nəqliyyat yoxuymuş, ancaq dünən kolxozdan bura müşavirəyə gətirdikləri bir müəlliməni bu gün geri aparacaqlar. Onun arxasınca ayaqlarını güclə sürüyə-sürüyə Anna buralardakı şagirdəbənzər qorxduğun içinə gəlib düşmüş həmin müəlliməni də özü kimi bədbəxt və yamangünlü təsəvvür edirdi. Nəhayət, tamam əldən düşəndən sonra, addım atmağa taqəti qalmayanda, Anna yolun ortasında dayanmış traktoru gördü. Saatdan artıq idi ki, traktorun mühərriki ahəngdar tırıltısını vururdu, arxasına qoşulmuş lafetdə isə bir nçə adam oturmuşdu. Verstov çantaları yuxarı atıb, Annanı da ora qaldırdı. Adamlar sıxlaşıb onlara yer verdilər, ancaq traktorçu öz çantaları üstündə rahatca əyləşmiş turistləri görəndə, nədənsə metal dişlərini və sifətinin bütün zəhmini nümayiş etdirdi:

– Şələ-külənizi tökün aşağı! Kolxoz traktorudu, kənar adamları apara bilmərəm!

Verstov başını əyib traktorçuya nəsə dedi. Şübhəli-şübhəli onu dinləyən sürücü araq tələb etdi. Verstov inkar mənasında başını fırladı.

– Onda düşün aşağı! Tez olun. Aşağı! – traktorçu hirsləndi.

Verstov məbləği iki dəfə artırdı.

– Yaxşı, ver gəlsin! – traktorçu bir az da artıq nifrətlə dedi.

Sürücü yenə də harasa çıxıb getdi və yarım saatdan sonra pencəkli bir yastı-yapalaq kişilə ləngər vura-vura qayıdanda, başını yelləyə-yelləyə öz-özünə donquldanırdı. Yastı-yapalaq kişi traktorun arxasına keçərək, heç kimi vecinə almadan şalvarının qabağını açıb işədi və qoltuğundan yarımçıq butulka çıxartdı. Traktorçu butulkaya bir dərin qurtum vurub, çətinliklə kabinaya qalxdı və Anna yuxarıda öz yerini tutmamış bu dəlisov dəmir at yerindən götürülüb, hələ yatmaqda olan qəsəbə boyu, döngələrdə və enişlərdə də sürətini azaltmadan çapdı.

Ensiz, bərbad yol gah yoxuş boyu qalxır, gah da enirdi. Yolun yuxarı yerlərindən baxanda, artıq günəş şəfəqlərinin sancıldığı, uzaq çöl genişliyi və qoca dağ silsiləsinin meşə ilə örtülmüş ətəkləri görünürdü. Traktor eniş boyu aşağı cumanda isə onlar yarıqaranlıq meşənin ağır havasının rütubətli nəmişliyinə düşürdülər. Lakin Anna bütün bu gözəlliyi görmürdü. O, ikiəlli, lafetin soyuq dəmir bortundan möhkəmcə yapışaraq fikirləşirdi ki, sərxoş traktorçu arxasınca dartışdıra-dartışdıra apardığı bu arabanı mütləq aşırıb, onları xurd-xəşil edəcək. Öz bostanlarında işləyə-işləyə qaralmağa macal tapmış, başı yaylıqlı, sırıqlı və qalın yubka geymiş, naməlum yaşlı qadınlar maraqla Annanı süzürdülər, ancaq onlardan heç biri gecələr şeir oxuyan nərmənazik müəlliməyə oxşamırdı. Onların nə danışdığını Anna başa düşə bilmirdi, hərçənd ki, danışdıqları ləhcədə aydınca səslənən söyüş və digər biabırçı sözlər ona xəcalət verirdi. Qadınların ona niyə belə maraqla baxdığını Anna anlaya bilmirdi, ancaq hərdən üzünə dirənən iti qarı baxışları ona xatırlamaq istəmədiyi bəzi şeyləri xatırladırdı.

– Yaman tezdən gəlmisiniz, – qarılardan biri Verstova müraciətlə dedi. – Bəs bu kimdir, arvadınızdır?

Verstov susdu, Anna isə utandı. Və nə deyəcəyini, bu vəziyyətdən necə çıxacağını təsəvvür eləyə bilməyən Anna gözlərini yumub, özünü mürgü vururmuş kimi göstərdi. Sonra o həqiqətən də mürgülədi və böyründə oturduğu, ümumi söhbətdə iştirak etməyən qoca kişiyə söykənərək, yarıyuxulu vəziyyətdə harada olduğunu heç cür özü üçün müəyyənləşdirə bilmədi. Qatar, "kukuşka", traktor – hamısı bir-birinə qarışmışdı və ona elə gəlirdi ki, o, əsrin sonunadək beləcə yol gedəcək. Traktorun getdiyi təkər izləri palçıq içində ensiz arxları xatırladırdı, enişlərin dibində bulaq axarları ilə kəsişəndə o izlər büsbütün su ilə dolmuş olurdu və həmin yerlərdə traktor lafetin təkərlərini zorla dartışdırıb palçıqdan çıxara bilirdi. Annanın yeri çox narahat idi, ağırlaşmış kirpiklərini qaldırmağa onun sanki gücü çatmırdı. O yalnız dərələrdən birinin dibində traktor dayananda ayıla bildi.

Qatı dumana bürünmüş bu dərədə traktorun tırıltısından başqa o, nəsə sabit bir şırıltı eşitdi və həmin andaca suyun kəskin iyini duydu. Verstov çantaları yerə tullayandan sonra Annanın aşağı enməsinə kömək elədi. Yol boyu sərxoşluğu tamam keçib qurtarmış traktorçu narahatlıqla onların böyür-başında vurnuxurdu.

– Bircə stəkan da verməzsən? – o, astaca, əzablı səslə soruşdu.

– Ölürəm, gedib çatammayacam.

Verstov üz-gözünü turşutdu, çıxartdığı plastik butulkadan traktorçunun parçına spirt tökdü. Traktorçu spirti başına çəkdi və bir neçə saniyəlik əzablı ləzzət keyliyindən sonra nəfəs alıb, heyranlıqla ətrafa baxdı. Bir neçə saat əvvəl sürücünün qəsəbədə butulkanı başına çəkməsinə sakitcə tamaşa eləmiş arvadlar elə həmin dəqiqədəcə yerbəyerdən etiraz səsi qaldırıb. Verstovu söyməyə başladılar. Arvadlardan birinin xüsusi ilham və ehtirasla söyməyindən Anna məhz onun müəllimə olduğunu yəqin etdi. Traktor razılıqla fınxırıb, az qala lafetin döşəməsinə qədər qalxan suyun dərinliyinə girdi və çıxandan sonra o biri sahildə it kimi silkinə-silkinə gözdən itdi.

Boğazlarını qıcıqlandıran səhər dumanı onları elə bürümüşdü ki, çayı güclə görürdülər. Soyuqdan üşüyə-üşüyə, gecənin yuxusuz yorğunluğundan sonra onlar düşdükləri bu yeni vəziyyətdə yaranan sakitliyi hər hansı bir ehtiyatsız söz və ya hərəkətlə perikdirəcəklərindən qorxurdular. Günəş artıq meşənin üstündə dayanmışdı, ancaq dumanı dağıtmağa hələ onun gücü çatmırdı, odur ki, öz

şüalarını siqaret tüstüsü ilə dolu zalda kinoproektor şüaları kimi bu dumana sancmağa məcburdu. Verstov çantaları açıb, şey-şüyü çıxartmağa başladı, Anna isə sahilə yaxınlaşdı. Onun ayaqlarının altında şəffaf su sürətlə axırdı. Suyun dibində böyük, kiçik daşlar, yosunlar və tez-tez kölgə kimi peyda olub itən tünd rəngli, balaca balıqlar görünürdü. Bəzi yerlərdə su böyük daşların üstünü örtə bilmədiyinə görə onların ətrafında hikkə ilə fırlanır, köpüklənir və burulğan yaradaraq keçib gedirdi. Anna bütün bunlara sehrlənmiş kimi, heyran-heyran baxırdı: həmin andaca onları əldən salmış yol, dəhşətli qəsəbə mənzərəsi və sərxoş traktorçu Annanın yadından çıxdı və onu bu uyumuş vəziyyətdən gizlicə arxadan yaxınlaşmış Verstovun ötkəm səsi çıxartdı. Verstov deyirdi ki, Anna ondan on metrdən artıq məsafəyə uzaqlaşmasın.

Demək olar ki, sal artıq hazır idi. Verstov çay tədarükü görən Annanı tələsdirirdi. O, əsəbi idi və Annanın şəhərdə tanıdığı yumşaqtəbiətli adama qətiyyən oxşamırdı. Çayı da ayaq üstdə içirdi, ayaq üstdə siqaret çəkirdi və onun üzünə heç baxmırdı. Ancaq bir saat sonra hava doldurulmuş narıncı rəngli xilasetmə salı suyun üzündə yırğalananda və onlar bütün şey-şüylərini o salın üstünə yükləyəndə, duman artıq çayın üstündən büsbütün çəkilib getmişdi və çay aşağılarda dönüb, dağların arxasına girdiyi yerlərə qədər aydınca görünürdü. Onlar torpaqla üzülüşüb, kiçikliyinə görə bu dağlarla müqayisəyə gəlməyən, üfürmə uşaq oyuncağını xatırladan bu gəminin yumşaq, ləngərli səthinə ayaq basmağa sanki tərəddüd edirdilər. Nəhayət, Verstov Annanı qayğıkeşliklə yumşaq çantanın üstündə əyləşdirib, avar kürəyini ona verəndən sonra özünə gəldi və onun qırxılmamış üzündə uşaq təbəssümü bərq vurdu, sanki dəlisovluqla çağlaşan bu axar sular onun əsl məskəni və oylağı idi.

Həmin gün onlar çay aşağı çox üzdülər. Çay boyu onlar bir neçə kənddən keçdilər. Bu kəndlərin yanından keçəndə, çayda paltar suya çəkən arvadlar əllərini gözlərinin üstünə qoyub onlara baxırdılar, bircə dənə də olsa balıq tutmaqdan ötrü çaya qarmaq sallamış oğlan uşaqları onlara nəsə qışqırışırdılar. Ancaq onlar başlarının üzərindəki tərpənməz göy üzündən və kürəklərin hər hərəkətindən sonra arxada qalan qayalıq sahillərdən başqa ətrafda heç nəyə fikir vermədən hey üzür, üzürdülər. Hərdən qayalıqlar geri çəkilib, onlara yaşıl otlarla örtülü talaları göstərirdi. Günəş öz parlaqlığı ilə

ətrafda hər şeyi işıqlandırsa da, isti deyildi və Anna qollarının işləməsindən böyük ləzzət alırdı. Sonra o birdən fikirləşəndə ki, bu sahillər və bu qayalıqlar da həyatdakı bütün şeylər kimi heç zaman təkrar olunmayacaq və tezliklə yaddan çıxacaq, qüssələndi.

Anna bu cür ani və sadə bir fikrin axarı ilə sürüşərək, daha qüssəli yerlərə gedib çıxdı: o fikirləşdi ki, yaşlaşıb və ən yaxşı illəri artıq arxada qoyub; o daha əvvəlki qədər gözəl və sağlam deyil və o daha təkcə gələcəyə yox, həm də keçmişə boylanmalı, təkcə ümidlərə yox, həm də xatirələrə qapılmağı bacarmalıdır. Gənclikdə onun dəhşətli dərəcədə gözəlliyi və kişilərin ağlını-başından çıxaran bir ilahə görkəmi vardı, hamı onu inandırırdı ki, o xüsusi bir ömür yaşamaq üçün yaranıb. Ancaq gözəllik ona xoşbəxtlik gətirməmişdi və onun həssas yaddaşında həqiqətən də xatırlamağa layiq şeylər elə də çox deyildi. Əvvəllər inanırdı ki, qarşıda onu yaxşı şeylər, əsl həyat gözləyir, ancaq burada, çayda üzə-üzə o hiss etdi ki, artıq zirvəni aşıb və yarısı arxada qalmış öz həyatı Annaya eybəcər göründü.

O, su içməyi bəhanə edərək aşağı əyilib, artıq solmağa başlamış sifətinin suda əksinə baxanda, gözlərinin yaşını saxlaya bilmədi və dərhal da fikirləşdi ki, yaxşı ki, o, salın burun tərəfində oturub və Verstov onun üzünü görmür. Sonra o, yayın boğanaqladığı şəhərdə qoyub gəldiyi öz uşaqlarını, onların nənəsinə (öz anasına) yalandan guya ezamiyyətə göndərildiyini deməyini xatırladı və bu yalanın ürəkbulandırıcı xıltını öz içində hiss etdi. Adamın iliklərinə işləyən günəşli gün sönüb öz gözəlliyini itirdi. Annanı bədbinlik bürüdü və o evə qayıtmaq istədi.

Verstov heç nə hiss etmirdi, o özünə gəlib, xeyli şənlənmişdi: çay boyu bir neçə dəfə qarmaq atıb bir dənə böyük çəki balığı tuta bilmişdi və onlar gözəlliyilə seçilən uca sahillərdən birində dincəlmək üçün dayananda o, balıq şorbası bişirib, sərinləmək üçün suya qoyduğu araq butulkasını gətirməyə getdi. Onun belə əl-ayaq eləməsinə baxan Annanın da fikri bir az dağıldı: o da məmnuniyyətlə çörək yedi, indiyə qədər zəhləsi gedən arağı metal parçdan kişilər sayağı, məmnuniyyətlə içdi. O bu gecə keflənmək istəyirdi. Külək kəsmişdi, qaladıqları tonqal alışıb-yanırdı, aşağıdakı sərt döngədə çay şırıldayırdı, ulduzlar sayrışırdı. Sonra dağların arxasından bütöv bir ay çıxıb, talanı işığa və kölgələrə ayırdı. Haradansa, aşağı

meşədən gücənən bir quşun səsi gəlirdi: hər şeydə sirli bir nəfəs və vahimə vardı, ancaq tonqal öz işığı və alovu ilə onlara təhlükəsizlik duyumu verirdi. Balıq şorbası yeyilib qurtarandan, araq içiləndən sonra Verstov Annaya şəhvətli baxışlarla baxmağa başladı və bu baxışlar Annanın ürəyini bulandırdı. Bu tələbkar baxışın nə demək olduğunu o başa düşürdü: öz-özlüyündə, onların bir çadırda yatmasının məna və nəticələrini də o əvvəlcədən anlayırdı. Ancaq nədənsə burada – çayın sahilində, qayaların, göyüzünün və suyun əhatəsində, kədərli ay işığının altında bütün günü ona əzab vermiş düşüncələrdən sonra Anna tam yəqin etdi ki, Verstov onun xoşuna gəlmir, heç zaman da gəlməyib, indisə tamamilə ondan zəhləsi gedir. Hiss etdi ki, indi onun ürəyi, ümumiyyətlə, kişi yox, nəsə başqa bir şey istəyir. Anna Verstova bunu demək istəyirdi, lakin Verstov yarısərxoş halda onu öpməyə çalışırdı.

Birdən Anna gecə dəhşətli tənha fənər işığının ləkəsi düşmüş çölləmədəki oğlanları, ətrafında torpağa döşənib onu qoruyan itləri xatırlayaraq Verstovu kənara itələdi:

– Mənə yaxınlaşma!

Eşqi başına vurmuş, az qala özünə nəzarəti itirmiş, güclü Verstov bir anlığa dayandı. Anna qaranlıqda onun gözlərini görə bilmirdi, ancaq elə bil hiss edirdi ki, Verstov indi məhz həmin alçaldıcı kişi baxışlarını onun üzünə zilləyib. O cür baxışla kişilər adətən hansısa səbəb üzündən tabe olmağa borclu olan qadına baxırlar. Eyni zamanda, Anna başa düşürdü ki, onun istəyini yerinə yetirməməyə daha gücü çatmayacaq və ona görə də bu təhqiri axıra qədər qəbul etməli olacaqdır. Sanki onun üzərində öz labüd hökmranlığını nümayiş etdirmək üçün münasib anı gözləyəndən sonra Verstov istehza ilə gülümsünərək, yataq kisəsinə girib üzünü o yana çevirdi.

Səhər Verstov başının ağrısından əziyyət çəkə-çəkə ocaq qalayanda, özünü onun qarşısında günahkar sayan Anna incik yox, üzrxahlıq dolu səslə dedi:

– Yaxın kəndlərin birinə çatanda, mən çıxıb şəhərə gedəcəyəm, – və fikirləşdi ki, növbəti gecəni qalası olsa, hətta bu birinci və axırıncı dəfə olsa da, onunla yatmaqdan imtina etməz.

Ancaq Verstovun üzündə Anna heç bir peşmançılıq və inciklik ifadəsi görmədi.

– Ən yaxın kəndə qədər üç yüz kilometrdən artıq yol var, – o sakitcə dedi və çadırı bükməyə başladı.

Bir-birinə oxşar günlər təkrar olunurdu: qaş qaralana qədər üzürdülər, axşamlar isə tələm-tələsik şam yeməyini yeyib yatırdılar ki, səhər tezdən qalxıb, axşamdan qalma dadsız xörəyi qızdırıb yeyəndən sonra yenidən üzməyə başlasınlar. Çay daha Annaya elə gözəl görünmürdü, bütün bu uca qayalar, meşələrlə örtülmüş dağlar da təkrar olunan eyni mənzərədən başqa bir şey deyildi. Anna özünün kobudlaşıb, döyənək bağlamış əllərinə, qaralıb codlaşmış sifətinə baxmağa belə qorxurdu. O hiss edirdi ki, traktorda birgə gəldiyi qadınlara oxşamağa başlayıb, Verstov isə ona yalnız komanda verirdi: sağ, sol, əks! O da təlim görmüş it kimi bu əmrləri yerinə yetirirdi, hərdən də fikirləşirdi ki, bəlkə elə o nahaq yerə özünü bu fikir-xəyallarla əldən salır, bəlkə elə Verstovun onu özü ilə bura gətirməkdə məqsədi ondan sanki radioqəbuledici kimi istifadə etmək, yəni istədiyi vaxt işə salıb, istədiyi vaxt söndürmək olub. Anna fikirləşdi ki, onun yerində it olsaydı belə, Verstov o itə müəyyən qulluq, qayğı göstərməli olacaqdı. Hər axşam yatağa girəndə, Anna nəyinsə xəcalətini çəkirdi, utanırdı...

Neçə illər öncə onlar institutda bir oxumuşdular. Verstov ona vurulmuşdu, ancaq Annanın ətrafında daha maraqlı oğlanlar fırlandığı üçün onu rədd edib ərə getmişdi. Sonra uşaq doğub, ərindən ayrılmışdı. Verstov hərdən ona zəng vururdu, ordan-burdan danışırdılar, hərdən bekarçılıq üzündən görüşürdülər də. Annanın taleyi müxtəlif cür gətirirdi: o gah xoşbəxt olurdu, gah bədbəxt olurdu; sonra yenə ərə gedib, yenə də uşaq doğdu, yenə də ərindən boşandı və bu illər ərzində dəyişməyən Verstovu daha çox qiymətləndirməyə başladı. Evli olub-olmadığını o, Verstovdan heç zaman soruşmurdu, açığı, bu onu heç maraqlandırmırdı da. Yalnız eşitmişdi ki, o, kifayət qədər zəngindir, deyirdilər ki, o özünü yaxşıca tutub, tələbəlik illərilə müqayisədə o doğrudan da xeyli dəyişmişdi, kişi kimi oturuşmuşdu, əsl ər görkəmi vardı, ancaq Anna bütün bunlara o qədər də əhəmiyyət vermir və özü üçün bir kişi kimi onu qəbul etmirdi.

Nə vaxtsa bir dəfə "Vermut" içizdirərək onu ələ gətirmək istəyən bambılı oğlanın obrazını onun yaddaşından heç nə ilə sıxışdırıb çıxarmaq mümkün deyildi. Bəlkə də o vaxt Verstov onu ələ gətirib, öz istəyinə nail ola bilərdi, ancaq onun həyəcandan tez-tez tualetə

qaçması arada Annanı elə əsəbiləşdirdi ki, növbəti dəfə Verstov tualetə qaçanda, o tez paltarını geyinib aradan çıxdı. Bu əhvalatı Anna heç zaman ona xatırlatmırdı, o da, deyəsən, bunu unutmuşdu, indisə ona baxanda, belə bir işin onun başına gəldiyini heç cür təsəvvür etmək olmazdı. Onlar adətən kənar şeylər haqqında söhbət edirdilər, Anna hərdən öz həyatından ona gileylənirdi, hərdən heç bir rəfiqəsinə aça bilməyəcəyi sirlərini ona danışırdı. Sonra Verstov aparıb onu evə ötürürdü və heç zaman yuxarı, mənzilə, qalxmırdı və onların münasibəti bu tərbiyəli görüşlərin çərçivəsindən kənara çıxmırdı. Görünür, elə məhz buna görə onların münasibəti belə uzun müddət davam edə bilmişdi və indi Anna fikirləşirdi ki, gərək hər şeyi olduğu kimi saxlayaydı, onunla heç yerə getməyəydi. Bəlkə də həmin il çox sevdiyi adam Annanı atmasaydı, o getməyəcəkdi. Anna özünü o qədər itirmişdi ki, başına hava gətirəcək qəm-qüssədən qurtulmaq üçün Verstovdan və bu axıntıdan yapışası olmuşdu. O, hər şeyi danışmağı adət və etibar etdiyi adama ürəyini boşaltmaqla toxtamaq, sakitləşmək istəyirdi. Ancaq bütün kişilərə xas olan şəhvət hissilə dolu baxışlarla burada da qarşılaşanda, Anna gəldiyinə peşman oldu.

Qarşıdakı çox gecələri beləcə, bu hökmlü və bacarıqlı adamla bir yatağa girib, özündən güclü kimsədən asılı vəziyyətə düşmüş qadın kimi, itaətkarlıqla onun istəklərini yerinə yetirmək olardı. Ancaq nəsə mane olurdu... Nəsə çox incə, gözlə görünməyən, izaholunmaz bir şeyə görə onların bu münasibəti yarana bilməmişdi və Anna başa düşürdü ki, bu vəziyyəti heç cür dəyişmək mümkün deyil.

Bir dəfə onlar kiçicik bir kəndin yanından üzüb keçirdilər. Verstov bidonu götürüb kənddə süd axtarmağa getdi, Anna da onun arxasınca addımladı. Kənd, daha doğrusu, üç evdən və təpənin üstündə yerləşən kiçik ibadətxanadan ibarət bu mənzərə Annanın ürəyini yerindən oynatdı. Onların bu səfərinin başlanğıcında qalmış stansiya qəsəbəsi nə qədər eybəcərdisə, çayın yuxarı axınlarında insanların tərk etdiyi bomboş kəndlər nə qədər darmadağın və talanmış görkəmliydisə, bu kənd, əksinə, bir o qədər diri, canlı və təbii idi, sanki öz mövcudluğu ilə insan yaşamayan bu yerlərin gözəlliyini tamamlamaq üçün burada salınmışdı. Evlərin həndəvərində arı yeşikləri vardı, sahilboyu çəmənlikdə inək və iki at gəzişirdi. Kəndi böyük dünyaya bağlayan yol-riz, elektrik məftilləri, traktor,

kombayn-filan – heç nə gözə dəymirdi. Allah bilir, burada yaşayan adamlar nə ilə məşğul olurdular, ancaq birdən Anna istədi ki, burada qalıb, öz taleyini tapa bilmədiyi, xoşbəxt ola bilmədiyi doğma yerlərə bir də qayıtmasın. Kənddə azacıq fırlanandan sonra Anna su içmək istədi və quyuya yaxınlaşaraq, doldurduğu vedrədən su içməyə başladı. Su çox dadlı idi, Anna dodaqlarını vedrədən ayırmadan içir, içirdi. Bu vaxt isə əlində bidon və böyük çörək kömbəsi tutmuş Verstov günəşdən qaralmış bir qarı ilə evin pilləkənləri üstünə çıxdı. Qarı Verstova mehribancasına belə deyirdi:

– Allah xatirinə, atam, nə pul! Çörəyi pulnan verməzlər! Bu çörəyi biz özümüz bişiririk, unu da öz taxılımızdan üyüdürük. Çöldə dəyirmanımız var, hər şeyi bizə Allah yetirir.

Qarının xeyirxah, sadəlövh üzü vardı və fikrində onun xoşuna gəlmək, onun rəğbətinə layiq görülmək üçün Anna onunla salamlaşdı, ancaq quyunun böyründə dayanmış Annanı görcək qarının sifəti dəyişdi, o, vay-şivən qoparıb, yaxaladığı Annanı özündə olmayan dəli kimi silkələməyə başladı.

– Sən gör nə etdin?! – qarı qışqırdı. – İndi mən neyləyəcəyəm, Allah? Mənim üçün kim bulaq qazacaq?

Anna, əlində vedrə, dayanıb baxırdı və qarının hansı bulaqdan dəm vurduğunu başa düşmürdü. Ancaq Verstovun hirsdən ağappaq ağarmış sifətindən görürdü ki, həqiqətən də nəsə dəhşətli bir səhv eləyib. O özünə bəraət qazandırmaq üçün dili dolaşa-dolaşa nəsə dedi, ancaq qarı onun üzünə eynilə onun stansiyada hamının gözü qarşısında traktorun təkərinə işiyən yapalaq kişiyə baxdığı nifrət və iyrənckliklə baxırdı. Anna qorxdu və üzüaşağı qaçdı. Arxasınca tolazlanmış ucuz, tənəkə dəmirdən qayırılmış vedrə danqıldayıb çaya düşdü. Anna sala minib, hönkür-hönkür ağladı. Bu hönkürtüdə və axan göz yaşlarında arxada qalmış günlərin və gecələrin, yolun, üzücü qaradinməzliyin yorğunluğu, Verstovda yanılmağının, ən çoxu isə ilk görüşdəncə ürəkdən bağlanmaq istədiyi bu kənddən aldığı zərbənin ağrı-acısı vardı. O, Verstovu görmürmüş kimi, sanki onu unudaraq ağlayırdı və ağlaya-ağlaya da qarının nəyə görə belə hiddətlənməsini anlamağa çalışırdı. Və birdən o çoxdan olub keçmiş bir hadisəni xatırladı.

O, institutun birinci kursunu təzəcə başa vurub, folklor ekspedisiyasına getmişdi. Xeyli gülməli görünən iki şəhərli qız və utancaq

bir oğlan (qrupun yeganə oğlanı) kəndli daxmalarını gəzib sakinləri sorğu-suala tuturdular. Bir dəfə onlar bir qarının daxmasına gəldilər, hamı deyirdi ki, qarı cadugərdir. Qarı isə onlara heç bir cadunun sirrini açmaq istəmirdi və cadugərliyini də boynuna almırdı. Ancaq Anna əl çəkmək istəmirdi, ömrünü başa vurmaqda olan bu qarıdan heç olmasa bircə dənə cadunun sirrini, sözünü öyrənmək istəyirdi. Onun dil tökməsinə, yarvarışlarına məhəl qoymayan qarı susurdu, bəlkə doğrudan da heç bir cadu-filan bilmirdi. Ancaq onlar yığışıb, daxmanı əliboş tərk etmək istəyəndə, qarı sınayıcı nəzərlərlə Annanın və onun rəfiqəsinin üzünə baxıb, birdən dedi:

– Qızlar, burada kimsə bakirə deyil ha-a...

Rəfiqəsi pıqqıldadı, pul kimi qıpqırmızı olmuş Anna isə utandığından nə edəcəyini bilmədi: həmin an yer ayrılsaydı, yerə girərdi. Anna oğlanın diqqətli baxışlarını kürəyində hiss etdi və daxmadan çıxıb qaçmamaq, hamının gözü qabağında hönkürüb ağlamamaq üçün bütün gücünü və iradəsini toplamalı oldu.

İllər keçdikcə o bu hadisəni unutdu, onun həyatında da nələrsə dəyişdi və on səkkiz yaşında özünün bakirə olmamağının xəcalətini çəkmək sonra ona gülünc göründü. İndi quyu məsələsindən sonra Annanı yenə də həmin xəcalət hissi çuğladı: onun sifəti yenə də qıpqırımızı oldu, o, nəsə böyük bir günah etmiş kimi dəhşətə gəldi, sanki bu, hər şeyi bilən, öz aralarında gözəgörünməz tellərlə bağlı olan cadugər kənd qarıları onun yenə buralarda olmağını bir-birlərinə xəbər vermişdilər. Qarılar onu sürüdən ayrı düşmüş təpəl qoyun kimi küzə salıb deyirdilər ki, o, həyatını düzgün yaşamır; deyirdilər ki, artıq onun yaşı otuzu keçib, ancaq hələ də onun əri, hətta daimi bir kişisi də yoxdur; deyirdilər ki, onun uşaqları nənələrilə yaşayır, o isə hələ də on beş yaşlı qız uşağı kimi budaqdan-budağa pırıldayır və başa düşmür ki, gülünc hərəkətlər edir, çünki sevib-sevilmək vaxtı keçib getdi. O qarıların belə fikirlərinə müqavimət göstərirdi, onun patriaxal qanunlardan xoşu gəlmirdi – keçmişin qalıqları sayılan o axmaq qanunları dünya çoxdan ləğv etmişdi, o da qarılara deyə bilərdi ki, zamanın axarına mane olmağa cəhd etmək səfehlikdir – bu axar onların böyründən keçib çay kimi aşağı gedir, o isə sahildə dayanıb qalmaq istəmir. Onun sözünü danışmağa, onun hərəkətlərinə qiymət verməyə onları kim qəyyum edib? Amma orada, onun kimi, hətta ondan da azad həyat sürən

milyonlarla qadının qınaqsız və tənəsiz yaşadığı yerdə, deyə biləcəklərinin burada qətiyyən mənası yox idi. Burada o hətta onlarla bir quyudan su belə içə bilməzdi.

Hirsli və qaraqabaq Verstov yenə də dinməzcə oturmuşdu. İndi o, Annaya birinci gecə çadırdakından da yad və adamayovuşmaz göründü. O, qarıya haqq qazandırırdı, Anna isə mümkün qədər dərindən vurduğu avarları var gücü ilə çəkirdi ki, bu lənətə gəlmiş kənddən tez uzaqlaşa bilsin. O fikirləşirdi ki, həyatda hər şeydən artıq qocalığa nifrət edir; bu qocalıq onun xəyalında dəhşətli, eybəcər, qırışlı, acıdil idi və bütün bunlar həqiqətən də onun qocalığının bəzəyi olacaqdısa, o bu küpəgirən qarılardan birinə çevrilməyin cüzi bir əlamətini öz canında və qanında hiss edən kimi öz həyatını dayandırmağın yolunu tapa bilərdi. Ancaq özündə nifrəti nə qədər qızışdırmağa çalışsa da, özünə bəraət qazandırmağa nə qədər cəhd etsə də, axında keçirdiyi günlər ərzində ilk dəfə özü-özündən həqiqətən də dəhşətə gəldi. Birdən o aydınca başa düşdü ki, o sadəcə özünün iki həftəlik məzuniyyətini korlamayıb, həm də özü üçün əziz olan bir adamı, daha doğrusu, o adam haqqında içində yaşatdığı gözəl qənaətləri itirib. Eyni zamanda, o fikirləşdi ki, onun başına gələn bütün bu həngamələr kiminsə naməlum məqsədlərlə ona qarşı qurduğu qəsdin nəticəsidir. Daha doğrusu, belə çıxırdı ki, bütün bu qəsdi quran utancaq oğlan uşağıdır; ekspedisiyadakı qızların onun yanında utanıb-çəkinmədən paltar dəyişdiyi, trusik qurutduğu və hər şey haqqında danışdığı üzü sızanaqlı oğlan öncə kənd daxmasında onun rüsvayçılığının şahidi oldu, sonra ucuz "Vermut" içizdirib, onun işinə baxmaq istədi, indi isə sanballı bir kişiyə çevrilmiş həmin oğlan onunla bir salın üstündə kimsəsiz tayqa çayı ilə üzüaşağı üzürdü.

Anna yatmağa getdi, ancaq Verstov bilirdi ki, yatmazdan öncə o xeyli ağlayacaq və yalnız bundan sonra yuxuya gedəcək. O, tonqalın böyründə oturub, siqareti-siqaretə calayır və eşitdiyi asta hönkürtüyə fikir verməməyə çalışırdı.

"Axmaq qadın, bu cür bir axını özü üçün korladı", – o yüngüllüklə fikirləşdi və yenə araq çıxardıb qurtum vurdu, sonra isə tündləşmiş suya yaxınlaşdı. Sanki hər şey çox yaxşı alınmışdı. Onların axını uğurla başlamışdı, çay yerində idi, on iki il ərzində yer üzünün ən incə və kövrək şeylərindən biri olan bu axar suyun başına azmı

işlər gələ bilərdi! Ancaq çay əvvəlkitək dağların sirli dərinliyində bulaqların şırımlarından doğularaq, qayalara səs sala-sala üzüaşağı axıb, dərələr boyunca çevik və inadkar bir məcra yaradırdı. İllər keçməsinə baxmayaraq, çay onun qayıdışını gözləmişdi, onu sevinclə qarşılamışdı, ona qarşı bütün kin-küdurətini unutmuşdu, ondan öz səxavətini əsirgəməmişdi, uzun müddət ərzində onu xatırlamamağını bağışlamışdı. Bir vaxtlar yavaş-yavaş özünə gəlməyə başlamış Verstov baş götürüb dünyanı gəzməyə getmişdi və çay onun bir-birinə bənzəyən bu ölkələrdən, nəhayət, bezib qayıtmasına səbirlə davam gətirmişdi. Əvvəllər həmin ölkələr Verstovu heyran edirdilər, ancaq bir neçə gün keçəndən sonra o özünü çox pis hiss etməyə başlayırdı. O ölkələrdə başa düşmədiyi dil onu əsəbiləşdirirdi, necə geyinməsindən asılı olmayaraq, oralarda onun əcnəbi olduğunun dərhal bilinməsi onu özündən çıxarırdı və o, təmiz, səliqəli, qanunpərəst həmin ölkələrdən yol polislərinin rüşvət aldığı, bina girişlərinin hələ də ictimai tualet rolunu oynadığı məmləkətə qayıdanda rahatlıqla nəfəs alırdı. Onun həyatında hər şey yaxşı gedirdi, o qədər yaxşı gedirdi ki, hərdən o bundan yaxşısını sadəcə arzulamağa belə qorxurdu. Ətrafda isə yuxarı yüksəlmək üçün ondan da böyük imkanlara malik nə qədər ağıllı, hər şeyi dəqiq hesablaya bilən adamlar vardı, ancaq onların arasından heç də hamısı o yüksəkliyi qaxa bilmədi, qalxanların da çoxu orada qərar tutub dayanammadı, ya da yolunu azdı. Onun dostları həyatın belə gərdişinə tab gətirmirdilər, içkiyə qurşanırdılar, borca düşürdülər, çıxıb xaricə gedirdilər və orada da Avropa, Amerika qayda-qanunlarını nə vaxtsa özlərinə doğma saydıqları qayda-qanunlardan da artıq söyməyə, lənətləməyə başlayırdılar. Bu söhbətləri dinləmək onun üçün darıxdırıcı idi. O, bir xurafatçı itaətilə fikirləşirdi ki, Allaha şükür, o cür işlər onun başına gəlmədi: o öz doğma torpağında yaşayır, hər şeylə təmin olunub və gələcəyinə görə də narahatlıq hissi keçirmir. Allaha şükür ki, ağıllı tərpənib, bir dəfə öz qarşısında açılmış həqiqətən ciddi perspektivdən imtina etdi: istəmirdi ki, bir gün vurulub öldürülməyin, ya da uşaqlarının oğurlanmasının daimi qorxusu və səksəkəsi altında yaşasın.

... Havaya görə onların bəxti gətirmişdi, onlar marşrutu gözlədiklərindən də böyük sürətlə keçirdilər, deməli, çox da dəridən-qabıqdan çıxmaq lazım deyildi – səhərlər gec durmaq, axşamlar isə

salı bir az erkən qırağa çəkib, sahilə qalxmaq və istirahət etmək olardı, ancaq nəsə Verstova rahatlıq vermirdi. Çayın mehribanlığı da, göyüzünün və zirvələrin şəffaflığı da həddən artıq aldadıcı görünürdü, onların salı çayın axarındakı təhlükəli pillələri və astanaları gözlənilməz çevikliklə, asanlıqla keçib gedirdi; onlar bu yolu həddən artıq rahatlıqla qət edirdilər, qəribədir ki, o hətta buna görə də müəyyən peşmançılıq hissi keçirirdi, sanki çaydan özünə qarşı gözlədiyi münasibətin tam əksi baş vermişdi.

Çadırdan gələn hıçqırtı kəsilmişdi, gedib yatmaq olardı, ancaq Verstov hələ də oda baxa-baxa Anna haqqında fikirləşirdi. O, Annanın lap cavan vaxtlarını xatırlayırdı, gözəl "Suxodrev" adlı kənd daxmasını xatırlayırdı. Anna üçün rüsvayçı olan həmin dəqiqə ona tamam başqa bir biçimdə görünürdü. O, Annanın qadın utancaqlığını o qədər dərindən hiss etdi ki, onun bütün gözəlliyini və o gözəlliyin cazibə qüvvəsini duydu və bütün ömrü boyu bu sirrin əsirinə çevrildi.

O, Annanın çoxsaylı oynaclarından birinə çevrilmək təhlükəsindən salamat qurtardı. Annanın ağuşundan çıxandan sonra onların, demək olar ki, hamısı həyatda öz müvazinətini itirib sınırdılar: əgər həmin vaxtlar Anna onun da altına yıxılsaydı, o da öz yolunu azmış olardı. Ona necə zərbə vurduğunu ağlına belə gətirmədən Anna onun məhəbbətini rədd etdi. Ancaq insana məğlubiyyətlər qələbələrdən daha çox lazımdır: balaca vaxtlarında Verstovun oynadığı futbol komandası uduzanda, o qisas almaq üçün hər səhər gimnastika ilə məşğul olurdu. O vaxt həmin qəzanın baş verdiyi dərinliklərdə, Anna çıxıb gedəndən sonra tək qaldığı mənzildə onu mənasızcasına axtarandan, səsləyəndən sonra o özünə qəsd etmək fikrindən güclə xilas ola bildi. Ona elə gəlmişdi ki, Anna onunla zarafat etdiyi üçün mənzildə gizlənib, o fikirləşirdi ki, Anna beləcə, heç nədən çıxıb gedə bilməz, ancaq pəncərəyə yaxınlaşıb, onun yüngül, gödək şubada, başında şapka, küçə boyu getdiyini görəndən sonra onun arxasınca qaça da bilmədi, çünki başa düşdü ki, indi qaçmağın, onu qaytarmağın mənası yoxdur və o, Annanı yalnız başqa vaxt, başqa cür qaytara bilər. Bax, onda, həmin nöqtədən başlayaraq, o öz həyatını qurmaq üçün bütün zəhmətlərə qatlaşmışdı. O öz həyatını ev kimi, kərpic-kərpic hörə-hörə, yüz ölçüb bir biçə-biçə, səhvsiz qurmağa başlamışdı. Əgər o, gecənin hansı zamanında yatmağından

asılı olmayaraq, hər səhər saat yeddidə qalxıb soyuq su ilə çimməsəydi, hətta ən gur alkoqollu gecələrin səhərki başağrısını üstələyib gimnastika ilə məşğul olmasaydı və əgər bircə dəfə bu ağrılardan çəkinib, öz qaydasına xilaf çıxsaydı, onun dostlarının bir-bir yıxıldığı həmin dövrlərdən çətin ki salamat çıxa bilərdi və sonra heç zaman ayağa qalxa bilməzdi. Onun bütün həyatı ardıcıl, düşünülmüş addımların və hərəkətlərin zəncirindən, bir pillədən o birinə yüksəlişdən ibarət idi. Ancaq Annasız onun bir addımı da olmamışdı, əldə etdiyi hər şeyə, qazandığı hər bir nailiyyətə görə o, mahiyyət etibarilə adicə bir qadından başqa heç olmayan, lütfkarcasına ona verilmiş gözəllik hədiyyəsindən də bəhrələnə bilməyən Annaya borclu idi.

Anna çoxdan ona lazım deyildi, illər keçdikcə o əmin oldu ki, onun pərəstiş etdiyi qadın əsl həqiqətdə elə də böyük ağılın sahibi deyil, çox bayağı söhbətlər edir və bütün məntiqi də yalnız gileygüzar və şikayətlər üzərində yekunlaşır. Onun da ailəsi vardı, başqa, ədalı Annadan gözəl və maraqlı qadınlarla oturub-durmağı da vardı. Ancaq buna baxmayaraq, o, Anna ilə hərdən görüşürdü, onu bahalı restoranlara aparırdı, xeyirxah, alicənab dost rolunu oynaya-oynaya onun yarımsərxoş açıqlamalarını və şikayətlərini səbirlə dinləyirdi. Bu yolla o, Annaya öz minnətdarlığın bildirmək istəyirdi, yoxsa ondan imtina etdiyinə görə onu peşman olmağa məcbur etməklə bir vaxt əldən verdiyini indi geri qaytarmaq istəyirdi? Bunlardan ötrü əldən-ələ keçərək otuzu adlamış qadının məhəbbətilə mükafatlanmaq elə də böyük qəhrəmanlıq tələb etmirdi və çoxdan nail ola biləcəyi bu təltif üçün belə uzaq yerlərə gəlib çıxmağa da heç bir ehtiyac yox idi.

– Axı, sənə nə lazımdır, Anna? Nəyə görə sən ağlayırsan, nəyə görə məndən belə qorxursan? – o səssizcə soruşdu və ağrıdan göz bəbəklərinin genişləndiyini hiss etdi. – Mən xoşbəxt adamam, mənim həyatımda arzu edilə bilən hər şey var, – mən xoşbəxtəm, çay, eşidirsən məni? On iki il keçəndən sonra mən gəldim sənə deyəm ki, mən xoşbəxtəm... – Ancaq çay onun söylədiyi yalanın yanından etinasızlıqla axıb gedirdi.

Sübh açılırdı – ağacların arxasından suyun parıltısı görünməyə başlayırdı, tonqal da daha isti vermirdi. Anna ağlamaqdan şişmiş gözlərini çoxdan yumub yatmışdı, indi Annanın ondan ayrılıb getməyə

yeri qalmamışdı. Ancaq əgər əvvəlcə ona elə gəlirdisə ki, onlar burada iki nəfərdirlər və Anna ilə necə davranmağı da özü üçün o müəyyənləşdirir, indi o birdən-birə burada üçüncü qüvvənin mövcudluğunu hiss etdi. Bu qüvvə onları öz axarı boyunca aşağı aparan, dincəlmək üçün vaxtaşırı onları sahilə tullayan və səhərlər öz ağuşuna alıb yenə də aşağı yuvarladan çay idi. Verstovun Anna ilə qəribə oyun oynadığı sayaq da çay onunla oynayırdı. O, çayın ona kömək etmək, yoxsa mane olmaq istədiyini, bəlkə onu Annaya qısqandığını, bəlkə də əksinə, onu Annadan qorumaq istədiyini başa düşməkdə çətinlik çəkirdi. Bəlkə də çayın heç nə ona, nə Annaya, nə də onların kiçik ehtiraslarına dəxli vardı, elə-belə, özü üçün axıb üzüaşağı gedirdi və qarşısına təsadüfən çıxan hər şeyi də vurub özü ilə aparırdı.

Bədbəxtlik dağ zirvəsinə sancılmış bulud parçası kimi onların başının üstündən sallanıb durmuşdu. Bürkü idi, çay uzun-uzadı bu dağın başına dolanırdı. Dağ silsilədə sonuncu idi, bundan sonra düzənlik başlanırdı. Axın daha yuxarılardakı qədər güclü deyildi, astanalar da azalmışdı və dağların arasında yaranan yelçəkənlərdə küləyə qarşı üzə-üzə irəliləmək üçün onlar əməlli-başlı güc sərf eləməli olurdular. Ancaq indi sakitlik idi və nədənsə bu sakitlik Verstovu sevindirmirdi, əksinə, qorxudurdu. Zirvədəki bulud şişə-rək yelinlədi və aşağı enməyə başladı. Kollar, meşəliklərlə örtül-müş sahillərdə çay tez-tez sıldırımların altına sığındığından Verstov daha dayanmağa yer də axtarmırdı.

Arxada göy guruldamağa başladı və çox keçmədi ki, bu gurultu sabit bir uğultu kimi havadan asılı qaldı, sanki onların tərk etdiyi yer-lərin hansısa guşəsində müharibə başlamışdı: onların hər ikisinə elə gəlirdi ki, həmin yerlərdən ayrıldıqları zaman artıq saya-hesaba sığmır. Sonra bu vahiməli gurultular küləyin ilk kəskin həmləsilə əvəz olundu və onların üstündə oturduqları sal təsadüfən dalğalar qoynuna düşmüş tennis şarı kimi axar boyu aşağı getdi. Verstov dəli kimi Annanın üstünə qışqıra-qışqıra bütün gücünü toplayıb, salın irəli yuvarlanmasına müqavimət göstərmək istəyirdi, ancaq Anna heç nə eşitmirdi, ondan da əlavə, qüvvələr nisbəti həddən artıq fərqli idi. Külək dağların arasındakı dəhlizə sanki boruya soxulurmuş kimi soxulur, onları da özü ilə aparırdı. Sal daha, demək olar ki, idarə-olunmaz bir vəziyyətə düşmüşdü və harada dayanmağın fərqinə

varmadan, təki bu dəli axardan bir qədər çıxmaqla sahilə yan almaq haqqında düşünəndə, birdən o çınqıllı adacıq qövsünün üstündəki qayada açılmış tünd deşiyi gördü. Onlar bir az da aşağı keçə bil-dilər, Verstov var qüvvəsilə salın başını əks istiqamətə döndər-məyə başladı. Anna onun nə etmək istədiyini başa düşdü: onlar son dəfə güc qoyub, salı axının ağzından almağa çalışırdılar ki, aşağıda artıq səsi eşidilməyə başlamış növbəti eniş pilləsində darmadağın olmasınlar. Nəhayət, heç cür dayanmaq istəməyən, dəli axarla bəra-bər aşağı yuvarlanmaq ehtirasından keçə bilməyən köntöy, idarə-olunmaz sal, yavaş-yavaş dönməyə başlayaraq, sağ sahilə doğru yönləndi və onlar ən son anda salı çınqıllı qövsün ucuna ilişdirib dayandıra bildilər.

Beş dəqiqə də yubansaydılar, onlar heç nə edə bilməzdilər. Hava qaraldı, ildırımlar lap yaxında çaxmağa başladı və çayın üzə-rinə hücuma keçmiş külək qarşısına çıxan kolları, ağacları suyun üzərinə doğru əyə-əyə, silkələyə-silkələyə sındırmağa başladı. Sonra isə göydən əsl leysan töküldü. Ancaq onlar artıq salı sahilə çıxarıb zağada gizlənmişdilər.

Zağa kifayət qədər geniş bir mağaraymış. Verstov fənərlə işıq salıb, sanki ibtidai insanlara məxsus olan bu qədim, dəhşətli mağa-raya hərtərəfli diqqət yetirdi. Onlar mağaraya girəndən sonra çöldə dünya dağılırdı. Nəhəng ağaclar yerindən qopub dəhşətli şaqqıltı ilə çayın məcrasına yuvarlanırdılar, dağın zirvələrindən daş uçqunları gəlirdi, onlar isə mümkün olan ən təhlükəsiz bir yerdə daldalanmağa imkan tapmışdılar. Verstov yaz daşqınlarının mağaraya gətirdiyi quru kötük və budaqları yığıb tonqal qaladı. Qolunu mağaradan kənara çıxarmaqla qazançanı yağış suyu ilə doldurandan sonra Verstov da tonqalın böyründə əyləşdi və onlar son dərəcə böyük maraqla çöldə baş alıb gedən selə, çayın köpüklənə-köpüklənə qıjıltı ilə aşağı axmasına tamaşa elədilər. Tonqal şən bir əhval-ruhiyyə müjdəçisi kimi çırtıldayaraq yanırdı, tüstü sorulub mağaradan çölə çıxırdı. Verstov fikirləşirdi ki, yəqin bu mağara yaşayış məskəni olub, burada vurub-tutan, qoçaq adamlar yaşayıb və bu mağaranın dərin-liyində qiymətli xəzinə gizlədilib, mümkündür ki, orada qədim və yaxud müasir müharibə dövrlərindən qalma silah-sursat da olsun. Bəlkə də bura hökumətdən qaçan varlı kişilərin, ya da təh-kimçilikdən can qurtarmış kəndlilərin və yaxud da Annanın vedrəyə

ağız toxundurması ilə quyunu murdarlanmış sayan bu adamların ulu babası olmuş, xaçpərəstliyin yeni qanunları ilə barışmayıb, qaçaq həyatı yaşamağı daha üstün tutmuş köhnə din adamlarının məskəni olub.

Qadın soyunub, gödəkcəsini odun istisində qurutmağa başladı. Saçlarını açıb çiyinlərinə tökmüşdü, nəmləşmiş köynəyi altından döşləri aşkar özünü göstərirdi, Verstov daxilində bir oyanış hiss etdi. Ona elə gəldi ki, indicə nəsə baş verəcək : bu həyasız Annanın şəhvətə səsləyən görkəminə baxa-baxa onun üstünə atılmaqdan Verstov özünü güclə saxlayırdı; çünki bu mağarada gücdən başqa heç nəyin hüququ səlahiyyəti yox idi və indi onun Annanın üstünə atılmasına heç kim mane olmurdu.

Anna baxışlarını qaldırıb tonqalın işığında Verstovun üzünə baxdı: özünün saqqalı, pəhləvan cüssəsi və tər iyilə o bu an nağıl qəhrəmanı başkəsən Göysaqqala bənzəyirdi və birdən Annanın ağlına gəldi ki, Verstov bu mağaranı çoxdan tanıyır, bura çox qadınları gətirib, hətta, axtarsan, boğularaq öldürülmüş o qadınların skeletlərini də indi bu mağarada tapmaq olar.

"Sən yuxlayandan sonra mən lazım olan hər şeyi sala yığıb aradan çıxacağam, – Verstov öz-özünə fikirləşirdi. – Çayın səviyyəsi qalxır, yuxarıdan axan şırnaqların hamısı artıq müstəqil çay kimi gurlaşıb, dəli sürətlə aşağı axır, bugünə-sabaha çay mağaranı da basacaq, axar özü ilə yeni kötüklər, ağac budaqları gətirəcək. Sən oyanıb öz tənhalığını, atıldığını görəcəksən. Onda başa düşərsən atılmaq nədir. Əgər unutmusansa, başqalarını atmağını xatırlayarsan, ancaq sənin atılmağın bir kişini başqası ilə əvəz etmək kimi deyil, qapqara suyun ortasında tək-tənha qalmağın əsl atılmaq olduğunu sən onda görərsən. Onda sən qorxub dəhşətə gələcəksən, sonra sənin başına nə gələcəyi məni maraqlandırmır. Ola bilər ki, sən xilas olarsan, ola bilər ki, xilas ola bilməzsən, bunu Allah bilər, qoy sənin yaşayıb-yaşamamağa layiq olduğunu o müəyyənləşdirsin. Ancaq ölsən, bil ki, mən sənin uşaqlarını ömürlük hər şeylə təmin edəcəyəm, qoy bu sənin üçün təsəlli olsun."

İndi o yalnız Annanın yatmağa getməyini gözləyirdi, onun hələ də getmədiyinə və adəti üzrə yatmazdan öncə hönkürüb ağlamadığına təəccüblənirdi. Ancaq Anna sanki adam deyil, oda alışmış böyük pişik kimi oturub tonqalın alovuna baxırdı və onun parıldayan gözlərinin quruluğu aşkarca görünürdü. Sonra, baxışlarını

Verstovun üzündə dayandıranda, Verstov ona özünü qorxunc və dəhşətli göstərmək üçün üzünə mavi saqqal yapışdırmış oğlan uşağı təsiri bağışladı və Annanın ona yazığı gəldi. O yaxınlaşanda, Verstov diksinib onun əlindən çıxmağa çalışdı, ancaq o buraxmadı. O güclü idi. Verstov büzüşüb dayandı və onun karıxmış sifətində nəsə bir yazıqlıq ifadəsi peyda oldu.

Anna onu ağuşuna aldı, o heç nəyi bacarmırdı, həyəcan keçirirdi, özünü itirirdi. Anna hər şeyi çox incə elədi ki, onun üçün rahat olsun. Anna özünü yox, yalnız onu düşünürdü, nəvazişli sözlər pıçıldamaqla onun bütün hissiyyatını oyadırdı. Altdan kürəyini deşən daşın ağrısına da dözərək, Anna çalışırdı ki, o bunu hiss etməsin. Anna üçün bu, seks deyildi, o sadəcə Verstova on iki il gözlədiyi təskinliyi verirdi.

Anna bu səhnəni sanki kənardan müşahidə edirmiş kimi, ağlamaq istəyirdi, ancaq özünü güclə saxlayırdı ki, göz yaşları Verstovu peşman eləməsin. Sonra o, yumşaqlıqla sürüşüb Verstovun altından çıxdı, yataq kisələrini açdı və Verstov yerinə uzanan kimi də yuxuladı. Tonqal yanıb qurtarırdı, Verstov uşaq kimi dünyadan bixəbərliklə yatmışdı, çöldə tufan keçib getmişdi, ancaq yağış hələ yağırdı. Anna suya baxa-baxa siqaret çəkirdi və fikirləşirdi ki, daha bu adam onun üçün təhlükəli deyil, bundan sonra onun üstündən lənət damğası götürüləcək və onun üçün yeni, xoşbəxt həyat başlanacaq.

Anna göz yaşlarını silib, tonqalın sönməsini gözləyəndən sonra yatmağa hazırlaşırdı ki, birdən çöldə mağaranın qabağından nəsə böyük bir qaraltının keçdiyini gördü. Anna qalxıb çıxışa tərəf qaçdı və sağ tərəfə baxdı. O qışqırmaq istədi, ancaq yatmış Verstova baxan kimi fikrindən daşındı. Sonra qətiyyətlə fənəri götürüb, mağaranın dərinliklərinə doğru getdi. Burada heç bir gizli guşə yox idi, boğulub öldürülmüş qadın sümükləri də yox idi. Hər dəfə fənərin işığı keçilməz, su sızdıran mağara divarlarına dirənirdi. O, bir küncə sıxılıb çöməldi, əllərilə üzünü qapadı və xeyli müddət beləcə oturdu. Əllərini üzündən ayıranda isə hiss elədi ki, bu bir neçə dəqiqə ərzində az qala on il qocaldı. Su tam yaxınlaşmışdı.

Bu saqqallı adam hər şeyi ağılla, düz hesablamışdı, düz eləmişdi, lakin bayaq həyəcan və təşviş içində özünü itirərək salı pis bağlamışdı və indi selin mağaradan çıxarıb apardığı həmin sal yəqin ki, bir neçə kilometr aşağıda körpünün altına ilişmişdi. Hər-

çənd ki, artıq körpü də yox idi, sel onu da aşağı kəndlər kimi yuyub aparmışdı və səhər bu yerlərin üstündə axtarışa çıxacaq vertolyotlardakılar adamlarının necə olduğunu başa düşməyəcəklər. Axı, elə bil çayda üzən salın üstündə oturmuş kişi ataman Stenka Razin kimi böyründəki qadını çaya tullamışdı: bəlkə də qadın ona mane olurmuş, bəlkə də olmurmuş, bəlkə də bununla o, qurban verərək, kükrəyən çayı sakitləşdirmək istəmişdi, sonra isə nə etdiyini başa düşəndə, özünü qadının dalınca çaya atmışdı.

Su mağaranı ağzına almışdı və sanki canlı məxluq kimi yavaş-yavaş yuxarı qalxırdı. Anna Verstovu yuxudan oyatmaq istədi, ancaq bunu eləmədi. O, nənələrinə daha çox öyrənişmiş öz uşaqlarını xatırladı və kişinin böyrünə uzanıb, qupquru, işıldayan gözlərini qaranlığa zilləyərək gözləməyə başladı.

KİTABDAKILAR

Nikolay Mixayloviç Karamzin
Zavallı Liza (*tərc. Ə.Ağayev*) 5

Nikolay Vasilyeviç Qoqol
Şinel (*tərc. M.Rzaquluzadə*) 24

İvan Sergeyeviç Turgenev
Mumu (*tərc. A.Əfəndiyev*) 54

Fyodor Mixayloviç Dostoyevski
Gülməli adamın yuxusu (*tərc. İ.Cəfərova*) 81
Karamazov qardaşları (*tərc. T. Vəlixanlı*) 98

Lev Nikolayeviç Tolstoy
Qafqaz əsiri (*tərc. A.Rzayev*) 113

Anton Pavloviç Çexov
6 №-li palata (*tərc. İ.Nəfisi*) 136

Aleksey Maksimoviç Qorki
Makar Çudra (*tərc. M.Arif*) 190

Aleksandr İvanoviç Kuprin
Zümrüd (*tərc. İ.Yaqubov*) 203

İvan Alekseyeviç Bunin
Qaranlıq xiyabanlar (*tərc. H.Şərif*) 219
Gün vurmuşdu (*tərc. H.Şərif*) 224

Leonid Nikolayeviç Andreyev
Ben-tovit (*tərc. R.Ramizoğlu*) 232
Yarımçıq hekayə (*tərc. R.Ramizoğlu*) 236

Mixail Afanasyeviç Bulqakov
Master və Marqarita (*tərc. S.Budaqlı*) 241

İsaak Emmanuiloviç Babel
İlya İzakoviç ilə Marqarita Prokofyevna (*tərc. O.Hacımusalı*) 264

Mixail Mixayloviç Zoşşenko
"Mavi kitab"dan (*tərc. Anar*) 268

Vladimir Vladimiroviç Nabokov
Çorbun qayıtması (*tərc. S.Qaraçöp*) 274

Andrey Platonoviç Platonov
Üçüncü oğul (*tərc. R.Ramizoğlu*) 282
Dəmir qarı (*tərc. R.Ramizoğlu*) 287

Mixail Aleksandroviç Şoloxov
İnsanın taleyi (*tərc. B.Musayev*) 294

Viktor Petroviç Astafyev
Əsgər və ana (*tərc. Ə.Babayeva*) 327

Yuri Pavloviç Kazakov
Palıd meşələrində payız (*tərc. S.Alışarlı*) 341

Vasili Makaroviç Şukşin
Bir evin sakinləri (*tərc. Ə.Əylisli*) 356

Tatyana Nikitiçna Tolstaya
Kvadrat (*tərc. S.Alışarlı*) 366

Vladimir Georgiyeviç Sorokin
Snayperin səhəri (*tərc. A.Yaşar*) 375

Aleksey Nikolayeviç Varlamov
Axıntı (*tərc. S.Alışarlı*) 385

Buraxılışa məsul:	*Umud Rəhimoğlu*
Texniki redaktor:	*Mübariz Piri*
Kompyuter səhifələyicisi:	*Allahverdi Kərimov*
Kompyuter operatoru:	*Maral Rəisqızı*
Korrektor:	*Tofiq Qaraqaya*

Yığılmağa verilmişdir 06.05.2007. Çapa imzalanmışdır 09.11.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 25,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 222.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

Ш6(2)
Я88